AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 4

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli, fil.ü.f.d. Elxan Yusifov

Buraxılışa məsul: filologiya üzrə elmlər doktoru Paşa Kərimov
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, №4.

ISSN 2224-9257

© "Elm və təhsil" nəşriyyatı, 2013

www.filologiyameseleleri.com

DİLÇİLİK

FATİMƏ VƏLİYEVA
BSU

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ORNİTONİM KOMPONENTLİ FRAZEOLOJİ VAHİDLƏRİN ANTROPOSENTRİK ƏSASLI LEKSİK – SEMANTİK TƏSNİFATLANDIRMASI

Açar sözlər: frazeoloji vahid, antroposentik mücərrədləşmə, ornitonim, semantik təhlil, oxşarlıq.
Key words: phraseological unit, anthropocentric abstraction, ornithonym, the semantic analysis, similarity.
Ключевые слова: фразеологическая единица, антропоцентрической абстракции, орнитоним, семантический анализ , сходства.

Azərbaycan və ingilis dillərinin frazeoloji sistemində yer alan ornitonimli komponentli frazeologizmlərin leksik – semantik təhlilinə tətbiq edəcəyimiz digər qruplaşdırma antroposentrik ölçü meyarlarına istinad edir. Yəni, biz, bu təsnifatda əsas kimi, ornitonimli frazeologizmlərdə həmin aparıcı komponentin davranış və ya əlamətlərinin insanın hansı davranış və əlamətlərinə köçürülməsindən çıxış edəcəyik. Araşdırma, daha kinkret desək, təsnifatlandırma zamanı ornimetaforik keçidi reallaşdıran implikasiaya zəngirinin əks istiqamətindəki məna spektrlərinin müəyyən əsas konseptlər tərkibində qruplaşdırmasını təklif edəcəyik. Xatırladaq ki, müasir leksik – semantik xarakterli araşdırmaların qıəlibləşmiş terminoloji vahidlərindən sayılan konsept "koqnitiv səviyyə vahidi olmaqla, özündə hər hansı bir anlayış və məna təbiətinə dair olan hər bir şeyi ehtiva edir" [9]. Məsələn, "xeyir" konsepti və ona daxil olan anlayışlar, eləcə də "şər" konsepti və ona daxil olan anlayışlar və s.

Antroposentrik təhlil meyarının təhlilinə qayıdaraq onu qeyd edək ki, bu cür yanaşma konsepsiyasının tarixi antik fəlsəfənin təşəkkül dövrlərinə gedib çıxsa da, onun (antroposentrizmin) leksik – semantik təhlil meyarı kimi dilçilik araşdırmalarına aktiv şəkildə cəlb edilməsi dönəmi kimi, bir çox tədqiqatçılar məhz, son zamanları, konkret olaraq, XX – XXI əsrləri qeyd edirlər (daha ətraflı: [8]). Lakin obyektivlik naminə onu da qeyd etməliyik ki, antroposentrizmin fəlsəfi konsepsiya kimi mahiyyətini açıqlayan N.M.Smirnova bu yanaşmanın (antroposentrizmin) klassik formulu hələ Protoqorun "***insan bütün əşyaların ölçü vahididir***" – kəlamında öz ifadəsini tapdığını qeyd edir. Filosof alim yazır: "***antroposentrizm*** idrak, qavrama göstərişi (познавательная установка) olan və təbiət və cəmiyyət haqqında istənilən biliklərdə, habelə qavrayışın, idrakın özündə insanın ölçü meyarı kimi olduğunu önə sürən ***antropomorfizmin ən kəskin, qütbləşən forması*** kimi təzahür tapır (kursiv bizimdir. – F.V.)" [12]. Öz növbəsində, antropomorfizm isə (yuan dilində "insan" və "foma", "növ" sözlərinin birləşməsindən törəmişdir) " cansız təbiətin əşya və hadisələrinin və eləcə də heyvan və göy cisimlərinin, mifik varlıqların insana aid psixi xüsusiyyətlərlə "təhciz edilməsi", onların (yəni, sadalanan canlı – cansız

varlıqların – F.V.) insana uyğunlaşdırılması nəzərdə tutulur" [6]. Yəni, insan öz təbiətinə aid olan xüsusiyyətləri eynilə ətraf aləmə köçürür, ətraf aləmdəki canlı və cansız varlıqlar onun kimi (insanın özü kimi) qəzəb və sevinc hissləri yaşayır, sevir və sevilir və eləcə də yalnız ali şüur daşıyıcısı olan insana xas olan digər əlamət və xüsusiyyətlərə "malik olur". Digər tərəfdən antroposentrik yanaşma heyvanların, o cümlədən quşların aparıcı özəlliklərinin insanın üzərinə "köçürülməsini" də mümkün edir.

Frazeoloji vahidlərin meydana gəlməsində təcəssüm abstraksiyasının mühüm rol oynadığını vurğulayan A.V.Kunin onun (təcəssüm abstraksiyasının – F.V.) yalnız, çıxış nöqtəsi, istinad məqamı olan obyektlərin fərqlənən cəhətlərindən kənarlaşmaqla (yəni, mücərrəd təcəssümün yaradılması anaında fərqli aspektləri bir o qədər də nəzərə almadan – F.V.) meydana gəldiyini" qeyd edir. Və əlavə edir ki, bu zaman əsas diqqət həmin obyektlərin ortaq cəhətlərinə verilir. Lakin bu heç də o demək deyil ki, həmin obyektlər tamamilə eyniyyət təşkil edirlər. Təcəssüm abstraksiyası üçün müqayisə edilən obyektlərin qismən eyniliyi tamamilə yetərlidir [11;135] Məhz, frazeoloji antropomorfizm də bu xarakterli mücərrədləşməni meydana gətirmiş olur. Yəni, müqayisə edilən tərəflər, yəni bir tərəfdən insan digər tərəfdən isə quşların eyniyyəti kimi absurdluq iddiası ortaya atılmır. Halbuki, daha əvvəl də qeyd etdiyimiz kimi, primitiv insanların ilkin metaforik məna keçidlərinin mənbəyini, məhz, həmin aşağı inkişaf səviyyəli təfəkkürə malik insanın özünü təbiətlə, o cümlədən onun ayrı – ayrı təzahür formaları olan heyvanlar, quşlar və s. obyektlərlə eyniləşdirməsindən törəmişdir.

Bizim hal – hazırda haqqında danışdığımız antrosentrik məna köçürməli ornitonimli frazeoloji vahidlərdə eyniyyən müəyyən faktora istinad edir. Məhz, həmin faktor, əlamət, xarakteristika və s. insanın görünüş, davranış və s. xüsusiyyətləri ilə paralellik əsasında mücərrəd təcəssümlük (yəni, təcəssüm abstraksiyası) yaratmış olur. Məsələn, xoruzun pipiyinin al qırmızı rəngi insanın əsəb anında, gərginlik məqamında və ya alkoqollu içki qəbulu zamanı əldə etdiyi rənglə eyniyyət təşkil etməsi müvafiq xarakterili frazeologizmin meydana gəlməsinə əsas verir. Digər tərəfdən köçəri quşların həyat tərzinin müəyyən bir əraziyə bağlılıq əsasında qurulmaması adekvat məna köçürülməsinə, daha dəqiq desək, təcəssüm abtraksiyasına yolaçmışdır. (***köçəri quş – a bird of passage***).

Onu da qeyd edək ki, ornitonimli frazeoloji vahidlərin antroposenrizm əsaslı məna köçürmələrinin leksik – semantik dəyərləndirməsinin ortaya qoyduğu təsnifata diqqət yetirdikdə, burada bilavasitə insanın üzərinə deyil, onun fəaliyyəti üzərinə də məna keçidlərini müşahidə etmiş olacağıq. Yəni, biz, bu təsnifatda aşkar antroposentrizmlə yanaşı (***qaşqaldağa oxşamaq, toyuq kimi qırmızı olmaq, (as) red as a turkeycock; to eat like a bird – quş kimi (az) yemək, It is an ill bird that fouls its own nest ; hərfən: "Öz yuvasını batıran pis quşdur"***), bilavasitə, yəni dolayısı ilə antropomorfizm keçidlərini də müşahidə edə bilərik. Yəni, burada insanın bilavasitə özü deyil, onu onun hərəkəti və ya hərəkətinin yönəldildiyi digər obyektlərin quşlarla müvəqqəti təcəssüm abtraksiyası ortaya qoyulur. Məsələn: ***A bird in the hand is worth two in the bush; "Soğan olsun, nəqd olsun" ; To count one's chickens before they are hatched "Cücəni payızda sayarlar"*** və s. Başqa sözlə desək, sonunculara antroposentrizm daha implicit şəkildə ifadə tapmış olur. Burada insanın özü

ilə deyil, onun fəaliyyət sahələri ilə, və ya həmin fəaliyyət sahələrinin konkret yekunu kimi ortaya çıxan digər obyektlərlə mücərrəd eyniyyət paralelləri aparılır.

İngilis, tatar və rus dillərinin frazeoloji sisteminin təklif etdiyi geniş materiallara istinadən "Frazeologiyada insan : antroposentrik və aksioloji aspektlər" probleminin ətraflı şəkildə araşdırmış olan Baqautdinova Q.A. aksioloji frazeoloji diadalar (yəni, ikili qarşılaşdırmalar – F.V.) olan "həyat – ölüm", "sağlamlıq – xəstəlik", "varlılıq - kasıblıq" və s. məna qarşılaşdırmalarında antroposentrik yanaşmanın xüsusilə qabarıq şəkildə ifadə tapdığını qeyd etmişdir. [8].

İngilis və Azərbaycan dillərinin frazeoloji sistemində yer alan ornitonim komponentli vahidlərin leksik – semantik təhlili burada aşağıdakı məna konseptləri və çalarlıqlarıçərçivəsində məna köçürülmələrinin müşahidə edildiyini ortaya qoyur.

I.**İnsanın fiziki göstəricilərinin səciyyələndirməsinə istiqamətlənən (xarıcı görünüşünün səciyyələndirməsi, yaş – cins fərqləndirməsi istiqamətli) metaforikləşmə əsaslı OFV-lər**: As naked as a jaybird "Zığ – zığ quşu kimi lüt"? qaşqalqağa oxşamaq, A black hen lays a white egg "Qara toyuq ağ yumurta qoyur"; Fine feathers make fine birds;"Yaxşı lələk quşu gözəlləşdirir (Yaxşı lələk yaxşı quş eləyir)" Yəni, "Gözəllil ondur doqquzu dondur"; Builki sərçə bildirkinə cük – cük öyrədir, a hen party danışıq dilində zarafatla, iriniya ilə qız bazarı, arvad bazarı və ya qadın kompaniyası, qadın – qız qonaqlığı; (as) red as a turkeycock "Hind toyuğu kimi qırmızı".

II.**İnsanın daxili aləmi və psixoloji - əqli durumu ilə bağlı mənaların ifadəsinə istioqamətlənmiş OFV-lər**: azad adam – free as a bird" ; (as) innocent as a dove, ala qarğa bala çıxarmaz – someone has a long tongue "dili uzun adam, hər şeyə qarışan adam haqqında"; ala qarğa balasına aşiq olub to be head over ears in love with someone "bir kəsə (və ya nəyə) isə ifrat dərəcədə aşiq olan adam haqqında" ; ikisi də bir yuvanın quşudur, birds of a feather; birds of a feather fly (flock) together "Kor koru tapar, su çuxuru" Kəklik qaqqıldamasa, qaranquş onu tapmaz. – One's language is his (her) enemy. "Hər kəs öz ayağından (dilindən) asılar"(dili acı adam haqqında); köçəri quş – a bird of passage "tez - tez yerini – yurdunu dəyişməyə meylli olan adam haqqında"; qanadsız quş kimi olmaq "çarəsiz vəziyyətə düşmək", quş kimi olmaq "özünü yüngül, sağlam hiss etmək", Qaranquş gəldi-gedərdir, sən sərçənin qədrini bil. – A bird in the hand is worth two in the bush. (Olanınla qane olmağın faydası ilə bağlı ibrətamiz ifadə); Quş nəğməsi ilə tanınar; Quş dimdiyi ilə, insan biliyi ilə tanınar. – A bird may be known by its song (hərfi tərcümə: Hər quş nəğməsi ilə tanınar); quşbeyin (başıboş) birdbrain"; It is an ill bird that fouls its own nest ; hərfən: "Öz yuvasını batıran pis quşdur"; An old bird is no to be caught with chaff. "Keçəl suya getməz" ("təcrübəli adam haqqında"), A raven never be an eagle. "Qarğadan qırğı olmaz"; a plucked pigeon "aldadılmış maymaq";

III.İnsanın davranış və həyat tərzinin səciyyələndirməsinə istiqamətlənmiş OFV-lər: ağzı ilə quş tutmaq / gözü ilə quş tutmaq – someone will cut off the soles of your shoes from under you; Better an egg today, than a hen tomorrow ; Alıcı quş dimdiyindən bilinər. – You can tell a (the) bird by its flight. / A bird may be known by its song.; Live like a fighting cock – hərfi tərcüməsi: "Döyüş xoruzu kimi yaşamaq", yəni, "yağ içində böyrək kimi yaşamaq", qarğa məndə qoz var "özünü şübhəli aparmaq"; alaca qarğaya da borcludur – to be deeply in debt / to be up to the armpits in debt "hamıya borclu almaq, borcu çox olmaq" ; iki quşu bir güllə ilə

vurmaq – to kill two birds with one stone "eyni zamanda iki işin öhdəsindən uğurla gəlmək"; ilan ağzından qaçıb qurtaran quş kimi to break away from the death "ölümdən qurtulmaq"; like a sitting duck "oturmuş ördək kimi" – "Çəpər sərçəsi başını kola soxub elə bilir heç kim onu görmür" Qaraquş milçək tutmaz. – An eagle doesn't catch flies. (ingilis variantının hərfi tərcüməsi: "qartal milçək tutmaz"),və ya Neither lion presses mice, nor eagle catches flies. "Nə şir siçan ovlayır, nə də qartal milçək tutur", yəni, "bir insanın özünə yaraşmayan (nəlayiq) işi görməsi haqqında"; quş olub göyə uçmaq – someone seems to have fallen through the earth ; to get one's ducks in a row, yəni, "işləri səhmana salmaq"; "Evdə xoruzdur, çöldə fərə"; quşu gözündən vurmaq "bir işin tam şəkildə öhdəsindən gəlmək"; quşu göydə tutmaq "eyhamı, işarəni ani olaraq başa düşmək, və ya vəziyyəti anındaca anlamaq"; A bird in the hand is worth two in the bush."Nağdı qoyub, nisyəyə qaçma"; Lələ (yəni, quş – F.V.) uçdu, yurdu qaldı; The bird has flown. "Əsər - əlamət qoymamaq"; A cock is valiant on his own dunghill "Hər quş öz yuvasında ağadır" ; A little bird told me. / A little bird whispered to me. / Beards are wagging (Cəmiyyətdə ayrı - ayrı insanlar tərəfindən yayılan şayiələrin mənbəyinin gizli saxlanması zamanı istifadə edilən ifadə); Every bird likes its own nest "Hər quşa öz yuvası xoşdur"; If (but) one claw is caught the whole bird is lost. / A single claw ensnared, and the bird is lost. Barmağın qatrana batıbsa, onda batdın; To count one's chickens before they are hatched "Cücəni payızda sayarlar"; to eat like a bird – quş kimi (az) yemək; Danışıq dilində: Toyuq kimi dimdikləmək (insana aid) ; The early bird gets the worm (tez gələn quş qurdu yeyir) ; to cock one's nose "ədəbazlıq eləmək", "özünü dartmaq" ; chicken out – (cücə kimi qaçmaq) = qorxudan sarısını udmaq (bir işi görmək üçün çox qorxmaq, çəkinmək); to tell cock-and-bull stories, hərfən "Xoruz və buğanın əhvalatlarını danışmaq", yəni, "mənasız söhbət eləmək" ; shoot at a pigeon and kill a crow, hərfən: "göyərçinə güllə atıb, qarğanı öldürmək", yəni, "əsl məramını gizlətmək, maskalamaq".

Ədəbiyyat

1. Hacıyeva A.K.İngiliscə-Azərbaycanca zoometaforizmlər lüğəti, Bakı, Nurlan, 2004. http://www.translit.az

2. Hacıyeva A.K.Zoometaforizmlər (İngilis və Azərbaycan dillərinin materialları əsasında), Bakı, Nurlan, 2006, 151 s.

3. Məmmədzadə K. İngiliscə - Azərbaycanca – Rusca Frazeoloji lüğət, Bakı: Qafqaz Universiteti Nəşri, 2008, 163 səh.

4. Vəliyeva N. Azərbaycanca – ingiliscə - rusca frazeoloji lüğət, Bakı: Nurlan, 2006, I hissə. http://yazikilitra.narod.ru/nik.htm

5. Vəliyeva N. Azərbaycanca – ingiliscə - rusca frazeoloji lüğət, Bakı: Nurlan, 2006, II hissə. http://yazikilitra.narod.ru/nik2.htm

6. Антропоморфизм // Философский энциклопедический словарь. — М.: Советская энциклопедия. Гл. редакция: Л. Ф. Ильичёв, П. Н. Федосеев, С. М. Ковалёв, В. Г. Панов. 1983 http://dic.academic.ru

7. Антропоцентризм // Философский энциклопедический словарь. — М.: Советская энциклопедия. Гл. редакция: Л. Ф. Ильичёв, П. Н. Федосеев, С. М. Ковалёв, В. Г. Панов. 1983 http://dic.academic.ru

8. Багаутдинова Г. А. Человек во фразеологии : антропоцентрический и аксиологический аспекты, диссертация на соиск. …доктора филол. наук, Казань, 2007, 333 стр.

9. Вардзелашвили Ж. Концепт как лингвистическая категория – «конструктивная сущность» // Тбилисский государственный университет. Филологический факультет. Сборник научных трудов. Тб., 2004, с.39-45) http://vjanetta.narod.ru/gotsiridze.html

10. Кунин А.В. Англо – русский фразеологический словарь, М.: Русский язык., 1984, 944 с.

11. Кунин А.В. Курс фразеологии современного английского языка, М.: Высшая школа, 1986, 336 с.

12. Смирнова Н.М. Антропоцентризм //Новая философская энциклопедия http://iph.ras.ru/elib/0215.html

Fatima Veliyeva

Lexico - Semantic Classification Phraseological Units with the Ornithocomponents in the English and Azerbaijani Languages (on the basis anthropocentric abstraction)

Summary

In this article on the basis of identifying anthropocentric abstraction the lexico - the semantic analysis of phraseological units of English and Azerbaijani languages is given. On the basis of the multisector analysis the author comes to conclusion that the given types of the phraseological units can be divided into three groups: 1) the phraseological units abstracting on the basis of similarity to appearance of the person, 2) on the basis of prospective similarity its intelligence, inner world and character of the person, 3) on the basis of prospective similarity with vital way, a manner of behaviour of the person.

Фатима Велиева

Лексико – семантическая классификация (на основе антопоцетрической абстракции) фразеологических единиц с орнитокомпонентом английского и азербайджанского языков

Резюме

В статье дается лексико – семантический анализ фразеологических единиц английского и азербайджанского языков на основание антропоцентрической абстракции отождествления. Автор на основании многосекторного анализа приходит к выводу о том, что данного рода фразеологизмы можно разделить на три группы: 1) фразеологизмы, абстрагирующиеся на основании сходства с внешностью человека, 2) на основании предполагаемого сходства его интеллектом, внутренним миром и характером человека, 3) на основе предполагаемого сходства с жизненном укладом, манерой поведения человека.

Rəyçi: Məhəbbət Əsədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİNC SADIQOVA
filologiya üzrə fəlsəfə doktoru
i-mail: sevincsadigova@gmail.com.

QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNDƏKİ ORONİMLƏRİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: oronim, sintaktik xüsusiyyətlər, hidronim, zoonim, oykonim.
Ключевые слова: ороним, синтактические особенности, гидроним, зооним, ойконим.
Key word: oronym, sintaktic features, hidronym, zoonym, oykonym.

XIX əsrdə bütün Qafqazı qarış-qarış gəzən alman səyyahı və tarixçisi İ.Şopen Qərbi Azərbaycanın Dərələyəz mahalının füsunkar təbiətinə valeh olaraq demişdi ki, "Dərələyəz Qafqazın İsveçrəsidir" (1.350).

Bu səbəbdəndir ki, bütün tarix boyu Dərələyəz xarici istilaçıların, həmçinin, nankor ermənilərin diqqətini cəlb etmişdir. Əlverişli coğrafi mövqedə yerləşməsi ilə əlaqədar olaraq, Dərələyəz mahalı ermənilər tərəfindən daha çox hücumlara, basqınlara məruz qalan bölgələrdən biri olmuşdur. Bu hücumlar və basqınlar zamanı azərbaycanlıların yaşadıqları ərazilər ələ keçirilməklə yanaşı, buradakı Azərbaycan-türk mənşəli adlar da süni surətdə dəyişdirilərək, erməni mənşəli qondarma adlarla əvəz edilmişdir. Bu baxımdan, bu ərazilərdəki ilkin adların öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qərbi Azərbaycanın Dərələyəz mahalı ərazisində qeydə alınmış oronimlər həm leksik-semantik, həm də qrammatik xüsusiyyətlərinə görə çox maraqlı və rəngarəngdir. Bu məqalədə biz onlardan yalnız bir qisminin, hidronimlərdən, oronimlərdən, zoonimlərdən, fitonimlərdən, apelyativ leksik vahidlərdən və oykonimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətlərini tədqiqata cəlb edəcəyik. Qeyd etməliyik ki, Dərələyəz mahalı ərazisində qeydə alınmış etnonimlər və antroponimlərlə bağlı məqalələrimiz çap olunmuşdur (3.53-59; 4.10-14).

Hidronimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətləri: Dərələyəz mahalı ərazisində qeydə aldığımız hidrooronimləri sintaktik xüsusiyyətlərinə görə aşağıdakı qruplara ayırmaq olar:

1. hidronimlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Sulu dərə (Almalı), Çay qovuşan dərə (Gülüdüzü), Göl yurd (Heşin), Navlı dərə (Horbadığ), Sutökülən yer (Qoduxvəng), Çay arxac (Qoduxvəng), Sutökülən meşə (Qoduxvəng), Sulu dərə (Terp, Zeytə), Çayyuxarı biçənək (Axta), Arx qırağı dərə (Nəbilər)*;

2. hidronimlərdən törənərək **II növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Qaragöllər yaylağı (Ağkənd), Sutökülən kövşəni (Ağkənd), Qaragöllər kövşəni (Ağkənd), Göllər kövşəni (Axta), Çay yuxarı kövşəni (Axta), Nav yeri (Arınc), Gəz bulaqlar kövşəni (Ayısəsi), Göl yeri yaylağı (Ayısəsi), Bulaqlar yaylağı (Ayısəsi), Qırxbulaq yurdu (Canı), Arxaltı yeri (Canı), Qara şırran meşəsi (Cul), Göl yolu (Ələyəz), Arpaçay dərəsi (Gabut), Qanlıgöl yurdu (Gabut), Seyid gölü kövşəni (Gomur), Orta göl yeri (Gomur), Aşağı göl yeri (Gomur), Göl yerləri (Gülüdüzü), Yeddi bulaq yurdu (Gülüstan), Bolbulaq yaylağı (Herher), Qırxbulaq*

yaylağı (Herher), Soyuq bulaq arxacı (Heşin), Şirinbulaq arxacı (Heşin), Çay yeri (Heşin), Göl yeri (Horbadığ), Göl biçənəyi (Horbadığ), Naziksu dərəsi (Hors), Qaragöllər kövşəni (Hors), Ağbulaq biçənəyi (Hors), Qaragöllər biçənəyi (Hors), Şahbulağı yaylağı (İstisu), Soyuq bulaq yurdu (İstisu), Şora bulaq meşəsi (İstisu), Şora bulaq qayası (İstisu), Ayı bulaq qayası (İstisu), İstisu qayası (İstisu), Göllər biçənəyi (İstisu), Bulaqlar biçənəyi (İstisu), Şırran kahası (İstisu), Şahbulaq kövşəni (İstisu), Qoşa göl meşəsi (Köçbək), Ağ göl meşəsi (Köçbək), Kilsə çayı dərəsi (Köçbək), Qırxbulaq yaylası (Qabaxlı), Qırxbulaq dağı (Qabaxlı), Soyuqbulaq yurdu (Qoduxvəng), Yoğun su dərəsi (Qovuşuq), Qıjılı bulaq yeri (Qovuşuq), Canı çayı qayası (Qovuşuq), Ağ şırran dağı (Qozulca), Qara göllər yaylağı (Qozulca), Üçbulaqlar yeri (Zeytə), Alagöllər yeri (Zeytə);

3. hidronimlərdən törənərək **III növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Korbulağın yolu (Axta), Göllərin biçənəyi (Axta), Gölün kahası (Ardaraz), Arpa çayının qırağı (kövşən) (Çivə), Novların dərəsi (Gomur), Yoğunsuyun kahası (Gülüdüzü), Yoğunsuyun dərəsi (Gülüdüzü), Gölün meşəsi (Horbadığ), Arpaçayın dərəsi (İstisu), Ağsuyun meşəsi (İstisu), Çınqıllı bulağın yurdu (Qabaxlı), Arxın dalı (Qoduxvəng), Süddü bulağın başı (Qoduxvəng), İstisuyun güneyi (Qoduxvəng), Gölün çalası (Qoduxvəng), Süddü bulağın dərəsi (Qoduxvəng), İstisuyun dərəsi (Qoduxvəng), Yoğunsuyun dərəsi (Qoduxvəng), İstisuyun yarğanı (Qoduxvəng), Südlü bulağın kahası (Qoduxvəng), Arxın kahası (Nəbilər).*

Oronimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətləri: Relyef quruluşuna görə yaranan oronimlər əmələ gəlmə yollarına görə də müxtəlifliyi ilə seçilir:

1. oronimlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Aşağı keçid (Ağkənd), Orta keçid (Ağkənd), Orta güney (Axta), Qayaarası yurd (Axta), Yuxarı dərə (Amağu), Aşağı dərə (Amağu), Təpəarası yer (Amağu), Çala yurd (Canı), Qayaarası dağ (Cul), Dal ağ yarğan (Çivə), Qayaarası sahə (Gabut), Yal yurd (Gomur, Qozulca), Dağ kaha (Gülüdüzü), Kahanın yanı qaya (Nəbilər), Kaha başı biçənək (Nəbilər);*

2. oronimlərdən törənərək **II növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Gendərə meşəsi (Ağkənd), Ağdərə meşəsi (Ağkənd), Ağdərə yolu (Ağkənd), Gədik çınqılı (Ağkənd), Göyçala çınqılı (Ağkənd), Yuxarı keçid kövşəni (Ağkənd), Ağdərə kövşəni (Ağkənd), Gendərə kövşəni (Ağkənd), Quzey oyuq kövşəni (Ağkənd), Qara qayalar örüşü (Ağkənd), Dərə yurdu (Axta), Ağ yarğan yurdu (Axta), Qara quzey yurdu (Almalı), Qara qaya torpağı (Ardaraz), Qayalı suyu (Arınc) – yer adı, Ağ yarğan yeri (Arınc), Kotan daşı yeri (Arınc), Qırmızı güney yeri (Arınc), Çuxur düzənliyi (Canı), Ağ yarğan dağı (Cul), Daşlı burun dağı (Cul), Boş yastana yurdu (Cul), Güney yurdu (Cul), Daşdı güney biçənəyi (Çaykənd), Göygab kahası (Çaykənd), Sıra qaya yurdu (Çaykənd), Göy kab çınqılı (Çivə) – qaya keçidi, Qoşa təpə dağı (Ələyəz), Dərə başı çəmənliyi (Gabut), Yazı yurdu (Gomur), Dərə yerləri (Gülüdüzü), Yalyurd yaylağı (Gülüdüzü), Ağ yarğan yurdu (Gülüdüzü), Dərəyurd yaylağı (Herher), Ballı qaya kahası (Heşin), Göy qaya kahası (Heşin), Qara qaya kahası (Heşin), Göy qaya arxacı (Heşin), Şiş qaya arxacı (Heşin), Qaraqaya keçidi (Heşin), Qarlı dərə keçidi (Heşin), Düzdər biçənəyi (Horbadığ), Dikdaş dağı (Hors), Göyqaya yaylağı (Hors), Dərəyurd yaylağı (İstisu), Qoşa arxaclar dağı (Qaraqaya), Ağ yarğan dağı (Qaraqaya), Dərə yeri (Qoduxvəng), Çala yurd dərəsi (Qoduxvəng), Yalyurd dağı (Qozulca), Baş kaha dağı*

(Qozulca), Tarlı dərə dağı (Qozulca), Pələngdərəsi dağı (Qozulca), Kaha dərəsi (Qozulca), Dərə yurd çınqılı (Məmərza), Dərəyurd biçənəyi (Məmərza), Qaya başı biçənəyi (Məmərza), Sarı kaha qayası (Terp), Ağ yarğan dağı (Terp), Milli çuxuru biçənəyi (Terp), Düzdağ qayası (Zeytə), Yoxuşbaşı yalı (Zeytə);

3. oronimlərdən törənərək **III növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Gəzin dərəsi (Ayısəsi), Gəzin qayası (Ayısəsi), Qozulca dağının yalı (Çivə), Qayanın dibi (Çivə), Baş dağın döşü (Çivə), Baş dağın çölü (Çivə), Çınqılın arası (Ələyəz), Tüngün dərəsi (Ələyəz), Yarğanın dərəsi (Gomur), Düzlərin biçənəyi (Gomur), Kahanın başı (Gülüdüzü), Kiçik isti qayanın kahası (Gülüdüzü), Laçın qayanın çınqılı (Gülüdüzü), Çayqovuşanın çınqılı (Gülüdüzü), Şiş qayanın yolu (Heşin), Göyqayanın bərəsi (Heşin), Şişqayanın bərəsi (Heşin), Qırmızı qayanın bərəsi (Heşin), Qızıl qayanın boynu (Qoduxvəng), Daşdı yalın döşü (Qoduxvəng), Çınqılın başı (Qoduxvəng), Bərk dərənin başı (Qoduxvəng), Dik daşın dərəsi (Qoduxvəng), Qara daşın dərəsi (Qoduxvəng), Qızıl qayanın dərəsi (Qoduxvəng), Bərk dərənin yarğanı (Qoduxvəng), Daşdı yalın təpəsi (Qoduxvəng), Düzdağın araları (Zeytə), Gizləyən qayanın yanları (Zeytə), Ağ dağın dal yeri (Zeytə), Ağ təpənin dalları (Zeytə), Şiş qayanın yerləri (Zeytə)(2.574).*

Zoonimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətləri: Bu qrupa daxil olan oronimləri yaranma yollarına görə aşağıdakı kimi qruplaşdıra bilərik:

1. zoonimlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan zoooronimlər: *Qurdlu güney (Axta), Siçanlı yurd (Ardaraz), Böcəkli yurd (Gülüdüzü), Bildirçinli yer (Gülüdüzü), Siçanlı yer (Heşin), Gənəli yurd (Heşin), Birəli dağ (Heşin), Kəklikli dərə (Heşin), Mozalanlı arxac (Heşin), Siçanlı dağ (Hors), İlanlı dağ (Hors), İlanlı kövşən (Hors), Ayılı meşə (Qovuşuq), Dəvə uçan yer (Qovuşuq), Porsuğ təpə (Terp), Ayılı dərə (Terp);*

2. zoonimlərdən törənərək **II növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Tülkü dərəsi (Axta), İt yolu (Axta), Tülkü dəmələri (Ağkənd), Siçanlı yurdu (Almalı), Siçanlı dağları (Almalı), Qaraquş zağası (Ardaraz), Dəvə boynu (Ayısəsi), Quzu kahası (Çaykənd), Camış kahası (Çaykənd), Keçi qayası (Çaykənd), Tülkü dölləyi (Çivə), At ağılı (Çivə), Keçi kahası (Gülüdüzü), Göyərçin kahası (Gülüdüzü), Göyərçin qayası (Gülüdüzü), Maral dərəsi (Gülüstan), Qalınquzu meşəsi (Herher), Qurd dəliyi (Herher), Siçanlı burnu (Heşin), Qarğa düzü (Heşin), Maral buynuzu meşəsi (Heşin), Ayı dərəsi meşəsi (Heşin), Quşxana dərəsi (Hors), İlan yığnağı (Hors), Dəvəgözü yaylağı (İstisu), Ayı çınqılı (İstisu), Göyərçin qayası (İstisu), Qaz kahası qayası (İstisu), Dəvə boynu sahəsi (Kotanlı), Tülkü tələsi (Köçbək), Mal təpəsi (Köçbək), Keçi qayası (Qaraqaya), Keçi kahası (Qaraqaya), At qıçı kövşəni (Qoduxvəng), Qüçüy dəməyi (Qoduxvəng), Qoyun gözülü (Qovuşuq), Siçanlı yaylağı (Qozulca), Quşxana yeri (Sallı), Eşşək güneyi (Sallı), Qurd təpəsi (Sallı), İlan ocağı (Terp), Eşşək meydanı (Zeytə), Porsux yuvası (Zeytə), Qaraquş qayası (Zeytə);*

3. zoonimlərdən törənərək **III növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Humay quşun qayası (Gülüdüzü), Ayılı dərənin çınqılı (Köçbək), Dəvədaşının yolu (Qabaxlı), Pələngənin güneyi (Zeytə), Pələngənin dərəsi (Zeytə), Pələngənin meşəsi (Zeytə).*

Fitonimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətləri: Dərələyəz mahalı ərazisindəki fitooronimləri sintaktik xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. fitonimlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Armudlu sahə (Amağu), Kolluq dərə (Ardaraz), Qamışlı yurd (Arınc), Cəvizli dərə (Ayısəsi), Gilasdı dərə (Ayısəsi), Tikannı kövşən (Ayısəsi), Çirişli yurd (Cul), Zirincli meşə (Cul), Çiçəkli biçənək (Cul), Alçalı biçənək (Cul), Dağdağannı dərə (Ertiş), Ağcaqayınlı yer (Ertiş), Tikanlı düz (Ələyəz), Baldırğanlı dərə (Ərgəz), Kolluq dərə (Gendərə), Almalıq yer (Gendərə), Qamışlı dərə (Gomur), Çirişdi arxac (Gomur), Alçalıq yurd (Gomur), Qamışlı meşə (Gomur), Cəvizlik meşə (Gomur), Armudlu meşə (Gomur), Kollu yer (Gülüdüzü), Armudlu yer (Gülüdüzü), Palıtlı dərə (Gülüdüzü), Tikanlı gəz (Herher), Tikanlı yurd (Heşin), Çirişli dərə (Heşin), Nərgizli dərə (Heşin), Güllü gədik (Heşin), Həmərsünnü yer (Heşin), Güllü gədik (Heşin), Cəvizdi biçənək (Heşin), Cəvizdi dərə (Horbadığ), Almalı meşə (Horbadığ), Güllü gözə (Hors), Fındıxlı dərə (Hors), Armudlu dərə (Hors), Həmörsünnü yaylaq (Hors), Armudlu yer (Hosdun), Tikannı yaylaq (İstisu), Baldırğanlı dərə (Kotanlı), Civirli dərə (Kotanlı), Tikanlı yurd (Köçbək), Soğannı yurd (Qabaxlı), Cacuxlu dağ (Qaraqaya), Civirli dağ (Qaraqaya), Soğannı dərə (Qoduxvəng), Cevizli dərə (Qovuşuq), Qırmışı pencərlik (Qovuşuq), Çirişli qaya (Qovuşuq), Güllü dərə (Qozulca), Armudlu düz (Qozulca), Güllü gədik (Qozulca), Güllü kaha (Məmərza), Qanqallı yer (Sallı), Söyüdlü dərə (Sallı), Fındıqlı dərə (Sallı), Qozlu kaha (Sallı);*

2. I komponenti -lı (-li,-lu,-lü) şəkilçili fitonim, II komponenti müxtəlif coğrafi nomenlərlə ifadə olunan **II növ təyini söz birləşməsi** modelində olan fitooronimlər: *Almalı biçənəyi (Almalı), Almalı yeri (Canı), Almalı yaylağı (Ələyəz), Arduşlu düzənliyi (Ələyəz), Soğanlı yaylağı (Qovuşuq, Gülüdüzü), Ərikli düzü (Hors), Soğannı arxacı (Qovuşuq);*

- I komponenti -lıq (-lik,-luq,-lük) şəkilçili fitonim, II komponenti müxtəlif coğrafi nomenlərlə ifadə olunan **II növ təyini söz birləşməsi** modelində olan fitooronimlər: *Kolluq meşəsi (Ağkənd), Kolluq örüşü (Ağkənd), Almalıq biçənəyi (Axta), Zəylik dərəsi (Ardaraz), Badamlıq kövşəni (Ardaraz), Almalıx yaylağı (Ayısəsi), Ardıclıq yeri (Bulaqlar), Alçalıq biçənəyi (Gabut), Arpalıq kövşəni (İstisu);*

- I komponenti sadə və mürəkkəb quruluşlu fitonim, II komponenti müxtəlif coğrafi nomenlərlə ifadə olunan **II növ təyini söz birləşməsi** modelində olan fitooronimlər: *Qarağac kövşəni (Ağkənd), Alma yeri (Arınc), Pərinc yeri (Gomur), Qarağac dərəsi (Gomur), Təkpalıd kövşəni (Gülüdüzü), Dağdağan dərəsi (Heşin), Zoğal yeri (Hosdun), Batçınar meşəsi (İstisu), Təkarmud yeri (Kotanlı), Çayçiçəyi yeri (Kotanlı), Kəklikotu dağı (Kotanlı), Arduc taxtası (Qabaxlı), Noxud demisi (Qoduxvəng), Qırmızı pencərlik dərəsi (Qovuşuq), Qızılgül meşəsi (Qozulca), Darı yeri (Nəbilər), Alapalıtlıq meşəsi (Nəbilər), Qarağat yerləri (Sallı);*

3. I komponenti sadə, düzəltmə və mürəkkəb quruluşlu fitonim, II komponenti müxtəlif coğrafi nomenlərlə ifadə olunan **III növ təyini söz birləşməsi** modelində olan fitooronimlər: *Lazım armudun biçənəyi (Axta), Almalığın yalı (Axta), Həmörsünlüyün biçənəyi (Hors), Armudun altı (Hosdun), Şamın biçənəyi (İstisu), Armuddunun biçənəyi (İstisu), Zəyliyin dərəsi (Qovuşuq), Cəvizdi dərənin yolu (Qovuşuq),*

Qızıl almanın altı (Nəbilər), Alçalığın dərəsi (Zeytə), Alçalığın biçənəyi (Zeytə), Almalığın biçənəyi (Zeytə), Qanqallığın biçənəyi (Zeytə).

Bu qruplara daxil olan fitooronimlərdən başqa, Dərələyəz mahalı ərazisində bir neçə fitooronim vardır ki, bunların yaranma yolları fərqlidir: *Zəylik dərəsindəki kolluq (Ardaraz), Tala palıdlıq (Gülüdüzü), Qoşa dağdağan (Heşin), Toxum cəviz (Heşin), O tay almalıq (Hors), O tay almalıq dərəsi (Hors), Tək almadakı yurd (Qabaxlı), Tək armud (Qovuşuq), Darı şamı (Məmərza), Top arduş // ardıc (Zeytə)* və s.

Apelyativ leksik vahidlərdən törənmiş oronimlərin sintaktik xüsusiyyətləri: Dərələyəz mahalı ərazisində apelyativ leksik vahidlərdən törənən oronimləri sintaktik xüsusiyyətlərinə görə aşağıdakı qruplara ayırmaq olar:

1. apelyativ leksik vahidlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Papaqlı daş (Ağkənd), Haça kövşən (Ağkənd), Daşlı güney (Axta), Qırmızı güney (Axta), Dolulu yurd (Axta), Sarı yal (Axta), Qırmızı dərə (Amağu), Pətəkli dərə (Amağu), Xartdıqlı dərə (Amağu), Haçalı qaya (Amağu), Zəng qaya (Amağu), Beşik qaya (Amağu), Sarı yamac (Ardaraz), Çöl kəfşən (Ardaraz), Böyük güney (Ardaraz), Quru dərə (Ayısəsi), Böyük dem (Ayısəsi), Qabax kəfşən (Ayısəsi), Böyük təzəkli (ayısəsi), Dirəkli dağ (Gabut), Qırmızı qaya (Gabut), Güney qəyə (Gendərə), Qarama yer (Gendərə), Top daşlar (Gomur), Xam yer (Gomur), Ağ daş (Gomur), Kəllə qaya (Gomur), Qırmızı qaya (Gomur), Hasarlı arxac (Gomur), Dolayı yol (Gomur), Daşlı yol (Gomur), Sandıqlı yurd (Gomur), Muxuru yurd (Gomur), Hasarlı yurd (Gomur), Aralıq yurd (Gülüdüzü), Bejəkli yurd (Gülüdüzü), Daşlı yoxuş (Gülüdüzü), Dik daş (Gülüdüzü), Palçıxlı yer (Gülüdüzü), Dal meşə (Gülüdüzü), Qara güney (Gülüdüzü);*

2. apelyativ leksik vahidlərdən törənərək **II növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Çatma yaylağı (Ağkənd), Ovçular kövşəni (Ağkənd), Qırrar yolu (Ağkənd), Çəm biçənəyi (Ağkənd), Qala çınqılı (Ağkənd), Göyqala səngəri (Ağkənd), Ağdaşın başı örüşü (Ağkənd), Səngərin başı örüşü (Ağkənd), Küçəbənd sahəsi (Ağkənd), Şəyildi çuxuru örüşü (Ağkənd), Çatma örüşü (Ağkənd), Demlər kövşəni (Ağkənd), Qara sal örüşü (Ağkənd), Qırmızı daş sahəsi (Ağkənd), Binələr kövşəni (Axta), Sandıqlar örüşü (Axta), Allah aman dağı (Gomur), Tələlər yolu (Gomur), Dəyirman daşı yurdu (Gülüdüzü), Qəcəl dağı (Gülüdüzü), Zindan qayası (Gülüdüzü), Qız qayası (Gülüstan), Kənd qabağı (Gülüstan), Cəhri yurd (Gülüstan), Sülgü meşəsi (Herher), Qala dərəsi (Herher), Aralıq örüşü (Herher), Daşaltı yurdu (Herher);*

3. apelyativ leksik vahidlərdən törənərək **III növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Layışın başı (Ağkənd), Zağaların başı (Ağkənd), Topun dalı (Ağkənd), Demyənin dərəsi (Axta), Yanığın səngəri (Axta), Meşə başının səngəri (Axta), Uçuğun çınqıllığı (Axta), Yanığın biçənəyi (Axta), Binənin biçənəyi (Axta), Pirin yalı (Axta), Kömürlünün yalı (Ardaraz), Zağanın ağzı (Ardaraz), Sarının başı (Ardaraz), Demin dərəsi (Arınc), Yanığın çınqılı (Ayısəsi), Ağzıdarın kahası (Ayısəsi), Taxtaların yolu (Ayısəsi), Kəndin altı (Canı), Demin kahası (Çaykənd), Uçuğun başı (Çivə), Qalanın boynu (Ertiş), Zağlığın cığırı (Gomur), Yetimin yalı (Gomur), Səngərin yolu (Gomur), Demin zağası (Gülüdüzü);*

Oykonimlərdən törənən oronimlərin sintaktik xüsusiyyətləri: Dərələyəz mahalı ərazisində az sayda da olsa rast gəlinən oykonimik oronimlər aşağıdakı yollarla əmələ gəlir:

1. oykonimlərdən törənərək **I növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Sallı dərə (Qoduxvəng);*

2. oykonimlərdən törənərək **II növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Çivə dərəsi, Əynəzir yolu, Didivan yurdu, Çivə yurdu, Qozulca dağı, Heşin yalı, Didivan dağı (Çivə), Şorca yeri (Ertiş), Zəngəzur dərəsi (Ələyəz), Cul meşəsi (Gabut), Axta dərəsi (Gabut), Moz yurdu (Gendərə), Cul yolu (Gomur), Gabut yolu (Gomur), Cul meşəsi (Gomur), Hostun yurdu (Gülüdüzü), İtqıran yurdu (Gülüstan), Herher yalı (Herher), Əyricə yurdu (Heşin), Əyricə aşırımı (Heşin), Hosdun çınqılı (Hosdun), Kotanlı yurdu (Kotanlı), Ərgəz yurdu (Kotanlı), Şəril yurdu (Kotanlı), Terp meşəsi (Köçbək), Canı yurdu (Qabaxlı), Qabaxlı biçənəyi (Qoduxvəng), Qurdqulaq yurdu (Qoduxvəng), Ələyəz yolu (Qovuşuq), Qalaser yolu (Qovuşuq), Arınc dərəsi (Məmərza), Qılınclı dərəsi (Məmərza), Ağ kənd meşəsi (Məmərza), Arınc yalı (Məmərza), Qurdqulaq dağı (Zeytə);*

3. oykonimlərdən törənərək **III növ təyini söz birləşməsi** modelində formalaşan oronimlər: *Çivə bəylərinin yaylağı (Çivə), Horsun kahası (İstisu), Culun meşəsi (Terp), Mozun çınqılı (Zeytə).*

Oykonimlərdən törənən oronimləri nəzərdən keçirdikdə məlum olur ki, onların əksəriyyəti II növ təyini söz birləşməsi modelində formalaşır, I və III növ təyini söz birləşməsi modelində yaranan oronimlər isə azlıq təşkil edir.

İstifadə olunmuş ədəbiyyat:

1. Шопен И. Исторические памятники. Состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб, Типография императорской Академии наук, 1852, 1231 с.

2. Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. I, Bakı, “Elm”, 2004, 854 s.

3. Sadıqova S. Etnonimlər əsasında yaranan oronimlər. “Filologiya məsələləri”,N- 2, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2008, s.53-59.

4. Sadıqova S. Dərələyəz mahalı ərazisində antroponimlər əsasında yaranan oykonimlər. Filologiya məsələləri, N- 4, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2008, s.10-14.

Севиндж Садыхова

Синтактические особенности оронимов Западного Азербайджана.

Резюме

Объектом исследования статьи является синтактические особенности оронимов Дерелеязского округа Западного Азербайджана. Лексико-семантические особенности оронимов Дерелеязского округа сгруппированы в 6 группах: 1. Оронимы сформировавшиеся на основе гидронимов; 2. Оронимы сформировавшиеся на основе оронимов; 3. Оронимы сформировавшиеся на основе

зоонимов; 4. Оронимы сформировавшиеся на основе фитонимов; 5. Оронимы сформировавшиеся на основе апельятивных лексических единиц; 6. Оронимы сформировавшиеся на основе ойконимов. Синтактические особенности оронимов проявляются в следующих группах: словосочетания существительных I типа: (Сулу дере, Чай говушан дере, Гёлъ юрд); словосочетания существительных II типа: (Гендере ковшени, Эйриджэ юрду, Сюльгю мешеси, Ариндж ялы, Дере юрду); словосочетания существительных III типа: (Хорсун кьахасы, Пирин ялы, Зейлийин дереси, Джулун мешеси).

Sevinj Sadigova

Sintaktic features of the oronyms in Western Azerbaijan

Summary

The sintaktic features of oronyms in Daralayaz region of West Azerbaijan (present Armenia) have been researched in the article. The lexico-semantic characteristics of oronyms in Daralayaz region have been examined and those were divided into 6 groups: 1.oronyms derived from hidronyms; 2.oronyms derived from oronyms; 3.oronyms derived from zoonyms; 4.oronyms derived from fitonyms; 5 Hidronyms derived from the appealative lexical units; 6. oronyms derived from the oykonums. The oronyms forming syntactically are from the model of I (Sulu dere, Chay qovushan dere, Gol yurd), II (Gendere kovsheni, Quzey oyuq kovsheni, Eyrije yurdu, Sulgu meshesi, Arinj yali, Qara qayalar orushu, Dere yurdu), III (Horsun kahasi, Pirin yali, Zeyliyin deresi, Julun meshesi) nominal combinations.

Rəyçi: Həsən Mirzəyev
filologiya elmləri doktoru, professor

FATMA ƏMİROVA
ADU
(novruzova.fira@mail.ru)

ZƏRF (DAS ADVERB)

Açar sözlər: müəyyən və qeyri-müəyyən yer və zaman zərfləri və onların cümlədə işlənməsi.
Key words: definite and indefinite adverbs of place and time and their usage in sentences.
Ключевые слова: определённые и неопределённые обстоятельства времени, места и их употребление в предложениях.

Zərf hal və hərəkətin necə, nə vaxt, harada və hansı şəraitdə icra olunduğunu bildirir. Zərflər cümlədə, adətən, hərəkətlə əlaqədar olur və hərəkətin əlamətini bildirir. Məsələn:

Sie spricht gut Deutsch- O, almanca yaxşı danışır.

Er arbeitet flüßig- O, səylə işləyir.

Zərflərin quruluşca növləri (Die Arten der Adverbien nach dem Bau).

Zərflər quruluşca 3 cür olur

1. Sadə zərflər (Einfache Adverbien): sehr-çox; hier-burada; dort-orada; jetzt-indi; rasch-cəld və s.
2. Düzəltmə zərflər (Abgelitete Adverbien): abends-axşamlar; morgens-səhərlər; jährlich-illik; täglich-gündəlik və s.
3. Mürəkkəb zərflər (Zusammengesetzte Adverbien): teilweise-hissə-hissə; vorgestern-sırağagün; übermorgen-birigün; dorthin-oraya və s.

Zərfin mənaca növləri (Die Arten der Adverbien nach dem İnhalt)

Zərfin mənaca aşağıdakı növləri var:

1. Yer zərfləri (Die Lokaladverbien-Adverbien des Ortes)
2. Zaman zərfləri (Die Temporaladverbien-Adverbien der Zeit)
3. Tərzi-hərəkət zərfləri (Adverbien der Art und Weise-die Modaladverbien)
4. Səbəb və məqsəd zərfləri (Die Kausaladverbien- Adverbien des Grundes und Zieles)

Bu zərflərdən yer və zaman zərfləri haqqında yazmaq istəyirəm.

Die Lokaladverbien (Adverbien des Ortes)
Yer zərfləri

Yer zərfləri (Adverbien des Ortes) hərəkətin yerini, istiqamətini bildirir və Wo? (harada?), Wohin? (haraya?), Woher?(haradan?) suallarina cavab verir. Yer, məkan bildirən yer zərfləri müəyyən (Bestimmte Lokaladverbien) və qeyri-müəyyən (Unbestimmte Adverbien) olmaqla iki qrupa ayrılır.

Müəyyən yer zərflərini bu şəkildə toplamaq mümkündür.

Wo?	Wohin?	Woher?
hier-burada	hierhin, nach hier-buraya	von hier-buradan
dort-orada	dorthin, nach dort-oraya	von dort, dorther-oradan
da-orada	dahin-oraya	von da, daher-oradan
draußen-außen-bayırda	nach draußen-bayıra	von draußen-bayırdan
auswärts- bayırda	nach auswärts-bayıra	von auswärts-bayırdan
drinnen-innen-içəridə	nach drinnen-hinein-içəriyə	von drinnen-içəridən
oben-yuxarıda	nach oben, hinauf, auswärts-yuxarıdan	von oben-
unten-aşağıda	yuxarıya	von unten-aşağıdan
vorn-öndə	nach unten, hinunter, abwärts-aşağıya	von vorn-öndən
hinten-arxada		von hinten-arxadan
links-solda	nach vorn, vorwärts-önə,irəli	von links-soldan
rechts-sağda	ach hinten, rückwärts-arxaya	von rechts-sağdan
	nach links-sola	
	nach rechts-sağa	

Bu zərfləri aşağıdakı cümlələrdə işlətmək olar:
Die Tür links wird nicht gebraucht-Soldakı qapı istifadə olunmur.
Die Tür zur Toilette finden Sie rechts-Tualet qapısını sağda tapacaqsınız.
Der Ball kam von rechts-Top sağdan gəldi.
Der Mieter unter ist sehr alt-Aşağıdakı kirayəşin çox yaşlıdır.
Wo ist das Telefonbuch? Da varne liegt es?- Telefon kitabçası hardadır? O qarşıdadır.?
Wo ist Peter? Er ist draußen im Hof.-Peter hardadır? O çöldə/həyətdədir.
Die Geräusche kommen von oben- Səs-küylər yuxarıdan gəlir.
Kannst du die Stühle hinauf tragen?- Stulları yuxarı daşıya bilərsən?
Die Kinder spielen draußen- Uşaqlar bayırda oynayırlar.
Von dort bekommen wir keine Nachricht- Oradan heç bir xəbər almırıq.
Wir müssen dich dorthin schicken- Biz səni oraya göndərməliyik.
Der Räuber greift den Mann von hinten an- Qaçaq kişiyə arxadan hücum edir.
Die Bücher drinnen gehören dir- İçəridəki kitablar sənə məxsusdur.
Der Garten hinten ist sehr klein- Arxadakı bağça çox kiçikdir.
Ich komme dorther und gehe gleich dorthin- Oradan gəlirəm və dərhal oraya gedirəm.

Hin və her

Bəlli olan yer zərfləri içində hin və her zərflərinin özünəməxsus bir yeri vardır. "Hin" zərfi sözü söyləyəndən uzaqlaşmanı, hərəkətin başqa bir yönə doğru istiqamətini bildirir. Hər iki sual sözü "wohin" və "woher" ayrı və bir yerdə yazıla bilər. Məsələn:

Wo gehst du hin? Wohin gehst du?-Hara gedirsən?

Ich steige auf den Berg hin-Dağa çıxıram.

Die Mutter schaut hin und ruft ihr Kind- Ana çölə baxır və uşağını çağırır.

Gehst du ins Theater?- Nein, ich gehe heute nicht hin- Teatra gedirsən?- Xeyr, mən bu gün oraya getmirəm.

"Her" zərfi isə sözü söyləyənə doğru olan istiqaməti bildirir;

Wo kommst du her? Woher kommst du?- Haradan gəlirsən?

Die Maus kommt aus dem loch her- Siçan deşikdən bayıra gəlir

Wirf mir einen Apfel her!- Mənə aşağı bir alma at!

Kommt schnell her- Tez bura gəlin!

Die Leute kommen aus dem Haus her- İnsanlar evdən bayıra gəlirlər.

Geld her! –Pulu ver bura! Hin und her- ora-bura.

Bu iki zərf bəzi ədatlarla birləşərək başqa ədatları da meydana gətirə bilir. Məsələn:

hinaus/heraus-çöl, çölə

hinein/herein- içəri, içəriyə

hinauf/herauf- yuxarı, yuxarıya

hinunter/ herunter-aşağı, aşağıya

Gehen Sie bitte hinaus! Zəhmət olmasa bayıra çıxın!

Die Kinder kommen aus der Schule heraus- Uşaqlar məktəbdən çölə gəlirlər.

Ich muß einige Zitate aus diesem Buch herausschreiben- Mən bu kitabdan bir neçə sitat çıxarıb yazmalıyam.

Die Gäste kommen herein- Qonaqlar içəri gəlirlər.

Ich werfe deine Tasche hinunter- Çantanı aşağı atıram.

Er geht die Treppe hinauf- O pilləkanları yuxarı qalxır.

Hin və her zərflərinin başqa ədatlarla birləşməsindən əmələ gələn fellərin əsasında aşağıdakı çalışmanı edək:

1. Er geht aus dem Zimmer hinaus steigt die Treppehinunter, öffnet die Haustür und geht auf die Straße hinaus.
2. Wir fahren bis zur fünften Haltestelle, dort müssen wir aussteigen. Wir gehen auf die andere Seite der Straße hinüber.
3. Da ruft der Freund:"Komm nur herein, die Tür ist offen"
4. An der Ecke befindet sich ein Cafe, wo wir gut essen können. Vielleicht gehen wir mal dorthin?
5. Gehen Sie bitte in den Korridor hinaus, ich lüfte den Übungsraum.
6. Walter, komm herunter, ich warte schon 10 Minuten auf dich im Vestibül.
7. Ich bitte Sie sehr, steigen Sie in meine Wohnung hinauf und werfen Sie meine Schlüssel herunter.
8. Gehen Sie die Treppe hinauf, die Wohnung 51 befindet sich oben.
9. Tragen Sie das ganze Gepäck hinunter ins Auto.
10. Helfen Sie mir, meinen Koffer aus dem Gepäcknetz herunterzuholen.

11. Yemand klopfte an die Tür. Ich rief: "Herein".
12. Ich bin aus Berlin auf Einladung eines Freundes hergekommen.
13. Er ist von der fahrenden Straßenbahn heruntergesprungen.
14. Schreiben Sie aus dem Text alle unbekannten Wörter heraus.
15. Lassen Sie meine Sachen hinaufbringen.

Unbestimmte Lokaladverbien (Qeyri-müəyyən yer zərfləri)
Qeyri-müəyyən yer zərflərinin ən çox işlənənlərini cədvəl halında göstərək:

Wo?/Harada?	Wohin?/ Haraya?	Woher?/Haradan?
anderswo-başqa bir yerdə	anderswohin-başqa bir yerə	anderswoher-başqa bir yerdən
irgendwo-hər hansı bir yerdə	irgendwohin-hər hansı bir yerə	irgendwoher-hər hansı bir yerdən
nirgendwo-heç bir yerdə	nirgendwohin-heç bir yerə	nirgendwoher-hər bir yerdən
überall- hər yerdə	überallhin-hər yerə	überallher-hər yerdən

Überall liegt Schnee-Hər yerdə qar var.
Es ist nirgendwo schöner als zu Hause-Heç bir yer evdən gözəl deyildir.
Ihn habe ich nirgendwo gesehen-Mən onu heç bir yerdə görməmişəm.
Wir suchen das kleine Kind überall- Biz balaca uşağı hər yerdə axtarırıq.
Wir gehen nirgendwohin- Heç bir yerə getmirik.
Er will heute irgendwohin fahren- O bu gün hər hansı bir yerə getmək istəyir.
Diese Hemden kann man überall finden-Bu köynəkləri hər yerdən tapmaq olar.
Wir können dieses Papier irgendwoher bekommen- Biz bu kağızı hər hansı bir yerdən ala bilərik.
Den Jungen haben wir ingendwohin geschickt- Biz oğlanı hər hansı bir yerə yolladıq.
Die Haltestelle steht jetzt anderswo- Dayanacaq indi başqa bir yerdə yerləşir.
Wir wollen dieses Jahr anderswohin fahren- Biz bu il başqa bir yerə getmək istəyirik.

Die Temporaladverbien (Adverbien der Zeit)
Zaman zərfləri

Zaman zərfləri (Adverbien der Zeit) hərəkətin icra edildiyi zamanı, davam etməsi müddətini, yaxud təkrar edilməsini bildirir və Wann? (nə vaxt? nə zaman?), Wie Lange? (neçə müddət?nə qədər müddətə?), Wie oft? (neçə dəfə?) suallarına cavab olur.
Bestimmte Temporaladverbien-Müəyyən zaman zərfləri:
Həftənin bəlli zamanları

heute- bu gün	vorgestern morgen-sırağagün sabah
morgen-sabah	gestern morgen- dünən səhər
gestern-dünən	heute morgen- bu sabah

vorgestern- sırağagün
übermorgen-birisigün
heute abend- bu axşam
gestern mittag- dünən günorta

Müəyyən bir gün və ya günün müəyyən bir anını anlatan zərflər:

am Tage- gündüz
eines Tages- bir gün
am Morgen-səhərçağı
eines Morgens- bir sabah
am Vormittag- günün birinciyarısı
eines Vormittags- bir günün birinci yarısında
am Mittag- günorta
eines Mittags- bir günorta
am Nachmittag- günün ikinci yarısı
eines Nachmittags-bir günün ikinci yarısında
am Abend- axşamçağı
eines Abends- bir axşam
in der Nacht- gecə vaxtı
eines Nachts- bir gecə
am Sonntag- bazar günü
am vorigen Sonntag- keçən bazar
am Montag- bazar ertəsi
am nächsten Montag- gələn bazar ertəsi

Təkrarlanan günlər və ya zamanları göstərən zərflər:

morgens- sabahlar
vormittags- günün birinci yarıları
mittags- günortalar
abens- axşamlar
nachts-gecələr
sonntags- bazar günləri
montags- bazar ertəsi günləri
dienstags- çərşənbə axşamları

Keçən, içində olduğumuz və ya gələcək zamanlarla bağlı zərflər:

die vorige Woche- keçən həftə
der vorigen Montag- keçən bazar ertəsi
diese Woche- bu həftə
der nächsten Monat- gələn ay
die nächste Woche- gələn həftə
nächstes Jahr- gələn il
voriges Jahr- keçən il
im nächsten Sommer- gələn yayda
in der vorigen Woche- keçən həftə içində
in den vorigen Monaten- keçən aylarda
in der nächsten Woche- gələcək həftə içində
in den nächsten Wochen- gələn həftələrdə

im vorigen Jahr- keçən il içində
vor einer Minute- bir dəqiqə əvvəl
nach einer Minute- bir dəqiqə sonra
in einer Minute- bir dəqiqə içində
vor 10 Minuten- 10 dəqiqə qabaq
nach 20 Minuten- 20 dəqiqə sonra
nach einem Jahr- bir il sonra
nach 6 Monaten- 6 ay sonra
in drei Wochen- 3 həftə içində

Yuxarıdakı ifadələri günlər, aylar, illər və ağla gələn digər zaman zərfləri üçün söyləmək mümkündür. Biz hər bir qrupdan bir nümunə verdik.

a) Unbestimmte Temporaladverbien (Qeyri-müəyyən zaman zərfləri)

Bu zərflər bəlli bir tarix və ya zamanı anlatmaz və dəqiq olmayan zaman ölçülərini dilə gətirir.

einst- bir zamanlar
einstmals- bir zamanlar
damals- o zamanlar
anfangs- başlanğıcda
zuerst- öncə
vor kurzem- bu yaxınlarda
jetzt- indi
sofort-dərhal
bald- tezliklə
dann- sonra
danach-ondan sonra
ehemals-keçmişdə, vaxtilə
einmal- bir zamanlar
niemals- heç bir zaman
früher- əvvəllər
neulich- bu yaxınlarda
bereits- artıq
gerade- həmən, az öncə
augenblicklich- bu an
gleich- dərhal
künftig- gələcəkdə
später- sonralar
endlich- nəhayət ki

Wie lange?- nə qədər?, Zeit wann?-nə zamandan bəri və bis wann?- nə vaxta qədər? suallarına cavab verən müddət bildirən zərflər

ein Tag- bir gün
sechs Monate- altı ay
seit heute- bu gündən bəri
von morgen ab- sabahdan etibarən
seit Mai- maydan bəri
bis gestern- dünənə kimi
bis morgen- sabaha kimi
bis April- Aprelə kimi
ein Jahr- bir il
hundert Jahre- yüz il
seit gestern- dünəndən bəri
seit Freitag-cümədən bəri
seit Ostern- pasxadan bəri

Bəlli zaman anlayışları:

lange- uzun müddət
beständig- daimi
tagelang- günlərlə
unterdessen- bu arada
inzwischen- bu arada
auf immer- həmişə
ewig- əbədi
zeitlebens- ömür boyu
wochelang- həftələrlə
vorläufig- hələlik, müvəqqəti olaraq

seitdem-o zamandan bəri
seti damals-o vaxtdan bəri
seit langer Zeit-uzun zamandan bəri
seither- o zamandan bəri
seit kurzem- qısa vaxtdan bəri

bis jetzt- indiyə qədər
bis dann- o zamana qədər
bisher- indiyə qədər
bis vor kurzen- qısa zaman öncəyə qədər

Zamanın təkrarlanmasını ifadə edən zərflər:
Bu zərflər wie oft? nə qədər tez? sualına cavab verirlər:

oft- tez-tez	jedesmal- hər dəfə
immer wieder- davamlı	unaufhörlich- durmadan
mehrmals- dəfələrlə	meist- əksər vaxt
selten- nadir halda	manchmal- bəzən
ab und zu- arada bir	wieder- təzədən
hin und wieder- arada bir	stündlich- saatda bir
täglich- hər gün	alle Tage- hər gün
jährlich- hər il, illik	Tag und Nacht- gündüz-gecə
alle zwei Tage- bütün iki günü	

İch stehe um 7 Uhr auf und gehe abends um 10 Uhr ins Bett- Səhərlər saat 7-də qalxıram və axşamlar saat 10-da yatıram.

Dienstags und freitags bin ich in der Schule- Çərşənbə axşamları və cümələri mən məktəbdə oluram.

Augenblicklich ist er mitwichtigen Aufgaben beschäftigt- Bu an o, vacib məsələlərlə məşğuldur.

Wir werden ihn niemals vergessen- Onu heç bir zaman unutmayacağıq.

Er wird zeitlebens taub bleiben- O, ömrü boyunca kor qalacaq.

Inzwischen ist der Arzt gekommen- Bu arada doktor gəldi.

Wochenlang mußte ich mur Brot essen- Həftələrlə ancaq çörək yeməliydim

Ich muß bis zum 27.Oktober eine nene Wohnung finden- Oktyabrın 27-ə kimi təzə bir mənzil tapmalıyam.

Karl schreibt mir ziemlich oft- Karl mənə olduqca tez-tez yazır.

Die Oma besucht uns selten- Nənə bizi nadir halda ziyarət edir.

Ədəbiyyat:

1. Ender Erenel və Zafer Ulusoy “Deutshe Grammatik” (Türkiyə,İstanbul, 2007)
2. T.R.Əhmədova və R.T Həsənova “Deutsch” (Bakı, 2006)
3. Ə.Əliyev “Alman dilinin qrammatikası”
4. www.mein-deutschbuch.de
5. В.Завьялова, Л. Ильина “Deutsch” (Москва, 2010)

F.Amirova

Adverbs of place and time

Summary

There is written about adverbs, their structure, types of meaning in this article. Then it is given adverbs of place which are divided into definite and indefinite groups. We can see here the most commonly used ones among them. Moreover, their usage in sentences is also clear in this article. Then it is given time adverbs of definite and indefinite and their usage in sentences.

Ф. Амирова

Обстоятельства места и времени

Резюме

В этой статье рассказывается об обстоятельствах, о их структурно-семантических свойствах. Затем предоставляется обширная информация об обстоятельствах места. В этой статье рассказывается, что обстоятельства места разделяются на две группы: определённые и неопределённые. Так в статье указаны самые большеупотребляемые из этих обстоятельств. После обстоятельств места автор говорит об обстоятельствах времени, об употреблении этих обстоятельств в предложении и приводит примеры.

Rəyçi: f.e.n H.Hacıyeva

MƏHƏMMƏD VƏLİYEV
Gəncə Dövlət Universiteti
muhammedveliyev@mail.ru

DİLLƏRİN TİPOLOJİ BÖLGÜSÜ VƏ ANALİTİZM

Key words: analytical, typological division, inflected, syntactical, amorphous, grammatical category
Ключевые слова: аналитический, типологическое распределение, флективный, синтетический, аморфный, полисинтетический
Açar sözlər: analitik, tipoloji bölgü, flektiv, sintetik, amorf, polisintetik

Dillərin tipoloji bölgüsündə hansı arqumentasiyanın əsas götürüldüyü, bu bölgünün nəyin əsasında aparıldığı bu günə qədər dilçilikdə mübahisəli olaraq qalan məsələlərdəndir. Daha doğrusu, bəzi tədqiqatlarda dilçilik tipologiyası morfoloji tipologiya kimi düşünüldüyü halda, digər tədqiqatlarda morfoloji səviyyə ilə yanaşı fonetik, leksik və sintaktik dil səviyyələrinin əlamətləri də buraya daxil edilmişdir. [1, 189] Ancaq hər halda dillərin tipoloji bölünməsi sözün geniş mənasında morfologiyasına, quruluşlarına görə aparılmışıdr. Bu nöqteyi-nəzərdən dünya dillərini təcrid olunmuş, flektiv, aqülinativ, sintetik, polisintetik və analitik dillərə bölündüyü qeyd edilir. [7] Dillərin tarixi bölgüsündə isə onların (dillərin) üç sinfini – tədric olunmuş, flektiv və aqülinativ dilləri sinfini qeyd edirlər. Bu tarixi bölgüdə sözlərin tərkibindəki morfemlərin miqdarı və morfemlərin arasında "birləşmənin gücü" faktor kimi nəzərdə tutulmuşdur. [7]

Təcrid olunmuş dillərdə (bu dil tipi dilçilikdə amorf (formasız) dillər, cəzri dillər, kök dillər, təktərkibli dillər kimi də xarakterizə edilir) sözün müxtəlif formaları kimi yalnız köklərdən istifadə edilir. Prefiks və suffikislərlə mürəkkəb birləşmələr əmələ gəlmir. Xarakterinə görə təcrid olunmuş dillər sintetizmin əks qütbündə dayanır. Cənub-Şərqi Asiya dillərini, məsələn, Çin, Viyetnam dillərini təcrid olunmuş dillər hesab edirlər. Eləcə də Birma, Tayland, Kamboca, Laos dillərində amorfizmin əlamətlərinin olduğu bildirilir.

Aqülinativ dillərdə söz formalarının dəyişməsində hər biri yeni məna (burada həm qrammatik, həm də leksik məna nəzərdə tutulur) daşıyan formantların aqülinasiyası (termin latın dilinə məxsus *aggultinatio* sözündəndir, mənası *yapışdırma* deməkdir) dominantlıq edir. Burada formant deyildikdə isə suffikslər və prefikslər nəzərdə tutulur. Aqülinativlikdə vacib olan odur ki, dildə formatlar bölünməyən struktur əmələ gətirmir və sözə qoşulan hər bir formant digər morfoloji əlamətlərin təsiri altında dəyişikliyə uğramır. Sintetik dillərə aid edilən dillərdən sözdəyişmələri aqülinativ yolla baş verməyən dilləri flektiv dillərə aid edirlər. Aqülinativ dil tipinə türk dilləri ailəsinə aid olan dilləri (o cümlədən Azərbaycan dili) nümunə göstərmək olar.

Flektiv dillərə yeni mənanın ifadəsi üçün sözün kök formasında dəyişməsi xarakterik olan dillər aid edilir. Məsələn, ərəb dilində [3, 184] kök samitləri ***k, t, b*** olan *kətəbə (yazmaq)* felindən *kitab, məktub (hərfən: yazılmış olan), məktəb (yazı yazılan yer), katib (yazı yazan)* kimi müxtəlif leksik mənalara malik olan sözlər yaranmışdır. Yaxud bu gün dilimizdə işlənən ərəb mənşəli *hakim, hökm, məhkum,*

məhkəmə, həkim kimi müxtəlif mənalı sözlər bir kökdən törəmədir və ya *elm, müəllim, alim* kimi sözlər eyni kökün törəmələridir. Eləcə də ingilis dilində bir qrup isimlərin cəmlənməsi (*məsələn, foot-feet (ayaq+lar), tooth-teeth (dil+lər), goose-geese (qaz+lar), man-men (kişi+lər), mouse-mice (siçan+lar), child-chlderen (uşaq+lar), datum-data (günün tarixi-tarixləri), bacterium-bacteria (baktria+lar) və s.)* və qaydasız fellərin keçmiş zamanda işlədilməsi (*məsələn, to break-broke (sındır (maq)+dı), to draw-drew (şəkil çək(mək)+dı), to hold-held (tut(maq)+du), to fly-flew (uç(maq)+du), to understand-understood (başa düş(mək)+dü), to meet-met (qarşıla (maq)+dı və s.)* flektivizm yolu ilə baş verir.[4]

Flektivizm (latın dilindən tərcümədə mənası *elastik* deməkdir) öz təbiəti etibarı ilə aqülinativizmin əks qütbündə dayanır.

Sintetik dillərdə qrammatik mənanın ifadəsində sintetik formalar üstünlük təşkil edir. Yəni qrammatik məna eyni sözün müxtəlif variantlarla dəyişməsində (affikslərlə, daxili fleksiya ilə, vurğu ilə, supletivizmlə), daha doğrusu, eyni sözün müxtəlif formaları ilə verilir. Bu dillərdə cümlədə sözlər arasında münasibətlərin ifadə olunması üçün analitik elementlərin sırasından da istifadə edilə bilər. Həmçinin bu dillərdə morfemlər söz tərkibində aqülinativ və fuzyal prinsiplərlə birləşə bilər. Məhz buna görə də (sadalanan prinsiplərin sintez halında özünün əlamətlərini göstərməsinə görə) dil tipini sintetik adlandırırlar. Əslində A.V.Şlegelə qədər bu bölgü mövcud olmayıb. İlk dəfə o, flektiv dillərin sintetik və analitik tipli ola biləcəyini təklif etmişdir. [1] Dil tam anlamı ilə sintetik tipli olmur, onda (dildə) söz dəyişmələrində ya sitetikləşmə, ya da daxili fleksiya (bir neçə mənanı əlaqələndirən formantlar) üstün ola bilər ki, bu halda dilə flektiv dil deyirlər.

Polisintetik dillərin əsasında inkorporlaşma dayanır. İnkorpollaşma cümlənin bütün üzvlərinin (tam inkorporlaşma), yaxud sözlərin birləşməsinin bəzi komponentlərinin (natamam inkorporlaşma) onlardan (komponentlərdən) heç birinin formal əlamətləri olmadan vahid bir bütündə birləşməsidir. Yəni inkorporlaşan dillərdə söz kökləri birləşib söz-cümlə yaradırlar. Bunun əvvəli mübtəda, sonu xəbər olur, ortada isə digər üzvlər gəlir. Polisintetik (yaxud inkorpor) ifadələrdə "vacib" esab edilən morfem – fel ad qrupu və zərflərdən təşkil olunan digər mürəkkəb kompozitlərdən öz fəallığı ilə fərqlənir.

Buraya Şimali Amerikada yerli qəbilələrin (hindusların) dillərini və Asiyada paleoasiya dillərini aid edirlər. Maraqlıdır ki, türk dillərində, o cümlədən də Azərbaycan dilində zahri görünüşünə görə inkorpor vahidlərə oxşayan sözlərə təsadüf edirlər. Ancaq burada inkorporlaşmanın əsk tərəfi vardır, bele ki, inkorpor vahidlər bütöv fikri, cümləni, bu sözlər isə yalnız bir məfhumun, əşyanın ifadəçisi olur. Bu sözlərdə hər bir element cümlədəki qrammatik mənasını itirmiş halda bir söz daxilində birləşir. Məsələn, **hacımənəbax (hacıbəribax** şəklində də işlədilir, köhnəlmiş sözdür, qadın paltarı tikilən bahalı, əlvan parça növünün xalq dilində adıdır), **hacıyatmaz** (aşağı tərəfi ağır olduğu üçün həmişə dik duran oyuncaq, gəlincik) [5]; elecə də müasir türk dillində işlədilən **biçerdöver** (kombayn), **hünkarbeğendi** (yemək adı). [6] *Hardadır bu şəhəri fədaicəsinə mənimsəmiş, hardadır onun hakim ruhunu can içində gizləmiş, hardadır onun irfanına təbiətlə tarixin iş birliyindən hörülmüş, tarixinə həsrətlə yanmış* ***sərdənkeçdilər*** *(burada söz* ***fədai*** *mənasındadır) harda?* (Samiha Ayveri "İsatnbul gecələri" (tərcümə Məmməd Aslanındır))

Yaxud da bu gün şifahi nitqimizdə tez-tez təsadüf edilən, məsələn, "**gəldiyindir", "oxuduğumdur"** kimi elementlər inkorporlaşmanın əlaməti kimi götürülə bilər. Çünki bu sözlər əslində özlərində bütöv bir fikri ehtiva edir. ***Gəldiyindir - Nə səbəbə gəlmədi; Oxuduğumdur – mən oxumayacağam və s.***

Polisintetik dillər məfhumunun dilçiliyə daxil edilməsini Eduard Sperinin adı ilə bağlayırlar. [1, 36] Bəzi tədqiqatlarda isə inkorporlaşan dillərin xarakterinin Vilhelm von Humboldt tərəfindən verildiyi və bu bölgünün onun adı ilə bağlı olduğu qeyd edilir. [7]

Analitik dillər məfhumu dilçilkdə A.V.Şlegelin adı ilə bağlıdır. O, dilləri qardaşının (F.V.Şlegel) bölgüsünün yetərli olmadığını düşünərək flektiv dillərin xarici fleksiyalı və daxili fleksiyalı oldugunu və buna müvafiq də sintetik və analitik tipli ola biləcəyini qeyd etmişdir. [1] Ancaq əslində sintetik dil kimi sırf bu tipdə olan dil yoxdur. Buna görə də terminin analitizm kimi işlədilməsi daha doğru olardı. (Düzdür, Vilhelim von Humboldt çin dilini amorf dil yox, təcrid olunmuş dil hesab etmişdir və bu tipli dilləri sırf analitik dillər adlandırmışdır, ancaq sözün tam mənasında amorf dil yoxdur.)

Analitizm təbiəti etibarı ilə sintetizmlə qarşılıq, əkslik təşkil edir. Analitik sözü yunan mənşəli olub, mənası *üzvlərə ayrılma, parçalanma* deməkdir. Sözün əsas (lüğəvi, leksik) və əlavə (qrammatik) mənalarının komponentlərin üzvlərə ayrılması ilə ifadəsində özünü göstərir. Yəni sözün morfoloji quruluşunun dəyişməzliyi ilə analitik (mürəkkəb) konstruksiyalarda meydana çıxır. Qrammatik məna sözün morfoloji dəyişməməsi ilə yanaşı onun (sözün) köməkçi yaxud tammənalı digər sözlə (yaxud sözlərlə) söz sırası, intonasiya ilə birləşməsi ilə ifadə oluna bilər. Məsələn, ingilis dilində I və II şəxslərin təkində və bütün şəxslərin cəmində felin indiki zamanda və keçmiş zamanda təkbaşına işlədilməsi ilə hərəkətin hansı şəxs tərəfindən icra edildiyi (o cümlədən, kəmiyyət kateqoriyası da) sözün şəkli əlamətlərindən bilinmir. Buna görə də şəxs əvəzliklərinin işlədilməsi fikrin aydınlığı və dəqiqliyi nöqteyi-nəzərindən vacib olur. Əks halda təkbaşına işlədilən söz felin əmr formasını ifadə etmiş (indiki zamanda), ya da belə dil vahidi real gerçəkliyi əks etdirməmiş (keçmiş zamanda) olardı:

I go (went). – Mən gedirəm (getdim). *We go (went). – Biz gedirik (getdik).*

You go (went). – Sən gedirsən (getdin). *You go (went). – Siz gedirsiniz (getdiniz).*

He (She) goes (wents). – O gedir (getdi). *They go (went). – Onlar gedirlər (getdilər).*

Yaxud rus dilində; bu dildə eyni fel indiki zamanda şəxslər üzrə flektiv üsulla, keçmiş zamanda isə analtizmə uyğun təsriflənir:

Я хожу (ходил) – Mən getirəm (getdim) *Мы ходим (ходили) – Biz gedirik (getdik).*

Ты ходишь (ходил) – Sən gedirsən (getdin) *Вы ходити (ходили) – Siz gedirsiniz*
(getdiniz)

Он (она) ходит (ходил(а)) – O gedir (getdi) *Они ходят (ходили). – Onlar gedirlər* *(getdilər)*

Azərbaycan dilində bu felin tərcüməsi (gedirəm və ya getdim) təkbaşına işlədilməklə özündə hərəkətin həm subyektini, həm dəzamanını formantlar vasitəsi ilə əks etdirir. **Gedirəm** (get – sözün kökü, -ir – indiki zaman şəkilçisi, - m I şəxsin təkinin morfoloji əlaməti) dedikdə nümunə gətirilən dillərdəki kimi digər sözlərin (verilən vəziyyətdə şəxs əvəzliklərinin) işlədiləməsinə ehtiyac qalmır. Eləcə də digər şəxslər üzrə təsriflənən nümunələrin hər biri üçün bunları söyləmək olar.

Sözün morfoloji dəyişməməsi yuxarıda qeyd etdiyimiz kimi amorf dillərə məxsusdur. Buna görə də bu əlamətin – analtizmin digər dillərdə mövcudluğu sözdə bu tip morfemlərin orta miqdarı ilə müəyyən edilir (məsələn, ingilis dilində 1,78%, rus dilində 2,4%, sanskritdə 2,6%).

Tədqiqatlarda analitik kostruksiyaların funksiyalarına görə üç tipini fərqləndirirlər: morfoloji, leksik və sintaktik.

Morfoloji analitik konstruksiyalar morfoloji kateqoriyaları ifadə edən vahid söz formaları kimi təşkil olunurlar. Məsələn, zaman kateqoriyası: *буду жить* – yaşayacağam (rus dilində), (I) *will live* – yaşayacağam (ingilis dilində), *gəlir idi, yaşayacaq imiş* və s.; tərz kateqoriyası: *donub qalmaq, baxa-baxa qalmaq, uzanıb getmək və s.*

Sintaktik analitik konstruksiyalar isə üzvlənmiş şəkildə (ayrı-ayrı yazılaraq) cümlənin bir üzvünü ifadə edir. Məsələn, Azərbaycan dilində cümlənin feli ***xəbərini*** ifadə edən *-a başlamaq* və *-a bilmək* formalı analitik konstruksiyaları misaıl göstərmək olar: *döndərə bilmək, ala bilmək, qazana bilmək, göstərə bilmək, tələb etməyə başlamaq, döyməyə başlamaq, gəzməyə başlamaq və s. ...Cənubi Azərbaycanı bir neçə gün içində xarabazara döndərə bilərlər. ... lakin biliksiz və siyasi düşüncələri olmayan insanların silahları da qələbə qazana bilməz. Sən getməsən də, Atabəy Cənubi Azərbaycanı səfərbərliyə ala bilər. Haman xoşbətlik qapını döyməyə başlamışdır. Hökumətin zülmündən təngə gəlmiş xalq hökumətə qarşı yazılan rübainin təkrar edilməsini tələb etməyə başladı. ...bütün diqqətini səfərbərliyə alıb ətrafı gəzməyə başladı.* (M.S.Ordubadi "Qılınc və qələm")

Sintaktik tipli analitik konstruksiyalar sintaktik bütövlərdə digər cümlə üzvü kimi də çıxış edə bilir: ***təyin*** rolunda çıxış edən analitik konstuksiyalar: *человек высокого роста (hündür boylu adam) → высокий человек ((rus dilində) hündür adam); Araz kənarına qədər olan torpaqlar →Araz kənarınadək torpaqlar, mövcud olan əlaqə →mövcud əlaqə və s. Gəncədən Araz kənarına qədər olan (kənarınadək) torpaqların hər qarışı bir adamın əlindədir. ...Şirvan şahlığı ilə Aran havalisi arasında olan (arasındakı) əlaqə haqqında yazmağı lazım bilirəm.* (M.S.Ordubadi "Qılınc və qələm")

O da aydındır ki, təyini xarakterli belə analitik konstuksiyar hərəkət ifadə edən sözə də aid ola bilər. Bu halda həmin konstruksiya cümlənin zərfliyi olacaqdır: *переделать коренном образом (köklü şəkildə dəyişmək) →в корне переделать ((rus dilində) kökündən dəyişmək); təcili surətdə göndərmək, qılınc vasitəsi ilə saxlamaq və s. Onları mümkün olursa təcili surətdə (təcili) göndərərsən. ...hazırda nüfuzu yalnız qılınc vasitəsi ilə (qılınc və qoşunla) saxlamaq mümkündür. və s.* (M.S.Ordubadi "Qılınc və qələm")

Bu cür dillərdə (analtizmin daha çox xarakterik olduğu dillərdə) morfoloji və sintaktik tipli analitik konstruksiyaların sərhəddi cümlənin iki ayrıca üzvü arsındakı sərhəd kimi mütəhərrikdir. Məsələn, rus dilində zaman kateqoyiyasını ehtiva edən

будет работать (işləyəcək) birləşməsi xarakterinə görə morfoloji konstruksiya olduğu halda, *начнёт работать* (işləməyə başlayacaq) və *начнёт работу* (işi başlayacaq) analitik konstruksiyaları sintaktik xarakterlidirlər. Baxmayaraq ki, hər üç konstruksiyanın ifadə etdiyi məntiqi məna eynidir, onlardan biri morfoloji, digərləri isə sintaktik tipli konstruksiyadır. Digər tərəfdən son iki konstruksiyada cümlə üzvlərinin sayı da fərqlidir: *işləməyə başlayacaq* – bir cümlə üzvü var – xəbər; *işi başlayacaq* – iki cümlə üzvü var – xəbər və vasitəsiz tamamlıq.

Leksik tipli analitik konstruksiylarda isə konstruksiya bütünlükdə sözdüzəldici mənaları ifadə edir. Bir çox hallarda leksik tipli analitik konsturuksiyaların ifadə etdikləri mənanı quruluşca düzəltmə olan tək bir sözlə də ifadə etmək mümkün olur: маленький дом (*balaca ev*)*→домик ((rus dilində)); balaca ev→evcik, kiçik kitab→kitabça, qumlu ərazi→qumsal və s.*

Qeyd edək ki, analitizmin daha çox inkişaf etdiyi dillər üçün belə kostruksiyalar xarakterik olur. Hətta onların "düzətmə söz" formasında olan ekvivalentlərini analtizmin xarakterik olmadığı dillərə (məsələn, Azərbaycan dilinə) morfoloji quruluşunu dəyişmədən tərcümə etmək mümkün olmur, fikrin tam dəqiq ifadəsi üçün əlavə sözə ehtiyac yaranır. Məsələn, rus dilindəki *лётчица* (analitik formada: женщина лётчик), *участвовать* (həmçinin: принимать участие) kimi ifadələri dilimizə ancaq dəqiq surətdə "*təyyarəçi qadın"* və "*iştirak etmək"* kimi tərcümə etmək olar.

Analitik konsturksiyaların komponentləri arasındakı əlaqələr ideomatik və qeyri-ideomatik ola biləcəyi qeyd edilir. [1] İdeomatik əlaqəli konstruksiyalarda birləşməni (formanı) əmələ gətirən sözlərin ayrı-ayrılıqda malik olduqları lüğəvi mənalarla birləşmənin bütövlükdə ifadə etdiyi məna arasında heç bir əlaqə, uyğunluq olmur. Məsələn, başa salmaq (*→anlatmaq, izah etmək), yoldan çıxarmaq (→azdırmaq, aldatmaq), əldən düşmək (→yorulmaq), gözü su içməmək (→şübhələnmək) və s.*

Qeyri-ideomatik ifadələrə isə yuxarıda morfoloji, leksik tipli konstruksiyalar nümunə ola bilər. Ancaq bəzi tədqiqatlarda analitik konstruksiyalar kimi ideomatik konstruksiyalar tədqiqata cəlb edilmir. Bu tip konstuksiyaların mürəkkəbləşmə kimi öyrənilməsi məqsədəuyğun hesab edilir. [2, 60-61]

Bizcə də, bunların analitik konstruksiya kimi öyrənilməsi doğru deyildir. Çünki idyomatik ifadələr dildə hazır şəkikldə olur, analitik konstruksiyalar isə müəyyən qanunauyğunluq nəticəsində yaranır. Digər tərəfdən, idyomatik birləşmələr frazeologiyanın, analitik konstruksiyalar isə mmorfologiyanın struktur elementi hesab edilməlidir.

Analitik konstruksiyalarda, adətən, köməkçi element kimi xüsusi xidməti sözlərdən – artikllərdən, söz önlərindən və s. – istifadə edilir. Bu, dilçilər tərəfindən analitik dil hesab edilən dillərdə (məsələn, ingilis, rus, alman və s.) mövcud olur. Eyni zamanda desemantizasiyaya uğramış (öz ilkin mənasından uzaqlaşmış) tammənalı sözlərdən də istifadə edilə bilər. Məsələn, *məhv etmək, cəhd etmək, namaz qılmaq, gedər olmaq, səbr qılmaq* və s. kimi birləşmələrin tərkibindəki *etmək, qılmaq, olmaq* felləri desemantizasiyaya uğramış sözlərdir.

Beləliklə deyilənləri ümumiləşdirsək; sintetik və analitik deyə dil tipləri yoxdur. Bunların hər ikisi eyni dil tipində (flektiv dillərdə) qrammatik və leksik mənanın ifadəsində bir-birinə əks qütbdə dayanan iki müxtəlif ifadə üsuludur. Buna görə

də **analitik dil** ifadəsi yerinə **dildə analitizm** ifadəsinin işlədilməsi daha doğru olardı.

Analitizm yolu ilə leksik yoxsa qrammatik mənanın ifadə edildiyi dilçilikdə mübahisəli qalmışdır. Ancaq analitizm dil vahidlərin sırf xarici tərəfi ilə bağlı olduğundan, yəni burada söhbət morfoloji quruluşlardan getdiyindən burada həm leksik, həm də qrammatik mənanın ifadəsi nəzərdə tutula bilər.

Bütün dil tiplərinin (tarixi bölgüyə uyğun olaraq aqqutinativ, flektiv və amorf dillər) və bu tiplərdəki ifadə üsullarının (anlitizm, sintetizm, polisintetizm kimi) sərhədlərinin kəskin surətdə çərçivələnmədiyini, bir dildə tipoloji cəhətdən tamamilə ona zidd qütübdəki dilin müəyyən izlərinin, əlamətlərinin mövcudluğu tipoloji cəhətdən "təmiz" dil olmamasını deməyə imkan verir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. **A.A.Axundov** "*Ümumi dilçilik*" Şərq-Qərb nəşriyyatı, Bakı, 2006
2. **Q.Ş.Kazımov** "*Müasir Azərbaycan dili, Sintaksis*" Nurlan nəşriyyatı, Bakı, 2008
3. **Ə.C.Məmmədov** "Ərəb dilinin qısa kursu" Maarif nəşriyyatı, Bakı, 1988
4. Н**.А.Бонк, Г.А.Котий, Н.А.Лукьянова** «*Учебник английского языка»* I cild, Moskva, 2005
5. **Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına dilçilik institutu** "*Azərbaycan dilinin izahlı lüğəti*" II cild Şərq-Qərb nəşriyyatı, Bakı, 2006
6. **Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, Türk Dil Kurumu** "*Türkçe Sözlük*" Türk Tarih Kurumu Basım Evi, Ankara, 1988
7. http://ru.wikipedia.org/wiki/Язык

Магомед Велиев

Типологических распределение языков и аналитизм

Резюме

В статье рассказывается о типологических разделах языков. О признаки аналитизма, разновидности, функционального направления исследуются взаимосвязь с языковыми типами. Рассказывается о типы аналитические конструкции, которые отмечены в языкознание.

Muhammad Valiyev

Typological division of languages and analtysm

Summary

The is informed in the article. The peculiarity of analtysm, functional types, and mutual relations with other language type is investigated. Dispute about kind of analytic construction which indicate in the linguistics.

Rəyçi: dosent Sürəyya Cəfərova

ИРАДА АЛИЕВА
АМУ

СИСТЕМАТИЗАЦИЯ ПИСЬМЕННЫХ РЕЧЕВЫХ УПРАЖНЕНИЙ НА НАЧАЛЬНОМ ЭТАПЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ СТУДЕНТОВ-ИНОСТРАНЦЕВ

Açar sözlər: Yazılı nitq, nitqi tapşırıqlar, sistemləşdirmə.
Ключевые слова: письменная речь, речевые упражнения, истематизация.
Key words: writing, speech, oral, exercises making, systemı.

Термины «письмо» и «письменная речь» широко используются в методике преподавания русского языка как иностранного. Письмо, т.е. «овладение графической системой языка для фиксирования отдельных слов»*, является начальной стадией обучения письменной речи.

Письменная речь, т.е. «умение сочетать эти слова в письменной форме для выражения мыслей в соответствии с потребностями общения»** в свою очередь, может «иметь самостоятельное значение, выдвигаться в качестве цели обучения»***, рассматриваться как методическое средство обучения другим видам речевой деятельности.

Так, используя на уроках чтения и обучения устной речи различные письменные упражнения, преподаватель помогает студентам легче, быстрее и прочнее усвоить предложенный материал. После письменных упражнений лучше запоминаются единицы речи, орфографические и грамматические формы слова, снижается количество грамматических ошибок, ускоряется овладение техникой чтения. Учитывая вышеперечисленное, можно с уверенностью сказать, что письменные работы являются неотъемлемой частью обучения русскому языку студентов-иностранцев подготовительного отделения. Успех обучения письму во многом зависит от того, насколько четко студент осознает цели, результаты и условия выполнения различных видов письменных работ. Поэтому важным моментом урока по формированию навыков письменной речи является четкое определение цели каждого вида упражнений, обеспечение постоянного перехода от простого к сложному и выработка у студентов умения верно оценить результаты своей работы. На начальном этапе обучения студентов-иностранцев русскому языку большое внимание уделяется списыванию, при котором студент производит действия (видит, произносит про себя, пишет), которые способствуют запоминанию. Упражнения на списывание можно с первых же дней обучения предлагать и в виде домашнего задания. Подобные упражнения целесообразнее располагать по степени нарастания трудностей:

А) списать (с доски или из книги) только строчные буквы;

Б) списать только заглавные буквы;

---

* Леонтьева А.А., Королева Т.А., Методика, М., «Русский язык», 1977
** Леонтьева А.А., Королева Т.А., Методика, М., «Русский язык», 1977
*** Леонтьева А.А., Королева Т.А., Методика, М., «Русский язык», 1977

В) печатные буквы, слоги, односложные слова из книги переписать в тетрадь прописными буквами;

Г) переписать короткий текст;

Д) выборочно списать слова или предложения, которые содержат определенные грамматические конструкции;

Е) списать предложения, которые являются ответом на определенный вопрос;

Ж) провести списывание с установкой заменить одни грамматические формы другими и т.д.

К числу подготовительных упражнений, развивающих навыки и умения письменного выражения мыслей, относятся различные виды диктантов. Диктант удобен тем, что его текст можно составлять на основе изучаемого материала. Диктант развивает навыки правильного восприятия звуков, слов, словосочетаний, предложений, позволяет проверить усвоение соотношения между звуковым и графическим образом слова. Использование на уроках различных типов диктантов помогает студентам, воспринимая на слух новые слова, различить, правильно воспроизвести и записать их.

Одним из таких диктантов является диктант-слово. Его цель графическое воспроизведение звуков и работа над лексикой. В подобном диктанте не выделяют фонетический или лексический аспект. Так, изучая тему «мягкие и твердые согласные», для диктанта можно подобрать слова на различие этих звуков.

Для закрепления интонационного различия между повествовательным, восклицательным и вопросительным предложениями можно использовать диктант-предложение, когда диктуется одно и то же предложение в различных интонационных вариантах: Это мама. Это мама? Это мама!

Студентам на начальном этапе можно предложить и диктант-текст, составленный на основе лексики, относящейся к определенной теме. Например: «Моя семья», «Наша аудитория» и др. В процессе написания диктанта студенты могут вносить изменения в его текст. Например, трансформировать видовременные глагольные формы. Диктант такого типа представляет собой подготовительное упражнение к изложению и активизирует самостоятельность студентов.

Дает положительные результаты и вызывает большой интерес у студентов диктант-изложение, когда преподаватель, прочитав сначала текст полностью, диктует только его начало. Затем студентам предлагается изложить самостоятельно, т.е. своими словами оставшуюся часть текста.

Написание диктантов обуславливается не только владением техникой письма, навыками аудирования, но и восприятием, пониманием связной формы. На начальном этапе преподавания целесообразно использовать следующие виды орфографических диктантов:

А) зрительные – преподаватель записывает на доске трудные слова, обращает внимание студентов на их правописание, анализирует и объясняет орфографические явления. Затем стирает их с доски и диктует предложения с этими словами;

Б) слуховые – преподаватель зачитывает весь текст, чтобы студенты ознакомились с его содержанием. Затем каждое предложение читается дважды в нормальном темпе с соблюдением правил орфографии. Студенты записывают предложения в тетрадь;

в) зрительно-слуховые преподаватель диктует предложения с трудными словами, которые одновременно записываются одним студентом на доске, остальными – в тетрадь. Затем анализируются ошибки в записях на доске;

г) самодиктанты – студенты по памяти пишут текст (желательно в стихотворной форме), заученный дома.

От указанных орфографических диктантов совершенно отличаются творческие и свободные диктанты. Они направлены на формирование навыков письменной речи и выработку способности самостоятельного составления письменного текста. Проводя творческий диктант, преподаватель диктует начало текста, а студенты каждый по своему усмотрению заканчивают его.

Предлагая студентам свободный диктант, преподаватель диктует текст один раз. Студенты слушают, а затем записывают его так, как запомнили.

Одним из видов речевых упражнений, рекомендуемых для начального этапа, является изложение, которое представляет собой комплексное упражнение по грамматике, лексике и стилистике. Изложение можно проводить как по изученному, так и по незнакомому тексту. Во втором случае текст должен содержать минимум незнакомых слов и включать в себя уже пройденный грамматический и лексический материал. Изложение пишется после прочтения текста преподавателем один или два раза. Затем объясняется значение новых слов, к некоторым словам приводятся синонимичные и антонимичные замены, проводятся различные трансформации синтаксических конструкций, текст делится на смысловые части, составляется план текста. В процессе чтения текста изложения преподаватель может предъявить студентам и средства наглядности, в виде рисунков, фотоснимков, слайдов и др., которые создают визуальную опору. К изложению могут быть предложены и грамматические задания. Например, изменить время глаголов с прошедшего на настоящее, изложить текст от первого лица и др.

Будучи самостоятельным видом упражнения, изложение контролирует и закрепляет языковой материал, а также является ступенью для перехода к сочинению.

Сочинение - еще один вид творческого речевого упражнения, материалом для которого могут быть темы повседневной жизни, репродукции картин известных мастеров, литературные произведения, кинофильмы, экскурсии.

На начальном этапе обучения студентам-иностранцам рекомендуется писать сочинения-миниатюры, состоящие из нескольких предложений и опирающихся на пройденную разговорную тему («Мой день», «Наша группа» и т.п.)

Для формирования навыков письменной речи можно предложить студентам сочинение по опорным словам, которые должны составлять основу текста. Такой вид работы используется для закрепления грамматических тем.

Так, сочинение на тему «Моя комната» поможет закрепить употребление предложного падежа и предлогов «в» и «на».

Материалом для сочинения может служить экскурсия. Подготовку к такому сочинению необходимо начать с лексической работы, предшествующей экскурсии. А после экскурсии можно закрепить увиденное беседой по предложенным преподавателем вопросам.

К этому виду сочинений близки сочинения по кинофильму. Так как для студентов-иностранцев начального этапа это объемный материал, им рекомендуется писать сочинение по какому-нибудь эпизоду кинофильма.

На начальном этапе обучения в качестве речевых упражнений студентам предлагается написание «частного бытового письма». Такие упражнения, как и изложения, являются переходными к сочинению. Они служат средством получения и предъявления информации, требуют от студентов овладения необходимым объемом лексического и грамматического материала и умения оперировать им в письменной форме. Кроме того, письма, как вид упражнений, дают преподавателю возможность контролировать навыки использования студентами таких конструкций речевого этикета, как приветствие, прощание, поздравление, благодарность, написание адреса и т.п.

Вариантом описанного выше речевого упражнения является оформление прочитанного текста в виде письма, т.е. эпистоляция текста. Для этого студентам предлагается маленький по объему текст, содержание которого надо передать знакомому в форме письма, написанного от первого лица.

Завершающим этапом всех видов предложенных выше письменных речевых упражнений является работа над ошибками. Преподаватель разъясняет типичные ошибки, дает задание на их исправление.

Таким образом, к концу начального этапа обучения русскому языку у студентов-иностранцев должны быть сформированы следующие умения:

А) «изложить письменно общее содержание прочитанного или прослушанного текста;

Б) составить письменно рассказ по изученной теме с опорой на зрительную наглядность или по предложенным вопросам при активном использовании изученного языкового материала, правильном и логичном изложении;

В) составить письменно рассказ биографического характера, поздравительное или дружеское письмо в пределах изученного лексико-грамматического и ситуативно-тематического материала»*.

* Дергачева Г.И. и др. Методика преподавания русского языка как иностранного на начальном этапе, М., «Русский язык», 1989

Литература:

1. Аркадьева Э.В. и др., живая методика, М., «Русский язык», 2005
2. Дергачева Г.И. и др., методика преподавания русского языка как иностранного на начальном этапе, М., «Русский язык», 1989
3. Леонтьева А.А., Королева Т.А., методика, М., «Русский язык», 1977

İ.B. Əliyeva

Rus dilinin tədrisinin başlanğıc mərhələsində
xarici tələbələrin yazılı dil məşğələlərinin sistemləşdirilməsi.
Xülasə

Başlanğıc mərhələsində xarici tələbələr üçün yazılı işlər rus dili tədrisinin ayrılmaz hissəsidir. Köçürmə, imla, ifadə, inşa və s. kimi yazılı işlər xarici tələbələrin keçdiyi materialları daha asan, tez və mükəmməl mənimsəməyə kömək edir, qrammatik səhvləri azaldır, oxuma texnikasını sürətləndirir.

I.B. Aliyeva

Systematization of written works at the initial
stage of teaching foreign students the Russian language.
Summary

Written works are inseparable part of teaching foreign Russian language to foreign students at the initial stage. Written works as copying, dictation, reproduction, composition and so on help students to acquire the material learned easier and quicker as well as make fewer the member of grammar mistakes and accelerate acquisition of reading technique.

Rəyçi: L.Həsənzadə
filologiya elmləri namizədi

НАДЖАФ НАБИЕВ
НАРГИЗ МУРАДОВА
Кафедра иностранных языков -1 Аз.ГЭУ
najafnab@yahoo.com

СМЫСЛОВОЙ АНАЛИЗ ИСХОДНОГО ТЕКСТА КАК СРЕДСТВО ДОСТИЖЕНИЯ ЭКВИВАЛЕНТНОСТИ ПЕРЕВОДНОГО ТЕКСТА

Ключевые слова: анализ текста, широкий контекст, грамматические элементы, перевод текста, содержание текста, задачи переводчика.

Açar sözlər: mətnin təhlili, geniş kontekst, qrammatik elementlər, mətnin tərcüməsi, mətnin məzmunu, tərcüməçinin vəzifələri.

Key words: text analysis, large context, grammatical elements, text translation, text context, translator's obligations.

Перевод обычно рассматривается как специфическая межъязыковая деятельность по преобразованию исходного текста в текст перевода и сохранению смысла текста. Текст-исходный пункт и результат переводческой деятельности, в которой язык является средством коммуникации, а мышление– средством установления межъязыковых соответствий. Описание перевода как одного из видов речевой деятельности требует определить связь мысли, языка и мира, функции и место языка в познании и коммуникации. Отсюда возникает необходимость интегративного описания перевода.

Существуют различные виды восприятия текста и работы с ним. Он выступает в качестве объекта изучения со стороны ученых различных специальностей как элемент определенной информационной системы, а также представляет собой объект разнообразных преобразований: сокращения, расширения, перевода, приложения, обзора и т. д. Текст как продукт интеллекта характеризуется независимостью по отношению к тем интеллектуальным процессам, которые его создали, и сложностью структурной организации. Следовательно, при его восприятии могут возникнуть определенные объективные и субъективные трудности в восстановлении мысли автора. Адресат может снять их, имея навыки анализа текста. Трудность формального описания принципов анализа текста заключается в содержательном разнообразии и богатстве естественного языка и мышления, в необязательности представления данных принципов для человека в виде эксплицитных формальных правил. Однако обмен информацией становится одним из важнейших стимулов развития общества, и возникает необходимость эксплицировать свойства интеллекта, их обобщить.

Анализ текста при переводе не совпадает с лингвистическим исследованием текста, так как последнее предполагает описание свойств языка и речи, а перевод - преобразование средств выражения содержания текста. Существует несколько видов профессиональной деятельности, занимающихся преобразованием средств выражения текста: редактирование, реферирование, адаптирование, комментирование, рецензирование и т. д. В процессе подобной деятельности устанавливают, какими средствами передается, развертывается

мысль автора и с какой целью, а затем:

1. Приводят в соответствие форму и содержание мысли автора - в случае редактирования;

2. Передают адекватное соотношение формы и содержания текста на другом языке - в случае перевода;

3. Устанавливают противоречивость или логичность мысли автора - в случае рецензирования;

4.Упрощают средства выражения и структуру изложения - в случае адаптирования текста;

5.Обобщают, сокращают, свертывают текст - в случае реферирования, аннотирования и обзора.

В результате специальную, профессиональную речевую деятельность можно охарактеризовать как содержательную обработку текста, которая заключается в анализе формы и содержания текста и в преобразовании текста согласно целям коммуникации. При содержательном анализе текста учитывают следующие уровни текста: лингвистический, логический и предметный. На лингвистическом уровне рассматриваются лексические и грамматические элементы текста. На логическом уровне характеризуют текст как повествование, описание, рассуждение и т. п. На предметном уровне анализируются структуры предметных областей и фоновые, то есть экстралингвистические, знания. Фоновые знания включают в себя широкий прагматический контекст, под которым понимается определенная сфера коммуникации, характеризующаяся определенными целями, условиями и содержанием.

При переводе текста происходит поиск различных решений, которые должны отвечать определенному набору функциональных критериев, ибо существует множество факторов, влияющих на результат перевода, а широкие возможности перефразирования обусловливают не единичность перевода. Необходимо привести варьирующиеся функциональные критерии в определенную систему. Переводческая интерпретация смыслового содержания текста включает анализ следующих контекстов:

1.Прагматический контекст, характеризующий сферу коммуникации, к которой относится данный текст;

2.Ситуативный контекст, то есть область действительности, которую описывает данный текст и которая также накладывает определенные ограничения на интерпретацию высказываний текста и функций его языковых средств, введение экстралингвистических знаний в лингвистическое обеспечение;

3.Концептуальный контекст, который представляет собой логические средства организации текста, контекста, мысли автора и влияет на интерпретацию значений и высказываний в тексте;

4.Лингвистический контекст - то есть характеристики грамматических элементов, конкретные типы их сочетаемости.

Структура содержания текста принципиально отлична от лексико-грамматической структуры текста, ибо заключается в различных способах реализации их организации: *словесная форма текста линейна, дискретна, а содержание текста целостно, иерархично, симультанно.*

Трудности смыслового анализа текста при переводе возникают в силу следующих причин:

1.Элементы языка многозначны и полифункциональны, а текст может быть однозначным или двусмысленным, прагматически содержательным и намеренным.

2.Содержание текста формируется на основе значения слов и грамматических форм, а реципиент текста вкладывает в текст и извлекает из него больше информации, чем в нем явно вербализовано.

3.Текст характеризуется линейностью, дискретностью, последовательностью лексико-грамматических структур, а его восприятие и понимание - иерархичностью, целостностью и объемностью.

4.Материальное и идеальное в речевой деятельности не совпадают: отражаемый в сознании мир материален, а человеческое сознание идеально, концептуально.

5.Человек владеет речью на промежуточном уровне между сознательным и подсознательным, а в переводе необходимо эксплицитное представление языковой и неязыковой компетентности.

Предназначение перевода заключается в обеспечении двуязычной коммуникации, которая по своим наиболее существенным параметрам в максимально возможной степени для данных лингвистических и экстралингвистических условий приближена к одноязычной коммуникации. Важнейшей задачей переводчика является как наиболее полное воспроизведение содержания отдельных единиц текста оригинала, так и сохранение смыслового единства текста, точная передача характера связи между отдельными высказываниями в тексте перевода. Информация, которую коммуниканты получают путем интерпретации значений языковых единиц, составляющих высказывание, выступает в качестве собственно языкового содержания высказывания. Однако глобальное содержание текста складывается не только из языкового содержания, конкретно-контекстуального смысла, но и из способности языкового содержания высказывания передавать дополнительный, имплицитный смысл, связанный с ним и выводимый из него коммуникантами.

Следовательно, перевод - это передача как выраженной, так и подразумеваемой информации, содержащейся в тексте, при сохранении соотношения обоих видов информации. Непосредственным объектом переводческой деятельности является не сам текст как упорядоченная совокупность языковых единиц, а его смысл, который передается с соблюдением переводческой коммуникативно-функциональной эквивалентности. Разнообразие письменных текстов велико. В зависимости от характерных признаков текста переводчик отыскивает средства перевода. В данной статье предлагается краткая характеристика тех разновидностей текстов, которые чаще всего встречаются в практическом освоении языка. Разграничение типов текстов опирается на теорию речевых жанров, но предлагает гораздо более ограниченный набор разновидностей, так как многие близкие жанры не различаются по переводческому подходу, и более простой состав характерных признаков, поскольку не все признаки важны для перевода. Значительная часть описанных здесь типов

текста войдет в занятия по переводческому анализу. В описании типов текстов даны лишь их характеристики, но нет рекомендаций, так как, во-первых, для каждого текста удобнее всего своя последовательность анализа. Во-вторых, от подготовленности и настроя аудитории тоже зависит, как лучше всего подать материал: в одних случаях можно начать с анализа лексики и по этому пути прийти к обсуждению состава информации, в других - обязательно с внешних сведений о тексте; а иногда только с моделирования текста и имеет смысл начинать обсуждение. Короче говоря, тактика анализа - дело преподавательской техники.

Список использованной литературы

1.Чернявская В.Е. Интерпретация научного текста. Уч. пособие. - М.: 2005.
2. Аликаев Р.С. Язык науки в парадигме современной лингвистики. - Нальчик: 1999.
3. Троянская Е.С. К вопросу о лингвостилистических признаках функциональных стилей // Стиль научной речи. - М., 1978.
4. Кожина М.Н. Смысловая структура текста в аспекте стилистики научного текста. Очерки истории научного стиля русского литературного языка 18-20
5.Котюрова М.Н. Об экстралингвистических основаниях смысловой структуры научного текста (функционально-стилистический аспект). Красноярск: Изд-во Краснояр. ун-та, 1988.
6. Бахтин М.М. Эстетика словесного творчества. М., 1979.
7.Колесникова Н.И. От конспекта к диссертации. Уч. пособие по развитию навыков письменной речи. - М.: Наука, 2006.
8.Jordan R.R. Academic Writing Course. Study skills in English. 3rd ed. London: Longman, 1999.

Nəcəf Nəbiyev
Nərgiz Muradova

Mətnin məna təhlili onun tərcüməsində əsas vasitə kimi

Xülasə

Mətnlərin müxtəlifliyini və ifadə vasitələrinin səciyyəvi xüsusiyyətlərini nəzərə alaraq tərcümçi onlara uyğun olan ifadə vasitələri seçərək tərcüməni mətnin məzmununa uyğun şəkildə aparmalıdır. Bundan başqa tərcümə zamanı auditoriyanın xüsusiyyətləri və onlara çatdırılacaq informasiyanın əlamətləri də nəzərə alınır. Bu faktorlar daim tərcüməçinin diqqət mərkəzində olmalıdır.

Najaf Nabiyev
Nargiz Muradova

Contextual analysis of the given text as a major means
of its translation
Summary

During the interpretation translator is to take into consideration by all means the difference of the texts and peculiarities of expression means and meanwhile he must choose the corresponding facilities according to the content of the texts. Besides, the translator works out the different characteristics of the audience and presenting information. These factors must be in the center of the translator's attention.

Rəyçi: Xavər Hacıyeva
filologiya üzrə fəlsəfə doktoru

GÜLƏR HƏSƏNOVA
Azərbaycan Dillər Universiteti

TƏDRİS PROSESİNDƏ KOMMUNİKASİYANIN TƏŞKİLİ VƏ ROLU

Açar sözlər: metod, kommunikasiya, tədris, motivasiya, müəllim
Key words: method, communication, teaching, motivation, teacher
Ключевые слова: метод, коммуникация, обучение, мотивация, преподаватель.

Yer üzərində həyat mövcud olduğu vaxtdan etibarən hər bilr canlı sadədən mürəkkəbə doğru inkişaf yolu keçmiş, keçir və keçəcəkdir. Bu sadəliklər insanın idrak fəaliyyətinin inkişafı ilə bağlı şəkildə tədricən formalaşmış, ictimai təcrübə əsasında inkişaf edərək təkmilləşmişdir. Bütün bunlar isə təbiət və cəmiyyət hadisələrindən qaynaqlanmışdır.

Məhz, bu hadisələrə hansı aspektdən yanaşmaq artıq tədqiqatçının təfəkküründən, ideya məhsulundan, qısaca maraq dairəsindən asılıdır.

İstənilən halda hər hansısa, bir elmin açarlarını əlimizə alıb, onunla maraqlanırıqsa, ilk öncə bu elmin öyrənmə və öyrətmə yoluna, metoduna nəzər salmalıyıq. Çünki, metod tədqiq olunan obyektin şüurda adekvat şəkildə əks etdirilməsi, onun mahiyyətinin aşkara çıxarılması, qanunlarının dərk olunması üçün tətbiq edilən üsulların məcmusudur.

Metod tədqiqatçının zövqü əsasında müəyyənləşdirilmir, o, obyektiv məna kəsb edir; metod tədqiqat obyektinə tabedir və həmin obyektlə müəyyənləşdirilir.

Elmin bütün metodları üç qrupa bölünür:

1. Ümumi metodlar
2. Xüsusi metodlar
3. Spesifik metodlar

Ümumi metodlar dialektik metod, xüsusi metodlar induktiv metod və nəhayət sonuncu, spesifik metodlar isə ancaq bir elm sahəsində tətbiq edilən metodlar əsasında formalaşır.

Bəs təlim metodları? Bunlar nədir? Ümumiyyətlə, metoddan bəhs edərkən, yuxarıda qeyd etdik ki, tədqiq olunan obyektin şüurda adekvat şəkildə əks etdirilməsi, onun (obyektin) mahiyyətinin aşkara çıxarılması və qanunlarının dərk olunması üçün tətbiq olunan üsulların məcmusudur. Təlim metodları da təxminən buna bənzəyir. Belə ki, təlim metodları dərsdə keçirilən materialın öyrəncinin şüurunda adekvat şəkildə əks etdirilməsi, fənnin mahiyyətinin başa salınması və qanunlarının dərk olunması uçun müəllimin tətbiq etdiyi üsulların məcmusu, sistemidir.

Nəsillər arasında varisliyi təmin etmək üçün "necə öyrətmək" sualı tarix boyu ənənəvi didaktik suallardan biri olmuşdur. Ona cavab olaraq müxtəlif metodlar tapılmışdır. Metodlarsız qarşıda qoyulan məqsədə çatmaq, nəzərdə tutulmuş məzmunu öyrətmək, şagirdlərin idrak fəaliyyətini təşkil etmək mümkün deyil. Metod tədris prosesinin özəyidir. Metod layihələndirilmiş məqsəd ilə son nəticə arasında birləşdirici həlqədir. "Məqsəd-məzmun-metodlar-formalar-təlim vasitələri" sistemində metodun rolu müəyyənedicidir.

Təlim metodu təlimdə müəyyən məqsədə nail olmaq üçün müəllim və şagirdlərin nizama salınmış fəaliyyətidir. Təlim metodları dedikdə məqsədlərə nail olmaq, təhsil vəzifələrini həll etmək yollarının məcmusu başa düşülür. Pedaqoji ədəbiyyatda metod anlayışı bəzən ancaq müəllimin və ya şagirdlərin fəaliyyətinə aid edilir. Müəllimin fəaliyyəti ilə bağlı olanda tədris metodları, şagirdlərin fəaliyyətinə aid edildikdə öyrənmə metodları, müəllim və şagirdlərin birgə fəaliyyətindən söhbət gedirsə, təlim metodları anlayışını işlətmək lazımdır.

Təlim metodları strukturunda priyomlar (tərzlər) da fərqlənir. Priyom metodun elementidir, onun tərkib hissəsidir. Metodun tətbiqində ayrıca addımdır.

Təlim metodu mürəkkəb, çoxcəhətli, çoxkeyfiyyətli bir qurumdur. Təlimin məqsədi, məzmunu, qanunauyğunluqları, prinsipləri, formaları təlim metodunda öz əksini tapır. Nə işin məqsədi, nə məzmunu nə formaları metodların praktiki həyata keçirilmə imkanlarını nəzərə almadan müəyyənləşdirilə bilməz. Bu imkanları məhz metodlar təmin edir. Metodlar didaktik sistemin inkişaf sürətinə təkan verir. Təlimdə tətbiq edilən metodlar irəli getməyə nə qədər imkan verərsə, təlimin səmərəsi də bir o qədər yüksək olar.

Təlim metodlarının strukturunda obyektiv və subyektiv hissələr vardır. Metodun obyektiv hissəsi hər hansı metodda iştirak edən ümumi didaktik müddəalarda, qanunauyğunluqların, prinsiplərin və qaydaların tələblərində, həmçinin təlim fəaliyyətinin məqsədlərində, məzmununda və formalarında öz əksini tapır. Metodun subyektiv hissəsi pedaqoqun şəxsiyyəti, şagirdlərin xüsusiyyətləri, konkret şəraitlə şərtlənir. Metodda obyektiv və subyektiv hissələrin nisbəti məsələsi çox mürəkkəbdir. Bu məsələdə fikirlərin diapazonu çox genişdir: bir tərəfdən metod sırf obyektiv qurum kimi qəbul edilir, digər tərəfdən pedaqoqun şəxsi, təkrarolunmaz məhsulu hesab olunur. Metodda daimi, hər şey üçün obyektiv hissənin olması didaktlara metodlar nəzəriyyəsini işləyib hazırlamağa əsas vermişdir. Metodlar sahəsində şəxsi yaradıcılıq, pedaqoqların fərdi ustalığı daha çox özünü göstərir. Ona görə də təlim metodları yüksək pedaqoji ustalıq sferası olmuş və olacaqdır. Metodu təkcə müəllimin ustalığı ilə bağlamaq düzgün olmazdı. Belə ki, şagirdləri təkcə improvizasiya ustaları yox, həm də sərt məntiq sahibləri yaxşı öyrədirlər. Ona görə də metoda qarşıya qoyulmuş məqsədə çatmağı təmin edən alqoritmləşdirilmiş məntiqi əməliyyatlar sistemi kimi baxmaq olar. Metodda həm soyuq məntiq, həm alovlu müəllim qəlbi, həm niyyət, həm də improvizasiya vardır. Metodlar nəzəriyyəsinin və praktikasının əsaslandırılması bu məsələnin düzgün həllindən asılıdır. Təxəyyülümüzdə canlandırdığınız metodun tərəflərinə bir daha baxaq:

1) təlim-tərbiyə fəaliyyətinin məqsədinin müəllim tərəfindən layihələşdirilməsi;
2) bu məqsədlərə nail olmaq müəllimin seçdiyi yollar;
3) qarşıda qoyulmuş vəzifələrə uyğun əməkdaşlıq yolları;
4) təlimin məzmununun konkret tədris materialı ilə birlikdə məcmusu;
5) təlim və təhsil-tərbiyə prosesinin məntiqi (qanunauyğunluqlar, prinsiplər);
6) informasiya mənbələri;
7) təlim-tərbiyə prosesi iştirakçılarının fəallığı;
8) müəllimin ustalığı;

9) təlimdə priyomlar və vasitələr sistemi və bir çox başqa əlamətlər. Metod pedaqoji fəaliyyətin başlıca əlamətidir. Məhz onun köməyi ilə təlim məhsulu istehsal olunur, müəllimlə şagirdlərin qarşılıqlı təsiri həyata keçirilir.

Göründüyü kimi, metoda birmənalı və tam tərif vermək çətindir. Hətta ən yaxşı bir tərifl ə çoxölçülü hadisə olan metodu əhatə və ifadə etmək mümkün deyil. Ona görə də metodun dərin mahiyyətini və bütün əlamətlərini əks etdirməyən sadələşdirilmiş tərəfindən istifadə etməli oluruq: təlim metodu təhsil-tərbiyə məqsədlərinə nail olmaq üçün pedaqoq və şagirdlərin nizama salınmış qarşılıqlı fəaliyyətidir.

Qeyd etdik ki, təlim metodu çoxölçülü bir qurumdur, onun çoxlu tərəfləri və əlamətləri vardır. Həmin tərəflərin hər birinə görə metodlar sistemlər halında qruplaşdırılmış və nəticədə metodların çoxlu təsnifatları meydana gəlmişdir. Burada bir sual meydana çıxır: yaradılan bu və ya digər təsnifat nə qədər məqsədəuyğundur? Belə ki, bəzən bu təsnifatlar süni görünür, metodlar nəzəriyyəsini dumanlı bir şəklə salır, müəllimlər üçün yersiz çətinliklər yaradır.

Təlim metodların təsnifatı dedikdə həmin metodların müəyyən əlamətləri əsasında nizama salınmış sistemi başa düşülür. Müasir didaktikada belə bir fikir formalaşmışdır ki, vahid və dəyişməz metodlar sistemi yaratmağa çalışmaq lazım deyil. Təlim olduqca hərəkətli və dinamik prosesdir. Metodlar sistemi dinamik olmalıdır ki, təlim praktikasında daim baş verən dəyişikliyi əks etdirsin.

Bu fikirlər həm ənənəvi, həm də interaktiv dərslərə şamil oluna bilər.

Müasir dövrün tələblərinə görə bütün tədris ocaqlarında tədrisin səviyyəsinin yüksəldilməsi məqsədi ilə öyrəncilərdə ümumbəşəri biliklərin qazanılması və təkmilləşdirilməsi yolunda xeyli sayda, müsbət töhfəsi göz önündə olan islahatlar həyata keçirilir. Bu islahatlardan demək olar ki, ilklərindən sayılan, təlimdə yeni texnologiyaların, üsulların tətbiqi daha səmərəli islahatdır, desək, məncə yanılmarıq.

Belə ki, uzun illər ənənəvi təlimin prinsiplərinə əsaslanaraq, tədris prosesində bütün ağırlıq əgər müəllimin üzərinə yüklənirdisə, müasir sistemimizdə bu proses daha sadələşdirilmiş, yüngülləşdirilmiş, bütün bunlarla yanaşı, öyrəncilərin daha rahat, daha sərbəst, yaradıcı yolla öyrənmələrinə zəmin yaradılmışdır.

Lakin, bu heç də müəllimə, öyrədənə əvvəlki qədər ehtiyac olmadığı anlamına gəlmir. Əksinə bu gün müəllimlərədn daha yüksək fəallıq tələb olunr.Onlar işdə daha çox yaradıcılıq göstərməli, pedaqoji, metodiki texnologiyaların mahiyyətinə bələd olmalı, araşdırmacıl, yenilikçi olmağı qarşılarına prioritet məqsəd kimi qoymalı və bu məqsədə çatmaq üçün dayanmadan, yorulmadan çalışmalıdırlar.

Qeyd etdiyimiz kimi, öyrəncinin rolu müasir təlimin başlıca xüsusiyyətidir. Təbii ki, birdən – birə formalaşmayan bu prosesin yaranması və inkişafında xarici ölkələrin səriştə və təcrübəsinə əsaslanılmış, o, sistemlərdən qaynaqlanılıb bəhrələnilmişdir.

Əvvəllər, yəni ənənəvi üsulla öyrədilmə - öyrətmə dövründə (başqa sözlə desək, Sovet təhsil sistemində), sanki, bir xətt üzrə cərəyan edən tədris prosesi indi müxtəlif maraqlı üsullara və taktikalara əsaslanır.

Bəs müasir tədris prosesində kommunikativ təlim hansı amala xidmət edir? Bu suala cavab vermək üçün istənilən bir fənn deyil, fikirlərimizi daha dolğun çatdırmaq üçün xarici dilin tədrisinə nəzər salaq.

Xarici dilin tədrisi ümumtəhsil prosesinin tərkib hissəsi olsa da, o, digər fənlərin tədrisindən fərqlənir və özünəməxsus xüsusiyyətləri ilə ayrıca bir mövqe tutur. Bu baxımdan xarici dilin tədrisi xarici dil üçün səciyyəvi metodların tətbiqini tələb edir. Hazirda belə metodlar xarici dilin ünsiyyət prosesinə çevrilməsinə xidmət edir. Bunlar da öz növbəsində öyrəncinin (həm tələbə, həm də şagird, hətta məktəbəqədər müəssisənin öyrənəni nəzərdə tutulur) eşidib anlama, səsləri düzgün tələffüz etmə, fikirlərin xarici dildə çatdırılma bacarığı kommunikasiya prosesində yaradıla bilər.

Kommunikasiyanın düzgün təşkili üçün dərs zamanı fonetik, leksik və qrammatik qaydaların mənimsənilməsi ilə ünsiyyətin yaradılması paralel şəkildə aparılmalıdır. Bir sözlə, müəllim tərəfindən tədris olunan linqvistik materialın mənimsənilməsinə öyrəncilər üçün real həyata uyğun olan kommunikasiya şəraiti yaradılmalıdır.

Kommunikasiyanın təşkili hansı şəkildə qurulmalı və aparılmalıdır? Bayaqkı fikirlərimə yenidən qayıtmaq istərdim. Belə ki, yuxarıda qeyd etdim ki, uzun illər müraciət etdiyimiz və eyni zamanda tətbiq etdiyimiz ənənəvi təhsil sistemində, təhsil prosesində əsas, aparıcı şəxs müəllim idi. Dərsin özülünü, gedişatını, bir sözlə bütün prosesi müəllimin monoloqu təşkil edirdi.

Bu proses üçün ayrılan zaman müddətində təkrarçlıq, hazır biliklərə doğru öyrəncini aparmaq, araşdırmaçılıq hissindən yayındırıb məhrum etmək, cəzalandırma və s. şagirdlərdə nisbətən passivliyin, mühakimə yürütmə hissinin formalaşmamasına zəmin yaradılırdı. Bu halda müəllim – öyrədən bir növ drijoru xatırladırdı. B prosesde iştirakçılar arasında bilavasitə qarşılıqlı əlaqə fəaliyyətin gedişatından deyil, əvvəlcədən hazırlanmış proqram əsasında qurulurdu.

Ukraynanın görkəmli tədqiqatçısı, professor Olena Pometun özünün "Энциклопедия интерактивного обучения" kitabında bu məsələnin sxemini çox gözəl işləmişdir.



(A – müəllim; B, C, D, E- isə öyrəncilər)

Qeyd etdiyimiz proses bu sxemdə öz əksini çox gözəl tapıb. Bir məsələyə də diqqət çəkmək istərdim. Əgər bu prosesdə bu və ya digər öyrənci bütün tədris ili boyunca müəyyən sayla qiymətləndirilmiş, yəni dərs prosesində iştirak etmiş olurdusa,müasir təlimin verdiyi üstünlük bununla izah oluna bilər ki, hal – hazırda bütün tədris ili müddətində hər bir öyrənci fəaliyyətdə olur, aktiv iştirak edirlər.

Interaktiv təlim kommunikasiyanın bütün formalarından istifadə etməklə təşkil olunur.

Pometun prosesi bu cür təsvir edir:

Çoxtərəfli kommunikasiya modeli

A – müəllim – öyrədən
B, C, D, E, K – öyrəncilər



Sxemdən göründüyü kimi bayaq daha sadə təşkil olunmuş tədris prosesi, indi daha dolğun, daha aktiv, daha fəaliyyətyönümlüdür. Burada kommunikativ əlaqələr tək öyrənənlə - öyrədən arasında deyil, həm də öyrənənlə - öyrənən, öyrənən – öyrədən – öyrənən arasında həyata keçirilir.

Lakin çoxtərəfli kommunikasiyanın işi bununla bitmir, çoxətraflı kommunikasiya prosesində öyrəncilər dərsdə onlara motivasiya yoluyla qoyulmuş məsləni həll etməyə çalışırlar. Bu həm təfəkkür, həm də təxəyyül prosesinin geniş fəaliyyətinə rəvac vermiş olur. Bəzən hər kəsin zəif, yaxşı oxumayan hesab etdiyi öyrənci, məhz, çoxətraflı kommunikasiya prosesində ən fəal öyrənənə və eyni zamanda ötürənə çevrilir.

Bu isə öz növbəsində öyrəncidə özünə güvən, sərbəstlik, maraq, həvəs və s. kimi hisslərin yaranmasına vüsət verir.

Kommunikasiyanın rolunu bununla məhdudlaşdırmaq olmaz. Motivasiyadan bəhs edərkən, bir məsələni də ön plana çəkmək istərdim. Motivasiya müasir təlimin vazkeçilməzidir desək yanılmarıq. Çünki, bütün dərsin məğzi, məhz, motivasiyada toplanır. Motivasiya, bildiyimiz kimi rəsm əsəri, musiqi parçası, hər hansısa bir filmdən qısa bir fraqment, bir şəkil, şeir nümunəsi, səhnəcik və s. ola bilər. Burada kommunikasiyanın rolu nədən ibarətdir? Cavabı, elə ilk baxışda istənilən fənnin musiqi, kinomatoqrafiya, fotoqrafiya, ədəbiyyat, rəssamlıq, məntiq və s. ilə əlaqəsi, başqa sözlə desək kommunikasiyası ortaya çıxmış olur.

Ümumiyyətlə, kommunikasiyanın tədris prosesinin, xüsusən də, müasir tədris prosesinin özülü, əsası, təməli, vazkeçilməzi adlandırsaq, məncə, qətiyyən yanılmarıq.

Məhz, kommunikasiyanın köməyi ilə biryönlü tədris tabusu yıxılmış, onun əvəzinə daha faydalı, səmərəli, çox şaxəli çoxyönlü tədris prosesi öyrəncilərin və öyrədənlərin inkişaf dinamikasına təkan vermişdir.

Hələ 2500 il əvvəl məşhur Çin filosof – alimi Konfusinin dediyi "Mən eşitdiyimi unuduram, gördüyümü yadda saxlayıram, etdiyimi başa düşürəm" ifadələri, çox şübhəsiz ki, öz aktuallığı ilə diqqət çəkir. Əgər filosofun dediyi fikirləri toplasaq bugünkü tədrisin, yəni müasir tədris prosesinin tarixi təməl prinsiplərini aşkar etmiş olarıq.

Bugün müasir təlim və tədrisin bizə verdiyi imkanlardan bəhrələnərək, kommunikativ şəkildə bu və ya digər bir mövzunu, hadisəni eşidib, eşidərək görüb, görərək dərk edib və nəticədə mübadilə ediriksə, bu artiq yeniliyin, eılmi qazancın əldə edilməsi anlamına gəlir.

Buradan gəlmək istədiyim nəticə kommunikasiyanın, xüsusilə, çoxtərəfli kommnikasiyanın rolu tədris və təlim prosesinin ayrılmaz hissəsidir.

Beləliklə, fikrimizi yekunlaşdırarkən, deyə bilərik ki, müasir tədris prosesində canlı ünsiyyətin yaradılması müasir dərsin əsas tələbidir. Bu tələbin yerinə yetirilməsi materialın düzgün istiqamətdə yönəldilməsi və tədris ocağı üzrə müəllimlərin birgə işindən, müəllim – öyrənci, müəllim – müəllim, öyrənci – öyrənci, öyrənci – müəllim – öyrənci əlaqələrinin yaradıcılığından, təşkilindən asılıdır.

Ədəbiyyat

1. Rogova G.V. Methods of Teaching English. 1983.PDF, ENG
2. Hüseynzadə G.C. Xarici dildə nitq kommunikasiyasının öyrənilməsi, 2001.
3. Черниавская А.П. , Гречин Б.С. Современные средства оценивания результатов обучения, 2008, ЯГПУ

Gular Hasanova

The Formation and Role of Communication in the Process of Teaching

Summary

In the article the main directions of formation of communication in the process of teaching, investigation of methods, aim of communication in modern teaching process are looked through. Today benefiting by opportunities from modern teaching process, if we exchange our views on one subject or another communicatively, it`s already innovation in science. The role of communication, especially multilateral communication is an integral part of teaching process. Formation of lively intercourse in modern teaching is the main request of modern training. Performing of this request depends on formation of teacher-student relationship.

Гюляр Гасанова

Организация и роль Коммуникации в учебном процессе

Резюме

В статье изучается основные направления связи, методы исследования и цель организаци коммуникации в процессе обучения. Сегодня используя современный процесс обучения мы можем в коммуникативной форме обмениваться той или иной темой - это уже научная новизна. Роль коммуникации, особенно многосторонней коммуникации, это неотъемлемая часть образовательного процесса. Главным требованием современного преподаваня является процесс создания живого общения. Выполнение этого требования зависит от организации отношений между преподоавтелом и учеником

Rəyçi: professor G. C.Hüseynzadə

VƏFA HACIYEVA
Odlar Yurdu Universiteti

CERUND

Açar sözlər: Cerundun quruluşu, cerundun işlədilməsi, cerundun cümlədə vəzifəsi.
Ключевые слова: Структура герундия, употребление герундия, роль герундия в предложении
Key words: The structure of the gerund,the use of the gerund,the function of the gerund in the sentence

İngilis dilində fellər qrammatik katoqoriyalarından və sintaktik funksiyalarindan asılı olaraq şəxsli və şəxssiz fellər qrupuna bölünür.Müasir İngilis dilində felin üç şəxssiz forması vardır.1) Məsdər (the Infinitive) 2)feli sifət (the Participle) 3) cerund(the Gerund)

Felin şəxssiz formaları bir sıra xüsusiyyətlərinə görə felin şəxsli formalarindan fərqlidir.Və bunlar aşağıdakılardan ibarətdir.

1.Felin şəxssiz formaları kəmiyyət,şəkil(Mood) və şəxs kateqoriyalarına malik deyil.

2.Felin şəxssiz formaları ikili xassəyə malikdir.Məsdər və cerund fel və isim ,feli sifət isə fel və sifət xassəsinə malikdir.

3.Felin şəxssiz formasi cümlənin xəbəri ola bilmir.Yalnız xəbərin bir hissəsi funksiyasında çıxış edir.

4.Felin şəxssiz formasına zaman məfhumu mütləq deyil,nisbidir.

Qeyd edək ki,müasir azərbaycan dilində felin üç şəxssiz forması var: məsdər,feli sifət və feli bağlama.

İngilis dilində feli bağlama adlanan fel forması mövcud deyil.

İngilis dilindən fərqli olaraq azərbaycan dilində cerund adlanan nitq hissəsi yoxdur.

Cerund felin şəxssiz formalarindan biridir. Cerund da feli sifət kimi /Participle I/ -ing əlavə etməklə düzəldilir. Cerund feli xüsusiyyətlərinə görə feli sifət və məsdər xüsusiyyətlərinə uyğun gəlir, ismi xüsusiyyətlərinə görə isə məsdərə uyğun gəlir.

Cerundun ismi xüsusiyyətləri. Cerundun aşağıdakı ismi xüsusiyyətləri vardir:

1.Cerund cümlədə mübtəda ,vasitəsiz tamamlıq və mürəkkəb ismi xəbərin ad hissəsi ola bilər.

Swimming is a good exercise. Üzmək yaxşı idman məşğələsidir. (mübtəda) .

Our aim is mastering grammar . Məqsədimiz qrammatika elminə yiyələnməkdir (xəbərin ad hissəsi).

I like making people happy. Mən insanları xoşbəxt etməyi sevirəm (tamamlıq).

2. Cerundun qarşısında sözönü işlətmək mümkündür. Bu zaman cerund sözönlü tamamlıq , təyin və ya zərflik vəzifəsində olur.

I don't like the idea of going there (təyin). Ora getmək fikrindən mənim xoşum gəlmir.

Everything has been organized for our starting immediately (sözönlü tamamlıq).Bizim dərhal yola düşməyimiz ücün hər şey hazır edilmişdir.

She had to speak to the teacher before going home (zaman zərfliyi). O evə getməzdın əvvəl müəllimlə danişmalı idi.

3. Cerund isim kimi , yiyəlik əvəzliyi və ya yiyəlik halda olan isimlə işlədilə bilər.

I remember his interrupting me.

İlkin's reading is perfect.

Cerundun feli xüsusiyyətləri. Cerundun aşağidaki feli xüsusiyyətləri vardır:

1.Cerund vasitəsiz tamamlıq qəbul edə bilir.

I remember reading that book. O kitabı oxuduğum yadımdadır.

2.Cerund cümlədə zərflə təyin oluna bilir.

I like reading aloud . Mən ucadan oxumağı xoşlayıram.

3. Cerundun öz zaman kateqoriyası var.

4.Təsirli fellərin cerundunun növ kateqoriyası var.

Müasir ingilis dilində cerundun aşağıdakı formaları vardır.

Indefinite writing (active) being written (passive)

Perfect having written (active) having been written (passive)

Indefinite cerund feli sifət (Participle I) kimi , felin kökünə -ing suffiksi əlavə etməklə düzəlir.

read-reading

start-starting

Indefinite cerundun məchul növü to be felinin sadə cerund forması və əsas məna daşıyan felin keçmiş zaman feli sifəti vasitəsi ilə düzəldilir.

Indefinite cerund əsas felin zamanından asılı olaraq indiki , keçmiş və gələcək zamana aid ola bilər . Bəzi hallarda cerundun ifadə etdiyi hərəkətin zamanı cümlədə xəbərin zamanina uyğun olmaya da bilir.

Perfect cerundun məlum növü köməkçi to have felinin Indefinite cerundu və əsas məna daşıyan felin keçmiş zaman feli sifəti (Participle II) vasitəsi ilə düzəldilir.

Perfect cerund cümlədə əsas məna daşıyan felin göstərdiyi hərəkətdən əvvəl icra olunmuş hərəkəti göstərir. Cerundun inkar formasi not inkar sözü vasitəsi ilə düzəldilir. Not writing , not having written.

Cerundun işlədilməsi.

Müasir ingilis dilində məsdər və cerund çox geniş istifadə olunur. Bəzən bunlar bir-birini əvəz edir. Lakin bəzi hallarda yalnız cerund işlədilir.

1. Aşağıdakı fellər və feli birləşmələrdən sonra to avoid , to burst out , to deny, to enjoy, to excuse, to finish, to forgive, to give up, to go on, to postpone, cannot help və s.

I can't help laughing.- Mən gülməyimi saxlaya bilmirəm.

I don't mind going there. –Mən ora getməyə etiraz etmirəm.

Forgive my speaking plainly.- Məni açıq danışdığıma görə bağışlayın.

They went on talking. - Onlar söhbətlərinə davam etdilər.

Do you mind my asking you one or two more questions? – Sizə bir-iki sual verməyimə etiraz etmirsiniz ki?

I don't mind going and seeing her.- Onu gedib-görməyə etiraz etmirəm.

2. Aşağıdakı sözönlüklü fellər və feli ifadələrlə : to accuse of, to agree to, to approve of, to complain of , to depend on, to feel like, to object to, to persist in , to prevent from, to rely on , to speak of, to succeed in, to suspect of, to thank for, to think of, to look forward to, not to like the idea of, to miss an opportunity of və s.

It looks like raining. – Deyəsən yağış yağacaq.

I missed an opportunity of going there. – Mən ora getmək imkanını itirdim..

All the happiness of my life depends on your loving me.- Həyatımın bütün xoşbəxtliyi sənin məni sevməyindən asılıdır.

I object to his having any acquaintance at all with my sister.- Mən onun mənim bacımla tanışlığına tamamilə etiraz edirəm.

You suspect me of stealing your diamond.- Siz məndən brilyantınızı oğurlamaqda şübhələnirsiniz.

Don't miss the opportunity of hearing this pianist.- Bu pianoçunu dinləmək imkanını itirməyin.

3. Aşağıdakı predikativ söz qrupları ilə

To be aware of , to be busy in , to be capable of , to be fond of , to be guilty of , to be pleased at , to be proud of , to be sure of , to be surprised at, to be worth və s.

I am fond of reading a book. – Mənim kitab oxumaqdan çox xoşum gəlir.

She was pleased at his coming. – Onun gəlişi onun üçün xoş idi.

She was not pleased at my coming.- O gəlişimdən razı qalmadı.

The bridal party was worth seeing.- Toy mərasimi baxmağa dəyərdi.

Are you quite sure of those words reffering to my mother?- Siz bütün bu sözlərin mənim anama aid olmasından tamamilə əminsinizmi?

Cerundun predikativ tərkibləri.

Felin digər şəxssiz formaları kimi,cerund da predikativ tərkiblər əmələ gətirir.

I don't like your speaking in that manner.-Mənim xoşuma gəlmir ki, siz belə danışırsınız.

Bu cümlədə speaking sözü cerundla ifadə olunmuş hərəkətin icraçısını göstərən your əvəzliyinin xəbəri kimi çıxış edir. Predikativ tərkibin ad hissəsi müxtəlif yollarla ifadə oluna bilər.

1.Əgər tərkibin ad hissəsi canlıdırsa ,o yiyəlik əvəzliyi və ya yiyəlik halda olan isimlə ifadə olunur.

Do you mind my coming?-Mənim gəlməyimə etirazın yoxdur ki?

I was startled by the child's crying in the garden-Mən bağçadakı uşağın çığırmasından diksindim.

Əgər ismi element canlı olarsa ,yiyəlik hal deyil adlıq hal işlədilir.

I object to Mary and Tom going out on such a windy day.-Mən Merinin vəTomun belə küləkli havada getmələrinə etiraz edirəm.

2.Əgər ismi element cansız əşya bildirirsə o adlıq halda olan isimlə və ya yiyəlik əvəzliyi ilə ifadə edilir.

said something about my clock being slow.-Dedim ki, saatım geri qalır.

3.İsmi element, elecə də hal əlamətləri olmayan all, this, that, both, each, something əvəzlikləri ilə işlədilir.

I insist on all of them being present at the meeting.-Mən təkid edirəm ki, onların hamısı iclasda iştirak etsinlər.

CERUNDUN CÜMLƏDƏ VƏZİFƏSİ.

Cerund cümlədə aşağıdakı funksiyalarda işlənə bilər.

1.Mübtəda vəzifəsində.

Talking to him was useful-Onunla danışmağın xeyri oldu.

It is no use talking like that to me.- Mənimlə belə danışmağın əbəsdir.

2.Mürəkkəb ismi xəbərin ad hissəsi.

Our aim is improving English-Məqsədimiz ingilis dilini təkmilləşdirməkdir.

3.Mürəkkəb feli xəbərin bir hissəsi kimi .

Martin could not admiring the man.- Martin kişiyə heyranlıqla baxmaya bilməzdi.

4.Tamamlıq vəzifəsində

a)Vasitəsiz tamamlıq kimi cerund aşağıdakı fellərdən sonra işlədilir.

To deny-danmaq,inkar etmək.

To fancy -təsəvvürə gətirmək

To delay-təxirə salmaq,gecikdirmək

To excuse-əfv etmək.

b)sözönlü tamamlıq vəzifəsində

to depend on –asılı olmaq

to insist on-təkid etmək.

To succeed in –müvəffəq olmaq.

To be proud of-fəxr etmək.

To be fond of-çox istəmək. və s.

I am fond of watching films-Filmlərə baxmağı çox sevirəm.

He insisted on going to bed-O yatağa getməyi təkid etdi.

I simply love riding.- Mən sadəcə gəzintini xoşlayıram.

She enjoyed singing and playing to him.-O onun üçün oxuyub, ifa etməkdən zövq aldı.

5.Təyin vəzifəsində

Cerund təyin kimi sözönü ilə işlədilir.

I don't like the idea of going there.-Ora getmək fikri xoşuma gəlmir.

6.Zərflik vəzifəsində cerund həmişə sözönü ilə işlədilir.

After leaving her umbrella in the hall, she entered the living room.- O çətrini zalda qoyduqdan sonra qonaq otağına daxil oldu.

Anar turned at hearing her footsteps.-Anar onun ayaq səslərini eşidərək çevrildi.

a)zaman zərfliyi vəzifəsində cerunddan əvvəl after,before,on(upon), in və ya at sözönləri gəlir.

After reading the book they went out-Kitab oxuduqdan sonra onlar bayıra çıxdılar.

b)Tərzi-hərəkət zərfliyi vəzifəsində cerund by və ya in sözönləri vasitəsi ilə işlədilir.

You were kind by accepting-Qəbul etməkdə sən nəzakət göstərdin.

c)Məqsəd zərfliyi vəzifəsində cerund for sözönü ilə işlədilir.

The knife is used for cutting-Bıçaq kəsmək üçün istifadə olunur.

ç)Şərt zərfliyi vəzifəsində cerund without sözönü ilə işlədilir.

Don't come without having written exercises-Tapşırıqları yazmamış gəlmə.

d)Səbəb zərfliyi vəzifəsində cerund for,for fear of,owing to sözönləri ilə işlədilir.

I could not speak for laughing-Məni gülmək tutduğu üçün danışa bilmədim.

e)Güzəşt zərfliyi kimi cerund in spite of sözönü ilə işlədilir.

In spite of being tired he came to help me-Yorğun olmasına baxmayaraq, o mənə kömək etməyə gəldi.

CERUND VƏ MƏSDƏR.

Cerund və məsdərin hər birinin özünə məxsus morfoloji əlaməti vardır. Məsdərin morfoloji əlaməti to, cerundun morfoloji əlaməti isə -ing suffiksidir.

He likes swimming. O üzməyi xoşlayır.

He does not like to swim on such a cold day. O belə soyuq havada üzməyi xoşlamır.

The young man began turning over the pages of a book.- Gənc kişi kitabın səhifələrini çevirməyə başladı.

She continued to look at him.- O ona baxmağa davam etdi.

Məsdər cümlədə mübtədaya aid olur, cerund isə mübtədanın göstərdiyi icraçıya aid olmaqdan başqa digər bir icraçıya da aid ola bilir. Bir sira fellər və söz qrupları vardir ki, bunlar həm cerund, həm də məsdərlə işlənə bilir. Bunlar aşağıdakılardır: to be afraid, to begin, to continue, can(can not) afford, to fear,to forget, to hate, to intend, to like(dislike), to neglect, to preper, to remember, to start, to stop.

At last he began to speak –Nəhayət o danışmağa başladı.

He began speaking again – O yenə də danışmağa başladı.

Bəzən to be afraid , to forget, to hate, to like, to preper felləri məsdərlə işləndikdə müəyyən bir hadisəyə aid olduğu halda , cerundla işləndikdə ümumi xarakter daşıyırlar.

Don't forget shutting the window when you leave home . Evdən gedərkən pəncərəni bağlamağı unutmayın (ümumiyyətlə).

Don't forget to shut the window when you leave home. It's windy today. Evdən çıxanda pəncərəni bağlamağı unutmayın. Bu gün küləkdir.(konkret-bu gün).

To remember feli məsdərlə işlədildikdə gələcək zamana, cerundla işlə-dildikdə keçmiş zamana aid olur.

I remember speaking to him –Onunla danışdığım yadımdadır.

Remember to speak to him –Onunla danışmağı unutma.

To stop feli məsdər və cerundla işlədilməsindən asılı olaraq, cümlədə müxtəlif vəzifə daşiyir.

Məsdərlə to stop feli işlədildikdə məsdər səbəb zərfliyi olur.

He stopped to tell us good news. O dayandı ki, bizə şad xəbər desin.

Cerundla to stop feli mürəkkəb feli xəbərin bir hissəsi olur.

They stopped speaking when we came in. Biz gələndə onlar danışığı kəsdilər.

Cerund və feli sifət.

Cerundu feli sifətdən fərqləndirən cəhətlər aşağıdakılardır:

1.Cerund sözönü ilə işlədilir.

2.Cerund yiyəlik əvəzliyi və ya yiyəlik halda isimlə işlədilir.

3.Cerund mübtəda, tamamlıq və predikativ vəzifəsində olur.

4.Zərflik və təyin vəzifəsində həm feli sifət, həm də cerund işlədilir, lakin bu halda cerunddan əvvəl həmişə sözönü işlədilir.

Cerund və feli isim.

Ingilis dilində feli isim də cerund kimi -ing şəkilçisi ilə bitir. Lakin bəzi xüsusiyyətlərinə görə cerund feli isimdən fərqlənir.

1.Cerund ikili xarakterə- isim və feli xüsusiyyətlərə malikdir, feli isim isə yalnız ismi xüsusiyyətlərə malikdir.

2.Cerundla artikl işlədilmir, feli isim isə artikl ilə işlədilir. I want you to give my trousers a good ironing.

3.Cerund cəmdə işlədilmir. Feli isim isə cəmdə işlədilir. Their comings and goings disturb me.

4.Təsirsiz feldən düzələn cerund vasitəsiz tamamlıq qəbul edir.

Feli isim vasitəsiz tamamlıq qəbul etmir,o,sözönlü vasitəli tamamlıq qəbul edir.

Cerundun Azərbaycan dilinə qarşılığı.

Müasir azərbaycan dilində felin cerund adlanan şəxssiz forması yoxdur. Buna görə də felin şəxssiz formalarından biri olan cerund dilimizə məsdər, feli bağlama və ya isim vasitəsi ilə tərcümə edilir.

On hearing my voice he stopped – Mənim səsimi eşidərkən o dayandı.

My car needs repairing. Mənim maşınımın təmirə ehtiyacı var.

Our aim is improving English. Məqsədimiz ingilis dilini təkmilləşdirməkdir.

Ədəbiyyat

1. Л.С.Бархударов “Грамматика английского языка“. Издателство Высщая школа. Москва. 1973

2.O. Musayev “İngilis dilinin qrammatikası”. Maarif nəşriyyatı. Bakı. 1976

3.İ. Rəhimov “İngilis dilinin praktik qrammatikası”. Maarif nəşriyyatı. Bakı. 1966

4.В.Л. Каушанская “A Grammar of the English language”. Bakı. 2004

5.R.R.Qayıbov “Ingilis dilinin qrammatikası”. Bakı **A**zərnəşr 1958

V. Hajıyeva

Gerund

Summary

The article deals with gerund one of the non-finite forms of the verb. In this article are talked of the usage difficulties of the gerund , at the same time it is compared with other verbid as participle I, differing from it,gerund may be used almost as all members of the sentence. The main points of difference between the gerund and verbal noun, gerund and participle, gerund and infinitive are also shown in this article.

В. Гаджиева

Герунд

Резюме

В этой статье рассматривается герундий, как один из неличных (неопределенных) форм глагола. Памимо этого в данной статье говорится о сложностях употребления герундия, в то же время дается сравнение с причастием I (participle I), в результате чего становится очевидно, что герундий в отличие от причастия I(participle I) может быть употреблен в качестве всех членов предложения.

Основные различия между герундием и отглагольным существительным, герундием и причастием, герундием и инфинитивом также показоны в этой статье.

Rəyçi: F.ü.f.dok. Səadət Abdurəhmanova

ELMIRA SÜLEYMANOVA
BDU

ALINMA SÖZ PROBLEMİ

Açar sözlər: Purizm hərəkatı, alınma sözlər, yad sözlər, avropaya əsrin əvvəlində fransız sözləri keçmişdir.
Ключевые слова: французских слов проникло к Европу в конце - начале века, иноязычные элементы, … часто оно объяснялось модой, лексическое освоение, пуристические движение.
Key words: foreign language elements, puristical movement, richness of language, neologism, vocabulary of a language.

Hər hansı bir dilin zənginləşməsi yollarından biri də dilə daxil olan alınma sozlərdir.

Başqa dillərdən alınan sözlər,əlbəttə,keçdiyi dildə əsas,həlledici deyil, köməkçi rola malikdir.Dünya xalqları arasında ictimai- siyasi, mədəni- iqtisadi, elmi və s. əlaqələrin yaranib inkişaf etməsi, eyni zamanda,onlarin dillərində də öz əksini tapır. Əgər alınma sözlər ehtiyac nəticəsində daxil olduğu dilin lüğət tərkibinin zənginləşməsinə kömək edirsə, bu müsbət təsirdir, zorla keçirilirsə,dili ağırlaşdırıb, onu xalq üçün anlaşılmaz edirsə, bu mənfi təsirdir.Belə vəziyyətdə dil öz keyfiyyətini itirir.

Alınma sözlər dil əlaqələrinin əsas aspektləinrdən biri olmaqla bərabər bir dildən digərinə söz alınması prosesində mütləq baş verir.Sözlərin bir dildən digərinə keçməsi həmin dilin fonetik vasitələri ilə ifadə oluması iki mərhələdən ibarət prosesdir. Dilçilik ədəbiyyatında bu prosesin mərhələlərinin terminoloji ifadəsində müxtəliflik diqqəti çəkir.

Alınma söz və ifadələr tərcümə edilmədən və dəyişdirilmədən işlədildikdə mənbə dilin orfoqrafiyasını və orfoepiyasını saxlayır. Çox zaman, ümumiyyətlə, ərəb, fars adı ilə işlənən istər fars, istərsə də ərəb-fars sözlərinin əksər bir qismi,düşdüyü yeni mühitdə, Azərbaycan sözlərinin və bu sözlərə aid fonetik qaydaların təsiri altında öz dilinin xüsusiyyətlərini itirərək, Azərbaycan sözlərindən seçilməyən bir şəklə düşmüşlər. Bununla belə, hər iki dildən gələn sözlər gəldiyi dillərə məxsus olan fonetik xüsusiyyətləri də müəyyən dərəcədə saxlamışlar. Həmin bu fonetik xüsusiyyətdən onların hansı dilə xas olması bəlli olur. Çünki burada saitlər əsas rol oynayir, bir qayda olaraq bu sözlər ahəng qanununa tabe edilmir.

Məs. nüfuz, iaşə,idrak, mehman ,şüur, qürur və s.

Bu sahədən yazarkən, dilin zənginləşməsi ən azi üç səviyyədə tədqiq edilməlidir.

-fonetik,qrammatik,leksik-semantik.

Leksik aıinmanın dilin zənginləşməsində oynadıığı rol hər şeydən əvvəl özünü dilin lüğət tərkibindəki dəyişmələrlə göstərsə də, dilin fonemlər sisteminin məruz qaldığı təsir nəticəsində yeni keyfiyyətlər kəsb etməsi müşahidə olunur.

1. fonetik uyğunlaşma,
2. fonetik mənimsəmə.

Şifahi üsulla sözalma zamanı fonetik assimiliyasiya özünü daha dərindən büruzə verir. Bu zaman alınma söz xarici sözün aydin formasının olmaması, fonetik struktrunun şərti xarakteri faktik olaraq, onun söz tərkibinin yenidən canlandırılmasında tələb olunan dəqiqliyi sıfra endirir. Bu da təbiidir ki, şifahi alınmanın reseptor dildə yazıya alınmasına öz təsirini göstərir, səslərin yeri səhv salınır, bir səs başqası ilə əvəz olunur və s.

Hecanın dəyişdirilməsi və ya ixtisara salınması ilə bir tərəfdən dilin daxili tələbatı ödənilə bilərsə, ikinci tərəfdən sözün özündə məna dəyişikliyi, vurğu yerdəyişməsi baş verə bilər. Deməli, alınmaların fonetik assimiliyasiyası bir neçe istiqamətdə reallaşir.

Məs. latın variantında-autoritar- şəklinə düşmüş ,hökmlü, autoritar-formasında birinci olaraq avtoritetli, nüfuzlu mənasinda işlənməyə başlanmışdır.Hecanın strukturu və fonetik qanunauyğunluqların dəyişməsi alınma sözlərdə ekspirator vurğunun dəyişməsinə təsir göstərir.

Leksik alınmanın qrafik cildinin onun dildəki tələffüzünü təyin etməsi bütün dillərə şamil olunmalıdır. Aydındır ki, söz yazilişina görə oxunur.Oxunuş zamanı müəyyən istisnaların mövcud olduğu fonetik transkripsiyadan istifadə edilir. Başqa dillər kimi fransız dilində də bu dilin oxu qaydalarına tabe olmayan külli miqdarda istisnalar vardir. Dil daşıyıcıları bu istisnaları asanlıqla qavrayırlar, lakin başqa dilin daşıyıcıları fransız dilini öyrənərkən şübhəsiz ki, transkripsiyadan istifadə edirlər.

Leksik alınmalar mənşəcə mənsub olduqları dillərin qrammatik əlamətlərini qismən özlərində daşıyır.Onlar kecdikləri dillərdə bu əlamətləri qoruyur. Bir sıra leksik alınma obyekt dildə qrammatik seqmentasiyaya uğraya bilir.Obyekt dildə asanlıqla tərkib hissələrinə ayrılmalar ümumiyyətlə, leksik alınmalara xas xüsusiyyət deyildir. Lakin oxşar quruluşlu leksik alınmaların sayı artdıqca onların tərkib elemetlırinin aşkara çıxarılması asanlaşır.

Qrammatik mənimsənilmə prosesinin tədqiqi göstərir ki, dildə foneik mənimsənilməyə nəzərən bu proses daha məhdud səviyyədə gedir. Qrammatik mənimsənilmənin geniş yayılması dilin qrammatik normalarının daha sərt xarakter daşımasından irəli gəlir .Bununla yanaşı qeyd etmək lazımdır ki, dil əlaqələri prosesində leksik alınmaların obyekt dildə özünə yer tutması onların tərkibindəki qrammatik vasitələrin uyğunlaşması və mənimsəməyə məruz qalmasına səbəb olur. Bu hadisə dilin zənginləşməsinə öz təsirini göstərir.

Hər bir dilin qrammatikası həmin dilin daxili strukturunun qoruyucusu kimi çıxış edir. Məhz buna görə də, yad qrammatik struktura malik alınma sözlər reseptor dilə orijinal variantda daxil ola bilmir. Bu səbəbdən də, yad quruluşlu söz birləşmələri əvvəlcə öz modelini doğrultmalı, sonra reseptor dil artıq onun diktəsi ilə yenidən qurulmalı olur.

Leksik səviyyədə mənimsəmə məsələsi Azərbaycan dilində müxtəlif şəkillərdə izah olunur.Tədqiqatçiların əksəriyyəti onu leksik alınmaların dildə özünə yer tutması ilə eyniləşdirir.Lakin qeyd etmək lazımdır ki,leksik mənimsəməni yalnız bununla məhdudlaşdırmaq olmaz.

A.Qurbanov sözlərin semantik dəyişikliklər əsasinda mənimsənilməsi və sözlərin qrammatik dəyişikliklər əsasinda mənimsənilməsi kimi iki formanı fərqləndirir. İkinci forma qrammatik mənimsənilməni əhatə edir .Burada eyni zamanda, qrammatik uyğunlaşma halı da özünü göstərə bilər.

Alınan sözün xarici qişasında süni və ya konkret zaman ərzində təbii yolla baş vermiş variant fərqləri leksik assimiliyasiyanın məhsulu hesab olunur. Leksik assimiliyasiya şərti anlayışdir və fonetik, qrafik, qrammatik və.s.assimiliyasiyanı bu və ya digər dərəcədə ehtiva edir. Dilçilik ədəbiyyatında leksik-semantik assimiliyasiya ilə bağlı dolaşıq fikirlər söylənmiş, yaxud ayrı-ayrı mövqeler təqdim edilmişdir.

Bəzən tarixi inkişaf prosesində alinma söz özünün əvvəlki semantik quruluşunda mövcud olmayan yeni məna əldə etmiş olur

Bir qayda olaraq yeni mənaların formalaşması alınma sözün dilə keçdiyindən bir əsr, ya yarım əsr sonra baş verir.

Bəzən eyni söz müxtəlif dövrlərdə eyni dildən 2-3 dəfə alına bilər.Hər iki variantda söz dilin fonetik xüsusiyyətlərini təşkil edir.

Bəzən sözlər qəribə bir dövrə vurur. Elə sözləri var ki, başqa dilə keçmiş, həmin dildə fonetik, morfoloji, hətta semantik dəyişikliyə ugramiş və yenidən geri qayıtmışdır.

Məs.: fransiz dilinə keçmiş,sonra yenidən alman dilinə alinma söz kimi daxil olmuş-bulvar- sözü kimi.Alman dilindən fransiz dilinə keçən –bresche, italyan dilindən alman dilinə keçən Balkon əslində vaxtilə alman dilindən həmin dillərə keçmiş və yenidən geri qayıtmışdır.

Qrafik assimiliyasiya olunmuş alınma sözlər ilk baxışda mənbə dildən fərqlənmir, lakin əslində həm qrafik, həm fonetik seçilmiş olur. Dilin yalnız zahiri görkəmi assimiliyasiya olunmuş təsiri bagışlayır. Qrafik alınmalar isə mənbə dildəki yazı şəklini saxlamış vahidlərdir. İlk baxışda onlar da heç bir assimiliyasiyaya ugramamış kimi görünür.

Bütün deyilənləri yekunlaşdiraraq bu nəticəyə gəlmək olarki,alınma sözlərin hamısı assimiliyasiya prosesinin təsirini hiss etmiş olur. Onlar bəzən fonetik dəyişikliyə uğrayır,bəzi tanış olmayan səs və ya səs birləşməsi reseptor dilə daha yaxın olan səslə əvəz olunur, bu da çox uzun bir proses olaraq qəbul olunur.

Qrammatik assimiliyasiya öz əksini alınma sözlərin qrammatik kateqoriyalarının və ümumilikdə paradiqmalarının və morfoloji quruluşunun dəyişməsində tapır. Leksik-semantik assimiliyasiya zamanı alınma sözlər reseptor dildə yeni məna çalarları əldə etmiş olur

Səslərin dəyişməsi, mənanin daralması və genişlənməsi,qrammatik kateqoriyaların reseptor dilin morfoloji quruluşuna uyğunlaşdırılması alınma prosesində aparılır. Assimiliyasiyanın dərəcəsi isə alınma sözün mənimsənilmə səviyyəsindən reseptor dilə daxilolma vaxtından, üslubundan və işlənmə tezliyindən aslıdır.

Beləliklə, nə qədər ki, ictimai yaşayış dəyişir,əmək əlaqələri genişlənir, yeni mədəniyyətlərarası əlaqələr meydana çıxır, dünya dillərinə yeni sözlərin daxil olması labüd hal alır. Son dövrdə ölkəmizin avrovijin mahnı müsabiqəsinə ev sahibliyi etməsilə mədəniyyətlərarası münasibət daha da möhkəmləndi və bu proseslə əlaqədar coxlu yeni sözlər dildə möhkəmləndi ki,bu da qaçınılmazdır.

Sözlərin bir dildən başqa dilə keçməsi prosesi dünyanın bütün dillərinə xasdır.Fikrimizi sübut etmək üçün misallar gətirək.Dilimizə türk, rus,yunan,latin, alman dili ilə yanaşı fransız dilindən: *drap,triko,kostyum,etaj, mebel, sup, kotlet, restoran, frizör,avanqard, serjant, korpus desant* kimi sözlər keçmiş,bütün *teatr* terminləri, 30-cu illər ədəbiyyatinda işlənən terminlərin çoxu fransız sözlərindən ibarətdir, cünki 18-ci əsr fransız mədəniyyəti geniş vüsət almışdı. Çox qəribədir ki,

fransiz dilinin özünə külli miqdarda latın və italyan sözləri keçmişdi.Həmin sözlərdən: kredit, koridor, vata, bandit, şarlatan və s. fransız dili vasitəsilə bizim dilə də daxil olmuşdur. Fransız dili öz inkişafında üç dövrə bölünür: qədim fransız dili (XI-XIV əsr), orta fransız dili (XIV-XV) və yeni fransız dili (XVI əsrdən bu günə kimi).Bu dilin yazılı abidəsi IX əsrdəndir.Fransız dilinin Avropa dillərinə təsiri 11-12-ci əsrdən başlamışdır. O zamanlar fransa öz cəngavərliyi, saray mədəniyəti, ədəbiyyatı, yeni dəblərin, kulinariyası,saray etiketlinin inkişafı ilə Orta əsr Qərbi Avropa feodalizm sistemində nümunəvi rol oynayırdı. Bu isə dillərin zənginləşməsində nümunəvi rol oynayırdı.

-palais,tournoi,lance,maniere, pavillon, flauti, blond,forme, prix,fin,aventure, faillir, parler kimi yüzlərlə sözün Avropa və Şərq dillərinə axını başladı.Həmin dövrdə fransız cəngavərliyini əks etdirən; floitieren,chanyun,gastel,habit kimi sözlərdən də istifadə olunurdu.

17-18-ci əsrdə fransız sözlərinin ikinci axını başladı,cünki həmin dövrdə Fransa öz dəbi, saray etiketilə Qərbi Avropanın aparıcı dövlət rolunu oynayırdı. Lakin modanı təqib edən sözlərin bəziləri tezliklə dildən çıxarıldı. Coquet, net, qalant, omelette, parade və s.

18-ci əsrin 2-ci,19-cu əsrin 1-ci yarısı Fransa inqilabı ilə əlaqədar yeni: revolution, republique, social, proletaire, communisme və s. sözlər yarandı. Bununla belə bu prosesdən fransız dili kənarda qalmadı.İtaliya intibahı nəticəsində :oper, sopran, bas, tenor, konzert, piano; arxitekturadan: calerie,korridor, fassade; finans üzrə:banca, banca rotta, lombard, ducato; hərb üzrə: soldato, panciera,granata, və s. kimi sözlər fransız dilinə və bu dil vasitəsilə alman,rus,türk, Azərbaycan və s. bir çox dünya dillərinə keçmişdir.

Deməli, dilin lügət tərkibinin zənginləşməsində alınmalar böyük rol oynayır. Burada kalka çox vacibdir.Söz və ya bütövlükdə birləşmə hərfi tərcümə edilir. Məs.: ingilis dilində yaranmış (summit conference) (yüksək səviyyədə görüş) bizim dilə ya "sammit" kimi,ya da "zirvə görüşü"kimi tərcümə olunur ki,sonralar diplomat və tərcüməçilərin malına çevrilir.Bu fransız dilinə də tərcümə edilmişdir./konference au sammet/.Bu siyasi,diplomatik,iqtisadi və mədəni yaxınlaşmalarda dominant dilin başqalarına diqtəsi kimi qəbul edilə bilər.

Buradan aydın olur ki,hər hansı dilə daxil olan sözlərin lüğət tərkibini zənginləşdirməsi faktı danılmaz olduğu kimi, həddən artıq yersiz termin və kəlmələrlə yüklənməsi də təqdir olunacaq hal deyildir ,bu ,dildə süni ağırlıq yaradır.Belə hala bütün dillərdə olduğu kimi fransız dilində də rast gəlinir.

XVI əsrdən etibarən, xarici sözlərin fransiz dilində sui- istifadəsi mənfi reaksiyaya səbəb oldu. Fransız dilində peyda olmuş külli miqdarda əcnəbi sözlərin və alınmaların təmizlənməsinə qarşı geniş hərəkat başladı ki,bu da Purizm-adlanır. Purizm termini latinca-*purus*-təmiz –saf deməkdir. Purizmə dilin təmizlənməsi prosesi daxildir. Bu proses çox dillər üçün xarakterikdir,əsas da o xalqlardaki,milli şüurun oyanışı, özünəqayıdış başlayır. Bu kimi hallar Türkiyədə, Azərbaycanda da baş vermiş, ziyalılar, dilçi alimlər bir araya toplaşaraq dili yad ünsürlərdən təmizləmək yollarını aramış, bu sahədə böyük işlər görmüşlər .Dilini, xalqını ürəkdən sevən alimlərmiz bu gün də bu sahəyə diqqəti azaltmırlar.Lakin bəzən bu sahədə göstərilən səylər uğurla nəticələnməmişdir. Bu sahədə yazıçılarımız da çox iş görmüşdür. Yazıçı Anar öz əsərlərində alınma sözləri əvəz edən çoxsayda sözlər işlətmişdir.

Tormoz yerinə- əyləc,svetafor yerinə - ışıqfor və s. 60-70-ci illər ərzində bu sahədə böyük işlər görüldü.

Purizm hərəkatı ilk dəfə 16-cı əsrdə Fransada meydana gəldi. Fransa Akademiyası fransız dilinin lüğət tərkibini latın və italyan dilinin elemetlərindən təmizləmək ücün hərəkətə keçdilər.

19-cu əsrin başlanğıcında Bömendə milli dildən alman elementlərinin çıxarılması yolunda kəskin mübarizə başlandı. Alman ağalığından qurtulan çex xalqı da bu yolda qətiyyətli idi. Çex intibahı adlanan bu milli hərəkatın başında o dövrün alimləri, ziyalıları, yazıçıları dayanmışdı. Lakin onlar da milli-vətəndaş sərhədini aşa bilmədilər və umumiyyətlə, dili bütün alınma sözlərdən təmizləməyi qərara aldılar.

Purizm ənənələri Rusiyada 19-cu əsrdə başladı. Bu hərəkata A.S.Şişkov başçılıq edirdi. Və o,çox şeyə nail oldu

Almaniyada 16=17-ci əsrlər - a- la- mode- dövr- deyilən fransiz dilinin bütün sahələrdə hökm sürdüyü dövr idi. Həmin dövrdə başlayan purizm hərəkatı alman dilinin yad ünsürlərdən, artıq kəlmələrdən qorunması yolunda çox iş gördü.

Bununla belə aşağidakı tələblərə cavab verən sozlərin saxlanilması məqsədəmüvafiq sayılırdı:

1. Əgər əcnəbi sözün dildə qarşılığı yoxdursa.
2. Bu sözlər əcnəbi dili belə biməyən adamların dilinə yatırsa və onlar bunu başa düşürlərsə.
3. Alınma sözlər dilin tələblərinə uyğundursa.

Beləliklə,19-cu əsrin sonunda purizm sahəsində rəsmi institutlar və təşkilatlar fəaliyyətə başladı.Dilin daxili imkanları hesabına külli miqdarda sözlər yaransa da bu gün bir çoxu alınma sözlərlə paralel işlənir.

Belə cəmiyyətlərdən çoxu o qədər uğur qazandı kı, filosoflar, ədəbiyyatçilar, filoloqlar dilin yad təsirlərdən qorunması yolunda böyük işlər gördülər.

Nəhayət, bütün bunları yekunlaşdıraraq demək olar ki, dilə daxil olan alınma sözlər kimi pozitiv purizm də dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edir. Ona görə də, dilə keçən sözlərə qarşı ifrat mühafizəkarlıq heç də məqbul sayılmır.

Alınma sözlər labüddür, tarixi prosesdir və ölkələrarası mədəniyyətlərə xidmət edir. İstər alınma,istərsə də beynəlmiləl sözlər dillərin bir-birinə daha da yaxınlaşmasına şərait yaradır.Dillərin qarşılıqlı zənginləşməsi məsələsi millətlərin və xalqlqrın,onların mədəniyyətlərinin qarşılıqlı əlaqəsi qarşılıqlı zənginləşməsi qanunauyğun quruluşundan doğur.

Geniş elmi mübadilələr,texniki nailiyyətlərin bəşəriyyətin ümumi malına cevrilməsi xalqların ədəbiyyat və incəsənət sahəsində kontaktları dillərin də qarşılıqlı zənginləşməsində öz əksini tapır.

Ədəbiyyat

1. N.Məmmədov. A.Axundov. Dilçiliyə giriş.Bakı-1966.”Maarif” nəşriyyatı
2. Engels.F.Təbiətin dialektikası. Azərb. Dövlət nəşriyyatı.1968.
3. F.Veysəlov.Dil. Təhsil.2007.
4. Xəlilova S.N. İnternasional terminlər.Bakı.Maarif nəşriyyatı.1991.
5. A.Qurbanov.Müasir Azərbaycan ədəbi dili.Bakı,1985
6. S.Cəfərov.Müasir Azərbaycan dili.Bakı-1970

Сулейманова Эльмира

Проблемы заимствование

Резюме

Изо всего сказаннаго совершенно очевидно,что заимствование должно быть ограничено переделами разумного и поэтому понятно,что наряду с заимствованием дельные эпохи развития того или иного языка принимавшим характер ничем не содерживаемого потока ,грозившего затонит исконные слова языка) в различных языках возникали и обратные заимствованию тенденции,известные род названиеь руристических тенденций пуризма.

Suleymanova Elmira

Richness of language

Summary

Phonetic and grammatical standards gave the opportunity to study the importance of borrowings in enriching the vocabulary of a language

he enriching of a language should be investigated at least in three layers of assimilation.Phonetic,grammatical,and lexical-semantic.

Rəyçi: b.m Sevda Bədəlova

MƏTANƏT ALLAHVERDİYEVA
BDU

BEYNƏLMİLƏL SÖZLƏR VƏ ONLARIN ÜMUMIŞLƏK SÖZLƏRLƏ OXŞAR VƏ FƏRQLİ CƏHƏTİ

Açar sözlər: Yad ünsürlər, çoxlu İtalyan musiqi terminləri, ümumuxalq danışıq dili, 7 min yunan latın sözü. neologizm.
Ключевые слова: иноязычные элементы, многие итальянские музыкальные термины стали интерна-циональными, общеупотребительная, в языках имеется 7 тысяч греко- латинских слов, неологизмы.
Key words: international relations, collacual words, neologism, international words, lexical- semantic, phonetic and grammatical standards.

Bir-biri ilə yaxın qohumluğu olmayan bir sıra dillərdə eyni və ya çox yaxın mənada işlənən alınma sözlərin bir növü beynəlmiləl sözlər adlanır.Bu leksik qrupda hamı tərəfindən qəbul edilmiş ictimai və dəqiq elmlərə,mədəniyyət və incəsənət sahəsinə aid məfhumları ifadə edən terminlər birləşdirir.Məs.: *-konstitusiya*,*not*, *inteqral*, *differensial*, *rejissor* və s. Beynəlmiləl sözlərin əsasını yunan-latın mənşəli sözlər təşkil edir. Alimlərin hesabladığına görə, Avropa dillərində 7 mindən artıq ümumi kökü yunan-latın mənşəli sözlər vardır.Beynəlmiləl sözlər bütün mədəni dilləri əhatə edən ən azı 3 dil sistemində işlədilir.Beynəlmiləl sözlər müasir dillərin çoxunda ümumelmi terminologiyanın əsasını təşkil edərək yaşayır.Beynəlmiləl terminologiyanın rolu elmi-texniki inqilab şəraitində böyükdür. Bu fondun inkişafı xalqların elmi və mədəni inteqrasiyasında daha aydın özünü göstərir. Beynəlxalq terminologiyanın əsas kütləsi Azərbaycan dilinin,ilk növbədə Avropa –Amerikan arealının başqa dilləri ilə birləşdirilir.

Ümumi mənşəli beynəlmiləl sözlər bu və ya digər dilin qrafik və morfoloji cəhətdən müvafiq uyğunluğu, semantikası ilə eyni və ya yaxın olmalıdır.Bu sözlər insan fəaliyyətinin əsas sahələrini əhatə edir: siyasi, mədəni,elmi,incəsənət, ictimai və dəqiq elmlərə aid terminlər, mədəniyyət və incənət sahəsinə aid məlumatları ifadə edən sözlər adi sözlərə nisbətən başqa dillərə tez daxil olur. Benəlmiləl sözlərin işlənmə və əhatə dairəsi çox genişdir. Bu və ya digər dilə daxil olan beynəlmiləl sözlər həmin dilin inkişaf qanunları əsasında öz forma və quruluşunu dəyişir. Daha doğrusu,formaları müvafiq milli dilin fonetik və morfololi strukturuna uyğunlaşır, ona yiyələnir, lakin mənası mənbədəki kimi qalır. Məsələn:

-büro-bureau(fr.) -hierarhia(yunan), irearixie-rus,dekan-dekanus(lat.), abstraksiya-abstractio (lat.), ağent-agens, (lat.), humanizm-hemanus (lat.), qumanizm-rus və s.sözlər mənşəyinə görə latın və yunan köklüdür. Beynəlmiləl sözlər, demək olar ki, dilimizin leksikasına XI əsrdən keçməyə başlamışdır.Beynəlmiləl və ümumişlək alınma sözlər arasında oxşar cəhətlərlə yanaşı, fərqli əlamələr var. Ümumişlək alınma sözlər Azərbaycan xalqının başqa xalqlarla insan fəaliyyətinin bütün sahələrində qarşılıqlı əlaqənin nəticəsidir.Beynəlmiləl sözlər insan fəaliyyətinin ancaq əsas sahələrini əhatə edir; siyasi,elmi,texniki,incəsənət. Ümumişlək sözlər məişətin müxtəlif sahələrinə aiddir,beynəlmiləl sözlər isə əsasən,termin və peşə-sənət leksikasından ibarətdir. Ümumişlək sözlər keçdiyi və aid olduğu dillərdə bu və

ya başqa anlayışı ifadə edir.Məsələn: *fikir*, *sinif*, *zövq*,*səfa* və s. Bunlar bir neçə qohum dildə işlədilir,eyni mənanı ifadə edir.Beynəlmiləl sözlər isə qohum olmayan bir neçə dildə işlənərək səyahətə, elmə, texnikaya, incəsənətə aid anlayışı ifadə edir.

XIX əsrin sonunda keçən sözlərin qrammatik əlamətləri:

1.Samitlərdən əvvəl **am**,**an** səsbirləşmələri: *ampula*,*pansion*.

2. Sonu **e**,**o** vurğulu: **paneon**, **büro**.

3. er,aj, ans şəkilçili isimlər: suflyor,tiraj, miraj,montaj, seans, romans.

4. Söz ortasında **ne**,**ua** səsbirləşmələri: *duel*,*siluet*,*repertuar*, *tualet*,*moda* və s.

Deməli, dilə daxil olan yeni sözlər dünya dillərinin çoxunda işlənən sözlərdən ibarət olarsa, belə sözlər *neologizm* deyil,*beynəlmiləl* sözlər adlanır.Söz ustaları tərəfindən dilə gətirilən sözlər dilin daxili ruhuna uyğun olmadıqda, dildə uzun zaman işlənmir və tezliklə dildən çıxarılır.

Beynəlmiləl lügət xalqlarin qarşiliqli münasibətində gələcək beynəlmiləl dilin yaranması sahəsində böyük rol oynayir ki, bu da alinma söz probleminin bir sahəsidir. Onu da vurğulamaq lazimdir ki, alinmalar da dilin lüğət tərkibini zənginləşdirir və dildəki beynəlmiləl tendesiyalari əks etdirir. Beləliklə, beynəlmiləl sözlər də alınma sözlərin xüsusi qrupu kimi nəzərdən kecirilir. Alınmaların bütün qrupları müzakirə olunarkən onun təsnifatına nəzər salmaq lazımdir:

1. Ana dildə artıq assimiliyasiya olunmuş,umumi lüğət tərkibinə aid olmuş sözlər.

2. Beynəlmiləl sözlər.

3. Xarici sözlər.

Deməli, dil ictimai bir hadisədir.O,cəmiyyətlə birlikdə yaşayir inkişaf edir. Hər hansi bir ölkədə ictimai-iqtisadi,siyasi əlaqələrin dəyişməsi, elm, texnika və mədəniyyət sahəsində arasıkəsilməyən yeniliklərin yaranmasilə əlaqədar dildə yeni sözlər meydana gəlir və bütün dillərdə anlaşilir.

Dildə olan sözlərin hamisi onun lüğət tərkibi adlanir. Dilin lüğət tərkibi nə qədər zəngin olarsa,dil də bir o qədər zəngin olar. Ona görə də bu gün dünya dillərində anlaşilan beynəlmiləl sözləri qəbul etməmək olmur.

Bəzən hər hansi bir ixtira, əşya digər ölkənin həyatina öz adiyla daxil olur. Dilin lüğət tərkibinə daxil olmuş sözlər heç də həmişə lüğət fonduna keçmir. Dilə keçən beynəlmiləl sözlərdən qorxmaq lazım deyildir. Bu, zərurətdən irəli gəlir və dilə xidmət edir.

Dillərdəki beynəlmiləlşmə prosesi xalqlarin beynəlxalq svilizasiyaya qoşulmasina, dünya mədəni elmi inkişafina qovuşmasina şərait yaratmaqla onu milli qapaliliqdan xilas etmiş olur. Bu, həm də cəmiyyətin üzvlərinin-dil daşiyiclarinin beynəlmiləl tərbiyəsinə kömək etməklə onlarin beynəlxalq inkişafa inteqrasiya olunmasina, dillərin daxili inkişaf qanunlarinin zənginləşməsinə şərait yaradir, ifadə imkanlarını genişləndirir. Çünki, alınma terminlərə olduğu kimi beynəlmiləl terminlərə də münasibətdə hər bir dil özünün qrammatik və struktur mühafizəkarlığını, milli özünəməxsusluğunu saxlamaqla leksik qatını bu tipli terminlər hesabina kəmiyyətcə çoxaldir və ifadə imkanlarini lazimi səviyyədə saxlaya bilir. Bu proses fransız dilində olduğu kimi,digər dillərdə də özünü göstərir. Rus dili terminologiyasi rus elminin formalaşmasi tarixi boyunca başqa dillərin leksikasindan istifadə etməklə meydana gəlmişdir.Lakin bu, rus dilini milli özünəməxsusluqdan məhrum etməyir. Deməli,müxtəlif dillərdə bey-

nəlmiləl terminlərin yayilmasi və çoxalmasi hər bir dilin milli özünəməxsusluğunu saxlamaqla onun leksik fondunu zənginləşdirdiyi kimi, həm də fonetik, morfoloji, sintaktik, üslubi imkanlarını inkişaf etdirərək artırır, ümumi ədəbi dilin intellektual səviyyəsini yüksəldir. Bunun nəticəsində dildə beynəlmiləl terminlərə səmərəli və müəyyən həddaxilində müraciət olunmasi-dillərin özünəməxsus səciyyəvi inkişafi üçün heç bir zaman təhlükə yaratmamiş və yarada da bilməz. Ona görə ki, bütün sahələrdə olduğu kimi,dildə də beynəlmiləlşmə heç də millilik ilə qarşi-qarşiya durub ziddiyyət təşkil etmir, əksinə bu millilik içərisində qaynayib qarişir, milli səciyyəvi əlamətlər ilə birlikdə ümumi millilik keyfiyyətini artırır.

Bu baximdan fransız dilində olduğu kimi, müasir Azərbaycan dilinin leksik tərkibində də beynəlmiləl səciyyəli terminlərin müxtəlif semantik məna qruplarının işlədilməsi dilimizdə ayri-ayri elmi-texniki məfhum və anlayişların ifadə olunma imkanlarını genişləndirdiyi kimi, ümumi leksik fondunu zənginləşdirir, ümumi ədəbi dilin ifadə imkanlarını məhdudluqdan çixarir. Məhz beynəlmiləl terminlərin köməyi ilə istənilən dildə çox müxtəlif semantik sahələrə aid olan anlayişları bildirmək mümkün olur.Bu tipli terminlərsiz müasir dillərin leksikoloji qatının mövcudluğunu,onun bütövlüyünü belə təsəvvür etmək mümkün deyildir. Çünki, dillərin müasir inkişaf səviyyəsində elmi-texniki tərəqqinin ümumi mahiyyətini, onun ayri-ayri anlayişlarını ifadə edən terminlərin xeyli hissəsini, həm də fəal işləklilik xüsusiyyəti daşiyan hissəsini beynəlmiləl terminlər təşkil edir.

Beynəlmiləl terminlərsiz isə ümumən elmi-texniki terminoloji məfhum və anlayişların dillərdə də reallaşmasi mümkün olmazdi. Çünki elmin, texnikanın və digər sahələrin beynəlmiləl, ümumbəşəri xarakteri dilin bu sahədəki leksik fondunun da müəyyün hissəsinnin ümumi səciyyə daşımasını, beynəlmiləl xarakter kəsb etməsini tələb edir. Ona görə də fransız,istərsə də Azərbaycan dilində bu gün aktiv işləklilik keyfiyyəti ilə seçilən çoxlu sayda elmi, texniki, sənaye, mədəniyyət və digər sahələrə aid anlayişların adlarını bildirən müxtəlif semantik tutuma malik terminlər vardır ki, onlar bu və ya digər mənbə dildən alınaraq aralıq dili kimi rus dilindən dilimizin leksik qatına daxil olmuş və uzun tarixi dövr ərzində dilimizdə ayrı-ayrı anlayişların ifadə olunmasına xidmət etməkdədir.

Doğrudur, bunların bir hissəsi son dövrdə müxtəlif sahələrin inkişafının milli keyfiyyət əldə etməsi ilə əlaqədar olaraq dəyişdirilərək tarixi və ya milli dil vahidləri ilə əvəz edilmişdir.Lakin əksər beynəlmiləl terminlər bu gün də aktiv terminoloji leksik vahid kimi öz fəaliyyətini itirməmişdir.

Məs. :-aqressiya- təcavüz, diversiya- təxribat,səfir-elçi, agent-casus və s. kimi terminlər milli dil vahidləri ilə əvəz olunsa da;

-kompyuter,facebook,bomba, admiral, bank, sayt, mayor, publisistka, aviasiya, fayl, informasiya,i-mail,tolerant,sammit,standard, marşal, bank və yaxudjob, kreativ ,tolerant, dosent,aspirant,poet,filoloq,redaktor,doktor,advokat və s. onlarla müxtəlif anlayişları ifadə edən beynəlmiləl səciyyəli terminlər və termin-söz birləşmələri bu gün də mənbə dildəki səs tərkibində və uyğun mənalarda işlədilməkdədir.

Dillərin aktiv lüğət fondunda özünə möhkəm yer tutmuş beynəlmiləl terminlərin müşahidəsi və təhlili göstərir ki, belə terminlərin böyük əksəriyyəti latın və fransız mənşəli olmaqla ayrı-ayrıı aralıq dillər vasitəsilə dilimizin terminoloji leksik qatına daxil olmuşdur.Belə terminlərin dilimizə daxil olmasında aralıq dil funksiyası cox hallarda rus dilinin üzərinə düşür. Bu proses XIX əsrin əvvəllərindən başlamışdır.İngilis dilinin hegomon dilə cevrilməsilə əlagədar musiqi,idman sahəsində çoxlu sayda sözlər olduğu kimi Avropa dillərində özünə yer tutmuşdur.Mənbə dildən rus dilinə daxil olmuş müxtəlif terminlər məlum tarixi, ictimai-siyasi hadisələrlə bağlı olaraq sonralar dilimizin də lüğət tərkibinə keçmiş və işləməyə başlamişdir.Beynəlmiləl sözlər çoz cüzi spesifik fonetik, orfoqrafik və morfoloji xüsusiyyətlərə malikdir;

-məsələn:fransızca-etudiant,almanca student,ingiliscə student, rusca student;fransızca-socializme,ingiliscə-socializm,rusca- cotsializm kimi oxunur.

Deməli,beynəlmiləl sözlər o sözlərdir ki, müxtəlif dillərdə işlənsə də eyni mənaya malik olur:

-telefon, opera, ariya,musiqi,teatr,foye,vizit,restoran və s.

Bu tipli beynəlmiləl terminlərin birbaşa mənbə dildən deyil,aralıq dil funksiyasını yerinə yetirən rus dili vasitəsilə dilimizə daxil olması və özünə yer tapması,mənbə dildəki mənalarını və səs tərkibini saxlaması təbii ki,araliq dilin dilimizin yerləşdiyi coğrafi ərazi yaxinlığı,tarixi,ictimai-siyasi şərait və mənbə dildəki mənanın beynəlmiləlləşməsi ilə bağlı olmuşdur.Bəzi beynəlmiləl sözlər öz semantik mənasına görə hər dildə özünəməxsus şəkildə dəyişir. Fransızcadan alınmış **parket** sözü alman,rus,Azərbaycan dilində fərqli şəkildə işlənir.

Dilimizin lüğət tərkibinə daxil olmuş və əksəriyyət təşkil edən latın , fransız və bəzi ingilis, alman və digər dillərdən alınmış müxtəlif sahələrə aid olduğu dillərlə Azərbaycan dilinin tarixən heç vaxt qarşılıqlı əlaqədə olmaması, onların bir-birindən coğrafi baxımdan uzaqda yerləşməsi həmin prosesin aralıq dil vasitəsilə həyata keçirilməsi zərurətini doğurmuşdur.Belə terminlərin rus dilinə daxil olması prosesi isə müxtəlif tarixi ,ictimai-siyasi amillərlə bağlı olmuşdur.

Alman dilindən dilimizə keçən bir sıra sözlər bu gün də uğurla işlənməkdədir və onlar artıq xalq tərəfindən mənimsənilmişdir.

Məs: şlaqbaum, kurort, plaskart, buterbrot, bakenbart,müştük,çust,laydr, buğalter və s. Bu sözlər yerli dilin qrammatik,fonetik qaydalarına tabe edilərək bu gün də uğurla işlədilir.

Və yaxud da XVIII əsrin sonlarına doğru Azərbaycandan Fransaya,yaxud Fransadan Qafqaza gələn ziyalılarla münasibətdə fransız dilinə böyük maraq oyanmışdır. Təkcə ölməz bəstəkarımız Ü. Hacıbəyovun "O olmasın,bu olsun" kino-komediyasında işlənən.

-madumauzel,*pardon*,*vizit* və s. bol-bol işlənmişdir.

Onu da qeyd etmək lazımdır ki,bəzi sözlər cox nadir halda sözdüzəltmədə rol oynayır.Məs.: *Dandy*,*Spleen* və s.

Beynəlmiləl sözlərin çoxu öz gəldikləri yerin adət-ənənəsini qorumaqla əcnəbiliyini biruzə verir: *jour-fixe-fransızca,five o clock,british style-ingiliscə*. Dilin lügət tərkibinin zənginləşməsində kalkalar da çox vacibdir.Bu zaman söz və ya bütövlükdə birləşmə hərfi tərcümə edilir.Bu siyasi,diplomatik,iqtisadi və mədəni yaxınlaşmalarda dominant dilin başqalarına diqtəsi kimi qəbul edilə bilər.

Beləliklə, fransız dilindən avropa dillərinə aşağıdakı kalkalar keçmişdir:

- Yüksəkdə,zirvədə olmaq-Etre a la hauteur,la cour rəy,fikir- opinion publique,iş hüququ- droit au travail,faire və s.

Beynəlmiləl terminlərdə mənbə dillə müqayisədə azaciq dəyişmələr olsa da, onlarda mənbə dilə sadiqlik, maksimum dərəcədə ona uyğunluq gözlənilir. Alınma söz və ifadələr tərcümə edilmədən və dəyişdirilmədən işlədildikdə mənbə dilin orfoqrafiyasını və orfoepiyasını saxlayir. Beynəlmiləl sözlərin dilimizdə mənmsənilməsi və lüğət tərkibinin ayrılmaz bir hissəsinə cevrilmə prosesi də alınma sözlərin mənimsənilməsi prosesinə uyğun şəkildə reallaşir. Yəni, beynəlmiləl sözlər də dilin fonetik, qrammatik qanunlarına tabe etdirilərək qəbul olunmur. Alınmalardan fərqli olaraq beynəlmiləl sözlərin mənimsənilməsində aralıq dilin təsirləri də nəzərə alınır. Çünki, hər bir beynəlmiləl dil vahidinə araliq dil öz möhürünü vurur, əvvəlcə onu öz fonetik, qrammatik qanunlarına uyğunlaşdırır,sonra da digər alınmalar kimi daxil olduğu dilin mühitinə uyğunlaşdırılır və sonra əsas lüğət fondunda möhkəmlənə bilir.Məsələn:

-türkcədən rus dilinə keçmiş qolbas-kolbasa,alman dilindən keşmiş halstux-qalstuk, fransızcadan keçmiş bouleward-bulvar şəklini almışdır.

Deməli, lüğət tərkibinin beynəlmiləl sözlər hesabina zəginləşməsi onların özünəməxsus inkişafına mane olmayıb bütövlükdə dilin hərtərəfli inkişafına kömək edir. Yəni, beynəlmiləl sözlərlə milli dil vahidləri, digər sahələrdə olduğu kimi, bir-birini inkar etmir, əksinə biri digərini tamamlayaraq bütövlükdə dilin daxili inkişaf qanunları əsasında daha da zənginləşməsinə güclü təkan verir. Bu isə ayrı-ayrı dillərin dünyanın inkişaf etmiş dillərinə qovuşmasına, xalqların beynəlxalq inkişaf arenasına qoşularaq milli qapalılıqdan, özünütəcriddən uzaqlaşmasına şərait yaradır. Cünki dünya xalqlarının bir-birinə yaxınlaşmasına,onların inkişaf istiqamətlərinin bir tərəfə yönəlməsinə və gələcək yollarının qovuşmasına,iteqrasiyasına kömək edən ən mühüm amillərdən biri dil amilidir.Dildə olan beynəlmiləl terminlər xalqları bir-birinə daha çox bağlayir, cəmiyyət uzvlərinin beynəlmiləlləşməsində böyük rol oynayır.

Ədəbiyyat

1.H. Həsənov. Müasir Azərbaycan dilinin leksikası.Bakı-20005.
2.Braqina A.A.Sinonimi V literaturnom yazike.Moskva-1986
3.S.Cəfərov.Müasir Azərbaycan dili.Baki-1970
4.Vinoqradov S.İ.Russkiy yazik epoxi.Russkaya reç.1986.
5.Etimologiya.1978.Moskva,izdatelstvo Nauka 1980.

Metanet Allaxverdiyeva

The differensce and sumlarity of international words and collagual words.

Summary

Ponetic and grammatical standarts gave the opportunity to stud the international words in enrichin the vocabulary of a languageIn some cases borrowings are used ina wider circle and even dominate native words ,moreover, the latter turn into arxaismus.

Матанат Аллахвердиева

Общеупотребительные слов и интернационализм.
Разница и одинаковость.

Резюме

Учитывая фонетические и грамматические нормы языка можем прийти к выводы. Что интернационализм играют значителную роль в обогащанию языка.

В ряде случаев интернационализм превосходили слова родного языка и получили быстрое растпронение в народе.В резултате чего слова родного языка перешли в архаизмы

Rəyçi: b.m Sevda Bədəlova

ЭЛЬМИРА АШУРБЕЙЛИ
Бакинский Славянский Университет

РОЛЬ ПЕРЕВОДА В КОГНИТИВНОЙ ЛИНГВИСТИКЕ

Ключевые слова: перевод, когнитивная лингвистика, эмпиризм, переводчик, точность
Acar sözlər: tərcümə, koqnitiv dilçilik, empirizm, tərcüməçi, dəqiqlik
Key-words: translation, cognitive linguistics, empiricism, translator, accuracy

«Думать, что вы можете быть переводчиком только потому, что вы знаете два языка, это все равно, что считать, что вы сможете играть только потому, что у вас две руки» Питер Грент, мэр города Уэстмаунт (Канада)
(1, 3).

История перевода насчитывает века. Человеку всегда было интересно, а есть ли другие племена и народы, на каком языке они говорят? Еще в «Одиссеи» древнегреческий певец-сказитель

Гомер писал о приключениях древних греков. На каком же языке общался Ясон с Медеей и другими людьми на пути за золотым руном. Итак, человечеству еще на заре его развития важно было знать другие языки и владеть искусством перевода, чтобы понять чужеземцев. Финикийцы, древние египтяне, ассирийцы, персы, греки, римляне и другие народы уже знали искусство перевода, искусство трансформации текста на одном языке в текст на другом языке.

Из истории нам известно, что в древнем Карфагене была особая каста переводчиков, пользующихся привилегиями, среди которых были знающие даже несколько языков.

Слова Гейдара Алиева о переводе должны всегда быть в центре внимания современных переводчиков: «Родным языком создается каждый народ. Но только в результате переводов, деятельности людей, деятелей науки и просвещения, язык народа живет, развивается и поднимается на уровень мировой культуры» (2, 5).

М.Ф.Ахундов многое сделал для распространения азербайджанской литературы в Российской империи, занимаясь переводами своих произведений на русский и персидский языки, что сыграло положительную роль в знакомстве русских читателей с творчеством великого просветителя и с азербайджанской культурой.

П.И.Копанев, теоретик перевода, считает, что в истории перевода было несколько периодов (5). По Стейнеру, первый период охватывает восемнадцать веков: от рассуждений Цицерона до комментариев Фридриха Гельдерлина (1770-1843). Как известно, Фридрих Гелдерлин перевел «Антигону» Со-

фокла. Этот период носит название периода явно выраженного эмпиризма. Второй период называется этапом теории и герменевтических разысканий, то есть период определения сущности перевода и построения его философско-поэтической теории и завершается книгой французского писателя и переводчика Валери Ларбо «Под покровительством св. Иеронима» (1946).

В 1991 году Международная федерация переводчиков (FIT) провозгласило 30 сентября (День святого Иеронима) Международным днем переводчиков. МФП объединяет более 100 национальных ассоциаций переводчиков всего мира. Итак, задачей МФП является развитие профессионализма и защита прав переводчиков и терминологов, улучшение условий их труда и содействие свободе слова. МФП поддерживает консультативные отношения с ЮНЕСКО.

Р.К.Миньяр-Белоручевым отмечается, что «теория художественного перевода - наиболее «древняя» из теорий перевода. И сегодня многие авторы свои теоретические положения о переводе разрабатывают в сфере художественной литературы (Гачечиладзе Г.Р., Кари Е., Иржи Левый, Мумэк Ж., Соболев Л.Н., Федоров А.В. и другие), т.е. в понятиях и терминах литературоведения» (6, 13).

Известный специалист с многолетним опытом в области медицинских и духовных практик Лууле Виилма в книге «Язык души», рассказывающей о разработанном ею учении, обращается к читателю: «Милый читатель! Вот я и встретилась с вами. Знакомство через книгу - одна из возможностей общаться. Надеюсь, что перевод на другой язык смысла текста не изменит. Хочу передать Вам свои знания о душе человека, которые я получила при помощи сновидения, наблюдая внутренний мир человека…» (3, 3). Книга дается в переводе с эстонского языка Ирины Рююдья. Лууле Виилма в обращении к читателю затрагивает важную проблему перевода – при переводе на другой язык надо сохранять смысл текста.

Как мне кажется эстонская переводчица Ирина Рююдья сумела удачно перевести книгу Лууле Виилмы на русский язык. Таким образом, нам важно понять законы перевода. Известная переводчица Светлана Чураева пишет о трудности труда переводчика: «Самому написать – легко. А делать перевод-это всегда какие-то рамки. Нужно укладываться в определенный не тобой размер, в иное звучание, в готовую систему образов…То есть ты не просто бежишь с криками «Хорошо!», а с гирями на ногах.

Как в сказке про скорохода. Или как Пушкин, который специально носил трость с тяжелым набалдашником, чтобы тренировать руку... Это-то и интересно! Интересно «залесть» в другого человека. Чтобы перевести чужую вещь, нужно выстраивать общую кровеносную систему с другим писателем, представителем другой культуры, понимаете? Чужая вещь становится моей и будто бы рождается заново. Это очень обогащает. Для меня перевод-это драйв» (9, 94).

Итак, искусство перевода требует от переводчика кропотливого труда и знания исходящего языка. Книга Л.Л.Нелюбина и Г.Т.Хухуни «Наука о пере-

воде. История и теория с древнейших времен до наших дней» будет полезным для всех интересующихся вопросами перевода.

В последние годы когнитивная лингвистика сделала большие успехи в понимании мыслительной стороны процесса перевода, что очень важно для переводчика. Как известно, когнитивная лингвистика дает объективные сведения об окружающем мире.

Принимая это во внимание, можно считать, что цель перевода – установить отношения эквивалентности между исходным и переводным текстом. Удачным считается перевод, соответствующий критериям:

1) точность, достоверность;

2) прозрачность.

В 70-х годах XX века появляется новое направлении в языкознании когнитивная лингвистика, которая изучает язык как проявление ментальной деятельности человека и как средство познания мира, его категоризации, концентрализации и оценки.

В «Словаре лингвистических терминов» дается определение когнитивной лингвистики как «направление, в центре внимания которого находится язык как общий когнитивный механизм, как когнитивный инструмент-система знаков, играющих роль в репрезентации (кодировании и трансформировании информации)» (4).

Российская когнитивная школа имеет довольно сильную теоретическую базу. Представители татарской лингвокультурологической школы также разработали много актуальных проблем, связанных с национальным своеобразием материального и духовного мира татарского народа, что важно учитывать при переводах с татарского языка на другие языки и в обратном направлении.

Р.М.Новрузов описал историю художественного перевода в Азербайджане и показал в своей книге, как перевод художественных произведений служил взаимообогащению разных культур (8).

Е.В.Мордовской предлагается когнитивный подход к изучению процессов структуирования накопленной информации, объясняющей данное явление как процесс передачи знаний при переводе с одного языка на другой, как инструмент познавательной деятельности человека, а также в разработке поэтапной методики лингвокогнитивного анализа, которая в опоре на собственно языковые факты и лингвистические методы давала бы когнитивную и культурологическую информацию; раскрывающую различные стороны воплощенных в языке когнитивных пространств в языке переводческой деятельности (7, 20).

Таким образом, суммируя все вышеприведенное, в мастерстве переводчика важно учитывать и лингвокультурологические аспекты. Представитель Санкт-Петербургской переводческой школы И.С.Алексеева очень точно отметила, что современный «переводчик - уникальный накопитель сведений о разных областях знаний и человеческой деятельности, причем для него одинаково важно знать и суть процесса или явления, и то, как все это называется на родном и - соответственно - иностранном языке» (1, 22).

В подтверждение замечания И.С.Алексеевой можно привести пример известного азербайджанского поэта и переводчика В.Кафарова, который добился больших успехов в переводе азербайджанских баяты на русский язык не только знанием обоих языков, но и глубоким знанием образной системы азербайджанского и русского языков, что помогло найти верное соответствие словам в языке переводов.

Литература

1. Алексеева И.С. Профессиональный тренинг переводчика. Учебное пособие. Санкт-Петербург. Изд-о «Союз», 2005.
2. Ахундов Мирза Фатали. «Человеческий разум, этот божественный дар…» Избранные произведения. Издание на русском и азербайджанском языках. М.: Центр книги Рудомино, 2012, 128 с.
3. Виилма, Л. Язык души / пер. с эст. И.Рююдья / Рига: Изд-о АПЛИС, 2007, 495 с.
4. Жеребило Т.В.Словарь лингвистических терминов. Назрань: Изд-о «Пилигрим», 2010.
5. Копанев П.И. Вопросы истории и теории художественного перевода. Минск: Изд-о Минского гос.унив., 1972, 191 с.
6. Миньяр-Белоручев Р.К. Общая теория перевода и устный перевод. М.: Воениздат, 1980. 237 с.
7. Мордовская Е.В. Особенности перевода когнитивных пространств в структуре знаний говорящего: Дис…на соиск. канд. филол. наук. Челябинск. 2006, 181 с.
8. Новрузов Р. Художественный перевод и проблема взаимодействия, взаимообогащения литератур. Баку. «Элм», 1990, 342 с.
9. Савельев И. «Ледяные озера чужих стихов» // Русский мир. Ежемесячный журнал, 2008, №8, с. 94-96.

E.Aşurbəyli

Koqnitiv dilçilikdə tərcümənin rolu

Xülasə

Məqalədə tərcümənin tarixindən və koqnitiv dilçilikdə tərcümənin rolundan və linqvokoqnitiv təhlilin metodikasından bəhs olunur.

Müasir tərcümə nəzəriyyəsində tərcüməçi üçün tərcümə olunan dilin öyrənilməsindən başqa, bu dilin linqvokulturoloji biliklərinə də yiyələnməsi zərüri sayılır. Bir çox alımlər müasir elmin inkişafında tərcümənin rolunun vacibliyini vurqulayır.

E. Ashurbayli

Cognitive Linguistics and Translation

Summary

Article is about history of translation and the role of translation in cognitive linguistics and methodic of linguistic-cognitive analysis. In the modern theory of translation from the translator is required not only the study of the target language, but also knowledge of linguistics culturology of that language.

Many scientists in the development of modern science emphasize the importance of the role of translation.

Rəyçi: канд. фил. наук. А. Г.Гаджиева

RAMİLƏ NƏSİROVA
APU
vip.ramila@mail.ru

APOFONASİYA

Açar sözlər: apofonasiya, segment, suprasegment, derivasiya ,morfoloji üsul
Ключевые слова: апофония, сегмент, супрасегмент, деривация, морфологический способ.
Key words: ablaut, segment, super-segment, derivation, morphological method.

Müxtəlifsistemli dillərdə morfoloji üsulun növləri arasında apofonasiya hadisəsinin özünəməxsus yeri və mövqeyi vardır. Bu hadisə fonetik dəyişikliyə əsaslanaraq daha çox german dillərində müşahidə edilir.

Apofonasiyanın digər bir adı ablautdur. A b l a u t (alman dilində **ablaut**)— səsləri morfoloji cəhətdən (kökdə sait foneminin dəyişməsi) eyni köklü sözlərdə və ya bir sözün müxtəlif formalarında səs dəyişməsi ilə şərtlənir. Məsələn, alman dilində *binden — band — gebunden* buna misal ola bilər.

"Söz tərkibində hər hansı bir fonetik dəyişkənlik düzxətli aktdır. Fonem sisteminin yenidən qurulması, fonetik təkamül və s. mürəkkəb xarakterli amillər, bütöv reduksiyalar buna misal ola bilər. Bu zaman müxtəlif xarakterli dil əvəzlənmələri, yəni qovuşma, hissələrə ayrılma və s. kimi növlər üzə çıxır. Beləliklə, dinamik keçid prosesi intralinqvistik və ekstarlinqvistik səbəblərdən meydana gəlir və dildə tarixi reallıqları, gerçək prosesləri əks etdirir" [7, 48].

"Ablaut" termini ilk dəfə alman filoloqu Yakob Qrimm tərəfindən Hind-Avropa dillərinin, əsasən də, german dilləri ailəsinin qrammatik quruluşunu təsvir edərkən işlədilib. Belə ki, bu hadisə german dillərində olduğu kimi, Hind-Avropa dillərində də mövcuddur. Lakin german dillərindən fərqli olaraq, Hind-Avropa dillərində apofoniya sözün bütün hissələrinə toxunur. German dillərində isə bu əsasən vurğulu hecaya aid olur. Qədim və müasir german dillərində bu hadisə özünü daha çox qaydasız fellərdə biruzə verir. Məsələn: ingilis dilində: *wr**i**te — wr**o**te — wr**i**tten*; alman dilində: *n**e**hmen — n**a**hm — gen**o**nmen* və s.

Bu kimi əvəzlənmələr ümumhind-Avropa əvəzlənməsi olan *[ĕ] — [ē] — [ŏ] — [ō]* səslərinin əvəzlənməsi ilə izah olunur.

Apofoniya və ya ablaut bir morfemin tərkibində saitlərin yerdəyişməsi və ya əvəzlənməsi, bir sözlə, əksər hallarda daxili fleksiya kimi çıxış edir: *sing — sang — sung* (ingiliscə mahnı oxumaq).

Alman və ingilis dilində olduğu kimi, rus dilində də eyni ilə bu hadisəyə təsadüf olunur.

Söz yaradıcılığında apofoniya hadisəsi Azərbaycan dili üçün o qədər də aktual deyil. Amma bəzi türk dillərində səs əvəzlənməsi hadisəsi söz yaradıcılığının bir növü kimi də təhlil olunur. Bu hadisəni fonetik söz yaradıcılığı kimi də təhlil edənlər var. "Türkmən və özbək dilləri üzrə söz yaradıcılığının bu yolu, hətta xüsusi bir tədqiqat obyekti olmuşdur .

Ümumiyyətlə səs əvəzlənmələri nəticəsində təbii ki, sözün variantları arasında fonetik fərqlər meydana çıxır. Bu baxımdan İ.Kazımov qeyd edir ki, səs əvəzlənmə-

si hadisəsi tarixi və pozision olmaqla iki qrupa ayrılır və eyni zamanda sözün formasını və ya mənasını dəyişmə xüsusiyyətinə görə fərqli funksiyalara görə də qruplaşa bilir" [4, 61].

Mahmud Kaşğari isə göstərirdi ki, səs əvəzlənməsi müxtəlif fonetik variantda olan sözləri məna cəhətdən fərqləndirir. Türkoloqlardan A.Q.Qulamov, A.A.Yuldaşev, S.B.Bizakov yeni sözlərin səs əəvəzlənməsi nəticəsində yarandığı barədə ayrıca tədqiqatlar aparmışlar [8].

Məsələn, türk dillərində [a] və [e] saitlərinin əvəzlənməsi: *yalpak \\ yelpak* (türk), *saçmak \\ seçmek* (türkm.), *kaynı \\ kəyne* (başq.), *ata \\ əti* (tat) və s.

Tarixən *bıç\\biç, biçik\\bitik* (kitab), *bıçkı\\biçmek* sözlərində də səs əvəzlənməsi hadisəsi baş vermiş və yeni sözlər yaranmışdır.

Qeyd edək ki, əvəzlənmə hadisəsi tarixən türk dillərində samit səslər arasında da özünü göstərmişdir: *tiqir \\ diqir, taymak \\ qaymak, tabşırmak \\ qovşurmak, duşak \\ quşak* (türkm.), *kaşık \\ kalak, çunnur \\ çunnul* (başq).

Lakin Azərbaycan dilində bu hadisə əsasında söz yaradıcılığı çox tək-tək hallarda təsadüf edilir (əgər bunu apofoniya adlandırmaq mümkünsə). Məsələn, "qurut"(maq) felinin sonunda olan [t] səsi [d] səsinə keçməklə qurudulmuş süzməni ifadə edən "qurud" sözünü formalaşdırır. S.Cəfərov öz kitabında bu kimi hallara uc<uç (c-ç) sözünü də aid edərək, qeyd edir ki, "kimi", "qədər" qoşmalarının sinonimi olan "-dək" qoşması vaxtı ilə bir şəkildə "-tək" şəklində işlənmişdir [3, 153].

Azərbaycan dilində bu qəbil fono-morfoloji üsul haqqında söz açmazdan öncə Ə.Dəmirçizadənin bir fikrinə nəzər salaq. O, yazır: "Azərbaycan dilində səsdüşümü, səsartımı olduğu kimi, səslərin dəyişilməsi və əvəz olunması hadisəsi də vardır. Unutmamalıyıq ki, bu hadisələr yalnız sözlərə şəkilçi artırıldığı zaman deyil, bir sözdən yeni mənalı başqa bir söz düzəltmə zamanı da özünü göstərir. Məsələn: *uzun — uzanmaq, gödək — gödəlmək, alçaq — alçalmaq, sarı — saralmaq*" [1, 206; 2, 123].

Azərbaycan dilinin müasir vəziyyəti baxımından fonematik əvəzlənmələr hesab edilən bu faktlar həqiqi fonematik əvəzlənmə sayıla bilməz və düşünürük ki, bunlar daha sonra haqqında ətraflı bəhs edəcəyimiz konversiya nümunələrinə daha çox oxşayır. Beləliklə, apofonasiya hadisəsi haqqında bəhs edərkən bununla bağlı Azərbaycan dilində isə vəziyyətin bir qədər fərqli olduğunu xüsusilə vurğulamalıyıq. Belə ki, dilimizdə vurğunun yeri sabit olduğundan eyni şəkildə yazılıb fərqli tələffüz edilən söz köklərinə rast gəlinmir. Azərbaycan dilində bu məqamda yalnız söz formalardan bəhs etmək mümkündür. Məsələn, –ma[2] inkarlıq şəkilçisinin vurğu qəbul etməməsi məqamı ilə bağlı dildə omoqrafları aydın müşahidə edə bilərik: "alma" (meyvə) və ya "alma" (almaq felinin inkar forması) və s.

Ümumiyyətlə A.Axundovun qeyd etdiyi kimi "İltisaqi dillərdən biri kimi Azərbaycan dilində, flektiv dillərdən fərqli olaraq fonematikəvəzlənmə yoxdur. ... qrammatik və leksik mənaların ifadə olunmasında başqa türk dillərində olduğu kimi bizim dilimizdə də monosemantik affikslər, yəni həm sözdəyişdirici, həm də sözdüzəldici şəkilçilər əsas rol oynayır. Fonetik asılılığa məruz qalmayan söz kökləri isə müxtəlif vəziyyətlərdə sabit və dəyişməz qalır. Bir sözlə, Azərbaycan dilində fonematik əvəzlənmə axtarmaq nəzəri cəhətdən doğru deyil.

Lakin bir çox amillər bizim dilimizdə fonematik əvəzlənmələrin tədricən özünü göstərməsi üçün müəyyən əlverişli şərait yaratmaqdadır" [1, 88].

Ümumiyyətlə, türk dilləri üçün apofoniya daha çox dilin tarixi inkişaf yolunda izlənə bilər. Məsələn, "bən" sözünün "mən" şəklinə düşməsi, "dağ", "yaxmaq" sözlərini qumuq dilində "tav", "yavmaq" formasında, "palçıq" sözünün qazax dilində "balşıq", "pişik" sözünün tatar dilində "bışıq" şəklində işlənməsi buna misal ola bilər. Amma müasir dönəmdə bu hadisə bizdə sözyaratma vasitəsi kimi çıxış edə bilmir.

Alman dilində daxili fleksiya (ablaut və ya apofoniya) sözyaratma vasitəsi kimi söz kökünün saitlərinə təsir göstərir və söz kökündə müəyyən fonetik dəyişikliyə səbəb olur. Məsələn, *sitzen — sentzen, binden — band — debunden, die bind — den Band — der Bund* və s.

Alman dilindən fərqli olaraq ingilis dilində apofoniya aşağıdakı hallarda istifadə edilir:

1. İndiki və keçmiş zamanın diferensasiyası zamanı: *give-gave ([i]//[ei]), take- took ([ei]//[u]), come-came ([□] // [ei])* və s.
2. İndiki zaman forması ilə feli sifət II formasının fərqləndirilməsi zamanı: *sing – sung, write – written* və s.
3. Feli sifətlə felin keçmiş zamanının fərqləndirilməsi zamanı: *came-come* (gələn) [12, 131]. Bir məqamı da qeyd edək ki, ingilis dilində daxili fleksiya sözə hər hansı bir affiksin birləşməsindən qəti surətdə asılı deyil.

A.V.Şirokova müxtəlifsistemli dillərin tipoloji tədqiqatına həsr etdiyi araşdırmasında qeyd edir ki, ingilis dili analitik dil olmasına baxmayaraq rus dili ilə müqayisədə qrammatik mənanın formalaşdırırlmasında (kəmiyyət, fel formaları) daxili fleksiyadan istifadə edirsə, rus dili bu zaman affikslərə müraciət edir [12, 139].

Nəzərdən keçirilən nümunələrdən görünür ki, apofoniya hadisəsində aparıcı rol seqmentlərin üzərinə düşür. "Seqment dedikdə, heca, söz, söz birləşmələri, sintaqm, ifadə və s. nəzərdə tutulur" [10, 27]. Supraseqmentlərə isə nitq seqmentlərinin üzvlənməsi (parçalanması) və birləşməsi aid edilir. Buraya tonun alçaldılması və ya yüksəldilməsi, vurğunun müəyyənləşməsi, pauza, temporal dəyişiklik və s. daxildir [10, 28]. Daha konkret şəkildə ifadə etsək, supraseqment vahidlərə vurğu və intonasiya daxildir. Supraseqmentlərin apofoniyasından bəhs edərkən qeyd edək ki, söz yaradıcılığında bu hadisə daha çox söz vurğusu sabit olmayan dillərdə təsadüf edilir. Məsələn, ingilis dilində "present" sözü vurğunun və eyni zamanda "e" hərfinin [e] və ya [i] kimi tələffüz olunmasından asılı olaraq müxtəlif mənalı sözlər ifadə edir. Belə ki, [pri´zent] kimi tələffüz olunduqda "hədiyyə", [´prezent] kimi tələffüz edildikdə isə "iştirak etmək" və ya "hal-hazırda" anlamını ifadə edir. Eyni ilə bu kimi hadisəyə rus dilində də təsadüf edilir. Məsələn, «замок» sözü vurğunun yerindən asılı olaraq mənasını dəyişir. Belə ki, [за´мок] "qala", "qəsr", [замо´к] isə "açar", "qıfıl" mənalarındadır.

A.Mahmudovun qeyd etdiyi kimi, E.D.Polivanovun təbirincə desək, sözün əlamətini müəyyənləşdirmək vurğunun payına düşür. Vurğu türk dillərində sözün fərlqəndirici xüsusiyyəti kimi də çıxış edir [9, 58-63]. Bu keyfiyyət vurğunun funksiyasına daxildir və o, supraseqment apofonasiyanı şərtləndirir.

Ümumiyyətlə, apofonasiyanın söz yaradıcılığında mövqeyi eyni köklü sözlərdə məna müxtəlifliyi və bunun əsasında da sözün fonetik qabığındakı fərqlilikləri ortaya qoymaqla müəyyən edilir.

Deməli, apofoniya E.Kuriloviçin qeyd etdiyi kimi, "morfoloji hadisə olsa da, fonoloji amillərdən asılıdır. Məsələn, liktós, klutós, pektós, settos— feldən düzələn zərflərdir və köklərində leiqˇ, kleuˇ, peqˇ və sed sözləri dayanır. Burada leksik şəkilçi kimi –tu şəkilçisindən istifadə edilir" [8, 38]. Buradan göründüyü kimi, müəyyən quruluşa malik söz köklərinə bu şəkilçinin əlavə edilməsi kökün səs qabığını da dəyişir (loiqˇ-o→lik-tó). Onu da qeyd edək ki, kök vokalizminin bu dəyişikliyi müstəqil morfoloji funksiyaya malik deyil. Müəllifin qeyd etdiyi kimi, o, bütün Hind-Avropa dillərində suffiksasiya və ya fleksiya ilə əlaqəlidir. E.Kuriloviç daha sonrakı müşahidələri əsasında belə bir qənaətə gəlir ki, ei<i apofoniyası bu qəbil sözlərin hamısında müşahidə edilir [8, 39-40].

Qeyd edək ki, bir çox səs əvəzlənmələri polifunksionaldır. Onlar həm sözdəyişmə elementi, həm də söz yaradıcılığı elementi kimi çıxış edə bilərlər... Morfonoloji vasitələr hesabına daha çox söz kökləri dəyişir. Şəkilçilərdə bu cür dəyişikliklər çox az təsadüf edilir [11, 65].

Ə.Rəcəbli qeyd edir ki, iltisaqi dillərdə olduğu kimi flektiv dillərdə sözlər şəkilçi qəbul etməklə dəyişə bildiyi halda, onun fonetik tərkibində də bir sıra dəyişikliklər baş verir. Bununla əaqədar olaraq fleksiyanın iki növü göstərilir: xarici fleksiya və daxili fleksiya. "Hər iki fleksiya növü flektiv dillərin hamısına aiddir" [5, 73]. Bununla yanaşı olaraq vurğulayaq ki, ingilis və alman dillərində isə daxili fleksiyanın umlaut və ablaut tipləri qeyd edilir ki, ikincisi, yuxarıda qeyd etdiyimiz kimi, apofonasiyanın özüdür.

F.Veysəlli "Dil" adlı kitabında ablaut və umlaut hadisələri haqqında belə fikir irəli sürür ki, umlautla müqayisədə ablaut tarixi hadisədir. Müəllif də digər tədqiqatçılar kimi ablaut hadisəsinin əsasən ingilis və alman dillərində geniş yayıldığını xüsusilə vurğulayır [6, 181].

Müasir dövrdə, yuxarıda artıq qeyd etdiyimiz kimi, alman dilində daxili fleksiya (ablaut və ya apofoniya) sözyaratma vasitəsi kimi söz kökünün saitlərinə təsir göstərərək söz kökündə müəyyən fonetik dəyişikliyə səbəb olur. Daha çox ingilis və alman dillərində təsadüf olunan ablaut və ya apofoniya hadisəsi zamanı sözün qrammatik, bəzən hətta leksik-semantik mənası da dəyişir, lakin yeni məna əvvəlki məna ilə əlaqəsini tam kəsmir. Məsələn:

İngilis dilində: *sing* (oxumaq) – *sang* (oxumuşdur) – *sung* (oxunmuş) – *song* (nəğmə) və s.

Alman dilində: *zingen* (oxumaq) – *zang* (oxumuşdur) – *gezungen* (oxunmuş) – *gezang* (nəğmə) və s.

Qeyd edək ki, bu dillərdə (ingilis və alman dillərində) apofoniya cəm kateqoriyasının formalaşmasında da aparıcı üsullardan biri kimi xarakterizə edilə bilər: alman dilində: *bruder* (qardaş) – *brüder* (qardaşlar); *mutter* (ana) – *mütter* (analar) və ya ingilis dilində: *mous* (siçan) – *mice* (siçanlar), *tooth* (diş) – *teeth* (dişlər) və s. Rus dilində söz kökünün dəyişməsi flektiv hadisəsinin ablaut tipi fellərdə bitmiş və bitməmiş tərzin yaranmasında da özünü göstərir: **bitmiş tərz:** *собрать, назвать, понять;* **bitməmiş tərz:** *собирать, называть, понимать.*

Ə.Rəcəbli də qeyd edir ki, bəzi dillərdə, məsələn, ingilis və ərəb dillərində ablaut (biz bunu apofoniya adlandırmağı daha məqsədəuyğun hesab edirik) müxtəlif sözyaratma və sözdəyişmə formalarını əmələ gətirmək üçün yeganə vasitədir [5, 75]. Buna ən bariz misal "ktl" (qətl) köklü sözlərdir. Məsələn, *kətələ* (öldürdü), *ku-*

tilə (öldürüldü), *katilu (*qatil), *kitalu* (öldürülən), *uktul* (öldür). Ərəb dilindən gətirdiyimiz bu nümunə daha çox transfiksasiya hadisəsi kimi tanınır.

Qeyd edilənlər belə bir qənaətə gəlməyə əsas verir ki, apofoniya fono-morfoloji hadisə olmaq etibarı ilə tarixi xarakter daşıyır. Bu morfoloji üsul analitik və flektiv dillərdə dilin qrammatik strukturunda əsaslı mövqeyi ilə seçilən felin zaman və növ kateqoriyalarının yaranmasında müstəsna rola malikdir. İltisaqi dillərdə isə bu hadisəyə nadir hallarda təsadüf edilməsinə baxmayaraq, bu dillərdə apofonasiyanın mövcud olmamasını qəti şəkildə iddia etmək doğru olmazdı.

Yuxarıda deyilənlərdən belə bir nəticə əldə etmək olar ki, apofonasiya hadisəsi fono-morfoloji üsul kimi seqment və supraseqmentlərin fleksiyası hesabına reallaşır və tarixi səciyyəlidir. Bu hadisəyə bu və ya digər bir şəkildə (primitiv formada olsa belə) bir çox dünya dillərində və eləcə də bütün dil qruplarında təsadüf etmək olur. Apofonasiya söz yaradıcılığı üsulu kimi hətta bəzi dil kateqoriyalarının (məsələn, kəmiyyət, felin növ, zaman və şəkil kateqoriyalarının) ifadəçisi kimi çıxış edir.

Məqalə fərqli dillərdə apofonasiya hadisəsinə həsr edilib və tipoloji araşdırmaya əsaslanır. Burada müxtəlif dillərdə apofonasiya hadisəsinin söz yaradıcılığındakı mövqeyinə xüsusilə diqqət yetirilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, “Maarif”, 1984, 391 səh.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, “Maarif”, 1984, 312 səh.
3. Cəfərov S. Müasir Azərbaycan dili (Leksika). Bakı, 1970, 182 səh.
4. Kazımov İ.B. Axısqa türklərinin dili. Bakı, “Elm”, 1999, 278 səh.
5. Rəcəbli Ə. Tipoloji dilçilik. Bakı, “Elm və Təhsil”, 2010, 100 səh.
6. Veysəlli F.Y. Dil. Bakı, “Təhsil”, 2007, 291 səh.
7. Горбачевич К.С. Изменение норм русского литературного языка. Ленинград,«Просвещение», 1971, 270 с.
8. Гулямов А. К вопросу об адвербиализации в узбекском языке. \\ Уч. зап. Ташкентского гос. Пед. Инст. -та им. Низами. Фил. сб. , 1954, с. 3-10
8. Курилович Е. Очерки по лингвистике. Москва, «Иностранная литература», 1962, 456 с.
9. Махмудов А. Словесное ударение в узбекском языке. Ташкент: Изд-во АН Уз. ССР, I960, 121 с.
10.Михалев А.В. Общее языкознание: история языкознания. Москва, «Флинта: Наука», 2005, 240 с.
11.Тихонов А.Н. Проблемы словообразовательной морфонологии. В кн:Евразия на перекрестке языков и культур. Москва, 1999, Диалог-МГУ, 76 с.
12.Широкова А.В. Сравнительная типология разноструктурных языков (фонетика, морфология). Москва, «Добросвет», 2000, 200 с.

Р. Насирова

Апофония

Резюме

Статья посвящена явлению апофонии в различных языках и основывается на типологическое исследование. Апофония или иными словами апофонация базируется на фонетические изменение слов. С этой точки зрения в данной статье рассматривается роль и статус апофонации в деривационном системе разносистемных языках.

R.Nasirova

Ablaut

Summary

The article is devoted to the phenomenon ablaut in different languages and based on typological researches. Ablaut or in other words apofonation based on phonetic variation of the words. From this viewpoint, one can say that in this article is discussed the role and status of ablaut in derivation system different languages.

Rəyçi: dosent Gülçöhrə Alıyeva

RƏHİMƏ MƏMMƏDOVA
ADNA Xarici dillər kafedrası

SUFFİKSLƏRİN SXEMİ VƏ MODELİ

Açar sözlər sözdüzəltmə, suffiks, sxem, model
Ключевые слова: словообразование , суффикс, схема,модель
Key words: Word formation, suffix, scheme, model

Müasir ingilis dilində sözdüzəltmənin izahatına başlamazdan əvvəl sözdüzəltmənin dilçilikdə yeri məsələsi üzərində ətraflı şəkildə dayanmaq lazımdır. Sözdüzəltmənin dilçiliyin hansı bəhsinə-qrammatikaya (morfologiyaya), yoxsa leksikologiyaya aid edilməsi məsələsini ətraflı şəkildə nəzərdən keçirmək lazımdır. Ona görə də bu sahədə mövcud olan fikirləri təhlil edilib və nəticədə alimlərin son qərarına istinad edilib ki, sözdüzəltmə dilçiliyin yeni və müstəqil bir sahəsi hesab edilir. Sözdüzəldici və sözdəyişdirici şəkilçilərin nitq hissələrinə görə təsnifinin özünəməxsus xüsusiyyətləri var. Aparılan tədqiqatlar nətcəsində təhsil alanların mənimsəmə səviyyəsini optimallaşdırmaq məqsədilə dilçilik elminin son nailiyyətlərindən istifadə edərək sözdüzəldici şəkilçilər nitq hissələrinə görə belə qruplaşdırılır:

1) İsim düzəldən suffikslər
2) Sifət düzəldən suffikslər
3) Fel düzəldən suffikslər
4) Zərf düzəldən suffikslər

İstər azərbaycan dilində, istərsə də ingilis dilində suffikslər (sözün sonuna əlavə edilən şəkilçilər) məhsuldar və qeyri-məhsuldar olmaqla iki yerə bölünür. Məhsuldar suffikslər bir-birinin ardınca saysız-hesabsız yeni sözlər yaratmaq imkanına malikdir, qeyri-məhsuldar şəkilçilər isə məhdud sözlərə artırılaraq az miqdarda sözlər əmələ gətirir. Bu söz yaradıcılığı prinsipinə əsaslanır və dilin leksik qatını zənginləşdirir. İngilis dilində isimlərin sonuna əlavə edilən fəal suffikslərdən aşağıdakıları misal göstərmək olar.

-er şəkilçisi: bu isimlərin əksəriyyəti ixtisas adları bildirir. Məsələn, *teacher(müəllim), oiler* (neftçi), *fighter* (döyüşçü), *jumper* (idm. tullanan), *farmer* (fermer), *invader* (ixtiraçı), *carpenter* (dülgər), *joiner* (xarrat), *jeweller* (zərgər), *hunter* (ovçu), *builder* (bənna), *driver* (sürücü), *swimmer* (üzgüçü), *gardener* (bağban), *painter/artist* (rəssam), *manager* (müdir), *driller* (qazmaçı) və s.

Qeyd etmək lazımdır ki, *-er* şəkilçisi çox məhsuldar olub saysız-hesabsız ixtisas adları düzəltməkdə mahirdir.

-or şəkilçisi: bu şəkilçi də əsasən ixtisas, sənət-peşə adları bildirərək *–er* suffiksi ilə allomorfluq təşkil edir. Məsələn navigator (gəmiçi), sailor (dənizçi), doctor (həkim), actor (aktyor), incistor (inkasator), corrector (korrektor), lector (lektor/mühaziräçi), executor (məhkəmə), ambassodor (səfir) və s.

-er//-or allomorfları bir morfem kimi qəbul olunur, lakin onların fərqli və oxşar cəhətləri vardır. Oxşar cəhətləri odur ki, hər iki morfemin tələffüzü [ə]-dir və hər ikisinin yaradıcılıq qabiliyyətləri eynidir. Belə ki, hər ikisi də isim düzəltmək qabiliyyətinə malikdirlər.

Fərqli cəhətləri isə onların müxtəlif qrafikə malik olmasıdır *(-er, -or), -or* şəkilçisi – *er* şəkilçisinə nisbətən az məhsuldardır və qismən az ixtisas adları düzəldir: *-er* şəkilçisi isim və felin sonuna artırılaraq ixtisas adları düzəldir, *-or* şəkilçisi isə ancaq felin sonuna artırılıb ixtisas adı düzəldir. Məsələn aşağıdakı modellərə nəzər salaq:

Verb+ er= Noun worker, fighter, invader, joiner və s

Noun+ er =Noun oiler, jeweler, gardener, boxer, milker və s

Verb+ or=Noun sailor, actor, translator, director, interrogator və s

-eer suffiksi. Bu morfem də *-er* morfemi kimi məhsuldar deyil. *–eer* morfemi ilə düzələn isimlərə aşağıdakıları misal göstərmək olar: *mountaineer* "alpinist", *ballader* "ballada oxuyan", *auctioneer* "auksionu idarə edən", *musketeer* "muşketor, Fransada kralın qvardiya süvarisində xidmət etmiş zadəgan", *puppeteer* "kukla teatrının aktyoru", *pamphleteer* "pampfletçi, pamflet" həcv yazan", *marketer* "kommersant, satıcı", *buccaneer* "pirate", *racketeer* "raket texnikası ilə məşğul olan mütəxəssis" və s.

-an, -ian suffiksi. Alınma şəkilçilər olan *–an, -ian* isim düzəldən suffikslərin fəallığı ilə seçilən morfemlər sırasındadırlar. Məsələn, *musician* "musiqiçi", *historian* "tarixçi", *phonetician* "fonetist", *technician* "texnik" və s.

-ist suffiksi. Bu morfem Azərbaycan dilində fəal olduğu kimi, ingilis dilində də fəaldır. Məsələn, *communist* "kommunist", *typist* "naşir", *receptionist* "resepsionist", *dramatist* "dramma ilə məşğul olan şəxs, dramaturq", *botanist* "botanik", *chemist* "kimyaçı", *anecdotist* "anikdot yazan", *artist* "incəsənət adamı", *tourist* "səyahətçi, turist", *violonist* "skripkaçı", *paleontologist* "paleontoloq", *logist* "məntiqçi", *physicist* "fizikaçı", *motorist* "sürücü", *dentist* "diş həkimi", *novelist* "hekayə yazan", *socialist* "sosioloq", *machinist* "maşinist, maşınqayırma mütəxəssisi" və s.

-ant/ent suffiksi: İngilis dilində ***-ant/-ent*** suffiksləri ilə yaranan isimlər, əsasən şəxs, sənət-peşə və bəzi ixtisas adları yaradır. Məsələn, *servant* "qulluqçu", *merchant* "tacir", *accountant* "mühasib", *student* "tələbə", *defendant* "müdafiəçi" və s.

- ing suffiksi. Bu morfem vasitəsilə də yaranan isimlər aşağıdakılardır: *meeting* "iclas", *building* "bina", *driving* "sürücülük", *gardening* "bağçılıq", *accounting* "mühasibat, hesabdar işi", *babysitting* "dayəlik", *computer programming* "kompüter programçılığı", *drawing* "rəssamlıq", *painting* "rəssamlıq", *engineering* "mühəndislik", *wrestling* "güləş", *fishing* "balıqçılıq"və s.

-ster suffiksi. Bu suffiks ilə yaranan isimlər: məsələn, *punster* "kalamburçu", *songster* "xanəndə" və s.

-ier suffiksi. İngilis dilində çox da məhsuldar olmayan isimlər yaradır. Məsələn, *financier* "iqtisadçı", *warrior* "döyüşçü" və s.

-ate suffiksi ilə yaranan isimlər az da olsa, ingilis dilində mövcuddur. Məsələn: *advocate* "vəkil" və s.

-ary suffiksi ilə yaranan isimlər. Məsələn, *missionary* "missioner", *secretary* "katibə" .

-ness suffiksi ilə yaranan isimlər: Məsələn, brightness (parlaqlıq, şəffaflıq), kindness (mərhəmətlilik) və s.

-ee şəkilçisi: *holdee* (əsgər), *artificiee* (çilingər), *mercee* (ipək, məxmər alveri edən tacir), *consignee* (yükqəbul edən fəhlə) və s.

-ess şəkilçisi: *poetress* (şairə), *instructress* (müəllimə// təlimçi), *actress* (aktrisa), *waitress* (xidmətçi qadın), *directoress* (müdirə), *songstress* (müğənni qadın) və s.

-ic şəkilçisi: *critic* (tənqidçi).

Ingilis dilində əsas sifətdüzəldici suffikslər aşağıdakılardır:

- ful - careful, doubtful (isim)
- less – hopeless, useless (isim
- ous – dangerous, famous (isim)
- able – countable, eatable (fel)
  comfortable (isim)
- ible - responsible (isim)
- ish - childish (isim)
- ent/-ant - different, important (fel)
- al – cultural (isim)
- some (handsome)

Aşağıdakı modellərdə sifət düzəldən suffikslərdən geniş bəhs edilir.

Verb + able → adjective = readable, catchable, changeable

Noun + aceous → adjective = acanthaceous, ampulaceous

Noun + al → adjective = accidental, ornamental

Noun + an (ean, ian) → adjective = European, African, Panamian

Noun+ ate → adjective = collegiate

Noun+ ed → adjective = toothed, talanted, big-headed, long-legged

Noun+ en → adjective = silken, wooden

Noun+ ful → adjective, = hateful, shameful, healthful, manful

Verb + ful → adjective masterful, forgetful

Noun+ ic → adjective = atomic

Noun+ ish → adjective = tigerish

Adjective + ish → adjective = dumpish, modish, reddish, tallish

Noun+ less → adjective = branchless, windowless, smokeless, hairless, brainless

Verb+ less → adjective = cureless, imagineless

Noun+ like → adjective = manlike, deathlike, lamblike

Noun+ ly → adjective = fatherly, neighbourly, earthly

Adjective+ ly → adjective = sickly, kindly

Noun+ ous → adjective = adventurous, disastreous

Noun+ some→ adjective = troublesome

Adjective+ some → adjective = lomesome, longsome

Noun+ y → adjective = bony, plumpy

Verb+ y → adjective = sleepy, catty

Adjective+ y → adjective = yellowy, blacky, greeny

-en, -fy, -ize, -ate, -ish ən çox yayılmış fel düzəldən suffikslərdən hesab edilir. Aşağıdakı sxem və modellərdən istifadə edərək fellər düzəltmək olar.

Noun+ en → verb = threaten

Noun+ ate → verb = eventuate

Noun+ ify → verb = beautify
Noun+ ize → verb = winterize
Adjective+ en → verb = thicken
Adjective+ ate → verb = pacificate
Adjective+ ify → verb = intensify
Adjective+ ize → verb = finalize

Suffikslərdən başqa prefikslərdən də fel düzəlməsində geniş istifadə edilir.
-re: recognize, reprint
- dis: disappear, dissapprove
- un: unbuild, uncover
- mis: misunderstand
- en: enlarge, encircle

Ön şəkilçilərdən danışarkən qeyd etmək lazımdır ki, suffikslərdən fərqli olaraq prefikslər bir nitq hissəsindən digərinə dəyişmək qabiliyyətinə malik deyildir və yalnız sözün leksik mənasını dəyişməyə xidmət edir.

Yeni fel əmələ gətirən ön şəkilçilərdə sözdüzəldici ünsürlər daha çox nəzərə çarpır.

-de, -under, -over, -up, -re kimi ön şəkilçiləri də yuxarıda qeyd edilənlərə əlavə ola bilər: decade, defrost ; undergo, underclose, underwork; overbid, overdrink, overdo; uphold, uprise, uproot; re-establish, re-educate və s.

Zərf düzəldən şəkilçilərə əsasən –ly, -ward, - wards, -ways, -wise və s. aid etmək olar.

Zərf düzəldən modellər əsasən aşağıdakılardır:
Noun+ wise → adverb= clockwise, prestigewise
Noun+ ward → adverb = seaward, southward
Noun+ ways → adverb = endways
Adjective+ ly → adverb = briefly, shortly, nearly
Adjective+ wise → adverb = broadwise, longwise
Numeral+ ly → adverb = secondly
Pronoun+ wise → adverb = anywise
Participle II + ly → adverb = hurriedly, fixedly
Adverb+ ward → adverb = downward
Adverb+ wards → adverb = ownwards

İngilis dilində zərflərin əksəriyyətinin yaranmasında iştirak edən və zərf düzəldən suffikslər içərisində -ly suffiksini ən məhsuldar hesab etmək olar.

Ədəbiyyat

1) О.Д.Мешков Словообразование современного английского языка, М, 1986, стр. 187.
2) N. Rəcəbova. Qrammatik səviyyədə dilin struktur modelləri. Bakı, 2009, səh. 196.
3) N.Hüseynova. Azərbaycan dilində termin yaradıcılığı prosesi. Bakı, 2008, səh. 139.

4) П.М. Карашук. Аффиксальное словообразование в английском языке. М. 1977, стр. 187.
5) A.Bayramova. Leksik alınmaların dilin zənginləşdirilməsində rolu. Bakı-2009. səh. 206.

Мамедова Р.В.

Суффиксы

Резюме

Ученые считают словообразование новой и свободной областью языкознания. В статье речь идет и словообразовательных суффиксах, которые играют важную роль в обогащении лексического минимума. Схема и модели суффиксов, образующие существительное, прилагательное, глагол и наречие также показаны в статье. -er, -or, -eer, -an, - ian, -ist, -ant, -ent, -ing, -ster, -ier, -ate,-ary, -ness, -ee, - ess, -ful, -able, -ous, -less, -ible, -al, -some, -like, -y, -ify, -ize, -ly и другие считаются основными суффиксами в обогащении лексического минимума английского языка.

Mammadova R.V.

Suffixes

Summary

Scientists consider word-forming to be a new and independent field of linguistics. This article is about word forming suffixes, which play a very important role in the enriching the lexical minimum. Scheme and models of suffixes making up nouns, adjectives, verbs and adverbs are also shown in this article. -er, -or, -eer, -an, - ian, -ist, -ant, -ent, -ing, -ster, -ier, -ate,-ary, -ness, -ee, - ess, -ful, -able, -ous, -less, -ible, -al, -some, -like, -y, -ify, -ize, -ly, and so on are the main suffixes enlarging the lexical minimum of the English language.

Rəyçi: dos. F.Ə. Hüseynova

УТКИР РАЖАБОВ
Ургенчский Госуниверситет, Узбекистан

СОЧИНЕНИЕ МУХАММАДА РИЗО АГАХИ «ШОХИДУ-Л -ИКБОЛ» КАК ВАЖНЫЙ ИСТОЧНИК ПРИ ИССЛЕДОВАНИИ ТОПОНИМОВ

Açar sözlər: Məhəmməd Rza Agahi, "Şahid-əl İqbal", toponimiya, dilçilik, əlyazma
Ключевые слова: Мухаммад Ризо Агахи, «Шохиду-л-Икбол», топонимия, языкознание, рукопись
Keywords: Agakhi, "Shakhidu-l-ikbol", toponyms, linguistic, manuscript

Последним историческим сочинением Мухаммада Ризо Агахи (1809-1874) считается "Шоҳиду-л-иқбол". Здесь повествуется о годах царствования хивинского хана Сеййид Мухаммад Рахимхана – Феруза до завоевания Хивы царскими войсками (1).

Известен лишь один рукописный экземпляр данного произведения. Рукопись, считающаяся авторским экземпляром, хранится в настоящее время в институте Восточных рукописей АН России в Санкт-Петербурге (инв.№С-572). Фотоэкземпляр данного произведения был доставлен в институт Востоковедения АН РУз. Наличие лишь одного экземпляра можно объяснить тем, что оно было поспешно увезено в Санкт-Петербург, как только было создано Агахи. Об этом Баяни в своем произведении "Шажараи Хоразмшоҳий" приводит следующие сведения: "Еще в одном доме было триста письменных разукрашенных книг… Они были отправлены в Петербург" (2). Не исключено, что среди отмеченных Баяни книг было и сочинение "Шоҳиду-л-иқбол". Ибо историк в конце произведения говорит о следующем: "Агахи в своих книгах рассказал о событиях из жизни светлейшего Мухаммад Рахимхана, происходивших в течение семи лет. Они тоже не были найдены". Хотя Баяни не упомянул о сочинении "Шоҳиду-л-иқбол", однако можно утверждать, что он имел в виду именно это произведение. "Шоҳиду-л-иқбол" – бесценный источник, который, весьма ценен и тем, что здесь освещается политическая, социально-экономическая, культурная жизнь в Центральной Азии в 19 веке, а также произведение имеет важное значение при изучении истории края, его этнографии, географии, топонимии. Их изучение и исследование является одной из важных задач, стоящих на сегодняшний день перед нашими учеными. Баяни неслучайно отметил: «… все они хранятся в Петербурге и по этой причине я не могу привести о них сведений». Здесь он имел в виду исторические сочинения Агахи, в частности, "Шоҳиду-л-иқбол". Поскольку события, имевшие место до 1873 года, освещаются именно в произведении "Шоҳиду-л-иқбол".

С обретением независимости в судьбе данного произведения стали происходить определенные изменения. Отрывок из произведения был включен в сборник избранных сочинений "Ишқ аҳлининг тумори", изданный в 1999 году в связи с 190-летним юбилеем поэта. В исследованиях востоковеда К.Мунирова, посвященных историографии Хорезма, наблюдается широкое

использование материалов из данного источника. С.Долимов и Г.Каримов при освещении историографической деятельности Агахи также использовали факты из рукописи.

Из работ в данной области, заслуживающих всяческого внимания, следует отметить издание “Шоҳиду-л-иқбол” в 2009 году Нафасом Шодмоновым. Составитель предварил издание предисловием “Заключительное прозаическое произведение Агахи», в котором ведет речь об истории изучения данной рукописи, приводит ее характеристику, говорит о причинах ее вывоза в царскую Россию, размышляет о литературном роде и жанре произведения. А в конце книги даются указатели, составленные на основе рукописи, в которых содержатся комментарии имен людей, географических наименований, словаря, встречающихся в книге отдельных арабизмов, приводится содержание хронограмм, написанных на фарси, комментируется соответствие приведенных в книге календарных дат арабского летоисчисления христианскому.

Действительно, относительно произведения осуществлено незначительное количество исследований. Это обстоятельство Нафас Шодмонов объясняет следующим образом: “Во-первых, отсутствие источника в Узбекистане, естественно, ставит искусственные преграды для исследователя при его изучении. Во-вторых, в произведении говорится о большем почете к Мухаммаду Рахимхану, которым он был окружен в государстве. А это не соответствовало идеям и интересам завоевателей. В этой связи было предотвращено его распространение. В-третьих, произведение “Шоҳиду-л-иқбол” написано исходя из духа придворной жизни того времени, что также не соответствовало идеологии советской литературы. В сущности, какой бы высокой художественностью не обладал каждый стихотворный или прозаический отрывок, он в определенной степени будет согласовываться со стремлением к защите в идейном плане интересов политики своего времени. В-четвертых, чтение рукописи вызывает определенные сложности. Его не сможет прочитать любой исследователь, знающий старую узбекскую письменность. Кроме этого, род произведения требует от читателя определенной подготовленности. Его может полностью понять только человек, знающий на хорошем уровне тексты классической литературы или обладающий начальными сведениями в области арабского и персидского языков. Агахи ввел в обиход и слова, редко используемые в указанных языках, подняв их на уровень активной лексики. Подобного рода сложности определенным образом смущают начинающих исследователей”(3).

Название произведения в различных исследованиях упоминается по-разному. В частности, наблюдается его использование в формах “Шоҳиду-л-иқбол”, “Иқболи Ферузий”, “Шоҳиди иқболи Ферузий”, “Тарихчаи Муҳаммад Ризо мироб”, “ Шоҳиду-л-иқбол Ферузий”. Хотя в предисловии дивана “Таъвизу-л-ошиқин” название данного произведения приводится как “Иқболи Ферузий”, в самом произведении отмечается “эта книга является свидетельством успехов его величества, поэтому книгу я назвал “Шоҳиду-л-иқбол””. В предисловии дивана приведены два небольших приложения под названиями “Фақирнинг туркий тил била таржима қилғон китоблар” и “Фақирнинг ўз мусаннофотидин”. Во втором из этих приложений наименование сочинения дается в форме “Иқболи Ферузий”. Возможно, данные приложения были вве-

дены в диван писарями. Основой для данного предположения является тот факт, что они весьма выделяются из предисловия. Писари не были непосредственно знакомы с произведением “Шоҳиду-л-иқбол”. Оно не было доведено до конца автором. Его, вероятно, видели Агахи и несколько приближенных к хану лиц. Ибо произведение было увезено в Санкт-Петербург в авторском черновом варианте. Хан даже не успел распорядиться об его переписании.

Сказать о том, что сочинение Агахи “Шоҳиду-л-иқбол” ценно только тем, что здесь приводится множество достоверных сведений о политической, социально-экономической и культурной жизни в Центральной Азии в 19 веке, будет крайне недостаточным. Оно считается одним из важнейших источников при изучении таких аспектов, как история региона, этнография, география, топонимия в данный период.

В структуре произведения встречается множество топонимов, которые до настоящего времени еще специально не изучались. Здесь содержится около 150 топонимов, а также имена свыше 160 человек. Топонимы из произведения мы классифицировали следующим образом:

Урбононимы: *Бухоро, Балх, Бўлуж, Жиззах, Кабул, Кўҳна Урганч, Марв, Машҳад, Рум, Руссия, Самарқанд, Сеистон, Тошкент, Туркманистон, Урганч, Хивақ, Хоразм, Хўқанд, Қандаҳор, Қарши, Қойин, Ғузор, Ҳиндустон, Ҳирот.*

Оронимы: *Кўҳи Чағро (Кўҳи Султон Увайс), Шайх Жалил тоғи, Юмри тоғи, Қуба тоғи, Хуросон тоғи; Бўринчи қири, Ирнак қири, Муздеҳқон, Қўштупа.*

Гидронимы: *Жайҳун (Аму, Амуя), Сир дарё (Сайҳун), Хоразм (Орол) тенгизи, Тавқаро тенгизи, Наҳри Холиж, Кўк наҳри, Кўкўзак, Қувонжёрма, Шоҳобод арноси, Эшимёрғон, Сойжонёрғон, Лудон, Санабёрмиш арноси, Ялпоқ, Қочғон сув, Сассиғкўл, Югурухбош кўли, Қўрп кўли, Томурли кўли, Шайх ариқи, Ғозиобод ариғи.*

Антропотопонимы: *Амонхон қалъаси, Арш ота мавзеъи, Бангий қалъаси, Кўҳи Чағро (Кўҳи Султон Увайс), Лудон арноси, Муздеҳқон қири, Сойжонёрғон арноси, Шайх Жалил тоғи, Шоҳобод қалъаси, Шоҳобод арноси, Эшимёрғон арноси, Қувонжёрма, Ғозиобод қалъаси,Қородошли, Шайх ариқи, Ғозиобод ариғи.*

Этнотопонимы: *Бешоғоч мавзеъи, Чинбой мавзеъи, Кенагас мавзеъи, Найман, Дашти қипчоқ мавзеъи, Ос мавзеъи, Чўмучликўл, Юмри тоғи, Кўнгрот қўрғони, Бодойи тўғойи, Қорақалпоқ, Қазоқия, Чинос, Уйғур мавзеъи, Қиёт, Ирнак қири.*

Зоотопонимы: *Балиқли марҳала, Бўричи мавзеъи, Бўричи қири, Даҳани шер тўғойи, Тевабўюн мавзеъи.*

Фитотопонимы: *Гулбонбоғ қаряси, Каттабоғ, Кўҳнабоғ, Қатортут мавзеъи, Чотли тўғойи, Қора йилғунли, Тамурли кўли.*

Следует отметить, что в произведении “Шоҳиду-л-иқбол” приводятся комментарии отдельных гидронимов, вносится определенная ясность в аспект их расположения. В частности, “Маълум бўлсинким, *Товқаро* қадим замонда улуғ тенгиз эрди, сўнгроқ суви кам бўлиб, атрофининг баъзи ерлари очилиб, қобили зироат бўлди. Қозоқ ва қароқалпоқдин баъзи элат анда бориб, мутаваттин қилиб, хушхоллиқ била рўзғор ўткарур эрдилар. Хусусан, ўн-ўн беш йил

муддатидин бери барча сувин улуғ Тенгиз тортиб, анда сув қолмай, жамеъи ери зироатгоҳ бўлди. Ҳоло, анда кўп элат жамъ бўлуб, маъмур ва обод ва улуғ юрт бўлубдур". В данном отрывке повествуется о том, что *Товқаро* в древности было великим морем, со временем уровень воды уменьшился, на побережье стало жить население, и появилось наименование Тавқаро музофоти. Ибо озеро может обезводеть, однако наименование останется. Данный гидроним в настоящее время в научной литературе используется в форме *Довқаро*. Кроме этого, в произведении встречаются и такие гидронимы, как *Сассиғкўл, Югурукбош кўли, Тамурли кўли, Қўрп кўли*, этимология которых весьма занимательна.

Известно, что озеро представляет собой водоем, заполняющий глубины на суше. Иногда и безводные впадины также называются озеро. В структуре термина Турткуль из Хорезма *кўл* имеет значения "холм, равнина, плоская поверхность". Данный индикатор в Хорезме встречается в структуре множества гидронимов и топонимов: *Тамирликўл, Ташликўл, Чагаликўл, Сазанкўл, Чортанкўл, Атюваркўл* и т.п. (4).

В "Шоҳиду-л-иқбол" имеют место различные типы антропонимов и отдельные из них объясняются в самом произведении. В частности, крепость Амонхон: "Чошт вақтида сангар аҳлининг қаровуллари муфсидларнинг кўчиб келатурғонин кўруб Амонхон қалъасига қараб келадурлар. Ул қалъа Амонхон отлиғ қародошлининг ташлаб кетган қалъасидур. Муҳаммад Мурод девонбеги сангарининг кун ботар тарафида тахминан ярим фарсахлиқ ерда воқеъдур" (с. 147). Из приведенного отрывка становится известно, что крепость *Амонхон* прежде была цитаделью представителя племени кародош по имени *Амонхон*, то есть местом его обитания.

Топоним *Бангий қалъаси* также своеобразно истолковывается в произведении: "Мазкур бўлғон икки сангарнинг ўртасида Қародошли Бангий деган бир киши ўттуз-қирқ чоғлиғ уйлук била бир кичкина қалъа солиб, анда ўтурмиш эрдилар. Саркардалар иттифоқ эттиларким эҳтиёт юзидин Бангий қалъасининг атрофиға хандақ қазиб, сангар қилиб, саркардаларнинг бири бир тўп ва бир фавж лашкар била анда бориб бўлса, бағоят муносиб кўрунур". Следовательно, данная крепость получила свое название потому, что она принадлежала человеку по имени *Бангий*. В "Шоҳиду-л-иқбол" также встречаются оронимы, определяющиеся именем отдельных личностей. О горе *Кўҳи Чағро (Кўҳи Султон Увайс)* автор пишет следующее: "чошт чоғи ул ҳазрат мазкур Қаландархонадин қуёшдек давлат абрашиға рукуб қилиб, Кўҳи Чағро жонибиға равона бўлди. Ул қўҳ *Султон Увайс тоғи*га машҳурдур. Анинг учунким, зубдату-л-василин, қудвату-л-комилин, афзалу-с-саҳобати ва-т-тоибиъин, муҳибби саййиду-л-мурсалин, тариқат кунузининг махзани, ҳақиқат жавоҳирининг маъдани, ақиқи сароби яманий ҳазрат Султон Увайс Қараний, разияллоҳу анҳу, қадамгоҳи ул тоғ доманасида зар кони ёнглиғ воқеъдур". Следовательно, уже в ту эпоху гора Кўҳи Чағро под названием Султон Увайс была знаменита, подобно настоящему времени, в качестве места поклонения. Данный ороним расположен на юго-востоке острова в западной части Кызылкумов. Получил он свое название в связи с тем, что здесь расположено легендарное место захоронения Султона Увайс Караний, и на

сегодняшний день называется *Султон бува*. Об этой горе профессор З.Дусимов в своей монографии “Топонимы Хорезма” приводит следующие сведения: “Представляя собой один из древнейших источников, “Нузҳат-ал-муштак”, приводя сведения о месте проживания древних огузов, отмечает, что они проживали на побережье Аральского моря, где неподалеку располагалась гора *Чакраўғуз*. С.Г.Агаджанов считает, что упоминаемый в источниках топоним Чакраўғуз (гора огузов) является современной горой Султонувайс”(5). Помимо этого, в еще одном месте данное название вводится в тип антропонимов, связанных с религиозными представлениями.

Гора Шайх Жалил. “Анинг учунким, бир тарафи баланд қия ва бир тарафи қаърсиз дарёдур. Ва ул тоғ дағи Кўҳи Чағронинг бир бўлагидур, аммо Шайх Жалил тоғиға машҳурдур Нединким, ҳазрат вилоятпаноҳ ҳақиқатдастгоҳ Шайх Жалил ота алайҳир-р-раҳмати ва-л-атонинг равзаи мутабаррикаси ул тоғнинг ғарбия домонасида мазкур дарбанднинг шимолия даҳнасида воқеъдур. Ғолибан бу жиҳатдин ҳамул тоғ ул ҳазратнинг муборак отиға мансубдур. Ва агар кўп лашкар юрмак тиласа, ҳамул дарбандға кирмай, мазкур тоғнинг кун чиқар жонибидин айланиб юрар”. (С.180).

Из приведенного отрывка очевидно, что гора Шайх Жалил представляет собой отдельную часть горы Кўҳи Чағро (Султон Увайс), здесь расположена могила святейшего Шайх Жалила. Данное место также в настоящее время считается священным местом поклонения.

В процессе изучения гидронимов из произведения “Шоҳиду-л-иқбол” мы убедились, что чаще всего встречаются гидронимы, связанные с именем какого-либо лица, то есть антропогидронимы. Такого рода гидронимы в настоящее время подверглись в живой речи определенным фонетическим изменениям или полностью изменили свое наименование. Кроме этого, причиной этих изменений послужило появление новых водных объектов на месте прежних. В этом случае наименование гидронима также подвергается обновлению.

На основе приведенных фактов, суждений можно сделать следующие заключения:

1. Наименования мест в произведении можно разделить на такие группы, как этнотопонимы, антропотопонимы, зоотопонимы и фитотопонимы.

2. Историко-этимологический анализ топонимов из произведения показал, что в данном аспекте большинство слов, послуживших основой для наименования, имеет отношение к тюркскому пласту, их основную часть составляют этнотопонимы. Большинство этнонимов, послуживших основой для топонима, с генетической точки зрения являются тюркскими и свидетельствуют о том, что названные данным именем род, племя, этнические общности с древнейших времен находились в тесных взаимоотношениях. Практически все существующие в регионе этнотопонимы встречаются в других местностях Узбекистана и имеют весьма широкий ареал распространения. Они сыграли важную роль в формировании тюркских и других народов мира.

3. Антропотопонимы, будучи связанные с деятельностью определенных личностей, выполняют высочайшую духовную миссию по увековечиванию имени данного лица. Это еще раз доказывает теоретические воззрения об

относительной устойчивости в топонимике антропонимов, связанных с деятельностью человека.

4. Следует отметить, топонимы из произведения с территориальной точки зрения вбирают в себя весьма узкий круг относительно других исторических сочинений Агахи. Несмотря на это, в произведении, помимо наименования мест с тюркской и иранской основой, имеют место названия, сформированные на основе материалов арабского, монгольского языков.

Литература

1. Мухаммад Ризо Агахи Шоҳиду-л-иқбол. Подг. к изд. Н.Шодмон. – Ташкент: Муҳаррир, 2009.
2. Баяни Шажараи Хоразмшоҳий. // Мерос. – Ташкент: издательство Литературы и искусства имени Г.Гуляма, 1994. – С. 104.
3. Мухаммад Ризо Агахи Шоҳиду-л-иқбол. Подг. к изд. Н.Шодмон. – Ташкент: Муҳаррир, 2009. – С. 5.
4. ДусимовЗ. Топонимы Хорезма. – Ташкент: Фан, 1985. – С. 72.
5. Дусимов З. Топонимы Хорезма. – Ташкент: Фан, 1985. – С. 84.

U. Rəcəbov

Məhəmməd Rza Agahinin “Şəhid-ul-İqbal” əsəri toponimlərin tədqiqində əsas qaynaq kimi

Xülasə

Məqalə Məhəmməd Rza Agahinin “Şəhid-ul-İqbal” əsərinin tədqiqinə həsr olunmuşdur. Müəllif bu əsərdəki toponimləri tədqiq etmişdir. Tədqiqatın obyekti kimi Agahinin əlyazmaları seçilmişdir.

U. Racabov

Composition “Shohidu-l-ikbol” of Mahomed Rizo Agahi as the important source for research of toponyms

Summary

The article is about the toponyms from the work “Shakhidu-l-ikbol” by Agakhi. This them is being analyzed for the first time from the linguistic point of view.

Rəyçi: professor Z.Dusimov

NAZAKAT MAMMADOVA
ASOA

THE ROLE AND PLACE OF TRANSLATION IN TEACHING A FOREIGN LANGUAGE

Açar sözlər: tərcümə, tədris, məna, metodika, dil
Ключевые слова: перевод, обучение, значение, методика, язык
Key words: translation , teaching, meaning, methods, language.

Before consideration the role and the place of translation in foreign language teaching it is necessary to state what is meant by " translation". By translation we mean the transmission of a thought expressed in one language by means of another language. In this way translation ensures comprehension between peoples speaking different languages. In order to transmit a thought from one language into another, one must understand this thought in the language from which one is to translate it and find equivalents to express it in the other language. Therefore translations a complicated process, it requires the ability to think in both languages.

In foreign language teaching translation may be used . for instance, as a means of conveying the meaning of a word, a phraseological group, or a sentence pattern . Translation is then considered to be a means of teaching a foreign language. From the history of methods of foreign language teaching it is known that the approach of translation has undergone various changes at different times. Thus in the second half of the 18^{th} century and the first half of the 19^{th} century, translation was considered to be a method of instruction. A foreign language was taught through translation: in the grammar – translation method it was mainly from the mother tongue into the foreign language , and in the lexical – translation method – from the foreign language into the mother tongue.

In our country translation has never been taboo in foreign language teaching though its role and place changed. Thus in the conscious- translation method proposed by L.V. Sherba translation played a great role in the teaching of a foreign language, both for practical and educational ends. Practically translation was to be used as a means of conveying the meaning, as a leading type of exercise for consolidating the language material presented , as almost the only means of checking the learners" knowledge of vocabulary, grammar and the comprehension of what they read and heard. It was applied at every stage irrespective of students" language experience, language material, etc., and throughout the whole process of assimilation, namely: explanation, consolidation, or retention, and checking. Practice has proved, however, that the constant use of translation does not ensure the necessary conditions for learners" direct comprehension of what they read and hear. As a result they can neither speak nor read the foreign language . Nor can they translate from one language into other since translation requires the ability to think in both languages. (This is possible on condition that students have ample practice for speaking, hearing, reading and writing in the target language .)

To meet the program requirements translation must be used :

1.As a means of conveying the meaning of a word , a phraseological group, a grammar form, and a sentence pattern alongside with other means; translation being the most economical method from the point of view of the time required.

For example; a flower –цветок ; Pete"s brother – Петин брат ; He happened to be busy. - Случилось так, что он был занят.

Besides, translation ensures comprehension of a new language item. For example:

To go – уезжать, уходить , т.е. двигаться от какого-либо места; to come - приходить, приезжать , т.е. двигаться к какому-либо месту; I am writing - Я пишу (сейчас. в данной момент).

Translation as a means of conveying the meaning may be used in two ways: translation proper and translation – interpretation.

The teacher uses translation proper when , for example, a new word has a more or less exact equivalent in the other language , e.g., a flower –цветок. No interpretation is needed. The teacher uses translation-interpretation when there is something peculiar, specific about a word presented. It may be:

a) an absence of an equivalent :

for e.g., meal- 1) принятие пищи (Breakfast is the first meal. We have 3 - 4 meals a day .- Мы едим 3 4 раза в день.

Hence there is an expression *meal-time*:

What is usual meal-time?- Когда вы обычно едите?); 2)пища, которую принимают, едят

(Make a meal of bread and butter.- Поешьте хлеба с маслом. He always enjoys his meals.- Он всегда с удовольствием ест.)

to rain (snow) - такого глагола в русском языке нет(İt rains - идет дождь: it snows - идет снег)

b) difference in the extent of meaning:

or e.g., to go – передвигаться любым средством, двигаться, доходит до…

to drive – вести что-либо (машину, автобус и др.) Hence driver- водитель, машинист. шофер;

raw – сырой, необработанный; raw material – сырье; raw meat – сырое мясо

c) difference in usage, i.e., a word famous specific combinations which do not exist in the Russian language.

For example, heavy rain, to pay attention, to meet requirements, etc.

2.As a means of ensuring comprehension of difficult points in a text – through analysis and translation pupils gain comprehension, as is the case when they are given a text too difficult to understand without analysis and translation.

3.As a means of checking students" comprehension of what they read or hear alongside of other means.

These are the cases where translation is desirable and helpful in foreign language teaching. In consolidation or retention of language material no translation should be utilized, however. Various drill and speech exercises must be done within the target language. The teacher must do his best to create the atmosphere suitable for developing learners" speaking and reading habits and skills.

It is necessary that learners" knowledge of vocabulary should follow the rule: " Learn to speak by speaking and read by reading." Translation provides neither the first nor the second . It only helps in obtaining knowledge of vocabulary and grammar, but it hinders the development of speech habits and skills, since instead of direct comprehension and expression of their thoughts .
learners fall into the habit of translating everything they hear or read, and in this way do not get accustomed to associate the sequence of sounds they hear with the meaning it has in the foreign language, to associate the graphemes with the notions they convey. Under these conditions no speaking or reading is possible.

Consequently the teacher may use translation when explaining new material and checking learners knowledge.

If we consider translation from the point of view of the relationship between the mother tongue and the foreign language, we distinguish the following types of translation : translation from the foreign language into the mother tongue; translation from the mother tongue into the foreign language and retranslation (i.e., first we translate from the foreign language into the mother tongue and then, after a while , back into the foreign language).

If we consider translation from the point of view of its relation to the original, we distinguish;

1.*Word for word translation*, when all the lexical units of the foreign language are replaced by those of the mother tongue, the grammar structure being that of the foreign language.

For e.g., I have a sister.- Я имею сестру.
My mother is not at home. – Моя мама не дома.
He was called on by the teacher yesterday.- Он был спрошен учителем вчера

Though word for word translation violates the syntax of the mother tongue, it transmits the meaning of a sentence. Besides, word for word translation is valuable in an educational respect as it gives us an opportunity to compare all the elements of the language we study with the corresponding elements of the mother tongue and in this way to see the difference between these languages.

2.*Adequate translation* which in contrast with word for word translation transmits the thought expressed in the foreign language by means of the corresponding equivalents of the mother tongue.

For e.g., I have a sister.- У меня есть сестра.
My mother is not at home .- Мамы нет дома.
He was called on by the teacher yesterday.- Его вчера спрашивал учитель.

3.*Free translation* or free interpretation of the text in the mother tongue that was read or heard in the foreign language. For example, students read a newspaper article and each says a few words on its contents.

4. *Literary- artistic translation* is a translation which requires special skills and knowledge.

In conclusion, it should be noted that translation is a means of teaching a foreign language and. as such, its various types and kinds may be recommended.

Literature

1. B.V.Belyayev- Ocherki po psikhologii obucheniya inostrannim yazikam. Moskva- 1965, str.149-164
2. P.Heckboldt – Izucheniye inostrannikh yazikov. Moskva- 1963, str. 22-37

N.Məmmədova

Xarici dili tədrisində tərcümənin rolu və yeri

Xülasə

Bu məqalədə xarici dilin tədrisində tərcümənin rolu və yerindən bəhs edilir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, tərcümə mürəkkəb prosesdir və o, dil öyrənən hər kəsə hər iki dildə fikirləşmək bacarığını aşılayır. Bundan əlavə, məqalədə tərcümənin tiplərindən, onların rolundan bəhs edilir. Tərcümə dillərarası ünsiyyət vasitəsi olduğu üçün, tərcümə vərdişlərinə dərindən yiyələnmək və bu sahədə bilikləri daim təkmilləşdirmək bir zərurət olaraq ortaya çıxır. Nəticədə qeyd olunmalıdır ki, tərcümə xarici dilin tədris prosesində bir vasitədir və bu prosesdə onun bütün tiplərindən istifadə etmək tövsiyyə olunur.

Н.Мамедова

Роль и место перевода в обучении иностранного языка

Резюме

В этой статье говорится о роли и месте перевода в обучении иностранного языка. Прежде всего, необходимо отметить, что перевод – это сложный процесс, и он помогает учащемуся овладеть умением думать на двух языках. Помимо этого, в статье обсуждается типы перевода и их роль. Так как перевод является средством общения, необходимо владеть навыками перевода и постоянно совершенствовать знания в этой сфере. В итоге следует отметить, что перевод является одним из средств в процессе обучение иностранного языка и в этом процессе рекомендуется исползовать все его типы,

Rəyçi: dosent Məmmədova R.V.

SEVDA CHARKAZOVA
Azerbaijan State Oil Academy

THE USE OF ABBREVIATIONS IN THE ENGLISH LANGUAGE

Açar sözlər: İxtisar, akronim, vahid, durğu, aid olmaq
Key words: Abbreviation, Acronym, Unit, Punctuation, to refer to
Ключевые слова: сокращение , акроним, единица, пунктуация, относиться

An abbreviation (from Latin *brevis*, meaning *short*) is a shortened form of a word or phrase. Usually, but not always, it consists of a letter or a group of letters taken from the word or phrase. For example, the word *abbreviation* can itself be represented by the abbreviation *abbr.*, *abbrv.* or *abbrev.* In strict analysis, abbreviations should not be confused with contractions or acronyms (including initialisms), with which they share some semantic and phonetic functions, though all three are connoted by the term "abbreviation" in loose parlance. An abbreviation is a shortening by any method; a contraction is a reduction of size by the drawing together of the parts. A contraction of a word is made by omitting certain letters or syllables and bringing together the first and last letters or elements; an abbreviation may be made by omitting certain portions from the interior or by cutting off a part. A contraction is an abbreviation, but an abbreviation is not necessarily a contraction. However, normally, acronyms are regarded as a subgroup of abbreviations. Abbreviations can also be used to give a different context to the word itself, such as "PIN Number" (wherein if the abbreviation were removed the context would be invalid).

Many people are confused about the correct way to use an abbreviation. This article hopes to dispel that confusion.

An abbreviation is a short form of a word. Instead of the word, single alphabets representing the word are used. Sometimes, a full stop (period) is used.

The purpose or function of an abbreviation is basically for convenience. A word is compressed to a few letters to convey the same meaning as the full word.

It is always a good idea to use an abbreviation in a text when a word is frequently used. For example, instead of writing 'India Study Channel' in a text repeatedly, you can use it just once, mention in parentheses the abbreviation like this: (ISC), and use ISC then each time you are referring to it.

However, sometimes it is necessary to use the full word and not the abbreviation. For example, if you are referring to a doctor, you can use 'Dr.' before his name: Dr. Harish; but later in the text if you are referring to his fees you should not write 'The dr.'s fees are exorbitant' – you should use the full word and write 'The doctor's fees are exorbitant'.

It is very simple to make an abbreviation. As mentioned previously, only two or three letters are required. As you can see, abbreviations are not difficult to use or understand. Correct use of an abbreviation will greatly help you to write a better quality article.

Abbreviations have been used as long as phonetic scripts have existed, in some sense actually being more common in early literacy, where spelling out a whole

word was often avoided, initial letters commonly being used to represent words in specific application. An increase in literacy has, historically, sometimes spawned a trend toward abbreviation.

During the growth of philological linguistic theory in academic Britain, abbreviating became very fashionable.

After World War II the British greatly reduced the use of the full stop and other punctuation points after abbreviations in at least semi-formal writing, while the Americans more readily kept such use until more recently, and still maintain it more than Britons.

Over the years, however, the lack of convention in some style guides has made it difficult to determine which two-word abbreviations should be abbreviated with periods and which should not. The U.S. media tend to use periods in two-word abbreviations like United States (U.S.), but not personal computer (PC) or television (TV). Many British publications have gradually done away with the use of periods in abbreviations.

Minimization of punctuation in typewritten material became economically desirable in the 1960s and 1970s, since a period or comma consumed the same length of non-reusable expensive ribbon as did a capital letter.

Widespread use of electronic communication through mobile phones and the internet during the 1990s allowed for a marked rise in colloquial abbreviation. This was due largely to increasing popularity of textual communication services such as instant and text messaging lengths. This brevity gave rise to an informal abbreviation scheme sometimes called Textese, with which 10% or more of the words in a typical SMS message are abbreviated. More recently Twitter, a popular social network service, began driving abbreviation use with 140 character message limits. In modern English there are several conventions for abbreviations, and the choice may be confusing. The only rule universally accepted is that one should be *consistent*, and to make this easier, publishers express their preferences in a style guide. If the original word was capitalized, then the first letter of its abbreviation should retain the capital, for example Lev. for Leviticus. When abbreviating words that are originally spelled with lower case letters, there is no need for capitalization.A period (full stop) is sometimes written after an abbreviated word, but there are exceptions and a general lack of consensus about when this should happen.

The short form of a word, name or a phrase is called an abbreviation and an acronym. Generally they are formed from the first letter of the basic word. The difference between an abbreviation and an acronym is that an abbreviation is the articulated form of the original word whereas the acronym is a form of new word. For example: UNESCO, Laser, Radar are some of the acronyms whereas UK, USA, CBI are the abbreviations. An acronym Radar means Radio detection and ranging. This is totally a new description of the original word Radar. An abbreviation UK stands for United Kingdom, which is just the description of the old word only. Therefore one can say that all acronyms can be abbreviations, but all abbreviations cannot be acronyms.

An acronym is formed from the first letters of a series of words. For example: AIDS; it is formed from the words Acquired Immune Deficiency Syndrome

whereas, an abbreviation may not include only the first letter from the words. For example: St.; It is formed from the word Saint. Dr.; it is formed from Doctor. Another difference between an abbreviation and acronym is that an acronym is pronounced as a word. For example: NATO, it is formed from the word North Atlantic Treaty Organization, but is pronounced as a new word whereas an abbreviation is pronounced as a separate letter. For example: BBC; British Broadcasting Corporation. It is spoken as B, B, C letter by letter.

Another difference between an abbreviation and an acronym is that an abbreviation contains periods in between for example I.D, Mr., I.Q etc. Whereas an acronym has no periods in between, it is a short description. An abbreviation is just a short compact version of the word whereas an acronym consists of words giving concepts or catchy phrases. For example dept. is the short form of department whereas TEAM denotes together everyone achieves more. An acronym is a combination of different letters denoting different words whereas an abbreviation is a concise form with one word and few letters. Acronyms can be of several types such as letter type; example laser, syllable type;; example WaSP, whereas abbreviations consist of short words. It can vary sometimes like ‘sgt’ for sergeant.

Acronyms that were originally capitalized (with or without periods) but have since entered the vocabulary as generic words are no longer written with capital letters nor with any periods. Examples are sonar, radar, laser,snafu and scuba.

Today, spaces are generally not used between single-letter abbreviations of words in the same phrase, so one almost never encounters "U. S."

When an abbreviation appears at the end of a sentence, only one period is used: The capital of the United States is Washington, D.C.

To form the plural of Runs Batted in simply add an s to the end of RBI.

- RBIs

For all other rules, see below:

To form the plural of an abbreviation, a number, or a capital letter used as a noun, simply add a lowercase *s* to the end.

- A group of MPs
- The roaring 20s

To indicate the plural of the abbreviation or symbol of a unit of measure, the same form is used as in the singular.

- 1 ft or 16 ft.
- 1 min or 45 min.

When an abbreviation contains more than one full point, *Hart's Rules* recommends putting the *s* after the final one.

- Ph.D.s
- M.Phil.s
- the d.t.s

However, the same plurals may be rendered less formally as:

- PhDs
- MPhils
- the DTs. (This is the recommended form in the *New Oxford Dictionary for Writers and Editors*.)

According to *Hart's Rules*, an apostrophe may be used in rare cases where clarity calls for it, for example when letters or symbols are referred to as objects.

- The x's of the equation
- Dot the i's and cross the t's

In Latin, and continuing to the derivative forms in European languages as well as English, single-letter abbreviations had the plural being a doubling of the letter for note-taking. Most of these deal with writing and publishing.

Publications based in the U.S. tend to follow the style guides of *The Chicago Manual of Style* and the Assoiated Press. The U.S. Government follows a style guide published by the U.S. Government Printing Office. The National Institute of Standards and Technology sets the style for abbreviations of units.

Many British publications follow some of these guidelines in abbreviation:

- For the sake of convenience, many British publications, including the BBC and *The Guardian*, have completely done away with the use of full stops or periods in all abbreviations. These include:
- Social titles, like Ms or Mr, Capt, Prof, *etc.;*
- Two-letter abbreviations for countries (*"US"*, not *"U.S."*);
- Words seldom abbreviated with lower case letters (*"PR"*, instead of *"p.r."*, or *"pr"*)
- Acronyms are often referred to with only the first letter of the abbreviation capitalized. For instance, the North Atlantic Treaty Organisation can be abbreviated as *"Nato"* or *"NATO"*,
- Initialisms are always written in capitals; for example the *"British Broadcasting Corporation"* is abbreviated to *"BBC"*, never *"Bbc"*. An initialism is similar to acronym, but is not pronounced as a word.
- When abbreviating scientific units, no space is added between the number and unit.

Some titles, such as "Reverend" and "Honourable", are spelt out when preceded by "the", rather than as "Rev." or "Hon." respectively. This is true for most British publications, and some in the United States.

- A repeatedly used abbreviation should be spelt out for identification on its first occurrence in a written or spoken passage. Abbreviations likely to be unfamiliar to many readers should be avoided.

In the International System of Units (SI) manual the word "symbol" is used consistently to define the shorthand used to represent the various SI units of measure. The manual also defines the way in which units should be written the principal rules being:

- No periods should be inserted between letters – for example "m.s" (which is an approximation of "m·s", which correctly uses middle dot) is the symbol for "metres multiplied by seconds", but "ms" is the symbol for milliseconds.
- No periods should follow the symbol unless the syntax of the sentence demands otherwise (for example a full stop at the end of a sentence).
- The singular and plural versions of the symbol are identical – not all languages use the letter "s" to denote a plural.

A syllabic abbreviation is an abbreviation formed from (usually) initial syllables of several words, such as *Interpol = International +police*. It is basically a variant of the acronym.

Syllabic abbreviations are not widely used in English or French. The United States Navy, however, often uses syllabic abbreviations.

When you start living in an English speaking country or you are just learning about the language you realize that abbreviations are very common, at the beginning it seems a bit weird as in other languages they are not that common, but then you see their potential, because they save a fairly amount of time.

References

1. New Hart's Rules: The handbook of style for writers and editors. Oxford University Press, 2005.
2. Bryan Garner (2009). Garner's Modern American Usage. Oxford University Press. Retrieved March 12, 2013.
3. Gary Blake and Robert W.Bly, The Elements of Technical Writing, pg. 53. New York, Macmillan Publishers, 1993.
4. Michael Swan, Practical English Usage. Oxford University Press, 1995

S.Çərkəzova

İngilis dilində ixtisar olunmuş sözlərin istifadəsi

Xülasə

İxtisarlar sözün, adın və ya ifadələrin qısaldılmış forması olub, sözün ilk hərflərindən təşkil olunur.İxtisarlar həm də qısaldılmış söz olub ilkin sözün tərtib olunmuş formasıdır. Tələffüz zamanı sözlərin ixtisar edilmiş hissələri bərpa olunur və sözlər əslinə uyğun tam halda tələffüz edilir. İngilis dilində ixtisarlardan geniş istifadə olunur, çünki onlar vaxta qənaət etməyə imkan yaradır.

С.Черкезова

Использование сокращенных слов в английском языке

Резюме

Сокращение является краткой формой слова, имени или фразы, составленный из первых букв ряда слов. Аббревиатура также сокращенная форма слова и оформленный вид исходного слова. Сокращение произносится как новое слово, обозначающее некоторое понятие. Аббревиатура произносится как оригинал письма слово по буквам. В английском языке широко используют аббревиатуру, так как это дает возможность съэкономить время.

Rəyçi: Dos. R.V. Məmmədova

İRADƏ ABDULLAYEVA
irada abdullayeva@rambler.ru

TÜRK DİLÇİLİYİNDƏ MÜRƏKKƏB CÜMLƏ MƏSƏLƏSİ

Ключевые слова: турецкий язык, простое и сложное предложение, структура предложения.
Key words: the Turkish language, simple and composite sentence, sentence structure.
Açar sözlər: türk dili, sadə cümlə, mürəkkəb cümlə, cümlənin quruluşu

Türk dilçiliyinin ən mürəkkəb problemlərindən biri türk dilində mürəkkəb cümlələrin müəyyənləşdirilməsi məsələsidir. Məsələnin mürəkkəbliyini şərtləndirən cəhətlərdən biri də türk dili sintaksisinə dair tədqiqatlarda cümləni müəyyənləşdirmək üçün tədqiqatçıların ortaya qoyduğu yanaşma üsulu, eləcə də termin qarışıqlığıdır. Yəni ayrı-ayrı tədqiqatçılar cümləni müəyyənləşdirərkən fərqli kriteriyalardan çıxış edir, eyni anlayışı müxtəlif terminlərlə ifadə etdikləri kimi, müxtəlif anlayışları da bir terminlə ifadə edirlər.

Türk dili sintaksisinə aid yazılmış əsərlərdə sadə və mürəkkəb cümlənin fərqləndirilməsində bu qarışıqlığın şahidi oluruq. Türk dilçilərinin bir qismi tərkibində feili sifət, feili bağlama və məsdər tərkibləri olan cümlələri mürəkkəb cümlə hesab edir. Onlar bu tip cümlələrdə (məsələn, *Türbenin içine girmek bir imtiyazdır; Yazdığım mektubu masanın üstünde bıraktı; Koca Ali sendeleyerek ayağa kalktı* və s.) bir deyil, iki hökm olması qənaətindədirlər və buradan çıxış edərək belə quruluşa malik cümlələri mürəkkəb cümlə hesab edirlər. Qeyd edək ki, bu qrup alimlər tərkibində feili sifət, feili bağlama və məsdər olan cümlələri müxtəlif terminlərlə ifadə edirlər. Belə ki, T.Banquoğlu bu tip cümlələrə "karmaşık birleşik", T.N.Gencan "bileşik tümce", H.Dizdaroğlu, H.Ediskun, R.Şimşek, S.Sağlam "girişik tümce", V.Hatiboğlu, M.Kükey "girişik-bileşik", Y.Yörük "girişik cümle", A.Beserek "birleşik cümle" deyir.

İ.Aydın "*Ava giden, avlanır*", "*Irmağa giden yol, kasabadan kurtulunca, göz alabildiğine uzanan sayısız şeftali bahçeleri arasından geçerdi*" cümlələrini nümunə göstərərək bunlardan birincisində bir (*ava giden*), ikincisində isə dörd (*ırmağa giden, kasabadan kurtulunca, göz alabildiğine, uzanan*) budaq cümlənin olduğunu söyləyir. Məlumdur ki, bunlar feli sifət və feli bağlamalardan başqa bir şey deyildir. Müəllifin nümunə göstərdiyi digər misallarda da biz bunun şahidi oluruq: *Kadın parayı naylon kutuya atarken bir yandan da sesini büsbütün yükselterek yolçuları masaya çekmeye çalışıyordu; Bir öykümü ilk kez dergi sayfalarında gördüğüm günü hatırlıyorum şu anda; Şu Adnan da doçent olduğundan beri övünmekden yorulmadı; Sara aşçının geldiğini haber verdi* və s.(6).

Dilçilərin başqa bir qrupu yuxarıda haqqında bəhs etdiyimiz cümlələri mürəkkəb deyil, sadə cümlə hesab edir. Onların fikrincə, feili sifət, feili bağlama və məsdərlər feilin təsriflənməyən formalarıdır və buna görə də onlar cümlə yarada bilmirlər. Mürəkkəb cümlənin formalaşması üçün təsriflənən fellərlə qurulan iki cümlənin olması lazımdır. Bu mövqedə duran türk dilçilərindən M.Erginin, L.Karahanın,

İ.Cemiloğlunun, M.Karaörsün, S.Ekerin, R.Erkulun, E.Yamanın H.Zülfikarın, M.-Musaoğlunun, A.Mehmedoğlunun və başqalarının adını çəkmək olar.

Qeyd eləmək lazımdır ki, türk dilçiliyində tərkibində feili sifət, feili bağlama və məsdərlər olan cümlələri mürəkkəb cümlə hesab edən mülahizə daha geniş yayılmışdır və bu problemlə bağlı mübahisələr davam etməkdədir. Türk dili üçün yazılmış orta məktəb proqram və dərsliklərində tərkibində feili sifət, feili bağlama və məsdərlər olan cümlələrin mürəkkəb cümlə hesab edilməsi (23:102-103) də bu söylədiklərimizi bir daha təsdiq edir.

Feili sifət, feili bağlama və məsdər tərkiblərinin tabeli mürəkkəb cümlə hesab edilməsinə türkoloji dilçilikdə də rast gəlirik. Azərbaycan dilində tabeli mürəkkəb cümlələri tədqiq edən Ə.Z.Abdullayev bu münasibətlə yazır: "Bu məsələdə türkoloqlar müxtəlif mövqe tuturlar. Bu cəhətdən onları 3 qrupa ayırmaq olar:

1. Bütün tərkibləri (feili sifət, feili bağlama və məsdər tərkiblərini) budaq cümlə hesab edənlər.
2. Yalnız ayrıca subyekti olan tərkibləri budaq cümlə hesab edənlər.
3. Həmin tərkiblərdən heç birini budaq cümlə hesab etməyənlər.

İkinci və üçüncü qrup dilçilər o fikirdədirlər ki, birinci qrup dilçilər tərkiblərin hamısını budaq cümlə hesab etməkdə səhv edirlər. Lakin eyni zamanda, bunların özləri də ayrı-ayrı mövqedə dururlar. İkinci qrup dilçilər birinciləri onda təqsirləndirirlər ki, onlar, istisnasız olaraq, bütün tərkibləri budaq cümlə hesab edirlər. Halbuki yalnız ayrıca subyekti olan tərkibləri budaq cümlə saymaq olar. Üçüncü qrup dilçilər isə həm birinciləri, həm də ikinciləri tənqid edirlər ki, onlar tərkibləri müəyyən bəhanələrlə budaq cümlə adlandırırlar. Deməli, birincilərə qarşı həm ikincilər, həm də üçüncülər eyni mövqedə durduqları halda sonuncuların öz aralarında da ixtilaf vardır" (1:8-9). Buradan aydın olur ki, türk dilçiliyində olduğu kimi, türkologiyada da mürəkkəb cümlə problemində fikir ayrılığı mövcuddur. N.K.Dmitriyev (30:248), N.Z.Hacıyeva və başqaları tərkibində feili sifət, feili bağlama və məsdərlər olan cümlələri mürəkkəb cümlə hesab edirlərsə (31; 32), Ə.Z.Abdullayev (1:8-84), R.Rüstəmov (4:124-133), Q.Ş.Kazımov (2:299-304), T.Müzəffəroğlu (3:72-74) bu qəbildən olan cümlələri sadə cümlə hesab edirlər.

Türkologiyada, o cümlədən də türk dilçiliyində feili bağlama, feili sifət və məsdər tərkiblərinin budaq cümlə və belə quruluşa malik cümlələrin mürəkkəb cümlə hesab olunması bir sıra səbəblərlə bağlıdır. Bunlardan ən ümdəsi qrammatik kateqoriyalarla məntiqi kateqoriyaların qarışdırılması, qrammatik hadisələrə məntiqi cəhətdən yanaşılmasıdır.

Türk dilçiliyində mürəkkəb cümləyə aid olub, mübahisəli şəkildə qalan problemlərdən biri də türk dilində cümlələrin quruluş baxımından təsnifidir. Bəri başdan qeyd edək ki, bəzi dilçilər cümlələrin quruluş baxımından təsnifini məqbul hesab etmir və belə bölgü aparmağın əleyhinə çıxırlar (20; 27). Bəzən uzun müddət bir mövqedə dayanan hər hansı bir tədqiqatçı müəyyən zamandan sonra öz fikirlərini dəyişdirə də bilir. Məsələn, türk dili sintaksisi üzrə tanınmış tədqiqatçı L.Karahan əvvəllər türk dilində cümlələrin quruluş baxımından təsnifinin mümkünlüyü fikrini müdafiə edərək türk dilindəki cümlələri aşağıdakı şəkildə təsnif edir: basit, birləşik (şartlı birləşik, iç içe birləşik) (Müq. et: *Bir ay evvel sözümü dinleseydi, başına bu felaket gelmeyecekti; Şark için "Ölümün sırrına sahiptir" derler*), sıralı (Müq. et: *Sarı çiçeğin saçları yolunmuş, kana bulanmıştır*), bağlı (Müq. et: *Kızıl havaları sey-*

ret ki akşam olmakta; Hava bulutlu ve durduğumuz tepe rüzgarlı idi) (19, 61-67). Müəllif digər türk dilçilərindən (məsələn, T.N.Gencan, R.Şimşek və başqaları) fərqli olaraq tərkibində feili bağlama, feili sifət və məsdər tərkibləri olan cümlələri mürəkkəb cümlə deyil, sadə cümlə hesab edir. Müq. et: *Sıcak yaz aylarını geçirmek için deniz kenarlarına, kırlara, tepelere kaçanlar, şimdi birer birer kışlıklarına dönüyorlar.* Lakin daha sonralar tədqiqatçı bu fikrindən daşınmış, türk dilindəki cümlələri bağlanma üsullarına görə təsnif etmişdir. Onun fikrincə, türk dilindəki cümlələri bağlanma vasitələrinə görə aşağıdakı kimi təsnif etmək olar: bağlama edatlarıyla bağlanan cümleler, ortak cümle ögeleriyle bağlanan cümleler, ortak kip / şahs ekleriyle bağlanan cümleler, anlam ilişkisiylə bağlanan cümleler (20:85-95). Bütövlükdə, türk dili tədqiqatçılarının böyük qismi cümlələrin quruluş baxımından təsnifini məqbul hesab edir. Məsələn, M.Ergin quruluşuna görə türk dilindəki cümlələri "basit" və "birleşik" adı altında iki yerə ayırır (10:382). Eyni təsnifə H.Dizdaroğlu (8:187) və T.Banquoğlunda da rast gəlirik (7: 523). Lakin bu müəlliflər sadə və mürəkkəb cümləni fərqli şəkildə başa düşürlər. Belə ki, əgər M.Ergin mürəkkəb cümlələri üç yerə - a) şərtli mürəkkəb cümlələr (Müq. et: *Hava güzel olursa biz yarın gezmeğe gideceğiz*); b) ki′li mürəkkəb cümlələr (Müq. et: *Görüyorum ki çalışmıyorsun; Baktım ki gelmiyorsun*); c) iç-içə mürəkkəb cümlələr (Müq. et: *Buraya gel dedi; Yarın gideceksin gibi hazırlan; Güneş battı mı yatar; Geldi gelmedi ağlıyor*)- ayırırsa (10:381-384), T.Banquoğlu mürəkkəb cümlələri aşağıdakı kimi təsnif edir: 1. Məna baxımından (yanyana birleşik və altalta birleşik); 2. Forma baxımından: tümleme birleşik və karmaşık birleşik (7:523-586). H.Ediskun türk dilindəki cümlələri "basit, birleşik, sıra, bağlı" adları altında (9:379), V.Hatiboğlu isə "yalınc, birleşik, girişik, sıralı" adları altında dörd yerə ayırır (16:145). T.N.Gencana görə, türk dilindəki cümlələr quruluş baxımından belə təsnif olunmalıdır: yalınç tümce (Buraya bir hökmdən ibarət olan cümlələr aid edilir: *Işıklar parça parça adeta ayaklarımızın dibinde görülüyordu*), bağımsız önermelerden birleşmiş tümce (Buraya hər hansı bir bağlayıcı, yaxud durğu işarəsi ilə formalaşan cümlələr aid edilir: *Muzır tesadüfler faydalı tesadüflerden bin kere daha çoktur: akıllı adam tesadüften hayır ummaz. Ne kızı verir ne dünürü küstürür*), bileşik tümce (temel önerme, yan önerme, girişik tümce, ara önerme) (Buraya tərkibində feili sifət, feili bağlama və məsdər tərkibləri olan olan cümlələr, eləcə də şərt cümlələri aid edilir: *Koca Ali sendeleyerek ayağa kalktı; Hava güzelse, işiniz de yoksa kıra çıkalım*) (13:146-166). R.Şimşek isə türk dilindəki cümlələri aşağıdakı kimi təsnif edir: yalın (Buraya bir hökmdən ibarət cümlələr daxil edilir: *Konya bozkırın tam çocuğudur*), bileşik (girişik, kaynaşık, koşullu) (İçərisində feli sifət, feili bağlama və məsdər tərkibləri olan cümlələr, eləcə də şərt budaq cümlələri, M.Erginin "iç içe birleşik cümle" adlandırdığı cümlələr buraya aid edilir: *Türbenin içine girmek bir imtiyazdır; Aman buradan kaçalım, dedim*), sıralı (Buraya bağlayıcılar, eləcə də durğu işarələri ilə formalaşan cümlələr aid edilir: *Nihayet eve ulaştılar, kapıyı ihtiyar hanım açtı, evde gergin bir hava vardı*), kesik (Üzvləri tam olmayan, başqa sözlə yarımçıq cümlələr bu qrupa aid olunur: *Sen, öksüz vatan, sen!... Sevdalı ana!...*), ara tümce (Buraya ara cümlələr daxil edilir: *Cihan yıkılsa, emin ol, bu cebhe sarsılmaz*) (25:243-320). Türk dilindəki cümlələri quruluş baxımından təsnif edən tədqiqatçılar arasında eyni təsnifi verən iki nəfər tapmaq mümkün deyil. Məsələn, S.Günəşə görə, türk dilindəki cümlələri aşağıdakı kimi təsnif etmək lazımdır: basit, birleşik

(sıralı, bağlı, sıralı-bağlı, şartlı, girişik, iç-içe, karmaşık), ara söz (15:351-355). Y.Yörük isə türk dilindəki cümlələri yalın, birleşik (girişik, koşul, sıralı-bağlı, iç içe, ki′li) adları altında (29:69-92), M.Karaörs basit, birleşik (şartlı, ki′li, iç içe) adları ilə təsnif edir (21:43). Qeyd edək ki, A.Akçataş bu problemə xüsusi məqalə həsr edərək ətraflı təhlil aparmışdır (5).

Müasir türk dilindəki cümlələrin quruluş baxımından təsnifini verən tədqiqatçılardan biri də R.Rüstəmovdur. Tədqiqatçıya görə türk dilindəki cümlələri quruluş baxımından iki yerə - sadə və mürəkkəb cümlələrə ayırmaq olar. Mürəkkəb cümlələr isə öz növbəsində tabeli (bağımlı bileşik tümce) və tabesiz (bağımsız bileşik tümce) mürəkkəb cümlələrə ayrılır (4:126).

Türk dilçiliyində mübahisəli şəkildə qalan məsələlərdən biri də şərt məzmunu verən *-sa, -sə* şəkilçisinin köməyi ilə formalaşan cümlələrdir. Azərbaycan dilçiliyində "şərt budaq cümləsi" adlandırılan bu cümlələr türk dilçiliyində "şart cümlesi" adı altında öyrənilir. Türk dili tədqiqatçıları arasında bu qrupa daxil olan cümlələrə münasibət birmənalı deyil. Belə ki, tədqiqatçıların bir qismi bu tip cümlələri mürəkkəb cümlə hesab etsə də, digərləri *-sa, -se* şəkilçisinin köməyi ilə formalaşan bu cümlələri sadə cümlə hesab edir. Qeyd etmək lazımdır ki, türk dilçilərinin böyük qismi (M.Ergin, V.Hatiboğlu, T.N.Gencan, R.Şimşək, H.Dizdaroğlu, M.Mansuroğlu, H.Ediskun, S.Güneş, Y.Yörük, M.Karaörs və başqaları) bu qəbildən olan cümlələri mürəkkəb cümlə kimi qəbul edir. Məsələn, A.Mehmedoğlu bu qəbildən olan cümlələri (Müq. et: *Eger dersi iyi dinlesen, iyi anlarsan*) "şart yan cümlesi" adlandırır və onların zərflik budaq cümlələrinə aid olduğunu söyləyir (24:1505) Türk dili tədqiqatçılarının bəziləri *-sa, -se* şəkilçisini felin təsriflənən forması kimi qəbul etmir. Onların fikrincə, bu şəkilçinin feillərə qoşulması nəticəsində ortaya çıxan sözformaları feili sifət hesab etmək lazımdır. Məsələn, G.Gülsevin (14), L.Karahan (18), Z.Turan (27) məhz bu mövqedə dururlar. Onların fikrincə, şərt cümlələrində hökm olmadığına görə, başqa sözlə, bu cümlələrdə iki deyil, bir hökm olduğuna görə belə cümlələri mürəkkəb cümlə hesab etmək olmaz. Türk dilçisi L.Karahan "Cümlələrin quruluş baxımından təsnifinə dair" adlı məqaləsində bu problem üzərində xüsusi dayanır və *-sa, -se* şəkilçisi ilə formalaşan cümlələri sadə cümlə kimi təqdim edir. Tədqiqatçı "*Ayşe iyileşirse okula gidecek*","*Ayşe iyileşince okula gidecek*", "*Ayşe iyileştigi takdirde okula gidecek*" cümlələrini nümunə gətirərək yazır: *"-sa* şəkilçili bir söz və ya söz birləşməsi şərt, zaman və sair ifadələrlə xəbərin mənasını tamamlayır. Feili bağlama, feili sifət və məsdər tərkiblərində olduğu kimi, *-sa* şəkilçili söz, yaxud söz birləşməsi də hökm ifadə etmir, yəni fikrin bitməsini bildirmir. Başqa sözlə, bu quruluş cümlə olmayıb, cümlənin bir ünsürüdür, daha dəqiq desək cümlənin zərfliyidir. "*Ayşe iyileşirse okula gidecek*","*Ayşe iyileşince okula gidecek*", "*Ayşe iyileştigi takdirde okula gidecek*" cümlələri arasındakı fərq "şərt / zaman" ifadə edən ünsürün quruluşundan ortaya çıxır... Feli bağlama, feili sifət və məsdər tərkibli cümlələri mürəkkəb cümlə qəbul etməyən bir yanaşmanın *-sa* şəkilçili söz və ya söz birləşməsi daşıyan bir cümləni "şərt budaq cümləsi" adlandırması bir paradoksdur. Çünki hər iki quruluşun "hökm ifadə edə bilmək" anlayışı baxımından aralarında fərq yoxdur" (17:19).

Qeyd edək ki, hökm ifadə edib-etməmək cəhətini əsas alaraq *-sa, -se* şəkilçisi ilə formalaşan cümlələri cümlə hesab etməmək, onları cümlənin üzvü hesab etmək özünü doğrultmur. Bu mövqedə duran tədqiqatçılar məntiq kateqoriyaları ilə qram-

matik kateqoriyaları bir-biri ilə qarışdırır, məntiq kateqoriyalarına daha böyük üstünlük verirlər.

Türk dilçiliyində mübahisəli şəkildə qalan məsələlərdən biri də *ki* bağlayıcısının köməyi ilə meydana çıxan cümlələrin türk dilinin sintaktik quruluşunda yerinin müəyyən edilməsidir. Məsələ bundadır ki, tədqiqatçıların böyük qismi *ki* bağlayıcısı ilə yaranan cümlələri mürəkkəb cümlə (birləşik cümle) hesab etsə də, bu quruluşa malik cümlələri mürəkkəb cümlə hesab etməyən, onların mürəkkəb cümlədən fərqli quruluşa malik olduqlarını iddia edən araşdırıcılar da var. Başqa sözlə desək, bəzi tədqiqatçılar *ki* bağlayıcısı ilə formalaşan cümlələri mürəkkəb cümlələrdən ayrı araşdırmışlar. Məsələn, H.Ediskun (9), L.Karahan (20) və başqaları bu cümlələri "ki′li bağlı cümle", R.Şimşek isə "ilgi tümcesi" adlandırır (25). Bu isə öz növbəsində bu problemlə bağlı türk dilçiliyində vahid fikir olmadığını aydın şəkildə göstərir. Araşdırıcıların bəziləri (məsələn, S.Tokatlı) *ki* bağlayıcısının köməyi ilə meydana çıxan cümlələrin yad dillərin təsiri altında formalaşdığını iddia edir. Bu münasibətlə o yazır: "Bağlayıcılarla əmələ gələn budaq cümlələr ilk dəfə uyğurlar zamanında soqd və toxar dili kimi İran dillərinin təsiri altında istifadə olunmağa başlamışdır. *Ki* bağlayıcısı ilə qurulan budaq cümlələr isə fars dilindən çoxlu tərcümələr olunan əski osmanlı dövründə daha geniş yayılmışdır" (26:453). *Ki* bağlayıcısı ilə meydana çıxan cümlələrin türk dilinin sintaktik quruluşunda yerinin dəqiq müəyyənləşdirilməsi və bu problemlə bağlı mübahisələrə son qoyulması türk dilində mürəkkəb cümlənin, xüsusən də tabeli mürəkkəb cümlənin tədqiqinə ciddi təkan verə bilər.

Türk dilçiliyində mürəkkəb cümlə ilə bağlı mübahisəli məsələlərdən biri də bağlayıcılar və durğu işarələrinin köməyi ilə meydana çıxan cümlələrin təsnifidir. Bir çox tədqiqatçılar bu cümlələri quruluşuna görə fərqləndirir və bu səbəbdən də onları quruluş baxımından ayrıca tədqiq edir. Belə tədqiqatçılardan T.N.Gencanın, R.Şimşekin, S.Ekerin və başqalarının adını çəkmək olar. Bu tədqiqatçılar bu qəbildən olan cümlələri "sıralı cümle" və "bağlı cümle" adları altında öyrənirlər. Bununla belə, bu cümlələri quruluşuna görə fərqləndirməyən araşdırıcılar da var. Onların fikrincə, bu cür cümlələr quruluş baxımından deyil, bağlama vasitələrinə görə təsnif və tədqiq olunmalıdır. Bu səbəbdən də onlar "sıralı cümle", "bağlı cümle" terminlərini bir kənara qoyur, tamamilə fərqli terminlərdən istifadə edirlər. Məsələn, H.Ediskun "biçimlerine göre", H.Dizdaroğlu "bağlanışlarına göre", İ.Delice "kullanımlarına göre", L.Karahan isə "cümlelerin bağlanma şekilleri" terminlərini işlədir.

Qeyd eləmək lazımdır ki, bu problem türk dilçiliyində dəfələrlə müzakirə predmeti olmuş, problemin həlli üçün müxtəlif təkliflər verilmiş və fikirlər irəli sürülmüşdür (11; 12; 28).

Bura qədər söylədiklərimiz türk dilçiliyində mürəkkəb cümlə məsələsinin kifayət qədər mübahisəli olduğunu, bu problemlə bağlı ümumi bir fikrin olmadığını aydın şəkildə göstərir.

Ədəbiyyat

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, Maarif, 1974.
2. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis, Ünsiyyət, 2000.

3. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası, Bakı, Azərnəşr, 2002.
4. Rüstəmov R. Türk dilinin sintaksisi, Bakı, "Elm və Təhsil", 2012.
5. Akçataş A. Türkiye Türkçesinde Yapı, İşlev ve Anlam İlişkileri Açısından Cümle Grupları ve Cümle Türleri Üzerine Bir Deneme - I // www. turcology. com. tr
6. Aydın İ. Türkçede Yan Tümce Türleri ve İşlevleri // www. turcology. com. tr
7. Banquoğlu T. Türkçenin Grameri, TDK Yayınları, Ankara, 1998.
8. Dizdaroğlu H. Tümcebilgisi, TDK Yayınları, Ankara, 1976.
9. Ediskun H. Türk Dilbilgisi, Remzi Kitabevi Yayınları, İstanbul, 1999.
10. Ergin M. Türk Dil Bilgisi, İstanbul, 1987.
11. Fidançı M. Sıralı Cümle // Türk Dili, sayı 534, Haziran, 1995.
12. Gece M. Türkiye Türkçesinde Bağlı Cümle // Türk Dili, sayı 562, Ekim, 1998.
13. Gencan T.N. Dilbilgisi, Ayraç yayınları, Ankara, 2001.
14. Gülsevin G. Türkçede -sA Şart Gerindiumu Üzerine. // Türk Dili, sayı 467, Kasım, 1990.
15. Güneş S. Türk Dili Bilgisi, İzmir, 2003.
16. Hatipoğlu V. Türkçenin Sözdizimi, TDK Yayınları, Ankara, 1972.
17. Karahan L. Yapı Bakımından Cümle Sınıflandırmaları Üzerine. // Türk Dili, sayı 583, Temmuz, 2000.
18. Karahan L. -SA, -SE Eki Hakkında // Türk Qramerinin Sorunları II, Ankara, Türk Dil Kurumu yayınları, 1999.
19. Karahan L. Türkçede Söz Dizimi, Ankara, Akçağ yayınları, 1999.
20. Karahan L. Türkçede Söz Dizimi, Ankara, Akçağ yayınları, 2004.
21. Karaörs M. Türkçenin Söz Dizimi ve Cümle Tahlilleri, Kayseri, Erciyes Universitesi yayınları, 1993.
22. Karaörs M. Cümle Bilgisinde İsimlendirme, Sınıflandırma ve Tahlil Metodlarının Birliği // Türk Gramerinin Sorunları Toplantısı (22-23 Ekim 1993), Ankara, 1995. s.21-30.
23. Kerimoğlu C. Türkçe Dil Bilgisi Öğretiminde Yapı Bakımından Cümle Sınıflandırmaları. // Dokuz Eylül Üniversitesi Buca Eğitim Fakültesi Dergisi, s. 21, 2007.
24. Mehmedoğlu A. Türkiye Türkçesinde Karışık Türlü Bağımlı Birleşik Cümle // Turkish Studies, İnternational Periodikal For the Language, Literature and History of Turkish and Turkic , Volume 4/3, Spring, 2009.
25. Şimşek R. Türkçe Sözdizimi, Kuzey Gazetecilik Matbaacılık, Trabzon, 1987.
26. Tokatlı S. Anadolu Ağızlarında Ki Bağlama Edatı İle Kurulan Yardımçı Cümleler // Sosyal Bilimler Enstitüsü Dergisi, sayı 21, 2006.
27. Turan Z. Cümlenin Yapısıyla İlişkilendirilen Basit ve Birleşik Kavramları Üzerine. // Türklük Bilimi Araştırmaları, sayı 5, Sivas, 1999.
28. Türkay K. Türkiye Türkçesinde Sıralı Cümleler Sorunu Üzerine // Türklük Bilimi Araştırmaları, sayı 1, Sivas, 1995.
29. Yörük Y. Örnekli Uykulamalı Tümce Bilgisi, Eğitim yayınları, Ankara, 1985.
30. Дмитриев Н.К. Грамматика башкирского языка, М.-Л., Изд. АН СССР, 1948.
31. Гаджиева Н.З. Основные пути развития синтаксической структуры тюркских языков, М., Наука, 1973.

32. Гаджиева Н.З., Серебренников Б.А. Сравнительно-историческая грамматика тюркских языков, М., Наука, 1986.

Абдуллаева Ирада

Проблема сложного предложения в турецком языкознании

Резюме

Одним из самых спорных вопросов турецкого языкознания является проблема сложного предложения. Отсутствие точного определения границ простого и сложного предложений, отрицание некоторыми исследователями классификации предложения по структуре, причисление придаточного предложения условия, образующегося с помощью окончаний *-sa, -se* к простому предложению, отрицание принадлежности предложений, образованных союзом *ki*, к сложным предложениям, являются основными вопросами этой проблемы.

Irada Abdullayeva

The problem of composite sentence in the turkish linguistics

Abstract

One of the main matters of dispute in the Turkish linguistics is the problem of composite sentence. Absence of exact definition between simple and composite sentences, contradiction of classification of sentence structure by some researchers, consideration of conditional subordinate clause formed through *-sa, -se* endings as simple sentence, consideration sentences formed through *ki* conjunction out of composite sentence, are the main questions of this problem.

Rəyçi: Rüfət Rüstəmov
filologiya elmləri doktoru, professor

FİRƏNGİZ QURBANOVA
Azərbaycan Dillər Universiteti

MƏTNİN FORMALAŞMASINDA ƏDATLARIN ROLU

Açar sözlər: ədat, qüvvətləndirici, məhdudlaşdırıcı, inkar, bağlayıcı, mətn, mətnyaradan
Key words: particle, intensifying, limiting, negative, connecting, text, text-forming
Ключевые слов: частицы, усилительный, ограничительный, отрицание, связки, текст, текстообразующие

Tədqiqqatlarda məlum olur ki, söz və ya cümlə az çox bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə yalnız mətn daxilində bütün struktur- semantik xüsusiyyətlərini üzə çıxara bilər. Müəyyən fikir ətrafında cümlələrin əlaqəli birliyi mətni yaradır. Dilçilikdə mətn termininin bir neçə işlənmə variantları var. Mətn – mətni göndərənin fikrinə əsasən, özlərində bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir parçanı təyin etmək üçün işlədilir. Eyni zamanda, bu termin hekayə, roman, məqalə və s. kimi nitq əsərlərini adlandırmaq üçün istifadə olunur. Ümumi nəticə isə belədir ki, mətnin bir sıra vahidlərdən ibarət və əlaqələlik, bitkinlik və daxili təşkil olunma təzahürlərinə malik spesifik bir quruluş kimi başa düşülməsidir. Mətnin daxili və xarici tamlığını təşkil edən linqvistik, psixoloji və məntiqi amillər var (4, s.12). Bəzi alimlərin mətn haqqında fikirlərinə müraciət edək. H.Vaynrix mətni belə xarakterizə edir: "Mətn minimum iki morfemdən, maksimal tərkibi isə məhdud olan morfemlərin qaydalı ardıcıllığı olaraq, leksik və funksional morfemlərin mütəmadi növbələşməsidir" (4, s.12). M.A.K.Həllidey və R.Həsən mətnə bu cür tərif verirlər: "Mətn şifahi və yaxud yazılı, istənilən uzunluqda bir bütöv təşkil edən danışıq parçasıdır (4, s.13). Rus dilçisi İ.R.Qalperin isə mətnə aşağıdakı tərifi verir:

"Başlığa, müəyyən məqsədyönlülüyə və praqmatik mərama malik leksik, qrammatik, məntiqi, üslubi əlaqə vasitələri ilə birləşmiş bir sıra spesifik vahidlərdən ibarət bitmiş və ədəbi işlənmiş nitq məhsulunu təşkil edən dil işarələrinin qaydalı və yazılı birliyi – mətndir" (4, s.13).

Bu siyahını artıra bilərik. Ümumi nəticə isə belədir ki, mətnin dəqiq tərifi, onun sərhədlərini müəyyən olunması, mətnin ayrı-ayrı hissələrə bölünməsi üsulları, onu təşkil edən vahidlərin statusunun müəyyən olunması, onun yaranmasında iştirak edən semantik və formal amillərin nisbəti kimi problemlər hələ də mövcuddur.

Qeyd edək ki, mətn və mətnin sərhədlərini müəyyənləşməsində Azərbaycanlı alimlərin, daha dəqiq K.Abdullayevin xidmətləri danılmazdır. Kamal müəllimin sayəsində Azərbaycan dilçiliyində cümləfövqü vahidləri mürəkkəb sintaktik bütöv adı altında birləşdirərək mətnəqədərki vahidləri öyrənməyə çalışırlar. F.Veysəllinin, A.Məmmədovun və digər Azərbaycanlı dilçilərin də bu sahə ilə əlaqədar tədqiqatları vardır. Məsələn, F.Veysəlli "Diliçiliyin əsasları" kitabında mətnin sərhədlərinin müəyyənləşməsi barədə yazır: "Əslində bu, o qədər geniş sahədir ki, bütün abzas, period və mürəkkəb cümlələri vahid ad altında birləşdirmək olduqca çətin məsələdir. Dil strukturunun aşağı səviyyələrində müəyyən dəqiqlik vardır. Fonem, morfem, leksem terminləri çox konkret və aydındır. Ancaq mürəkkəb sintaktik bütövlə-

rin ardıcıllığı həm də mətn yaradır. Diskursu konkret bir məqamda verilmiş mövzu ilə bağlı şifahi performans hesab etsək, yenə də sərhədlər dəqiq müəyyənləşməmiş qalır" (5, s.349).

Məlum olduğu kimi Azərbaycan və ingilis dilləri fərqli sistemli dillər olmalarına baxmayaraq, həmin dillərin mətnlərinin yaranmasında cümlə üzvlərinin aktual üzvlənməsi eyni dərəcəd mühüm əhəmiyyət kəsb edir. Mətn yaradan aktual üzvlənmə dedikdə bunlar nəzərdə tutulur: 1. Sözsırasının dəyişdirilməsi yolu ilə əmələ gələn mətnlər; 2.Formal-qrammatik vasitələrdən istifadə etməklə formalaşan mətnlər; 3.Prosedik aktuallaşmanın yolu ilə əmələ gələn mətnlər (3, s.102).

Mətnyaratmada qeyd olunan vasitələrlə yanaşı, bir sıra formal-qrammatik (morfoloji) vasitələrin, elementlərin də rolu danılmazdır. Yuxarıda da qeyd etdiyimiz kimi, mətn ayrı-ayrı cümlələrin təsadüfi ardıcıllığında ibarət deyildir. Mətn daxilində cümlələr bir-birilə səbəb, nəticə, qarşılaşdırma, müqayisə, zaman və s. məna münasibətlərində olurlar. Mətni təşkil edən cümlələr müəyyən məntiqi ardıcıllıqla, qanunauyğun şəkildə sıralanır. Mətndə olan cümlələrin biri dəgəri üçün şərt, nəticə və s. olur. Mətni tşkil edən cümlələr arasındakı bağlılıq qrammatik və struktur vasitələrlə formalaşır. Mətni diqqətlə nəzərdən keçirsək görərik ki, onu təşkil edən cümlələr semantik-struktur, eyni zamanda qrammatik cəhətdən bir-biri ilə əlaqəlidir və onlardan birinin çatışmaması, yaxud düzgün işlədilməməsi mətni yanlış təşkilinə, səhv məna yaratmasına səbəb ola bilər. Odur ki, deyirlər ki, mətni təşkil edən cümlələr zəncirvari halqadır, bu zəncir isə biri digərindən asılı olan zəncirvari fikirlərin vəhdətidir. Buradan da bu nəticəyə gəlinir ki, digər elementlərlə yanaşı, formal-qrammatik vasitələr də mühüm əhəmiyyət kəsb edir.

Formal-qrammatik elementlərin rolu barədə İ.İ.Çernişevanın fikrinə əsaslansaq qeyd edə bilərik ki, mətn dilçiliyinin əsas problemi leksik, morfoloji və sintaktik münasibətlər vasitəsilə fəaliyyət göstərən və onları idavə edən mətndüzəldən faktorların axtarılmasıdır (3, s.120). Mətndüzəldən formal-qrammatik faktorlar cümlənin tərkibində aktuallaşdırma vasitəsi kimi çıxış edir. Biz bu faktorlardan ədatların üzərində dayanacağıq.

Müasir ingilis dilində mövcud olan köməkçi nitq hissələrindən biri də ədat hesab olunur. Mənbələrə əsaslansaq bu qənaətə gələrik ki, ədatlar cümlədə heç bir müstəqil sintaktik funksiya daşımır, heç bir qrammatik kateqoriyaya malik deyil. Bu səbəbdən də onların heç bir morfoloji forması yoxdur, ədat ayrılıqda cümlə üzvü ola bilmir (1, s.332). İlk öncə ədatın tərifini xatırlayaq. O.Musayev ədatın tərifini belə verir: "Ədat aid olduğu sözə, yaxud cümləyə müxtəlif məna şaları verir. Ədatlar aid olduğu söz və ya cümlənin mənasını ya qüvvətləndirir, ya məhdudlaşdırır, ya inkar edir, ya da söz və ya cümlələr arsında əlaqə yaradır. (1, s.333). Məqsədimiz ədatların söz və ya cümlədə daşıdığı funksiyalarla yanaşı, onların müasir dövrdə çox aktual olan bir mövzuda, yəni mətnyaratmada oynadığı rolundan bəhs etməkdir. Məlumdur ki, sintaksisin ən mühüm problemlərindən biri də hazırda mətn və mətni formalaşdıran elementlərdir. Amma bu problem aktual olduğu kimi, hələ də az öyrənilən sahələrdən hesab edilə bilər. Doğrudur bu sahədə araşdırma aparan dilçilər mövcuddur: K.Abdullayev, K.Vəliyev, F.Əlizadə, Q.Bəyzadə, Ə.Abdullayev, A.Məmmədov və s. qeyd etmək olar. Bu kimi alimlər hazırda bu sahəyə diqqət yetirirlər. Müəyyən olunub ki, suprasintaktik səviyyənin, aktual üzvlənmənin öyrənilməsi çox

vacibdir və yalnız bu yolla dilimizin kommunikativ imkanları, dialoji və monoloji nitqin nə üçün bu və ya digər şəkildə qurulduğu açıla bilər.

İngilis dilində ədatlar nisbi olaraq belə qruplaşdırıla bilər (1, s.332):

1.Qüvvətləndirici ədatlar (Intensifying particles): *just, even, yet, only, simply, still* və s.:

I **just** thought you might like to drive.

But I can't stay in London **even** to please them.

But out there he'll **simply** get bored to death.

2. Məhdudlaşdırıcı ədatlar (Limiting particles): *only, just, but, merely* və s.:

The commonest thing is delightful if one **only** hides it.

She has **but** one child.

He had **merely** shot an arrow into the air.

3. Bağlayıcı ədatlar (Connecting particles): *also, too*. Məsələn,

There was also a pleasant look on his face.

He laughed too.

4. İnkar ədatlar (Negative particles): *not, never*. Məsələn,

During the summer I met her **not** frequently.

We **never** know what happened then.

Bu bölgüyə biz O.İ.Musayevin, V.L.Kauşanskayanın və s. dilçilərin əsərlərində rast gələ bilərik. Cümlədə ədatların yerləşdirilməsinə gəldikdə isə onları adətən aid olduğu sözdən ya bilavasitə əvvəl, ya da sonra durur. Məsələn,

They **only** came to Paris to make friendship.

Bu cümlədə işlədilən ədat feli qüvvətləndirdiyinə görə ondan əvvəl yazılıb. Əgər **only** ədatı yer zərfini qüvvətləndirərsə, o halda o **to Paris**-dən əvvəl işlədilməlidir.

They came **only** to Paris to make friendship.

Müşahidə etdiyimiz digər bir fakt söz sırasında təbii vurğunun ciddi məntiqdən daha əhəmiyyətli olması ilə bağlıdır: "He only died last week" (O, keçən həftə yalnız öldü) cümləsi müasir pedantlar tərəfindən pislənə bilər, çünki burada 'qüvvətləndirici ədat təyin etdiyi sözə, cümləyə, yaxud ifadəyə mümkün qədər yaxın olmalıdır' qaydasına qarşı çıxmış oluruq. "He died only last week" (O, yalnız keçən həftə öldü), yaxud "It was only last week that he died" (Yalnız keçən həftə o öldü) cümlələrində olduğu kimi. *Only* sözü ayrıca deyilməklə vurğu, intonasiya və fasilə hər şeyi aydınlaşdırır, hətta lap çox aydınlaşdırır. "He only died last week" cümləsində heç bir anlaşılmazlıq, emfatikliyin səhv yerləşməsi yoxdur (6, s.120).

Müasir ingilis dilndə bu və ya digər cümlənin məna çalarının müəyyənləşməsində ədatlar mühüm rol oynayır. **Just, even** kimi qüvvətləndirici ədatları, **but, merely** və s. kimi məhdudlaşdırıcı ədatıarı müxtəlif cümlə üzvlərinin əvvəlində işlənərək remalaşdırma vəzifəsini oynayırlar. Göstərilən ədatlar mətnin mənasına uyğun olaraq aid olduqları sözün mənasını ya qüvvətlndirir, ya məhdudlaşdırır, ya da inkar edir. Araşdırmalar göstərir ki, işlənmə dairəsinə görə ingilis dilndə mübtədanın qarşısında daha çox **only** və **even** ədatları istifadə olunur. Bu ədatlar mübtədanın əvvəlində işlənmə yerinə görə remalaşdırıcı xüsusiyyət daşıyır. Cümlədə onlar Azərbaycan dilinə "**yalnız", "ancaq", "yeganə"** kimi tərcümə olunur (3, s.120). Məsələn,

Mrs. Handson's **only** relaxation was to come up after she had served the dinners and have a little chat with her gentlemen (S.Maugham). – Xanım Həndsonun **yeganə** rahatlığı naharı paylayandan sonra gəlib öz ağası ilə bir az söhbət etmək idi.

Only Shakespare was the first poet to have his name engraved here. – **Yalnız** Şekispir ilk şair idi ki, öz adını bura həkk etdirmişdi.

Even ədatı da ingilis dilndə nəqli, təsdiq və inkar cümlələrində mübtədanın əvvəlindəistifadə olunur. **Even** ədatı Azərbaycan dilinə **hətta, belə, heç, da, də** kimi tərcümə olunur.

Even I discovered that he didn't want to pay attention to this problem. – **Hətta** mən belə hiss etdim ki, o bu məsələyə fikir vermək istəmir.

Even I can not say that you are right. – **Hətta** mən belə deyə bilmərəm ki, sən haqlısan.

Qeyd etmək lazımdır ki, bu ədatlar Azərbaycan dilində də, ingilis dilndə də mətnin düzəldilməsində aktualizator kimi fəaliyyət göstərirlər (3, s.120). Ə.Abdullayev aktualizatorların mətni təşkil edən cümlələrdə bəzən prepozisiyada, bəzən də postpozisiyada işlənə bildiklərini yazır. Ə.Abdullayev mətndüzəltmədə məhsuldar olan formal-qrammatik (morfoloji) vasitələrin aşağıdakı növlərini qruplaşdırır:

1. Mətnin yaranmasında **da/də (too, also)** birləşdirici ədatının-aktualizatorun imkanları. Bu qrammatik-morfoloji göstərici ilə oxucu və ya dinləyicinin nəzəri müəyyən sözə, ya da bütün ifadələrə-aktuallaşan komponentə cəlb olunur. Aid olduğu sözü və ya ifadəni qüvvətləndirən bu morfoloji göstərici mətndə təkid, təəssüf, etiraf, istehsa, kinayə və s. kimi emosional məna çalarları da yaradır.

The door knocked **too**, the wondow **also** knocked, the floor cracked **too** and all these made us shiver **too** (Danielle Steel). – Qapı **da** döyüldü, pəncərə **də** döyüldü, döşəmə **də** şaqqıldadı və bütün bunlar bizi **də** titrətdi.

2. Mətnin yaranmasında **even (hətta)** qüvvətləndirici ədatının-aktualizatorunun imkanları. Qeyd etmək lazımdır ki, belə ədatı da də ədatı ilə sinonim kimi işlənir. Belə ədatı mətndə qüvvətləndirici sözdən sonra gəlir.

Even I can not help you. – **Hətta** mən belə sənə kömək edə bilmərəm.

Ədatların məntnin formalaşmasındakı rolunu atalar sözləri, idiomlar və frazeoloji birləşmələrdə də müşahidə etmək olar. Nümunəyə baxaq: **Never** cross a bridge till you come to it (Çay görməmiş çırmanma). **No** longer pipe, **no** longer dance (Dostam sənlə pulun qurtaranacam). Beggar's scrip is **never** filled (Dilənçinin oğrudan nə qorxusu). **Even** we know your side (Hətta biz belə sizin üzünüzə bələdik) (7, s. 126). Atalar sözləri, idiomlar, o cümlədən frazeoloji birləşmələrdə işlədilən ədatların tərcüməsinə xüsusi diqqət yetirmək lazımdır. Bəzən onların tərcüməsi adi cümlələrdə olduğundan fərqlənir.

Araşdırmalar sübut edir ki, həm ingilis, həm də Azərbaycan dilində mətnin yaranmasında digər formal-qrammatik (morfolioji) vasitələr kimi ədatların da öz rolu var. Onlar mətnin mənasının aydınlaşmasında, onun emosional məna çaları qazanmasında, üslubunun aydın anlaşılmasında və müəllifin məqsədinin düzgün başa düşülməsində mühüm əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Musayev O.İ. İngilis dilinin qrammatikası. “Qismət”, Bakı, 2007.
2. Turksever (Musayev) O.I., Hajiyev E.I., Huseynov A.R. A Practical Grammar of
Contemporary English. “Qismət”, Baku, 2009.
3. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. “Zərdabi LTD”MMC, Bakı, 2011.
4. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. “Çaşıoğlu”, Bakı, 2010.
5. Veysəlli F.Y. Dilçiliyin əsasları. “Mütərcim”, Bakı, 2013.
6. Veysəlli F.Y., Mustafayeva S.B. Dilimiz. “Elm və təhsil”, Bakı, 2012.
7. Vəliyeva N.Ç. İrihəcmli üçdilli Azərbaycanca – ingiliscə - rusca frazeoloji lüğət. II cild. Bakı, Azərnəşr, 2010.

F. Gurbanova

The role of particles in text-forming

Summary

The article deals with one of the ways of the formal-grammatical (morphological) means of text-forming particles in English and in Azerbaijani languages. The investigation proves that particles play a very important role in text-forming in both languages.

Ф.Курбанова

Роль частиц в формировании текста

Резюме

Статья содержит исследование так называемых формально-грамматических (морфологические) единиц, т.е. частиц в английском и азербайджанском языках. Исследование доказывает, что как в английском, так и в язербайджанском языках в формировании текста наряду с другими средствами и частици имеют особую роль.

Rəyçi: dos.İ.M.Nuriyeva

TURANƏ QURBANOVA
Azərbaycan Dillər Universiteti

İNFORMATİVLİK MƏTNİN KATEQORİYASI KİMİ

Açar sözlər :informasiya,qrammatik kateqoriya, fərqli üslublar
Key words :information, grammatical category, different styles
Ключевые слова :информация , грамматическая категория , различные стилы

İnformasiya öz gücünü ayrıca götürülmüş cümlədə deyil, məhz mətndə tapır. "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" əsərində haqlı olaraq qeyd edir ki, "Beləliklə, informasiya nəzəriyyəsinin məlum müddəasını tətbiq edərkən ayrıca götürülmüş cümlənin informativ, təbii ki, semantik naqisliyi sübut olunur və məhz bundan sonra "anlaşma prosesi üçün vacib olan informasiya bəs haradadır?" sualı ilə axtarışlara çıxsaq, ilkin olaraq mətnlə, yəni kommunikasiya aktında işləm məqamına malik olan və formal-semantik planda müəyyən eynicinslilik əsasında birləşən cümlələr birliyi ilə qarşılaşmalı oluruq" [1, s. 182]. Deməli, informasiya bütövlükdə cümlədə yox, məhz mətndə özünü göstərir. Məhz cümlələr birliyi nitq fəaliyyəti üçün əsas olan informasiya sığınacağına çevrilə bilir.

Mütləq bitkinlik göstəricisi olan məna, beləliklə, bütövlükdə mətnin funksiyası kimi çıxış edir və beləliklə, mətnin tərkibinə daxil olan ayrı-ayrı cümlələr arasındakı müxtəlif növlü daxili semantik-qrammatik münasibətlər müəyyən informativ dəyərə malik olan məqamlar verir" [7, s.127].

İ.Qalperinə görə mətn dilçiliyinin kateqoriyası kimi "informativlik" terminini 2 mənada işlədir: a) ümumi qəbul olunmuş mənada, b) termin kimi. İlk növbədə, informasiya dedikdə bütün növ məlumatlar nəzərdə tutulur. İnformasiya bir cümlədə, cümlələr birliyinə və yaxud mətndə ötürülə bilər. Bu mənada informasiya ideyalarla, fikirlərlə ötürülmək istənilən ismarıclarla bağlı olur [6, s.26].

"İnformasiya" termininin ikinci mənası isə kommunikasiya məsələlərini öyrənərkən üzə çıxır. Bu terminin istifadəsinə o zaman üstünlük verilir ki, predmetlər, əşyalar, hadisələr, münasibətlər haqqında yeni bir məlumat verilir, yaxud qəbul edilir.

Beləliklə də, deyə bilərik ki, elmi planda öyrəniləndə heç də bütün məlumatlar özündə informasiya ehtiva etmir. İ.Qalperinə görə "informasiya" və "kommunikasiya" terminləri üst-üstə düşmür, onlar bir-birini inkar etməsələr də fərqli anlayışlardır [6, s.29].

İnformativlik kateqoriyası bəzən mübahisələrə də səbəb olur. Belə ki, bu bəzən sırf linqvistik təhlil çərçivəsindən kənara çıxır. Bunlardan biri də informasiyadakı yenilikdir. İlk qəbuledici üçün verilən məlumat çox zaman yeni olur və buna görə də bu məlumat informasiya xarakteri daşıyır. Digər bir qəbuledici üçün isə bu məlumat informasiya xarakterli olmayacaq. Çünki mövcud məlumat ona artıq məlumdur.

İkinci məsələ isə alınan informasiyanın dəyərliliyidir. Aydındır ki, informasiya təkrarlandıqca öz dəyərliliyini itirir və nəticədə informasiya olmaqdan çıxır. Həmçinin də məlumdur ki, bəzi mətnlər öz dəyərliliyini heç vaxt itirmir. Onların dəyəri həmişə insanlıq mədəniyyətinin xəzinəsi olaraq qalır. Onlar həmişə yenilik

üçün bir mənbə olurlar və ona görə də informativliklərini saxlayırlar. Məsələn, buna misal olaraq müqəddəs "Qurani-Kərim"i misal göstərmək olar. Buradakı informasiyalar bəşəriyyət üçün açılmamış informasiya xəzinəsi olmaq xüsusiyyətini daşıyır.

Mətndə kommunikativ fəaliyyət zamanı ötürülən informasiya tipi (koqnitiv, dil və kommunikativ) fərqləndirilir.

Koqnitiv informasiya – insanın psixi fəaliyyəti nəticəsində əldə olunmuş və işarə sistemləri ilə sosial şəkildə ifadə olunmuş dünya haqqında biliyidir. Koqnitiv informasiya, ilk növbədə, biliyin məzmunu ilə bağlıdır, o mətn ötürücüsünün subyektiv təsirindən azaddır və buna görə də səmərəli fəaliyyət üçün yararlıdır.

Dil informasiyası – dünya haqqında dil vahidlərindəki informasiyadır. Bu informasiya həmin vahidlərin referensial, qrammatik və praqmatik vahidlərində mövcuddur. Dil informasiyasına əsas diqqət biliyin məzmunundan onun formasına yönəlir.

Kommunikativ informasiya isə mətndə ifadə olunmuş müəllif fikri haqqında informasiyadır, yəni bu, yalnız mətn ötürücüsünün şüurundakı qeyri-dil obyektləri haqqında məlumat deyil, həmçinin onun əks olunan hadisəyə şüurlu şəxsi qiyməti, eləcə də onun hissləri, emosiyaları və s. haqqında məlumatı, yəni mətnötürənin nəyi kommunikasiya predmeti etməyin vacib saydığını ehtiva edir. Kommunikasiya predmeti və yaxud nitq predmeti – öz lüğəti mənasında predmetliyə malik mətn vahididir .

Mətnin məzmunu onun kommunikasiya aktında iştirak edən tərəfindən necə şərh olunduğu, yəni necə başa düşüldüyü ilə təyin olunur. Yəni onlar öz dil və koqnitiv bilikləri, eləcə də kommunikasiya aktının həyata keçdiyi şərait nəzərə alınmaqla hansı informasiyanı bu mətndə əlaqələndirirlər.

İ.Qalperin isə mətndə informasiyanın 3 növünü fərqləndirir: 1)məzmun - faktual informasiya; 2) anlayış, məzmun-konseptual təsəvvür formasında olan informasiya və 3) məzmun-gizli məna, mətnaltı informasiya [6, s. 27].

Birinci tip informasiya özündə faktlar, hadisələr, proseslər, bizi əhatə edən dünyada baş vermişlər və baş verəcək olanlar haqqında real, yaxud mücərrəd məlumatları ifadə edir. Bu tip informasiyada adətən hipotezalar, tanınmış alimlər, onların fikirləri, faktlar, onların xarakteristikası və s. haqqında məlumat ola bilər.

İkinci tip informasiya isə oxucuya müəllifin fərdi faktlar, hadisələr, proseslər arasındakı əlaqələr haqqında dünyagörüşünü çatdırır, onların səbəb-məqsəd əlaqələrini, sosial, iqtisadi, siyasi və mədəni həyatda dəyərini anladır. Belə tip informasiya onunla fərqlənir ki, verilənlər real hadisələr yaxud da yazıçının təxəyyülünün məhsulu olmasından asılı olmayaraq, verilən əlaqələr, faktlar, hadisələr yazıçının təfəkkürünə əsaslanır. Bu tip informasiya heç də həmişə aydın başa düşülmür. O, bu və ya digər məsələ ətrafında müzakirə aparmağı tələb edir. Bu tip informasiya müəllifin ötürdüyü informasiya və onun şərhindən ibarətdir.

Üçüncü tip informasiya isə özündə gizli, mətnaltı informasiyanı ehtiva edir .

Mətnin oxunması, təhlili zamanı hadisə və faktların individual olaraq hamı tərəfindən eyni cür başa düşülməsi mümkün deyildir. Çox zaman mətnin gözdən keçirilməsi, onun ikinci dəfə oxunması mətnin təhlili ilə eyni olmur, yəni burada müxtəlif tip informasiyalar başa düşülür.

İnformativliyə mətnin qrammatik kateqoriyası kimi baxılan zaman müxtəlif tipli mətnləri nəzərə almaq lazımdır. Belə ki, burada funksional üslublardakı fərqli-

lik özünü göstərir. Məsələn, diplomatik-rəsmi sənədlərdə informasiya akt, memorandum, əmr və s. şəkildə verilə bilər. Bədii üslubda isə bu informasiya – hekayə, roman, şeir, poema, dram və s. şəkildə ifadə oluna bilər. Publisistik üslubda isə bu informasiya qəzet başlıqlarında, məqalələrdə və s. ötürülə bilər.

Qeyd etmək lazımdır ki, hər bir mətn növündə ehtiva olunan informasiya elə həmin öz adı ilə əlaqəli olur. Aydındır ki, "pakt" adlanan mətn növü, özündə xüsusi növ razılaşmanı ifadə edir. İki tərəf arasında xüsusi şəraitdə həyata keçirilən razılaşma "mətn – pakt" üçün səciyyəvidir. "Mətn – nota" isə özündə razılaşmanın hər hansı şərtinin pozulması üzündən iki tərəf arasında, xüsusilə də beynəlxalq əlaqələr zamanı ifadə olunan etirazı bildirir.

Bəzi dilçilər tərəfindən informasiya və məlumat terminləri fərqləndirilir. Məlumat oxucuları hər hansı bir yeni xəbərin qəbul edilməsinə sövq edir .İnformasiyanın bu formasına ən çox qəzetlərdə, radio və televiziya verilişlərində rast gəlinir. Biz elə tip mətn göstərə bilərik ki, burada informasiya məlumat xarakterində ifadə olunsun:

Google is synonymous with "search engine", and now, for students, it wants to be synonymous with "science".

The company is getting into the science fair business with its first Google science Fair, a global competition for teenagers that spans sciences as diverse as computer engineering, space exploration and medical technology.

The event does not the name recognition and deep roots of the science fairs from companies like Intel of siemens, but for most children. Google is the most familiar company of the three. With the science fair. Google aims to play an even bigger role in their lives by encouraging young scientists to experiment – and to use Google products while they re at it.

The goal, Google said, is for students to be able to enter even if they live too far from a science fair or their schools lack the resources to travel the most prestigious fairs. Monday is the last day for science – minded teenagers to enter the competition. Google winners will receive a trip to Google's research lab in Zurich, a trip to the Galapagos with National Geographic" [New York Times. April 4, 2011].

Göründüyü kimi qəzet materialından götürülmüş bu mətndə informasiya həm də məlumat xarakteri daşıyır. Aydın olduğu kimi burada ilk növbədə "Google" şirkətinin yeniyetmələr arasında apardığı müsabiqədən bəhs olunur və eyni zamanda da məlumat verilir ki, adı çəkilən bu şirkətin məqsədi gənc tədqiqatçıları həvəsləndirmək işində mühüm addımlar atmaqdır.

İnformativlik kateqoriyası haqqında dilçilərin fikirləri də müxtəlifdir. H.Viddovson belə hesab edir ki, "əgər oxucu yaxud qəbuledici mətndəki dekodlaşmanı, informasiyanı şərh edə bilməsə, onda həmin mətn özlüyündə yalnız işarələr yığını olar" [5, s.9]. Buradan da belə aydın olur ki, mətnin mənasının anlanılmasında informativlik kateqoriyası mühüm rol oynayır. Lakin müxtəlif tip mətnlərdə informasiya fərqli şəkildə verilə bilər.

Bədii mətnlərdə isə informasiyanın verilməsi başqa cür həyata keçirilir. Bunu daha da aydınlaşdırmaq üçün belə bir nümunəyə nəzər salaq:

Dating Back to 2700 BC, it become fashionable when Portuguese Princess Catherine of Braganza married Charles II and brought the practice of drinking tea

in the afternoon to England. Over the years, afternoon tea become a custom of iconic figures from Mozart, Charles Dickens, to Alice in Wonderland and the Queen. Of course, tea is very useful for our health and it is known to have a substantial dose of antioxidants. A cup of tea is a better choice for your afternoon caffeine pick-me-up than a sugary soda. [9]

Hər şeydən burada o diqqəti çəkir ki, bu nümunə abzasda verilmişdir. Mətndəki fərqli fikirləri ayrı-ayrı abzaslarda verməmək üçün kontinuum köməyə çatır. Əks halda bütün hekayə öz bədii-estetik xüsusiyyətlərini itirərdi. Bu zaman bu kiçik mətn yalnız informasiya, məlumat yığınına çevrilərdi.

Buradan da aydın olur ki, mətnin kateqoriyaları bir-birilə əlaqəli olduğundan, bu nümunədə də informativlik kateqoriyası ilə kontinuum kateqoriyasının əlaqəsi açıq-aydın görünür. Mətndə verilən informasiyanın öz dəyərini saxlaması, sadəcə məlumat yığınına çevrilməməsi işində kontinuum köməyə çatır.

Mətndəki məzmun-konseptual informasiya hər kəs tərəfindən adekvat olaraq qəbul edilir. Bəzi hallarda isə bədii mətnin anlanılması yalnız faktiki informasiyaya əsaslanır, konseptual informasiya isə oxucu üçün qaranlıq qalır.

Bu hal çox zaman onda baş verir ki, oxucunun verilmiş nümunə haqqında kifayət qədər fon biliyi olmur. Amma kifayət qədər təcrübəli oxucular mətndəki mətnaltı informasiyanın verilməsində asılı olmayaraq, onlar mətndəki konseptuallığı qavraya bilirlər.

Qeyd olunanlardan da göründüyü kimi mətndəki "konseptuallıq" termini adı altında yeni informasiyanın anlanılması başa düşülür və bu informasiya dərhal deyil, tədricən mətnlə tanış olduqdan sonra üzə çıxır.

Mətnin özlüyündə məzmun ifadə edən hissələri konseptual informasiyanın açılmasında mühüm rol oynayır.

Əgər mətni aktual üzvlərə bölsək, onun ayrı-ayrı hissələri tema və rema əlaqəsində ola bilərlər. Bu da mətndəki informasiyanı vasitəli şəkildə qavramağa şərait yarada bilər və bu da öz növbəsində mətndəki fakt və hadisələrə yeni aspektdən baxmağa şərait yaradır.

Qeyd etmək lazımdır ki, mətndə predikativliyin mühüm rol oynamasına baxmayaraq, bu özü də informasiyanı tam şəkildə ötürə bilməz. Bəzi hallarda isə predikativ epitet cümlənin əsas mənasını implisit olaraq gizlədir və bu da öz növbəsində mətndəki konseptual informasiyanın dekodlaşmasına xidmət edir.

Aydındır ki, özlüyündə nə morfem, nə söz, nə də söz birləşmələri informasiya daşımırlar. Amma bunların da xüsusi informativlikləri, informasiya daşıyıcısı olmaq xüsusiyyətləri vardır. Bunu cümlə haqqında da demək mümkündür. Cümlələr hər hansı fikrin ötürülməsində informasiya daşıyıcısı ola bilərlər

Beləliklə, verilən fikri yekunlaşdıraraq demək mümkündür ki, mətnin məzmununda bitmişlik onun informativliyi vasitəsilə əldə olunur. Əlbəttə ki, burada mətn dilçiliyindən söhbət gedir. Amma qəzet mətnlərində isə hətta bir cümlə də ayrılıqda informasiya daşıya bilər və bu da çox zaman məlumat adlanır. Məsələn:

On Wednesday, President Obama called on Americans to "expand our moral imaginations, to listen to each other carefully, to sharpen our instincts for empathy, and remind ourselves of all the ways our hopes and dreams are bound together" [New York Times, January 13, 2011].

Nümunədən də göründüyü kimi, qəzet mətnindən götürülən bu nümunədə Prezident Obamanın amerikalılara çağırışı əks olunmuşdur və bu çağırış ayrılıqda da informativliyə malik olub, məlumat daşıyır.

Qeyd olunduğu kimi bütün nitq aktları özlüyündə məzmun faktual informasiyanı ehtiva edir, amma konseptual informasiyanı ehtiva etməyə də bilər. Bədii mətnlərdə konseptual informasiya vacib komponentdir. Bundan əlavə, konseptual informasiya müxtəlif cür şərh edilə bilər. Bu zaman isə "mətnaltı" terminindən istifadə olunur. Ən çox mətnaltı məna poetik əsərlərdə özünü göstərir. Burada deyilmiş bir çox şey eyni zamanda da gizli qalır. Bu məqsədlə Robert Frostun "The Road Not Taken" ("Tapdanmamış yol") əsərinə nəzər salmaq mümkündür:

Two roads diverged in a yellow wood,
And sorry I could not travel both.
And be one traveller, long I stood
And looked down as far as I could.
In leaves no step had trodden black,
Oh, I kept the first for another day!
Yet knowing how way, leads on to way,
I doubted if I should ever come back.

Nümunədən göründüyü kimi birinci sətirdə şeirin başlanğıcı verilir. Əgər onu digər sətirlərdən ayırsaq, onda gizli məna ola bilməz, çünki gizli (sətiraltı) məna mətnin kateqoriyasıdır, cümlə kateqoriyası deyildir. Şeirdə verilmiş "qızılı meşədə iki yol ayrılırdı" cümləsində sətiraltı mənanı anlamaq üçün onu digər cümlələrdə birgə təhlil etmək lazımdır. Buradan da aydın olur ki, bu "yol" məcazi yoldur və şair bu yollar arasında durub fikrə dalır və onların hansı ilə getməli olduğunu dəqiqləşdirə bilmir. Burada da "yol" sözü adı altında şairin özü üçün seçdiyi "həyat yolu" nəzərdə tutulur.

Mətn dilçiliyində işlənən informativlik kateqoriyasını daha yaxşı başa düşmək üçün "simvol", "presuppozisiya" və "mətnaltı informasiya" terminlərindən istifadə etmək lazımdır.

Mətnaltı informasiya və presuppozisiya yaxın olsalar da, fərqli anlayışlardır. Mətnaltı informasiya mətndəki cümlələrə aid olur və onun məzmununu təşkil edir. Presuppozisiya isə cümlə hüdudlarından kənara çıxaraq onun düzgün anlanılması üçün şərait yaradır. Göründüyü kimi mətnaltı məna heç də mətnin düzgün başa düşülməsi üçün yaranan bir şərait deyil. Bu tam bir informasiyanı əhatə edərək, oxucunun qabiliyyəti sayəsində mətnə tam, bütöv informasiya mənbəyi kimi baxmağa imkan verir.

Bundan əlavə dilçilikdə daha dərin informasiyanın verilməsi üçün "implikasiya" terminindən istifadə olunur. Bu cümlənin üst strukturunda mövcud olur.

İmplikasiya və mətnaltı məna sinonim sayılır. Lakin məlumdur ki, sinonimlər arasında az da olsa, fərq mövcuddur. İmplikasiya presuppozisiyaya daha yaxındır. Mətnaltı məna isə elə bir anlayışdır ki, yanlış fikir yaradır, presuppozisiya və implikasiya ilə əlaqələnmir.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998ş
2. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010.
3. Martin I.R. English text. System and structure. Philadelphia: John Benjamins, 1992.
4. Stalnaker R.C. "Pragmatic presupposition" in M.Munitz and P.Unger (eds.); Semantics and Philosophy. New York University Press.
5. Widdowson H.G. Discourse Analysis. Oxford University Press, 2007.
6. Гальперин И.Р. Информативность единиц языка. Москва, 1974.
7. Москольская О.И. Грамматика текста. М.: Высшая школа, 1981.
8. www.discourse-analysis.com
9. www.the_nytimes.com

T. Gurbanova

Informativeness as the category of a text

Summary

This article deals with the problem that not only sentences, but also texts can be informative.Sentences can be the source of the information in the text.While receiving the information ,the main things are its value and being new.When we speak about information in the text,first of all,we should take into consideration different styles of the texts.It is necessary to mention that the information which is given in the text is usually related with its name.

T. Курбанова

Информативность как категория текста

Резюме

Информация находит свою силу не в отделъно взятых предложениях, а в текстах.Именно единство предложений может превратиться в источник информации для речевой деятельности.В приеме информации главное заключается в новшестве информации и его оценивание.Во время просмотра информационного текста ,как грамматическую категорию, надо учесть различные типы текстов.

Rəyçi: dos. L.M.Cəfərova

СВЕТЛАНА ГУРБАНОВА
преподаватель кафедры Славянская филология
Бакинского Славянского Университета
e-mail: anar812@mail.ru

ПРЯМЫЕ И ПЕРЕНОСНЫЕ ЗНАЧЕНИЯ НЕКОТОРЫХ ЧЕШСКИХ И АЗЕРБАЙДЖАНСКИХ ОБРЯДОВЫХ ЛЕКСИЧЕСКИХ ЕДИНИЦ КОНФЕССИОНАЛЬНОЙ СФЕРЫ

Açar sözlər*:* dini leksika, çex dili, Azərbaycan dili, həqiqi məna, məcazi məna, mərasim leksikası, leksikada sistem əlaqələr

Ключевые слова: конфессиональная лексика, чешский язык, азербайджанский язык, прямое значение, переносное значение, обрядовая лексика, системные отношения в лексике

Keywords: faith-based vocabulary, Czech language, Azerbaijani language, the direct meaning, figurative meaning, ritual vocabulary, systemic relations in the lexicon.

Общепринято, что словарный состав любого языка является наиболее открытой, проницаемой и подвижной системой. Все значительные события, происходящие в жизни народа, говорящего на том или ином языке, в той или иной сфере получают в нем свое отражение. Так, принятие в конце IX века христианства в Чехии и в VII веке ислама в Азербайджане положило начало формированию в языках стран, представляющих эти религии, богатой терминологической лексики конфессиональной сферы. Отсюда и наш интерес к объекту анализа в рамках данной статье, коим является чешская и азербайджанская конфессиональная обрядовая лексика в аспекте соотношения ее основных и иных переносных значений. Наименования понятий конфессиональной сферы в обозначенных языках будут характеризоваться нами в лексико-семантическом аспекте. Интерес к обозначенной лексике объясняется еще и тем, что она является неотъемлемым компонентом человеческой истории, формой сохранения и передачи опыта, накопленного предшествующими поколениями.

В силу нашего научного интереса мы намеренно ограничиваем объем исследования лексиконом двух религий: ислама, который исповедуют азербайджанцы, и христианства в его католической ветви, который исповедуют чехи. При этом мы понимаем, что привлекаемые нами к анализу лексические единицы, ислама и христианства практически несопоставимы. Действительно, наблюдение над лексикой близкородственных языков позволяет обнаружить тончайшие нюансы смысла их языковых единиц. В случае же, если следует обратить внимание на специфику того или иного лингвокультурного явления, то оправдано привлечение данных из языков другой семьи, относящихся к системе других конфессиональных ценностей. При этом следует помнить, что в них различны понятия, обозначающие религиозные начала и понятия, противоречащие религиозным началам, канонам, истинам; наименования предметов культа, богослужений, религиозных обрядов, верховных божеств,

всевышнего творца, предметов утвари в храмах этих религий, религиозных праздников, книг религиозного содержания, а также именования священнослужителей.

Все эти понятия в той или иной мере представлены в быте, обычаях, традициях, обрядах обозначенных народов. Найти эти наименования можно во всех циклах, сопровождающих человека по жизни. Конфессиональная лексика представлена в обрядах рождения, приобщения к религии (крещение у чехов, и молитва у мусульман), в свадебном и похоронном обрядах.

В рамках данной статьи мы будем рассматривать эту лексику в комплексном анализе лексики мусульманства и христианства как составной части словарного исследуемых языков. Мы обозначим отдельные тематические группы лексики, укажем на системные и лексико-семантические отношения в лексике двух концессий, привлечем лексикографический материал двух языков для выявления наличия-отсутствия переносных светских значений лексических единиц конфессиональной лексики.

Конфессиональная лексика в большей степени обозначает явления духовной культуры того или иного народа. Однако в силу высокой употребительности наименований предметов религиозной утвари и быта эта лексика имеет непосредственное отношение и к материальной культуре этноса. В.А.Маслова считает, что: «Большая часть информации о мире приходит к человеку по лингвистическому каналу, поэтому человек живет более в мире концептов, созданных им же для интеллектуальных, духовных, социальных потребностей, чем в мире предметов и вещей» (1, с.4).

В рамках данной статьи мы будем исследовать конфессиональную лексику в лингвокультурологическом аспекте, т.е. в аспекте проявления культуры народа, отразившейся и закрепившейся в его языке. В этом контексте было бы уместно упомянуть мысль В.Гумбольдта о том, что границы языка нации равнозначны границам его мировоззрения. Справедливость этого высказывания в том, что язык не только отражает реальность, но интерпретирует ее, создавая особую реальность, в которой живет человек. А поскольку человеческий интеллект, как и сам человек, немыслим вне языка и языковой способности к порождению и восприятию речи, то налицо и антропологическая составляющая нашего исследования. Для современной лингвистики актуально понимание лингвокультурологии как продукта антропоцентрической парадигмы. А религия – это именно та система ценностей, в которой зародились и сконцентрировались основы человеческой культуры. Категории религии отражают специфику существующей системы ценностей и задают образцы социального поведения и восприятия мира. Н.Б Мечковская считает, что религия – это своеобразная система координат, которая формирует языковую личность в данной сфере человеческой жизни (2).

Системность религиозной лексики исследовалась А. К.Моросо-Флорес. Лингвист пишет: «…религиозная лексика относится к той части словаря, которая с полным правом может расцениваться как памятник культуры народа. Она представляет собой целостную взаимосвязанную систему понятий конфессиональной сферы» (3, с.199). Проявление этой системности является

наличие определенных множеств как неких целостных образований, которые можно выделить из остального множества элементов лексики языка. Современные лингвисты дают разную семантическую классификацию религиозной лексики. Так, Г.Н. Скляревская выделяет основные понятия вероисповедания; единицы, относящиеся к лексике конфессиональной морали; названия религиозных таинств; наименования небесной иерархии; наименования иерархов религиозных служителей; элементы религиозного календаря; формы, элементы и предметы богослужения, части храма; имена деятелей религии, а также названия лиц, выделяемых по каким-либо качествам, одобряемым или порицаемым той или иной конфессией (4). В статье мы будем придерживаться классификации этого ученого и рассмотрим часть лексики перечисленных типов. Материалом для анализа послужат толковые словари современного азербайджанского и чешского языков (5-7)

Анализ лексических единиц конфессиональной сферы позволил наблюдать у этих слов развившиеся в литературном языке переносные значения. Это, в свою очередь, свидетельствует в пользу детерминологизациииисследуемой лексики. Так, лексемы названного пласта на протяжении десятилетий развивали в себе светскую тематику, пополняя тем самым фонд общелитературного как чешского, так и азербайджанского языка. Причины переносно-образного осмысления слов культово-обрядового происхождения сложны и различны. Процесс представлял собой путь от способности человеческого сознания абстрагироваться, сопоставлять явления, понятия, предметы, относящиеся к области религиозного культа и общественной жизни, до открыто критических убеждений негативного отношения к вероучению. В результате рассматриваемые нами лексические единицы подверглись семантическим сдвигам и переносам наименовании, вышла за пределы религиозных контекстов и получила фигуральное осмысление. Например: ***angěl*** 1. nadpřirozená okřídelná bytost zprostředkující styk mezi bohem a lidmi: a. strážný: padlí a-é dáblové: míru, lásky, smrti 2. expr. ušlechtilý člověk. (c. 19) − «*mələk*» (1.сверхъестественное промежуточное существо-союз между Богом и человеком, сторожила от напастией дьвола; приносящий мир, любовь, смерть; 2. Благородный человек); ***apoštol*** hlasatel, šiřitel: míru, poktoku: a-á církev: – a-é poslání (c.20) − «*apostol* 1. həvariyun, əshabə (İsanın əfsanəvi 12 həvariyunundan biri) − (1. один из 12 учеников Христа; 2. диктор, оратор, церковный посланник); ***duch*** 1. pomyslná netělesná bytost: božská osoba: výrazná osobnost 2. schopnosti, nadání: statečnost, odhava (c.72) − «*ruh, can*» (1. мнимое нефизическое лицо, третье божественное лицо 2. сильная в личности имеющая навыки, талант, храбрость); ***svatyně*** «posvátné místo k náb, kostel, kaple, chram: pohanská, křestanská) (c.424) − «*müqəddəs şey/yer, ziyarətgah*» (священное место, храм, часовня, как христианское, так и языческое). У ряда слов произошли сдвиги значений, например: ***opuštěný*** (c.249) − *«dönük, cəmiyyətdən qovulmuş adam*» (одинокий старик, отчужденный от общества); ***strašák*** panák z hadrů k plašení ptáků, hastroš 1. bubák 1 polní v zelí 2. strašení, hrozba, výhrůzka) (c.416) − *«qorxuluq/vahimə doğuran şey, dəhşət doğuran şey»* (1.поставить чучело, пугало для птиц; 2. угроза) и др.

Как правило переносные значения у лексем конфессиональной области развиваются из узкоспециальных значений путём. Это могут быть образные метафорические трансформации на основе внешних (сходство по внешнему виду, например: ***cherubín*** anděl druhý v pořadí po serafinovi (c.10) − *«baş məlaikə»* (ангел, занимающий второе место после Серафима); ***madona*** obray n. Socha Pannz Marie gptická m. (c.170) − *«madonna* (1. qədim İtaliyada: qadına xanım mənasında müraciət; 2. katoliklərdə: Məryəm; 3. Məryəmin şəkli)» (картина или статуя святой Марии)*;* ***exkomunikace*** (c.80) − *«qovma, uzaqlaşdırma, qovulma, uzaqlaşdırılma»* (отлучение); ***požehnání*** 1. příznivá situace, štěstí 2. prospěch jako projev boží přízně továrna je p-m pro celý kraj přináší prospěch, přát hodně božího p. 2. přání těchto příznivých okolností, popř. S udělením souhlasu, zvl. k svatbě, v křest. provázené znamením kříže, rodičů papežské, knežské 3. souhlas s něčím, dát k yahájení práce své, 4. krstší katol. pobožnost, při kt. kněž žehná (c.303) − *«xeyir-dua vermə, xoşbəxtlik arzu etmə; xeyir-dua, uğurlama*» (1. благословение – благоприятная ситуация 2. божья милость 3. согласие родителей для свадьбы 4. согласие священника) ***nahoženský obřad*** − «1. (*dini*) ibadət, dini ayin; 2. *məc. isteh.* təntənə ilə icra etmə (bir işi), dəbdəbə» (священнодействие, акт религиозной церемонии, по которой проводятся свадьба, похороны, крещение, причастие*);* ***Bůh*** Boha nejvyšší bytost, tvůrce všeho, věřit v boha. Otec, Pán, bohové, boži nadpřiroyená bytost uctívaná pro svou moc nad přirodou a lidskými osudy (c.38) − *«Allah, Tanrı»* (высшее существо, творец всего. Отче, над его властью находятся и человек и природа); ***tvůrce*** kdo tvoří člověk je tvůrcem svého osudu strůjcem – filmový t. umělec, pracovník, kolektiv, t. sila umělce tvořivá (c.461) − *«yaradan, yaradıcı»* (создатель, творец судьбы, рабочий, режисер); ***patriarcha*** nejstarší člen, hlava rodiny, rodu, důstojný stařec, kmet, Palacký, p.historiků. hlava církve, p.moskevský, p,církve československé husitské (c.265) − *«patriarx (1. tar.* qəbilə başçısı, tayfa başçısı, qəbilə cəmiyyətinin ən yaxşı üzvü; 2. pravoslav kilsəsi başçısı*)*» (1. старейший член, глава семьи, рода, достойный старик; 2. глава церкви, глава чешской гусутской церкви); ***fanatik*** fanatický člověk, náboženský fanatik (c.81) − *«1. fanatik, təəssübçü, mütəəssib; 2. mövhumatçı.* (фанатичный человек, религиозный фанатик); 1.příslušník staré žid. náb.polit. sekty 2. pokrytec, licoměrník (c.811) − ***farizej*** *«1. tar. farisey* (qədim yəhudi dövlətində və fanatizm və riyakarlığı ilə məşhur dini-siyasi cəmiyətin üzvü); *2. məc*. riyakar, ikiüzlü. (1. старый еврей 2. лицемер); ***přiznání*** (c.341) − «*1. açıq etiraf, etiraf etmə, boynuna alma; 2. tövbə, tövbə etmə (xristian dinində: keşiş qabağında tövbə etmə və keşişin günahları bağışlama mərasimi)*» (признание перед Богом) и др.

У ряда лексем, встречающихся в обрядовой лексике, наблюдается расширение семантического объема слова, например: ***pouť*** 1. putování, cesta 2. putování na posvátné místo. (c.299) − *«1. züvvarlıq, ziyarəti; 2. məc. səyahət*» (1. паломничество, путешествие, прибытие; 2. путешествие к священному месту); ***ráj*** 1. místo, kde žili první lidé: vyhnání Adama a Evy 2. místo posmrtné blaženosti, nebe *(c.349) «cənnət, behişt»* (1. место, где жили первые люди Адам и Ева; 2. место бесконечного блаженства на небе); ***mesiáš*** spasitel, vykupitel (c.177) − *«məsiha (1. yəhudi dininə görə, guya yəhudi xalqını xilas etmək üçün*

zühur edəcək xilaskar; 2. xristianlarda: İsanın ləqəbi; 3. məc. xilaskar, qurtarıcı, nicatverən)» (мессия спаситель, искупитель); ***přikázání*** zákon, mravní p.: desatero božich přikázání (c.334) − *«1. vəsiyyət; 2. dini əmr, ehkam; 3. məc. tapşırıq, tələb, hökm*» (закон, десять Божьих заповедей); ***oběť*** *4. köhn. ianə, sədəqə»* 1. dar božstvu 2. obřad s tím spojený (c.227) − *«1. qurban; qurbanlıq; приносить жертву qurban vermək; 2. məc. fəda, fədakarlıq; он готов на всякие жертвы o, hər cür fədakarlığa hazırdır; 3. tələfat; человеческие жертвы insan tələfatı* (1. жертва божеству 2. обряд, связанный с жертвоприношением) и др.

В силу изменений, происшедших в значении, слова ***apoštol*** hlasatel, šiřitel − «apostol» (апостол), ***sektářský*** příslušník sekty (c.381) − «sektant 1. təriqətçi; 2. məc. sektantlığa mail olan, dəstəbaz» (член секты сектант), ***opuštěný*** odpadlík kdo se zřekl (c.236) − **«**dönük, cəmiyyətdən qovulmuş adam» (отщепенец, человек, отказавшийся от своей веры), получили общественно-политический смысл.

Религиозные значения ряда слов либо архаизировались: ***puštěný*** «dönük, cəmiyyətdən qovulmuş adam» (отщепенец), ***ztělesnění*** dobrota splňuje představu krásy «ifadə, mücəssəmə» (воплощение), hostejnost «laqeydlik, qeydsizlik, etinasızlıq, soyuqluq» (индифферентизм), **vykoupení, *vysvobození, spása*** (c.536) «bağışlanma, günahını təmizləmə, günahı təmizlənmə» (искупление спасение, избавление, погашение), strašák panák z hadrů k plašení ptáků, hastroš 1. bubák 1 polní v zelí 2. strašení, hrozba, výhrůzka «qorxuluq (vahimə doğuran şey, dəhşət doğuran şey)» (жупел), либо отошли на второй план: ***kanov*** «*kanon* (kilsə tərəfindən müqəddəs sayılan kitablar, dini bayramlarda oxunan mahnı) (канон), ***duše*** *«can, ruh»* − (душа, дух), ***svatozář*** v zpodobení boha n. světce zář kolem hlavy n. celé postavy, aureola, gloriola: proslulost, sláva) − «1. halə, şəfəq, parıltı; 2. məc. şan və şərəf» (ореол)

В составе лексико-семантических групп обозначенных языков есть лексемы, развившие самостоятельные переносные значения, например: ***anděl*** «mələk» (ангел), ***Bůh, tvůrce*** «Allah, tanrı» (Бог, творец), ***modla*** **«**büt, sənəm» (кумир, идол), apoštol «apostol» (апостол), ***čarodějnice*** kdo děla čáry (c.46) − «1. küpəgirən qarı, cadugər qarı; əcinnə; 2. kaftar (söyüş)» (ведьма, занимающаяся магией), ráj «cənnət, behişt» (рай), ***ráj*** «ədəm; cənnət, behişt» (эдем),***přiznání*** «1. açıq etiraf, etiraf etmə, boynuna alma; 2. tövbə, tövbə etmə» (исповедь, святыня) и др. Часть из рассмотренных лексических единиц имеет и переносные оттенки значения, например: ***Bůh*** «Allah» (Бог), ***madonna*** «madonna» (мадонна), ***peklo*** «cəhənnəm» (ад), ***mesiáš pasitel*** «məsiha» (мессия), ***démon,*** *zlý duch* (c.56) «iblis, şeytan» (демон, злой дух) и др. Большинство из них сохраняет в своей семантике метафоричность, придающую высказыванию образный характер.

Для данного круга слов характерно стилистическое употребление. Это, во-первых, лексемы, характерные книжной речи: ***tvůrce*** «yaradan, yaradıcı» (творец), ***patriarcha*** «patriarx» (патриарх), ***ráj*** «ədəm; cənnət, behişt» (рай. эдем), ***předchůdce*** «sələf» предтеча, ***mesiáš, pasitel*** «məsiha» (мессия), ***přikázání zákon*** «vəsiyyət; 2. dini əmr, ehkam» (заповедь) и др., а также разговорной речи и просторечию, например: ***kacířství*** **«**1. büdət, küfr; 2.

cəfəngiyat, hədyan» (ересъ), ***besovka*** «dalaşqan, davakar, söyüşkən qadın (qız)» (бесовка), ***nezbeda člověk, rozpustilec*** «şeytan balası, balaca şeytan; şeytan (nadinc, şuluqçu, dəcəl mənasında)» (дьяволёнок), uličník modla «büt, heykəl» (истукан). Негативную оценку имеют слова, обозначающие в религии злых духов или других отступников от религиозной веры. В приведенных случаях прослеживается влияние первичных, культовых значений. В связи с развившейся переносностью значения в семантике ряда слов отмечаются добавочные эмоционально-экспрессивные оттенки шутливого, а порой и иронического характера, например: ***náboženský obřad*** «1. *(dini)* ibadət, dini ayin; 2. *məc. isteh.* təntənə ilə icra etmə (bir işi) dəbdəbə» (священнодействие), ***evangelium*** «incil» (евангелие) и др. Встречаются и грубые, бранные употребления. Речь о вышеуказанных ***modla, čarodějnice, d'ábel, besovka, nezbeda člověk*** и др.

Системность конфессиональной лексики проявляет себя и в синонимических отношениях между единицами, составляющими эту систему. В динамике синонимических рядов действует семасиологическая закономерность целесообразности выбора языковых единиц. Так, фигуральные значения наблюдаются у знакомых нам слов ***modla*** в знач. «кумир, идол, истукан», ***nezbeda člověk*** − «дьяволёнок, чертёнок», *chrám* — «храм, святилище» и др. В исследуемой конфессиональной терминосистеме, являющейся частью обрядовой лексики, представлена и антонимия, например: ***peklo − ráj*** «cəhənnəm − cənnət» (ад − рай), ***duše − tělo*** «run − bədən» (душа − тело) и др.

Переносность значения проявляет себя и во фразеологии, которую сегодня отличает интерес к национально-культурной специфике ее единиц *(8.9)*. Часть слов рассматриваемого лексического пласта в переносном значении со стёртой религиозной семантикой функционирует в составе устойчивых фразеологических единиц, например: ***proboha*** «allah xatirinə, sən (siz) allah» (ради бога); ***vytvořit modlu*** «pərəstiş etmək, sitayiş etmək, tapınmaq»- (создать кумира создать идола), ***obětovat*** «qurban vermək, fəda etmək» (принести в жертву, пожертвовать), ***ve stejném smyslu*** «eyni qaydada» (в том же духе, в том же смысле), ***jen stěží*** «güclə, güc-bəla ilə» (с грехом пополам), ***kadidlo ztuhlá*** *pryskyřice užív. k vykuřování pří náb.obřadech* «yaltaqlanmaq, yaltaqlıqla tərifləmək, mədh etmək, mədhnamə oxumaq» (курить фимиам) и др. Таким образом, отражение полисемии в синонимии, антонимии, фразеологии конфессиональной обрядовой лексике представляет собой яркое проявление логико-познавательных процессов, способствующих изменению семантического объема лексем. Человек выделял в предметах, явлениях, понятиях религиозного культа и общественной жизни сходные, однородные или противоположные свойства, качества, связи и на основе такой общности обозначал новое имеющимся в употреблении словом.

Проведенный выше анализ чешской и азербайджанской конфессиональной лексики как составной части обрядовой лексики этих народов, можно обобщить в следующих положениях. Конфессиональные лексические единицы обоих языков представляют собой системы, единицы которых активно вступают в лексико-семантические отношения. В них представлены такие парадигматические связи как: синонимия, антонимия, полисемия. Им

свойственны: развитие переносных значений и переносных оттенков значений, экспрессивность, информативность, точности наименования и др. В подавляющем большинстве случаев новые значения в них – это результат метафорического переноса. Наблюдается употребление данного лексического пласта в переносном значении в составе устойчивых фразеологических единиц со стёртой религиозной семантикой. Словари фиксируют их четкую привязанность к определенным языковым стилям.

Литература

1. *Маслова В.А*. Лингвокультурология: Учеб. пособие для студ. высш. учеб, заведений М.: Издательский центр «Академия», 2001, 208с.

2. *Мечковская Н.Б.* Язык и религия. Лекции по филологии и истории религий. М.: ФАИР, 1998. 352 с.

3. Моросо-Флорес А.К. К вопросу о семантической классификации религиозной лексики французского языка [Текст] / Моросо-А. К. Флорес // Молодой ученый, 2012, №5, с. 299-303.

4. Скляревская Г.Н. Словарь православной церковной культуры. – М.: АСТ: Астрель, 2008, 480 с.

5.*Slovník spisovné češtiny. Academia Praha 2010*

6. www.webtran.ru/translate/czech

7. *Polyglot* електронный русско-азербайджанский, азербайджанско-русский йсловарь

8. Высочина Е. Метаморфозы мифологизаций (обзор) // Культура в современном мире: Опыт, проблемы, решения. Вып. 2, М., 1990.

9. Добровольский Д. О. Национально-культурная специфика во фразеологии // Вопросы языкознания. – 1997. – № 6.

Svetlana Gurbanova

Direct and figurative meanings of some Czech and Azerbaijani ritualistic lexical units of the confessional sphere

Summary

In the article the first time in Azerbaijan selected and considered as a separate object of study Czech and Azerbaijani confessional vocabulary, which is part of the ritual vocabulary of these peoples.

Performing of semantic analysis has allowed asserting that mentioned lexical layer is a system within designated lexical systems of general literary languages.

Qurbanova Svetlana

Çex və Azərbaycan dini mərasim sahəsinə aid bəzi leksik vahidlərin həqiqi və məcazi mənaları

Xülasə

Məqalədə Azərbaycan slavistikasında ilk dəfə olaraq müstəqil obyekt qismində tədqiqata çex və Azərbaycan dini mərasim sahəyəsinə aid leksik vahidlərin həqiqi və məcazi mənaları cəlb edilib. Aparılmış semantik təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, lersikanin həmin sahəsi bu dillərin leksik tərkibində xüsusi sistem təşkil edir.

Rəyçi: Elçin Mehrəliyev
Bakı Slavyan Universitetinin professoru

AYNURƏ BAĞIROVA
AMİ-nin Sumqayıt filialı
Aynure84@box.az

İSA HÜSEYNOVUN ƏSƏRLƏRİNDƏ LƏQƏBLƏR

Açar sözlər*:* onomastika, İsa Hüseynov, ləqəblər
Ключевые слова: ономастика, Иса Гусейнов, псевдоним
The key words: onomastica, Isa Huseynov, nickname

Real həyatda ləqəblər şəxsin müəyyən bir əlamət və keyfiyyəti ilə əlaqədar olaraq meydana gəlir və yayılır. Bu zaman ləqəbin yaranmasında şəxsin özü günahkar olur. Həmin şəxsin günahını görən isə onu müvafiq sözlərlə ifadə edir. Bu ləqəblər şəxslə ya həqiqi, ya da məcazi şəkildə əlaqədə olur və onu müxtəlif cəhətdən xarakterizə edir. Bədii ədəbiyyatda isə ləqəblərin əmələ gəlməsində bu vəzifələri yazıçı məqsədindən asılı olaraq özü həyata keçirir. Sənətkar ləqəb verəcəyi obrazın hər hansı bir xüsusiyyətini özü müəyyənləşdirir və ona müvafiq söz tapır. Belə sənətkarlardan biri də Azərbaycan ədəbiyyatında özünəməxsus yaradıcılıq üslubu olan İsa Hüseynovdur. Sənətkarın əsərlərindəki ləqəblər obrazın xarakter xüsusiyyətlərinin və əsərin əsas ideyasının asan başa düşülməsinə kömək edir.

İsa Hüseynovun əsərlərindəki ləqəbləri üç prinsip əsasında təsnif etmək olar:

1. Ləqəblərin funksiya və məna xüsusiyyətlərinə görə təsnifi

Sənətkarın əsərlərindəki ləqəbləri funksiya və məna xüsusiyyətlərinə görə iki qrupa ayırmaq olar: səciyyələndirici ləqəblər; təsviri ləqəblər.

Səciyyələndirici ləqəblər obrazı həm mənfi, həm də müsbət cəhətdən xarakterizə edir. Obrazın mənfi xüsusiyyətləri ilə əlaqədar olan ləqəblər İ.Hüseynovun əsərlərində çoxluq təşkil edir. Sənətkar bu ləqəblərdən personajların mənfi cəhətlərini, qeyri-insani, mənfur keyfiyyətlərini ifşa etmək, damğalamaq üçün ən güclü vasitə kimi istifadə etmişdir. Onun "Kollu Koxa əsərində bunu aydın görmək olar. Dingə Dəmir – "Dəmir kişinin anası Xallı arvad oğlunu molla yanına aparır ki, həkimin dərmanı güc eləmir, oğlumun dərdinə çarə elə. Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına, baxıb gülsünlər, bədnəzər sovuşub getsin..." [1, s.397].

Həmçinin müəllif əsərdə Xain Xıdır, Çənə Bağır, Tülkü Nəsib, Bic Bəbir ləqəbləri ilə də surətlərin mənfi cəhətlərini açıb göstərir. Belə ki, Məhərrəm Hüseynov "Kollu Koxa" əsəri haqqında yazır:"Kollu Koxa onu əhatə edən insanlara daha doğrusu onunla birlikdə çalışan, ünsiyyətdə olan adamlara ləqəb verməklə bəzi məsul işçiləri təşvişə salır, çünki bu ləqəblər onların mövcud şəxsi ləyaqətlərini, ən çox da qüsurlu, nöqsanlı cəhətlərini incəliklərinə qədər ifadə edir. Kollu Koxanın bu hərəkəti ləqəb verdiklərini təkamül etməyə, özlərini yenidən qurmağa məcbur edir.

O, ətrafdakılara daxili təsir göstərməklə, onları düşünməyə, özlərini yenidən, tənqidi surətdə dərk etməyə vadar edir. Adi suçu böyük nüfuza malik olanlara da gülür, bu gülüş vasitəsilə onların islahına səbəb olacağını düşünür" [2, s.36-37].

Sənətkarın yaradıcılığında obrazı müsbət cəhətdən qiymətləndirən ləqəblər kəmiyyətcə azlıq təşkil edir. Belə ki, yazıçının "İdeal" romanındakı obrazlardan biri də Xızır Abıdır. Bildiyimiz kimi, Xızır Azərbaycan folklorunda dar ayaqda olan

qəhrəmanlara kömək edən bir mifik obraz kimi məşhurdur. ”Xızır” ləqəbini alan hər bir şəxsdə Xızrın müəyyən əlamət və keyfiyyətlərini əks etdirən cəhətlər olmalıdır. Müəllif Abı obrazına “Xızır” ləqəbini verməsi haqqında yazır: “Guya Xızr Abıya ona görə Xızr deyirlər ki, elə əslində də Xızrdır. Çöldə uşaqlar ötəşə durub yüyürüşəndə birinin ürəyi gedibmiş, su axtarırmışlar, tapammırmışlar. Abı çəliyini yerə dirəyib nəsə eləyir, çəliyini dirədiyi yerdən su fişqırıb. Qılınc Qurban eşidib, atını səyirdib gedib soruşub ki, “Bu nə maşenniklikdi eləyirsən, a kişi?” Abı deyib: “Yerin altını görürəm mən”. Qılınc Qurban bərk gülüb, əlini pencəyinin sağ cibinə salıb deyib: “Yerə dəymə, de görüm mənim bu sağ cibimdə nə var?” Abı deyib: “Beş dənə beşaçılan gülləsi var orda. Təsbeh əvəzinə, oynadırsan cibində”. Qılınc Qurban dəli kimi olub, soruşub ki, “Bəlkə mənim bu şapqamın altını da görürsən?” Abı deyib: “Elə orda da beş güllə var. Gündüzlər gözünü yumanda da, gecələr gözünü açanda da o beynindəki güllələri görürsən. Qudalıların beş kişisinin hərəsinə bir güllə atmaq istəyirsən” [3, s.133].

Bu nümunədə göstərilən “Xızr Abı” antroponimik birləşməsindəki ləqəb xüsusi addan (əfsanəvi peyğəmbər adından) yaranmışdır və obrazı çox düzgün xarakterizə edir.

Təsviri ləqəblər. Onlar real şəkildə surətin xarici görünüşü, temperamenti, xarakteri, peşə və məşğuliyyəti, anadan olduğu yeri və s. bildirir. Məsələn: “ İş o yerə çatmışdı ki, əmisinin şoferi - “quşburun Müslüm” “Bircə bala”ya ilk bahar nemətləri - “təzə, duzsuz pendir”, “nehrə yağı” aparıb yataqxanada Səmədin sifətini görəndə qorxuya düşdü” [3, s.25]; “Hacının, necə deyərlər, dünyadan xəbəri yoxdur: onun istədiyi qız, - “Məhər” və ya “Çekist Məhərrəm” deyilən məşhur bir adamın Orta kənd Tahirlidə olan böyük bacısı Pəri çoxdan alışıb-verişib” [1, s.16]; “ Alverçi Xeyrənin paslı dəhrəsinə ötəri baxıb, gündüzlər nəvələrinin oynadıqları küncə fırlandı, orda divardan asılı qoltuq ağacını götürüb qayıtdı” [1, s.11]; “ Naxırçı Hətəmin üz-gözü əyiş-üyüş olub, özü də zarıyır” [4, s.17] və s.

2.Ləqəblərin bir və ya bir neçə şəxsə aid olmasına görə təsnifi

Ləqəblər bir şəxsə aid olduğu kimi, bir neçə şəxsə, hətta ayrılıqda götürülmüş, bir ailəyə, məhəlləyə, kəndə, xalqa da aid ola bilir. İ.Hüseynovun əsərlərindəki ləqəbləri bu xüsusiyyətlərinə görə də iki qrupa ayırmaq olar: fərdi ləqəblər; kollektiv ləqəblər.

Fərdi ləqəblər ayrılıqda götürülmüş bir şəxsə aid olur və onu müxtəlif cəhətdən səciyyələndirir. Canlı danışıq dilində, folklor nümunələrində və bədii ədəbiyyatda, o cümlədən İ.Hüseynovun əsərlərində də fərdi ləqəblərə daha çox rast gəlinir: “Lap uşaqlıqdan başlayıb, hələ də davam edən bu cür dəliqanlılığına görə Qudalı cavanları ona “Dəli Səməd” deyirdilər” [3, s.9]; “Molla müəllimin oğlu Ramazana “Sıpa Ramazan” deyirdilər” [1, s.215]; “İndiyə qədər Qaracalarda bir kəsə güldən ağır bir kəlmə deməyən sakit, işgüzar Cavanşir - Cəfalı Cavanşir yoxa çıxmışdı” [1, s.399]; “Qorxaq tülkü Ehsan nə özü qapımızı açır, nə də oğlunu qoyur gəlsin” [4, s.22]; “Bizim bir Yekədiz Məcidimiz vardı. Dizləri elə yekə idi ki, baxanda elə bilirdin şalvarın altında hər dizinə bir yekə daş bağlayıb” [4, s.384]; “Meşəbəyi Mirqasım yəhərdə çəpəki oturub, papağının dalını qaldırıb mahnı oxuyurdu” [4, s.322]; “Öz məlahətli səsilə Sərkərlilərin könlünü oxşayan bir gəncin-arabaçı Qaranın elə bil birdən-birə səsi batmışdı” [4, s.163] və s.

Afat Qurbanov fərdi ləqəblər haqqında qeyd edir: "Fərdi ləqəblər dəyişə bilir. Məlumdur ki, adamın bir ləqəbi olur. Lakin onun xarakteri, fəaliyyəti dəyişdiyinə görə iki və hətta üç ləqəbi də ola bilər" [5, s.229]. Həmçinin "Azərbaycan dilinin onomastikası" kitabında yazılır: "Ləqəbdə şəxsin bir növ həyat məramnaməsi öz ifadəsini tapır. Lakin həyat özü sabit olmadığı kimi şəxsin qanacağı(şüur), həyat məramnaməsi də dəyişməz qalmır, inkişaf edir. Bu isə yaradıcı şəxsiyyətin öz ləqəbini tənqidi şəkildə nəzərdən keçirməsinə, onu yeni şəraitə uyğun olaraq dəyişdirməsinə əsas verə bilər" [6, s.6]. İsa Hüseynovun əsərlərində belə ləqəblər üstünlük təşkil edir: "Əmma çarın cahilləri yenə qırğın salıblar, hambal Məmmədəli özüynən o taydan rus gətirib Səttar xanı vurdurub"[3, s.131], " Oturub, ətraflı danışıblar ki, "o quru sümük ələngə hambal-Fağır Məmmədəli casus çıxıb" [3, s.130], "Yağır Məmmədəli – Səbətnən alma, qax daşımaqdan çiyinləri açılıbmış, beli yağır olubmuş" [3, s.245]; "Sədr Mədəd katib qardaşından yaşca böyük-ağsaqqal sayılsa da, dərhal əl-ayağa düşərdi, ya neft tapıb lampanı yandırardı, ya da ocaq qalayardı ki, "doğrudan da heç olmasa gecələr bir-birimizin üzünü görək" [3, s.19], "Vaxtilə Suranı o taydan-Təbrizdən gətirib özünə toy eləyəndə "Bedkom" Mədəd öz halal dədə-baba malından bir axça Çürük Aşığa, bir axça da Xızr Abıya" [3, s.120]; "Öz yanında Zırpı deyirlər. Zırpı Şöşü, "Dəli Şöşü" [1, s.246], "Şüşəlinin çayxana küncündə, "pyanska Şöşü" ilə "pyanska şairlər"in arasında, tüstü-duman içində çalıb-oxuyub "beşdən-üçdən alan beşmanatlıq aşıqlar"dan başqa, o küncdə üç bədbəxt məskən saldı: şan-şöhrətli Əmirli nəslinin son beşiyi Dəli Mədəd, Çürük Açıq, Xızr Abı"[3, s.451]; "Ruqiyyəyə hamı "şikəst qız", "əyriçiyin" deyir, tək Şöşü "Gözəl Ruqiyyə" deyir" [1, s.246]; "Arazın o tayına ayaq açıb, ordan hər dəfə bir at yükü kişmişlə qayıdan Çax-Çux Xalıqın Qonaqlıdakı həyəti bütün həyətlərdən yığnaqlı olmuşdu" [3, s.6], ""Ekspeditor" Xalıqın rəsmi "faktura"-malın siyahısı və qiymətləri ilə mal payladığı və qeyri-rəsmi "çax-çux"-alver elədiyi üç para kənddə, o cümlədən burda-Qonaqlıda hamıya məlumdur ki, Arazın bu tayı ilə o tayının, yəni Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın arasında "sərhəddin açıldığı" gündən indiyə qədər-beş il ərzində bu adamın o taya ayaq döyməyi heç də alver üçün deyil…" [3, s.7], "İndi-indi ayılıram, görürəm ki, adi cani deyilsən sən, geroy Xalıq, rəhbərin Mirqəzəb kimi, professional canisən!" [3, s.249]; "Qıllı Qeybalı və "Ataman" deyilən pələpüsür oğlan suyun altında qara camış kimi peyda olub Səmədin ayaqlarından asılanda, Qudalı uşaqları da cin-şəyatin kimi qaynaşa-qaynaşa Yusifin əl-qoluna sarılırdılar [3, s.103], "Lüt Cəfər onu Dantes adlandırıb duelə çağırdığı üçün Qıllı Qeybalı Dantes Qeybalı ilə əvəz olundu" [3] və s.

Kollektiv ləqəblər bir şəxsə deyil, ən azı iki və daha çox şəxsdən ibarət insan qruplarına verilən ləqəblərdir. Bəzi tədqiqatçılar ailə-nəsil ləqəblərini kollektiv ləqəblərə aid edirlər [5, s.220]. Ailə-nəsil ləqəbləri ailənin bir üzvünə aid deyil, bütövlükdə ailə və nəslin bütün üzvlərinə aid olur. Ailə-nəsil adları əsrlər boyu familiya funksiyasını yerinə yetirmişdir. Məhz buna görə də bir çox tədqiqatçılar bunları "familiya ləqəbləri" adlandırırlar. Fərdi ləqəblərə nisbətən bunlar kəmiyyətcə azdır. Fərdi ləqəblər şəxsin özü ilə birlikdə ölüb yox olduğu halda, ailə-nəsil ləqəbləri nəsildən-nəslə keçir və uzun müddət yaşayır.

İsa Hüseynovun əsərlərində elə ailə-nəsil ləqəblərinə rast gəlmək olur ki, onlar nəslin xarakteri, xarici görünüşü, adət və vərdişləri, məşğuliyyəti və s. ilə əlaqədar olur. Eyni zamanda bu ləqəblər fərdi ləqəblərdən fərqli olaraq çox vaxt

cəm şəkilçisi ilə qurtarır. "O Papaqçılar nəslini mən yaxşı tanıyıram. O qızın atası Alının cındırından cin hürkərdi, di gəl ki, ayağını yorğanına görə uzatmazdı. Elə anası Məhbubə də onun kimi…Üzdə baxardın ki, dinməz-söyləməz, fağır adamlardır. İclasa-filana gələndə danışmasaydılar deyərdin bunlardan yazığı yoxdur. Di gə ki, dilləri!... [4, s.69]; "Sən bu sərkərlilərin qışqır-bağırına, hədə-hərbəsinə heç də fikir vermə. Dədə-babadan köçərilik havasilə oturub-duran adamlardır. Məni qınama, sənə bir söz deyim: o adamların dərdi mal-heyvan, var-dövlət dərdi deyil. Özlərinin azarlarına qalırlar ki, vay aman, aranın bu istisində qalsalar halları nə olacaq?" [4, s.168]; "Çopurlar, ümumiyyətlə, nəsilbənəsil, el-obaya yaxşılıq eləyib bundan ruhlanmışlar; Koxa da öz ata-babalarına oxşayıb" [1, s.360]; "Qudalıların Qonaqlılardan, Kərpickəsənlərdən kimi isə üstələdiklərini gördükcə alova bürünürdü" [3, s.316]; "Qonaqlılar, Kərpickəsənlər, Kətyənlilər bu məhləyə yenə də elə "Yetimlər məhləsi" deyirlər, Qudalılar isə - "Xaraba" [3, s.300]; "Bəlkə, əksinə, hər şeyi unudub razılıq eləyirdilər ki, Mayılovlar kimi "arxalı bir nəsildən" olan Kərəm kişi "bacılarını alıb, onları qanadının altına çəkib" [1, s.312].

3. Ləqəblərin şəxslə əlaqəsinə görə təsnifi

Ləqəblər həqiqi və dolayı yolla şəxsin özü və ona yaxın olan şəxslərlə əlaqədar olur. Ləqəblərin şəxslə əlaqəsini müəyyənləşdirmək heç də onun verilmə səbəbini aydınlaşdırmaq demək deyildir. İ.Hüseynovun əsərlərindəki ləqəblər şəxslə əlaqəsinə görə çox müxtəlif və rəngarəngdir.

a) Obrazın xarici görünüşü və fiziki qüsuru ilə əlaqədar olan ləqəblər. Bir çox tədqiqatçılar bu ləqəbləri "portret ləqəblər" adlandırırlar. Bu ləqəbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Obrazın rəngi ilə əlaqədar olanlar: Qara Həmid -" Böyük Həmidin adını qoydular "Qara Həmid. Uzun və qara olduğuna görə belə deyirdilər [1, s.17].

Sarı Həmid – "Kiçik Həmidin adını qoydular "Sarı Həmid" [1, s.17].

Qara – Ucaboy, uzun, ərəb kimi qara oğlan olduğu üçün belə çağırırdılar [4, s.39].

Qara Davud – Müəllif əsərdə ləqəbin verilmə səbəbi haqqında yazır: "El arasında "daraqbatmaz" deyilən bir topa qara saç, yaş kömür kimi işıldayan qara, hündür alın, istehza ilə gülümsəyən azacıq qıyıq gözlər, qartal burnu altında təzəcə dən düşmüş qalın bığ, qalın, bir qədər kobud dodaqlar: Davud, Qara Məryəmin istəklisi Qara Davud [4 ,s.318].

Obrazın köklüyü, arıqlığı və zəifliyi ilə əlaqədar olanlar: "Üzümüzə baxanda vitaminsizlikdən bizdə heç bir əlamət tapmaq olmazdı. Tək bir nəfər-Ruqiyyə deyilənə görə, uşaqlıqda sümük vərəmi keçirmişdi. Qalan səkkiz nəfərin isə, mən də daxil olmaqla, belə demək mümkünsə, hamının yanağından vitamin yağırdı. Ətlicanlı, dolu-kibrid. Mənə, məsələn, "Zırpı Şöşü" deyirdilər. Molla müəllimin oğlu Ramazana "Sıpa Ramazan" deyirdik. Idman müəllimimiz Tapdıq müəllimin böyük qardaşı Dəli Cümrünün saxlayıb böyütdüyü əkiz yetimlərə "Kömbə-Köpüş" deyirdik" [1, s.215]; "Kim isə, yəqin ki, yenə Yekə Cavad qolumdan çəkib kürəyimdən itələdi, məni yıxıb sürüdü" [1, s.263]; "Alça-malça satanların arasından ortası incə, başı balaca, "Qarışqa qarı" deyilən, doğrudan da qarışqaya oxşayan bir ağbirçək çıxdı [3, s.311]; "Qudalıların və ümumiyyətlə, bütün kəndin dilində "Yekə Hənifə" ləqəbi ilə tanınan bu kor-kobud arvadın gözlərində elə bir bulaq qaynarlığı vardı ki, belə yalvarışlı vaxtında bu qaynarlıq daşı da yumşaldırdı" [3, s.70]; "Hələ lap ca-

van, əryən vaxtlarında Bağı ağanın böyük nəvəsi Qədir, eynilə ondakı qızı Bəsdi kimi "Yekəpər" Bəsdi deyilən bir qıza vurulmuşdu [4, s.21] və s.

Obrazın gözəlliyi ilə əlaqədar olanlar: "Ruqiyyəyə hamı "şikəst qız", "əyriçiyin" deyir, tək Şöşü "Gözəl Ruqiyyə" deyir" [1, s.246].

Obrazın üzü, burnu, gözü, qulağı və s. ilə əlaqədar olanlar: " İş o yerə çatmışdı ki, əmisinin şoferi - "quşburun Müslüm" "Bircə bala"ya ilk bahar nemətləri - "təzə, duzsuz pendir", "nehrə yağı" aparıb yataqxanada Səmədin sifətini görəndə qorxuya düşdü" [3, s.25]; "Sürməli Söylü - "Söylü xala gözlərinə sürmə-zad çəkməzdi. Yadımdadır ki, anam gülümsünüb elə bil qibtə ilə deyərdi: "Söylünün gözləri qüdrətdən sürməlidi" [3, s.88]. Əsərdən məlum olur ki, obraza bu "Sürməli" ləqəbini həyat yoldaşı Muxtar verib.

Obrazın əli, qolu, ayağı və s. ilə əlaqədar olanlar: Təkqol direktor Əbdürrəhman – Müəllim sol qolunu müharibədə itirdiyi üçün bəziləri onu "təkqol direktor", bəziləri isə "tarix" adlandırırdı [4, s.314]; Axsaq Hacı – "Ləqəbdən də göründüyü kimi, Hacı axsıyırdı: bir qıçı gödək idi" [1, s.14]; Təkayaq Cəbiş – Əsərdə ləqəbin verilmə səbəbi izah olunmasa da, onun mənası tam aydındır [1, s.393]; Əyri Matvey – Bir ayağı gödək olduğundan əyri yeriyir [4, s.33].

Obrazın boyu ilə əlaqədar olanlar: "Dedilər: cəmi iki imarət var, yoldaş general, biri vergiyığan Nəziroğlunundu, o biri də Gödək Məmməd deyilən köhnə ispalkomundu, qalan hamısı ayıbalasındandı, çaylaq daşındandı" [4, s.343]; "Gülgəzin atası Məmiş Əlləzoğluna "Göbələk Məmiş" deyib qaçışan Qudalı cavanlarını qovardı, əlinə keçənlərin ağız-burunlarının qanını bir-birinə qatardı" [3, s.8]; "İyirminci ildə Qılınc Qurbanın otryadında, bəylərlə vuruşmada kiçik qardaşları, qırx ikinci ildə qırılan diviziyada da oğulları qırılmışdı, beləliklə, Kətyən kişi on ev, on ailə içində tək qalıb, Kətyən İbrahim olmuşdu və idarədən o yanda düzənliyə səpələnmiş yarıuçuq daxmalardan birində, günü divar dibində keçən qocaya çevrilmişdi" [3, s.311].

Obrazın geyimi ilə əlaqədar olan ləqəblər: Torbaşinel - Kərəm Mayılovun şineli əyninə çox böyük, özü isə bədəncə balaca olduğu üçün, Qaradonlu Gülsüm - ərinin ölümündən on il keçməsinə baxmayaraq, həmişə qara geyinərək matəm saxladığı üçün, Dingə Dəmir - "Dəmir kişinin anası Xallı arvad oğlunu molla yanına aparır ki, həkimin dərmanı güc eləmir, oğlumun dərdinə çarə elə. Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına, baxıb gülsünlər, bədnəzər sovuşub getsin..." [1, s.397].

b) Obrazın fiziki və psixi xüsusiyyətləri ilə əlaqədar olan ləqəblər

Obrazın fiziki xüsusiyyətləri ilə əlaqədar olanlar: Lal Rus –" Oğlu laldı. Bunu bilirsən. Gəldi yalvardı, bizə çobanlığa verdi oğlunu – Lal Rusu" [4, s.33].

Obrazın psixi xüsusiyyətləri ilə əlaqədar olanlar: Çənə Bağır – ləqəb obrazın çox və yersiz danışması ilə əlaqədardır; Xain Xıdır – surətin xain olması ilə əlaqədardır; Bic Bəbir – obrazın biclik kimi vərdişi ilə əlaqədardır; Tülkü Nəsib – obrazın hiyləgərliyi ilə əlaqədardır, Qorxaq tülkü Ehsan – burda isə obrazın qorxaqlığı ilə əlaqədardır; Cəfalı Cavanşir – obrazın cəfa çəkməyi ilə əlaqədardır

c) Obrazın milliyəti, doğulduğu və yaşadığı yerlə əlaqədar olan ləqəblər

Obrazın milliyəti ilə əlaqədar olan ləqəblər. Elmi ədəbiyyatda bu ləqəbləri "etnonim ləqəblər" də adlandırırlar: "İki camışları sağıldığına görə kənddə hamıdan varlı sayılan Qaralar-Həbəş Qara ilə kiçik qardaşı Qora bir ləyən dolusu "duzunu

yemiş", yəni bərkimiş pendirlə beş dənə kəhrəba kimi sapsarı qarğıdalı cadı gətirib süfrə açdılar" [1, s.174]; "Tat Seyid qoltuğundakı çetverti küncə, divar dibinə qoyub getdi" [3, s.105]; "Səməd bilmirdi və heç vaxt bilməyəcəkdi ki, xüsusilə öz qohumları Göyçəli Aşıq Alının adını daşıyan AğBizənli Alı ilə oğlu Aşıq Şamil Muğannalarla gizlin ünsiyyətdə olduqlarına görə zəhərlə öldürülmüşdülər" [3, s.113] "Tahirlidən olduğuna baxmayaraq özünü "Ləzgi" adlandıran briqadirimizin bizdən uzaqda işləyən başqa kotançıları mənim adımı "Çayçı" qoymuşdular" [1, s.81].

ç) Obrazın peşəsi, sənəti, məşğuliyyəti ilə əlaqədar olan ləqəblər

Sənətkarın əsərlərinin dilində işlənən bu ləqəbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Dəmirçiliklə əlaqədar olanlar: "Dəmirçi İsfəndiyar kişi bir daha əyilib əlini otun şehinə çəkib, ovcunu alnına qoydu" [1, s. 46].

Kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar olanlar: "Meşəbəyi Mirqasım yəhərdə çəpəki oturub, papağının dalını qaldırıb mahnı oxuyurdu" [4, s.322]; "Naxırçı Hətəmin üz-gözü əyiş-üyüş olub, özü də zarıyır" [4, s.17]; "Çoban Abdulla sürüdə tərifli bir qoçunu qurban deyin Mağara" [1, s.54].

Xalq yaradıcılığı ilə əlaqədar olanlar: "Səməd bilmirdi və heç vaxt bilməyəcəkdi ki, xüsusilə öz qohumları Göyçəli Aşıq Alının adını daşıyan AğBizənli Alı ilə oğlu Aşıq Şamil Muğannalarla gizlin ünsiyyətdə olduqlarına görə zəhərlə öldürülmüşdülər" [3, s.113]; " Çatıltı-patıltı kəsiləndə mühacir Aşıq Cavanın səsi eşidildi" [3, s.196]; "Min doqquz yüz qırx beşinci ilin mayın doqquzunda, yəni faşizm üzərində qələbə günü səhər tezdən meydanda zurnaçı Naqqola qardaşı Yusif qara zurna ilə züyü qoşalaşdırıb "səhər sazı"-segahla camaatı meydana çatdıranda kənddə bir ildırım çaxdı" [3, s.380].

d) Müəyyən hadisə ilə bağlı olan ləqəblər: Dingə Dəmir – "Dəmir kişinin anası Xallı arvad oğlunu molla yanına aparır ki, həkimin dərmanı güc eləmir, oğlumun dərdinə çarə elə. Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına, baxıb gülsünlər, bədnəzər sovuşub getsin..." [1, s.397]; Lüt Cəfər – "Hələ müharibədən əvvəl Qudalıların ağsaqqalı Rəhim, Cəfər əmi – Lüt Cəfəri partkomluqdan çıxatdırmağa çalışanda, Qudalılar Cəfəri möhkəm içirdib, otaqda tək qoyub, yanına qarmonçu Şənbə - gəzəyən Şənbə adında bir qız salmışdılar və taxtda Şənbə ilə yanaşı lüt-üryan yatan Cəfəri camaata göstərib: "Baxın görün kimdi böyüyünüz",-deyib kişini hörmətdən salmışdılar. Doğrudur, Cəfər əminin adının böyründəki "lüt" kəlməsi köhnə şeydi. Hələ iyirminci ildə, Bakıdan təzə gəldiyi vaxtlar "dünya inqilabı"ndan danışanda "proletariat" əvəzinə "lümbülümlüt proletariat" deyirmiş. Bir ay hər gün belə danışıb, ayın axırında-maaşını alan günü kəndin ortasında, yığnaqda deyib: "Kim lap lümbülümlüt proletardırsa, əlini qaldırsın". Maaşını əllərini qaldıranların arasında tən bölüb payalyıb. Deyiblər: "Özünə heç bir şey qalmadı axı". Deyib: "Sanadım. Düz otuz nəfərsiniz. Arvadım yox, uşağım yox, hər gün birinizin evində qismət kəsəcəm, heç kəsə zor düşməyəcək, otuz günün tamamında təzə maaşımı yenə sizə paylayacam". Sonra gülüb, utananda həmişə boynunu qaşıyıb yerə baxdığı kimi, onda da boynunu qaşıya-qaşıya: "Ayna adında bir yetim gözəliniz var burda, onu mənə alsanız, daha hər gün birinizin qapınızda oturmaram", - deyib və elə o günü Aynadan söz alıblar ki, "Get, ay qız. Belə insan yoxdur dünyada...". Hələ o vaxtdan

partiya özəyi katibi Cəfər Qaryağdı oğluna "Lüt Cəfər" deyirmişlər. "Aləmi bəzər, özü lüt gəzər deyirmişlər və Cəfər əmi özü də bu lütlüyü ilə fəxr edirmiş [3, s.35]; Güzgülü Əhməd – "Güzgülüyü bundadır ki, "kolxoz"laşma vaxtı, yəni otuz-otuz üçüncü illərdə hamı malını, qoyununu, atını, ulağını hökumətə "kolxoz"a verdiyi halda, Toma oğlu Əhməd qoyun sürüsünü bir gecənin içində xançallayıb, soyub, arabalara doldurub aparıb Tiflisdə satmışdı, cibləri o vaxtı "palaz-palaz" yəni yekə-yekə kağız pulları ilə dolu, Şeytanbazar deyilən yerə gedib "arvad-uşağa əyinbaş" alanda bir yekə güzgü də alıb gətirib, balkonda qapının böyründə asmışdı ki, "bu bədbəxt əlil-zəlil" camaat gəlib-gedəndə heç olmasa sir-sifətini görsün, bilsin nə təhər adamdı. Yoxsa bu nədi, bu boyda Muğanlıda bir evdə də güzgü yoxdu!"-Bundan adı qalmışdır Güzgülü Əhməd" [4, s.366]; Podrat Qurban – müşavirədə Qılınc Qurban Qaracaları "podrata" götürdüyü üçün, Kollu Koxa onun ləqəbini dəyişdirib "podrat" edir; Saqqız Murad – Səməd, çoban Muradı aldadıb ki, guya o, axşam palıd ağacından saqqız yığıb. Murad da bu əhvalata inanıb və camaat arasında bu hadisəni yaydığına görə "Saqqız Murad" olub; Gepo Çəpər-"...Mən sonralar bildim ki, bu Gepo Cəfər deyilənin adı əvvəlcə başqa imiş:Məhəmməd. O anadan olan gecə ekiz qardaşı da anadan olubmuş. Xoşbəxt ata böyük oğlunun, yəni bir saat əvvəl anadan olanın adını Məhəmməd qoyandan sonra ikinci uşağın da oğlan olduğunu görəndə:"Əli!"-deyib. Amma Məhəmmədlə Əli böyüyüb komsomol olub."Qazax şəhərində maldarlıq texnikumunu qurtarandan sonra böyük oğul-Məhəmməd "Gepo" vəzifəsinə çəkilib, kiçik-Əli isə kəndə "Bedkom" göndərilib və bununla da hər şey, o cümlədən, qardaşların adları da dəyişib:Gepo Çəpər, Bedkom Çəpər" [4, s.37]

Beləliklə, görkəmli sənətkarımız İsa Hüseynov yüksək bədii effekt əldə etmək üçün hər bir sözə, o cümlədən ləqəblərə də böyük həssaslıqla yanaşmış, onların məhz məna və təsir qüvvəsi cəhətdən ölçüb seçmiş, hansının daha çox uyğun olmasını müəyyənləşdirib bədii dilə gətirmişdir.

Ədəbiyyat Siyahısı:

1.İsa Muğanna. Seçilmiş əsərləri. Bakı, 2009, I cild
2.Hüseynov Məhərrəm. Janr, zaman və ədəbi qəhrəman. Bakı, 2012
3.İsa Muğanna. İdeal. Bakı, 2005
4.İsa Muğanna. Seçilmiş əsərləri. Bakı, 2009, II cild
5.Afat Qurbanov. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1996
6.İsrafilova R.D., Məşədiyev Q.İ., Cəfərov Q.H. Azərbaycan dilinin onomastikası. Oçerklər. Bakı, 1987

А. Багирова

Псевдонимы в произведениях иса Гусейнова

Резюме

В этой статье речь идет о произвищах в творчестве Иса Гусейнова. Произвище в творчестве Иса Гусейнова который есть свой спесифический стил в Азербайджанской литературе помогает понимать особеннности характеров и основных идей пьес. Здесь писатель использует произвищей как метод разоблачения плохих характеров и противных качествах образов.В основном чтобы получать грандиозный эффект писатель уделяет внимание каждому слову, каждому произвище, выбирает их по своим значениям, по их влиянием.Здесь он определяет соответствующий пр оизвища и приносить их в художественный язык.

A. Bagirova

Nicknames in the traces of isa Huseynov

Summary

This article is about the nicknames in Isa Huseynov's plays. Nicknames in Isa Huseynov's plays who has the specific creative style in Azerbaijan literature helps to understand characters' features and the main ideas of plays. Here the writer uses the nicknames to unmask characters' bad features , offensive qualities. Generally for getting a grand effect here the writer gives special attention to each word, to each nickname, choose them for their means, for their impact effects. After defining and choosing appropriate nickname he expresses them to an artistic language.

Rəyçi: İsmayıl Məmmədli
filologiya elmləri doktoru, professor

MƏTANƏT MEHDİYEVA
AMİ-nin Sumqayıt filialı,

ŞƏXS ADLARI VƏ ERQONİMLƏRİN ADLANDIRILMASI İLƏ BAĞLI QARŞIYA ÇIXAN BƏZİ PROBLEMLƏR

Açar sözlər: xüsusi adlar, şəxs adları, advermə, ktematonim, erqonim.
Ключевые слова:собственные имена, личные имена, наименование, ктемотоним , ергоним
Key words: special names, person names, naming, ctematonym, ergonym.

Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır,tarixin canlı şahidləridir. Bildiyimiz kimi ad insanların əldə etdiyi ictimai-mədəni və sosıal nailiyyətlərdəndir. O, tarixi inkişaf prosesində kollektivdə ictimai ehtiyacları ödəmək məqsədi ilə meydana çıxmışdir. Buna görə də hər bir adda tarixin əlamətləri, nişan və izləri yaşayır. Məlumdur ki, qədimdə, xüsusən də, ibtidai icma dövründə xüsusi adlar az olmuşdur. Sonralar cəmiyyətin inkişafı ilə artmış, zənginləşmişdir [1.s.9]

Adların yaranmasında fərd halında bütün xalq iştirak edir . Adlar xalqın milli möhürüdür. O möhürdə adın milli mənsubiyyətini müəyyən etmək çox asan olur. Ona görə də adların verilməsində çox ehtiyatlı və diqqətli olmaq lazımdır. Xüsusi adların yaranması zamanı çalışmalıyıq ki, adlar özgələşməsin. Bu gun Azərbaycan onomalogiyasının qarşısında duran problemlərdən biri də elə bu məsələdir.

Xüsusi sözləri həyatımızın, cəmiyyətimizin və ümumiyyətlə, bəşəriyyətin havası adlandırmaq olar [2.s5]

Dilin lüğət tərkibində özünəməxsus linqvistik əlamətlərlə ayrılan söz qruplarından biri olan onomastik vahidlər xalqın da, ayrı–ayrı şəxslərin də, müxtəlif məkanların da ilk ünvanıdır. Onların zövq ilə seçilməsi sadə, zərif, bədii cəhətdən təsirli olması, xalqın milli varlığına uyğunluğu çox mühüm şərtdir.

Xüsusi sözlər mənsub olduğu xalqın təkcə tarixi, dili yox, eyni zamanda onun milli varlığını təsdiq edən nəhəng abidələrdir [2.s5.6] Buna görədir ki, xalqımızı, milli varlığımızı zorla məhv etmək istəyənlər ilk növbədə xüsusi sözlərimizi dəyişməyə çalışmışlar. Hələ Sovet İttifaqı dövründə şəhər, kənd, rayon, qəsəbə, küçə, idarə, təşkilat adları, park, meydan, prospekt və s. adlarımızın əksəriyyətinin yad sözlərlə adlandırılması buna bariz nümunədir.

Şükürlər olsun ki, son illərin ictimai-siyasi hadisələri xalqımıza, dilimizə yad olan əcnəbi adların sıradan çıxmasında böyük rol oynayıb. Bu gün bu problemlə bağlı çox faktlar qeyd etmək olar. Şəxs adları və maddi və mənəvi mədəniyyət abidələrinin adları olan ktematonimlər üzərində dayanmaq istərdik.

Bildiyimiz kimi Azərbaycan dili zəngin antroponimik leksikaya malikdir. Bu zəngin leksikada şəxs adları xüsusi yer tutur. Şəxs adı cəmiyyətdə insanın birinin digərindən fərqləndirilməsi üçün şərti işlədilən sözlərdir. Şəxs adı – idionimlərin tarixi çox qədimdir. Şəxs adları ictimai-tarixi şəraitlə çox əlaqəlidir. Azərbaycan VII əsrin ortalarından ərəblərin hücumlarına məruz qalmış, onların bir çox adət-ənənələrini, həmçinin advermə adət-ənənələrini götürməyə məcbur olmuşdur. Saysız-hesabsız ərəb mənşəli şəxs adları dilimizə daxil olmuşdur. Təsadüfi deyildir

ki, müasir Azərbaycan antroponimlərinin xeyli hissəsini ərəb mənşəli adlar təşkil edir. İslam dininin qəbul edilməsi antroponimik sistemdə yenidən dəyişmə, milli adların əksəriyyətinin ərəb adları ilə əvəz olunmasına gətirib çıxarır. Mədəni sərvətimiz olan Azərbaycan adları unudulur, sıradan çıxır. Azərbaycan antroponimik modelləri ərəb dilinin təsiri altına düşür. Eynəlqizat Əbdülməali Abdulla ibn Məhəmməd Miyanəçi Həmədani tipli antroponimik modellər üstünlük təşkil etməyə başlayır.

XIII-XVIII əsrlərdə işlənən Azərbaycan antroponimləri tərkibində alınma antroponimlər az deyil. Ərəb və fars dillərindən alınmış adlarla yanaşı, öz milli xüsusiyyətlərini itirməmiş Azərbaycan mənşəli antroponimlər də üstünlük təşkil edir.

XIX əsrdə Azərbaycan antroponimik sistemi keçid dövrünü yaşayırdı. Bir tərəfdən XIX əsrə məxsus antroponim modelləri, digər tərəfdən XX əsrin ziddiyyətlərindən doğan Avropa və rus mənşəli adlar məişətimizə daxil olurdu. C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində avropalaşma, ruslaşma və islamlaşma açıq şəkildə təsvir olunur və dilimizin o dövrdə büsbütün yad təsirlər altına düşdüyü göstərilir.

1920-30 – cu illərin ad sisteminə nəzər salsaq görərik ki, bu dövrdə inqilab ideyasını əks etdirən İnqilab, Şura, Qalib, Sovet kimi adlar, həmçinin rus və Avropa bədii ədəbiyyatının tərcüməsi, onlarla tanışlıq, obrazların adlarının Azərbaycan antroponimlərinə daxil olmasına səbəb oldu. Bu obraz adlarının əksəriyyəti Azərbaycan məişətinə yol tapır. Esmira, Amaliya, Roza, Hamlet, Bous, Svetlana , Tinatin, Elvira və s. kimi adları buna misal göstərə bilərik. Hətta bir sıra əcnəbi mənşəli oronimlər antroponim kimi işlənməyə başlanır: Himalay, Qafqaz, Elbrus və s .

20-30-cu illərdə xoşagəlməz, deyilişi qəribə səslənən şəxs adları da meydana çıxır, Pribor, Saat, Artel, Traktor, Sovxoz, Briqadir, Order, Kontor, Fabrik, Revizor, Nəlbəki, Manat, Sandıq, Pobeda və s. Bir müddətdən sonra bu xoşagəlməz ad yaradıcılığı müqavimətə rast gəlib azalır. Ümumiyyətlə, yeni doğulan hər bir uşağa elə ad verilməlidir ki, o böyüyəndə öz adından utanmasın.

İctimai-tarixi şərait 40-ci illərdə də antroponim sistemində öz izini buraxır. Xalq arasında qalib gəlmək arzusunu ifadə edən Qələbə, Qalib, Sülh, Müdafiə və s. kimi adlar formalaşır.

Qısaca da olsa, antroponimlərdən ən geniş yayılanı idionimlərin əsrlər boyu yaranma və inkişafının yoluna nəzər yetirdik.

Hal-hazırda advermə ənənəsində nəzəri cəlb edən xüsusiyyətlərdən biri dini adlardan istifadədir. Yeni doğulan uşaqlara Məhəmməd, Hüseyn, Rza, Rəsul, Fatimə, Zəhra, Xədicə, Məryəm və s. adlar daha çox verilir.

Şəxs adları ilə bağlı ən qlobal problemlərdən biri budur ki, indi valideynlər öz övladlarına ad seçərkən əcnəbi adlara üstünlük verirlər. Onomastik vahidlər bizim tariximizin, adət-ənənəmizin göstəricisi olduğu üçün çalışmalıyıq ki, advermə ənənəsində millilikdən kənara çıxmayaq. Hətta bəzi valideynlər izlədikləri serial qəhrəmanlarının adlarını öz övladlarına verirlər. Amaci, Kleopatra, Sofia, Anastasiya və s. adları misal göstərə bilərik.

Yaxın zamanlarda Terminologiya Komissiyasının nəzdində yaradılacaq Adlar və Soyadlar Bölməsi ölkədə mövcud olan adların tam siyahısını hazırlayacaq. Bu

siyahı bütün VVAQ idarələrinə göndəriləcək. İki-üç pilləli adların, eləcə də, Mariya, Olya, Alya kimi rus adlarının qoyulmasına icazə verilməyəcək. Bununla yanaşı, əhali arasında maarifləndirmə də aparılacaq.

Advermə cəmiyyətin tarixində çox zəruri və qanunauyğun hadisədir . İnsana ad vermək çox məsuliyyətli bir işdir. Gəlin çalışaq ki, ad seçərkən milli koloritlərimizi yaddan çıxarmayaq. Özümüzün Sevil, Aygün, Gülşən, Elxan, Aslan, Toğrul, Günay, Sevinc, Tapdıq və s. kimi adlarımız ola-ola Esmiralda, Ellada, Renat, Romiq və s. kimi adlara ehtiyac varmı?

Düzdür, dilin lüğət tərkibini alınma sözlərsiz təsvir edə bilmədiyimiz kimi, Azərbaycan dilinin antroponimikasını da antroponimik alınmalarsız təsəvvür etmək çətindir. Bunun qarşısını da tamamilə almaq mümkün deyildir. Ancaq hər şeyə rəğmən, yenə çalışmaq lazımdır ki, advermə ənənəsində milliyimizi qoruyaq.

Azərbaycan və Türkiyə türkcələri tarixi təkamül prosesində eyni kökdən ayrılaraq formalaşmış müstəqil dillərdir. Onlar nə qədər yaxın və doğma olsalar da, aralarında fonetikadan tutmuş leksikaya qədər əsaslı fərqlər mövcuddur. Müasir dövrümüzdə valideynlər türk adlarını öz övladlarına verməyə daha çox meyil edirlər. Yağmur, Aylin, Berk, Cenk, Yüksel, Çakır, Emir, Ebil, Tuna, Seyhun və s. tipli adlar buna nümunə ola bilər. Yaxşı olar ki, bu adları seçərkən öz dilimizin fonetik xüsusiyyətlərimiz nəzərə alınsın.

Hər bir xalqın özünə məxsus şəxs adları fondu vardır. Adqoyma zamanı əsasən o adlardan istifadə olunur. Adlar bir növ, xalqın milli möhürüdür. Adlar vasitəsi ilə şəxsin milli mənsubiyyətini müəyyən etmək mümkün olur . Odur ki, körpəyə ad verərkən milli zəminə, milli adlara əsaslanmaq lazımdır: Solmaz, Xanlar, Elxan, Sevinc və s.

Onomastik leksikanın bir qatını təşkil edən ktematonimlərə maddi-mədəniyyət abidələrinin, elm və texnika ilə, mənəvi mədəniyyətlə bağlı əsərlərin, xüsusi əşyaların, fəxri adların, inzibati idarə, təşkilat və sairənin adını bildirən onomastik vahidlər daxildir.[1.s120]

Professor A.Qurbanov ktematonimləri xrematonim (maddi-mədəniyyət əşyalarının adları), xrononim (dövrün, zamanın, müəyyən əlamətdar hissələri, tarixi gün, bayram adları), ideonim (elm, mədəniyyət, bədii ədəbiyyatla bağlı əsərlərin, nəşriyyat, mətbuat və s. adlar) və erqonim (idarə, müəssisə, təşkilat, ictimai-mədəni obyekt, düşərgə və s. adları) olmaqla dörd növə bölür. Ktematonimlərin adlandırılmasında da bir çox problemlər nəzərə çarpır. Erqonimlərə nəzər salaq. Bu gün ölkəmizin bir çox yerində, əsasən də, paytaxtımız Bakıda bir-birindən gözəl qonaq evləri, restoran, kafe, şadlıq sarayları, istirahət evləri, ticarət müəssisələri, müxtəlif xəstəxana və poliklinikalar, apteklər və s. tikilir. Təəssüflər olsun ki,bu obyektlərin adlandırılmasında nəzər nöqtəsi bir məsələyə tuşlanır. Bu obyektlərin bir qismi öz milli adlarımızla adlandırılsa da, əksəriyyəti əcnəbi, diləyatımsız sözlərlə adlandırılır. Məsələn: "Monolit Plaza" hoteli , "Elite Hotel", "Park Bulvar", "City Centre", "Life Centre", "Alina" ticarət mərkəzi, "Monti Krista", "Mono Liza", "Madonna", "Neapol", "Grend House" şadlıq sarayları buna nümunədir.

Mağaza, restoran, şadlıq saraylarının adlarının kütləvi şəkildə xariciləşməsi bu dili bilməyənlər üçün ciddi bir problem yaradır. Bakı sanki azərbaycanlıların deyil, ingilislərin yaşadığı bir şəhəri xatırladır. Azərbaycanda bu cür yerlərə xarici adların qoyulması kütləvi hal alıb. Bu dil normalarını ciddi surətdə pozur. Dil haqqın-

da qanunun 17-ci maddəsinə əsasən, hüquqi şəxslərin, onların nümayəndəliklərinin, filial və idarələrinin adları Azərbaycan dilinin normalarına uyğun yazılmalıdır. Azərbaycan Dil Qurumu İctimai Birliyinin sədri, millət vəkili Sabir Rüstəmxanlının fikrincə, brendə çevrilən firmaların adlarının olduğu kimi saxlanılması qəbul olunsa da, onların Azərbaycan dilindəki qarşılığının yazılması önəmlidir. Azərbaycan dilində ifadəsi mümkün olan sözlərin əcnəbilərlə əvəzlənməsi qəbulolunmazdır. Bəzi məqamlar var ki, orada sözlərin ingiliscə yazılması normaldır. Amma bunu kütləviləşdirməklə ingilis dilinə 2-ci dil statusu veririk. Xarici ölkələrdə kimliyi bəlli olmayan nə qədər qadın var, hamısının adına şadlıq evi tikilib (S.Rüstəmxanlı).

Ktematonimlər əsasən, müvafiq orqanlar, təşkilatlar tərəfindən qararlaşdırılır və rəsmi ad kimi çıxış edir. [1 s 439]

Professor Afad Qurbanov ktematonimlərin xüsusiyyətlərindən bəhs edərkən, qeyd edir ki, ktematonimlər əks etdirdiyi obyektin mahiyyətinə uyğun yaranır. Məsələn: "Lənkəran çayı" kimi adlandırılan dükanda Lənkaranda istehsal olunmuş çay məhsulları satılır. "Kitab evi" mağazasında müxtəlif kitablar satıldığı məlumdur. Bəzən isə adlarda uyğunsuzluqlarla rastlaşırıq. Cəfər Cabbarlı adına "Axərbaycanfilm" studiyası, Nizami adına Ədəbiyyat İnstitutu kimi adlarda uyğunluq var. Belə adların sayını istənilən qədər artırmaq olar. Ancaq M.Əzizbəyov adına doğum evi, M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrı, "Elvin" qadın salonu kimi uyğunsuz adlara rast gəlmək mümkündür. [3.s 313]

Ktematonimləri digər onomastik vahidlərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onların müasir adlar olmasıdır. Klassik sənət əsərlərinin ,qədim maddimədəniyyət obyektlərinin, abidələrin adları müstəsna olmaq şərti ilə.[1.s 444]

Ktematonimlərdən söhbət gedərkən, marka adları da diqqətdən yayınmır. Azərbaycan dilçiliyində, o cümlədən, onomastikasında bu vaxta qədər, demək olar ki, marka adları haqqında müəyyən fikir söylənməmişdir. İlk dəfə olaraq Aydın Paşayev "Azərbaycan dili dərslərində xüsusi adların izahı" kitabında marka adları haqqında ümumi məlumat vermiş və onları qruplaşdırmışdır. Respublikamızda istehsal olunmasa da, alınma sözlərlə ifadə olunsa da, milli marka adları ilə yanşı, həmin marka adları dilimizdə olduğu kimi də işlənir.[2 s.86-87] Çay adları "Seylon" çayı, "Çempion" çayı, "Cihan" çayı. İçkilər: "Coca–Cola", "Pepsi-Cola", "Fanta", "Sprite" və s. "Yubiley" peçenyesi, "Sport" peçenyesi, "Blend-A-Med", "Fomorin" diş məcunları adı , "Nort", "Samsung" soyuducu adları, "Prado", "Nissan" avtomobil adları və s.

Çox az xarici ölkə var ki, Azərbaycan sözləri ilə adlandırılan ktematonimləri olsun. Çerkassi, Lüdvik Şafen və s. kimi qardaşlaşmış şəhərləri çıxmaq şərti ilə.

Ktematonimlər xalqımızın tarixi, iqtisadiyyatı, ictimai-siyasi, elmi-həyati, mədəniyyəti, dili və s ilə bağlıdır. Buna görə çalışmalıyıq ki, onları adlandırarkən milliliyimizi qoruyaq.Yuxarıda qeyd etdiyimiz kimi, xüsusi marka adlarının əksəriyyətinin istehsalçısı xarici ölkələr olduğu üçün onların adlandırılmasında da əsasən əcnəbi adlar üstünlük təşkil edir. Amma yaşadığımız küçə, gəzdiyimiz park, meydan, istirahət etdiyimiz restoran, kafe, hətta qonaq evlərini əcnəbi adlarla adlandırmağa ehtiyac yoxdur. Çünki bu obyektlər bizim ölkədə yerləşir, bizim gələcək nəsillərə çatdıracağımız maddi-mənəvi varlıqlarımızdır.

Ədəbiyyat

1. Qurbanov A . Azərbaycan dilinin onomalogiyası Bakı.1988
2. Paşayev A. Azərbaycan dili dərslərində ümumi və xüsusi sözlərin müqayisəli tədrisi məsələləri Bakı 2005
3. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları . Bakı 1986
4. Paşayev A. Ad yaradıcılığında millilik prinsipi "Azərbaycan onamastikası problemləri" Bakı 1990
5. Mirzəyev O ."Adlarımız". Bakı 1986

M. Мехтиева

Проблемы,связанные с и наименованием ергонимов личных имен.

Резюме

В статье были затронуты проблемы, связанные с наименованием ергонимов, являющихся одним из видов ктемотонимов и личных имен , которые составляют один слой ономостической лексики. В статье особое место уделяется учитыванию национальных особенностей в наименованиях аномастических единич.Быть внимательным и основываться на национальные корни при использовании наименований отличается как главное условие.

M.Mehdieva

Title (or The name of the article) :
Some problems on person names and ergonyms naming

Summary

Personal names which arrange one layer of onamastic lexics and the problems on naming kind of ctematonyms-ergonyms were spoken in the article. In the article particularly noted that in the naming of these onomastic units national pecularities should be taken into the consideration. As main conditions were shown being careful at using names and ground on national bases.

Rəyçi: İsmayıl Ağayev
filologiya elmləri namizədi

VÜSALƏ HƏSƏNOVA
Odlar Yurdu Universiteti
e-mail:vusale.hesenova.81@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLİNDƏ XÜSUSİ ADLARIN TƏHLİLİ

Açar sözlər: onomastika, , toponim, transliterasiya.
Key words: onomastics, toponymy, transliteration.
Ключевые слова: ономастика, топонимика,транслитерация.

Nitqin yaranması və tədricən inkişafı ilə əlaqədar olaraq xüsusi adların yaranması zərurəti meydana çıxmışdır.Xüsusi adlar xalqın tarixini, milli adət-ənənələrini, dünyagörüşünü, həyat tərzini və s. izah edir, aydınlaşdırır.

Dilçiliyin ən böyük şöbələrindən biri olan onomalogiya dilimizdə mövcud olan bütün xüsusi adların yaranmasını, inkişafını, dəyişməsini, leksik və qrammatik qurluşunu, üslubi imkanlarını və s. öyrənir. Onomastika bütövlükdə xüsusi adların toplusudur.Xüsusi adlar ümumi adlardan yarandığı kimi, xüsusi adlardan da ümumi adlar yaranır.Bunlar "apelyativ" adlanır.Ümumi adlardan və ya apelyativlərdən xüsusi adlar əmələ gəlir.Məsələn, "qızılgül" sözü həm ingilis dilində, həm də Azərbaycan dilində eyni mənaya malikdir:

a)ingilis dilində: a rose(qızılgül) – Rose(şəxs adı).

b)Azərbaycan dilində: qızılgül(gül) - Qızılgül(şəxs adı).

Xarici dilçilikdə onomalogiya çoxdan tədqiq olunsa da, Azərbaycan dilçiliyində bu sahədə keçən əsrin ortalarından tədqiqatlar aparılmağa başlanmışdır.Hal-hazırda bu sahədə daha geniş tədqiqatlar aparılmaqdadır. Azərbaycan dilçiliyi tarixində onomalogiyanın araşdırılmasında görkəmli alim A.Qurbanovun xidmətləri çox böyükdür. A.Qurbanov dildəki xüsusi adları onomastika, ondan bəhs edən dilçilik sahəsini isə onomologiya adlandırmışdır. Xüsusi isimləri bir neçə qrupa ayırmaq olar:

a) şəxs adları, soyadlar, təxəllüs və ləqəblər
b) coğrafi adlar
c) səma cisimlərinə verilən adlar
ç) qəzet və jurnallara verilən adlar
d) heyvanlara verilən xüsusi adlar

Xüsusi ismləri ümumiləşdirərək belə adlandırmaq olar:

İnsan adları-antroponimlər, coğrafi adlar-toponimlər, tayfa və millət adları-etnonimlər, çay, dəniz, göl adları-hidronimlər, heyvan adları-zoonimlər, kosmik adlar-kosmonimlər, səcdəgah adları-teonimlər, əşyalara və müəssisələrə verilən adlar-ktematonimlər.

Antroponomika onomastikanın ən geniş yayılmış sahələrindəndir. Antroponomiya-yunan mənşəli olub-anthropos (insan, adam, şəxs) və onoma (ad) sözlərindən ibarətdir. Antroponomiya insan adlarını öyrənən sahədir. Azərbaycan dilçiliyində bu termin insan adları (Xuraman, Sevda, Elşad, Samir və s.), ingilis dilində isə "Personal names" (Tom, Elizabeth, Hamlet, Laura və s.) kimi ifadə olunur. Antroponimlər ünsiyyətlə bağlı meydana gəlmişdir. Qədim latınlar insanın adını

özünə bərabər tutmuş," Homen nomen" demişlər.Ada belə bir münasibət elə bizim də bir sıra xalq ifadələrində təzahür edir:" İgid ölər, adı qalar", "Adın çıxmaqdansa, canın çıxsa yaxşıdır". və s. Ad həmişə san, nüfuz, reputasiya hesab olunmuşdur. Tanınmış adama "adlı-sanlı", pis əməl edənə isə "heç adına-sanına yaraşmır" deyilməsi təsadüfi deyildir.Adlar ilk insan qrupları, ailə yaranandan meydana gəlmişdir. Tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onları fərqləndirmək, fərdiləşdirmək lazım gəlirdi.Adlar məhz bu zəruri tələbdən törənmişdir.

Tədqiqatçı alimlərimizdən A. Axundov, A. Qurbanov, M. Adilov, A. Əliyev, Ə.Cavadov və başqaları antroponomikaya aid məqalələr, elmi işlərlə çıxış etmişlər.

Xarici dilçilərdən onomalogiyanın tədqiqində C.S.Mill, X.Cozef, B.Rassel, M.Breal, A.V.Nikonov, A.V.Superanskaya, S.Syorensen və başqalarının xidməti böyük olmuşdur.

Dahi Azərbaycan mütəfəkkiri A.Bakıxanov ilk dəfə olaraq "Gülüstani-İrəm "əsərində antroponimlərin tədqiqinə geniş yer vermişdir. Əsərdə Xaqani Şirvani, Nizami Gəncəvi, Seyid Həsən Şirvani, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi və başqa görkəmli şəxsiyyətlərin həm tərcümeyi-hallarını, həm də adlarının izahını vermişdir. Həmçinin o, "Adlar və titullar haqqında" əsərini yazmış və bir çox titulların leksik mənalarını vermişdir.Tarixi şəxsiyyətlər- hökmdarlar, şahlar, fatehlər, yazıçılar, şairlər və s. xalq arasında öz ləqəbləri ilə tanınmışdır.

M.F.Axundovun "Aldanmış kəvakib" povestində on yeddi obraz göstərilir."Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı məktub" adlı fəlsəfi əsərində saysız- hesabsız onomastik vahidlər- antroponimlər, toponimlər, hidronimlər, ideonimlər və s. işlədilmişdir. Əsərdə 150-dən çox antroponim qeydə alınmışdır. Bütövlükdə antroponimlər əsərin ideyasına, süjet xəttinə xidmət edir.

Dilimizdə çoxlu ərəb və fars mənşəli adlar vardır. Bu adlar VII əsr və sonrakı dövrlərdə ərəblərin Azərbaycanı istila etməsi ilə bağlıdır.M.F.Axundov yaşadığı dövr, yəni XIX əsr üçün həmin adlar xarakterikdir.

Tarixi abidələrimizdən olan "Kitabi-Dədə Qorqud" dastanı Oğuz xalqının həyat və mübarizə tarixindən bəhs edir.Dastanda xeyli şəxs adları çəkilir. İ.Şıxıyevanın hesablamalarına görə dastanda 77 şəxs adı çəkilir.Bu adlardan biri də "din sərvəri Məhəmməd" peyğəmbərdir.Məhəmməd peyğəmbərin adı dastanın ayrı-ayrı boylarında təqdim olunmuşdur. Məsələn,"adı görklü Məhəmmədə salavat gətirdilər"."Görklü Məhəmməd" deyəndə "görkəmli, yaraşıqlı Məhəmməd" nəzərdə tutulur. Dastanın əksər boyları "günahlarını adı görklü Məhəmməd Mustafaya bağışlasın" cümləsi ilə tamamlanır. Dastanda İslam dininin müqəddəs şəxslərindən Əli, Həsən, Osman, Hüseyn, Ayişə, Fatimə və başqalarının adı çəkilir."Kitabi- Dədə Qorqud" dastanında Salur Qazan adı demək olar ki, bütün boylarda çəkilir.Digər qəhrəmanlardan Bayandır xan, Şöklü Məlik, Aruz Qoca, Banu Çiçək və başqalarının adları da çəkilir.

Mahmud Kaşğarlının"Divani lüğət-it-türk" əsəri əvəzsiz tarixi xəzinələrdən biridir.Bu lüğətdə türk xalqlarının dili, mədəniyyəti, etnoqrafiyası, folkloru, adətləri öz əksini tapmışdır."Divan"da onomastika məsələləri xüsusi yer tutur.Mahmud Kaşğarlı əsərdə toponimik adları – qədim şəhər, göl, çay adlarını xəritəyə köçürmüşdür. Qaraxanlılar dövrünün toponimik sistemini ətraflı əks etdirmişdir. "-Divan"da dünya xəritəsinin ərazi toponimləri əks etdirilmişdir. Bu, ilk türk xəritəsi

və orta əsrlərin ən dəqiq xəritələrindəndir.Xəritədə Azərbaycanın adı"ərzi – Azərabadqan" kimi çəkilir, Azərbaycanın coğrafi mövqeyi və qonşu ölkələr göstərilir."Divan"da həmçinin 110 şəxs adı çəkilir. Kişi adları çoxluq təşkil edir:Atış, Burslan, Barman, Əfrasiyab və s. Qadın adlarından Altun, Tarım,Sürəyya və s. göstərilir.Mahmud Kaşğarlı dövründə türklər iki qola ayrılırdı: Şimal və Cənub qolları. Şəxs adları da bu qruplara görə təsnif edilirdi. Şimal qrupu (qıpçaq) şəxs adları (Azak, İnal,Kay, Səlcuk və s.); Cənub qrupu şəxs adları(Çuğlan,Çağrı, Bəğ, Boğra kara xan, Yağan Təqin və s.) Lüğətdə 70% türk, 20% ərəb və 10% fars mənşəli şəxs adları işlədilmişdir.

M.Kaşğarlının "Divan"ında 180-ə qədər toponimdən istifadə olunmuşdur.Divanda türk mənşəli yer adlarından – Altun xan, İşık göl, Tərin dəniz, Suvar və s.; ərəb və fars mənşəli yer adlarından – Fərqanə, Buxara, Sayram, Yemən və s.; tayfa adlarından – Türk, Kumuk, Bulğar,Tankut və s.; şəxs adlarından— Şu, Kəşmir, Nişabur, Barsğan və s. adlar göstarilmişdir. Mahmud Kaşğarlının "Divan"ında göstərilən şəxs adları bunlardır: Sitkün, Suğnak, Karnak, Karaçuk, Sepren (Sabran).

Onomastik vahidlər xalq təfəkkürünün məhsuludur.Onomastika elmində toponimlər də xüsusi yer tutur.Toponimiya—yunanca topos (yer) və onoma (ad) sözlərindən ibarətdir. Toponimlər—tarixi-coğrafi yurdların aydınlaşdırılması baxımından mühüm mənbədir.Toponimlər tarixi qaynaqların, ictimai-siyasi formasiyaların daşıyıcısıdır.Tarixi-coğrafi toponimləri məna baxımından aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Tayfa, el-oba adları:Oğuz eli, Abxaz eli, alpanlar,abxazlar

2. Dağ, dərə, dəniz, çay, yer, yurd, meşə adları: Xəzər dənizi, Qara dəniz, Şimal dənizi, Şah dağ, Babadağ, Alp dağları, Göy- göl, Kür çayı, Temza çayı və s.

3. Dövlət, şəhər, qala, qəsr adları: Azərbaycan, Fransa, London, Gəncə, Əlincə qalası, Qız qalası və s.

Azərbaycan dilçiliyində ilk dəfə Afət Abbasova ingilis və Azərbaycan antroponimlərini müqayisəli şəkildə tədqiq etmişdir.Belə ki, alim ingilis və Azərbaycan şəxs adlarının struktur və semantik xüsusiyyətlərini müqayisəli şəkildə öyrənmiş, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmişdir.

Qeyd etdiyimiz kimi ad insanlara, coğrafi obyektlərə ona görə verilir ki, onları bir-birindən fərqləndirmək olsun.Məsələn. Arif, Elşən, Nərgiz,Günay və digər şəxs adları deyiləndə bilirik ki, bunlar azərbaycanlılara məxsus adlardır; Nadejda, Olya, İvan, Aleksandr adları rus şəxs adlarıdır; Tom, Bella, Herbert, Cek, Flora, Elizabet və s. adlar deyiləndə bilirik ki, bunlar xarici şəxs adlarıdır.

Həmçinin də coğrafi adlardan Bakı, Bərdə, Qazax deyiləndə Azərbaycan respublikasının şəhərləri, London, Vaşinqton, Moskva, Berlin, Paris və s. deyiləndə xarici ölkələrin şəhərləri başa düşülür.

Azərbaycan dilinə german dillərindən keçmiş bir çox şəxs adları vardır. Məsələn: Kişi adları: Elmar, Elvin, David, və s. Qadın adları: Ofelya, Elmira, Flora, Raya və s. Azərbaycan şəxs adlarında variantlılıq səs əvəzlənməsi və artımı yolu ilə əmələ gəlir. Məsələn: Soltan-Sultan, Rəşad-Rəşid, Almaz-Almas və s. İngilis şəxs adlarında bir adın bir neçə variantı olur. Məsələn:Bell, Bella, Belle, Rob, Robbie, Robin.

Artıq dünyada ünsiyyət vasitəsi kimi ingilis dilinin rolu böyükdür.Azərbaycan dili ölkəmizin dövlət dili, ingilis dili isə beynəlxalq əlaqələr kimi aparıcı rola malikdir. Azərbaycan xüsusi adlarının, toponimik, hidronimik və ktematonimik adların ingilis dilinə tərcüməsi çox önəmlidir.Bunların transliterasiyasında çoxvariantlılıq hökm sürməkdədir.Məsələn, bir sıra Azərbaycan xüsusi adları müxtəlif variantlarda verilir: Bakı-Baki/Baku, Abşeron-Abşeron/Apsheron, Füzuli- Fizuli/Fizuly, Hüseyn- Hussein/Huseyn,Sevinc-Sevinj/Sevindj və s.

Xüsusi adların bir dildən başqa dilə çoxvariantlı deyil, birvariantlı transliterasiya olunması məqsədəuyğundur: Baki, Abşeron, Fizuli, David, Teymur və s.

Azərbaycan dilində bir sıra fonemlər vardır ki, onlar ingilis dili üçün səciyyəvi deyildir.Həmçinin də ingilis dilində olan bir sıra fonemlər Azərbaycan dilinin səs tərkibində yoxdur.Bu fərqlər də Azərbaycan xüsusi adlarının ingilis dilinə bir neçə variantda transliterasiya olunmasına səbəb olmuşdur.Məsələn: Azərbaycan-Azerbayjan/ Azerbaijan, Qazax-Gazakh /Gazak, Gəncə-Ganja/ Gandja, Üzeyir-Uzeir / Uzeyr, və s.

Xüsusi adların düzgün transliterasiya edilməməsi bir-birinə uyğun adların eyni cür oxunmasına səbəb ola bilər.Bu isə elmi araşdırmalarda, ictimai işlərdə böyük qarışıqlıq yarada bilər.Bunun üçün Azərbaycan xüsusi adlarının ingilis dilinə transliterasiya olunmasının, vahid və sabit orfoqrafik normalarının hazırlanması və vahid meyarın müəyyən edilməsi vacibdir.Bütün kitablarda, jurnallarda, qəzetlərdə və digər mətbuu məhsullarda adların və sözlərin orfoqrafik baxımdan düzgün yazılmasına hamı riayət etməlidir.Odur ki, dilin orfoqrafiya qanunlarını heç kəs pozmamalı, çoxvariantlılığa yol verməməlidir. Adların dəqiq, mənbədə olduğu kimi öyrənilməsi çox vacibdir, zəruridir. Buna görə də qədim dil mənbələri, məxəzlər, abidələr olduqca dəyərlidir.

Ədəbiyyat

1. Abdulla B.”Kitabi-Dədə Qorqud”un poetikası.B.1999
2. Ə.N.Mikayılova.Onomastik vahidlərin üslubi imkanları.B.2008
3. A.Qurbanov və onun onmastika məktəbi,Bakı.Maarif,1999
4. C.İ.Kazımov.Mahmud Kaşğarlının “Divanü Lüğat-it-Türk” əsərində onomastik leksika. Bakı-2009.
5.Лексикология современного английского языка. The English Word.Автор: Арнольд. И.В.Издательство: Высшая школа.Год издания: 1986 Страниц 295
6.Galperin L.R. An essay in stylistic analysys.Moscow:Higher School Publishing House 1968. 64 r.
7.İnternet news: azerbaijani-studies.com

V. B.Həsənova

The analysys of proper names in English and Azerbaijani languages

Summary

This work is devoted to proper names, to their analysys on English and Azerbaijani languages. It is analysed their own names, development, change, a lexical

and grammatical form and the possibilities of style.It is proved that proper names are a product of thinking of the people and explain history of the people, its tradition, outlook and life.Especially a great place is given to antroponomics, one of the main divisons of onomastics.İn the article the speech also goes about the correct transliteration of proper names.

В.Б.Гасанова

Анализ собственных имён в Азербайджанском и Английском языках

Резюме

Данная работа посвящена именам собственным их анализу по английском и азербайджанском языках. Анализируется собственные имена, их образование, развитие, изменение, лексико-грамматическая форма и возможности стила. Доказывается, что имена собственные являются продуктом мышления народа и объесняют историю народа, её традиции,мировоззрения и жизни. Особенна большое место в работе уделяются антропономике, одному из главных отделов ономастики. В статье так же речь идёт о правильной транслитерации собственных имён.

Rəyçi: B.m Ülviyyə Nəsirova

SANURƏ SƏMƏDOVA
Odlar Yurdu Universiteti
e-mail:semedov755@ mail.ru

NİTQİN MƏDƏNİYYƏTLƏ QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər:nitqin düzgünlüyü,nitqin dəqiqliyi,nitqin ifadəliliyi
Key words: accuracy of speech, exactly of speech, expressiveness of speech
Ключевые слова: правдивость речи, точность речи, изложение речи

Bəşər cəmiyyəti yarandığı vaxtdan hər bir xalqın özünəməxsus mədəniyyəti, dili və bu dili daha da inkişaf etdirmək üçün nitqi formalaşır,zaman keçdikcə isə bunlar inkişaf etdirilərək zənginləşir.

Dil insana məxsusdur. Onun vasitəsilə insan öz fikirlərini, hisslərini bildirir. Dili inkişaf etmiş xalqın nitqi, mədəniyyəti də mükəmməl olur. Əgər danışan adamda ümumi mədəniyyət, lazımı bilik və məlumat yoxdursa, təkcə dili bilməklə, o, düzgün və səlis nitqə yiyələnə bilməz. Eyni zamanda, dili sevmədən, nitqə şüurlu münasibət bəsləmədən, dilçilik və üslubiyyat sahələrinə dair ən düzgün, ən məntiqi fikirləri ifadə etmək mümkün olmaz.

Nitq mədəniyyətinə yiyələnmək çox gərgin əmək tələb edir. Bunu isə hər bir adam özündə müstəqil surətdə, dilə şüurlu münasibət bəsləməklə inkişaf etdirə bilər. Əlbəttə ki,nümunəvi nitqə yiyələnmək üçün dilin qrammatik və tələffüz normalarını gözləmək önəmlidir,çünki bunlar şifahi, yazılı nitqə verilən əsas tələblərdir və nitq mədəniyyətinin ilk mərhələsi hesab edilir. Lakin hər bir nitqi biz nitq mədəniyyəti nöqteyi nəzərindən düzgün hesab edə bilmərik. Hətta ən çox yayılmış şivə və jarqonlar belə ümumilli dilin yalnız müxtəlif növləri hesab olunurlar.Onlar ümumilli dilin əsasını təşkil etmirlər.

Lüğətlərin zənginliyi və genişliyi, qrammatik düzgünlüyü, məntiqi dürüstlüyü, bədii təsviri və səlisliyi ilə fərqlənən nitq mədəni nitq hesab edilir.

Nitq mədəniyyəti, qrammatik cəhətdən cümlələri düzgün qurmaq, fikri aydın, dəqiq və məntiqi ardıcıllıqla, ədəbi dildə bütün tələffüz normalarına riayət etməyi bacarmaq deməkdir.

Ədəbi dildən kənara çıxmaq, ondan uzaqlaşmaq həmişə savadlı və təhsilli adamların, xüsusilə müəllim və alimlərin, yazıçıların böyük etirazlarına səbəb olur.

Bütün bunlarla birlikdə, ədəbi dil heç də donub qalmış heykəl deyildir:o canlı və inkişaf edən bir orqanizmdir.Ədəbi dil cəmiyyətin dəyişən və mürəkkəbləşib çətinləşən həyatı tələblərinə uyğun olaraq, yeni ifadə formaları və vasitələri hazırlayır,vaxtı ötmüş və özünü doğrultmayan sözləri,ifadələri kənara atır,əldə olan ifadə formaları və vasitələrini isə təkmilləşdirir. O, yalnız milli dilin xüsusi normalarla idarə olunan müəyyən bir təbəqəsidir. Ədəbi dil ümumxalq dilində işlənən ifadələrin ümumiləşdirilməsi və insanlar arasında ünsiyyət vasitəsidir.

Natiqlik sənəti dil zənginliyinin göstəricisi və mədəniyyətin qüvvətli vasitələrindən biridir. Natiqlik məharəti dedikdə biz, hər şeydən əvvəl, göz önünə təsirli, aydın, parlaq,ifadəli və kütləvi bir nitqi gətiririk.

Adətən nitq mədəniyyətinin ümumi yüksəlişi ilə əlaqədar olaraq, gözəl və aydın danışmaq bacarığı, yəni natiqlik istedadı da inkişaf etməyə başlayır.

Natiq o zaman məharətli nitqə malik ola bilər ki, o, canlı danışıq dili ilə kitab dili üçün xarakterik olan ifadə və vasitələri tərkib halına gətirib birləşdirə bilsin. Natiqlik məharətinin inkişafı yeni ünsiyyət imkanlarının yaranmasına da imkan verir və ədəbi dilin tətbiqi və genişləndirilməsi üçün şərait yaradır.

Nitq mədəniyyəti termini sözün geniş mənasında yalnız natiqlik istedadına, yəni gözəl və aydın danışmaq qabiliyyətinə malik olmaq demək deyildir. O, eyni zamanda nitqi ifadəli,parlaq, orijinal, həm də maraqlı qurmağı bacarmaq deməkdir.

Yaxşı nitq danışıqda ən müvafiq söz seçməyi tələb edir. Yaxşı nitq o nitqə deylir ki, onda işlədilən sözlər, nəzərdə tutulan məsələnin şərhi üçün müvafiq və məqsədəuyğun olsun.

Yuxarida deyilənlərə əlavə olaraq bildirim ki,nitq mədəniyyətinə yaxşı nail olmanın ədəniyyətinə yiyələnmək hər şeydən əvvəl qrammatika, dilin lüğət tərkibi və orfoepiyası sahəsindəki ədəbi dil normalarını mənimsəməkdən çox asılıdır. Ədəbi dil canlı ictimai hadisə kimi inkişaf edir və təkmill nəticəsində isə bəzi sözlər tədricən aradan çıxır, qrammatik və orfoepik normalar dəyişir, başqa normalarla əvəz edilir, lüğət tərkibi də başqa sözlər hesabına artır.

Yaxşı nitq məfhumunun çox real və obyektiv bir bazası vardır ki, o da üslubiyyatdır. Üslubiyyat dilçilikdə fikir və hisslərimizi ifadə etmək üçün dilin ixtiyarında olan vasitələri oyrənən bir bölmədir.

Nitq mədəniyyəti, söz ustalığı, yaxşı danışıb- yaza bilmək sahəsidir, bu mədəniyyət nitq vasitələrindən effektli istifadə etmək bacarığıdır.

Nitq mədəniyyətinin ən mühüm şərtləri hesab edilən nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyi praktik cəhətdən qrammatikanı bilməklə yekunlaşmır, burada yazılı mətnin və ya şifahi surətdə deyilənlərin tez,həm də düzgün dərk olunmasına kömək edən sözlər seçməyi, hansı ki, onlar üslub tələblərini pozmadan nitqdəki mənaya təmamilə uyğun gəlsin və s. faktlar da nəzərə alınmış olsun.

Öncə qeyd etdiklərimə əlavə olaraq qeyd edim ki, nitq mədəniyyətinə sahib olmağı insan mədəni səviyyəsini zənginləşdirməklə və fəal söz ehtiyyatına malik olmaqla həyata keçirə bilər.İnsanın fəal söz ehtiyyatının artması onun məşğul olduğu işin xarakteri, onun ictimai işlərdə nə dərəcədə iştirak etməsi, təhsili və sairə ilə bağlıdır. İnsan yalnız müntəzəm surətdə klassik və müasir ədəbiyyat nümunələrini, publisist, elmi- kütləvi əsərləri oxumaqla öz fəal söz ehtiyyatını zənginləşdirə bilər.

Nitqin düzgünlüyü, yazıda və danışıqda qrammatik normaları gözləməkdən ibarətdir.

Nitqin ifadəliliyi, fikri elə ifadə etmək istəyidir ki, bu zaman dinləyici və oxucu çətinlik çəkmədən onu başa düşə bilsin.

Nitqin dəqiqlik o deməkdir ki, nitq danışanın fikirlərinə, yəni onun nə demək istədiyinə təmamilə uyğun olsun.

Nitqin dəqiq və aydınlığı çox vaxt sinonimlərin, antonimlərin düzgün seçilməsindən asılıdır. Sinonimlər eyni, antonimlər əks mənada işlənən sözləri bildirsələr də, olar danışanın əşyaya olan münasibətini müxtəlif cəhətdən ifadə edərək ona rəngarəng üslubi xüsusiyyətlər verir. Daha doğrusu nitqi səlis və ifadəli şəklə salmaq məqsədilə sinonim, antonim sözlərdən istifadə etmək daha məqsədəuyğundur.

Həmin sözlərin üslubi xarakteri ilə mətnin ümumi üslubu arasında mütləq bir uyğunluq yaradılmalıdır. Onları bilmək dili praktik surətdə və yüksək səviyyədə qavramağın əlamətidir. Yazıçının sinonim, antonimlərin kasıblığı, onun üslubunun, dilinin kasadlığı ilə izah olunur. Bunlardan istifadə etmək bilavasitə təkrarçılığı aradan qaldırmaq üçün əsas vasitədir.

Müəyyən bir fikir haqqında danışmaq istərkən uyğun sözləri tapıb, üslubu pozmadan, düzgün və yerli-yerində işlətmək üçün dilin lüğət tərkibi haqqında geniş təsəvvürə malik olmaq və nitq məfhumunun nədən ibarət olduğunu tam və aydın bilmək lazımdır. Ədəbi dilin lügət tərkibini bilməmək bəzi adamların nitqində müəyyən səhvlərin əmələ gəlməsinə səbəb olur. Belə adamlar ədəbi dildəki sözləri bilmədiklərindən çox vaxt nitqlərində yalnış və uydurulmuş ifadələr işlədirlər.

Nitqdə hər sözü yerində işlətmək, səhv buraxmamaq üçün danışan adam mənasını bilmədiyi sözləri lüğətdən öyrənməli və ya bilənlərdən soruşmalıdır. Bununla belə nitqdə mənası anlaşılmayan əcnəbi sözlər, dar ixtisasa aid olan və ya az işlənən bəzi ixtisar olunmuş mürəkkəb sözlər yaxud da məhəlli dialektizm və jarqon mənşəli sözlərin işlədilməsi də söylənilən fikrin dərk olunmasını xeyli çətinləşdirir.

Nitq o zaman sadə və təmiz hesab edilə bilər ki, orada işlədilən bütün sözlər dinləyicilərin ümumi səviyyəsinə və xüsusiyyətinə uyğun gəlsin və hamı üçün aydın və anlaşıqlı olsun.

Natiqlikdə bədii təsvir vasitələrindən: epitet(yəni vəsv və bədii təyinlərdən), təşbeh (bənzətmə), təzad(ziddiyyət), metafora(istiarə) və sairədən istifadə olunur.

İfadənin aydın və sadəliyi, cümlələrin qrammatik cəhətdən düzgün qurulması və sözlərin isə yerili-yerində işlədilməsi nitqin dərk olunmasını xeyli asanlaşdırır, ona ifadəlilik verir, onu parlaq, obrazlı hala salır, oxucu və ya dinləyicidə estetik zövq yaradır.

Epitetlərin işlədilməsi yalnız həqiqi , real xasiyyət daşıdığı zaman və əşyanın ən keyfiyyət və xüsusiyyətlərini ifadə etdikdə özünü doğrulda bilər. Nitqdə təşbeh və metaforaları işlətdikdə təsvir olunan əşyanın nə ilə müqayisə edildyi dəqiq surətdə göz önünə gətirilməlidir. Təşbeh və istiarələrin real, həqiqi və həyati olması çox əhəmiyyətlidər.

Şifahi nitqin isə yazılı nitqdən fərqli müəyyən xüsusiyytləri var. Onun özünəməxsus xüsusyyətləri isə mimika, jest və intonasiyadır ki, bunlar danışana öz fikirlərini qısa və yığcam şəkildə izah etmək üçün imkan verir. Lakin yazılı nitqdə belə imkanlar olmadığından o, çox vaxt yığcam deyil, daha geniş və ətraflı olur.

Şifahi nitq bilavasitə eşidilmə qüvvəsilə qavranıldığından,onun məzmunu dərhal dinləyicilər tərəfindən mənimsənilməlidir. Buna görə dinləyicilərə mənası məlum olmayan sözlərin şifahi nitqdə işlədilməsinə qətiyyən yol verilməməlidir. Bundan başqa sözlərin yanlış tələffüzü, vurğu və intonasiyalarda buraxılan səhvlər də nitqin məzmununu dərk etməyi çətinləşdirir və dinləyicilərin diqqətini əsl məsələdən yayındıra bilir.

Danışanın irəli sürdüyü fikirlər yalnız düzgün ifadə olunduğu zaman, dinləyicilərin şüuruna həm tez,həm də dəqiq çata bilər. Bu məsələdə intonasiyanın düzgün işlədilməsi də mühüm rol oynayır.

İntonasiya mürəkkəb bir hadisədir. Bura; səs tonunun alçaldılıb, yüksəldilməsi, nitqin sürəti, tələffüzün qüvvətləndirilib zəiflədilməsi, cümlə daxilin-

də fasilənin olub olmaması və s. daxildir. İntonasiya bizə təsdiq cümlələrini, sual və nida cümlələrindən fərqləndirmək üçün imkan yaradır, cümlənin müəyyən hissəsini də ayırmağa imkan verir. Onun köməyilə şübhə, şadlıq, qəmginlik, kədər və s. kimi hissləri ifadə etmək olur.

İntonasiadan düzgün istifadə etmək nitqin əsasını yaxşı başa düşməkdən asılıdır. Görkəmli şairlərin, və bədii söz ustalarının şeir oxuyarkən intonasiyadan nə qədər böyük bacarıqla istifadə etdikləri bizə məlumdur. Onlar intonasiyadan düzgün istifadə edərək, əsərlərin məzmun və mənasını, buradakı hiss və həyəcanları dinləyicilərə məharətlə çatdıra bilirlər.

Jest (əl-qol hərəkəti). Canlı danışıq dilində bir sıra jestlərdən düzgün istifadə etmək bacarığı da müəyyən əhəmiyyətə malikdir. Lakin nitqi dinləyiciyə çatdırmaq üçün edilən hərəkətlərin hamısı istənilən təsiri göstərə bilmir.

Mexaniki jest, yəni sözlərin məna əhəmiyyətindən asılı olmayaraq, onların ardınca edilən hərəkətlər heç bir şey ifadə etməz. Belə hərəkətlər dinləyicilərin diqqətini nitqin məzmunundan uzaqlaşdırar, onu dərk etməyə mane olar. Bu cür jestləri isə lazım olduqda işlətmək lazımdir. Belə hallarda hərəkət(jest) dinləyicilərin diqqətini nitqin aid olduğu əşyaya yönəldər və onun məzmununu mənimsəməyə xeyli kömək edər.

Mimika dedikdə isə danışanın nitqi zamanı üz əzələlərinin hərəkəti başa düşülür.

Mükaliməli (monoloqlu)nitqdən ən çox kütləvi yerlərdə, yığıncaqlarda istifadə olunmalıdır. Burada çıxış edən öz nitqinin dinləyicilərə necə təsir bağışladığını diqqətlə izləməlidir. Mükaliməli nitqdə əsas cəhət onun məzmunca dərin olmasıdır. Məntiqi cəhətdən ardıcıl qurulmuş məzmun dinləyicilərin diqqətini daha yaxşı cəlb edər. Buna görə çıxış edən həmişə öz nitqini məntiqi qurmağa çalışmalıdır, yəni o, öz çıxışını faklatın təsvirində lüzumsuz olan təfərrüatlarla doldurmamalı, bilavasitə haqqında danışılan məsələ üzərində dayanmalı və ona öz münasibətini bildirməlidir..

Böyük auditoriyalar üçün nəzərdə tutulmuş mükaliməli nitq müəyyən çətinliklərlə bağlı olduğuna görə danışandan xüsusi bacarıq tələb edir. Kütlə qarşısında söyləniləcək nitqin bir sıra çətinlikləri vardır. Bu çətinliklər, hər şeydən əvvəl çıxış edən natiqin məhdud bir vaxt içərisində öz fikirlərini ifadə etmək üçün lazımı sözlər seçib, onları cümlə içərisində düzgün əlaqələndirməsi,öz nitqində məntiqi əlaqəni gözləməsi və dinləyicilərin əhvali-ruhiyyəsini izləməsidirş Kifayət qədər fəal söz ehtiyyatına malik olmayan adamlar üçün qabaqcadan hazırlaşmadan,birdən-birə kütlə qarşısında çıxış etmək çətin olur.Belə adamlar danışıq zamanı qurmaq istədikləri cümlələri çox vaxt tamamlaya bilmir,işlətmək üçün zəruri olan sözləri seçməkdə çətinlik çəkirlər.Bu zaman danışan qabaqcadan nəzərdə tutulmamış yersiz fasilələr etməyə məcbur olur. Bəzən də o, hənim vasitələrdən yaxa qurtarmaq üçün öz danışığı ilə heç bir əlaqəsi olmayan bir çox sözlər işlədir.

Natiq hər bir sözü dinləyicilərə yaxşı çatdırmaq üçün normal sürətlə danışmalı və tələsməməlidir.

Natiqlik üçün əsas şərtlərdən biri də söz sırasının düzgün ardıcıllıqla qurulmasıdır.

Nöqsanları aradan qaldırmaq üçün hər bir çıxışı qabaqcadan ətraflı düşünmək və yazılı şəkildə hazırlamaq lazımdır. Lakin natiq dinləyicilər qarşısında çıxış edərkən həmişə mətnə bağlı qalıb, yazdıqlarını üzündən oxumağa meyl etməməlidir. Çünki, adətən mətni oxuyarkən intonasiya yeknəsəq olur və bu da öz növbəsində

sözləri mənasına görə bir-birindən fərqləndirməyi çətinləşdirir. Digər tərəfdən natiq çıxışının mətnini üzündən oxuduqda oradakı intonasiya,bir çox hallarda, təsirli, emosional və rəngarəng olmur.

Şagirdlərin nitq mədəniyyətini inkişaf etdirməkdə,onların biliklərini dərinləşdirməkdə, sinifdə və sinifdənkənar məşğələlərdə müəllimin nümunəvi nitqi həlledici rola malikdir.Çox zaman müəllimin nitq mədəniyyətinin aşağı səviyyədə olması məktəbdə təlim-tərbiyə işlərinin təsirini zəiflədir, dərs materialını dəqiq izah etməyə mane olur. Bununla əlaqədar olaraq, müəllimin qarşısında çox mühüm bir vəzifə, öz nitqini yaxşılaşdırıb, təkmilləşdirmək vəzifəsi durur. Həmin vəzifənin öhdəsindən müəllim o zaman gələ bilər ki, o, həm öz fənninin elmi əsaslarını və tədris metodikasını yaxşı bilsin,həm də dediyi dərslərin ideya-nəzəri məzmununu zənginləşdirməyi bacarsın.

Müəllimin nitqinə verilən əsas tələb, onun sadə, asan və tez başa düşülməsidir, şagirdlər onun dediklərini çətinlik çəkmədən dərk edə bilməlidir. O, elə etməlidir, ki, onun nitqində yuxarıdakı tələblərlə bərabər: canlılıq, obrazlılıq, cəlbedicilik də olsun. Azərbaycan və ingilis dillərinin özünəməxsus bədiilyi və məlahətliliyi vardır.

Nitq mədəniyyəti ilə təfəkkür mədəniyyəti sözləri eyni mənalı olmasa da, bunların arasında sıx əlaqə və qarşılıqlı asılılıq var. Nitqin şüurlu surətdə təkmilləşməsi zəruriyyətini başa düşməkdə, dilçilik məsələlərindən baş çıxarmaqda dinləyici və oxuculara kömək etmək çox nəcib və mühüm bir vəzifədir.

Ədəbiyyat

1.Abdullayev A.S. Nitq mədəniyyəti. Bakı 1968
2.Babayev A.M. Azərbaycan dili və nitq mədəniyyəti.Bakı 2009
3.Həsənova S.Q. Nitq mədəniyyəti və üslubiyyat. Bakı 2005
4.Abdullayev N.Ə.Nitq mədəniyyətinin əsasları. Bakı 2005
5.Клюканов И.Э.Коммукативный универсиум. Москва 2010

S.Samadova

Interrelation between speech and culture

Summary

This article deals about the culture of speech in linguistic. The culture of speech play the most important role in linguistic.When we speak about the interelation between speech and culture we must attain our atention to the accuracy of speech,expressivness of speech and ritorica.People must be use from the means of figurative description, jest and mimika and pay attention to intonation when they want to achieve to the culture of speech.

С.Самедова

О связи речи и культуры

Резюме

Это статья посвящена речевой культуре раздела лингвистика. В языкознание речевой культуре отводится особое место. Когда мы говорим о связи речи и культуры должна обращать внимание на правдивость речи ,точность, на изложение речи и риторику. Чтобы овладеть речевой культурой, надо обратить внимание на жест, мимику, на использование изобразительно- выразительных средств языка.

Rəyçi: B.m Ülviyyə Nəsirova

NƏRGİZ İSMAYILOVA
Odlar Yurdu Universiteti
E-mail: nergiz_272@mail.ru

ŞEKSPİRİN SONETLƏRİNDƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİ

Açar sözlər:ifadə vasitələri, sonetlər, bədii ədəbiyyat
Key words:stylistic devices, sonnets, fiction
Ключевые слова: стилистические приемы, сонеты, художественная литература

Bədii ifadə vasitələri bədii dilin çox mühüm tərkib hissəsidir və onların işlədilməsi mühüm əhəmiyyət kəsb edir.İfadə vasitələri əsərin bədii cəhətdən qüvvətlənməsinə təsvir, tərənnüm olunan hadisənin oxucuya daha qabarıq çatdırılmasına xidmət edir.Hadisəni, danışığı şirinləşdirir, onun bədii təsir gücünü artırır. Dilçilikdə bunlar məcazlar, ədəbiyyatşünaslıqda isə "bədii təsvir və ifadə vasitələri" adlanır. Bədii ifadə vasitələrindən povestlərdə, romanlarda, hekayələrdə və bir çox janrlarda geniş istifadə olunur.Yazıçı bədii əsərdə oxucuya təqdim etdiyi surətləri zəngin dil materialının köməyilə yaradır və fərdiləşdirir.Həmin surətlərin nə dərəcədə müvəffəqiyyətli alınması yazıçının dil materialından düzgün istifadə bacarığından asılıdır.Hər bir şair və yazıçı ümumixalq dilindən xammal halında götürdüyü söz və ifadələri işlədərkən hansı ifadə vasitəsinin daha effektiv, təsirli olduğunu özü üçün müəyyənləşdirir və istifadə edir. Məsələn, *eye* –göz sözünə nəzər salaq .Əgər insanın gözü, iynənin gözü deyilirsə eye-göz sözü birinci -əsl mənasındadır.Məs: He grasped the main idea (O,əsas ideyanı tutdu), Pity melted her heart (Kədər onun ürəyini əritdi).Grasp (tutmaq) və (melt) əritmək felləri ilkin mənasında yox məcazi mənada işlənmişdir.Bunu daha yaxşı dərk etmək üçün bu felləri öz ekvivalentləri ilə müqayisə etmək lazımdır.He understood the main idea(O, əsas ideyanı başa düşdü), (Kədər onun ürəyini yumşaltdı).Beləliklə, aydın olur ki, sözün məcazi mənası onun bilavasitə daşıdığı məna deyil, əlavə kəsb etdiyi , şərti mənasıdır.

Antik dövr dramaturgiyasından söz düşəndə ilk ağıla gələn Esxil, Sofokl adları olursa İntibah dövrünün dram sənəti zirvəsində şübhəsiz görkəmli ingilis dramaturqu Vilyam Şekspirin adı çəkilir.Onun əsərlərinin əsas leytmotivi insan ləyaqətinin ucalığı, insanpərvərlik, həyatilik və məhəbbət kimi bəşəri hisslərdir. Bəşəriyyətin indisi və gələcəyi üçün narahatlıq keçirən sənətkarın humanizm ideyaları, gerçəkliklə ideal arasındakı uçurumun mahiyyəti yazdığı faciələrində daha şaxəli şəkildə təsvir olunmuşdur.Dahi ingilis şairi və dramaturqu Şekspirə ən böyük şöhrəti onun dramaturgiyası, xüsusilə də faciələri gətirmişdir.İyirmi illik yaradıcılığı müddətində Şekspirin dünyaya, ətrafda gedən proseslərə münasibəti üç köklü dəyişikliyə uğramışdır.Yaradıcılığının birinci mərhələsində yazdığı əsərlər nikbin əhval-ruhiyyədə olmuşdur. Ümumiyyətlə, Vilyam Şekspirin yaradıcılığı üç əsas dövrə bölünür:1.Optimistik dövr, 2.Pessimistik dövr, 3.Romantik dövr.(1590-1601)-ci illəri əhatə edən Optimistik dövrdə Vilyam Şekspir poemalar, sonetlər, komediyalar, pyeslər və faciələr ("Julius Caesar" , "Romeo and Juliet"), (1601-1608)-ci illər pessimistik dövr adlanır, bu dövrdə tragediyalar və komediyalar ("Hamlet", "Othello", "Macbeth", "Measure For Measure", "Pericles , Prince of Denmark") , (1608-

1612)-ci illər isə Romantik dövr adlanır, bu dövrdə yazdığı yazdıgı "Henry VIII" və "The Tempest"idi.

Sonet 14-cü əsrdə İtaliyada yaradılıb və Petrarx tərəfindən təkmilləşdirilib. Sonralar bu janr bütün Qərbi Avropa ölkələrinə yayılır, artıq 16-cı əsrdən etibarən İngiltərədə çox geniş istifadə olunur və kifayət qədər məhşurlaşır. Vilyam Şekspir, sonralar isə John Milton bu janrı təkmilləşdirir və ən yüksək səviyyəyə qaldırır. Sonet janrına qədər Avropa ölkələrində adətən iri həcmli olan ballada janrı geniş yayılmışdı.Cəmi on dörd misralıq poetik nümunə olan sonetin bu və ya digər fikrə çevik münasibəti şairləri özünə cəlb edirdi ki, V.Şekspir də həmin cazibədən kənarda qala bilməmişdir. Şekspir 37 pyes(faciə, komediya və tarixi –xronoloji janrlarda) və 154 sonetin müəllifidir V..Şekspirin sonetlərinin böyük əksəriyyəti məhşur "dark lady"- "Əsmər sevgili"sinə və gənc dostuna həsr olunmuşdur.

Sonet insan xarakterinin, onların şəxsi hislərinin, sevgilərinin göstərilməsi və tənqid olunması üçün ən mükəmməl janrlardan biridir.Yəni, sonetlərin mövzuları rəngarəng olduğundan oxucu heç bir yeknəsəqliklə üzləşmir.Şekspir cəmiyyətdəki neqativ halları onun yaratdığı, çətinlikləri görürdü.Bu cür problemlər Şekspirin sonetlərinin bir qismindən ana xətt kimi keçir.Bir sıra araşdırmalar əsasən, Azərbaycan poeziyasında sonet janrına müraciət edən ilk şair Mikayıl Müşviq və Əliağa Kürçaylı olmuşdur. Qətiyyətlə demək olar ki, Şekspirin sonetləri şairin xələflərinin, müasirlərinin sonetlərindən daha təsirli və sərrastdır.

Bədii ifadə vasitələri aşağıdakılardır:metafora, metonimiya, ironiya, hiperbola, litota, epitet və s.Bədii dildə çox geniş istifadə olunan məcaz növlərində biri metaforadır. *Metafora* yunan sözü olub *köçürmək* deməkdir.Bir əşya və yaxud hadisənin müəyyən əlamətinin başqa əşya (yaxud hadisə) üzərinə köçürülməsinə metafora deyilir və bu köçürülmə gizli köçürülmədir. Metafora dilin təsir gücünün artmasında, bədii ədəbiyyatda isə sənətkarın yaratdığı obrazın xüsusiyyətlərinin ifadə olunmasında ciddi əhəmiyyət kəsb edir və Vilyam Şekspirin sonetlərində də metaforalardan geniş istifadə olunmuşdu.

For example: Thy unused beauty must be tombed with thee, Which, used, lives th'executor to be. (unused beauty must be tombed with thee)
Məs: Gələcək zamanın sürəti, gerçək,
Sənինlə bərabər dəfn ediləcək. (Gələcək dəfn ediləcək)

Hər gün istifadə etdiyimiz terminlər artıq öz təsirini, ifadəliliyini itirdikdə bu zaman metaforalardan istifadə olunması labüddür.Bildiyimiz kimi metaforalar təkcə sözün mənasını yox, həmçinin lüğəti də zənginləşdirir.Metaforalar öz metaforik xüsusiyyətini itirdikdən sonra onlar adi söz sırasına qoşulur və ölü (dead or faded) metaforalar adlanır.Ölü metaforalar bütün dillərdə mövcuddur. . Metaforaların arasında head of an army-Ordunun komandanı, arms and mouth of a river-Çayın ağzı və qolları və s. ən çox rast gəlinəni Antropomorfik (Anthropomorphic) metaforalardır. *Antropo* yunan sözü olub *"insan*" deməkdir. İnsan bədənin hissələrini bildirən sözlər məcazi formada müxtəlif mənaları ifadə etmək üçün işlənir.

Məs: (of a table)-stolun ayağı, eye (of a needle)-iynənin gözü, teeth(of a saw) – mişarın dişi.

Köçürülmüş mənanı konteksdən çox asanlıqla müəyyənləşdirmək mümkündür. Ümumiyyətlə, yadda saxlamaq lazımdır ki, bədii ədəbiyyatda istifadə olunan bədii ifadə vasitələri dilçilikdəki ifadə vasitələrindən fərqlənir.Poetik metafora

müəllifin yaradıcı təxəyyülünün məhsuludur.Məs:İngiltərə Şekspirin (King Richard II) əsərində belə adlandırılmışdır.”This precious stone set in the silver sea” (Bu qiymətli daş gümüş dənizdə salınıb).Bəzən poetik metaforalardan satirik məqsədlər üçün də istifadə olunur. Məs: “The world is a bundle of hay”, ”Dünya bir bağlama ot tayasıdır”. Linqvistik metaforalardan gündəlik həyatda geniş istifadə olundduğu üçün müqayisə tamamilə unudulur yəni onlar adiləşir. Məs: leg (of a table)-stolun ayağı.

Bədii dildə tez-tez rast gəlinən və danışığı , mənanı qüvvətləndirən , şirinləşdirən məcaz növlərindən biri də Metonimiyadır.Yunanca *metonomadro* sözündən olub, metonimiya *ad dəyişmə* mənasını bildirir. Belə məcaz növlərinə adi danışıqda da tez-tez rast gəlinir.Metafora və metonimiya bir-birindən bəzi xüsusiyyətlərinə görə fərqlənir.Metaforada qarşılaşdırılan tərəflər bir-birindən tamamilə uzaq olan predmetlərdir, lakin metonimiyada isə qarşılaşdırılan tərəflər bir-birinə yaxın olan predmetlərdir.Metonimiyanın ən sadə forması Sinekdoxadır.Sinekdoxada bir əlamət bütöv anlayışı, hissə isə tamı əvəz edir.Əslində metonimiya və Sinekdoxa arasında kəskin fərq yoxdur və nəzərdə tutmaq lazımdır ki, bütün sinekdoxalar metonimiyadır.

Məs: şəhər (town) sözü şəhərin bütün sakinlərinin əvəzinə işlənir.

The whole **town** was out in the streets(the people of the town).

Bütün şəhər küçələrdə idi(şəhərin sakinləri).Şekspirin sonetlərindən metonimiyaya aid bir nümunə göstərək.

Məs: And summer‘s green, all girded up in sheaves,
Borne on the bier with white and bristly beard. (bristly beard)
Gedər-gəlməz yollarda ölü arabasından
Çalsaqqal topa dərzlər baş eləyər bizə də. (Çalsaqqal)

Bədii dildə çox istifadə olunan ifadə vasitələrindən biri də *Mübaliğədir. Hiperbola* yunan sözü olub *mübaliğə, şişirtmək, artırmaq* mənasını bildirir. Nəzərə çatdırılacaq hadisənin, hiss-həyəcanın olduğundan daha güclü, qüvvətli, qabarıq verilməsinə, şişirdilməsinə mübaliğə deyilir. Şişirdilmiş şəkildə deyilmiş ifadələr qəhrəman haqqında müəyyən təssəvürlər yaradır. Buradan aydın olur ki, mübaliğə bədii surət yaratmaq üçün çox əhəmiyyətli vasitələrdən biridir. Mübaliğəyə istər xalq yaradıcılığında, klassik və müasir yazıçıların yaradıcılığında da rast gəlmək mümkündür. Mübaliğə hadisənin mahiyyətini, məzmununu böyütməyə əsaslandığı üçün reallıqdan uzaq olur.Lakin bütün bunlara baxmayaraq, oxucuya xoş təsir bağışlayır və əsərin ideya-estetik cəhəti ilə sıx surətdə bağlı olur.Mübaliğələrdən bədii ədəbiyyatda və peziyada istifadə olunur ancaq elmi mətnlərdə istifadə olnumur, çünki, burada ifadənin dəqiqliyi, düzgünlüyü çox vacibdir. Gündəlik nitqimiz hiperbolik ifadələrlə zəngindir. Mübaliğənin ən səciyyəvi xüsusiyyətlərindən biri onun emosional intensivliyidir. Adi danışıq dilində hiperboladan istfadə etdikdə intonasiya çox güclü olur, səs qalxır , enir yəni nitqi daha da ifadəli edir.

Məs:I’d give the world to see her (Mən onu görmək üçün dünyanı verərdim).

Bəzən hiperbolalardan çox istifadə olunduqda onlar öz xüsusiyyətlərini itirirlər və daha qüvvətli mübaliğələrlə əvəz olunurlar.

Kinayə – Söz sənətkarının əsərdə çox tez-tez istifadə etdiyi ifadə vasitələrindən biri də Kinayədir. *Kinayə* yunan sözü olub *tənə etmək* deməkdir. Ədəbiyyatşünaslıqda kinayə əvəzinə ironiya terminindən də istifadə olunur.Kinayəyə gündəlik danışıqda da çox müraciət olunur.İroniya istehza , hiyləgərlik mənasını bildi-

rir. Fikrin ifadə tərzinin onun daxili mənasına qarşı qoyulması *kinayə* və yaxud *ironiya* adlanır. Kinayədə adətən mənfi cəhət, müsbət görünüşlə təqdim olunur və tənə şəklində bildirilir. Əgər hamının qorxaq kimi tanıdığı adamın şücaətindən, tənbəl adamın qoçaqlığından, savadsız adamı alim kimi qələmə vermək və xəsis adama səxavətli deyilməsi və s. kinayə yaradır.

Kinayə üçün xarakterik olan digər bir cəhət də ondan ibarətdir ki, fikrin ifadə tərzi onun daxili mənasına qarşı qoyulur, ifadəyə emosionallıq gətirir.Bu təsir gücü nəticəsində də kinayə olunan mənfi tip sarsılır.Kinayə xarakteri daşıyan söz, ifadə üçün həyəcan, gərginlik, yüksək ton deyil, sakitlik və təmkinlik əsas şərtdir, çünki, istənilən halda sakit vəziyyətdə deyilmiş sözlər daha dərin, ciddi və təsirli olur. Kinayənin daha kəskin forması *təriz*, yaxud *sarkazm* adlanır.Bədii ifadə vasitələrinə də istər nəsrlə, istər də nəzmlə yazılmış əsərlərdə rast gəlmək mümkündür.Şekspirin sonetlərində də kinayədən geniş istifadə olunub.Məs:

Then, beauteous niggard, why dost thou abuse (beauteous niggard)
The bounteous largess given thee to give?
Ey sevimli xəsis, o borcu hər vaxt (Sevimli xəsis)
Əgər mənimsəsən olmazsan heç şad.

Ədəbiyyat

1.Vilyam Şekspir. Seçilmiş əsərləri. İki cilddə. II cild. "Öndər nəşriyyat", Bakı, 2004, 304 səh.
2. Лексикология современного английского языка. The English Word Автор: Арнольд И.В. Издательство: Высшая школа Год издания: 1986 Страниц: 295
3. English Stylistics / Стилистика английского языка Автор: Гуревич В.В. Издательство: Флинта, Наука Год: 2007 Страниц: 72
4. Sonnets by WILLIAM SHAKESPEARE 1609 © 2001, Global Language Resources, Inc
5. Автор: R. Abeltina, Dz. Fleija, A. Misany, Год 1976 Страниц 340
6. Gözəlova Kifayət Məcid qızı.İngilis dilinin leksikologiyası fənninin semasiologiyası bölməsi üzrə mühazirə mətnləri və silsilə tapşırıqlar- Bakı:"Mütərcim" 2005 – 56 səh.

N.R.Ismailova

Expressive means in Sheakespeare`s sonnets

Summary

In this article use of means of expression of speech in Shakespeare's sonnets is investigated.Speech means of expression in the art text are connected with expression of individual perception of world around. From them literary fabric which creates an image which is exciting us and emotionally influencing us an image of a work of art is weaved. Words gain additional values, stylistic coloring, create the special world into which we plunge, reading fiction. For this reason, Shakespeare's sonnets for several decades it is estimated by literary critics as masterpieces of the art wor

Н.Р.Исмайлова

Стилистические приемы в сонетах Шекспира

Резюме

В этой статье исследуется использование выразительных средств речи в сонетах Шекспира. Выразительные средства речи в художественном тексте связаны с выражением индивидуального восприятия окружающего мира. Из них сплетается литературная ткань, которая создает образ, волнующий нас и эмоционально воздействующий на нас образ художественного произведения. Слова приобретают дополнительные значения, стилистическую окраску, создают особенный мир, в который мы погружаемся, читая художественную литературу. Именно поэтому, сонеты Шекспира уже на протяжении нескольких десятилетий оценивается литературоведами как шедевры художественного слова.

Rəyçi: B.m Ü. Nəsirova

SUQRA RƏHMANOVA
BDU

S.XƏTAİ DİLİNİN FONETİK-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Nəzər qıl, Kəmiyyət kateqoriyası, gələcək zaman.
Ключевые слова: Нязяр гыл, author characthrizes, category
Key word: специализирован интенсивно, современном языке.

S.Xətai az yaşamasına, vaxtının çoxunun dövlət işlərinə sərf etməsinə baxmayaraq zəngin və çoxcəhətli bir irs yaratmışdır. O həm əruz, həm də heca vəznində, həm epik, həm lirik janrlarda qələmini işlətmiş, yaddaqalan, nümunə, örnək ola bilən əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. Onun səmimi, ürəkdən qopub gələn, zamanın qarşıya qoyduğu tələblərə cavab kimi meydana çıxan poeziyası çox vaxt siyasi-ictimai fəaliyyəti ilə birləşməsidir. Bu poeziya gah qılıncla bərabər döyüş meydanlarına getmiş, gah müdrik ağsaqqal təriqət şeyxinin öyüdlərinə çevrilmişdir., gah da dünyaya və insana məhəbbətlə dolu bir qəlbin, tərcümanı olmuşdur. Bu poeziya qəhrəmanlığa, gözəlliyə, mənəvi saflığa məhəbbətlə, şərə, eybəcərliyə, əqidəsizliyə, dönüklüyə, cılızlığa nifrətlə doludur. Bu poeziya hər şeydən əvvəl, mənəvi azadlıı təsdiq edir.

Xətainin şerlərində gah real insan, --- qəhrəman məğrur, azadfikirli, söz qüdrətinə inanan bir varlıq kimi tərənnüm olunur, onun ölməzliyi, əbədiliyi ən ağıllı bir şəxs olması, düşmənlərin canına vəlvələ salmağa qadir olduğu dönədönə nəzərə çatdırılır.

Xətai ədəbi irsinin mühüm bir hissəsini heca vəznində xalq şeiri formalarında yazılmış əsərlər təşkil edir. heca vəznli şeir müəllif qələmində sınanır.

Doğrudur, bu forma xalq arasında Xətaidən əvvəl də, olmuşdur, lakin onu yazılı ədəbiyyata gətirən Xətaidir. Hökmdar şair xalq şeiri ənənələrində tərbiyələnən nisbətən az savadı adamlara geniş kütlələrə, müridlərə müvafiq yanrların daha əlverişli olduğunu duymuş, onların sevdiyi, başa düşdüyü formalardan istifadə etməyi özünə borc bilmişdir.

Ümumiyyətlə, Xətai şeirinə xas bir keyfiyyət olan sadəlik və aydınlıq onun heca vəznli şeirlərində daha qabarıq şəkildə nəzərə çatdıran heca vəznində yazdığı qoşma, gəraylı, ----, bayatı, nəfəs və ilahilərində öyrənmək, ibrət almaq üçün nümunə olmaq dərəcəsində oxucularını diqqətli, ehtiyatlı olmağa, əqidə, məslək yolunda sədaqətlə yürüməyə çağırır.

Müəllif yaradıcılığında dil vahidlərinin fonetik qabığında müxtəlif çalarlarda təzahür edən hadisələr və ya ümumiləşmiş halda fonetik hadisələr təcəssüm olunur.

Fonetik hadisələrin bəzisi tam halda ümumi prosesə çevirmək qanuniləşir, bəzisi isə ümumiləşmiş halda deyil, məhdud dairədə qanuniləşir.

İltisaqi dillərdə, xüsusən türk dillərində və o cümlədən Azərbaycan dilində ahəng qanunu adlanan bir qanun vardır ki, bu qanuna görə sözün tərkibində olan səslər, xüsusən sait səslər həmahəngdirlər.

Belə bir cəhəti qeyd etməliyik ki, XI əsrin böyük türkoloq – dilçisi Mahmud Kaşğari bu hadisəni müşahidə etmiş və ahəng qanununun həm samitlərə, həm də saitlərlə əlaqəsini aid olduğunu təsbit edən misallarla yanaşı bu qanun

haqqında ağlabatan izahat vermişdir. Hətta M.ka.ğari bu qanunla əlaqədar olaraq kəlmələr, şəkilçilər qafu və kaflı deyə iki qrupa bölmüş, məsdər şəkilçisinin qaflı kəlmələrdə –maq, kaflı kəlmələrdə isə –mək olduğunu xüsusi qeyd etmişdir. Bütün bunları nəzərə aldıqda ahəng qanununun dar mənada, həm saitlərin ahəngi, həm də saitlərlə samitlər kökü başlıca üç növdə təzahür edən geniş dairəli bir qanun kimi müəllif yaradıcılığında da öz əksini tapmışdır.

Müəllif dilində bir sıra uzun saitlər alınma sözlərdə işlənir, sait səslərdə variantlıq özünü göstərir.

Çun könül xalqın ucundan düşdü zulfin qeydinə
Bigünah oldurməgil hər ləhzə, aram et mənə.

Türk dilləri ailəsindən olan Azərbaycan dilində heca vurğusu sabitdir, çünki heca vurğusunun əsas mövqeyi, yəni təhkim olunduğu məqam sözün son hecasıdır. Bunu aşağıdakı nümunələrdə müşahidə etmək olar:

Bu Xətai ləblərin eşqində gər ah eyləyə,
Ahının suzindən olur xak ol kuhi-səhərdə.
Zahida, sən fağır ol, ahimdən – inkar eyləmə,
Kim, mənim bağrımda çoxdur gəmzələrdən yazılır.

Azərbaycan dilindəki sabit vurğu müəllif dilində sözün tərkibindəki hecaların məkanına, ya da sonuncu heca məkanına təhkim olunan vurğudur və buna görə də dilimizin təbiəti ilə quruluş sistemi ilə əlaqədar bir xüsusiyyətdir.

Azərbaycan dilindəki heca vurğusu son hecaya təhkim olunması baxımından sabit sözün şəkilçiləşmə yolu ilə dəyişməsi nəticəsində öz əvvəlki mövqeyini sonrakı hecaya keçməsi baxımından sabit, sözün şəkilçiləşmə yolu ilə dəyişməsi nəticəsində öz əvvəlki mövqeyindən sonrakı hecaya keçməsi baxımından keçici vurğu sayılır.

Fikrin müxtəlif məna çalarlarında ifadə etmək üçün cümlə daxilindəki bu və ya digər sözün xüsusi vurğu ilə tələffüzündən də istifadə oluna bilir.

Xətayı, şükr qıl həq qüdrətinə
Ki, həqqini bilməyən əhli-xətadır.

Nümunədə məntiqi vurğunun xüsusiyyətlərinin əks etdirmiş olduğunu, məntiqi vurğunun iştirakı ilə tələffüz olunan sözə vurğulu söz adlandırmaq məqsədəmüvafiqdir.

Dövrün fonetik normasında ərəb, eləcə də fars sözlərinin artıq istər-istəməz onun fonetik normalarına təsir göstərir: əgər, xüsusilə ərəb sözlərinin öz imlası ilə yazılmas ənənəsinin ----- olduğu aydındır. Hətta minlərlə, sözlər ədəbi dilə tamamilə qeyri-milli, xalq dilinin adət etmədiyi formalar gətirirə və

Yandırıb hicran odu könlümü verdi bağə gor,
Dutdu əflaki-cəhan qeydi göy də qarələr

nümunəsində Azərbaycan sözləri etnik fonetikasından bəzən məhrum olur, alınma sözlərin fonetikasının verdiyi anologiya ilə «badə», «qarə» şəklində tələffüz edilir və müəllif yaradıcılığı üçün səciyyəvi sayılır.

Alınma sözlərin artımı hər şeydən əvvəl ahəng qanununun daha tez-tez pozulmasına səbəb olur, afitab, rüksar, bizəban, asiman ruzigar (sözlərin hamısı Xətainin qəzəlindən götürülmüşdür) kimi çox işlənən sözlər ahəng qanununun fəaliyyəti dairəsinin daralması barədə təəssürat yaradır. Azərbaycan mənşəli sözlərdə isə ahəng qanununun bəzi istisnaları çıxmaq şərti ilə, tarixi fəaliyyətini davam etdirir, bir sıra alınmalardakı formal qanunauyğunluq da həmin fəaliyyətin həcminə təsir edir: qurban, gerçək, zəman, firqət kimi leksik vahidlərdə

sinharmonizmin, formal da olsa, gözlənilməsi ana dilinə məxsus tarixi qanunauyğunluğun təəssüratını doğurur.

Fonetik prinsip tələffüz olunan səsin yazıdakı hərflə ifadəsi prinsipi mənasında, fonetik prinsip isə müxtəlif calarlarda tələffüz olunan səslərin vahid əsası sayılan fonetik yazıdakı hərflə ifadəsi prinsipi mənasında işlənilir.

Fonetik prinsip bu və ya digər şərait ilə bağlı olaraq sözlərin fonetik tərkibində əmələ gələn dəyişikliyin tələffüzündə qanuniləşmiş növlərini əhatə edir. Məsələn, bəzən kar saitlərin cingiltisi, bitişdirici samitlərin artırılması, şəkilçi qəbul edərkən bəzi sözlərin kökündən müəyyən saitin düşməsi, xüsusən Azərbaycan dili üçün çox əlamətdar sayılan ahəng qanunu əsasında şəkilçilərin variantlarla tələffüzü kimi fonetik hadisələrin yazılışı da fonetik prinsiplə əlaqədardır. Çünki belə hallarda sözdə əmələ gələn dəyişiklik tələffüzdə əks olunur və bu tələffüzə uyğun surətdə yazıya köçürülür.

Ey Xətayi, sidq ilə bu şah əyağinə gələn
Aqibət bir gün, dümansız, xəlq içində boş ola

Aşiq odur ki, dəəci edərsə sözünə
Qanlı yaş ilə çoşreyi-zərdi güvah ola.

Hicr evində mən kiminlə həmdəm olum, ey sənəm,
Könlümüz şəhrində mehman səndən özgə kimsə yox.

Xətayi dilindən gətirilən bu nümunələr yuxarıdakı fikirlərimizi bir daha dəqiqləşdirilir.

Müəllif yaradıcılığında fonetik prinsipdən daha çox istifadə etmək ədəbi dil normalarının sabitləşdirilməsi, ümumiləşdirilməsi, həm düzgün yazı, (orfoqrafiya), həm də düzgün tələffüz (orfoepiya) qaydalarını asanlıqla mənimsəmək üçün zəmin yaradır.

Müəllif yaradıcılığında tarixi – ənənəvi prinsip Azərbaycan dilinin öz sözlərinin və şəkilçilərinin yazılışında əks olunur.

Bu baxımından orfoqrafiya qaydalarının maddələrini xüsusi qeyd etmək olar:

Son səsi ***d***, həm də ***t*** ilə deyilib **d** ilə yazılan, məsələn: ***fəryad***

Son səsi ***k, g*** və ***y*** ilə deyilən ikihecalı sözlər ***k*** ilə yazılır; məsələn: ***çiçək***

Son səsi ***c, ç, j*** və ya ***ç*** ilə deyilən sözlər ***c*** ilə yazılır, məsələn: ***sətrənc***

Müəllif yaradıcılığında alınma sözlərin və şəkilçilərin işlənilməsi orta ərəb və fars mənbələrinə əsaslanır.

Xətai ədəbi irsinin mühüm bir hissəsini heca vəznində xalq şeiri formalarında yazılmış əsərlər təşkil edir. hökmdar şairin bu sahədəki xidmətləri xüsusilə təqdirə layiqdir. Burada bircə onu demək kifayətdir ki, heca vəznli şeirimizin tarixi Xətayi ilə başlayır. Düzdür, bu forma xalq arasında Xətayidən də əvvəl olmuşdur, lakin onu yazılı ədəbiyyata gətirən ona yazılı ədəbiyyatımızda yaşamaq vəsiqəsi verən Xətayidir. Şairin xalq şeiri formalarına müraciət etməsi həyatın tələbindən irəli gəlirdi. Hökmdar və mürşid şair fikirlərini daha çox xalq şeiri ənənəsi əsasında tərbiyələnən, nisbətən az savadlı olan və ya tam savadsız olan geniş kütlələrə, müridlərə, qızılbaş əsgərlərə çatdırmaq üçün doğma janrların daha əlverişli olduğunu duymuş, onların sevdiyi, anladığı, başa düşdüyü formalardan istifadə etməyi özünə borc bilmişdir.

Bu şeirlərdə xalq ruhuna və zövqünə yaxınlıq xüsusi yer tutur. Xətayinin siyasi, əxlaqi, estetik baxış və görüşləri bu şeirlərdə son dərəcə aydın və sadə tərzdə ifadə olunur. Ümumiyyətlə, Xətayi şeirinə xas bu keyfiyyət olan sadəlik və aydınlıq onun heca vəznli şeirlərində daha qabarıq şəkildə nəzərə çarpır.

Xətayinin heca vəznində yazdığı qoşma, gəraylı, varsağı, bayatı, nəfəs və ilahilər indi də öyrənmək, ibrət almaq üçün həmişə nümunə olmaq dərəcəsindədir. Bu şeirlərdə mürəkkəb, ziddiyyətli bir dövrün hərarətli səsi duyulur.

Xətayinin heca vəznində, xalq şeiri formalarında yazdığı əsərlər yeni bir istiqamətin başlanğıcı olmuş, bu meylin get-gedə güclənib aparıcı mövqe qazanmasına gətirib çağırır. Onun istər heca, istərsə əruz vəznində yazdığı əsərlər klassik yazılı ədəbiyyatımızın ən qiymətli nümunələrindən biri sayılır.

XV-XVI əsrlərdə Azərbaycan ədəbi dilinin normaları fərq dövrlər deyil, mərhələlər ayırmağa imkan verir. Klassik üslubun nüfuzunun artması ilə klassik normalılıq güclənir və burada yazının ədəbi hakimiyyəti də öz işini görür. Qeyri-türk mənşəli vahidlərin funksionallığının genişlənməsi diqqəti cəlb edir, həm fonetik, həm leksik, həmdə qrammatik normada alınmaların bu və ya digər dərəcədə mövqeyi yüksəlir. Lakin bu heç yerdə normanın məzmunun milliyinin aradan qalxması deyil, qeyri – türk mənşəli vahidlər, haqqında bəhs olunan mərhələdə bəzən türk mənşəli vahidləri sıxışdırsa da, adətən həmin türk mənşəli vahidlərin tarixi işlənmə təcrübəsini qəbul edir.

Xətayi dilində morfoloji xüsusiyyətlər leksik-qrammatik söz qruplarının diferensiallaşması ilə səciyyələnir. Sözlərin nitq hissələri üzrə təsnifi üçün əsas meyarın seçilməsi nitq hissələri üzrə nitq məsələləri probleminin diqqət mərkəzində olan məsələsidir.

Bu da nitq hissəsi nəzəriyyəsinin əsas vəzifəsi məhz sözləri təsnif etməkdən ibarətdir ki, bu da morfologiyanın öz öhdəsinə düşür.

Sözlər leksik-qrammatik cəhətdən ənənəvi olaraq iki yerə bölünür: 1) əsas sözlər: 2) köməkçi sözlər.

Əsas sözlər mənasının dolğunluğuna görə nitqin əsas məzmununu təşkil edir. Köməkçi sözlər hökmün müxtəlif üzvləri arasındakı əlaqə və münasibətlərini bildirməyə xidmət edir. burada nida kateqoriyasına daxil olan sözlər istisna təşkil edir və sadəcə olaraq bilavasitə nitqin məzmununa uyğun gələn emosional vəziyyəti ifadə edir.

İsim kateqoriyasına dilin elə sözləri daxildir ki, onlar mövcud və ya xəyali varlıq formalarını bildirir, ancaq həmin varlıq formalarının mövcudiyyət tərzinə dair göstərişə malik olunur. İsimlər müəllif dilində fakt və anlayışlar haqqında ümumiləşdirilmiş təsəvvürləri ifadə edir. İsim kateqoriyasına nümunəvi sayıla biləcək sözlər xüsusi isimlər hesab olunur. Bu isimlər atributiv məqamda işlənə bilmir. Qrammatik kateqoriyaların ifadəsində ümumi təkamül prosesi gedir:

Yüzümni xaki-pa qılaram asitatinə,
Ta kim, dəgə yüzümə sadətlü daməni.

Yüzümni leksik vahidində – ***ni*** morfoloji göstəricisi müəllif yaradıcılığı üçün səciyyəvi olub dövrün normativ dil faktlarıdır.

Yönlük halın morfoloji göstəricisinə artırılan «***y***» bitişdirici ünsürü dövrün tələblərindən irəli gələn xüsusiyyət kimi müəllif dilini səciyyələndirir.

Leyli zülfünün xəyaluyi Məcnun təki
Məskənin kuhü səhra qıldığı, yəni ki, nə?

Aləmi – bəhri – tənəyyürdə gəzərkən binəva.
Guşumdin girdigeyibdən bir nidavü xoş səda

Göründüyü kimi bir nümunədə (guşumdin) həm mənsubiyyət kateqoriyasının göstəricisi, həm də çıxışlıq halın müəllif dili üçün müasir dillə müqayisəli – ***din*** qrammatik göstəricisi öz əksini tapır.

Ey sənəm, yolunda bu aləm fədadır, ey can,
Bəlkə quldurur sana aləmdə hər sultan dəxi

- ***durur*** xəbərlik kateqoriyasının morfoloji göstəricisi bilavasitə cümlədə verilmiş bu və ya başqa hökmün bitməsinə xidmət edir. tarixən – ***dur*** ilə –***durur*** arasında müəyyən yaxınlıq olduğu dilçilikdə təsdiq olunmuş bir faktdır.

Kəmiyyət kateqoriyası müasir dilimizə müvafiq qaydada -lar[2] şəklində müəllif dilini səciyyələndirir.

Leksik – qrammatik söz qruplarının tarixi normativliyi davam edir.

Sifət geniş mənada əlamət bildirir. Sifətlərin ismə aid olunan xüsusiyyətibu iki kateqoriyaların proobrazlarının münasibətindən başqa sözlə faktların birinci əlamət və keyfiyyətlərin isə ikinci olmasından irəli gəlir.

Götürgil ağ yüzündən qara zülfü,
Niqabın aç, liqa istər Xətai (adi)

Axançaylar, axan arxlar, bulaqlar,
Yerindən mövsümtül urub ümnanə gəlsün (azaltma)

Suzi yetə ərzü – həftüninə
Bir zərrəcə, eşq canə düşsə (çoxaltma)

Bəs oxu bu şeri yar qatında (şiddətləndirmə)
Ağla bəzi zar-zar qatında

Bir gizlin sizdir, qüdrətüllahdır,
Yazılmış tərtəmiz divandan aldım (şiddətləndirmə)

Sifəti başqa nitq hissələrindən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun dərəcə əlamətləridir ki, bu xüsusiyyət müəllif dilində dilin normativ tələblərinə cavab verir. Keyfiyyətin müxtəlif ölçüdə olması müəyyən morfoloji əlamətləri öz ifadəsini tapır ki, göstərilən nümunələrdə səciyyələndirilir.

Əvəzlik kateqoriyasının adi ona daxil olan sözlərin başqa nitq hissələrinə (isim, sifət, say) mənsub sözlər yerində işlənən xüsusiyyəti ilə bağlıdır. Əslində əvəzliklər özlərinin əks etdirmə obyektləri ilə vasitəli (başqa nitq hissələrinə mənsub sözlər vasitəsilə) deyil, vasitəsiz birbaşa əlaqədardır.

Müəllif dilində mövcud olan əvəzliklər özünün inkişafı ərzində elə bir ciddi dəyişikliyə uğramamış, məna və vəzifə etibarilə, əsasən, sabit qalmışdır.

Dildə sabitləşmiş əvəzliklərin hər cəhətdən təkmilləşmiş forma və növləri, inkişaf qanunauyğunluğunun nəticələridir. Müəllif dilində işlənən əvəzliklərin müəyyən edilmiş bölgüyə əsaslı qruplaşdırıb hər biri haqqında ayrıca danışmaq olar.

Eşqə dil verdin deyə covr etmə, ey zahid mana
Can verir məşuqə daim aşiqi qəllaşlar (şəxs əvəzliyi)

Ol sənəm rəna gedir, yer üçtə şəkmiş damənin,
Bu Xətayi xəstə ol yerdən turab almış gedir. (işarə əvəzliyi)

Bu cəhalət xisminə oxun gələndə ün verür, (işarə əvəzliyi)
Ol mənə əhlən və səhvən mərhəba nisbətüdür. (şəxs əvəzliyi)

Heyf da cana, hərgizə nisbət qılım
Xain hərgix gözlərin tək məstü həm şəhla düşər? (sual əvəzliyi)

Mehri-eşqin nəqdinə viranə könlümdür məqam,
Kim, ləli gəmin yeri daim xərab ustundədir? (sual əvəzliyi)

Ta kim ol ahu gözün mülki – Xotəndən bac alır.
Şol humayun zülfiniz təğtiri – Çindən tar olur. (işarə əvəzliyi)

Dün dedi zahid bana: - Neyçün könül verdin ona,
Neyləyim görcək yüzüni ixtiyar əldən gedir. (sual əvəzliyi)

Cənc – eşqin çün vücudum şəhərini qıldı xərab,
Nişə kim, gəncun yeri viranələr küncündədir. (sual əvəzliyi)

Bədnam qılma könlümü, aşiq deyil, həsud,
Aləmdə eşq adı böylə nik namdır. (işarə əvəzliyi)

Gər şikayət edəyim qaşı yayı oxıdın,
Hər yana sancıla sinəmdə bu peykan oldudur. (təyin əvəzliyi)

Ol pişəmə, öz işinə qane,
Heç kim yox idi kim ola mane (q/müəyyən əvəzlik)

Göstərilən nümunələrdə əvəzlik leksik-qrammatik söz qrupu kimi məna növlərinə görə fərqləndiriləcək Xətayi dilində dövrün normativ dil faktı kimi diqqəti cəlb edir. Göründüyü kimi fonetik və leksik variantlıq qalır. Əvəzliklərin sıxlığı kifayət qədər böyük olur, hətta XX əsrdəki ilə müqayisədə böyükdür.

Say kateqoriyasına daxil olan sözlər fakt və anlayışların sayını və sırasını bildirərək müəllif qələmində fərqləndirilir. Say anlayışı miqdar anlayışından bir neçə cəhətdən fərqlənir. Miqdar anlayışı ayrıca götürülmüş say bildirən sözləri ilə deyil, həmin sözlərin müəyyən isimlə birlşməsi vasitəsilə ifadə edilir.

Sənin ol zülfünün hər bir qılınc
Xətayi boynuna bir ristə gördüm. (miqdar say.)

Necə miskin Xətayi qamu imiş,
Sol iki nərgisi – xunxarə gördüm. (miqdar say.)

Çox mehrü vəfa umar idim yardən, anuna,
Bir çövri yüküş yari – cəfaçarə yoluxdum. (q/müəyyən)

Hər birinci çiçək üstə qondu zənbur.
Dövşürməgə çıxdı danəsin nur. (sıra say.)

Yüsər hökm ilə şah ikən Xətayi,
Yar eşqinə gəda qılan dil. (bölgü say.)

Say bildirən sözlərdə bir sıra sözdə dəyişikliklər nəzərə alınmazsa, demək olar ki, türk sistemli dillərdə işlənən saylar müştərək lüğət cahidlərdən ibarət olmuşdur.

Hərəkilik bildirən bir nitq hissəsi kimi fel kateqoriyalarında (formalarında, mənaca növlərində və s.) müəyyən təkmilləşmə (formaların, mənaca növlərin – diferensiallığının daha da güclənməsi) özünü göstərir.

Fel kateqoriyalarının şəkli əlamətləri heç bir mərhələdə XV-XVI əsrlərdəki qədər kəmiyyət çoxluğuna malik olmamışdır. Felin bütün şəkilləri üçün varianlıq mövcuddur.

Dərdü ğəm gəldikcə səndən şad olurmən dilbəra,
Sözünü, onları mənim könlümdə bərxüdar da.

Göstərilən nümunədə (olurmən) indiki zamanın qrammatik göstəricisi müəllif dilində dövrün dil faktı ilə tam səsləşir.

Dilfikar oldu Xətayi firqətindən ruzü şəb,
Ruzü şəb vəslin zəyalı canda qaldı yadigar

Şuhudi keçmiş zaman morfoloji göstəricisi bütün dövrlər üçün sabitliyini qoruyub saxlamışdır.

Yoxsa doğmuş arədə bir afitabi – qəmi – bəzən,
Çeşmi – mərdün ahə hər su şu müştəri nisbətlidür.

Nerdə əkərsən bitərəm, xanda çağırsan, yetərəm,
Sufilər əlin dutaram, qazilə deyən şah mənəm

Dilbərin getdi, Xətayi, sən nə edəcəksən dünyəni?
Çünki can getdi, bu tən, yarəb, niyə qaldı mana.

Gələcək zamanın müzare zaman forması (bitərək) müasir dil faktı ilə tam eynidir. Qəfi gələcək zaman (edəcəksən) müasir dil faktı ilə tam uyğunluq təşkil edir.

Eşqində qulundur bu Xətayi,
Nəzər qıl halimə, heyran sənindir.

Nəzər qıl analitik fel forması Xətayi dili üçün səciyyəvi olub XV-XVI əsrlərin dili ilə yanaşı XX əsrin əvvəllərinə tək öz işləkliyini qoruyan dil göstəricisi kimi fərqləndirilir.

Felin şəkil kateqoriyası müxtəlif modallıqların dildə sistem şəklində xidmət edir. Şəkil kateqoriyası modallığın qrammatik – morfoloji yolla ifadə üsulu olmaqla, onun digər ifadə üsullarına qarşı durur, funksional – semantik mərkəz rolunu oynayır və onlardan dildəki mövqeyinə görə əsaslı surətdə fərqlənir. Buna görə də şəkil kateqoriyasından qrammatik bir hadisə kimi danışarkən onun hududunu konkretləşdirmək zəruridir.

Xəbər şəkli qrammatik mənasındakı xüsusi cəhətə görə zaman kateqoriyası kimi şərh edilir. Digər şəkillər real hərəkətin gerçəkliyə münasibətini deyil,

real məntiqi mənada danışıq anından sonra icra olunması təhrik edilən, vacib və lazım sayılan, arzu olunan, müəyyən şərtə bağlanan hərəkətin ifadəsinə xidmət edir.

Nagah bir işdə keyd edən yar.
Ol elçi tək anı qeyd edən yar (əruz şəkli)

Gəldi yanına nihanı ol dəm
Ta qıla məlamət anı ol dəm (arzu-iltizam şəkli)

Necə kim, çövrü cəfa qılsan bu mən dilxəstəciyə,
Eyləmək andan şikayət kim vəfadarurdurur. (şərt şəkli)

Sürfeyi – biçarə həm halın görüb ol zahidin.
Söhbətin gərm etməli çəngü rübab olmuş gəlür. (vacib şəkli)

Canını qurban yoluna ol dilbərin,
Ol zəmandan kim, deyə bilmək ol büti-məhrü gəlür. (bacarıq)

Yolu gər daş ola, gər yay ola, gər oxu dılu,
Mürşidindən dönənin mənidə ismi boş ola

Göstərilən bütün qümunələr felin şəkillərini əks etdirərək müəllif dilini normativ dil faktları ilə əsaslandırır.

Felin şəksiz formaları (məsdər, feli sifət və feli bağlama) morfoloji və sintaktik əlamətə, qrammatik mənalara, sintaktik vəzifəsinə görə fərqləndirilir.

İşarət qıldığınca bir nəzər şah,
Önündə şumrü mərvan dərbədərdir (feli bağlama)
Nəfəs gövhərdir anı bir bilənlər,
Sözün bir söyləyən gerçək ərdir. (feli sifət)

Zərrə ikən gün təki məşhur olmaq
Ta mana düşdü sənin mehri-rüxündən tablar. (məsdər)

Keyfiyyət və əlamətin bildirən zərf hərəkətin ümumi şəkildə, hadisənin ümumi şəraitini ifadə edərək müəllif dili üçün özünəməxsus keyfiyyətlərlə fərqləndirilir. Ümumi şərait dedikdə, bu və ya digər hadisəyə aid olan kəmiyyət, tərzi-hərəkət, yer, zamanla bağlı fərqlilik nəzərdə tutulur.

Dün demişsən kimi sana göstəribən can alanı,
Yüzünü göstərmədin aldın rəvanından rəvan (zaman zərfi)

Çünki ol mahın cəmalın qarşu istəməzdin görməyə,
Hər gecə, çeşmini nədən körkəb kimi bidarsən. (yer zərfi)

Munca möhnət çəkdin, ey dil, zülmati-hicran ilə,
Ol məhin fəslinə yetdin, bəxtiyar olmazunsan? (kəmiyyət zərfi)

Mana dərdü bəlalar yaxşı-yaxşı gəldi,
Sana zövqü səfalar yaxşı-yaxşı gəldi. (tərzi-hərəkət zərfi)

Zərfin quruluşundakı tarixilik ənənəvi vahidlərlə əlaqələndirilərək müəllif yaradıcılığında xüsusi leksik vahidlərlə öz əksini tapır:

Könlüm aldın bitəkəllüf, canın olmaqdadur,
Güldürür eşqində daim xoş ilən anu mana

Köməkçi nitq hissələri münasibət və nisbət bildirən sözlərdir. Müəllif yaradıcılığında köməkçi nitq hissələrinin təyin edərkən onların müstəqil nitq hissələri arasında əlaqə yaratmaq xüsusiyyətlərini əsas götürmək zəruridir. Köməkçi nitq hissələri münasibət bildirən sözlərdisə, münasibət də müqayisə edilən tərəfsiz mövcud deyildir.

Qoşmalar bütün dövrlərdə orjinallığını mühafizə etdiyi kimi Xətayi yaradıcılığında fərqləndirilir.

Sən gedəndən bərlu anca zarü əfğan etmişəm,
Yerü göy, insü mələk cümlə baxa qaldı mana. (zaman)

Vücüdüm bu könlüm can demişdşr,
Zəbim ləl ilə mərcan demişdir. (iştirak)

Eşq ilən laf etmə, ey miskin Xətayi, əbsəm ol
Kim, bu mənzildə səlatinlər gəda nisbətlidür. (iştirak)

Dilbəra, hicrin yarəsinə ləbin mərhəm düşər,
Ol dişin incisi tək dəryadə həm olür həm düşər. (bənzətmə)

Ey Xətayi, can fəda qıl bir vəfalı yar üçün,
Hər vəfasız bifəni ixtiyar etməkmidir? (səbəb)

Ta yüzünü görmüşəm, divanə oldum dərd ilə,
Züdfimizdən özgə dəxi boynuna bağgil. (məqsəd)

Göstərilən nümunələrdə qoşmalar avtosomantik sözlər arasındakı əlaqələri əks etdirərək, məna növlərinə görə fərqləndirilir.

Bağlayıcılar cümlə və sözləri bir-birilə bağlayan sözlər kimi səciyyələndirilərək müəllif dilində kifaəyət qədərdir.

Munca kim, dərdündə zəhmət çəkmişəm, ey bivəfa,
Çünki səndəndir bu zəhmət, cümlə rahətdir mana. (səbəb)

Duşə dərdə ölüm Xətayi, yar olubdur, həmdəm,
Ya düşümdür, ya xəyalın, bu nə halətdir mana. (bölüşdürmə)

Özgə aşıqlər əgərçi dil verər dildarinə,
Bu Xətayi xəstə gör yolunda qıldı can fəda. (güzəşt bağ.)

Ta ki, həmdəmdir ğəmi-eşqin könüldə, ğəm yeməm,
Çün xəyalini sənin dil sevgili mehman bilür. (qarşılaşdırma)

Məna xüsusiyyətlərinə görə tabe edən və tabe etməyən bağlayıcıları müəllif dili üçün səciyyəvi olduğu nümunələrdə bir daha fikrinixi sübut edir.

Nümunələrdən aydın olur ki, ta, ta ki bağlayıcıları XVIII əsrə qədər ğir sıra budaq cümlələrin baş cümləyə bağlanmasında aktiv surətdə iştirak etmişdir.

Xüsusən, zaman və səbəb məqsəd budaq cümlələrdə daha çox işlənmişdir. Sonrakı dövrlərdə isə bu aktivlik minimum dərəcədə azaltmışdır.

İnsanın öz mühakiməsi və özgə mühakiməsinin məzmununa münasibətini (qəti inam, şübhə, güman, ehtimal, təəssüf) ifadə edən modal sözlər fikrin məzmununa emosional münasibətlə müdaxilə edərək müəllif yaradıcılığında fərqləndirilir. Modal sözlər leksik fakt kimi yaradılışda müxtəlif nitq hissələrinə mənsub olur.

Əlqissə bu sözü bilməz idim,
Ussaqi gözümə olmaz idim. (sonuc)

Nola eyləsin kim kərrə üzür
Onlar ilə yeyib-içənə lənət.

Hasalillah kim könül yüzin qanlılından döndərə nəzər
Bülbüli – biçarədir, gülzarə döndərmiş, yüzin.

Modal sözlərə və modallıq məsələsinə dair yazılmış nümunələrdə başqa nitq hissələri içərisində əridilən modal sözlərin bir nitq hissəsi kimi özünəməxsus xüsusiyyətləri inandırıcı şəkildə şəkildə izah edilmişdir.

Sintaksisin əsasını söz birləşməsi və cümlə haqqında təlim təşkil edir. nitqin əsas zahıdi cümlədir. İnsanlar öz fikirlərini ayrı-ayrı sözlərlə, həmçinin söz birləşmələri ilə deyil, cümlələrlə ifadə edirlər.

Cümlə əsas üç xüsusiyyətdə: intonasiyaya bitkinliyə və prekativliyə malik olaraq müəllif yaradıcılığı üçün zəruridir. Cümlədə mübtəda ilə xəbər arasındakı uzlaşma predikativ münasibətin ifadə vasitələrindən biri hesab edilir. Predikativlik belə izah edilir. Ümumi kateqoriyalardan olan və cümləni təşkil edən predikativliyin mənası və vəzifəsi cümlə məzmununun gerçəkliklə əlaqələndirilməsindən ibarətdir.

Söz birləşməsi iki və ya daha artıq müstəqil mənalə sözün birləşməsindən əmələ gəlib cümlədən fərqli olaraq, fikir mübadiləsinin bütöv vahidi deyildir.

Söz birləşməsi və cümlə sintaksisin tədqiqat obyekti olsa da, bunlar iki müxtəlif kateqoriyadır.

Cümlə anlayış ifadə edəe sözlərə məxsus ayrı-ayrı əşyaları, hadisələri sadəcə adlandırmır, obyektiv varlıqla mövcud olan müəyyən ədaqəni bildirir. Söz birləşmələri varlıqların, mürəkkəb adların, əşya və hadisələrin əlamətlərini bildirir.

Xətayi dilində təyini söz birləşmələrinin hər üç növünə təsadüf olunur.

Nasehə eyb eyləmə, miskin Xətayi
Çünki həqə məlumdurur könlündə şirzü faşlər.

Uğraşanda ta ki, eşqin zərrə qılır dağları,
Bu xəstə Xətayi andan natəvan olmuşdurur

Ey mürüvvət mədəni, məndən kərəm qılma
Qəhbərinəm mən sənin, şahın, bieşqi – mürtəza

Yastan, Xətayi, yar eşqinə etiqad ilə,
Şamü səhər də dövlətinə eyləgil dua

Gəm yemək könlüm ki, məskən buldu eşqin küncünü
Gərçi ol veranəni hicran xərab etmişdurur

Saçının rəngi çün beylətül – qədz,
Cəmali nuri şəmsi – xabəridir.
Fars izafələrinin Xətayi dilində işləkliyi diqqəti cəlb edir:
Eşqə dil verdin deyə cövr etmə, ey zahid, mana,
Can verür məşuqə daim – qəllaşlar.

Ey könül, vəqfi – bəhar etdü, xəzan olmuşdurm,
Su kənarında sənəm sərvi – rəvan olmuşdurur.

İzafət tərkiblərinin zənginliyi müəllif dili üçün səciyyəvi olub bir növ sabit poetik təsiri ilə səciyyələnir. Müəllifin dilində mürəkkəb sintaktik konstruksiyalar yüksək intellektual səviyyəyə qalxır. Göstərilən nümunələrdə mürəkkəb gedişli sintaksisin aydın, elastik fikir ifadə etməsi əslində, ədəbi dilin mövcud idrak prosesinin rahat, uğurla əksinin göstəricisidir.

Xalq dilinin doğma elementləri Xətayi yaradıcılığında əcnəbi gəlib içərisində yeni fəallıq qazandı. Millilik, xəlqlik, aydınlıq sənətkar dilinin əsas keyfiyyətlərinə çevrildi.

Ədəbiyyat

1. S.İ.Xətai. əsərləri, Bakı, 2004.
2. X.Araslı, Məmmədov Əzizağa. S.İ.Xətai, Yazıçı, 1988.
3. T.Hacıyev. Azərbaycan ədəbi dil tarixi. Bakı, 1987.

S. Rahmanova

The author characthrizes the from of the wles of the category of quahtity in modern language.

Summary

Khatai both epic and lyric genres who used pen, for example, can be enriched with the works of literature of Azerbaijan.

Author in the creation of the phonetic units of language, grammar, which appeared to alarm or events are embodied in the generalized case.

Khatai poetry written in the form of the poet was the beginning of a new direction, in this works, has lod to a tandency to gain a leading position streng thened gradually.

С. Рахманова

Выключительный суффикс – лар как так и для авторском языке выражается как множественной категорией.

Резюме

Хатаи как эпическим, так же лирическом жанре, испытывал свое творчество, своими произведениями Азербайджанскую литературу.

Авторские произведения фонетическими, грамматическим свойства появлялась обобщённом форме существует.

В произведениях Хатаи так как в форме народных стихотворений является новым - направителем, и этот метод является новой поэзией.

Rəyçi: Afaq Məmmədova
fililogiya elmləri üzrə fəlsəfə doktoru

MƏLAHƏT MƏHƏRRƏMOVA
Azərbaycan Dillər Universiteti

ALMAN DİLİNİN SÖZ YARADICILIĞINDA *-chen* və *- lein* ŞƏKİLÇİLƏRİNİN ROLU

Açar sözlər: Alman dili, Azərbaycan dili, -chen və –lein suffiksləri, Haynenin əsəri, Qötenin əsəri.
Ключевые слова: Немецкий язык, Азербайджанский язык, аффиксов –chen и –lein, поэма Хайне, поэма Гёте.
Key words: German, -chen, -lein suffixes, poem by gote, poem by Hayne, poem by Gote.

Müasir alman dilinin söz yaradıcılığı prosesində suffikslərin rolu əvəzolunmazdır. Demək olar ki, başqa dillərdə də hər bir əsas nitq hissəsini təşkil edən söz yuvası, əsasən sözdüzəldici şəkilçilər vasitəsilə zənginləşir.

Müasir alman dilinin söz yaradıcılığı prosesində –chen və –lein şəkilçiləri də aktiv rol oynayır.

-chen və –lein orta cinsi bildirən şəkilçilərdir, çox məhsuldar, çox işlənən suffikslərdəndir. Bu suffikslər orta cinsə aid olmaqla bərabər, əzizləmə, oxşama, kiçiltmə mənalarını bildirir. Bundan əlavə, həmin şəkilçilər Azərbaycan dilində «balaca», «kiçik» kimi də ifadə olunur.

Müasir alman dilində işlədilən –chen və –lein suffiksləri Azərbaycan dilində işlənən –cıq,-cik, -cuq, -cuk, -cük, -cığaz, -ciyəz, -cuğaz, -cüyəz şəkilçiləri ilə ifadə olunur ki, bunlardan da dilimizdə yenə də «kiçiklik» və «əzizlik», «oxşama» məzmunu bildirən isimlər düzəlir. Məsələn, Azərbaycan dilində: *ev-evcik, evciyəz, balaca ev; quş-quşcuğaz, balaca quş; gül-gülçiyəz, gülçük* və s.

Alman dilində həmin sözlər aşağıdakı kimi ifadə olunur: das *Haus – das Häuschen, das kleine Haus, kleines Haus; der Vogel das Vöglein, der kleine Vogel, kleiner Vogel; die Blume – das Blümchen, die kleine Blume, kleine Blume.*

Azərbaycan dilindən fərqli olaraq alman dilində həmin şəkilçilərlə işlənən isimlərin birinci sait hecası (əsasən a, o, u), misallardan da göründüyü kimi, umlaut (¨□) qəbul edir.

-chen və –lein şəkilçiləri bir-biri ilə sinonimlik təşkil etsə də, onların arasında çox cüzi fərqlər də özünü göstərir.

Əvvəlcə –chen suffiksini nəzərdən keçirək. –chen suffiksi qədim – elchen şəkilçisinin geniş yayılmış variantıdır. Orta yuxarı alman dilində isə –chin, -chen formasında olmuşdur:

a) chen şəkilçisi əşya və predmeti əks etdirən isimlərdə kiçiltmə mənasını bildirir. Məsələn: das Glas (stəkan) –das Gläschen (balaca stəkan, stəkançik), das Holz (odun) –das Hölzshen (balaca odun, qamqalaq, oduncuq), das Haus (ev) –das Häuschen (balaca ev, evcik), die Wurst (kolbasa) –das Würstchen (sosiska, balaca ölçüdə (həcmdə) olan kolbasa) və s.

b) hər hansı bir predmetə, insana olan subyektiv münasibəti (oxşama, hətta kinayə, etinasızlıq) bildirən mənalarda işlənir. Məsələn:

dir Bruder (qardaş) – das Brüderchen (kiçik qardaş, qardaşcığaz, əziz qardaş)

der Freund (dost) –das Freundchen (dostçuğaz, əziz dost)

das Kind (uşaq) –das Kindchen/das Kinderchen (uşaqcığaz)

c) –chen suffiksi konkret isimlərdə həcmcə çox kiçiklik (kiçicik) çox balaca (balacacıq) mənasını bildirir. Misal:

das Buch (kitab) – das Büchlein (kitabça, balaca kitab).

der Krug (səhəng) –das Krügelchen (balaca səhəng, bardaq; parç).

-lein suffiksi ilə bağlı bunları deyə bilərik. –lein şəkilçisi, əsasən Almaniyanın cənubunda yaşayan almanların dialektində və alman dilinin Avstriya, mili variantında qədim yuxarı alman dilindəki –ilin və orta yuxarı alman dilindəki –elin suffikslərindəndir. Azərbaycan dilində olduğu kimi, kiçiltmə və əzizləmə mənalarını ifadə edir.

-lein suffiksi aşağıdakı hallarda işlənir:

a) – chen şəkilçisində olduğu kimi –lein suffiksi də konkret isimlərin həcmcə kiçik ölçüdə olan predmeti bildirir:

der Bach (arx) – das Bächlein (kiçicik arx)

der Berg (dağ) – das Berglein (kiçik dağ, təpəcik).

der Schrank (şkaf, rəf) –das Schränklein (kiçik şkaf, kiçik rəf)

b) canlıların bədən üzvlərinə aid olan cansız isimləri:

das Auge (göz) – das Äuglein (gözcük, balaca göz).

der Mund (ağız) – das Mündlein (ağızcığaz, balaca ağız).

die Hand (əl) – das Händlein (balaca əl, əlcik).

Onu da qeyd edək ki, həm –lein, həm də –chen suffiksləri ilə əmələ gələn sözlər müasir alman dilində neytrallaşmışdır. Buna misal olaraq aşağıdakıları göstərə bilərik. Məsələn:

das Kaninchen (adadovşanı), das Mädchen (qız), das Veilchen (bənövşə), das Scherflein (yarımpfenniq pul) və s.

İstər qədim alman dilində, istərsə də qədim hind-Avropa dillərində kiçiltmə, əzizləmə, oxşatma mənasını bildirən bir neçə şəkilçi olmuşdur.

Dilçilik tarixindən də məlum olduğu kimi, belə şəkilçilərdən biri «l» suffiksidir.

N.İ.Filiçevanın «İstoriə nemeükoqo əzıka» kitabında, hətta buna dair misallar da göstərilmiş və latın dili ilə müqayisəsi verilmişdir: rivus (reka) – rivulus (reçenka) (1, s. 120). Müəllif əsərdə, həmçinin qot dilindəki «l» suffiksinin həm kişi, həm də qadın şəxs adlarına aid olduğunu da qeyd edir:

Kişi adları: Attila, Wulfila, Tofila

Qadın adları: Runilo, Fulgilo (yenə orada)

Onu da qeyd edək ki, hazırda Attila və Wulfila alman şəxs adları kimi qalsa da, Fotila, Runilo və Fulgio adları arxaikləşmişdir.

Müəllif, həm də bu cür adların qot dilində az olduğunu yazır. O, bunun qədim alman dili üçün xarakterik olduğunu göstərir və aşağıdakı misalları nümunə kimi verir:

Kişi adları: Ezilo, Hünilo, Luibilo

Qadın adları: Gindila, Hildila (1, s. 120).

Qədim qot dilində «l» şəkilçisi əzizləmə mənasını bildirmək üçün də işlədilir.

Şəxs adlarında əzizləmə mənasını bildirmək üçün qot dilində *ka* (məs.: Gibika), qədim alman dilində –ko (məs.: Giliko) şəkilçilərindən də istifadə olunmuşdur.

Gereke, Heineke, Meineke, Reineke kimi alman soyadları ilə bunu müqayisə etmək olar.

Əzizləmə və oxşama mənasını bildirmək üçün Azərbaycan şəxs adlarına da danışıqda –cıq, -cik, -cuq, -cük, -cığaz, -ciyəz, -cuğaz, -cüyəz şəkilçilərindən istifadə olunur. Məsələn, oğlan adlarından Arif → Arifcik → Arifçiyəz; Anar → Anarçik → Anarciyəz; qız adlarından: Samirə → Samirəcik → Samirəciyəz; Xumar → Xumarcik, Xumarciyəz və s.

Bəzən alman dilində olduğu kimi, -ka şəkilçisindən də istifadə olunur. Məsələn: Gülü → Gülka, Sevil → Sevka, Ema → Emka və s.

Müasir alman dilində əzizləmə mənasının əmələ gəlməsində qədim –i şəkilçisi bəzi sözlərdə hələ də qalmaqdadır. Məsələn: Vati (atacan) Mutti (anacan), Bubbi (adamcığaz, adamciyəz) və s. Şəxs adlarında da bu, müşahidə olunur. Məsələn: Zeni, Elli və s.

Ümumiyyətlə, müasir alman dilində –chen və –lein suffikslərindən bədii ədəbiyyatda üslubi söz kimi geniş istifadə olunur. Bu suffikslər bədii üslubda əzizləmə, oxşama, kiçiltmə məzmunu və çalarlığı ilə əlaqədar olaraq məna ilə yanaşı emosional çalarlıq da ifadə edir. Məsələn, alman yazıçı və şairlərinin əsərlərində buna çox təsadüf edilir. Xüsusilə Götenin, Haynenin, Sillerin poeziyasında daha çoxdur.

İ.W.Götenin «Gefunden» («Tapıntı») şeirində 1 dəfə –chen, 2 dəfə –lein şəkilçisi ilə işlənən sözlərə rast gəlirik:

İch ging im Walde
So für mich hin
Und nichts zu suchen
Das war tein Sinn.

İm Schatten sah ich
Ein Blümchen stehen,
Wie sterne leuchtend
Wie Äuglein schön

İch wollte’s brechen,
Da sagt’es fein;
Soll ich zum Welken
Gebrochen sein?

İch grub’s mit allen
Den Würzlein aus;
Zum Garten trug ich’s
Am hübschen Haus

Und pflanzt’es wieder
Am stelen ort;
Nun zweigt es immer
Und blüht so fort.

Bu şeirdə Blümchen, Äuglein, Würzlein sözləri əzizləmə, oxşatma mənasını bildirməklə, ifadəni daha da qüvvətləndirmişdir. Azərbaycan dilinə Blümchen «gülciyəz», Äuglein «gözciyəz», Würzlein «kökcük (ağacda)» kimi ifadə olunur.

Götenin «Heidenröslein» şeirində də belə bir mənzərənin şahidi oluruq:

Sah ein Knab ein Röslein stehen
Röslein auf der Heiden,
War so jund und morgenschön
Lief er schnell, es nah zu sehen,
Sah's mit vielen Freuden,
Röslein, Röslein, Röslein rot,
Röslein auf der Heiden.

Knabe sprach: İch breche dich,
Röslein auf der Heiden
Röslein sprach: İch steche dich
Daβ du ewig denkst an mich,
Und ich wills nicht leiden.
Röslein, Röslein, Röslein rot,
Röslein auf der Heiden.

Und der wilde Knabe brach
s'Röslein auf der Heiden.
Röslein wehrte sich und stach,
Half ihm doch kein Weh und Ach,
Muβte es eben leiden.
Röslein, Röslein, Röslein rot,
Röslein auf der Heiden.

Əvvəla, onu deyək ki, «Heidenröslein» sözü Azərbaycan dilində «–çöl gülçiyəzi» deməkdir. Bu söz alman dilində həm də «itburnu» mənasını ifadə edir.

Göte «Röslein» sözünü şeirin hər bəndinin sonunda təkrar etməklə mənanı daha da qüvvətləndirmiş, şeirdə həm də bir ahəngdarlıq, bir harmoniya yaratmışdır.

Haynrich Haynerin də poeziyasında bu cür əzizləmə, oxşama mənalı sözlərə çox rast gəlirik. Məsələn, aşağıda onun müxtəlif şeirlərindən bir neçə nümunə göstəririk:

Oh schwöre, *Liebchen*, immerfort
İch glaube dir aufs bloβe Wort!..
…İch glaube, *Liebchen*, ewiglich,
Und noch viel länger, liebst du mich.
«O schwöre nicht und küsse nur»

* * *

Qeyd edək ki, şair «Liebchen» sözünü öz poeziyasında dəfələrlə işlətmişdir. Bu sözün mənası Azərbaycan dilində tərcüməsi «canan», «sevgili», «istəkli», «sevgilicik» mənalarını verir ki, onlar da ən çox şairanə söz kimi işlədilir.

«Liebchen» sözü alman dilindəki «die Liebe» sözündən yaranmışdır ki, bu da «məhəbbət», «eşq», «sevgi», «sevgicik», «əzizcik» deməkdir.

«Liebchen» məfhumu şeirdə gözəl, incə bir üslubi çalarlıq yaradır.

Sözün kökü, əslində, «lieb»dir, yəni əziz, sevimli. Buna müxtəlif söz və ya şəkilçi əlavə etməklə müxtəlif mənalar bildirir. Aşağıdakı nümunələrdə bu, özünü daha aydın göstərir.

liebäugeln – dilxoşluq etmək, oynaqlaşmaq.
liebbehalten – məhəbbəti soyumamaq, əvvəlki kimi sevmək
Die Liebelei – eşqbazlıq
die Liebesgeschichte – eşq hekayələri.
der Liebesabenteuer – eşq macərası
liebeln – dilxoşluq etmək
lieben – sevmək
liebenswürdig – mehriban, gülərüzlü, iltifatlı
die Liebenswürdigkeit – gülərüzlülük, iltifat, lütfkarlıq
die Liebesbrief – sevgi məktubu
lieber – 1) lieb sözünün komporativi – daha sevimli, daha əziz.
2) «gern» sözünün komparativi daha yaxşı, daha həvəslə
der Liebensdienst – dostluq xidməti, iltifat.
die Liebesgabe – hədiyyə, bəxşiş
das Liebespaar – sevgililər
das Liebesverhältnis – məhəbbət əlaqəsi
der Liebenskummer – eşq dərdi
liebgevinnen – sevmək, məhəbbət bağlamaq
die Liebeserklärung – eşqi bildirmə, eşq elanı
liebhaben – sevmək
der Liebhaber – 1) aşiq, vurğun; 2) həvəskar
der Liebhaberei (für A.nəyəsə) həvəs, meyil, düşgünlük
das Liebeslied – eşq mahnısı
liebkosen – oxşamaq, əzizləmək
die Liebkosung – nazlama, nəvaziş
lieblich – sevimli, xoşxasiyyət
der Liebling – sevimli, istəkli
liebenswert – sevimli
liebes – rəhmsiz, insafsız
liebreich – məhəbbətlə dolu
der Liebreiz – gözəllik, məlahət, cazibə
die Liebschaft – eşqbazlıq
liebreizend – qəşəng, çox gözəl, cazibəli, məlahətli.
liebebedürftig – məhəbbət möhtacı, sevgiyə ehtiyacı olan (2, 416-417; 3, 425-426).

Haynrix Haynenin lirik şeirlərindən aşağıdakı nümunələri göstərmək olar:

Philister in Sonntagsröcklein
Spazieren durch Wald und Flur;
Sie jauchzen, sie hüpfen wie *Pröcklein,*
Begrüßen die schöne Natur…
«Philister in Sonntagsröcklein»
…Du siehst mich an wehmütiglich,

Und schüttelst das blonde *Köpfchen;*
Aus deinen Angen schleichen sich
Die *Perlentränentröpfchen…*
«Allnächtlich im Traume seh ich dich»
Mädchen mit dem roten *Mündchen,*
Mit den *Äuglein* süβ und klar,
Du mein liebes, kleines Mädchen
Deiner denk ich immerbar
«Mädchen mit dem roten Mündchen»
Es fiel lin Brief in den Frühlingsnacht,
Es fiel auf der zarten Blaublümelein,
Sie sind verwelket, verdorret
«Tragödie»
Hast du vertrauten Umgang mit Damen,
Schweig, *Freundchen*, still und nenne nie Namen:
Um ihretwillen, wenn sie fein sind,
Um deinetwillen, wenn sie gemein sind.
«Hast du vertrauten Umgang mit Damen».

Bu cür misallar çox göstərmək olar. Göstərilən nümunələrdə *Röcklein, Köpfchen, Perlentränentröpfchen, Mündchen, Äuglein* sözləri –chen və –lein şəkilçiləri ilə düzəlməklə əzizləmə, oxşama mənasını bildirir. Müəllif həmin sözlərlə şeirə üslubi bir gözəllik, ahəngdarlıq, harmoniya vermişdir. Haynenin şeirlərində *Liebchen* sözü daha çox işlədilmişdir.

Haynrix Haynenin poetik yaradıcılığından (lirik şeirlərindən) gətirdiyimiz bu misalların Azərbaycan dilində tərcüməsi aşağıdakı kimidir:

Röcklein – balaca keçi balaları, çəpiş
Köpfchen – balaca baş, başcığaz
Perlentränentröpfchen – xırda mirvari dənələri
Mündchen – kiçik ağız, ağızcıq
Äuglein – xırda göz, gözciyəz.
Blaublümelein – mavi gülciyəz
Freundchen – dostcuğaz, əziz dost

-chen və –lein şəkilçiləri ilə yaranan həmin sözlərin üslubi rolu ondan ibarətdir ki, onlar şeirdə həm də qafiyə yaratmışlar. Məsələn;

Sonntagsröcklein ↔ Röcklein
Käpfchen ↔ Perlentränentröpfchen
Mündchen ↔ Mädchen

Nəhayət, onu da əlavə edək ki, müasir alman dilində –chen sonluğu ilə bitən bəzi sözlər vardır ki, onlar müstəsnalıq təşkil edir. Məsələn: das Mädchen (qız), das Veilchen (bənövşə).

Ədəbiyyat

1. Филичева Н.И. История немецкого языка (курс лекций). Москва, 1959.
2. Almanca-azərbaycanca lüğət. Bakı, Maarif, 1971.
3. Deutsch-azerbaidshanises Wörterbuch (von Ahmad Omid – Yazdani). Berlin, 2004.

4. Der Groβe Duden. Leipzig, 1975.
5. Словарь словообразовательных элементов немецкого языка. Москва, 1979.

Malahat Maharamova

The role of the suffexes *jhen* and *lein* in a word
Guilding in German language
Summary

The presented article deals with suffexes *jhen* and *lein* which have an important tole in a word fuilding. Broad information about both suffexes is given and some examples about them are shown. The use of the suffexes *jhen* and *lein* in literary literature, its features has got its expression in the presented article as well. Some examples about tlote's and Hein's plays are also given in the article.

Малахат Магеррамова

Роль аффиксов –chen и –lein в словотворчестве
немецкого языка
Резюме

В статье рассматриваются аффиксы –chen и –lein, играющие активную роль в словообразовании. Обширные сведения об этих суффиксах сопровождаются примерами. В статье также говорится об употреблении аффиксов – chen и – lein в художественной литературе и их стилистических особенностях, приводятся примеры из произведений Гёте, Гейне.

Rəyçi: prof. S.Abdullayev

NİGAR MƏMMƏDOVA
Odlar Yurdu Universiteti
E-mail: rafaelmmm@mail.ru

İNGİLİS DİLİNDƏ ALINMA SÖZLƏRİN MƏNBƏLƏRİ

Açar sözlər: alınma sözlər, lüğət tərkibi, dövrlər
Keywords: borrowings, word-stock, periods
Ключевые слова: заимствованные слова, словарный состав, периоды

İngilis dili dünyanın əsas dillərindən biridir. XIX əsrin əvvəllərində ingilis dili milyonlarla xalqın doğma dili kimi işlədilirdi. Hazırda bu dil 320 milyondan çox xalqın dilində işlədilir və dünyada Çin dilindən sonra ikinci yeri tutur.

Müasir dövrümüzdə ingilis dili ona doğma olmayan ölkələrdə belə geniş şəkildə öyrənilir. Bu dil beynəlxalq, ticarət, elmi - tədqiqat, diplomatiya, aviasiya aləmində geniş işlədilir.

İngilis dili Hind - Avropa ailəsinin alman qrupuna aiddir. Hind - Avropa dili dünyada ən əsas dilçilik ailəsidir və bu ailəyə məxsus olan dillər geniş coğrafi ərazilərə malik olmaqla, əksər xalq tərəfindən danışılır, istifadə olunur.

Hind - Avropa ailəsinin müxtəlif dialektlərə bölünməsi nəticəsində əslən dil daşıyıcıları tezliklə şərqi və cənubi Avropadan mühacirət etməyə başladılar. Tarixən ingilis dili çoxlu sayda qəbilə tayfalarının köçmələri və hücumları nəticəsində yaranmışdır. Bundan əvvəl ingilis dilli xalqların əcdadları Şimali Avropa sərhədlərində gəzib dolaşaraq, qərbi alman dialektlərində bir -birinə çox oxşar sözlər işlətməklə müxtəlif qəbilələr şəklində bir - birini başa düşürdülər.

İngilis dili illər keçdikcə inkişaf etmiş və dəyişmişdir. Norman işğalından sonra uzun müddət ərzində ingilis dili praktik olaraq danışıq dili oldu. Bu dövrdə bu dil yeni standart nitqə çevrildi və vaxt keçdikcə bu dil 1200 sözlə ədəbi dil kimi peyda olub, Orta ingilis dili kimi qəbul olundu. Orta ingilis dili əvvəlcə fransız dilinin təsirilə qədim ingilis dilindən, sonralar isə danışıq dilindən yaranmışdır. 1500–1700-cü illər arasında erkən ingilis dili indiki ingilis dilinin əksər xüsusiyyətlərini inkişaf etdirmişdir.

Qədim ingilis dilində dörd əsas dialekt mövcud idi: Northumbrian, Mercian, Kentish and West Saxon. Bunlardan ikisi ingilis dilli idi: Northumbrian and Mercian.

1. Northumbrian ilk əsas ədəbiyyatın və ən yaxşı qədim ədəbiyyatın dili idi.
2. Kentish cənub - şərqdə yaşayanların dialekti idi.
3. West Saxon - əsas dialekt olaraq Temza çayının cənubunda və Hamber çayının şimalında danışılırdı.
4. Mercian Midlandda Hamber və Temza çayları arasında yaşayan xalqlar tərəfindən danışılırdı.

Qədim ingilis dilinin lüğəti müasir ingilis dilinin lüğətindən fərqlidir. Dildəki əksər sözlər doğma (əsl) sözlər olduğu kimi, başqa mənbələrdən alınma sözlər də vardır. Bu sözlər Latın dilindən keçmişdir və hətta anqlo - saksonlar hələ Kontinent-də olduğu müddətdə, onlar Roman tacirlərindən - *cheese, kitchen, wine* kimi sözlər almışlar.

Xristianlığı qəbul etdikdən sonra ingilis dilinə latın dilindən - *candle, creed, cloister, dirge, font* kimi sözlər keçmişdir. Hər halda ancaq 400- 450 latın mənşəli sözlər Qədim İngilis əlyazmalarında peyda olmuşlar.

İngilis dilinin lüğət tərkibində olan sözləri belə təsnif etmək olar: alınma sözlərin mənbəyinə görə, assimilyasiya dərəcəsinə görə, sözün hər hansı aspektinin alınmasına görə.

İngilis dilinin lüğət tərkibinin alınma sözləri mənbəyinə və dövrünə görə fərqləndirilir:

1. Kelt dilindən alınmalar;
2. Eramızdan əvvəlki dövrlərdə latın dilindən alınmış sözlər, anqlo – saksonların Britaniya adalarına gələnə qədər olan dövr (deyilənlərə görə latın dilindən alınmış sözlərin ilk layı);
3. VI-VII əsr latın dilindən alınmış sözlər xristianlığın İngiltərəyə yeridilməsi dövrünə təsadüf edir (latın dilindən alınmış sözlərin 2-ci layı);
4. Skandinaviya basqınları dövrü (VIII-IX) və xüsusilə X əsr Skandinaviya istilaları dövründə skandinav alınmaları;
5. Köhnə fransız dilindən alınmış sözlər (XII-XV) norman istilalarının səbəbindən;
6. XV-XVI əsrlərdə intibah dövrü ilə bağlı latın dilindən alınmış sözlər (latın alınmalarının 3-cü layı);
7. XVI əsrdən sonra yaranan yeni fransız alınmaları;
8. İqtisadiyyat, siyasət, mədəniyyət və s. əlaqələr nəticəsində münasib millətlərin: yunan, italyan, holland, ispan, rus, alman və s. dillərdən gələn alınmalar;
9. Böyük Oktyabr inqilabından sonrakı dövrdə ingilis dilinə keçmiş sovetlər ölkəsinin qabaqcıl ictimai quruluşunun ideologiyasını əks etdirən rus dilindən alınmış sözlər.

İngilis dilinin lüğət tərkibinə daxil olan alınmalar leksikanın elə sahəsini əhatə edir ki, onlar ingilis dilinin tarixini bilavasitə əks etdirir və xarici dilə ekstralinqvistik təsirin səbəblərini göstərir. Ona görə də onları ingilis xalqının tarixilə bağlayaraq xronoloji şəkildə işləmək məqsədəuyğundur. Eramızdan əvvəl V əsrdə ingilislər, saksonlar və yutlar Britaniyaya köçərkən, orada Kelt əhalisi brit və hollandlarla rastlaşdılar və onları qərbə və şimala (Şotlandiyaya) sıxışdırdılar. Dillərin toqquşması nəticəsində gəlmələrin dili qalib gəlmişdir. Onların dillərinin inkişafı ingilis dilini üzə çıxartdı. Kelt dilindən alınmalar çox azdır və əsas etibarilə toponimikaya, yəni coğrafi adlara məxsusdur.

Qədim ingilis dilində məlum olan və bu dövrə qədər saxlanılan kelt sözləri çox azdır. Onlardan aşağıdakıları göstərmək olar:

Bannock - kökə, down, dune - təpə, dun - qəhvəyi və cradle - beşik

Həmçinin*, bard, brogue, claymore, plaid, shamrock, whisky* kimi sözlər də kelt mənşəlidir. Lakin anqlo - saksonların Britaniyaya axınından sonra ingilis dilində bu sözlərin heç birinə rast gəlinmir. Qeyd etdiyimiz kimi, kelt mənşəli sözlərə coğrafi adlarda rast gəlmək mümkündür. Kelt dilindən alınmalar tək şimal və qərbə, yəni tək Şotlandiya və İrlandiyaya deyil, həmçinin, İngiltərənin bütün yerlərinə məxsusdur. Kelt mənşəli bir sıra sözlər işlənmə dairəsinə görə beynəlxalq statusa malikdir: *budget, career, clan, flannel, mackintosh, plaid, tunnel*.

İlkin mənası *"robber''* (oğru) olan *"tory"* sözü hal - hazırda siyasi partiyanın adını bildirir.

Sonralar daha çox şotland dilindən - *slogan*, island dilindən - *fun* kelt sözlərinin mənasını saxlamaqla başqa dialektlərdən, həmçinin, fransız dilindən - *beak, gravel* və s. sözlər ingilis dilinə daxil olmuşdur.

Qədim ingilis dilində latın dilindən alınmaları iki cür qruplaşdırmaq olar. Birinci qrupa daxil olan sözlər (800-ci ilə qədər) çox güman ki, ingilis dilinə kelt dilindən keçmiş və bunlar romalıların Britaniyada eramızın 1-ci 400-cü ili ərzində hökmranlığı ilə bağlıdır, ya da bu sözlər dilə anqlo - saksonların hələ kontinentdə olduğu müddətdə daxil olmuşlar.

O dövrün kelt və alman qəbilələrinin alınmalarına nisbətən bunlar yüksək qiymətləndirilir. Bunlar romalıların yüksək mədəniyyətindən, konkret şeylərdən və əvvəllər anqlo - saksonlara məlum olmayan məfhumlardan bəhs edir. Məsələn,

port - lat. Portus - liman; wall - lat . vallum - bənd, səda, val ;

wine - qəd. ing. dilində - win, lat. dilində vinum - çaxır;

mile - qəd.ing.dilində mil, lat. dilində milla (passium) - 1000 addım

ass (asinus), mule (mulus), mill (molinum), chest (cista),dish (discus).

Ticarətlə bağlı məfhum adları da ingilis dilinə latın dilindən keçmişdir.

Məsələn,

butter, wine, paper, pear (Lat.pirum), peach, plum (Lat.prunus), kitchen (Lat.coquina), cherry (Lat.cerasum) pea (Lat.pisum) beet (Lat.beta) pepper (Lat.piper), cook (coquos), cheese, kettle (catillus), cup (cuppa) və s.

Latın dilinə mənsub olan *vinum* sözü tək ingilis mənşəli *wine* sözündə deyil, həmçinin, alman mənşəli *Wine* sözündə və skandinav mənşəli *vin* sözündə yaşayır.

Digər ticarətlə bağlı olan, latın dilindən alınma *mango* sözüdür. Bu söz halhazırda ingilis dilindəki mürəkkəb sözlərin tərkib hissəsi olan *monger* sözündə yaşayır: Məsələn:

fishmonger, ironmonger, ironmongery, costermonger, warmmonger.

Romanlar İngiltərədə bir sıra qalalar tikdirmiş və düşərgələr salmışlar. Və buna görə də ingilis dilində qala və düşərgə adları ilə bağlı sözlərə rast gəlinir*: strata (street), campus (camp), castra (castle), colony (colonia) və s.*

Belə ki*, castum* - möhkəmlənmə, istehkam mənasını kəsb edir, eyni zamanda özünün cəm forması da mövcuddur. *Castra* sözü *"düşərgə"* mənasında işlənərək, qədim ingilis dilində *"ceaster",* müasir ingilis dilində isə *"caster"* kimi işlənir. Bu sözün *"Chester"* variantı isə müxtəlif coğrafi adlarda işlənməsidir. Məsələn, *Yancaster, Dorchester, Manchester, Winchester və s.*

Bu qrupa daxil olan alınmalar şifahi yolla alınıb, assimilyasiyaya uğrayıb, ingilis dilinin lüğət tərkibinə daxil olmuşlar. Bununla belə, onlar ingilis dilinin qrammatik quruluşuna da tabe olmuşlar. Latın dili öz qrammatik formalarını itirib tarix boyu ingilis dilindəki sözlərin fonetik quruluşlarında baş verən dəyişikliklərə məruz qalmışdır.

Qədim ingilis dilinə, latın alınmalarının ikinci layına 596-cı ildə xristianlığı qəbul edəndən sonra alınmış sözlər daxildir. Məsələn,

monk, priest, angel, candle, clerk, hymn, minister, dean.

Bu qəbildən olan bir sıra sözlər də bu dövrə aiddir: *altar, chapter, creed, cross, feast, disciple və s.*

Latın dilindən keçən alınmaların sırasında bir neçə yunan mənşəli sözlərə rast gəlinir: *minister, dean və s.*

Eyni zamanda İngiltərədə yeni məktəblər açılırdı və buna görə də yunan mənşəli olan *"school" (məktəb)* sözü latın dilindən ingilis dilinə keçdi. Ümumi məna ifadə edən bir sıra sözlər də bu dövrün alınmalarına daxildir: *plant, chalk, spade, lion, tiger, elephant, tun, laurel, lily, fiddle, pearl, pine və s.*

Latın dilinin birinci layındakı sözlər kimi bunlar da şifahi yolla alınan və konkret məlumatlar kəsb edən sözlərdir. Yuxarıda deyilənləri aydınlaşdırmaq üçün üç felə nəzər yetirək: *to offer, to spend, to shrive*. Bu kimi erkən latın alınmaları sonralar həm formaca, həm də məna etibarilə cismən təkamül tapmışdır.

Feodal cəmiyyətinin dayaqlarının dağılması dövrü və kapitalist münasibətlərinin meydana gəlməsi müasir burjua millətlərinin formalaşması ilə uyğunlaşır. Millətlərin yaranması ilə milli dillərin yaranması qırılmaz surətdə bağlıdır. XIII və XIV əsrlərdə şəhərlərin sayının çoxalması, sənayenin inkişafı, ticarət əlaqələrinin artması və dil uğrunda mübarizə milli dilin əsası üçün böyük məna kəsb edir. İngilis dili – İntibah dövrü ilə yaradılır. Bu dövrdə elmi əsərlər artıq ingilis dilində yazılır, halbuki bu vaxta qədər orta əsr dövründə elm dili latın dili olmuşdur.

İntibah dövrünə heykəltaraşlıq, antik mədəniyyət, işlənmə üslubu, yunan və roma müəlliflərinin quruluşu xarakterik olduğundan, təbii ki, lüğətlərin təkmilləşməsi və yeni elmi terminologiyanın yaranması latın və yunan dillərindən alınmaların hesabına olurdu. Fəlsəfə, hüquq, tibb terminləri də bu yolla yaranırdı.

Latın dilindən alınmaların üçüncü layının xüsusiyyətləri ondan ibarətdir ki, onlar şifahi yolla deyil yazılı yolla - kitab dili vasitəsilə keçir və başlıca olaraq mücərrəd anlayışları bildirir. Məsələn ,*basis, area, crisis, radio, stimulus və s.* Bu sözlərin arasında çoxlu fel və əvəzliklər var. Məsələn, *operate, cultivate, demonstrate, evolve, educate, admit, permit, complete, accept, effect, locate, separate, senior, junior, minor, inferior, exterior, superior, dependant və s.*

Latın dilindən alınma sözlər aşağıdakı xüsusiyyətlərə malikdir

1.İngilis dilində - *ate və - ute* sonluğu ilə bitən bütün fellər latın mənşəlidir. Məsələn,

to exaggerate, to narrate, to persecute, to execute, to translate və s.

2.- *ior* sonluğu ilə bitən bütün sifətlər. Məsələn,

superior, senior, junior və s.

3. Bəzi ingilis dilinə mənsub olan isimlər iki cür sifətə malikdir:

a) Latın;

b) Anglo-Saxon;

	Anglo-Saxon	Latın
Noun	adjectives	adjectives
Sun	*sunny*	*solar*
Moon	*moony*	*lunar*
Father	*fatherly*	*paternal*
Mother	*motherly*	*maternal*
Brother	*brotherly*	*fraternal*

Bəzi isimlərin isə yalnız latın mənşəli qarşılıqları var:

English nouns	English adjectives	Latın adjectives
Eye	----------	*ocular*

Mind ---------- *mental*
Tooth ---------- *dental*

Müasir ingilis dilinin yazılı formasında ixtisarlar daha çox işlədilir ki, bunlar da oxu zamanı ingilis dilinin öz oxunuşu ilə əvəz olunur.

e. g (exempli gratia) - for example
i. e (id est) - that is to say
a. m (ante meridiem) - before noon
L. s. d. (librae, solidi, dinarii) - pounds, shillings and pence
v. v (vice versa) - the opposite
viz. (videlicet) - that is to say; in other words
etc. (et cetera) - and so on
cf. (confer) - compare
et seq, et sqq. (et sequentia) - and the following
id (em) - the same.

Latın - roman mənşəli sözlərin əsas əlamətləri aşağıdakılardan ibarətdir: iki və daha artıq hecalı sözlərdə işlənən prefikslər: *ab-, ad-, com-, dis-, ux-, in-, im-, il-;* bəzi sözlərdə samit səslərin qoşalaşması ilə: *bb, cc, ft, mm, nn, pp, rr, ss, tt, ll* və s.ibarətdir.

İngilis dilində latın dilindən alınma sözlərin xeyli hissəsi ingilis dilinə birbaşa deyil, fransız dili vasitəsilə keçmişdir.

Yunan sözləri və sözdüzəltmə ünsürləri bütün dünya dillərində geniş işlədilərək, latın alınmaları kimi əhəmiyyətli dərəcədə beynəlmiləl sözlərə çevrilmişlər. Bəzi yunan mənşəli sözlər fransız dili vasitəsilə ingilis dilinə daxil olmuşdur: *fancy, idea, cataloque, chronical* və s. Bir sıra bu qəbildən olan sözlər intibah dövründə ingilis dilinə daxil olmuşdur. Bu sözlər əsasən elm, incəsənət və ədəbiyyat sahəsi ilə bağlıdır. Məsələn*: geology, lexicology, geography, etimology, homonym, botany, bacteriology*, *histology, physiology, physics and zoology və s.* Tibb sahəsində də işlədilən bir sıra yunan alınmalarına rast gəlmək mümkündür: *adenoids, pediatrics, psychiatry, psychoanalysis*. Demək olar ki, bütün leksikoloji terminlər və teatrla bağlı terminlərin əksəriyyəti yunan mənşəlidir: *epilogne, comedy, tragedy, drama və s.* Yunan dilindən alınmalar formaca bir növ latınlaşıb. Bu alınmaların nə yazılışı, nə də ki tələffüzü yunan dilindəki kimi deyil məhz latın dilindəki kimidir. Məsələn, romanlardan sonra latın dilindəki *c* hərfinin tələffüzü *e, i, y(k)* hərflərindən əvvəl dəyişiklikliyə uğradı və tezliklə bunun təsirilə yunan sözlərinin əksəriyyətində dəyişikliklər baş verdi. Və bu proses nəticəsində yunan mənşəli *kyklos - circle* sözünə bənzəməyən müasir *cycle* sözü ingilis dilinə daxil oldu. Yunan dilindən alınmaların tərkibində *ch [k], ph [f]* hərf birləşmələrinə və sözlərin kökündə *y* hərfinə rast gəlinir. Məsələn*, school, character; morphology, phonetics; style, system, type, rhythm* və s. Bir sıra xüsusi adlar da yunan mənşəlidir: *George, Eugene, Helene, Sophie, Peter, Nicholas, Theoder və s.*

XV-XVI əsrlərdə klassik dillərdən alınmalarla bərabər, canlı dillərdən alınmalar da yaranırdı ki, onlar başlıca olaraq, italyan, ispan və holland dillərindən idi. Bu dillərdən az miqdarda alınma sözlər həmin ölkələrlə mədəni və ticarət əlaqələri vasitəsilə gəlmə sözlərdir. Müstəmləkəçilik və ticarət vasitəsilə ingilis dilinə gəlmə sözlər həmin ölkələr haqqında danışılanda işlədilir, danışıqdan kənar-

da isə bu dillərdən alınmış sözlər işlədilmir və beynəlmiləl sözlər kimi qəbul edilir. Zəif assimilyasiya olunan alınmaların çox hissəsi fransız sözləridir ki, onlar da ingilis dilinə 1640-60-cı illərdə Styuartların bərpa edilməsi dövrünə aiddir. Bunlar əsas etibarilə aristokratların məişətində və əyləndikləri zaman işlətdikləri sözlərdir: *restaurant, balet, rendez - vous, billet - doux, coquette, banquet, police, regime* və s. Bu sözlər fransız dilinin bütün xüsusiyyətlərini yazıda və tələffüzdə saxlamışdır.

Müəyyən vaxtdan sonra, xüsusilə XIX əsrdə fransız dilindən əsasən, texniki terminlər dilə keçməyə başladı: parachute, chassis, chauffeur, fuselage və s.

Alman dilindən alınma sözlər isə əsas etibarilə elmi və texniki sözlərdir.

Rus dilinə gəlincə isə Oktyabr inqilabına qədər olan alınmalar Rusiyanın təbiəti, ticarəti ilə bağlı idi: sable (sincab), Həştərxan (qaragül - Buxara dərisi), sterlet (çökə - balıq), stepe (səhra), verst (verst - ölçü vahidi), izba (koma, daxma) və s.

İngilis dilində sovetlərdən alınma sözlər çoxdur. Onların arasında fonetik alınmalar da çoxluq təşkil edir ki, onlar yeni məfhum üçün yeni səs kompleksi yaradır: soviet, sputnik, bolshevik, kolkhoz, activist və s. Belə sözlər rus sözlərinin və ifadələrinin morfoloji quruluşunu saxlayır. Məsələn, house of rest (istirahət evi) , five – year - plan (beşillik plan) və s.

Beləliklə, ingilis dili əsrlərlə başqa dillərlə qarşılaşaraq, onların sayəsində zənginləşmişdir. Lakin alınmaların kəsb etdikləri rolu çox da şişirtmək lazım deyil. Bu hər hansı bir dilin zənginləşməsində bir çox üsullardan biridir. İngilis dilində alınmaların çoxluğu dubletlərin də yaranmasında böyük rol oynamışdır.

Ədəbiyyat

1. Ф.Б. Антрушина, О. В. Афанасьева, Н. Н. Морозова. English Lexicology. Дрофа, 1999

2. Liberman, Anatoly Dr. (Ph. D). Word origins and How we know them. Oxford University Press, 2009

3. Ворно, М. А. Кашина. Е. В. Машиневская. В. А. Поторова. Лексикология английского языка. 1955

4. T. Məmmədova. Müxtəlif dövrlərdə İngilis dilinə daxil olan sözlər. Bakı: ADU, 2011

5. Расторгуева Т .А. Жданова И. Ф. History of the English language: Высшая школа, 1972

N. T. Məmmədova

Sources of borrowings in English

Summary

This article deals with the problems of borrowings in the English vocabulary. The analysis of the English vocabulary from the point of view of the etymology shows that it is mixed. There are many foreign elements in Modern English vocabulary. The reason for it lies in the history of the English people who had come across with many other people and their languages. The vocabulary of the English language is particularly responsive to every change in the life of speaking community, to direct linguistic contacts, political, economic and cultural relationships between nations. The development of English vocabulary was mainly due to borrowings from foreign sources.

Н.Т. Мамедова

Источники заимствованных слов в английском языке

Резюме

Статья посвяшена заимствованным словам в английском языке. При этимологическом анализе привлекает внимание смешанность словарного состава английского языка. В словаре этого много заимствованных с других языков слов. Это результат исторически тесной связи английского народа с другими народами и воздействием языков этих народов на английский язык. Словарный состав английского языка очень чувствителен к любым изменениям в общественной жизни, к политическим, экономическим и культурным связям между народами. Обогащение словарного состава английского языка происходило именно за счет заимствованных с других языков слов.

Rəyçi: B.m Ü.Nəsirova

ФИРАНГИЗ МАХМУДОВА
АУЯ
Mahmudova firəngiz @rambler.ru

ФРЕЙМ КАК ОСОБЫЙ СТРУКТУРНО-СОДЕРЖАТЕЛЬНЫЙ ТИП КОНЦЕПТА

Açar sözlər: freym (çərçəvə), konsept, slotlar, mental vahid, mürəkkəb anlamli quruluş.
Ключевые слова: фрейм, концепт, слоты, ментальная единица, сложно-содержательная структура
Key words: frames, concept, sub-frame, mental unity, complicated contenting structure.

Понятие «фрейм» в лингвистику было введено Ч. Филлмором, сформулировавшим две основные идеи: во-первых, «значение слова – это не сумма компонентов, на которые его можно разделить, а концептуальная структура, которая является совокупностью знаний, известных говорящему и слушающему, и в то же время схемой интерпретации опыта»,во-вторых, фрейм – это «совокупность лингвистических вариантов, которые ассоциируются с так называемыми сценариями»[1, с.101]. Э. Гоффман ассоциировал фрейм с английским словом «framework» (каркас) и указывал на «аналитические леса» - подпорки с помощью которых постигается собственный опыт [2, 1974]. Эти идеи получили свое дальнейшее развитие в исследованиях многих лингвистов, доказавших, что языковое значение слова прямо зависит от сформировавшегося в мозге человека определенного образа, стоящего за ним, принимая во внимание его в известной мере субъективность для каждого индивидуума. Это находит отражение в представлениях о том, что при восприятии какой-либо информации человек использует уже готовые структуры, облегчающие восприятие, запоминание, которые хранятся в его голове до тех пор, пока в них не возникает необходимость, а при возникновении чего-то нового – автоматически производит выбор наиболее похожей схемы, что бы сравнить новое с уже имеющимся в памяти. М. Минский понимает фрейм схожим образом, считая его структурой данных, предназначенной для представления в мозгу человека определенной стереотипной ситуации. Причем, в каждом фрейме содержится разноплановая информация, касающаяся использования данного фрейма, «предупреждающая о том, что может произойти дальше, а также предписывающая действия в случае, если эти ожидания не подтвердятся» [3, с.281-309]

В настоящее время большинство представителей различных школ когнитивных лингвистов под фреймом понимают определенное знание о стереотипных событиях и ситуациях, которое вербализуется с помощью естественного языка. Фрейм организует наше понимание мира в целом. Общепринятым среди современных ученых является понятие о фрейме как многокомпонентном концепте, объемном представлении, некоторой совокупности стандартных знаний о предмете или явлении, мыслимых в целостнос-

ти их составных частей. Например, магазин (компоненты – покупать, продавать, товары, стоить, цена и др.). Этот вид концепта часто представляют как «пакет» информации, содержащий знания о стереотипной ситуации. Например, театр (компоненты: билетная касса, зрительный зал, сцена, буфет, раздевалка, спектакль и т. д.). Построение фрейма производится при корреляции получаемой информации с областью практических знаний о мире, которыми располагает человек, и, значит, фрейм – это совокупность ассоциаций, связанных с окружающим миром, и хранимых в памяти человека. Концепт-фрейм подразумевает комплексную ситуацию, в рамки которой попадает все, что типично и существенно для данной совокупности обстоятельств. С точки зрения теории фреймов, человек, сталкиваясь с той или иной ситуацией, извлекает из памяти «готовое» знание - фрейм, которое позволяет ему действовать в соответствии с определенной стандартной моделью поведения. Фрейм часто рассматривают как схему сцен (например, «торговля») и формально представляют в виде двухуровневой структуры узлов и отношений: 1) вершинные узлы, которые содержат данные, всегда справедливые для данной ситуации, и 2) терминальные узлы, или слоты, которые заполняются данными из конкретной практической ситуации и часто представляются как подфреймы, или вложенные фреймы. Активизируя фрейм через данные второго уровня, мы воссоздаем всю структуру этой ситуации в целом. В частности, А.Н. Баранов и Д.О. Добровольский на основании проведенного исследования фрейма «действие» выделили следующие типовые слоты: имя фрейма, время действия, этапы действия, место действия, результат действия, содержание действия, субъект действия, объект действия, характеристика действия и др. [4, с. 3-13.]

В чисто прагматическом плане фреймы – это своеобразные упаковки знаний не только о внеязыковой действительности, но и собственно языковой системе, что в значительной мере согласуется с представлениями лингвистов, полагающих, что за значением каждого слова стоит определенный фрейм - прототип, построенный на основе прошлого опыта, воспоминаний, впечатлений и некоторым образом соотносимый с определенным концептом из долговременной памяти. Фреймы и подобные им когнитивные структуры (символы, гештальты, ментальные модели) принято идентифицировать со стереотипами реальных ситуаций, то есть схематизацией опыта, фиксирующей прототипы знания в действительности, тогда как фреймовая семантика рас-сматривает значение номинативных единиц как структуры, обусловленные ситуацией. Вместе с тем, в каждом из этих значений отражается и концептуальное представление, и знание об именуемом референте, и способ хранения этого знания в голове человека.

Полагается, что фреймы задают однозначные соответствия между концептами и лексическими единицами, а «терминосистемы, номинирующие отдельные области, организованы аналогичным сценарием и фреймом, отражающим знание об этой области и представляющим ее в виде организованной соответствующим образом структуры» [5,с.24]. Однако подобная точка зрения представляется несколько спорной, поскольку лексическая единица не может в полной мере репрезентировать содержание концепта. Концепт –

ментальная единица гораздо более сложного уровня, включающая разноуровневые пласты знаний об окружающей действительности, способная вербализовываться с помощью одной или нескольких лексических единиц. Люди оперируют на много большим количеством концептов, чем существует слов и различных языковых конструкций. Кроме того, необходимо учитывать тот факт, что фреймы ввиду их сложной структуры включают в себя слоты, чье положение и наполнение не является чем-то застывшим и постоянным, и чьи параметры, напротив, могут существенно изменяться.

Итак, первоначально рассматриваемые в качестве преимущественно лингвистических конструкций, за последнее время фреймы получили очевидную когнитивную интерпретацию. В связи с этим многие ученые стали рассматривать фрейм не только как способ хранения и переработки знаний, но также как инструмент для формирования новых лексических единиц.

Немалый интерес, в этой связи, представляет особая модель взаимодействия фреймов, предложенная М. Минским. По мнению автора, каждый фрейм содержит своеобразные терминалы, к которым могут присоединяться другие фреймы. Причем, «каждый фрейм обладает набором характеристик, достаточное количество которых способно привести к активации фрейма в целом или присоединенных к терминалам субфреймов» [3, с. 281-309]. С другой стороны, поскольку язык, являясь одним из важнейших способов организации знания, во многом представляет собой именно систему фреймов, аппарат фреймов, используемый в когнитивной лингвистике, позволяет моделировать мыслительные процессы и выявлять когнитивные структуры, скрывающиеся за фактами их употребления. В настоящее время развернутые сети из взаимозависимых схем функциональных связей и последовательных действий, как структуры представлений знаний, активно используются в когнитивной лингвистике. В основе фреймов, микрофреймов лежат когнитивные модели, которые представляют собой видение обозначаемого предмета материальной или духовной культуры в структурированной системе . Когнитивная модель формирует концептуальную схему признаков обозначаемого, распределяя их по важности. Когнитивный подход может осуществляться в виде «сценариев - фреймов», представляющих собой особые модели определенных фрагментов действительности и типовых ситуаций. Поскольку концепт - это всегда знание, структурированное во фрейм, его можно определить как оперативную единицу нашего сознания. «Фрейм – структура - мыслимый в целостности многокомпонентный концепт, отражающий клишированные ситуации в совокупности соответствующих стандартов знаний, объемных представлений и всех устойчивых ассоциаций» [6, 72]. Т. А. ван Дейк полагает, что фреймы не произвольные выделяемые «куски» знаний, а единицы знания, организованные в концептуальные системы, вокруг некоторого концепта, содержащего основную, типическую и потенциально возможную информацию, ассоциируемую с тем или иным концептом. Они имеют более или менее конвенциальную природу и поэтому могут определять или описывать то, что в данном обществе является «характерным и типичным» [7, 16 - 17]. Н. Н. Болдырев считает, что важнее помнить то, что фрейм - это модель культурно-обусловленного, канонизированного знания, которое

является общим для части говорящего сообщества. Фрейм может «включать любой эпизод знания, каким бы причудливым он не казался, лишь бы его разделяло достаточное количество человек» [8, 30]. На наш взгляд, фрейм – структурированная единица сознания, которая представляет типовую ситуацию, делимую на отдельные компоненты. Концепт, в свою очередь, может быть как делимой (но не всегда структурированной) единицей, так и целостной. Мы считаем, что между когнитивными структурами, с одной стороны, и языковыми, с другой, существуют вполне определенные корреляции. Знание подлежит лингвистическому описанию, т.к. важно понимать, как возникает такое знание, как оно участвует в формировании категории значения, как оно участвует в процессе понимания языка. Семантика фреймов ориентирована на понимание причин, приведших языковое сообщество к созданию категории, представляемой данным словом, и на объяснение лексического значения на основе выявления этих причин и их экспликации.

Схематизированные структуры рассматриваются в когнитивной лингвистике как абстракции, которые позволяют относить определенные объекты или события к общим категориям, способным наполняться конкретным содержанием в каждом отдельном случае, они обычно объективируются пространственно-графическими схемами. Например, место заключения сделки, место проведения переговоров с партнерами, место проведения маркетинговых исследований (опрос на улице, по телефону). Схемы, чаще всего, являются сложными структурами, состоящими из множества подсхем, которые связаны иерархическим креплением (общие схемы преобладают над специфическими) и горизонтальной связью (первоначальные схемы предшествуют последующим).

Следует отметить, что фреймы, обладающие внутренней структурой, содержат элементы сложной конфигурации - слоты. Как отражение внеязыковой ситуации, фрейм включает в себя достаточно свободный набор слотов. Однако наблюдается схематизация знаний, соединенных в силу, придающую определенному аспекту человеческой деятельности или опыту связанность, а также стандартные ситуации когнитивно обрабатываются в рамках фрейма. Фреймовую систему можно представить «в виде дерева» [9, 33]. Наверху – вершинном узле фрейма, накапливается родовая (прототипическая) информация, снизу к ней присоединены конкретизирующие подфреймы (вложенные фреймы) - терминальные узлы, или слоты, добавляющие специфические детали, новую информацию о стереотипной ситуации. Фрейм определяет, какой вид знаний существенен для ситуации. Сталкиваясь с новой ситуацией, человек ищет в своей памяти структуру - фрейм, которая хранит прототипические представления о мире и при необходимости адаптирует их к действительности в результате изменения деталей. Именно прототипический эффект является тем, что отмечает глубинную организацию фреймовой структуры поля (семантического, понятийного, концептуального и т.д.). Как и другие сферы социального взаимодействия, современное деловое сообщество обладает определенной спецификой, которая находит отражение в мышлении и выражении в языке. Так, например, профессиональные знания в сфере системы образования предполагают наличие базовых понятий о педагогике, детской психологии, современных методах преподавания и т.д.

Фрейм «образование» включает в себя множество компонентов (слотов), которые формируются определенным профессиональным окружением, вбирающим в себя особенности данного социально - культурного сообщества. Если рассматривать всеобщее образование, то здесь прослеживается отражение общих тенденций и противоречий, с одной стороны, и отмечаются характерные специфические условия того или иного региона, с другой. Каждый компонент или слот фрейма «образование» закреплен за определенным сегментом пространства отношения фрейма «образование». Например, слот «школа» является значимым компонентом. В материальном отношении школой может быть здание, сооружение в котором проходит обучение. В интеллектуальном пространстве школой называют определенное собрание методов и способов обучения. В пространстве субъективного мира это услуги, т.е. практические занятия, входящие в состав учебного дня, недели, года и т.д. Отмечая основные свойства фреймов, Е. Г. Беляевская выделяет следующее: «во фрейм включается, во-первых, полный комплект знаний о ситуации или объекте, существующий в данный исторический период в данном социуме; во-вторых, перечислить все признаки, входящие во фрейм очень трудно, если возможно вообще. Задаваемые перечисл ы всегда являются открытыми, в том смысле, что они всегда могут быть дополнены не включенными в первоначальное перечисление уточняющими признаками» [10, 28]. Совершенно четко прослеживается, что фрейм привязан к концепту, он есть своего рода трафарет, на который накладывается сам концепт. Можно утверждать, что концепт есть само содержание, а фрейм придает ему мыслительную форму, наполняет его смыслом, придает ему культурно-специфическую окраску. Необходимо отметить следующие характеристики фреймов: -взаимопроникновение и взаимосвязь фреймовых структур. Например, фрейм «образование» является составной частью более общего фрейма «просвещение». Ситуации и картины предметного мира здесь тесно взаимодействуют между собой; - возможность фокусирования внимания на любом компоненте фреймовой структуры. Так, представляя себе фрейм «образование», можно представить его в целом, как некую систему, а можно сузить его до компонента (слота): образование, как набор определенных знаний в совокупности с опытом и т.д. Получается, что в пределах одного фрейма можно «приближать» или «отдалять» любые составляющие фрейма, в зависимости от той конкретной ситуации, которая обращает человека к тому или иному фрейму; - типизированное мысленное представление ситуации. Иначе говоря, фрейм «воссоздает идеальную идею объекта или ситуации, которая служит своеобразной точкой отсчета для рассмотрения конкретной ситуации, в которой находится человек, и определения его поведения» [10, 28]. Таким образом, говоря о соотношении фрейма и сценария, решающим фактором является то, что сценарий является разновидностью фрейма, «разворачиваемый во времени и пространстве и имеющий причинно - следственные связи» [8, 37].

Фрейм моделирует типовую ситуацию, отмеченную культурной специфичностью, а сценарий динамично ее раскладывает в цепочку последовательных событий. Уточняя соотношение фрейма и концепта, еще раз отметим, что концепт, как результат субъективного, индивидуального познания, обобще-

ния, категоризации в процессе познавательной деятельности человека, «обрастает» множеством личностных ассоциаций, что придает ему яркий субъективный характер. Фрейм же, напротив, объективирует социальный опыт человека. Если попытаться типизировать концепт, то будет прослеживаться некоторое его упрощение. Итак, совершенно очевидно, единым мнением большинства ученых представляется то, что фрейм и концепт определяются как единицы структурированного знания; обладая, более четкой, жесткой структурой, фрейм может успешно использоваться для моделирования структуры концепта.

Суммируя вышесказанное уместно отметить высказывание В. Н. Телия о том, что «концепт - это всегда знание, структурированное во времени» [11, 96], а фрейм, по нашему мнению, как разновидность мыслительной формы фрагмента знания составляет содержание концепта и способствует его понятийному развертыванию в динамике.

Библиографический список:

1. Charles J. Fillmore. University of California, Berkeley. Beryl T. Atkins. Oxford University Press. “Toward a Frame-Based Lexicon. 1975, c. 101.
2. Goffman E. “Frame Analysis” ; An essay on the organization of experience. N.Y. Harper& Row 1974, c.
3. Минский М. Остроумие и логика когнитивного и бессознательного…//Новое в зарубежной лингвистике. Вып. 23, М. 1988, с. 281-309
4. Баранов А.Н., Добровольский Д.О. Концептуальная модель значения идиомы // когнитивные аспекты лексики. Сб. науч. Трудов. Тверь, 1991. С. 3-13.
5. Дроздова Т.В. Типы и особенности многокомпонентных терминов в современном английском языке. Автореф. дис. кан. ф.н. Москва, 1989. С. 24.
6. ”Алефиренко Н. Ф. Этноэйдемический концепт и внутренняя форма языкового знака / Н. Ф. Алефиренко // Вопросы когнитивной лингвистики. - Тамбов : Изд-во ТГУ, 2004. - № 1. - С. 70 - 81.
7. Дейк Ван Т. А. Язык. Познание. Коммуникация: пер. с анг. / сост. В.В. Петрова, под ред. В. И. Герасимова. М. Прогресс, 1998. 310 с.
8. Болдырев Н. Н. Концептуальное пространство когнитивной лингвистики / Н. Н. Болдырев // Вопросы когнитивной лингвистики. - Тамбов : Изд-во ТГУ, 2004. - № 1. - С. 18 - 35.
9. Заруднева Е. А. Компаративные конструкции в лингвокогнитивном аспекте : дис. канд. филол. наук / Е. А. Заруднева. - Краснодар, 2007. - 144 с.
10. Беляевская Е.Г. Семантическая структура слова в номинативном и коммуникативном аспектах: дис. докт. филол. Наук / Е.Г. Белявская. М., 1992. 401с.
11. Телия В. Н. Русская фразеология : семантический, прагматический и лингвокульту-рологический аспекты / В. Н. Телия. - М. : Язык русской культуры, 1996. - 284 с.

F.Mahmudova

Freym konseptin mürəkkəb guruluşlu növü kimi

Xülasə

Məqalə konceptdə məna strukturu yaradan, aydın və mürəkkəb quruluşa malik olan freymlərə həsr olunur. Xüsusi guruluşa malik olan freymlər mövqeyi və məzmunu sabit olmayan və konsepsiyaya uyğun xeyli dəyişə bilən yarım freymlərdən ibarətdir.

Freymlər ətraf aləm ilə bağlı bir sıra assosiasiyalar yaradır və bizim yaddaşımızda saxlanılır. Biliyin ən mühüm vasitələrindən biri olan dil freymlər sistemindən ibarətdir. Mental prosesləri idarə etməyə kömək edən freymlər koqnitiv dilçilikdə istifadə olunur və koqnitiv quruluşu aşkar edir.

F.Mahmudova

Frame as distinguished structural and substantive type of the concept

Summary

This article is devoted to the frame which means a set of associations, connected with the surrounding things and are kept in our memory.

The language, being one of the most important means of the knowledge organization, stands for the system of the frames which are used in the cognitive linguistics and allow to model mental process and detect cognitive structure. Having more distinct structure, frames can be used in the creating of the structure of the concept. Possessing complicated structure, frames include sub-frames which position and content is not permanent and can considerably vary according to the concept.

Rəyçi: fil.elm.üzrə f.d. Cəfərova L.M.

HUMAY ƏHMƏDOVA
Azərbaycan Dillər Universiteti

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İXTİSAS ADLARININ TƏDQİQİ VƏ MƏNŞƏYİNƏ GÖRƏ NÖVLƏRİ

Açar sözlər: ixtisas adları, alınma sözlər, mürəkkəb sözlər
Key words: names of profession, borrowings, compound words
Ключевые слова: наименования специальностей, заимствованные слова, сложные слова

Cəmiyyətin həyatındakı iqtisadi, sosial və mədəni dəyişiklikləri özündə əks etdirən ixtisas adları cəmiyyətin inkişaf səviyyəsinə uyğun şəkildə formalaşır. İxtisas adları leksikasına daxil olan sözlərin müəyyən qismi müasir dil baxımından arxaikləşmişdir, çünki ingilis və Azərbaycan dillərinin bugünkü ixtisas adları uzunmüddətli tarixi inkişafın məhsuludur. İxtisas adlarının yaranma tarixi bəşəriyyətin yaranma tarixi qədər qədimdir. Onlar ictimai-iqtisadi formasiyalarda insanların əsas fəaliyyət prosesi ilə sıx əlaqədar yaranmışdır. İxtisas adları həm də xalqın tarixi, adət-ənənəsi, məişəti, həyat tərzi, etik və estetik görüşlərini də əks etdirmişdir.

Bildiyimiz kimi, yaşadığımız cəmiyyətdə maddi nemətlərin bolluğu müxtəlif sənət və peşə sahiblərinin fəaliyyəti ilə bağlıdır. Bu səbəbdəndir ki, dildə mövcud olan ixtisas adları tədqiqatçıların diqqətini cəlb etmişdir.

Dilçilikdə öz elmi fəaliyyəti ilə seçilən İ.V.Arnold da, ingilis dilinin leksik sistemində ixtisas adlarının yaranması yollarına diqqət yetirmişdir.

Azərbaycan dilinin leksik sisteminin araşdırılması zamanı da ixtisas adlarına diqqət yetirilmişdir. Filologiya elmlər doktoru A.Atakişiyev də Azərbaycan dilində sənət və peşə adları məsələsinə toxunmuşdur. O, sənət adlarının Azərbaycan dilində mənşəyinə görə növlərindən, sənət adlarının morfoloji, qrammatik xüsusiyyətlərindən bəhs etmişdir.

İxtisas adlarının araşdırılmasında xüsusi əməyi olan dilçilərə İ.V.Sabadoş, T.Q.İvanova, O.S.Orlova, L.L.Orlov, V.V.Manivcuq, V.İ.Makarov və başqalarını misal göstərmək olar. Onlar öz araşdırmalarını məhz peşə leksikasına həsr etmişlər.

Azərbaycan Elmlər Akademiyasında Terminologiya Komitəsinin 1952-ci ildə yaranmasından sonra ixtisas adlarının tədqiqinə, mənşəyinə, onların yaranma yollarının müəyyənləşməsinə və s. diqqət artmışdır.

Dilçilik ədəbiyyatında və o cümlədən, ingilis dilçiliyində ixtisas adları lüğət tərkibinin bir sahəsi və dilin lüğət tərkibinin çox vacib hissəsi hesab edilir. İxtisas adları müəyyən ictimai qrupa aid xüsusi iş və sənət təmayüllü sözlərdir. Bunlara peşə də, sənət də, ixtisas da demək olar.

Sənət – xüsusi elm, təhsil görməyən insanların əmək fəaliyyəti sahəsidir. Məsələn, *cobber (pinəçi), shoemaker (çəkməçi), shoeblacker (çəkməsilən), coal-miner// collier(kömürçü), hatter // hat maker (papaqçı), tailor (dərzi), barber (dəllək), blacksmith (dəmirçi) və s.* sənət sahəsində çalışanlar xüsusi nəzəri bilik və təhsil almaya da bilər, onlar müəyyən təcrübə əsasında, baxmaqla həmin sənətə yiyələnə bilirlər. Ona görə də şərti olaraq, ixtisas adları adı altında birləşdirilən

sözlərə həmin iş sahələri ilə bağlı sözlər – adlar daxildir. Hal-hazırda «peşə» və «sənət» terminləri sinonim sözlər kimi işlədilir. Məsələn, *müəllim* (teacher) sözü həm sənət, həm də peşə hesab olunur. «Sənət və peşə» terminləri sinonim mənaya malik olduğu üçün rus dilində olan «ıпроφессия» sözü Azərbaycan dilinə «sənət-peşə» kimi tərcümə olunur (41, 693). Müasir dildə «peşə» sözü fars sözü kimi izah olunur və mənası elə «sənət» deməkdir. «Sənətkarlıq» termini «sənətkarlıq», «peşə-kar» termini isə «sənətkar» sözü kimi izah olunur (41, 492).

M.Hüseynzadə «Müasir Azərbaycan dili» kitabında *–lıq, -liq, -luq, -lük; -dar; -çı, -çi, -çu, -çü* və s. şəkilçilərdən bəhs edərkən sənət-peşə adlarının əmələ gəlməsində həmin şəkilçilərdən geniş istifadə etmişdir. Müəllif qeyd etmişdir ki, *-çı, -çi, -çu, -çü* şəkilçiləri vasitəsilə Azərbaycan, ərəb, fars, rus dili sözlərindən və rus dili vasitəsilə başqa dillərdən gəlmiş isimlərdən peşə, sənət, məşğələ, adət, xasiyyət, əqidə, meyl və s. mənaları ifadə edən düzəltmə isimlər əmələ gəlir. Məsələn: *arabaçı, yazıçı, əməkçi, dilçi, kolxozçu, traktorçu, dənizçi* və s. (13, 30).

İ.V.Arnold «The English Word» əsərində yazır: «Seaman first used, it was not difficult to understand that it means a man professionally connected with the sea. –

The word differentiated in this way a sailor from the rest of mankind» (22, 110). Belə ki, İ.V.Arnold "-man" və "-woman" tipli ixtisas adlarından ayrıca danışmır. O, mürəkkəb sözlərdən danışanda ixtisas adlarına da toxunur və onlara aid misallar da verir.

R.Z.Qinzburq da «A Course in Modern English Lexicology» adlı kitabında İ.V.Arnold kimi ixtisas adları haqqında ətraflı danışmır. O da mürəkkəb sözlərin yaranmasından bəhs edərkən onun bir neçə yaranma yollarını göstərir, o cümlədən, peşə adlarının düzəlməsinə kömək edən amilləri də qeyd edir: *shoemaker (çəkməçi), watchman (gözətçi), watchmaker (saatsaz)* və s. (35, 152). H.Marçand da eyni ilə yuxarıda adı çəkilən leksikoloqların fikirləri ilə şərikdir. O, sözləri quruluşuna görə təhlil edərkən, bir sıra ixtisas adlarını sadə sözlər qrupunda (*nurse (dayə), sergeant (sercant), soldier (əsgər), cook (aşbaz*) və s.), bəzilərini isə düzəltmə sözlər qrupunda verir ki, onlar da morfoloji yolla sözyaratma üsuluna aiddir: *-er//-or, -ist, -ion* və s. Məsələn, *fighter (güləşçi), coaler (şaxtaçı), novelist (roman yazan), harpist (arfaçı), musician (musiqiçi), doctor (həkim) və s.*

İxtisas adlarının mənşəcə növləri

İngilis dilində ixtisas adları müxtəlif mənbələrdən daxil olmuşdur. VII əsrdə xristianlığın geniş yayıldığı bir dövrdə latın dilindən dinlə bağlı bir çox sözlər dilə daxil olmuşdur. Məsələn, priest "keşiş", bishop "yepiskop", monk "rahib", nun "rahibə" və s. İngiltərədə o dövrdə yaranan məktəblərdə dini dərs deyən müəllimə "scholar" deyilirdi və bu söz latın dilindən alınmışdır. Bundan başqa "janitor" qapıçı, dalandar, qarovulçu sözü də latın dilindən alınmışdır. İngilis dilində ixtisas adlarını yaradan yarımşəkilçilərdən olan "-monger" morfemi latın mənşəlidir.

İngilis dilində ən çox alınma sözlər fransız mənşəlidir. Fransız mənşəli sözlərin ingilis dilinə axını XI əsrdə İngiltərənin normanlar tərəfindən istilasından sonra başlayır. Fransız mənşəli ixtisas adlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

a) idarəetmə sahəsində alınma ixtisas adları: *"baron" baron, "baroness" baronessa, "royal" kral, "chancellor" kansler, "consul" konsul, "ambassador" səfir, "minister" nazir, "municipal" bələdiyyə* və s.;

b) hüquq sahəsində alınma ixtisas adları: *"judge" hakim, "attorney" hüquqşünas, advocate "vəkil", "diplomat" diplomat* və s.;

c) din sahəsində alınmalar: *"abbot" rahib, "clergy" din xadimi* və s.;

d) hərbi sahədə alınmalar: *"captain" kapitan, "sergeant" çavuş, "soldier" əsgər, "officer" zabit, "musketeer" muşketyor,* Fransada kralın qvardiya süvarisində xidmət edən zadəgan və s,;

İngilis dilinə ispan, ərəb, alman, rus, skandinav və s dillərdən də keçmə ixtisas adları vardır. Məsələn, *"ombudsman" ombudsman – skandinav mənşəli, "sultan" sultan – ərəb mənşəli, "buckaroo" axırçı, inək otaran – ispan mənşəli* və s.

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də xalqlar arasında yaranan müxtəlif qarşılıqlı əlaqələr genişləndikcə, insanların təbiət üzərində hökmranlığı möhkəmləndikcə ixtisas adları da möhkəmlənmiş, inkişaf etmiş, zənginləşmiş və bundan sonra da zənginləşəcəkdir. Azərbaycan dilinin lüğət tərkibində mövcud olan digər sözlər kimi, ixtisas adları da mənşəyinə görə, daxili imkanlar hesabına yaranmasına və alınma sözlər olmaqla iki qrupa bölünürlər:

1) *Azərbaycan dilinə məxsus olan ixtisas adları.* Bu adlar digər ixtisas adları ilə müqayisədə ən qədim tarixə malikdir. Azərbaycan ixtisas adları qədim türk xalqlarının müxtəlif siyasi, iqtisadi və mədəni əlaqəsi nəticəsində ildən-ilə zənginləşmiş və çoxalmışdır. Onlar xalqımızın müasir inkişafı ilə əlaqədar olaraq bu gün də dilin daxili imkanları əsasında çoxalmışdır.

Azərbaycan dilinə məxsus olan ixtisas adları təxminən aşağıdakılardan ibarətdir: *qapıçı, qarovulçu, qazantəmizələyən, biçinçi, qulluqçu, burucu, qatıqçı, atıcı, arıçı, alaqçı, naxırçı, nişançı, yemçi, qablaşdırıcı, paltaryuyan, suvaqçı, neftçıxaran, tarçı, dəfçi, qılıncoynadan, xəmiryoğuran, tikişçi və* s.

2) Alınma ixtisas adları. Azərbaycan dilində çoxlu alınma ixtisas adları vardır: *suflyor, stenoqrafçı, radist, kassir, nevropotoloq, pedaqoq, sosioloq, curnalist, laborant, geoloq, korrektor, metallurq və s.*

Alınma ixtisas adları çox zəngin və mürəkkəb quruluşa malikdir. Onların içərisində Azərbaycan sözdüzəldici şəkilçiləri qəbul edən ixtisas adları da çoxdur. Alınma ixtisas adları Azərbaycan dilinə demək olar ki, ya birbaşa, ya da rus dili vasitəsilə keçmişdir. Ərəb, fars və rus dillərinə məxsus ixtisas adları dilimizə əsasən, birbaşa daxil olmuşdur. Alman, fransız, ingilis, latın, italyan və başqa Qərbi Avropa dillərinə məxsus ixtisas adları rus dili vasitəsilə keçmiş və vətəndaşlıq hüququ qazanmışdır.

Alınma ixtisas adlarını və onların müxtəlif dillərə məxsus şəkilçilərlə işlənməsini nəzərə alaraq onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) ərəb və fars dillərindən alınan ixtisas adları;

2) rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınan ixtisas adları.

Məlumdur ki, böyük və kiçik xalqlara mənsub olmasından asılı olmayaraq heç bir dil zorla başqa bir dilə söz qəbul etdirə bilməz. Xalqlar arasında mədəni, iqtisadi və elmi-texniki əlaqələrin yaranması bir dildən başqa dilə söz və terminlərin keçməsinə obyektiv şərait yaradır.

Ədəbiyyat:

1.Arnold I.V. The English Word, M., 1986
2.Azərbaycan terminologiyası problemləri, Bakı, 1988
3.Əbdürrəhmanov A.Ə. Peşə-sənət terminlərinin mənşəcə növləri, «Azərbaycan terminologiyası problemləri», APİ, Bakı, 1988
4. Hüseynzadə M. Müasir Azəərbaycan dili, Bakı, 1983.
5.Ginsburg R. A Course in Modern English Lexicology, M., 1979
6. Marchand H. Studies in Syntax and Word –Formation, Munich, 1974
7.Бабкин А.М. Шендецов В.В. Словарь иноязычных выражений и слов, М., 1981.
8. http://www.langust.ru/lang-c.shtml
9.http://www.philology.ru/
10. http://www.wikipedia.org/

Х.Н.Ахмедова

Исследование наименований специальностей в английском и азербайджанском языке и их виды по происхождению

Резюме

Статья «Исследование наименований специальностей в английском и азербайджанском языке и их виды по происхождению» посвящена исследованию наименований специальностей в английском и азербайджанском языке. Наименования специальностей и их происхождение являются объектом многочисленных исследований ряда ученых-языковедов, сохранивших свою актуальность в современном языкознании. Особое внимание в статье уделено истории и особенностям формирования и сравнительному анализу видов наименований специальностей по их происхождению.

Проведена исследовательская работа, охватывающая широкий спектр вопросов, от истории происхождения наименований до их всевозможных классификаций и типологий. В статье приведены конкретные случаи заимствований таких слов в азербайджанский и английский язык из других языков, и дана современная видовая структура специальных наименований по их происхождению.

H.N.Ahmedova

The research of profession names in English and Azerbaijani languages and their types of origin

Summary

The article “The research of profession names in English and Azerbaijani languages and their types of origin” covers the research of profession names in English and Azerbaijani languages. Names of profession and their origins have been the subject of numerous studies of many scientists-linguists and still have retained their relevance in modern linguistics. Particular attention is paid to the history and

characteristics of the formation and comparative analysis of specialty according to their origins.

The article demonstrates research covering a wide range of issues, from the history of the origin of their names to the various classifications and typologies. The paper presents case studies of borrowing such words in Azerbaijani and English from other languages, and given the structure of the modern species of special items according to their origins.

Rəyçi: dos.R.B.Əhmədova

LALƏ SULTANOVA
M.Füzuli adına AMEA Əlyazmalar İnstitutu
Türkdilli əlyazmalarınn tədqiqi şöbəsi

OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏ İSMİN HAL KATEQORİYASI

Açar sözlər: Qrammatika, türk dili, hal kateqoruyası, türk dillərinin hallanma sistemləri
Ключевые слова: грамматика, тюркский язык, категория падежа, тюркская падежная система.
Key words: grammer, turkish languages, case nouns, case nouns of turkish languages.

Oğuz qrupu türk dillərinin qrammatik quruluşunda xüsusi əhəmiyyətə malik qrammatik kateqoriyalardan biri də hal kateqoriyasıdır. Hal kateqoriyası Oğuz qrupu türk dillərinin qrammatikasının ayrılmaz mühüm bir ünsürüdür. Türk xalqlarının elm dünyasına məlum olan ən qədim yazılı daş abidələri -"Orxon-Yenisey" abidələrinin dilində halların ilkin formaları öz əksini tapmışdır. Kül Tigin abidəsinin qramatik quruluşuna baxsaq, burada təsirlik halın digər şəkilçiləri ilə yanaşı, samitlə bitən sözlərə artırılan -ğ, -k şəkilçiləri, məsələn: atığ-atı, kağanığ-xaqanı, suk-qoşunu, törük-qanunu, kisik-adamı; mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərə təsirlik halda xüsusi -n, -ın, -in şəkilçisi, məsələn: kağanın-xaqanını; yönlük hal -a, -ə,-ya, -yə, -na, -nə, ilə yanaşı -ka, -kə şəkilçisi, məsələn: kağanka-xaqana, kapığka-qapıya, bodunka-xalqa; istiqamət halı -ğaru, -gərü, habelə -ya, -yə şəkilçiləri, məsələn: ilgərü-irəli, oğuzğaru-oğuzlara tərəf; birgəlik halı -ın, -in şəkilçisi, məsələn: okur-oxla, əligin-əli ilə, yerlik hal şəkilçisi -da, -də, -ta, -tə şəkilçilərini görürük (2, 86-87).

Hal kateqoiyası öz ifadə vasitəsinə görə morfoloji, vəzifəsinə görə isə sintaktik xarakter daşıyır. Bu ikili xüsusiyyət ondan irəli gəlir ki, sözlər şəkilçilər vasitəsilə dəyişilir və dəyişmə nəticəsində onlar cümlədə birləşib bu və ya digər qrammatik mənanı ifadə edir.

Hal kateqoriyasının ifadə etdiyi məna xüsusiyyətləri bütün dillərə aiddir. Lakin hər bir dil üçün bu mənanın ifadə üsulu eyni deyildir. Məsələn, azərbaycan, türk və rus dillərində cəmisi altı, alman dilində dörd, ərəb dilində üç, ingilis dilində iki hal olduğu halda fransız dilində hal kateqoriyası qrammatik kateqoriya kimi mövcud deyil.

Bundan başqa, hər bir halın ifadə etdiyi məna xüsusiyyətləri də digər dillərdə üçün eyni deyildir. Məsələn, Oğuz qrupu türk dillərində yiyəlik hal sahiblik bildirir. Lakin bir çox dillərdə yiyəlik halın funksiyası tamamilə başqadır.

Hal kateqoriyasının diqqəti cəlb edən xüsusiyyətlərindən biri də adlıq halla bağlıdır. Belə ki, adlıq hal bir sıra dillərdə qrammatik əlamətə malik olduğu halda (məsələn, ərəb, gürcü və s.), bir sıra dillərdə isə (Azərbaycan, türk, alman, ingilis və s.) onun qrammatik əlaməti yoxdur.

Ümumiyyətlə, hal ayrı ayrı sözlər arasında olan əlaqələri ifadə edən şəkilçilər və qrammatik mənaların vəhdətidir. Müxtəlif dillərin tarixi materiallarını incələdikdə görürük ki, zaman keçdikcə, hal qrammatik vasitə və qrammatik məna cəhətdən

bəzi dəyişikliklərə məruz qalır. Məsələn, Azərbaycan dili tarixinə baxdıqda görürük ki, müasir azərbaycan dilində ismin təsirlik halının şəkilçiləri -ın, -in, -un, -ün olduğu halda, vaxtilə təsirlik halın şəkilçiləri -yı, -yi, -yu, -yü şəklində ifadə olunurdu.

Yönlük, yerlik və çıxışlıq hallarında da ifadə etdikləri qrammatik məna uzunmüddətli dürüstləşmə tarixinə malikdir. Belə ki, dilimizin əvvəlki dövrlərində bir çox hallarda ismin yönlük halının mənası yerlik halın qrammatik əlamətləri ilə ifadə olunurdu (1, 96).

Hal kateqoriyası söz birləşməsi və ya cümlədə adların başqa sözlərə olan münasibətini bildirməyə xidmət edir (4, 43).

Türk dillərində bütün sözlər vahid hallanma sisteminə malikdir və türk dilləri ailəsinə mənsub olan dillərdə bütün adlar, eləcə də substantivləşmiş sözlər və məsdərlər də hallanır.

Hal kateqoriyası müasir türk dillərində daha çox ismə aid olsa da, başqa nitq hissələri də substantivləşərək hal kateqoriyası şəkilçisini qəbul edərək hallana bilər.

Hal ismin kendi dışında kalan kelimelerle munasebetini ifade eden gramer kategorisidir (6, 224).

Türk dillərində hallar mənaları və daşıdıqları sintaktik vəzifəyə görə iki yerə ayrılır:

I-qrammatik hallar

II-məkani hallar

Bu bölgünü şərti bölgü kimi qəbul etmək lazımdır. Çünki məkani hallarda olan sözlər cümlə içində qrammatik məna kəsb edir və qrammatik hallar sırasına aid olur.

Müasir türk dillərində adlıq, yiyəlik, təsirlik hallar qrammatik hallar, yönlük, yerlik və çıxışlıq hallar isə məkani hallar adlanır. Lakin Azərbaycan dilində məkani hallara "məkani-qrammatik hallar" da deyilir. Çünki yönlük, yerlik və çıxışlıq hallar məkani hallara aid edilsə də, onlar həm məkani, həm də qrammatik hal ola bilərlər. Qeyd edək ki, ilkin dövrlərdəki hal kateqoriyası indikindən fərqlənmiş və məkan bildirən halların sayı daha çox olmuşdur.

Древная тюркская падежная система значительно отличалась от той падежной системы, которую мы привыклы наблюдать в большинстве современных тюрских языков. Характерной ее особенностью было довольно большое количевство пространственных падежей (9, 75).

Müasir türk dillərində bu kateqoriyanın adı da müxtəlif sözlərlə ifadə olunur. Məsələn, Azərbaycan türkcəsində "hal", uyğur türkcəsində "keliş", qaraçay-balkar türkcəsində "boluş", tatar türkcəsində "kileş", özbək türkcəsində "kelişik" ,Türkiyə türkcəsində "durum", "hal", qaqauz türkçəsində "xal" və.s terminlərdən istifadə olunur.

Падеж–форма имени, местоимения или любой субстантивированной части речи, возникающая в зависимости от отношения зтих слов к другим словам в предложении (8, 148-162).

Hal kateqoriyasında mübahisəli məsələlərdən biri də, halların sayı məsələsidir. Məsələn, Azərbaycan, türk və rus dillərində altı, alman dilində dörd, ərəb dilində üç, ingilis dilində iki hal vardır. Hətta bəzi dillərində halların sayı qırxa belə çatır.

İsmin hallarının sayı müasir türk dilləri üşün də mübahisəli bir mövzudur. Belə ki, halların sayı bəzən beş, bəzən altı və daha çox qəbul edilirdi. Bəzən halların arasındaki yiyəlik hal atılır, bəzən isə birgəlik və çağırış halları adlanan iki hal daha qəbul edilir və s. Məsələn, qazax, qaraçay-balkar, çuvaş və s. dillərində birgəlik və çağırış halları da hal kimi qəbul edilir. Lakin Azərbaycan və Türkiyə türkcəsində bu hallar hal-hazırda istifadə olunmur. Çünki qeyri-müəyyən yiyəlik və təsirlik hallardan başqa, digər bütün hallar şəkilçilər vasitəsilə icra olunur. Şəkilçilər isə sözə bitişik yazılmalıdır. Halbuki, birgəlik hal şəkilçi deyil, qoşma vasitəsi ilə, yəni "ilə, -la, -lə" qoşması vasitəsilə ilə ifadə olunurdu. Bu qoşmanın isə sözə bitişik yazılması şərt deyildir. Hətta saitlə bitən sözlərdə isə bu mümkün deyildir. Birgəlik hal qoşma ilə işlənən qeyri-müəyyən yiyəlik haldır və bunlar nəzərə alınaraq yiyəlik halın hallar sırasında işlədilməsi daha doğrudur.

İsimlərin cümlədə müxtəlif sözlərlə əlaqə qurması və dəyişməsinə ismin halları deyilir (3, 35).

Oğuz qrupu türk dillərində ismin altı halı vardır:

1. adlıq hal 4. təsirlik hal
2. yiyəlik hal 5. yerlik hal
3. yönlük hal 6. çıxışlıq hal

İsmin halleri onun ifade ettiği münasebet durumlarıdır. İsmin her halinde bir münasebet ifadesi vardır. Bu münasebet tabi olma, bağlı olma münasebetidir (7, 283).

Haların adları da hər bir dildə müxtəlif cür səslənməkdədir. Müqayisə üçün Azərbaycan və Türkiyə türkcəsində halların adları:

	Azərbaycan dili	Türkmən dili	Türk dili	Qaqauz dili
1	**Adlıq hal**	**Baş**	**Yalın hal**	**Temel**
2	**Yiyəlik hal**	**Eelik**	**İlişik hal**	**Sahiblik**
3	**Yönlük hal**	**Yöneliş**	**Varımlı işlenmiş hal**	**Dorudak**
4	**Təsirlik hal**	**Eniş**	**Belli işlenmiş hal**	**Qösterek**
5	**Yerlik hal**	**Baqtorun**	**Durumlu işlenmiş hal**	**Erlik**
6	**Çıxışlıq hal**	**Çıxış**	**Çıkımlı işlenmiş**	**Çıkım**

Halların sıralanma ardıcıllığı da hər bir türk dili üçün fərqlidir. Məsələn, bəzi türk dillərində çıxışlıq hal yerlik haldan əvvəl işləndiyi kimi, bəzilərində də təsirlik hal yönlük haldan əvvəl işlədilir. Türkiyə türkcəsində Azərbaycan türkcəsindən fərqli olaraq yiyəlik hal sonda, təsirlik hal isə adlıq haldan sonra işlədilir:

Azərbaycan dili Türkiyə türkcəsi

1. Adlıq hal 1. Yalın hal
2. Yiyəlik hal 2. Belli işlenmiş hal
3. Yönlük hal 3. Varımlı işlenmiş hal
4. Təsirlik hal 4. Durumlu işlenmiş hal
5. Yerlik hal 5. Çıkımlı işlenmiş hal

6. Çıxışlıq hal 6. İlişik hal

Müasir Türkiyə türkcəsində ismin altı halı qəbul edilsə də, Muharrem Erginin kitabında ismin doqquz halı verilmişdir (7, 283).

1. Yalın hal (Nominatif hali)
2. İlgi hali (Genitif hali)
3. Yapma hali (Akkuzatif hali)
4. Yaklaşma hali (Datif hali)
5. Bulunma hali (Lokatif hali)
6. Uzaklaşma hali (Ablatif hali)
7. Vasıta hali (İnstrumental hali)
8. Eşitlik hali (Ekvatif hali)
9. Yön gösterme hali (Direktif hali)

Bu hallardan vasıta hali (İnstrumental hali), eşitlik hali (Ekvatif hali) ve yön gösterme hali (Direktif hali) hal hazırda müasir Türkiyə türkcəsində isitifadə olunmur. Vasıta halı -la, -le, ile (suy+la, el+le) qoşması ilə, eşitlik hali -ca, -ce, -ça, -çe (ben+ce, böyle+ce, insan+ca) şəkilçiləri ilə, yön gösterme hali isə -ra, -re, -are, -eri (son+ra, iç+re, dış+arı, iç+eri) şəkilçiləri ilə ifadə olunurdu.

Eşitlik hali (Ekvatif hali) adlandırılan hal isim soylu sözlərə artırılaraq onlara müxtəlif mənalar verir və bu mənalara əsasən onları sifət, zərf edən -ca, -ce, -ça, -çe şəkilçisi ilə düzəlir.

Məsələn: Böyle çocukça (çocuk+ça) davranmamalısın; Bence (ben+ce) bu kazak daha güzel;

Vasıta haline Türkiyə türkcəsində "beraberlik hali" də deyirlər.

Vasıta hali (İnstrumental hali) Türkiyə türkcəsində ilk zamanlar "n" samiti vasitəsilə düzəlirmiş.

Məsələn: ansızın (ansızı+n), yazın (yazı+n) və s.

Daha sonralar isə bu hal -la, -lə, ilə qoşması ilə düzəlirdi.

Məsələn: sözle (söz+le (söz ile)), elle (el+le (el ile)) və s.

Müasir Türkiyə türkcəsində eşitlik hali ve vasıta hali istifadə olunmasa da, onlar bir çox sözlərdə qəlibləşmişdir və hal hazırda da həmin sözlər danışıq dilində işlədilməkdədir.

Məsələn:

Eşitlik hali - bence, erkekçe, güzelce, yaşça, insanca və s.

Vasıta hali – ansızın, durmaksızın, güzün, yazın, kışın ("n" şəkilçisi ilə); gözle, elle, suyla və s.

Digər hallar isə, yəni yalın hal (Nominatif hali), ilgi hali (Genitif hali), yapma hali (Akkuzatif hali), yaklaşma hali (Datif hali), bulunma hali (Lokatif hali) ve uzaklaşma hali (Ablatif hali) müasir Türkiyə türkcəsinin hallarına uyğun gələn altı haldır:

1. Yalın hal (Nominatif hali) 1.Yalın hal
2. İlgi hali (Genitif hali) 2. Ilişik hal
3. Yapma hali (Akkuzatif hali) 3. Belli işlenmiş hal
4. Yaklaşma hali (Datif hali) 4. Varimli işlenmiş hal
5. Bulunma hali (Lokatif hali) 5. Durumlu işlenmiş hal
6. Uzaklaşma hali (Ablatif hali) 6. Çıkımlı işlenmiş hal

Tahsin Banguoğlu ismin hallerini "iççekim halleri" ve "dışçekim halleri" adı altında iki yerə bölmüşdür. "İççekim halleri" müasir Türk dilinin altı halına uyğundur. "Dışçekim halleri" isə bunlardır: bilelik, birlikte hali (kimli hali); görelik hali (kimce hali); bezenme hali (kimli hali); giderme, yoksulluk hali (kimsiz hali) (5, 326-331).

Oğuz qrupu Türk dillərində halların funksiyaları bir-birinin eyni oduğu kimi sualları və şəkilçiləri də eynidir:

Azərbaycan dili

1. Adlıq hal - kim?, nə?, hara?
2. Yiyəlik hal -ın, -in, -un, -ün, -nın, -nin, -nun, -nün /kimin?, nəyin?, haranın?
3. Yönlük hal -a, -ə, -ya, -yə /kimə?, nəyə?, haraya?
4. Təsirlik hal -ı, -i, -u, -ü, -nı, -ni, -nu, -nü /kimi?, nəyi?, haranı?
5. Yerlik hal -da, -də /kimdə?, nədə?, harada?
6. Çıxışlıq hal -dan, -dən /kimdən?, nədən?, haradan?

Türkmən dili

1. Baş hal
2. Eelik halı - nın, -nin, -nun, -nün, -ın, -in, -un, -ün, -n
3. Yöneliş halı –a, -e, -ə
4. Eniş halı –ı, -i, -nı, -ni
5. Baqtorun halı –da, -de
6. Çıxış halı –dan, -den

Türk dili

1.Yalın hal - kim?, ne?, nere?
2. İlişik hal -ın, -in, -un, -ün, -nın, -nin, -nun, -nün /kimin?, neyin?, nerenin?
3.Varımlı işlenmiş hal -a, -e, -ya, -ye /kime?, neye?, nereye?
4. Belli işlenmiş hal -ı, -i, -u, -ü, -yı, -yi, -yu, -yü /kimi?, neyi?, nereyi?
5. Durumlu işlenmiş hal -da, -de, -ta, -te /kimde?, nede?, neden?
6. Çıkımlı işlenmiş hal -dan, -den, -tan, -ten /kimden?, neden?, nereden?

Qaqauz dili

1. Temel hal
2. Saiblik halı –nın, -nin, nun, -nün, ın, -in, -un, -ün, an, -ən
3. Dorudak halı –a, -ə, ya, -yə
4. Qösterek halı –ı, -i, -u. –ü, a. -ə, yı, -yi. –yu, yü
5. Erlik halı –da, -də, -ta, -tə
6. Çıkış halı –dan, -dən, -tan, -tən

Müasir Türkiyə türkcəsində hal şəkilçiləri ismi bəzən ismə, bə'zən felə, bəzən də ədata bağlayır.

Məsələn: Okul+a gitti; Ev+den gelmiş; (ismi felə bağlayıb) Kitab+ın kapağı; bahçe+nin yolu; (ismi ismə bağlayıb) Orman+a karşı; sen+in kadar; (ismi ədata bağlayıb)

Türk və Azərbaycan dillərində ismin hallarının bəzi fərqləri var, onlar aşağıdakılardır (3, 36).

1) Türk dilində təsirlik hal şəkilçisi (-ı, -i. –u, -ü) saitlə bitən sözə artırılarkən sözlə şəkilçi arasına bitişdirici (kaynaştırma) "y" samiti, Azərbaycan dilində isə "n" samiti əlavə edilir.

kapı+y+ı - kapıyı; qapı+n+ı - qapını;

anne+y+i - anneyi; ana+n+ı - ananı;

Saitlə bitən söz birləşmələrinin hallanması zamanı bu fərq aradan qalxır:

çocuk bahçe+s+i; uşaq baxçası+n+ı;

yazı levhası+n+ı; yazı taxtası+n+ı;

2) Şəxs əvəzlikləri "ben" və "sen" türk dilində yönlük halda "bana", "sana" şəklində işlədilir:

Kitabı bana ver -Kitabı mənə ver.

Sana söylüyorum -Sənə deyirəm.

3) Xüsusi isimlərə artırılan yönlük hal şəkilçisi (-a, -ə, -ya, -ye) həm də Azərbaycan dilindəki "gil" şəkilçisinin ifadə etdiyi mənalara uyğun gəlir:

Orhan'a gidiyorum – Orxangilə gedirəm.

Babamlara misafir geldi – Atamgilə qonaq gəldi.

4) Bir sıra eyni mənalı fellər və qoşmalar türk və Azərbaycan dillərində isimləri müxtəlif hallarda idarə edirlər:

Müqayisə et:

Ahmed'e sormak -Əhməddən soruşmaq;

Zile basmak -Zəngi basmaq;

Beş saat kadar -Beş saata qədər;

Birisine danışmak -Biri ilə məsləhətləşmək;

5) Türk dilində yerlik və çıxışlıq hal şəkilçilərinin (-da, -de, -dan, -den) həm də kar variantları işlədilir (-ta, -te, -tan, -ten).

kitapta, ağaçtan, çiçekten, dolapta.

6) "ne" sual əvəzliyinin hallanması spesifikdir:

ne, neyin, neye, neyi (nesi), nede, neyiden.

Müasir türk və Azərbaycan dillərində təkcə adlar deyil, eləcə də substantivləşmiş sözlər, məsdərlər, söz birləşmələri və s. də hal şəkilşiləri qəbul edərək hallana bilir.

Misal üçün türk və Azərbaycan dillərində söz birləşmələri və məsdərləri müqayisəli surətdə hallandıraq:

Söz birləşmələrinin hallanması:

Hallar	Azərbaycan dili	Türk dii
1 . Adlıq hal	***-alma ağacı***	***-elma ağacı***
2. Yiyəlik hal	***-alma ağacının***	***-elma ağacının***
3. Yönlük hal	***-alma ağacına***	***-elma ağacına***
4. Təsirlik hal	***-alma ağacını***	***-elma ağacını***
5. Yerlik hal	***-alma ağacında***	***-elma ağacında***
6. Çıxışlıq hal	***-alma ağacından***	***-elma ağacından***

Söz birləşmələri hallanarkən söz birləşməsinin birinci tərəfi olduğu kimi qalır, söz birləşməsinin ikinci tərəfi isə müvafiq hal şəkilçiləri qəbul edərək hallanır.

Məsdərlərin hallanması:

Hallar	Azərbaycan dili	Türk dii
1 . Adlıq hal	***-yazmaq***	***-yazmak***
2. Yiyəlik hal	***-yazmağın***	***-yazmağın***
3. Yönlük hal	***-yazmağa***	***-yazmağın***
4. Təsirlik hal	***-yazmağı***	***-yazmağı***
5. Yerlik hal	***-yazmaqda***	***-yazmakta***

Qeyd etdiyimiz kimi, hər dörd dildə; Azərbaycan, türkmən, türk və qaqauz dillərində demək olar ki, hal kateqoriyası eynidir. Lakin hər birində dildəki hal kateqoriyasını bir-birindən fərqləndirən xüsusiyyətlər də mövcuddur. Bu bənzərlik və fərqləri daha aydın görmək üçün hər dörd dildə işlədilən halları müqayisəli surətdə incələmək lazımdır.

Ədəbiyyat siyahısı

Azərbaycan dilində:

1. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı: Maarif nəşriyyatı, 1966, 299 s.
2. Rəcəbov Ə., Məmmədov Y. Orxon–Yenisey abidələri.Bakı: Yazıçı,1993, 375 s.
3. Rüstəmov R. Türk Dilinin Morfologiyası.Bakı:Nurlan nəşriyyatı, 2007, 209 s.
4. Zeynalov F. R. Türk Dillərinin Müqayisəli Qrammatikası. I hissə. Bakı: ADU nəşriyyatı, 1974, 142 s.

Türk dilində:

5. Banguoğlu T. Türkçenin grameri. 2. basılış. Türk Tarih Kurumu Basım Evi Ankara, 1986 , 635 s.
6. Ergin M. Türk dil bilgisi. İstanbul: Edebiyat Fakültesi Basımevi, 1972, 407 s.
7. Ergin M. Üniversiteliler için Türk dili. Basım ve Cilt Taraslı Matbaacılık LTT, 1999, 574 s.

Rus dilində:

8. Кононов А. Н. Грамматика языка тюркских рунических памятников VII – IX вв. Ленинград: “Наука” Ленинградское отделение, 1980, 319 с.
9. Серебренников Б. А., Гаджиева Н. З. Сравнительно-историческая грамматика тюрских языков. Москва: Издательство Наука, Главная редакция восточной литературы, 1986, 302 с.

Лала Султанова

Категория падежа существительных в тюркских языках огузской группы

Резюме

Статья называется «Категория падежа существительных в тюркских языках огузской группы». Как видно из названия, в статье говорится о категории

падежа, занимающей важное место в грамматике азербайджанского, турецкого, туркменского и гагаузского языков, входящих в огузскую группу.

В статье раскрываются категория падежа, средства выражения, название падежей, вопросы и специфические особенности падежей.

Lala Soltanova

"Category of case nouns in Oguz group of Turkic languages"

Summary

The article is called "Category of case nouns in Oguz group of Turkic languages." As the name implies, this paper focuses on the category of case, which occupies an important place in the grammar of Azerbaijani, Turkish, Turkmen and Gagauz languages, which are Turkic group.

The article describes the category of case, the means of expression, the name of the cases, the issues and the specifics of cases.

Rəyçi: filol.üz.f.d. Lamiyə Rəhimova

MAHİRƏ HÜSEYNOVA
filologiya üzrə fəlsəfə doktoru

HƏSƏN MİRZƏYEVİN TƏDQIQATINDA FEİLİ SİFƏT

Açar sözlər: fel, feli sifət, kateqoriya, termin, şəkilçi.
Key words: verb, participle, suffix, category, term.
Ключевые слова: глагол, причастия, категория, термин, суффикс

Prof. H.Mirzəyevin feili sifətə dair onlarca məqaləsi vardır. O, bu mövzuda qələmə aldığı ilk məqaləsini 1961- ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Aspirantlarının VIII elmi konfransının proqram və tezisləri" jurnalında çap etdirmişdir. Məqalə "Türk dillərində feili sifətin tədqiqinə dair adlanır". Məqalə 36 səhifə həcmindədir.

Məlumdur ki, müasir Azərbaycan dilinin qrammatik quruluşunun dəqiq surətdə öyrənilməsi probleminə daxil olan məsələlərdən biri də feili sifətlərin nitq hissələri sırasındakı mövqeyini daha dürüst aydınlaşdırmaq və müəyyənləşdirmək məsələsidir. Buna görə də feili sifətlərin türk dillərindəki mənzərəsi ilə tanış olmaq zəruridir, çünki bu tanışlıq feili sifətlərin morfologiya və sintaksisdəki mövqeyi haqqında daha düzgün nəzəri və əməli nəticələr çıxarılmasına yol açır. Bu baxımdan Həsən Mirzəyevin bu məqaləsi xüsusi əhəmiyyət kəsb edir. (1.s. 597) Müəllif məqalədə tarixi müqayisəli metoddan istifadə edərək, qarşısına qoyduğu vəzifəni elmi dəlillərlə əsaslandırmağa çalışmışdır. Məqalədən aydın olur ki, türk dillərində feili sifətin elmi əsaslarla tədqiqi, əsasən xıx əsrin ikinci yarısında başlamışdır. Prof. M. Kazım bəyin, A. N. Meloranskinin, B.A.Qordlevskinin, B.A.Boqorodskinin, A.Samoyloviçin, N.K.Dmitriyevin, Ə.M.Dəmirçizadənin, İ.A.-Baskakovun, A.N.Kononovun, S.E.Malovun, E.B.Sevortyanın, N.R.Dırenkovanın, İ.A. Batmanovun, B.M.Hasilovun, A.Qulamovun, B.B.Reşetovun, A.A.Yuldaşevin, R.Azimovun, X. Balıyevin, S.N İvanovun, D.S.Nasırovun, Ş.S.Aylarovun, R.Jumanyozovun, Z.Maqrufovun, A.N. İnkijekova – Qrekulun və başqalarının feili sifət haqqındakı fikir və mülahizələrini ümumiləşdirən alim doğru olaraq feili sifətlərin tədqiqi tarixini başlıca olaraq iki dövr üzrə səciyyələndirir: sovet dövrünə qədər olan tədqiqat və sovet dövründə olan tədqiqat. Bu dövrlərdə feili sifətin türk dillərində tədqiqi məsələlərinə Həsən müəllim olduqca aydın müstəvidən yanaşır. Şübhəsiz ki, alimin bu məqaləsi türk dillərinin müqayisəli öyrənilməsi ilə məşğul olanlar üçün olduqca faydalıdır. Çünki müəllif dərin elmi təhlil əsasında feili sifətləri türk, özbək, qaraqalpaq, xakas, qazax, başqırd, oryot, uyğur, tatar və Azərbaycan dili ilə müqayisəli şəkildə nəzərdən keçirir və sonda aşağıdakı dolğun nəticələrə gəlir:

1. Feili sifətlər türk dillərinin hamısında feilin və sifətin xüsusiyyətlərini, əsasən, eyni dərəcədə ifadə edir və eyni qayda ilə düzəlirlər.

2. Feili sifəti əmələ gətirən şəkilçilər (fonetik dəyişikliyə uğrayaraq ayrı – ayrı formalara düşməsinə baxmayaraq) bir qəbildəndirlər, yəni eyni morfemlərdir. Bununla yanaşı, hər biri özünə məxsus fərqli cəhətlərə də malikdir.

3. Eyni məzmunlu feili sifətlər bəzi dildə bir, bəzi dildə isə iki və daha artıq şəkilçi ilə düzələ bilir.

4. Feili sifətlərdə zaman kateqoriyası başqa kateqoriyalara nisbətən daha qabarıq şəkildə özünü göstərir.

Feili sifəti şərtləndirən xüsusiyyətlərin (növ, inkarlıq və s.) bəzisi müstəsna hallarda feili sifətdə olmaya da bilər. (məs: Xakas dilində"uğan" şəkilçisi ilə düzələn feili sifətlər inkar şəkilçisi qəbul etmir. Azərbaycan dilində də belə vəziyyət vardır və s.) Lakin feili sifət zaman kateqoriyasını ifadə etməkdə feildən düzələn sifətlər sırasına keçir.

5. Türk dillərinin əksəriyyətində -ar, -er, -r şəkilçiləri ilə düzələn feili sifətlər zamanca ümumiləşir və sifət kateqoriyasına keçir. (Bu proses davam etməkdədir). Belə bir mülahizə də yürütmək olar ki, bu şəkilçilərin yerini (mənaca), əsasən, -qan, - qen, - an, -en... qəbilindən olan şəkilçilər tutmağa başlayır.

Göründüyü kimi, prof. H. Mirzəyevin "Türk dillərində feili sifətin tədqiqinə dair" məqaləsində qarşıya qoyulan vəzifə kardinal bir məslə kimi sistemli formada təfsilatını tapa bilmişdir. Prof. H. Mirzəyevin feili sifət bəhsinə həsr etdiyi digər məqaləsi "Feili sifəti feildən düzələn sifətdən fərqləndirən başlıca əlamətlər" adlanır. Məqalə 1962 – ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Aspirantların IX elmi konfransının Proqramı və tezisləri" jurnalında çap olunmuşdur. Müəllif məqalədə ilk öncə "feili sifət" və "feildən düzələn sifət" terminlərinə aydınlıq gətirir. Alim yazır ki, "feili sifət" və "feildən düzələn sifət" terminləri bir – birinə çox oxşayır. İlk baxışda elə görünür ki, bunlar eyni şeylərdir. Hər ikisi feil kökünə müvafiq şəkilçilərin artırılması ilə düzəlir. Hər ikisi əşyanın əlamət və keyfiyyətini bildirir, sifətin suallarından birinə cavab olur, cümlədə əsasən təyin olur və s.

Bütün bu oxşar cəhətlərə baxmayaraq bunları eyniləşdirmək olmaz. Bunların formal əlamətləri bir olmadığı kimi, mənaları da bir deyildir. Feili sifətlər feilə məxsus qrammatik kateqoriyaların (zaman, inkarlıq, təsir, növ və s.)əsas qismini bildirdiyi halda, feildən düzələn sifətlər bu kateqoriyaları bildirmir və tamamilə düzəltmə sifət olur. Başqa sözlə desək, feili sifət termini adı altında həm feilə, həm də sifətə məxsus, feildən düzələn sifət termini adı altında isə yalnız sifətə məxsus əlamətlər başa düşülür. (1.s. 22)

Prof. H. Mirzəyev məqalədə feili sifətlə feildən düzələn sifətlərin fərqli əlamətlərini aşağıdakı kimi müəyyənləşdirir:

1. Feili sifət təsirli və təsirsiz olur. Lakin bu əlamət feildən düzələn sifətlərdə yoxdur.

2. Feili sifət feilin növ şəkilçilərini qəbul edir. Lakin qız – mar gün, sön- ük işıq, az – ğın adam, qaç – ağan at və s. bu kimi feildən düzələn sifətlərə bu şəkilçiləri artırmaq mümkün deyildi.

3. Feili sifətlər, əsasən, inkar şəkilçisi qəbul edir. Feildən düzələn sifətlər isə bu şəkilçini qəbul etmir. Alim burada onu da göstərir ki, feili sifət və feildən düzələn sifətlərin inkar şəkilçilərini qəbul etməsində bəzən istisna hallar da vardır.

4. Feili sifətlərdə zaman vardır, yəni feili sifətlər əşyanın zamanla bağlı olan əlamət və keyfiyyətlərini bildirir. Feildən düzələn sifətlərdə isə zaman yoxdur. Onlar zamanla əlaqəsi olmayan daimi əlamət və keyfiyyəti bildirir. Müəllif burada qeyd edir ki, zaman anlayışı – an, - ən şəkilçiləri ilə düzələn feili sifətlər-

də o biri feili sifətlərdən fərqlidir Belə ki, o biri feili sifətlərə nisbətən bunda zamanca konkretlik yoxdur. Zaman mücərrəddir və bu cümlənin məzmunu ilə müəyyən edilir.

5. Feili sifət, sifətə məxsus dərəcə əlamətlərini qəbul etmir. Lakin feildən düzələn sifətlər bu dərəcə əlamətlərini qəbul edir. Alim burada da düzgün olaraq belə bir qayda verir ki, belə bir qaydanı bütün hallarda feili sifətə tətbiq etmək olmur. Bəzi feili sifətlər bir sıra mənaları ilə əlaqədar olaraq dərəcə əlamətlərini də qəbul edir.

6. Feili sifət bəzi feili bağlama şəkilçisi qəbul etmiş başqa bir feillə qoşa işlənərək mürəkkəb bir birləşmə əmələ gətirə bilir. Müşahidəyə əsasən demək olar ki, feildən düzələn sifətlər belə bir birləşmə əmələ gətirə bilmir. Məs: yor – ğun, çürü – k,çalış – qan, qorx – unc və s. kimi feildən düzələn sifətləri yuxarıdakı şəkildə işlətmək mümkün deyildir.

Bu birləşmələrdə əşyanın əlamətlərini ayrı – ayrı sözlərlə ifadə edilməsi və başqa mənaları ilə yanaşı feilə məxsus tərz mənası da özünü göstərir.

Feili sifətlərin, demək olar ki, hamısı düzəltmə feillərdən əmələ gəlmir. Prof. H. Mirzəyev qeyd edir ki, bəzi dilçilərin feili sifət və bəzilərinin feildən düzələn sifət hesab etdikləri – ıcı,- ici,- ucu, - ücü; - maz, məz şəkilçisinə isə daha az sözlərdə təsadüf edilir. Məs: sağ – al – maz (yara). Prof. H. Mirzəyev onu da göstərir ki, dörd variantlı – ıcı şəkilçisi təsirli feillərə bitişir. Əgər feil təsirli deyildirsə, onda müvafiq şəkilçilər (icbar növ şəkilçiləri) vasitəsilə feil təsirli hala salınır, ondan sonra həmin şəkilçilər artırılır. Alim müşahidələrinə görə qeyd edir ki, feildən düzələn sifətlərin mürəkkəbi əsasən – ıcı ... şəkilçiləri ilə düzəlir.

7. Feili sifət (məs: kəsil – miş, çal – dığ – ı, oxu – yacağ – ı, gül – məli, süz – məli və s.) – lıq, -lik, - luq, - lük şəkilçilərini qəbul etmir. Lakin feildən düzələn sifətlər, əsasən, bu şəkilçiləri qəbul edir və əşya məzmunu kəsb edir.

8. Feili sifət özündən əvvəl gələn ismi idarə edir (sintaktik əlamət) Lakin feildən düzələn sifətlərdə belə bir əlamət yoxdur.

9. Feili sifətlər nisbət və hal şəkilçiləri, şəxs sonluqları qəbul etməsi və s. bu kimi bir sıra xüsusiyyətlərilə də feildən düzələn sifətlərdən fərqlənir (1.s.22-24)

Bəli, bu dəyərli fikirlər ağır çəkili və gerçək təfəkkürlü bir alimin feili sifəti feildən düzələn sifətdən fərqləndirən başlıca əlamətlər barədə doğru – düzgün elmi mühakimələrdir. Prof. H. Mirzəyev feili sifət bəhsinə həsr etdiyi digər bir məqaləsini Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Elmi xəbərlər"inin 1963 – cü ilindəki xı seriyasında çap etdirir. "Azərbaycan dilində feili sifətin tədqiqi tarixindən" adlı bu məqalədə müəllif feili sifətlərin tədqiqi tarixini 1839 – cu ildən, yəni prof. Kazım bəyin əsəri nəşr olunan vaxtdan götürür və bu müddətdə çap və ya əlyazması şəklində meydana çıxan əsərlərdə bu məsələlərə aid mülahizələrin tənqidi təhlilini və bundan alınan nəticələri verir. Böyük alim digər bir dövrü də haqlı olaraq nəzərdən qaçırmır. Bu da 1924 – cü ildən, yəni "Türkcə sərf – nəhv" kitabının nəşr olunan vaxtıdır. Alim bu müddətdə meydana çıxan dərslik, məqalə və əsərlərdə feili sifətlərə aid mülahizələri tənqidi aspektdə nəzərdən keçirir.. Təkcə bunu qeyd etmək kifayətdir ki, müəllif bu məqalədə 70 - ə qədər mənbəyi nəzərdən keçirmiş və bunlar haqqında öz dəyərli mülahizələrini söyləmişdir.

Prof . H. Mirzəyev bu irihəcmli məqaləsinin sonunda belə qənaətə gəlir ki, Kazım bəydən başlamış indiyədək feili sifət haqqında az və ya çox dərəcədə

danışılmasına baxmayaraq, o (feili sifət) morfoloji cəhətdən lazımınca tədqiq olunmamışdır. Məhz buna görə də bir sıra məsələlər mübahisəli qalmış və öz həllini tapmamışdır. (1.s. 32)

Beləliklə, prof. H. Mirzəyevin "Azərbaycan dilində feili sifətin tədqiqi tarixinə dair" məqaləsi də həm nəzəri, həm də əməli cəhətdən dilimizin qrammatik quruluşunun tədqiqi ilə məşğul olanlar üçün qiymətli bir mənbə rolunu oynayır.

Feili sifətə dair türkologiyada əksər məsələlər, demək olar ki, ilk dəfə olaraq prof. H. Mirzəyeм tərəfindən tədqiq olunmuşdur. Bunlardan biri də - (y) – ar, - ər, - r, - maz, - məz şəkilçilərinin feili sifət düzəldib, düzəltməməsi məsələsidir. Həsən müəllim yazır ki, forma etibarilə feilin qeyri – qəti gələcək (müzare) zaman şəkilçisilə eyni olan –(y)-ar, - ər, -r, -maz,- məz şəkilçilərinin düzəltdiyi sözlər (məs: gülər üz, axar su, qaynar bulaq, dinməz adam, sağalmaz yara, çıxılmaz vəziyyət, bağışlanmaz günah v s.) Azərbaycan dilçiliyi ədəbiyyatında iki ad – feili sifət və feildən düzələn (düzəltmə)sifət adı altında izah edilmişdir. Həmin sözlərin əsasən, feil xüsusiyyətləri kəsb etdiyini iddia edənlər onu feili sifət, sifət xüsusiyyəti kəsb etdiyini iddia edənlər isə feildən düzələn (düzəltmə) sifət adlandırmışlar.(1.s.34) Müəllif bu mübahisəli məsələyə 1963-cü ildə "Gənc elmi işçilərin x milli konfarnsının materialları" məcmuəsində dərc etdirdiyi "Müasir Azərbyacan dilində (-y), - ar, - ər, - r,- maz, - məz şəkilçilərilə düzələn sözlərin bəzi xüsusiyyətləri" adlı məqaləsində aydınlıq gətirir. Məqalədən aydın olur ki, -ar, - məz şəkilçiləri türk dillərinin əksəriyyətində feili sifət düzəldə bilir və onun əmələ gətirdiyi sözlər feilin zamanını(indiki və gələcək zamanlar) cüzi və qabarıq şəkildə ifadə edir. Hətta dilçilərin bir qismi(N. Dmitriyev, R. Azımov, R. Jumaniyazov və b.) belə sözlərdə bəzən zamanın tamamilə ümumiləşdiyini də qeyd edirlər.

Tədqiqatçı (-y) –ar,- ər, -r ,- maz, - məz şəkilçilərinin bəzi xüsusiyyətləri haqqında indiyə qədər türkoloji ədəbiyyatda mövcud olan fikirləri xülasə etmiş və xülasədən sonra həmin fikirlərə qarşı öz tənqidi münasibətini ifadə etmişdir. Alim göstərir ki, bəzi dilçilər feili sifəti feildən düzələn (düzəltmə) sifətlərdən fərqləndirən başlıca əlamətlərdən biri onun (feili sifətin) zaman kateqoriyasını ifadə etməyi feili sifətin başlıca ("fərqləndirici") meyarı hesab edir. Məsələyə bu cəhətdən yanaşdıqda məlum olur ki, müasir Azərbaycan dilində - ar, --maz şəkilçilərilə düzələn sözlərin əksəriyyəti əşyanın daimi əlamət və keyfiyyətini bildirir. Belə ki, həmin sözlərin bir qismi(qaynar həyat, yanar ürək, gülər üz və s.) zaman məfhumunu tamamilə itirmişdir.Digər bir qismi isə ("hər axar çeşmənin xoş zümzüməsi"); "Yenə axar çaylar buz tutacaqdır" (S. Vurğun); "Axar su murdar olmaz" (atalar sözü v s.) zaman məfhumunu çox cüzi, ümumi bir anlayış şəklində ifadə etdiyindən belə sözlərdə də özünü göstərir. İkinci qrupdan olan sözlərə müasir dilimizdə çox az təsadüf edilir, çünki qismən həqiqi mənasında işlənmiş belə sözlər hal – hazırda – ar və maz şəkilçisilə deyil, əsasən, (-y), -an, -ən şəkilçisilə, yəni axan su, axan çeşmə, axan çay şəklində işlədilir. – ar şəkilçisi isə, əsasən, məcazi məna kəsb etmiş sözlərə qoşulur. "Hanı Füzulinin ağlar qəzəli, Vaqifin göz altı gülən gözəli"(S. Vurğun) beytindəki "ağlar qəzəl", "gülən gözəl" ifadələri buna ən yaxşı misal ola bilər. Məlum şeydir ki, qəzəl ağlamaz, gözəl isə gülə bilər. (1.s.35)

Məqalədə - maz, - məz şəkilçisi də ayrılıqda izah edilmiş, onun xüsusiyyətləri aydın formada şərh edilmişdir. Müəllif yazır ki, -maz, - məz şəkilçisinə gəldikdə, demək lazımdır ki, o bəzi hallarda –an şəkilçisi sözün inkarında işlənə bilər. Alim bu fikrini də çoxlu sayda dil faktları ilə əsalandırır.

Azərbaycan dilində -ar şəkilçisi tarixən feili sifət düzəldə bilsə də, müasir dilimzdə həmin vəzifədə demək olar ki, işlənmir. Yuxarıda qeyd edildiyi kimi, bunu, əsasən, "-an" şəkilçisi əvəz edir. Belə ki, "ölər günə qədər", "subasar yerlərdə" ifadələri müasir dilimizdə ölən günə qədər, su basan və ya su basa bilən və s. şəklində işlədilir. (1.s.36) H.Mirzəyev bu məqalədə göstərir ki, bu şəkilçi canlı danışıq dilində öz əvvəlki mövqeyini qismən saxlamaqdadır. Məs: yeyər (yer) yeri sazdır, tutar yeri xəstə(xəsdə); yəni yeyən yeri sazdır, tutar yeri xəstə (Gədəbəy şivəsi)

Məşhur türkoloq Jan Deni göstərir ki, türk dilində ("sever") sözü əslində "sevən", "uyğur" sözü isə "uyuyan" deməkdir.

Ə. Dəmirçizadə, S. Cəfərov, İ. Həsənov, A. Axundov qeyd edirlər ki, Azərbaycan dilinin ilk dövrlərində, daha çox müasir dilimizdə isə son dərəcə az işlənən – ar şəkilçisi dilimizin müasir mərhələsində öz feili sifət əmələ gətirmək xüsusiyyətini itirmiş və ya itirmək üzrədir. (2.s.125; 3.s.97; 4.s.38; 5.s.108). Alim bu cəhətdən -maz şəkilçisinin ondan nisbətən fərqləndiyini diqqətə çatdırır və fikirlərini nümunələr əsasında isbat edir.

Müəllif – maz, - məz şəkilçisini iki ünsürdən – ma, - mə, - z ünsürlərindən əmələ gəldiyini tutarlı faktlar əsasında izah edir və bunları bir – birindən ayırmağın mümkün olmadığını nəzərə çatdırır. O, qeyd edir ki, türkmən dilində - maz, - məz şəkilçilərindəki ünsürlər (- ma, -z) bir – birinə möhkəm birləşmiş və sadə şəkilçilər sırasına keçmişdir. Alim qaraqalpaq dilində də belə vəziyyətin olduğunu qeyd edir .(1.s. 37)

-ar şəkliçili düzəltmə sifətlərin (feildən düzələn sifətlərin) feilin məna növünü, demək olar ki, ifadə etmədiyini qeyd edən H. Mirzəyev bəzi dilçilik ədəbiyyatında yol verilmiş nöqsanlara da toxunur. Müəllif yazır ki, -maz şəkilçisi vasitəsilə düzələn sözlər feilin növ kateqoriyasını demək olar ki, mühafizə edib saxlayır.

Müəllif feili sifətin feili bağlama ilə qoşa işlənə bildiyi halları da dil faktları əsasında şərh edir. Lakin -ar şəkilçili sözlərin feildən düzələn (düzəltmə) başqa sifətlər kimi belə vəziyyətdə işlənmədiyini və - maz şəkilçisinin isə həmin formada işlənə bildiyini söyləyir.

Tədqiqatçı –ar, -maz şəkilçilərilə düzələn sözlərin substantivləşməsinə də dilimizdə təsadüf edildiyini qeyd edir və istisna halları da tutarlı faktlarla izah edir.

Məlumdur ki, -ar və - maz şəkilçili sözlər "cümlədə əsasən, təklikdə işlədilir" (6.s.155) Bunlar öz ətrafına söz toplamaq, tərkib yaratmaq, idarə etmək, cümlənin tamamlığı olmaq cəhətdən çox məhdud imkanlara malikdir. Bunların mübtəda olması qeyri- mümkündür. (7.s. 169)

Bütün bu deyilənləri nəzərə alan prof. H. Mirzəyev həmin şəkilçiləri şərti olaraq keçid vəziyyətində olan bir şəkilçi, feildən düzələn (düzəltmə) sifət şəkilçisi adlandırmağı məqsədə müvafiq hesab edir.

H. Mirzəyev feili sifətin tədqiqi ilə bağlı iki məqalə yazmışdır. Bu məqalələrdən birincisi haqqında yuxarıda ötəri olaraq danışdıq. Müəllifin bu mövzuda digər bir məqaləsi 1963- cü ildə ADPU – nun "Elmi əsərlər"inin xı seriyasında çap olun-

muşdur. "Azərbaycan dilində feili sifətin tədqiqi tarixindən" adlı bu məqalə birinci məqalənin genişləndirilmiş və təkmilləşdirilmiş forması olub dəyərli elmi faktlar əsasında qələmə alınmışdır. Məqalənin başlanğıcında deyilir ki, Azərbaycan dilindəki feili sifətlər haqqında xıx əsrin 1 – ci yarısından başlayaraq indiyədək dilçilik ədəbiyyatımızda müxtəlif mülahizələr söylənilmişdir. Belə müxtəlif mülahizələrin əsas səbəbi feili sifətin həm feil, həm də sifətə xas olan əlamətlərə malik olmasından irəli gəlir. Yəni, feili sifət feilin zaman, növ, təsirlik, inkarlıq, tərz, şəxs kateqoriyasını az və ya çox, bu və ya digər şəkildə saxlayır, özündən əvvəl gələn ismi idarə edir, bəzi feili bağlama şəkilçisi qəbul etmiş fellə mürəkkəb birləşmə əmələ gətirə bilir və s. Feili sifət sifət kimi əşyanın əlamət və keyfiyyətini bildirir, substantivləşərək ismin hal və cəm şəkilçilərini qəbul edir. Sifətin sualına cavab olur, cümlədə əsasən təyin olur və s. Məhz buna görə də feili sifət bəzən feil, bəzən sifət bəhsinə daxil edilmiş və bəzən də feildən düzələn (düzəltmə) sifətlərlə qarışdırılmışdır. Başqa sözlə desək, Azərbaycan dilində feili sifət istər nəzəri, istərsə praktik cəhətdən ətraflı surətdə izah edilmədiyindən uzun illər boyu mübahisəyə səbəb olmuşdur. (1.s. 39) Bütüb bunları nəzərə alan alim məqalədə əsasən 2 dövr üzrə tədqiqat aparmışdır: xıx əsrdən sovet hakimiyyəti dövrünə qədər və Azərbaycanda sovet hakimiyyəti qurulduğu dövrdən müasir dövrümüzə qədər. H. Mirzəyevin bu məqaləsinin qiymətli cəhəti ondan ibarətdir ki, hər iki dövrdə yazılmış əsərlər haqqında təsviri məlumat vermir, həmin əsərlərdə söylənilmiş fikirlərə qarşı öz tənqidi münasibətininümayiş etdirir. Alim çoxaspektli araşdırmalarından belə qənaətə gəlir ki, xıx əsrdən başlamış Azərbaycanda sovet hakimiyyəti qurulanadək dilçiliyə aid yazılmış əsərlərdə (adını çəkdiyimiz mənbələrdə) feili sifətə xas olan xüsusiyyətlər özünün hərtərəfli əksini tapmamışdır.

Prof. H. Mirzəyevin 1964- cü ildə çap etdirdiyi məqalələrdən biri də "Feili sifətlərdə idarə" adlanır. Müəllifin bu məqaləsi "Ali məktəblərin filoloji və pedaqoji problemlərə həsr edilmiş I respublika elmi konfransının materialları"ında dərc olunmuşdur. Müəllif bu mövzu ilə dilçilik ədəbiyyatında ilk dəfə olaraq ən əsas problem olan feili sifətlərdə idarə məsələsini həll etməyə çalışmış və buna tam şəkildə nail ola bilmişdir. H. Mirzəyev feili sifətlərdə idarə ilə bağlı 13 mühüm müddəa irəli sürür. Bu müddəalar qısa şəkildə aşağıdakılardan ibarətdir:

1. Feili sifətlər feillər kimi, özündən əvvəl gələn ismi ayrı – ayrı hallarda olmasını tələb edir.
2. Feili sifətlər feilə məxsus xüsusiyyətləri, əsasən, ifadə etdiyi üçün feil ilə, sifətə məxsus bir sıra xüsusiyyətləri ifadə etdiyi üçün sifət ilə bağlıdır.
3. Feili sifət özündən əvvəl gələn ismi, əsasən, feillər kimi idarə edir. Lakin bunları isimləri idarə etməsində fərqli cəhətlər də vardır. Belə ki, feillər (təsriflənən feillər) ismi dörd halda – yönlük, təsirlik, yerlik və çıxışlıq halda olmasını tələb etdiyi halda, feili sifət beş – yönlük, təsirlik, yerlik, çıxışlıq və yiyəlik halda olmasını tələb edir.
4. Feillər yalnız idarə edir, feili sifətlər isə həm idarə edir, həm də idarə olunur. Feili sifətin idarə olunmasının səbəbi odur ki, o, sifətlər (və ya isimlər) kimi hallana bilir.
5. Feili sifətlər feilə məxsus bir sıra xüsusiyyətləri (zaman, növ, təsirlik, inkarlıq, tərz, şəxs və s.) ifadə edir. Bu əlamətlərdən bəzisi (növ və təsirlik) ismin

hallanmasına təsir edir, bəzisi (zaman bildirməsi, inkarlıq şəkilçisi qəbul etməsi) isə təsir etmir.

6. İsimlərin idarə olunmasında feili sifətin formal əlamətlərinin rolu, demək olar ki, yoxdur. Lakin idarəedicilik gücü cəhətdən bu formal əlamətlər bir – birindən fərqlənir.

Ümumiyyətlə, H. Mirzəyev feili sifətlərdə idarə məsələsini 13 bənddə ümumiləşdirmiş, feili sifətlərin ismin hallarını idarə etməsini ətraflı və elmi surətdə izah etmişdir.

H. Mirzəyev "Feili sifətlərdə tərz" adlı məqaləsini "Gənc elmi işçilərin xı elmi konfransının materialları" məcmuəsinin 1964 – cü ildə işıq üzü görən sayında çap etdirmişdir. Müəllif bu məqalədə də ilk dəfə olaraq Azərbaycan dilçiliyində ən əsas problem olan feili sifətlərdə tərz məsələsini etməyə çalışmış və buna nail olmuşdur.

H. Mirzəyev feili sifətlərdə tərz kateqoriyasının ifadəsini demək olar ki, feillərdəki kimi olduğunu göstərir və bu ifadə də diqqəti 2 mühüm üsula yönəldir: 1. Tərzin feili sifətlərdə analitik üsulla ifadəsi; 2. Tərzin feili sifətlərdə morfoloji üsulla ifadəsi.

Müəllif tərzin feili sifətlərdə analiyik üsulla ifadəsini şərh edərək göstərir ki, bu bəzi feili bağlamalarla bir sıra feili sifətlərin qoşa işlənməsi yolu ilə düzəlir və bu birləşmələrin arasına demək olar ki, başqa söz daxil ola bilmir.

Tərzin feili sifətlərdə morfoloji üsulundan danışan alim yazır ki, tərzin feili sifətdə morfoloji üsulla ifadəsi də demək olar ki, feillərdə olduğu kimidir. Müəllif qeyd edir ki, bu üsul ilə ifadə olunan tərz də bütün feili sifətləri ifadə etmir və bu bəzi feili sifətlərdə, xüsusilə, qayıdış növ şəkilçisi qəbul etmiş feili sifətlərdə daha qabarıq şəkildə özünü göstərir.(1.s. 49)

H. Mirzəyevin 1966 – cı ildə "Elmi əsər"lərin xı seriyasında çap etdirdiyi "Azərbaycan dilindəki feili sifət şəkilçilərinin bəzi xüsusiyyətləri haqqında" məqaləsi də yeni bir üslubi nəfəslə qələmə alınmışdır. Alimin bu məqaləsi haqqında A.Qurbanov yazır ki, türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində bu vaxta qədər feili sifət mövzusu ətraflı şəkildə tədqiq olunmamışdı. H. Mirzəyevin bu məqaləsində feili sifət və onu əmələ gətirən şəkilçilərin bir sıra xüsusiyyətləri geniş və dəqiq şəkildə şərh olunmuş, irəli sürülən mülahizələr dil faktları ilə əsaslandırılmışdır. Müəllif məsələnin aydınlaşması üçün Azərbaycan dilində feili sifəti əmələ gətirən digər türk dillərindəki feili sifət şəkilçiləri ilə müqayisə etmiş, ümumiləşdirmələr aparmış və düzgün nəticələr çıxarmışdır. Bundan əlavə, müəllif feili sifət şəkilçiləri ilə türk dillərində olan şəkilçilərə də toxunmuş, hətta bəzən bunların təşəkkül tarixinə də toxunmuşdur.

Məqalənin elmi məziyyətlərini yüksək qiymətləndirən A. Qurbanov sonda qeyd edir ki, müəllifin "Azərbaycan dilindəki feili sifət şəkilçilərinin bəzi xüsusiyyətləri haqqında" əsəri nəzəri və praktik baxımdan olduqca əhəmiyyətlidir. (8.s. 60)

H. MİrzəyevfeiliI sifət bəhsinə həsr etdiyi "Feili sifətin feillə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsini 1966 – cı ildə "Elmi xəbər"lərin xı seriyasında çap etdirmişdir. Müəllifin bu məqaləsi həcm baxımından onun digər məqalələrindən fərqlənir. Məqalədə deyilir ki, əşyanın hərəkətlə bağlı olan əlamətini bildirən feili sifət feilin bir növü və ay xüsusi bir kateqoriyası hesab edilməlidir,

çünki o, feilə məxsus xüsusiyyətləri, əsasən, ifadə edə bilmir. Göründüyü kimi, nəinki Azərbaycan dilçiliyində, ümumən, türkologiyada feili sifətin feilin bir kateqoriyası olması fikrini ilk dəfə olaraq məhz H. Mirzəyev irəli sürür. Tədqiqatçı məqalədə yalnız feili sifətlərdə hərəkət, təsirlilik və təsirsizlik, növ, inkarlıq, şəxs və zərflərin feili sifətlərlə işlənməsindən bəhs etmişdir. Məqalədə barədə dilçi alimlər də yüksək fikirlər söyləmişlər. B. İbrahimov yazır ki, H.Mirzəyev məqalədə feili sifətin feillə müştərək və fərqli xüsusiyyətlərini incəliklərinə qədər aydınlaşdırır. Müəllif haqlı olaraq feili sifəti ayrı – ayrı feil kateqoriyaları üzrə şərh edir, onun iş – hərəkət, təsirlilik – təsirsizlik, növ, inkarlıq, şəxs məzmununu mühafizə edib saxladığını, feil kimi zərflərlə işləndiyini ayrı – ayrı paraqraflar üzrə aydınlaşdırır.

B. İbrahimov məqalə müəlliflərinin məsələsinin aydınlaşması üçün yaxşı bir üsuldan da istifadə etdiyini qeyd edir və davam edərək yazır ki, H. Mirzəyev feili sifətin həmin kateqporiyaları necə ifadə etməsindən danışarkən əvvəlcə feili sifət ilə feilin oxşar,sonra isə fərqli xüsusiyyətlərini misallar əsasında bir – bir qeyd edir, sonra da ayrı – ayrı şəkilçilərlə düzələn feili sifətlərin həmin kateqoriyaları necə ifadə etdiyini, bu cəhətdən hansının daha geniş imkanlara malik olduğunu, bir – birindən necə fərqləndiyini bütün incəliklərilə şərh edir. Məsələni tamamilə aydınlaşdırmaq üçün Azərbaycan dili faktlarını türk dili faktları ilə tutuşdurur, axtarışlar aparır, spesifik xüsusiyyətləri göstərir, yeri gəldikcə türkoloqların bu haqda olan fikirlərini təhlil edir, feili sifətin feil kateqoriyasına mənsub olduğunu dil faktları ilə əsaslandırır. (9.s. 603)

Məqalə haqqında A. Qurbanovun da fikirləri xüsusi maraq doğurur. O yazır ki, H. Mirzəyevin "Feili sifətin feil ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsində feili sifətin feil ilə müştərək və fərqli xüsusiyyətləri haqlı olaraq ayrı – ayrı feil kateqoriyaları üzrə nəzərdən keçirilir və göstərilir ki feili sifət feilə məxsus başlıca əlamətləri (məsələn, hərəkət, təsirlilik və təsirsizlik, növ, inkarlıq, şəxs və s.) mühafizə edib saxlayır.

Müəllif bu məsələləri izah edərkən orijinal fikirlər söyləyir və irəli sürdüyü mülahizələri küllü dil faktları ilə əsaslandırır.

Məqalənin mövzusunu aktual və dilini sadə hesab edən A.Qurbanov sonda göstərir ki, H.Mirzəyevin bu məqaləsi Azərbaycan dilçiliyində, o cümlədən türkologiyada bir sıar mübahisələri aradan qaldıracaq, ali və orta məktəb müəllimlərinə, dilçiliklə məşğul olanlara və ali məktəb tələbələrinə kömək göstərəcəkdir. (10.s. 604)

H. Mirzəyev "Feili sifətin sifət ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsini 1966 – cı ildə "Elmi əsərlər" jurnalının xı seriyasının 4 – cü nömrəsində çap etdirmişdir. Məqalədə deyilir ki, feili sifətlər feil ilə müştərək xüsusiyyətlərə malik olduğu kimi, sifət ilə də müştərək xüsusiyyətlərə malikdir. Feili sifət əşya ilə bağlı olub onun keyfiyyət və əlamətini bildirdiyi üçün sifətin bir sıra xüsusiyyətini ifadə edir və buna görə də onun sualına cavab olur: sökük ev-sökülən ev, yorğun adam – yorulmuş adam, təmiz bağ – təmizlədiyi bağ,bilikli tələbə - bilinəcək hadisə, gözəl yer – gediləsi yer, qırmızı bayraq – gəzdirməli bayraq, soyuq su - axar su misallarında bu müştərəklik özünü aydın şəkildə göstərir. (2.s. 84) Müəllif məqalənin əvvəlindən sonuna kimi irəli sürdüyü fikirləri dil faktları əsasında sübuta yetirir. Məqalə iki hissədən ibarətdir: Birinci hissədə feili sifətin

sifət ilə müştərək xüsusiyyətləri göstərilir.Eləcə də ayrı – ayrı şəkilçilərlə düzələn feili sifətlərin hal, cəm, mənsubiyyət, xəbərlik kateqoriyalarının göstəricilərini qəbul edərək hansı səciyyəvi əlamətlər kəsb etdiyini və sair bu kimi məsələlər çox dəqiqliklə izah olunur.

İkinci hissədə isə feili sifətin sifət ilə xüsusən feildən düzəltmə sifətlə fərqli xüsusiyyətləri aydınlaşdırılır. Bunları fərqləndirmək üçün 15 – dən artıq dəqiq meyar göstərilir. Bu meyarlar Azərbaycan və digər türk dillərinin faktları ilə əsaslandırılır.(11.s.602)

H. Mirzəyevin "Feili sifətin sifət ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsi uzun illərdir ki, dilçiliyimizdə mübahisəli olan bir sıra məsələlərin həllində mühüm rol oynayır.

H. Mirzəyev "Azərbaycan dili feili sifətlərində idarə" adlı məqaləsini 1967 – ci ildə "Elmi əsərlər" jurnalının xı seriyasının 4 – cü nömrəsində çap etdirmişdir. Bu mövzu dilçiliyimizdə Həsən Mirzəyevə qədər problem olaraq qalırdı. Dilçiliyimizdə ilk dəfə olaraq bu məsələni bu görkəmli alim həll etməyə çalışmış və buna nail ola bilmişdir. Məqalənin mühüm və qiymətli cəhətləri çoxdur. Müəllif ilk öncə təsriflənən feillərin ismi 4 halda, feili sifətləri isə 5 halda idarə etməsinin səbəblərini açıqlayır. Bundan sonra feili sifətlərin ismi yiyəlik halda idarə etməsinin səbəbini göstərir. Məqalədə ismi yiyəlik halda idarə olunmasında fəal mövqedə dayanan feili sifətlərə aydınlıq gətirirlir. Feili sifət ismi yiyəlik halda idarə edərkən nə birləşməsi, başqa hallarda idarə edərkən necə birləşmə əmələ gətirməsi hərtərəfli şəkildə izah olunur. Məqalədə H.Mirzəyev lim hansı şəkilçilərlə düzələn feili sifətlərin idar' etmək cəhətdən daha geniş imkanlara malikliyini və bunun səbəbini də doğru – düzgün təhlil süzgəcindən keçirir. Nə üçün feillər yalnız idarə edir, feili sifətlər isə həm idarə edir, həm də idarə olunur? – sualına da cavab aydın və elmi şəkildə şərh olunur.

H.Mirzəyev "Feili sifəti feildən və sifətdən fərqləndirən cəhətlər" adlı məqaləsini 1985 – ci ildə qələmə alıb. Bu məqalə alimin digər bir eyniadlı məqaləsinin genişləndirilmiş və təkmilləşdirilmiş formasıdır. Məqalədə feil ilə feili sifətdəki hərəkət məzmununun fərqi və bu fərqi doğuran amillər çözələnir. Burada feili sifətin feilə məxsus zaman, növ, təsirlilik və təsirsizlik, inkarlıq və s. kateqoriyaları mühafizə edib saxlamasının başlıca səbəbləri də araşdırılmışdır. Həmçinin alim feili sifətin başlıca olaraq sifətlərlə fərqinin üzərində geniş dayanır və fərqləri düzgün meyarla əsaslandırır. Alim burada da haqlıdır. Çünki uzun illər türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində bunlar bir – birinə qarışıq salınmışdır.

Ədəbiyyat:

1. H.Mirzəyev. Seçilmiş elmi məqalələr. Bakı, Elm, 2006
2. Ə.Dəmirçizadə. "Sifət" Azərbaycan dilinə aid tədqiqlər. Bakı, 1947
3. S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1966.
4. İ.Həsənov. Qrammatika. Bakı, 1936.
5. A. Axundov. Feilin zamanları. Bakı, 1962.
6. Z.Tağızadə. Feili sifət. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 1961.
7. Ə.Əbilov. Müasir Azərbaycan dilində feili sifət tərkibləri. Bakı, 1962

8. A.Qurbanov. Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi Həsən Mirzəyevin "Feili sifət şəkilçilərinin bəzi xüsusiyyətləri haqqında" adlı məqaləsinə rəy. H.Mirzəyev, 7-ci cild, Bakı, 2006.
9. B.İbrahimov. Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi Həsən Mirzəyevin yazmış olduğu "Feili sifətin feil ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsi haqqında rəy. H.Mirzəyev, 7-ci cild, Bakı, 2006.
10. A.Qurbanov. H.Mirzəyevin "Feili sifətin feil ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsi haqqında rəy. H.Mirzəyev, 7-ci cild, Bakı, 2006.
11. A.Qurbanov. Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi Həsən Mirzəyevin yazmış olduğu "Feili sifətin feil ilə müştərək və fərqli xüsusiyyətləri" adlı məqaləsi haqqında rəy. H.Mirzəyev, 7-ci cild, Bakı, 2006.

Махира Гусейнова

Причастия в исследованиях Гасана Мирзоева

Резюме

В данной статье анализируются научное творчество Гасана Мирзоева посвященные исследованию причастия в Азербайджанском языке. Особое внимание уделяется статьям посвященным причастию, которые написаны в пэриод 1961-1985-ых гг.

В этих статьях исследуются история исследования причастия в Азербайджанском языке и в других тюркских языках, а также характерные особенности причастий, использующихся в Азербайджанском языке. Также анализируются суффиксы, тюркских языках.

Mahira Huseyinova

The participle in the research of Hasan Mirzayev

Summary

The article is devoted to Hasan Mirzayev's scientific research "The Participle" and his creative scientific investigation was analysed. In these researches the authors analyzed the history of investigation of Participle in Azerbaijan. The same the use of their specific peculiarities in other Turkic languages. Here, also the suffixes created in Azerbaijan and in other Turkic languages were analyzed.

Rəyçi: Prof. Buludxan Xəlilov

AFTAB HACIZADƏ
ADU

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ƏVƏZLİKLƏRİN AKTUALLAŞARAQ MƏTNYARATMA İMKANLARI

Açar sözlər: əvəzlik, mətnyaratma, işarə əvəzlikləri, şəxs əvəzlikləri, postpozisiya, propozisiya, ismi əvəzliklər, sifəti əvəzliklər, mətn, əlaqə, sintaktik bütöv, dil, mürəkkəb cümlə

Key words: pronoun, text-forming, demonstrative pronouns, personal pronouns, postposition, preposition, nominal pronouns, adjectival pronouns, text, relation, paragraph, language, complex sentence

Ключевые слова: местоимение, текстообразование, указательные местоимения, личные местоимения, постпозиция, пропозиция, местоимения существительные, местоимения прилагательные, текст, связь, синтаксическое целое, язык, сложное предложение

Mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra vasitələrdən istifadə edilir. Bu vasitələr arasında əsas nitq hissələri mühüm yer tutur. Doğrudur mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha çox rol oynayır. Bu zaman müxtəlif morfoloji göstəricilərdən, məsələn nitq hissələrindən, həmçinin sintaktik elementlərdən istifadə olunur. Morfoloji vaistələr mətnin hüdudlarının müəyyənləşməsində əhəmiyyətli rol oynayır. Bu məsələ ilə əlaqədar Ə.Xəlilov yazır ki, sintaktik bütövə daxil olan cümlələr ya bu vahidin daxilindəki morfoloji elementlərin ya da sintaktik vahidlərin (söz birləşmələrinin, cümlənin) mənasını, orada ifadə olunmuş fikrin tam açılmasına xidmət edir. Ona görə də sintaktik bütövün sərhədləri həmin vəzifəni ödəmək üçün mətnin lazım olan hissəsinin haradan başlayıb harada qurtarması ilə müəyyənləşir (1, s.39).

Əsas nitq hissələrinin aktuallaşması və onların mətnyaratma imkanları arasında əvəzliklər daha çox rol oynayır desək yanılmarıq. Bu məsələ ilə əlaqədar azərbaycanlı dilçilər Ə.Xəlilov, K.Abdullayev və digərlərinin xüsusi rolunu qeyd etmək lazımdır. İlk əvvəl Azərbaycan dilində bəzi əvəzliklərin mətnyaratmada rolunu nəzərdən keçirək. Məsələn, *özü* qayıdış əvəzliyi. Bu qayıdış əvəzliyi mətnlərin düzəldilməsində çox rol oynayır. Məlumdur ki, Azərbaycan dilində qayıdış əvəzliyi əlaqəli *öz* təyini əvəzliyinə bütün şəxslər üzrə mənsubiyyət şəkilçisi artırmaqla əmələ gəlir. Bu əvəzlik mətndə subyektlə birlikdə işlənərək, subyekti daha da konkretləşdirir və onunla birlikdə cümlənin mürəkkəb üzvü olur (2, s.117-118).

Özü əvəzliyi mətndə propozisiyada da xəbərdən əvvəl işlənir və subyekti daha da konkretləşdirməyə xidmət edir. Nümunəyə baxaq: *Zülfiyyə qapını* ***özü*** *açdı. Kərimov görüb bir müddət onu süzdü, nəzərini onun baxışında saxladı* (Tahir Kazımov. Qisas. Bakı, 1990, s.61).

Amma bu hal həmişə belə olmur. Yəni mətndə elə hallara da rast gəlmək olar ki, *özü* əvəzliyi postpozisiyada, yəni xəbərdən sonra da işlənə bilər. O bu halda da subyekti konkretləşdirir. Məsələn, *Sən deyən yaxşı adam deyil. Şəkinin Oxud kəndindəndir* ***özü***.

İndi isə nümunəyə ingilis dilində baxaq: *I **myself** opened the door and lit the candle. Rose followed me in and I held it up so that she should be able to see **herself.***

Azərbaycan dilində də *özü* əvəzliyi bağlayıcı ilə birləşərək mətndə onu təşkil edən cümlələr arasında aktualizator kimi çıxış edə bilər. Məsələn, *Hamı sevinirdi. Səməd **özü** də sevincini gizlədə bilmirdi. Keçən bahar uşaq baxçasında reportaj hazırlayan bir tərbiyyəçi qızla tanış oldum. Adı Gözəldi. Özü də Gözəldi*.

Belə hallara da rast gəlmək olar ki, *özü* sözü mənsubiyyət şəkilçisi ilə işlənməsinə baxmayaraq, *də* bağlayıcısı ilə birlikdə şəxs bildirmir və həm də bağlayıcısının məzmununu ifadə edir (2, s. 120). Qeyd edək ki, həmin bağlayıcı da bədii mətnin yaranmasında mühüm rol oynayır. Bu halda əvəzliyin işlədilməsi mətndəki mənanı intensiv nəzərə çatdırır. Nümunələrə baxaq: *Bakıya az-az qar yağır. Amma yağanda üzünü görmə. Bax belə bir qar yağmışdı Bakıya. **Özü** də novruzun astanasında*. *Lətifə qarabuğdayı Bakı gözəllərindəndir. **Özü** də bu gözəlliyi sanki Saleh indi görürdü*.

Müşahidələr göstərir ki, *özü* də mürəkkəb bağlayıcısı Azərbaycan dili mətnlərində daha çox parsell cümlələrdə rast gəlmək olar. Çünki parselyat cümlələr ikinci hissəsini – ayrılan hissəni təşkil edir. Bu zaman formalaşan mətnlər postpozisiyada reallaşır. Məsələn, *Hələ ki, orta dalğadan ancaq musiqi eşitmək olur. **Özü** də elansız*. Göründüyü kimi, musiqinin orta dalğada elansız eşidilməsi *özü* də bağlayıcısı vasitəsilə məlum olur. Məlum olan hissədə mətnin mənası üzə çıxır.

Ümumiyyətlə, mətlər arasındakı əlaqə əsas hesab olunur. Bu zaman təkcə sözlərin cümlə daxilindəki əlaqədən deyil, ayrı-ayrı cümlə qrupları da öz aralarında müxtəlif vasitələrlə əlaqələnir və bir-birilə münasibətdə olurlar. Mətndə əsas hesab olunan bir cümlə mövcud olur. Həmin cümlənin içərisində konkret məna ifadə edən söz və ya ifadə yerləşir. Mətnin bu və ya digər cümləsi konkret mənası olmayan sözü və ya ifadəni müəyyənləşdirməlidir. Bu cümlə həmin cümlədən əvvəldə də, sonra da yerlışdirilə bilər. Ə.Xəlilov yazır ki, əsas mənanı ifadə edən cümlə müəyyənləşən kimi, digər cümlələr onun mənasının açılmasına xidmət göstərmək üçün fəaliyyətə keçirlər (1, s. 67). M.Z.Zəkiyev isə yazır ki, əsas məsələ cümlələr arasındakı əlaqələri, onların birləşmə üsullarını hərtərəfli öyrənməkdir. Müstəqil cümlələr arasındakı əlaqələri öyrənmək üçün lazım olan tələblərə əlaqəli nitqin hansı hissəsi cavab verirsə, mətnin də hüdudları ondan asılı olaraq müəyyən olunur (3, s. 360). Türk dillərində mətnin sərhədlərini müəyyənləşdirmək üçün müəllif öz meyarını təklif edir. O yazır: "Çox mümükündür ki, bu xüsusiyyətlər hər hansı bir dərəcədə başqa qohum türk dilləri üçün də səciyyəvi ola bilər və təbii ki, bizim təklif etdiyimiz meyar müəyyən mənada başqa türk dillərindəki mürəkkəb sintaktik bütöv sərhədlərinin müəyyənləşdirilməsinə də tətbiq edilmə imkanına malikdir (4, s. 12).

Türk dillərində cümlənin strukturunun aşılmasında tərkib vahidlərinin dəqiq ardıcıllığının olması vacibdir. Bu o deməkdir ki, türk dillərində cümləni bitirmək üçün qrammatik (morfoloji) cəhətdən başlanğıca qayıtmaq lazımdır. Yəni türk dillərində mübtəda, ikinci dərəcəli üzvlər, xəbər, mübtəda və s. kimi ardıcıllığa əməl etmək lazımdır. K.Abdullayevin fikrincə, bu çərçivəliliyin əsasında təkrar prinsipi durur. O yazır: "Yəni türk cümləsinin sonunda əslində mübtədanın təkrarlanması özünü göstərir. Bu təkrar ya tam şəkildə olur, ya da ki, bəzi müasir türk dillərində bu təkrar natamam şəkildə özünü göstərir. Yalnız güclü təkrar elementlərinə malik ol-

duqdan sonra, yəni özünəməxsus sintaktik çərçivəlilik yarandıqdan sonra türk cümləsi monopredikativ quruluşa çevrilə bilir" (4. s. 203).

F.Veysəlli "Diliçiliyin əsasları" kitabında mətnin sərhədlərinin müəyyənləşməsi barədə yazır: "Əslində bu, o qədər geniş sahədir ki, bütün abzas, period və mürəkkəb cümlələri vahid ad altında birləşdirmək olduqca çətin məsələdir. Dil strukturunun aşağı səviyyələrində müəyyən dəqiqlik vardır. Fonem, morfem, leksem terminləri çox konkret və aydındır. Ancaq mürəkkəb sintaktik bütövlərin ardıcıllığı həm də mətn yaradır. Diskursu konkret bir məqamda verilmiş mövzu ilə bağlı şifahi performans hesab etsək, yenə də sərhədlər dəqiq müəyyənləşməmiş qalır" (5, s.349).

Odur ki, mətnlərin həcmindən asılı olmayaraq onun başlanğıcının və sonunun olması vacibdir. Bu cür mətnlərin tərkibində işlənən əvəzliyin mənası nə vaxt açılarsa, həmin mətni bitmiş hesab etmək olar. Mətnin mənasının açılmasında əvəzliklərin rolu meydana çıxır. Müşahidələr göstərir ki, əvəzliyin mənasının açılması özündən əvvəliki cümlənin mənasından asılıdır. Mətndəki cümlələrin birinin əvəzliklə başlaması onun özündən əvvəlki cümlələrlə daha yaxından olduğunu göstərən faktdır (6. s, 133).

İngilis dilində də əvəzlik əsas nitq hissələrindən biri olub, malik olduğu leksik-qrammatik məna baxımından digər nitq hissələrindən fərqlənir. Müasir ingilis dilində əvəzliklər ismi əvəzliklər və sifəti əvəzliklər deyə iki qrupa bölünür (7, s. 79). İsmi əvəzlikır isim kimi, hal və kəmiyyət kateqoriyasına malikdir. Lakin əvəzliklər hal kateqoriyası baxımından isimlərdən fərqlənir: isimlər ümumi və yiyəlik hala malik olduğu halda, əvəzliklərin bir qismi adlıq və obyekt hala, digərləri isə ümumi və yiyəlik hala malikdir. O.Musayev yazır ki, müasir ingilis dilndə mövcud olan əvəzliklərin bir qismi, xüsusən işarə əvəzlikləri (this, these, that, those, such, the same) və III şəxs şəxs əvəzlikləri (he, she, it) ingilis dilində mətnyaratmada iştirak edirlər. Dilin kommunikativ funksiyası baxımından hər bir əvəzliyin işlənməsi üçün mütləq müəyyən şərait olmalıdır. Əks halda, dilin kommunikativ funksiyası baxımından onların işlənməsi səhv məna yarada bilər. Əvvəldə qeyd etdiyimiz kimi, əvəzliklərin işlənməsi üçün mütləq məna və ya mənalar əvvəlki cümlədən oxucuya məlum olmalıdır. Əks təqdirdə, yuxarıda deyildiyi kimi, işarə əvəzliyinin (həm təkdə, həm də cəmdə) ifadə etdiyi məna aydın olmayacaq. Odur ki, əvəzliklərin mətnyaratmada rolu cümlənin əvvəlində işlənən söz və ya ifadədən asılıdır. Müasir ingilis dilində mövcud olan bütün işarə əvəzliklərinin mətnyaratmada rolu haqqında eyni sözləri demək olar. Qeyd edək ki, ingilis dilində III şəxs şəxs əvəzlikləri də mətnyaratmada demək olar ki, bu xüsusiyyətlərə malikdir. Bu əvəzliklərin mətnyaratması üçün mütləq hər hansı bir makromətn olmalıdır. Məsələn, ***He*** *has gone to the cinema* cümləsini işlətmək üçün mütləq hər hansı bir makromətn olmalıdır. Məsələn, *Where is* ***John****?* ***He*** *has gone to the cinema*. Yaxud: *No, I haven't heard about* ***John*** *since* ***he*** *left our country* cümləsini işlətmək üçün belə bir makromətn quraq: *Have you heard anything about* ***John***? və ya: *Do you know where I can see* ***John***? Bu kimi cümlələrdə əgər əvvəl məlumat verilməsə söhbətin nədən getdiyini bilmək olmaz. Belə nümunələrin sayını artırmaq olar. Qeyd edək ki, adını çəkdiyimiz ingilis dili əvəzlikləri anaforik işlənmə xüsusiyyətlərinə də malikdirlər. Onların anaforik xüsusiyyətləri mətnyaratmada xidmət göstərirlər. Eyni zamanda, əvəzliklər sonrakı cümləyə də bağlanaraq kataforik xüsusiyyətlərə də ma-

likdirlər. Dediklərimizdə bu nəticəyə gəlirik ki, əvəzliklərin mətnlərin yaranmasında rolu aşağıdakı 4 funksiya ilə müəyyən olunur (6, s.136):

1.Əvəzlik semantik kateqoriyanı təmsil edir və onun pronominal xüsusiyyəti sözlər arasında deyil, cümlələr arasında əlaqələri şərtləndirir.

2.Əvəzlik məlum olanı bildirir.

3.Əvəzlik həm anaforik (əvvəliki cümləyə bağlılıq), həm də kataforik (sonrakı cümləyə bağlılıq) funksiyalarını yerinə yetirir.

4. Əvəzlik yalnız sintaktik (donuq) yox, həmçinin dinamik (dəyişkən) funksiyasını da yerinə yetirir.

Qeyd etdiyimiz kimi, əvəzlik artıq qeyd olunanı bildirir, çünki o artıq məlum olanı əvəz edir. Yəni kontekstdən məlum olur ki, dinləyənin (oxucunun) işarə edilən predmet haqqında artıq müəyyən məlumatı var.

Mətnyaratmada xüsusi rolu olan birinci və ikinci şəxs əvəzlikləri (I, you) yalnız praqmatik nöqteyi nəzərdən işlədildiyi halda, qayıdış əvəzlikləri ancaq anaforik funksiya yerinə yetirir. Üçüncü şəxs əvəzlikləri (he, she, it) mətndə həm praqmatik, həm də anaforik vəzifədə işlədilir (6, s.137):

Sarah was laughing when she was reading a book.

Ann placed her book on the desk.

İngilis dilində əvəzliklər pronominal funksiyada əsasən iki cür fəaliyyət göstərir:

1.Vəziyyətdən asılı olan pronominal funksiya (eksoforik).

Məsələn, *Mary wanted to give a book on history to Ann, but she had already bought it herself.*

2. Mətndən asılı olan pronominal funksiya (endoforik). Bu cür pronominal funksiya öz növbəsində 2 növə bölünür:

a) anaforik;

b) kataforik (6, s. 138).

Müxtəlif məqamlarda işlədilən əvəzliklərin ancaq bir funksiyası var – mətnin müxtəlif hissələrini bir-birinə bağlamaq.

Nümunələrə baxaq:

1.*One thing was certain, that the white kitten had nothing to do with it – it was the black kitten's fault entirely* (kataforik əlaqə).

2.*A few doors away was the English Bridge and down in trams were clanging, vinging their bells as they went, motor buses were lumbering along, taxis were tooting their horns. Mrs. Hudson heard it, it was London she heard.*

Qeyd etdiyimiz kimi, ingilis dilində əvəzliyin mətnyaranmasında əsas vəzifələrindən biri onun dinamikliyi, mətn daxilində daim hərəkət etməsidir.

Məsələn, *John can open Bill's safe. He is an interesting fellow.* Mətn daxilində nəzərdən keçirsək görərik ki, *he* şəxs əvəzliyi cümlədəki *John* sözünü mətnin müxtəlif yerlərində əvəz edir. Bu əvəzetmə halı mətn boyu inkişaf edir, mətndəki hadisləri özündə cəmləşdirir.

Müşahidə olunur ki, mətnlərdə əvəzliklərin yığcamlığı həm ingilis, həm də Azərbaycan mətnlərində onların tez-tez işlədilməsini şərtləndirir. Əvəzliklər mətnlərdə təkrarlandıqca onların göstərdikləri hadisə, proses mətn daxilində irəliləyir, inkişaf edir. Və bu halla da onlar mətnyaratmada əlaqələndirici funksiyanı yerinə yetirirlər (6, s.138).

Bu məsələni də vurğulamaq lazımdır ki, mətnin məzmun cəhəti ilə əvəzliyin mətndaxili fəaliyyəti arasında qırılmaz əlaqə olur. Belə ki, mətnin məzmunu onun semantikasını müəyyənləşdirirsə, əvəzlik işarə etmə formasıdır ki, bu da semantik bütövlüyü ifadə edir. İngilis dilində əvəzliyin mətndaxili fəaliyyətini şərtləndirən müxtəlif vasitələr var (6, s. 138). Bunlardan biri *it is ... who (that)* …. birləşməsidir. Məsələn, *My father, he is cutting the trees.*

It is my father who is cutting the trees.

Beləliklə, məlum olur ki, əvəzlik həm ingilis, həm də Azərbaycan dilində şəxsləri, əşyaları və ya onlara xas olan əlamət və keyfiyyətləri adlandırmadan bildirən əsas nitq hissəsidir. Əvəzliklər ismi əvəzliklər və sifəti əvəzlik olmaqla iki qrupa bölünür. Müasir ingilis dilində mövcud olan əvəzliklərin bir qismi, xüsusən işarə əvəzlikləri və üçüncü şəxs şəxs əvəzlikləri mətnyaratma xüsusiyyətlərinə malikdir.

Ədəbiyyat

1.Xəlilov Ə.Ə. Sintaktik bütövlərin əmələ gəlməsində morfoloji elementlərin rolu. Azərbaycan dili morfologiyasının aktual məsələləri. Azərbaycan Dövlət Universiteti. Bakı, 1987.

2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Maarif, Bakı, 1983.

3.Закиев М.З. Актуальные проблемы сложных предложений в тюркских языках СТ, 1983. № 3.

4.Abdullayev K.M., Məmmədov A.Y., Musayev M.M. və digərləri. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. "Mütərcim", Bakı, 2012.

5. Veysəlli F.Y. Dilçiliyin əsasları. "Mütərcim", Bakı, 2013.

6.Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. "Zərdabi LTD" MMC, Bakı, 2011.

7. Musayev O.İ.İngilis dilinin qrammatikası. "Qismət", Bakı, 2009.

8. Məmmədov A.Y., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. "Çaşıoğlu", Bakı, 2010.

9. Каушанская В.Л., Ковнер П.Л. Грамматика Английского языка. "Просвещение Ленинградское отделение", Ленинград, 1973.

Aftab Hacizada

The actualization of text-forming opportunities of pronouns in azerbaijani and english languages

Summary

The article deals with the pronouns in Azerbaijani and English languages. Investigating the article, it's been proved that the pronoun is a part of speech pointing out objects and their qualities without naming them in both languages. Pronouns are divided into two groups: nominal pronouns and adjectival pronouns. Some pronouns, namely the demonstrative pronouns and the personal pronouns in the third person singular have the text-forming character in the English language.

Афтаб Гаджизаде

Текстообразующие возможности актуализацией местоимений в современном азербайджанском и английском языках

Резюме

В статье речь идет о местоимениях, существующих в азербайджанском и английском языках. После анализа статьи становиться ясно, что местоимения как в азербайджанском, так и в английском языке является основной частью речью, служащей наименованию предметов, лиц или присущие им признаков и качеств. Местоимения делятся на две подгруппы - местоимения существительные и местоимения прилагательные. Часть местоимения, особенно указательные и местоимения третьего лица, обладают текстообразующими свойствами.

Rəyçi: dos. İ.M.Nuriyeva

AKİFƏ SADIQOVA
ADU

MÜRƏKKƏB VƏ ÇOXMƏNALI SÖZLƏR, FƏRQİ, MÜQAYİSƏLİ TƏHLİLİ VƏ ƏHƏMIYYƏTİ

Açar sözlər: söz, mürəkkəb sözlər, çoxmənalı sözlər, söz birləşməsi, müstəqil əlaqə

Ключевые слова: слова, сложное слово, многозначние слова, реалное значение, свояодное отношение

Key words: Words, historical traces, process, language.

Müəyyən bir əşya, əlamət, kəmiyyət və hərəkət və sairəni ifadə edən sözlər dildə birdən-birə, hazır şəkildə haradansa alınma bir yolla meydana gəlməmişdir. Bunlar müəyyən bir ictimai hadisə,əlaqə və münasibət nəticəsində, bu və ya digər şəkildə ortaya çıxmışdır. Beləliklə, dildə sözlərin yaranması prosesi tarixi bir xarakterə malikdir. Bu baxımdan dillərdə mövcud olan bütün sözləri nəzərdən keçirsək, hər sözün özünəməxsus bir tarixə malik olduğu müəyyən edilə bilər.

Söz nə zaman, nə münasibətlə və nə cür əmələ gəlir-gəlsin, fərqi yoxdur, onun ifadə etdiyi əşya, əlamət, kəmiyyət və s. ilə səs kompleksi arasında heç bir üzvi əlaqə yoxdur və ola da bilməz. Çünki belə bir əlaqə olsaydı, müasir dildə mövcud bir səs kompleksi ilə müxtəlif əşyanı ifadə edə bilmək, bir sözün müxtəlif məna çalarlığı verə bilmək, bir sözün müxtəlif səs tərkibi ilə bir- birinə yaxın mənaları bildirmək xüsusiyyəti də ola bilməzdi.

Çox zaman isə müəyyən bir əşyaya onun bu və ya digər əlamətinə görə ad verilir:

Die Wandzeitung, die Wanduhr

Bəzi hallarda isə, oxşar xüsusiyyətlərinə görə, müxtəlif əşya və ya onların əlamətləri eyni səs tərkibi ilə ifadə edilir.

Arme, Flußarme, Stock, Stockwerk

Hər hansı sözün ilk mənasından əmələ gələn yeni mənalar onun məna çalarlığı adlanır.Bir məfhumun müxtəlif məna çalarlığını ifadə edən sözlərə çoxmənalı sözlər deyilir. Söz onun geniş və ya məhdud mənada işlənməsindən asılı olaraq, çox və ya az məna çalarlığına malik olur.Əgər sözün bir əsas mənadan başqa ikinci mənası olmursa, belə sözlər təkmənalı (monosemantik) sözlər adlanır. Hər hansı sözün ilk mənasından əmələ gələn yeni mənalar onun məna çalarlığı adlanır. Bu məfhumun müxtəlif məna çalarlığını ifadə edən sözlərə çoxmənalı- polisemantik sözlər deyilir.

Çoxmənalı sözlərdə onun daşıdığı mənalardan biri öz konkret ifadəsini ancaq mətnin daxilində alır.Söz öz ilk müstəqim mənasından ayrılıb çoxmənalılıq kəsb edəndə məcaziləşir. Məcazi mənada işlənən leksik vahidlər isə iki növ olur:

a) leksik məcazlar, üslubi məcacazlar. Leksik məcazlar lüğət tərkibində qeydə alınmış, daşlaşmış ifadələrdir.

Dummkopf, Schwarzbrot, Tischlampe

Üslubi məcazlar isə yazıçının fərdi yaradıcılığı ilə bağlı olan ifadələrdir. Bunlar mətn daxilindən ayrılıqda öz məcazlığını saxlaya bimir, lüğət tərkibində də qeyd edilmir.

Des geres snide, des etzeln wip

Çoxmənalı sözlərdə məna çalarlığı nə qədər çox olursa olsun, bunlardan biri mütləq onun ilk həqiqi –müstəqim mənasını təşkil edir, başqa mənaları isə ilk mənaya az və ya çox yaxın olduğuna baxmayaraq, onun sonradan törəmiş olan mənaları kimi özünü göstərir. Müstəqim məna sözü əsas mənası olub, başqa mənaları isə, ikinci, üçüncü, hətta dördüncü dərəcəli yeri tutur.

Çoxmənalı sözlərdə sözün məna çalarlarından əsas mənası həqiqi, ikinci və sonrakı mənaları isə məcazi məna adlanır.

Sözlərin çoxmənalılığı söz yaradıcılığı prosesinin aşağıdakı xüsusiyyətini meydana çıxarır.

a) Sözün sonradan kəsb etdiyi məna çalarlığından (məcazi mənalardan) biri öz inkişafı nəticəsində əmələ gəldiyi həqiqi mənadan uzaqlaşaraq, müstəqim məfhum ifadə edən yeni bir mənaya çevrilə bilər....

b) Sözlərin çoxmənalılığı dildə, mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rol oynayır: *Sonnenstrahl*, *Tageslicht*, *Frühaufsteher*, *blauäugig* usw.

c) Çoxmənalı sözlərin məcazi mənaları dildə sabit söz birləşmələrinin (idiomlar, ibarələr hikmətli sözlər atalar sözü və zərbi məsəllər, tapmacalar) əmələ gəlməsi üçün əsas baza təşkil edir: *Pech haben*, *das sein bestimmt das Bewußtsein*, *Vaterunser* usw.

Dildə sözün məna çaları bir çox səbəbdən meydana gəlir:

Əşyaların müxtəlif cəhətdən oxşarlığına görə:

a) *Forma* etibarı *ilə:* *Fuss, der Fuss eines Menschen. Tieres*

b) Rəng etibarı ilə: Gold.goldenes Haar

c) Dad etibarı ilə: bitter. Bitterliche Tränen

d) Hərəkətin oxşarlığı etibarı ilə: schließen, ein Fenster, einen Brief

2. Əşyaların müxtəlif cəhətdən yaxınlaşmasına görə:

a) məkan etibarı ilə: die Morgendämmerung

b) zaman etibarı ilə: der Abend

c) məntiq etibarı ilə: lange Beine haben

d) proses etibarı ilə: Sand in die Augen streuen- belügen, betrügen

e) müxtəlif əşyanın eyni və ya oxşar funksiya daşımasına görə: *trinken*

Alman dilində sözlərin mənadəyişməsi yolu ilə bir söz müxtəlif məna daşıya bilər. Bu yolla o, çoxmənalı olur. Sözün çoxmənalılığı (polusemiya) deyəndə bir yox, bir-biri ilə genetik və semantik mənalara malik olan bir neçə müxtəlif əşya və hadisəni təsvir edən söz anlaşılır.Məs.:

-*Rohr* sözü.

Bu sözün bəzi mənaları bir- biri ilə sıx bağlıdır, çünki onun daxili mənası bu günə kimi asanca fərq edilir. Sözün əsas mənası bitkinin əlamətinə aiddir. Insanlar tərəfindən istifadəsinə görə Rohr sözü Spazierstock (spanisches Rohr) anlamına gəlir.

Nəhayət, formasına görə müxtlif məqsədlərə xidmət edən əşyalara aid olur:

Rohr – Als ein-Pfeifenrohr, Er blies voller Anstrengung in das verstopfte) B. Kellermann.

Pfeifenrohr.

Als Rohr einer Kanone. Im nu sprangen die Partisanen auf, rissen das Geschütz in Richtung Bereitstellung, und wenige Augenblicke später zischte die erste Granate aus dem Rohr . (H. Hermann.)

als Schalltrichter.

Ein Bekannter hatte ihn durch das zusammengerolte Programm wie durch ein Sprachrohr angerufen.(B. Kellermann.)

Sözlərin çoxmənalılığı söz yaradıcılığı prosesinin bir çox xüsusiyyətlərini meydana çıxarır ki, onlardan biri də mürəkkəb sözlərin əmələ gəlməsində oynadığı mühüm rollardan biridir.

Məsələn: *İncəsənət*- sözü insanın yaradıcılığı ilə əlaqədar onun ruhunu oxşayan, onda hiss həyəcan oyada bilən hər hansı bir sənət kimi başa düşülür. Halbuki sözün tərkibində işlənən incə və sənət sözləri ayrılıqda hərəsi başqa mənaya malikdir.

Söz birləşməsi sözdən fərqləndiyi kimi, dildə iki, üç müstəqil sözdən əmələ gəlmiş sözlər də (mürəkkəb sözlər) fəaliyyət göstərir. Mürəkkəb sozlər görkəmcə və ifadə üsulu ilə söz birləşməsi ilə çox yaxınlıq təşkil edir, bəzən isə onları bir-birindən ayırmaq çətin olur.

Mürəkkəb sözlər də, əsasən, söz birləşməsinə uyğun şəkildə formalaşır. Hətta birləşmələrin tərəfləri arasında olan sintaktik əlaqələr mürəkkəb sözlərin əmələ gəlməsi üçün də mühüm əhəmiyyət kəsb edir.

Mürəkkəb sözlər sözdüzəltmənin bir növü kimi alman dilinin qədim inkişaf mərhələlərində böyük əhəmiyyət daşımışdır.Bu sözdüzəltmə növü digər german dilləri üçün də vacibdir.Mürəkkəb sözlər özü sintaktik və leksik sabit söz birləşmələri kimi fərqlənir. Bu fərq barədə dilçilərdən A. A Şaxmatov, L. V. Şerba, V.V. Vinoqradov və başqaları müəyyən mülahizələr irəli sürmüşlər.

Professor Vinoqradov leksik sözbirləşmələrinin təsnifstını işləyib hazırlamışdır. O, bununla göstərmişdir ki, leksik sözbirləşməsi istənilən sözün ekvivalenti ola bilər.

Hals über Kopf - eilig sifətinə, auf den Bärenhaut liegen – faulenzen felinə, junges Gemüze – Jugend isminə uyğundur.

Buradan belə bir sual da doğur ki, mürəkkəb söz vahid bir məfhumu ifadə edir, yoxsa bütöv bir sintaktik qrupu əks etdirir.

V. Q. Admoni maraqlı materiallar əsasında inandırıcılıqla sübut edir ki, mürəkkəb sözlər söz düzəltmədəki əsas funksiyadan əlavə digərləırinə də malikdir: o bütün bir sintaktik qrupun məzmununu ifadə edə bilir.

Deməli, mürəkkəb söz iki funksiya ifa edir : əsaslı olaraq leksik,yeni məna ifadə edən məfhum kimi çıxış edir, həm də bütöv bir sintaktik qrupun məzmununu əks etdirir.

Sözün çoxmənalılığı isə danışıq prosesində maneçılık yaratmır, çünki, hər bir kontekstdə sözün yaxın mənası müəyyən edilir, yəni, söz hər hansı bir kontexstdə yalnız mümkün bir mənanı kəsb edir. Beləliklə, *Jugend* sözü "*Jungsein*" mənasında və kontextə görə isə "*junge Menschen*" anlamında işlənir.

Çoxmənalılıq, ümumiyyətlə, təkmənalı sözlərin də mövcudluğuna baxmayaraq,sözlər üçün çox tipikdir.

Söz mənasının dəyişməsi lüğət tərkibinin zənginləşməsinə xidmət edir:

a) Sozlər yeni mənalar alır, dilin lüğət tərkibinin keyfiyyətinə xidmət edən müxtəlif fakt və əşyaları təsvir edir.Bəzən yeni söz yaranması ilə köhnə məna i-tir.Məsələn:

Qədim Ofen-dən Stube, sonra, "*heizbares Gemach*", *Badezimmer*, indi isə ümumiyyətlə, hər bir „*Zimmer*" dən bəhs edən söz yaranmışdır.

b) Sözmənasının dəyişməsi ilə yeni leksik vahidlər də yarana bilir. Məs.:*Georgine, Zeppelin,Ohm və s.*

Dildə çəxmənalı sözlərin olduqca böyük əhəmiyyəti vardır. Bu onu göstərir ki, sözlərin çoxmənalılıq kəsbetmə prosesi,dildə ən qədim dövrlərdən fəal şəkildə mğvcud olmuşdur. Bu proses bu gün dillərin daxili inkişaf qanunlarından birini təşkil edir.

Çoxmənalı sözlərdə məna çalarlığı nə qədər çox olursa- olsun, bunlardan biri mütləq onun ilk həqiqi – müstəqim mənasını təşkil edir, başqa mənaları isə ilk mə-naya az və ya çox yaxın olduğuna baxmayaraq onun sonradan törəmiş olan mənaları kimi özünü göstərir. Müstəqim məna sözün əsas mənası olub, başqa mənaları isə ikinci, üçüncü, hətta dördüncü dərəcəli yerləri tutur.

Mürəkkəb sözlərdə, əsasən, hətta birləşmələrin tərəfləri arasında olan sintaktik əlaqələr mürəkkəb sözlərin əmələ gəlməsi üçün də mühüm əhəmiyyət kəsb edir və söz birləşmələrində olduğu kimi,mürəkkəb sözlər də bu cəhətdən qruplaşır. Lakin bəzi ümumu oxşarlığa baxmayaraq, söz birləşmələri ilə mürəkkəb sözlər arasında bir sıra fərqlər də var; söz birləşmələrini əmələ gətirən sözlər leksik-semantik müstəqilliyini tamamilə saxlayır,ayrılıqda olduğu kimi ,birləşmə daxilində də ayrı-ayrı məfhumlarla bağlı olur.Mürəkkəb sözləri əmələ gətirən sözlərdə isə bu müstəqillik, adətən, qalmır və onlar ayrılıqda əlaqədar olduqları məfhumlarla bu və ya başqa şəkildə əlaqəni kəsir ya da çox zəifləyir.

Mürəkkəb sözlərin əmələ gəlməsində aşağıdakı cəhətlər özünü göstərir: maddi əsas; komponentlərin məna xüsusiyyətləri; komponentlərin tipləri: forma və məzmun münasibətləri; komponentlər arasında əlaqə.

Mürəkkəb sözlər komponentlər arasındakı əlaqəyə görə iki yerə ayrılır: tabesizlik əlaqəsi,tabelilik əlaqəsi ilə birləşən mürəkkəb sözlər.

Bu iki əlaqənin əsas mahiyyəti ondan ibarətdir ki, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə öz müstəqilliyini mühafizə etdiyi və biri digərindən asılı olmadığı halda, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə biri digərindən asılı olur və birinci komponent ikincisini bu və ya digər cəhətdən tamamlamaga xidmət edir.

Mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rollardan birini də sözlərin çox-mənalılığı oynayır.Bundan başqa dildə iki-üç müstəqil sözdən əmələ gəlmiş sözlər də (mürəkkəb sözlər) fəaliyyət göstərir.Mürəkkəb sözlərin "zahiri görkəmi", ifadə üsulu söz birləşməsi ilə çox yaxınlıq təşkil edir, bəzən ən incə cəhətlərini nəzərdən keçirmədən onları bir –birindən ayırmaq çox çətin olur.Sözlə söz birləşməsinin fərqləndirilməsi bir qədər asandırsa da, mürəkkəb sözlərlə söz birləşməsinin müna-sibətini müəyyənləşdirmək, onları fərqləndirmək nisbətən çətindir.

Mürəkkəb sözlər də, əsasən, hətta birləşmələrin tərəfləri arasında olan sintak-tik əlaqələr mürəkkəb sözlərin əmələ gəlməsi üçün də mühüm əhəmiyyət kəsb edir və söz birləşmələrində olduğu kimi,mürəkkəb sözlər də bu cəhətdən qruplaşır. La-kin bəzi ümumu oxşarlığa baxmayaraq, söz birləşmələri ilə mürəkkəb sözlər arasın-

da bir sıra fərqlər də var; söz birləşmələrini əmələ gətirən sözlər leksik- semantik müstəqilliyini tamamilə saxlayır, ayrılıqda olduğu kimi ,birləşmə daxilində də ayrı-ayrı məfhumlarla bağlı olur.Mürəkkəb sözləri əmələ gətirən sözlərdə isə bu müstəqillik, adətən, qalmır və onlar ayrılıqda əlaqədar olduqları məfhumlarla bu və ya başqa şəkildə əlaqəni kəsir ya da çox zəifləyir.

Müasir dillərdə öz tarixi izlərini itirmiş və sadə sözlərə çevrilmiş külli miqdarda mürəkkəb söz vardır. Müasir dildə sadə sözlər kimi işlənən belə mürəkkəb sözlərin etimologiyasını müəyyənləşdirmək dilimizin qədim söz qruplarını və belə sözlərin təşəkkül qaydalarını meydana çıxarmaq üçün böyük əhəmiyyətə malikdir.

Çoxmənalı sözlərlə mürəkkəb sözlərin həm oxşar, həm fərqli cəhətlərini müqayisə və təhlil edərkən o qənaətə gəlmək olar ki, dildə gedən bu proses qaydalar hər bir dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edir.

Ədəbiyyat

1.A.İskos.A. Lenkova. Deutsche Lexikologie.Uçpedqiz-1963

2.S.Cəfərov. Müasir Azərbaycan dili. Baki-1970

3.K.A. Levkovskaya. Leksikoloqiya nemetskoqo yazıka.Uçpedqiz.1956.

4.Grammatik der Deutschen Sprache.Veb Bibliographisches İvstitut Leipzig.1967.

5.P.A . Очерки по языкознанию,изд.АН СССР, 1953.

Акиф Садыхова

Сложные и многозначные слова, разница, важность, анализ

Резюме

В современном языке имеется большое количество сложных слов. В связи с историческим развитием языка эти слова потеряли свои исторические следы и превратились простые слова. Можно придти к выводу, что этот процесс происходящий в языке способствует развитию словарного состава каждого языка.

Akifa Sadigova

Compound words

Summary

There are a lot of compound words in the modern language. These words lost their historical traces and changed to the simple words in connection with the historical improvement of the language. We can come to such conclusion that the process in the language serves to enrichment of the vocabulary of very language.

Rəyçi: b.m Gülarə Cəbiyeva

ТАМИЛЛА МАМЕДОВА
доктор филологических наук, профессор
Бакинский Славянский Университет

ВНЕДРЕНИЕ ЛАТИНИЦЫ В РУССКОЕ КИРИЛЛИЧЕСКОЕ ПИСЬМО (на материале русской прессы Азербайджана)

Açar sözlər: qrafika və orfoqrafiya elementləri, yazılı qeyd, söz əmələ gətirmə modeli, səs-hərf yazısı

Ключевые слова: графико-орфографические элементы, письменная фиксация, словообразовательная модель, звуко-буквенное письмо

Key words: graphic and orphographic elements, written hold, word-formation model, letter-sound writing

Более полувека азербайджанская графика была на русской кирилличес-кой основе. В 1958 году был принят окончательный проект кириллического азербайджанского письма. Новый проект алфавита, в целом соответствующий звуковому строю азербайджанского языка, просуществовал 33 года.

В августе 1989 года было принято специальное постановление ЦК КП Азербайджана о дальнейшем развитии и расширении функций азербайджанского языка. В Конституции республики он был вновь назван государственным. Был поднят вопрос о возврате к латинскому алфавиту. Но изменения, которые произошли на всем пространстве СССР и, в частности, в Азербайджане, приобретшем статус независимости наряду с остальными постсоветскими республиками, на время отодвинули в сторону «языковые проблемы».

В декабре 1991 года Милли Шура Азербайджанской республики принял решение о переводе азербайджанской письменности с русской графики на латинскую. Азербайджанское письмо вернулось к латинской графике, упраздненной 52 года назад. Дискуссии и дебаты по поводу решения возврата к латинской графике ежедневно и еженедельно отражались в средствах массовой информации. Раздавались такие голоса: «… забыв о функциональных возможностях использования языка, мы проблему нового алфавита сегодня поставили в центр внимания. И разве это не явилось ошибочным шагом на пути к достижению суверенитета нашего языка? Ведь изменение любого алфавита, его совершенствование, хотя и является существенным и важным фактором, однако не дает гарантии обеспечения его суверенитета» [1, 86].

Вот противоположная точка зрения: «Сегодня, в эпоху перестройки и гласности, – когда мы заново открываем многие страницы нашей истории, когда достоянием народа становится то, что многие годы находилось под семью замками, естественно не вспомнить о своем алфавите невозможно» [2].

О том, чьи голоса в этих полемических спорах заняли ведущее положение, показало время. Указом Президента Азербайджанской республики Г.А.-Алиева от 1 августа 2001 г. латинская графика бесповоротно заняла основное и ведущее положение во всех сферах. Все госучреждения, сферы учебных за-

ведений республики и т.п. перешли на единственное средство звуко-буквенного письма – латиницу.

И вот уже 12 лет латинский алфавит, прочно занявший свое место в графике азербайджанского языка, полностью освободился от кириллического влияния. Не следует забывать, однако, фактор долгого присутствия русской кириллицы в азербайджанской графике, а также сохранения статуса русского языка в республике как иностранного, а вместе с этим и сохранения научной и художественной литературы, прессы и т.п. на русском языке с кириллической основой. Отметим также, что свободное сосуществование двух форм письменности (с естественным преимуществом азербайджанской латиницы) на территории нашей республики имеет свои особенности. И эта особенность проявляется в том, что латиница проникает в русскую письменность городской среды: в русскоязычную периодическую печать, в рекламные тексты, которые сохраняют иноязычные графико-орфографические элементы иносистем для письменной фиксации не только русского слова, но и азербайджанского.

Прилагаемая к настоящей статье выборка из различной русскоязычной прессы Азербайджана подтверждает все вышесказанное о том, что латиница внедряется в русское слово, взрывая словообразовательную модель и разрушая присущий ему орфографический облик.

1) Как передает АПА – Экономика со ссылкой на Reuters, об этом сообщил директор по экспорту Госнефтекомпании Камал Аббасов на конференции в Германии (газ. «Новое время» от 30.11.12, с. 2);

2) На околовластных новостных сайтах Inewsaz и Çinaz прошла редакционная статья… (там же);

3) Эту критику автор увязывает с событиями вокруг компании “British Petroleum” (там же);

4) Конец года – самое время для подведения итогов. Так, в галерее Art Garden в старом городе состоялась торжественная церемония вручения премии «Фотограф – 2012» (газ. «Зеркало» от 25.12.12, с. 3);

5) На официальном сайте Белого дома в разделе проекта We the People опубликована петиция с требованием внести президента РФ В.Путина в «список Магнитского»… (газ. «Зеркало» от 25.12.12, с. 5);

6) Немецкая оппозиция выразила возмущение действиями правительства, которое тайно планирует ввести меры жесткой экономии после выборов в бундестаг в 2013 году, пишет Spieqel (газ. «Новое время» от 26.12.12, с. 3);

7) В Лондоне в Lancaster House 26 ноября прошла первая конференция «Каспийский коридор» (Caspian Corridor Conference), посвященная региону, обладающему одним из самых высоких темпов экономического роста в мире (газ. «Новое время» от 27.11.12, с. 1);

8) В связи с Новым годом и Днем солидарности азербайджанцев мира в Азербайджане ожидается семь нерабочих дней, сообщили Trend в понедельник в Кабинете министров (там же);

9) Сирийские истребители обстреляли в понедельник приграничные с Турцией районы, сообщает телеканал TRI Haber (там же, с. 2);

10) 23 декабря в Агдамском районе произошел инцидент, в ходе которого один полицейский нанес топором ранения другому. Об этом Vesti.Az сооб-

щили в Управлении полиции Агдамского района (газ. «Зеркало» от 25.12.12, с. 2);

11) Спутник будет выведен на геостационарную орбиту 46 градусов восточной долготы, арендуемую у малазийской компании Measat Satellite Systems, принадлежащей правительству Малайзии (там же, с. 4);

12) Французская компания Arianspace огласила сроки запуска первого азербайджанского национального спутника Azerspace / Africasat – 1, говорится в сообщении компании (там же);

13) По словам Демьянюка, сейчас ведутся переговоры с восемью компаниями о поставке газа на будущий терминал, в частности, с Total, BP, британской BG Group, Kodas, испанской Gas Natural и американской компанией (газ. «Зеркало» от 15.11.12, с. 3);

14) Шесть месяцев обманутые пайщики требовали от Генеральной прокуратуры возбуждения уголовного дела в отношении главы компании Fuad LTD Гасыма Мамедова (там же);

15) Известная азербайджанская скрипачка выступит с квартетом Toki (Toki Quartet). Выступление пройдет в концертном зале St. George's Bristol. Об этом Trend Life сообщает со ссылкой на сайт Рашидовой Назрин (там же, с. 8);

16) Стоимость одного ноутбука "MacBook Pro", покрытого американской фирмой "Computer Choppers" 24-каратным золотом и украшенного бриллиантами, составляет 30 тысяч долларов (газ. «Ежедневные новости» от 11.01.13, с. 5);

17) Как передает Vesti.Az со ссылкой на портал "This is money", расположенная в районе Мидтаун (Манхеттен) сеть ресторанов Bi Ce планирует в скором времени открыть в Азербайджане ресторан, в котором посетителям представят блюдо по цене свыше двух тысяч долларов (там же);

18) – Он выглядел шокированным. Он даже не кричал, – рассказала "The New York Post" очевидица (там же, с. 8);

19) В Баку состоялся конкурс по аргентинскому танго "Menimle reqs et" (Танцуй со мной) (там же);

20) Актриса Кейт Уинслет отпразднует в космосе свою свадьбу с Недом Рокнроллом (настоящее имя – Эйбел Смит), племянником миллиардера, основателя корпорации "Virgin Group" Ричарда Брэнсона (там же, с. 15);

21) Старт шоу «Самый умный» состоялся на российском телеканале СТС в 2003 году. Передача выходила в эфир по лицензии британского шоу "Britain's Brainiest Kid", которое существует в Европе с 2001 года (там же);

22) В мае – июне текущего года в Баку при организационной поддержке АФФА пройдет третий международный турнир сборных V-17 "Caspian Cup" (там же, с. 16);

23) На днях "Global Poker Index" выдал окончательный рейтинг лучших покеристов мира 2012 года (там же);

24) Известная правозащитная организация Freedom House обнародовала традиционный ответ о состоянии свободы в мире (газ. «Новое время» от 17.01.13);

25) Как сообщили Fineco / abcaz в проектном институте Bakidovletlahiye, отныне в центре Баку можно получить разрешение на строительство зданий высотой не более 7 этажей (газ. «Новое время» от 22.01.13, с. 1);

26) Заголовок газетной статьи: Park inn сорвал мероприятие НПО (там же);

27) Красное вино убирает негативные эффекты, вызванные потреблением черного мяса, пишет The Telegraph (там же, с. 8);

28) Заголовок газетного сообщения: Vodafone Qatar аннулировал соглашение с Karabakh telekom (газ. «Новое время» от 31.01.13, с. 1).

В двух нижеследующих примерах, отобранных нами из русскоязычной прессы Азербайджана:

- Как пишет газета «Коммерсант Украины», немецкая компания RWE Supply & Trading распространила заявление, согласно которому она до мая 2013 года экспортирует в Украину 5 млрд. куб. м. газа (газ. «Зеркало» от 15.11.12, с. 3);

- Как передает Vesti.Az, музыкальный вечер итальянской диско-дивы 80-х годов певицы Сабрины состоится 26 января в “Hezz Club & Restaurant” (газ. «Ежедневные новости» от 11.01.13, с. 5)

был употреблен английский знак «амперсанд &», который указывает на иноязычие в русском письме.

Нами было обращено внимание и на два подобранных из прессы примера:

- … о будущем страны и о том, как лучше использовать нефть, – сказал профессор Майкл Росс в беседе с корреспондентом информационного агентства «Туран» в Вашингтоне (газ. «Новое время» от 17.01.13);

- Информационное агентство “Turan” сообщает… (газ. «Новое время» от 29.01.13),

которые указывают на некоторую непоследовательность при вторжении латиницы в кириллицу в названиях агентств (двоякое употребление в материалах прессы «Туран» –“Turan”).

Таким образом, процесс внедрения латиницы в кириллицу, принявший вызывающие тревогу масштабы в первые годы постсоветского периода, небезосновательно стал основой для прогнозов возможности, а в некоторых случаях даже необходимости перехода на латиницу, которая оценивалась как непременная цивилизованная акция в общемировом процессе глобализации и компьютеризации [3, 147].

И как отмечают российские лингвисты, «… если Россия хочет идти в ногу с прогрессивным миром, хочет быть частью Европы, Россия должна полностью перейти на латинский алфавит, и рано или поздно она к этому придет» [4].

Что ж, тогда, пожалуй, и русскоязычная пресса Азербайджана будет полностью на латинской основе.

Литература

1. Мусаев М. Наша письменность, наш язык, наша история // Коммунист Азербайджана, 1991, № 1.
2. См.: Актуальное интервью «Языком латинской графики» // Со слов член-корреспондента АН Азербайджанской ССР А.М.Курбанова. – В газете «Молодежь Азербайджана» от 28 июня 1990 г.
3. Григорьева Т.М. Латиница в русском письме // Письменность славян: прошлое, настоящее, будущее: доклады Международного научно-дидактического семинара. Gdańsk, Polska, 2-4 марта 2006 г. – Красноярск: ИЦ КрасГУ, 2006.
4. «Всемирный переход на латиницу неизбежен» [Диалог Назиры Каримовой и акад. Сергея Александровича Арутюнова] // «Независимая газета», 07.08.2001.

Tamilla Məmmədova

Latın əlifbasının rus kirillik yazısına tətbiqi
(Azərbaycan rus mətbuatının materialı əsasında)
Xülasə

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza Əli oğlu Əliyevin 1 avqust 2001-ci il tarixli fərmanı ilə latın qrafikası dönməz olaraq Respublikanın bütün sferalarında aparıcı və əsas mövqeyini tutdu. Bütün dövlət müəssisələri, tədris ocaqları, pressa və s. yeganə səs-hərf yazısına – latın qrafikasına keçdilər. Lakin kiril yazısı Azərbaycanın pressasında, rus nəşrlərində, məqalələrdə qalmaqda davam edir.

Adı çəkilən məqalədə latın qrafikası Azərbaycanın rusdilli nəşrlərinə daxil olmasının səbəbləri, yolları və vasitələrinin işıqlandırılmasına cəhd olunur.

Tamilla Mammadova

The application of the Latin alphabet in the Russian kirill writing
(on the basis of the Azerbaijani-Russian press materials)
Summary

The latin alphabet was the leading position in all the spheres of the Azerbaijan Republic by the decree of the President of Azerbaijan Republic H.A.Aliyev in 01.08.2001. All the governmental and educational institutions and Mass Media and the others were confermed the only letter-sound system – latin alphabet system. But the Kiril alphabet has still been using in the Mass Media of Azerbaijan, Russian publications and articles.

The article deals with the reasons of entering ways and means of latin alphabet in Russian Mass Media.

Rəyçi: N.Məmmədov
filologiya elmləri namizədi, dosent

SEVİNC BAGIROVA
ADİU

MÜASİR İNGİLİS DİLİNDƏ ÖN ŞƏKİLÇİLƏRİ VASİTƏSİ İLƏ DÜZƏLƏN FELLƏR

Açar sözlər: İngilis dili, ön şəkilçilər, Azərbaycan dili, fellər.
Ключевые слова: Английский язык, префиксы, азербайджанский язык, глаголы.
Key words: Enqlish, prefix, azerbaydjani, verbes.

Bir sıra Avropa dilləri ilə müqayisədə ingilis dilinin fel düzəldən prefiksləri bir qədər çox leksik xarakterə malikdirlər və bildiyimiz kimi Avropa dillərində prefikslər müəyyən qrammatik funksiya daşıyırlar. Prefikslər vasitəsilə düzələn törəmə fellər içərisində bir sıra sinonim prefikslərə də rast gəlinir.Məsələn,**de-,dis-,-mis-,un-.** Bu prefikslər törətdikləri fellərə hərəkət və ya əks məna verirlər: *to misunderstand, to mistrust, to misuse, to undertake, to underline, to overcome, to overlook,to unrise, to untie, to unpack, to uphold, to repay* və s.

Bu prefikslər arasında **over-, under-** kimi antonim prefikslər qrupu təşkil edənlərə də rast gəlmək olur. P.M.Karakuş fel düzəldən ön şəkilçilərdən danışarkən onun doqquz növünü göstərir.

Fel düzəldən ön şəkilçilərdən danışarkən biz ön şəkilçilərinin nitq hissəsini dəyişə bilən və bilməyən xüsusiyyətlərini nəzərdən qaçırmamalıyıq. Çünki fel düzəldən ön şəkilçilərinin bəziləri hər hansı bir nitq hissəsinə artırılaraq onu dəyiş-dirir, bəziləri isə dəyişdirmir.

Bu baxımdan aşağıdakı modellər yaranır:

1)Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri;

2)Nitq hissələrini dəyişə bilməyən ön şəkilçiləri.

1) Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri: Be+n=v

Bu modellərin aşağıdakı semantik xüsusiyyətləri var:

1) Əsasın ifadə etdiyi obyekti öyrənmək, əhatə etmək, təmin etmək. Məsələn,*cloud-becloud (buludla əhatə etmək)*

2) Əsasın ifadə etdiyini bir şeydən məhrum etmək.Məsələn,*head-behead(boynunu vurmaq)*

3) Əsasın ifadə etdiyi kimi olmaq.Məsələn,*slave-beslave (kölə etmək, nökər etmək)*

4)Hərəkətin gücləndirilməsi, intensivliyi, tamlığı, artıqlığı, mənası.Məsələn:*to bebait-to bait or worry persistently, to bebreech-to breech soundly*

5)Əsasıngöstərdiyikimietməkvəyahəminəlamətivəyakeyfiyyətiverməkmənası nda. Buhalda "**be"**prefiksiəsasənisimvəsifətləbirləşir.Fellərindüzəldilməsininbu tipi, canlıvəməhsuldar tip hesabolunur.Məsələn:*to bedim-to make dim,to befoul-to make little, to befool-to make a fool,to beblind-to make blind.* Müasir dövrdə konversiya-nın inkişafı ilə əlaqədar olaraq **"be"** prefiksinin rolu xeyli azalıb. **"Be"** prefiksilə olan sözlərin tarixi və etimologiyası bunu bir daha sübut edir ki, onların əksəriyyəti qədim və orta ingilis dövründə yaranıb. **De + n = v** – Bu model aşağıdakı semantik xüsusiyyətə malikdir.

Əsasın ifadə etdiyi əşyadan məhrum etmək.Məsələn:pasture-to depasture(to deprise of pasture) Son zamanlar bu mənanı ifadə edən bir sıra fellər yaranmışdır.Məsələn,de –sting;de –beak

1) It didnt seem real and it depressed him. (The Path of Thunder,p.61)

2) She would be sure to make a scene and he **detested** scenes of every kind. (The picture of Dorian Grey,p.94)

Dis + n=v- Semantik xüsusiyyəti:yox etmək,məhrum etmək,figure-to disfigure Nadir hallarda bu ön şəkilçisi "hissələrə bölmək" mənasını ifadə edir.Məsələn,member-dismember

1) Martin Eden took a bath ,after which he found that the head of laundryman had disappeared. (Martin Eden,p.142)

To say that Lester was greatly disheartened by this blow is to put it mildly.(Gennie Gerhardt,p.271)

En + n = v- semantik xüsusiyyətləri:

1) Əsasın ifadə etdiyi əşyaya yerləşdirmək.O.Espersen aşağıdakı sözləri misal gətirir:camp-encamp,cage-encage,box-embox,cloud-encloud

2) Əsasın ifadə etdiyinə çevirmək.Məsələn,*cash-encash*

1) "I will certainly **encourage** them". (The picture of Dorian Grey,p.99)

2) **He** was fully entitled by reason of his birht.(The picture of Dorian Grey,p.52)

Out + n =v-semantik xüsusiyyət:Əsasın ifadə etdiyindən kənar çıxmaq.Məsələn,*outrage,outdistance* və s.

She seemed **outraged** at the thought of him sleeping on the floor.(The path of Thunder,p.83)

Un + n= v –bu model aşağıdakı semantik xüsusiyyətlərə malikdir:

1) Əsasınifadə etdiyi əşyadan azad etmək,məhrum etmək.Məslən: cage-uncage(qəfəsdən azad etmək),chain-unchain(zənciri açmaq)

2) Əsasını fadə etdiyiəşyadan çıxartmaq, azad etmək. Məsələn: carth-unearth(yerdən çıxartmaq)

Un ön səkilçisi tekcə isimlərdən yox,fellərdən də fel düzəldir.Bu zaman bu model yaranır:**Un+v=v**

1.Miss miller helpednme to **undress** (Jane eyre,p.20)

2. she **unlocked** a cupboard and brought out a good-sized cake.(Jane Eyre,p.33)

Be=A=V-semantik xüsusiyyət. Əsasını ifadə etdiyi kimi etmək.Məsələn:dim-bedim(tutqunlaşdırmaq),little-belittle(balacalaşdırmaq).

1.İ n the meantime,Bill had **bethought** himself of the rifle.(White fang,p.115) 2.Then he sawthat no harm befell the dogs that were near tothem,and he came in closer(White Fang,p.204)

En+A=V-Semantik xüsusiyyet:

Əsasını ifadə etdiyi vəziyyətə gətirmək.Məsələn:feble-enfeeb(zəiflətmək)

En+V=V- Semantik xüsusiyyet: adətən felə gücləndirici məna verir. Məsələn: close-enclose: lighten-enlighten.

1. They should be encould be encouraged to suffer hunger without complaint (Jane Eyre, p.29)

2.I learnt for the first time to take pleasure in fine scenery? in the hills yhat enclosed our wouded valley. (Jane Eyre,p.34)

2)**Nitq hissələrinin dəyişə bilməyənön şəkilçiləri:Un+V=V**

Un prefiksi fellere quşularaq əks hərəkət ifadə edir.Məsələn:to cover(örtmək)-to uncover (üstünü açmaq), to behind (əyilmək)-to unbehind (qalxmaq), to shoe (ayaqqabı geymək) -to unshoe (ayaqqabını soyunmaq), to fasten (bərkitmək, bağlamaq)-to unfasten (açmaq)

1.İ dressed unfastened the door with a trembling hand/and opened it.(Jane Eyre, p.55)

2. He unstopped the mast and furled the sail and tied it.(The Pld Man and the Sea,p.95)

Öz mənalarına görə "**un**"prefiksi ilə əmələ gələn fellər 2 böyük semantik qurupa bölünür:

1) Hərəkət bildirən insan əlinin köməyilə həyata keçirilə bilən fellər və ya onları əvəz edən düzəltmə sözlər.Bu fellər aşağıdakı mənaları ifadə edir:

a) birləşdirmək,yapışdırmaq:to bind(bağlamaq),to buckle (kəmərləmək),to brace (bağlamaq), to button(düymələmək),to clasp(qucaqlamaq),to fold qatlamaq) və s. But he **untied**the harpoon rope from the bitt and passed it through the fishs gills. (The Old Man and the Sea,p.79)

b)burmaq,bələmək,sarımaq:to coil (burulmaq),(spiralvari) to curl "burmaq" to furl "sarımaq: to coil "burulmaq" (spiralvari), to curl "burmaq", to furl "sarimaq, qatlamaq", to roll "yumurlamaq",to link "əlaqələndirmək,bağlamaq".

c)örtmək,bağlamaq:to cap "örtmək,to close (bağlamaq), to lock (kilidləmək) ,to cork (mantarlabağlamaq), to cover (örtmək), to dress (geyinmək), to mask (maskalamaq), to cage (qəfəsə salmaq), to cloak (plaş geyinmək) və s.

1. Miss Miller helped me **to undress.** (Jane Eyre,p.20)

2. She **unlocked** a cupboard and brought out a good-sizet cake (Jane Eyre, p.33)

2) Əqli və ruhi anlayışları ifadə edən fellər. Bu semantik qurupa daxil olan fellər azlıq təşkil edirlər. Məsələn:

1. İ dislike you the worst of anyone in the world, except John Reed: (Jane Eyre , p.15)

2. Martin took a bath, after which he found that the head of laundryman had disappeared. (Martin Eden, p.142)

2) Bölgü mənası,əsas tərkib hissələrinə bölünmə mənası: to connect birləşdirmək – to disconnect ayırmaq, to join qoşulmaq, birləşmək – to disjoin bölünmək və s.

3) Nədənsə məhrum etmə mənası :to disrank "rütbədən məhrum etmək",to disclaim "öz hüquqlarından imtina etmək, tanımamaq" və s.

Bu məna brinci mənadan demək olar ki,heç nə ilə fərqlənmir.Belə ki,burada dis- prefiksi prefiksiz əsasla ifadə olunmuş mənaya əks olan məna yalnız hərəkət mənası ifadə edir. Məsələn, 1. There was I, standing in the middle of the room, none publicly dishonoured. (Jane Eyre, p.31)

2."Do you mean that we may dismiss you to the rainy night?" (Jane Eyre, p.118)

I.Əgər əsas fel **e** saiti və ya başqa saitlə başlayırsa: to re-echo, to re-organize, to re-iterate və s.

II.Neologizmlərdə və ya hazırki şərait üçün nəzərdə tutulmuş düzəltmə sözlərdəd: to re-label, to re-group.

III. Əgər düzəltmə söz sadə şəkilçisiz sözlə qarşı-qarşıya qoyularsa onda defis işlədilir. Məsələn, to do- to re-do, to discuss- to rediscuss.

1."I did not like **re-entering** Thornfield". (Jane Eyre,p.48)

2.Frank**re-examined them.** (The Finacier,p.32)

De-prefiksilatın mənşəlidir. Müasir ingilis dilində o,fellərin də düzəlməsində iştirak edri.Müller lüğətində yüzlərlə **de** prefiksi ilə düzəldilmiş fellərə rast gəlinir. Onlardan təxminən yarısı Vebsterin etimoloji lüğətində verildiyi kimi ingilis dilinə roman dillərindən keçiblər. Bu fellərin tərkibində **de**- prefikis var idi: to derail "relsdən çıxmaq, yolundan çıxmaq", to derange "sıradan çıxmaq", to deport "sürgün etmək" (F.deportate), to depose "kənar etmək,çıxartmaq(işdən)" (O.F. depose), to defraud "aldatmaq" (L.defraundare), to deport, to deface "silmək, şəklini pozmaq" (O.F.defacier). **De**-prefiksi ilə yanaşı fellərin etimologiyası göstərir ki, onların əsasları roman mənşəlidir. Buna baxmayaraq müasir ingilis dilində **de**-prefiksi çox canlı və çox istifadə olunan prefiksidir.

İngilis sözlərinin əsasında yaranmış, tərkibində **de**-prefiksi olan fellər aşağıdakı mənları verir. 1)Əks mənalı hərəkət və düzəldilmiş mənası: to decode "şifrələrini açmaq" (to chipper "şifrələmək"), to defame "ixtira etmək" (to fame "şöhrətlənmək"), to deforest "meşəni məhv etmk" (to forest "meşə salmaq").Məsələn, From **detesting** her and her foul tongue at firstç Martin greü to admireher as he observed the brave fight she made. (Martin Eden,p.176) 2)Məhrum etmək,azad etmək, uzaqlaşdırmaq, xilas etmək və s.mənalar: to derate "vergüllərdən azad etmək", to deplume "uzaqlaşdırmaq", to depauperize "yoxsullardan qurtulmaq".

Ədəbiyyat

1. Амосова Н. Лексикология английского яэыка .М.,1955
2. Antrushina G.B."English Lexicology".M.1985
3. Axundov A. Ümumi dilçilik B.,1979.
4. Ginzburg A.A Course in Modern Engilish Lexicology .M.,1966
5. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı .B.,1960
6. Каращук П.М. Словообраэование английского яэыка .М.,1977
7. Мешков О.Д. Словообраэовфниесовременного английского яэыка М.,1976
8. Marchand A."The categories and types of present day Engilishword-formation".M.,1955

S. Bagirova

Verb forming prefixes in Modern Engilish Language

Summary

The subject of our article is Verb forming prefixes in Modern Engilish Language.

Affixes are considered to be one of the most productive ways of supplying the word formation because they are closely connected with lexicology and its branches/ Affixa d types of bases/ Affixation is connecteds with morphology.All morphemes are subdivided into two large classes:roots and affixes.This article is of theoretical significance from the point of revealing different affixes of the language.

Rəyçi: dos R.Cəfərov

KAMALƏ MEHDİXANLI
AzTU

AZƏRBAYCAN DİLİNDƏ İKİDİLLİ VƏ ÇOXDİLLİ TERMINOLOJİ TƏRCÜMƏ LÜĞƏTLƏRİ VƏ ONLARIN TƏRTİBİ ÜSULLARI

Açar sözlər: Azərbaycan dili, İngilis dili, terminologiya, lügət.
Ключевые слова Английский язык, азербайджанский язык, терминология, словари
Key words: Enqlish, azerbaydjani, terminoloji, vocabulaire.

Çoxdilli tərcümə lüğətləri bir xalqın deyil, bir neçə xalqın dilini, leksikasını, lüğət tərkibini oxucuya nümayiş etdirməklə müxtəlif sistemli dilləri, bəzən də eyni dil ailəsinə mənsub olan qohum dillərin müqaiysəli şəkildə öyrənilməsinə və onlardan istifadə edilməsinə imkan verir. Hər bir mütəxəssisin gündəlik həyatında rast gəldiyi elmi-texniki yenilikləri, məişətdə meydana çıxan aparat və avadanlıqların adlarını başqa dillərdə öyrənmək üçün ikidilli və yaxud çoxdilli lüğətlərindən istifadə edir.

İkidilli, çoxdilli tərcümə lüğətləri haqqında akademik V.A.Şerba «Rusca-Fransızca lüğət»in ikinci nəşrinin giriş məqaləsində yazır: «Bizə hansı lüğət lazım olacaqdır? Hər şeydən əvvəl tamamilə aydındır ki, iki dil üçün iki izahlı əcnəbi lüğəti, yəni rusların rus dilində, əcnəbilərə isə öz dilində izah edən lüğət lazmdır. Belə lüğətlər əcnəbi kitabları oxumağa və başa düşməyə və əcnəbi sözlərin əsil fizionomiyası ilə tanış olmağa imkan verəcəkdir».

Çoxdilli lüğətlər xarici dilləri daha geniş başa düşmək, ana dili ilə müqayisə etmək, tutuşdurmaq vasitəsidir. Bu lüğətlərin sözlüyü praktik cəhətdən zəruri olan sözlər əsasında təşkil olunur.

Çoxdilli tərcümə lüğətlərinin sözlüyünə praktik cəhətdən zəruri olan sözlər daxil edilir və onlar çox müxtəlif üslublarda işlədilən sözlər əsasında təşkil edilir. İkidilli və çoxdilli terminoloji lüğətlərdə sözlərin spesifik mənası izah edilməklə yanaşı, onları qarşılaşdırılan dillərin ekvivalent sözləri ilə düzgün əks etdirilir. Bu tip lüğətlərin tərtibində ən çətin problem ana dilinin sözlərini başqa dildə və yaxud əksinə, əcnəbi dilin sözlərinin ana dilində dəqiq qarşılığını tapmaqdır. Çoxdilli tərcümə lüğətlərində problemlərdən biri də tərcümə olunan sözün ana dilində sinonim növlərini tapmaqdır. Əcnəbi dildən ana dilinə tərcümə olunan sözün tapılıb verilməsi lüğət tərtibçilərindən böyük ustalıq, gərgin iş və zəhmət tələb edir.

Çoxdilli lüğətlərin tərtib edilməsi hər hansı bir hazır elementi ifadə edən sözlərin mexaniki olaraq qarşılığının verilməsi deyil, həmçinin, onların elmi xarakter daşımasıdır.

Çoxdilli terminoloji lüğətlərdə hər hansı bir sözün bütün məna incəlikləri nəzərə alınır, ana və əcnəbi dillərdə sinonimləri verilir və oxucu onları başqa dillərlə müqaiysə edib tutuşdurur.

Bu növ lüğətlərin giriş hissəsində və bəzi lüğətlərin sonluqlarında onların tərtibedilmə prinsipləri göstərilir. Belə ki, həmin lüğətlərdən istifadə qaydaları, qrammatik əlavələr, hallanma və dəyişməyə aid cədvəllər və həmçinin, sözün leksik

mənası və cümlələrdə işlədilməsi izah olunur. Çoxdilli tərcümə lüğətlərində sözün əsas mənasından başqa ikinci dərəcəyə malik mənası verilir ki, bu da oxucuya hərtərəfli düşünməyə imkan verir. Bu növ lüğətlərin izahlı lüğətlərdən fərqi ondadır ki, onlar dili başqa dillərlə müqaisəli şəkildə öyrədir.

Çoxdilli terminoloji lüğətlərin tərtib olunması prinsiplərində aşağıdakı qaydalar müəyyən edilir:

- bütün dillərdə sözlərin düzgün oxunma, orfoepiya qaydalarının gözlənməsi;
- sözlərin və terminlərin fonetik qanunauyğunluqlarının düzgün verilməsi;
- söz və terminlər haqqında qrammatik minimum verilməsi;
- xarici dildə verilmiş sözlərin ana dilində qarşılığını tez tapmaq üçün əlifba üsulundan düzgün istifadə edilməsi;
- istər ana dilində, istərsə də əcnəbi dillərdə sözlərin sinonimlərinin çoxşaxəli verilməsi;
- ana dilində qarşılığı olmayan sözlərin çoxsözlü terminlər şəklində açılması və oxucuya həmin sözün mənasının başa salınması.

Çoxdilli terminoloji lüğətlərin çatışmamazlığından danışsaq, onu qeyd edə bilərik ki, bəzi terminlərin mənaları dəqiqləşdirilməmiş və başqa dillərdə onların analoqu düzgün verilməmişdir. Həmçinin, bəzi sözlərin çoxmənalılığı nəzərə alınmamışdır. Əslində isə çoxdilli terminoloji lüğətlər ensiklopedik və ya izahlı lüğətlər kimi həqiqi, ətraflı bilik vermir, ancaq o mətndə olan əcnəbi sözlərin mənasını oxucuya anlatmaqda yardımçı olur.

Azərbaycan dilçiliyində işlədilən tərcümə lüğətləri ikidilli, üçdilli və çoxdilli olurlar.

Çoxdilli tərcümə lüğətləri haqqında N.Ə.Həsənov yazmışdır: «Çoxdilli tərcümə lüğətlərində hər cür sözün mənasının ekvivalenti deyil, onların işlədilmə eynili-yi yoxlanılır». Dilimizdə işlənən tərcümə lüğətlərində ən çox yayılmış ikidilli və çoxdilli tərcümə lüğətləridir.

Çoxdilli tərcümə lüğətlərinin əsas məqsədi sözün bütün dillərdə düzgün və dəqiq ekvivalentlərinin verilməsi, imkan daxilində sinonimlərin daha çox sayının artırılması və mənadan yayınmanın minimuma endirilməsidir.

«Elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti» EA-nın müxbir üzvü, professor Azad Əfəndizadə tərəfindən nəşr edilmiş və sözlük 4500 termindən ibarətdir.

Azərbaycanca-rusca-ingiliscə nəşr olunan bu çoxdilli sözlüyün bütün terminləri nömrələnmiş və hər üç dildə əlifba sırası ilə düzülmüşdür. Oxuculara təqdim edilən «Elektrik intiqalı və sənaye qurğularının avtomatlaşdırılması terminləri lüğəti» adından göründüyü kimi avtomatlaşdırılmış elektrik intiqalının idarə olunması və tənziminə, sənaye qurğularının avtomatlaşdırılmasına həsr edilmiş elmi-texniki ədəbiyyatda təsadüf olunan əsas terminləri əhatə edir. Bundan başqa, lüğətə avtomatlaşdırılmış elektrik intiqalı ədəbiyyatında rast gəlinən hesablama texnikası, elektrik maşınları, nəzəri elektronika, riyaziyyat, elektronika və yarımkeçiricilər texnikası terminləri də daxil edilmişdir. Azərbaycan sözləri ilə başlanan lüğətin rus və ingilis dillərində qarşılıqları verilmişdir. Hər üç dildə yazılmış ədəbiyyatdan istifadə etmək üçün kitabın sonunda həm rus, həm də ingiliscə terminlər əlifba sırası ilə verilmişdir. Əlifba sırası ilə düzülmüş istər rus, istərsə də ingiliscə terminlərin azərbaycan dilində qarşılığını, terminin sıra

nömrəsinə əsasən təyin etmək olar. Beləliklə, bu üç dilli lüğət hər üç dildə – azərbaycan, ingilis və rus dillərində olan texniki ədəbiyyatdan istifadə etməyə kömək edə bilər. Həmçinin, başqa lüğətlərdən fərqli olaraq bu lüğətdə ingilis dilində verilmiş terminlər üçün çox vaxt çətinlik törədən ingilis dilinin transkripsiyası da verilmişdir. Azərbaycan dilinin texniki terminologiyasına töhfə olunmuş bu çoxdilli lüğətin həmin sahədə işləyən mütəxəssislərin masaüstü kitabı olması təqdirəlayiqdir.

Başqa çoxdilli lüğətlərdə olduğu kimi, bu lüğətdə də terminlər öz quruluşu etibarilə 4 növə bölünür:

1. Təktərkibli, bir kökdən ibarət tam müstəqil terminlər;

məsələn, *arqument – arqument – аргумент*

avtomatika – automatics – автоматика

akseptor – acceptor – акцептор və s.

2. Mürəkkəb tərkibli, iki sözdən ibarət mürəkkəb tərkibli texniki terminlər;

məsələn, *avtopilot – autopilot - автопилот*

avtorezonans – autoresonance – авторезонанс

bloksxem – block diagram – блоксхема və s.

Bəzi hallarda mürəkkəb tərkibli terminin birinci və ya ikinci tərəfi Azərbaycan dilinə məxsus olur.

məsələn, *avtorəqslər – автоколебания – systained vibration*

anod-tor – анод сеточная – griel plate

verici selsin – селсий датчик – synohrono-transmitter.

3. Söz birləşməsi şəklində işlənən söz və terminlər. Qeyd etmək lazımdır ki, lüğətdə işlənən terminlərin bu növü ən çox yayılmış və ən çox istifadə olunandır. Bu növ texniki terminlər mənşəcə 3 növə bölünür:

a) birinci tərəfi ana dilinə, ikinci tərəfi isə Avropa dillərindən birinə məxsus terminlər. Məsələn, *açıq elektronlar, açıq sistem, açılış sxemi* və s.

b) birinci tərəfi Avropa dillərinə, ikinci tərəfi isə ana dilinə məxsus söz birləşməsi şəklində işlənən texniki terminlər. Məsələn, *amplitud əyrisi, anod dövrəsi, baza kəmiyyəti* və s.;

c) hər iki tərəfi Avropa dillərinə məxsus texniki terminlər. Məsələn, *anoloji model, balans sxemi, dizel elektrik, dinamik sistem* və s.

4. Tərkibi üç və ya daha çox olan çoxkomponentli texniki terminlər. Məsələn, analitik tədqiq metodu – аналитический метод исследования – analytical research method.

Çoxdilli lüğətlərin tərtibi prinsiplərindən bəhs edərkən, onu leksikologiyanın bir mözusu kimi xüsusi olaraq qeyd etməli və istər-istəməz leksikologiya və lüğətlər haqqında bəzi mülahizələrimizi söyləməliyik.

Yunan mənşəli "lexts" – söz və "loqos" – elmi dilçilikdə sözü, leksikanı öyrənən və sözün tərifi olmaması (Peterson, Şerba) haqqında bəzi alimlərin rəyləri heç də söz məfhumdan ayrı kimi başa düşülməsi kimi deyil, əksinə söz əşya və məfhumun ifadə vasitəsi kimi əlaqələndirilməlidir.

Söz dil üçün mühüm əhəmiyyətə malik olub fikrin ifadə vasitəsidir.

Məşhur fransız filosofu F.Volter qeyd etmişdir ki, "sözlər obrazlar, lüğət isə əlifba sırası ilə düzülmüş bütöv bir aləmdir".

Dildə işlədilən sözlər arasında işlədilən sahə və məna etibarilə müəyyən bir bölgü mövcuddur. Belə bir bölgü, sözlər arasında ayrı-ayrı qruplaşmalar məlumat kitabında toplanır və oxuculara təqdim edilir. Belə bir məlumat verən kitablardan istifadə geniş oxucu kütləsi tərəfindən daim rəğbətlə qarşılanmış və lüğət kitabları xalqlar arasında ünsiyyət vasitəsi kimi getdikcə daha geniş vüsət alır.

Lüğət kitabları hər şeydən əvvəl dil fakları üzərində müşahidə aparmaq və əldə edilmiş təcrübəni ümumiləşdirməkdir. Lüğət güzgüsü kimi onun yaşadığı dövrü, zamanı ifadə edir və həmin dildə danışan xalqın xarakterini ərs etdirir.

Lüğətdən istifadə hər bir oxucuda xüsusi maraq doğurur və onlar lüğətdən istifadə etməklə ondan hərtərəfli yararlanırlar. Çoxdilli lüğətlərin tərtibi prinsipləri bütün lüğət kitabları üçün eyni üsulla yox, müxtəlif üsullarla aparılmışdır. "Bolqar, macar, rumın, alman, çex, rus dillərində hərbi terminlər" lüğətində bütün terminlər əlifba – yuva üsulu ilə verilmişdir. Ona görə də çoxkomponentli terminləri və frazeoloji birləşmələrin tərkibini lüğətdə əlifba üsulu ilə axtarmaq lazımdır. Məsələn, rus termini "плавающий танк" "танк" sözü olan yuvacıqda və "переходит в наступление" söz birləşməsini isə "наступление" yuvacığında axtarmaq lazımdır. Rus terminlərini başqa, qeyri Avropa dillərinə tərcüməsi rus əlifbası üzrə düzülmüş və həmin dillər aşağıdakı baş hərflərlə adlandırılmışdır.

Məsələn: Б – болгарский, В – венгерский, Н – немецкий, П – польский, Р – румынский, Ч – чешский. Hər yuvada əsas termindən sonra onunla əlaqədar frazeoloji birləşmələr yerləşdirilmiş və bəzi lüğətlərdə əlifba üsulu ilə axtarıb tapmaq lazımdır. Əsas termindən sonra morfoloji yolla ondan əmələ gəlmiş sözlər verilir və nəhayət yeni yaranmış terminlər yazılır və bu zaman əsas termin ikinci və ya üçüncü plana çəkilir. Bütün birləşmələr və terminlərlə əlaqədar olan sözlər yuva daxilində ciddi şəkildə əlifba sırası həmin prinsip üzrə düzülürlər.

Bununla belə əsas termin yuvada onu təşkil edən komponentlərin sayından asılı olmayaraq müstəqil qalır, bu şərtlə ki, o öz formasını dəyişməsin. Termin və söz birləşmələrindən onun dəyişməsi [~] işarəsi ilə göstərilir. Məsələn: "oqonyok" (atəş) sözü bütün dillərə tərcümə ilə verilir. Bundan sonra əlifba üzrə həmin tipdən bütün frazeoloji birləşmələr verilir: "вести огонь", "корректировать огонь", "открывать огонь" və s. Sonra "огонь" termini ilə əlaqədar çoxkomponentli terminlər verilir. Məsələn: огонь атомной артиллерии, огонь большой плотности, огонь на воспрощение və s. Bundan sonra isə həmin terminlər söz birləşmələri şəklində verilir ki, bu birləşmələrdə "огонь" termini arxa plana çəkilir və sözün məna yükünü başqa sözlər aparır. Məsələn: автоматный огонь, беглый огонь, неподвижный огонь və s. Bəzi hallarda, məna yükünü öz üzərinə götürən əsas termin (məsələn, "отравляющее вещество", "подводная лодка", "радиолакационная станция" və s.) özü kifayət qədər törəmə terminlər yaradır və həmin törəmə terminlərlə birlikdə müstəqil yuva şəklində baş hərfi götürülür və lüğətdə yerləşdirilir. Məsələn: "подводная лодка" termini "П" hərfində yerləşdirilmiş və "лодка" termini yuvada isə əlavələr verilmişdir (məs. лодка; подводная ~ см. подводная лодка). Rus dilində defislə yazılan terminlər (məs. механик-водитель, танк-тральщик и др.) müstəqil terminlər kimi qəbul edilir və lüğətdə defis nəzərə alınmadan əlifba üzrə özünəuyğun yerini tutur.

Bütün rus dilinə məxsus terminlər və termin-birləşmələrinin tərcümələri başqa dillərə verilir və onlar 1-dən 7365 sayına qədər nömrələnmişdir. Hərbi termin məna-

sı daşıyan sözlər termin və termin birləşmələri şəklində tərcüməsiz verilir və onlar nömrələnməmişdir.Sonra hər hansı bir müxtəlif məna daşıyan eyni termin ərəb rəqəmləri ilə şifrələnmiş və onlar müstəqil fel kimi başa düşülür. Belə təqdirdə, bütün terminlər və termin-söz birləşmələri əlifba üzrə yuvada yerləşdirilir. Omonim terminlər, məsələn, батарея (электрик), батарея (артиллерия) rum rəqəmləri ilə işarələnmiş və müstəqil lüğət işarəsi kimi istifadə edilə bilər. Kitabın göstəricilərində hər bir dilə aid bütün termin və termin-söz birləşmələri sıra nömrəsilə verilmişdir. Bəzi çoxdilli terminoloji lüğətlərdə ana dilinə aid ilk söz yağlı şriftlə verilir, sonra isə onun qarşında o biri qohum və ya qohum olmayan dillərdən müvafiq sözlər verilir.

Ədəbiyyat

1. N.Xudiyev: «Azərbaycan dilinin zənginləşmə yolları».
2. A.Qarayev: «Muasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar».
3. E.Haugen: «The analyse of indiguistic horriwing», «Lang.», 1950.
4. Horn P. «Crundries der neupersiselie etimologie», Strasbourg, 1993.
5. Супечанская Л.В. «Заимствование слов и практическая транскрипция». Издательства «Москва», 1962.
6. И.В.Соловьева: «Нормализация научно-технической терминологии», М., 1965.
7. R.C.Cəfərov: «Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər», Bakı, 2001.
8. H.Ə.Həsənov: «Müasir Azərbaycan dilinin leksikası». Bakı 1978, ADU nəşri.

K. Мехтиханлы

Составление многоязычный терминологические словарей

Резюме

В статье рассматриваются принцип составление многоязычный терминологические словарей, мнение и высказывание русских и зарубежных учёных-лингвистов, методы и способы составление многоязычных словарей и общее положение употребление двухязычные, трехъязычные и многоязычные словарей в Азербайджана.

K.Mehtishanli

The publishing of the multilangual turmicl vocabularies

Summary

The article deals with the principle of the publishing of the multilangual turmicl vocabularies, points of vieuos of Russian and foreign scientist-lingtuists, methods and styles of forming of multilangual vocabularies and general situation of use of two, three and multilangual vocabularies in Azerbaijan.

Rəyçi: N.Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

GULNARA ALİYEVA
Azerbaijan State Pedagogical University
rovshen-aliyev19@mail.ru

SENTENCE COMBİNİNG İN ENGLİSH AND AZERBAİJANİ LANGUAGES

Key words: theoretical problems,phonetic peculiarity, syndetic, asyndetic, Independent clauses,conjunctions.

Açar sözlər:nəzəri problemlər, fonetik müxtəliflik, sintetik, asintetik, Müstəqil cümlələr, bağlayıcılar.

Ключевые слова: теоретические проблемы фонетическая особенность синдетический асиндетический независимое придаточное придложение союзы.

The word syntax is derived from two words meaning together and arrangement. From the angle of diachronic approach many problems of English syntax have not been solved yet. They await further careful investigation. One of the debatable problems concerning syntax of every language , including English is its subject matter, i.e. what be learned under the title of syntax. Different grammarians have different views about syntax.

Syntax is that part of grammar which treats of the rules according to which words are connected in the sentence and also of the various types of sentences, their structure and meaning.

The definition of the sentence is one of the most difficult theoretical problem. Many linguists couldn't admit satisfactory solution.There are different definitions concerning sentence

According to Henry Sweet "A sentence is a group of words capable of expressing a complete meaning or thought." He didn't take into account grammatical and phonetic peculiarities of the sentence.

O.Curme called:"Sentence is a group of words expressing complete feeling or thought by means of words or word groups used in such form and manner."[6,p.275]

Otto Jesperson said:"Sentence is a relatively,completely and independent unit of communication."[2,p.356]

But V.L.Kaushanskaya suggests:"A sentence is a unit of speech whose grammatical structure conforms to the laws of the languages and which serves as the chief means of conveying a thought. [5,p.221]

The sentence is the immediate integral unit of speech built up of words according to a definite syntactic pattern and distinguished by a contextually relevant communicative purpose . Any coherent connection of words having an informative destination is effected within the framework of the sentence. Therefore the sentence is the main object of syntax as part of the grammatical theory.

The meaning of the sentence can be seen, for instance , in the course of English grammar by M.A.Ganshina and N.M.Vasilevskaya who wrote: ”Every sentence shows the relation of the statement to reality from the point of view of the speaker.”

The term “ sentence ” is widely used to refer to quite different types of unit. Grammatically , it is the highest unit and consists of one independent clause ,or two or more related clauses. Orthographically and rhetorically, it is that unit which starts with a capital letter and ends with a full stop, question mark or exclamation .

A sentence is a unit of speech constructed according to language-dependent rules, which is relatively complete and independent in respect to content, grammatical structure, and intonation.

A written sentence is a word or group of words that conveys meaning to the listener, can be responded to or is part of a response , and is punctuated .

The sentence has been defined as the largest unit for which there are rules of grammar. It is sometimes said that a sentence expresses a complete thought. This is a notional definition : it defines a term by the notion or idea it conveys. The difficulty with this definition lies in fixing what is meant by a 'complete thought .' There are notices , for example , that seem to be complete in themselves but are not generally regarded as sentences . Traditional attempts to define the sentence were generally either psychological or logical-analytic in nature: the former type spoke of a complete thought or some other inaccessible psychological phenomenon; the latter type, following Aristotle, expected to find every sentence made up of a logical subject and logical predicate , units that themselves rely on the sentence for their definition. A more fruitful approach is that of Jespersen, who suggests testing the completeness and independence of a sentence, by assessing its potential for standing alone, as a complete utterance. Sentence is a relatively, completely and independent unit of communication. In studying the sentence we are faced with a number of problems belonging to the science of language as a whole rather than to English philology. Majority of cases people actually experience no difficulty in separating one sentence from another in their native tongue. This is reflected in writing, where the graphic form of each sentence is separated by punctuation marks (.?!) from its neighbors. Though a sentence contains words it is not merely a group of words , but something integral , a structural unity built in accordance with one of the patterns existing in a given language. All the sounds of a sentence are united by typical intonation. All the meaning are interlaced according to some pattern to make one communication. Therefore the sentence is the main object of syntax as part of the grammatical theory.

While defining the sentence, we must take into account the following:

- Grammatical features
- Phonetic features
- Communicative features

This definition is accepted .”Sentence is a unit of speech which expresses a more or less complete thought has a definite grammatical structure and intonation.”

According to structure, sentences are divided into 2 groups:

1.Simple ; 2.Composite

The relation between the two classifications should now be considered. It is complain that a simple sentence can be either decleretive, or interrogative, or exclamatory, or imperative. But things are somewhat more complicated with reference to composite sentences.If both (or all) clauses making up a composite sentence are declarative,the composite sentence as a whole is of course declarative too.And so it is bound to be in every case when both (or all) clauses making a composite sentence belong to the same type of communication .Sometimes composite sentences are found which consist of clauses belonging to different types of communication.Here it will sometimes be impossible to say to what type of communication the composite sentence as a whole belongs.

First of all we commented briefly on the problem of classifying composite sentences.We will adopt as a first principle of classification the way in which the parts of a composite sentence are joined together.This may be achieved either by means of special words designed for this function, or without the help of such words. In the English and Azerbaijanian languages,combining sentences is a necessary part of fluent communication; however, with all of the transitions, subjects, predicates, verbs and verbals to consider, it’s easy to become overwhelmed. Sentence combining does not need to be a chore.

In the first case, the method of joining the clauses is syndetic, and the composite sentence itself may be called syndetic. In the second the method of joining the clauses is asyndetic, and so is the composite sentence itself.

In fact, if you follow these simple rules for combining sentences, you’ll probably find that it’s easy and you might even begin to enjoy it.

Independent clauses are essentially two sentences that could stand on their own- in other words , they don’t “depend” on another clause to allow them to make sense. These sentences must be combined with the use of a connecting word known as a “conjunction.” Some popular conjunctions often used to achieve this purpose are **and, but, for, nor, or, so, yet**. Each expresses something different, so use them wisely![internet]

“**And**” means also or in addition. Instead of saying, “Jane went to the cinema. John went to the cinema,too.” try saying, “Jane and John went to the cinema.”

“**But**” expresses an opposite or different point of view. Instead of saying “It was a good idea. It was a dangerous idea,” try saying, “It was a good but dangerous idea.”

“**For**” expresses causation or result. Instead of saying, “They went upstairs. They did this because it was bedtime,” try saying, “They went upstairs, for it was bedtime.”

“**Nor**” means an additional negative idea. Instead of saying, “She doesn’t like school. She also doesn’t like being at home,” try saying “She likes neither school nor home.”

"Or" reflects an additional point of view –the presence of choice.Instead of saying, "The cat is upstairs.It might also bein the garage," try saying, "The cat is upstairs or in the garage."

"So" indicates the progression of a thought. Instead of saying, "They ditched school.This way,they would not have to take a test,"try saying ,"They skipped school so they could avoid the test."

"Yet" expresses a co ntrast,similar to "but." Instead of saying "I loved her.On the other hand , I was angry with her ," try saying ," I loved her,yet I was angry with her."

Sentences with the same subject can be combined ,since you are describing the same person ,place, or thing completing different actions.This is very easy.

Instead of: "Television is an educational tool.It is a tool that prevents education." Tyr "Television is an educational tool that may also prevent education."

If two sentences contain different subjects that are accomplishing the same action, the sentences can be combined as well.

Instead of "The baby walked.The mother walked along."

Try "The mother walked along with the baby."

Notice that subjects ,verbs and independent clauses all have something in common .The sentences before they are combined unnecessarily repeated words that may be omitted by combining the sentences together. By following these rules, your sentences will be more concise and interesting,and far less repetitive.We can combine two or more sentences into a single sentence. We may do this because sentences are closely related in meaning and belong together, and because it is boring to read a series of short sentences that have a similar structure. When we talk about combining sentences, we will often use the word clause which is a group of words containing a subject and a verb. So, we will say that the sentence I know you and you know me contains two clauses rather than saying that it contains two sentences. A sentence that contains only one clause is called a simple sentence. There are a number of different ways to combine sentences:

punctuation coordination subordination reduction apposition

The semicolon is one of the most feared punctuation marks used in the English language. How is it used,and why? In reality,the semicolon is a powerful tool when used to combine sentences.

A semicolon is useful when two sentences that are related to one another in meaning must be combined, but a comma will not suffice. Normally, a semicolon can be used in the place of a period (also known as the "full stop"). You can use a semicolon in a number of ways in the following sentences.[internet]

Instead of "I left the room. My mother entered in the room."

Try "I left the room; My mother entered in the room."

Each conveys the same idea –but each also conveys that idea a bit differently.

With these simple rules for combining sentences,you can now combine sentences confidentially to make your speech and stories much more interesting.

In the composite sentences we should distinguish between two variants of syndetic joining of sentences,the differences depending on the character and

syntactic function of the word used to join them in English and Azebaijanian languages.[1,p.275]

This joining word may either be a conjunction,a pronoun or an adverb.If it is a conjunction,it has no other function in the sentences but that of joining the clauses together.

If it is a pronoun or an adverb (i.e.a relative pronoun or a relative adverb),its funtion in the sentence is twofold;on the one hand,it is a part of one of the two clauses which are joined (a subject,object,adverbial modifier and etc.),and on the other hand ,it serves to join the two sentences together, that is, it has a connecting function as well.

It is to syndetic composite sentences that the usual classification into compound and complex sentences should be applied in the first place.

Compound sentences consist of clauses joined together by coordinating conjunctions. These are very few: *and, but, or, for, yet, so.*

The semantic relations between the clauses making up the compound sentence depend partly on the lexical meaning of the conjunction uniting them, and partly on the meaning of the words making up the clauses themselves. As to the use of tenses in clauses making up a compound sentence, we should note that there is no general rule of their interdependence.

There is much more to be said about the complex sentence than about the compound.This is due to several causes,which are connected with one another.

For one thing, the semantic relations which can be expressed by subordination are much more numerous and more varied than with co—ordination.There is here a greatyvariety of conjunctions:*when, after, before, while, till, until, though, although, albeit, that as, because, since*;a number of phrases performing the same function:*as long as ,as soon as ,so long as, in order that, notwithstanding that, according as* ,etc.Besides, a certain number of conjunctive words are used:the relative pronouns *who, which, that, whoever, whatever, whichever* and the relative adverbs *where, how ,whenever, wherever, however, why* ,etc.

Literature:

1.B.A.Ilyish “The Structure of Modern English” M.L.1965
2.Otto Jesperson “Syntax” Second Volume. Part III .1949
3.Ganshina M.A.,Vasilevskaya N.A “English Grammar” M.1964
4.Khaimovich B.S.,Rogovskaya B.L. “A Course in English Grammar” M. 1967
5.Kaushanskaya V.L. “A Grammar of the English Language’’M.1973
6.Curme G.O. “A Grammar of the English Language”.Boston-N.Y.,1935
7.Abdullayev Ə.Z. və başqaları “Müasir Azərbaycan dili” (sintaksis) ,B.,1985

Resources:

8.www.alison.com/English exercises
9.www.aiuhs.org
10.www.transworldschool.com

G.N.Əliyeva

İngilis və Azərbaycan dillərində cümlələrin birləşməsi yolları

Xülasə

Məqalədə İngilis və Azərbaycan dillərində cümlələrin birləşməsi yollarından bəhs edilir. Məqsəd ingilis və azərbaycan dillərində mövcud olan sindetik və asindedik birləşmə yollarını göstərmək və həmin əlaqələri araşdırmaqdır. Müəllif ilk olaraq sadə və mürəkkəb cümlələrə toxunur, cümlələrin bağlayıcılarla,intonasiya ilə (bağlayıcısız), əvəzliklər vəya zərflərlə birləşməsi yollarından danışır. Elmi işdə sindedik və asindedik vahidlərin sadə və mürəkkəb cümlələrdə işlənilən variativliyi nəzərdən keçirilir, və geniş şəkildə söhbət açılır.

Г.Н.Алиева

Путе соединения предложений в Азербайджанском и Английском языках

Резюме

В статье говорится о путях соединения путе соединения предложений в Азербайджанском и Ангийском языках.

Автор в первую очередь затрачивает простые предложения, касается таких тем, как соединение предложений с помощью союзов,интонации (без союзов), местоимений и наречий.

Rəyçi:dos.Amil Cəfərov

ELDAR AĞAYEV
AMEA Nəsimi adına Dilçilik İnstitunun dissertantı

MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ NORMA POZUNTULARI VƏ SLENQLƏR

Acar sözlər: slenq, dil, norma, jarqon,arqo.
Ключевые слова: сленг, язык,норма, жаргоны,арго слова.
Key words: slang, language, contemporary, jarqon, norm.

" Ümumxalq dilinin cilalanmış,müəyyən normalara salınmış qoluna ədəbi dil deyilir. Ədəbi dil ictimai müəssisə və idarələrdə,nəşriyyat və mətbuatda,kino və teatrlarda, radio və televiziyada, maarif və mədəniyyət ocaqlarında və s. istifadə olunan dildir".(1,s.18).

"Dıldə norma tənzimləyici,nizamlayıcı funksyanı yerinə yetirir.Bu normalar dildə nisbi sabitliyi yaradır. Ədəbi dilin normaları mütləq deyil, dəyişkəndir, müəyyən tarixi şəraitdən asılı olaraq bu və ya digər dərəcədə dəyişikliyə uğrayır". (2,s.121).

23 may 2012-ci il "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiiiyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında" deyilir: "Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi kecirir.Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq,ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin,milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir.Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqqəddəs borcudur"(3, s.1).

Çox əfsuslar olsun ki,bu müqqəddəs borcu hər bir Azərbaycan vətəndaşı layiqincə yerinə yetirmir.Əgər XX əsrin 80-ci illərinə qədər ədəbi dil normaları mətbuatda, kütləvi informasiya vasitələrində qorunub saxlanırdısa və nümunə olaraq insanlara düzgün danışmağı,yazmağı öyrədirdisə bugünkü mətbuata, televiziyaya, radio verlişlərinə bunu şamil etmək olmaz. Azərbaycan Respublikasının Prezidentinin yuxarıda adı cəkilən sərəncamında bu məqama da toxunulmuşdur: "Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzı mətbuat orqanlarında, radio, televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal olmuşdur. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir.Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyənin də arzuedilməz göstəricisinə çevirilmişdir."(3,s.1).

Ümummilli lider Heydər Əliyev cənablarının "Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək , şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir."(4,s.26). ifadəsi dövlətimizin dil siyasətinin əsas prinsipi olmalıdır.

Müasir gənclərimiz, xüsusən də ,ziyalılar dilin keşiyində durmalı, onun zənginləşməsinə xidmət etməlidirlər. Çünki hər bir xalqın nümayəndəsi necə ki, öz vətənini sevir, eləcə də dilini sevməlidir. Gənclərimizin bir qismi bu mənəvi borcu layiqincə yerinə yetirmir. Əksinə ahəngdarlığı, ünlüliyi ilə dünya dillərinin çoxundan üstün olan dilimizi yad dillərə dəyişirlər.Bir azərbaycanlı olaraq məni narahat edən odur ki, bu hal artıq kütləviləşib. Yəni həm şifahi danışıq dilində, həm yazılı dildə,həm mətbuatda, həm də kütləvi informasiya vasitələrində ədəbi dil normaları pozula-pozula gedir.

Dil haqqında qanunun 18.2 maddəsində yazılır: " Azərbaycan Respublikasının ərazisindəki bütün kütləvi informasiya vasitələri (mətbuat, televiziya, radio və s.), kitab nəşri və digər nəşriyyat işi ilə məşğul olan qurumlar Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidirlər."(5,s.45).

İngilis dilindən dilimizə keçən slenqlər bəzi müasir gənclərin dilində az qala ümumişlək sözlərə çevriliblər. Özlərini son dərəcədə müasir sayan bəzi gənclərimiz vidalaşma etiketləri olan "sağ ol", "hələlik", "xudahafiz", "görüşənədək" və s. ifadələrin əvəzinə "okey", "bay-bay" slenqlərindən istifadə edirlər.Biri digərinə minnətdarlığını "mersi", necə də gözəldir və ya gəşəngdir əvəzinə "super", "fulun-fu" slenqlərindən istifadə edirlər. Dədə-babadan səliqəli geyinən adama " Necə də şux geyinib" deyiblər, amma indi nədənsə "şux"əvəzinə " şık" işlədilir. Gənclərimizin bir qismi " özünə hörmət edən, yerini bilən adama" "ponyatkalı adam" deyirlər. Belə nümunələri istənilən qədər sadalamaq olar.

Slenq – ingilis dilində "tullamaq" və ya "səpələmək" mənasını bildirir. Slenq diıçilik terminidir.R. Manafoğlu, N. Tağısoy, R. Kamalın müəllifliyi ilə nəşr olunmuş "İzahlı tərcüməşünaslıq terminləri lüğətində" bu termin haqqında belə yazılır "Slenq – müəyən peşə,yaxud sosial təbəqə nümayəndələrinin tərəfindən istifadə edilən söz və ifadələr. Ümumi və xüsusi slenqlərə bölünür"(5 ,s.101). Bəzən slenqləri varvarizmlərlə, jarqon və arqo sözlərlə eyniləşdirirlər.Əslində bunlar müxtəlif dilçılik terminləridir. Slenqlər varvarizmlərdən, jarqon və arqo sözlərdən fərqli olaraq ədəbi dilin ətrafında fəaliyyət göstərir. Bəzən də ədəbi dilə keçə bilirlər. Məsələn, mənası "lazımsız əşya" , "tullantı" olan "şparqalka "ifadəsi bir vaxtlar slenq, sonralar ədəbi dilə keçmiş söz sayılır. Slenqlərdən daha çox 15-25 yaşlarında olan gənclər istıfadə edirlər.Lakin bu heç də o demək deyil ki, slenqləri digər yaş dövründə olan insanlar başa düşmür. Müasir dövrdə biri digərindən borc pul alıb qaytarmırsa "pulu ona atıb", həmən pulu atan adama da "atanşik" deyirlər. Bu ifadələr slenqdir,lakin onların mənasını bugünkü gündə hamı başa düşür. Məhz bu xüsusiyyətinə görə slenqlər jarqon və arqo sözlərdən fərqlənir.Jarqon və arqo sözlər nisbətən məhdud çərçivədə olan qruplara aiddir. Məsələn, musiqiçilərin , oğruların jarqon sözlərini buna nümunə göstərə bilərik: musiqiçilər qıza "civi", pula "kərvə",arağa "məsi", yoxdur "xasdır", qurtar "buğur elə" və s. Oğrular isə bıçaqlamaq əvəzinə "şoşqalamaq", narkotikə "mal", narkotikdən istifadə etməyə "mallanmağ", mübahisəyə "sxotka",həbsxanaya "zon", narkotik, nəşə satana "barı-qa"və digər jarqonlardan istifadə edirlər. Göründüyü kimi jarqonları heç də ha-mı başa düşməyə bilər, amma slenqlər əksəriyyət tərəfindən başa düşülür. Məsələn , gənclər arasında işlədilən slenqlər həmyaşıdları arasında şərhsiz başa düşülür. Məsələn,kənddən gələnə "qıjı","kəntoş", əladır əvəzinə "efirdi", qız xasiy-

yətli oğlanlara "şampunçık", səhv etdi əvəzinə "quşdadı" , "yandırdı", "xoruz buraxdı"; onunla əlaqəni kəs "qırıl ondan"; işi çətinə düşüb " təkərə düşüb", taleyinlə zarafat etmə "həyatınla klas-klas oynama", bir insanın pis vəziyyətə düşməsi "filənkəs qaralıb"; aciz, maymaq adama "lox"; imkanlı adama "bərk gedən" və s. ifadələr buna əyani misaldır.

Tədricən bu slenq sözlər, slenq cümlələrlə əvəzlənir. Məsələn:"Əzrayılla bilyard oynama","Ver qırağa saxla","Onun diski var məndə","Burnunu çək lövhəni görüm" və s. Bunlar müasir gənclərin əksəriyyəti tərəfindən başa düşülüb işlədilən ifadələrdir.Belə ifadələr dəbdə olan slenqlər sayılır və ondan istifadə edənlər özlərini daha müasir sayırlar.

Dil normalarının pozulması internet yazışmalarında da geniş vüsət almışdır. Müşahidələr göstərir ki,yazili dilin müasir forması olan "internet yazışması" ədəbi dil normalarının kəskin pozulması şəraitində inkişaf edir.İnternet yazışmalarında sözlər təhrif olunmuş şəkildə,heç bir qayda-qanuna tabe olmayan formada aparılır. Bunlara müasir dilçilikdə kompyuter slenqləri deyilir.

Məsələn: "SLM"- salam, "TWK"- təşəkkür, "NCSN"- necəsən , "XG"- xoş gəlmisən, "HMM"- razıyam, "BYE"-sağ ol,hələlik,"NCNC"-təəccüb ifadəsi,"VOV"- heyrətlənmək,"NHB"-nə xəbər,SBH"- sabah və s. Sözlərin bu şəkildə, guya ixtisarla yazılmasının səbəbini gənc nəsil vaxta qənaətlə əlaqələndirir.Belə davam edərsə yüz illərlə qoruyub saxladığımız yazı mədəniyyətimizin aqibəti necə olacaq?! Heyfsilənirəm ki, ali təhsilli gənclərimizin əksəriyyəti dil pozuntularına laqeyid yanaşırlar. Məncə,artıq həyacan təbilinin çalınma vaxtı çatıb.Əgər dil pozuntularının qarşısı alınmasa dilimiz təhlükə qarşısında qalar.Çünki passiv olan dili aktiv olan dillər məhv edir, nəticədə ölü dillərin sayı ilbəildən çoxalır.

Bu məsələlərin nə qədər ciddi olması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"-nın hazırlanması bir daha təsdiq edir.(7,s.1).

Kütləvi informasiya vasitələrində,mətbuatda,reklamlarda,mağaza,idarə və müəssələrin adlarında "Azərbaycan dili haqqında qanun"-un 7- ci maddəsi kobudcasına pozulur. Bu maddədə yazılır: "Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir.Əcnəbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət diii ilə yanaşı digər dillər də tətbiq oluna bilər.Zəruri hallarda reklam və elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dilı ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir." (5,s.42).

Telekanallarda tez-tez belə bir reklam verilir: "Sən acanda, sən o,sən deyilsən. Al, snigerslə." Yəqin ki,bu hansısa dildən uğursuz bir tərcümədir.Bizim dildə mənası çox çətinliklə anlaşılan söz yığınıdır. Balaca bir cümlədə üç dəfə "sən" şəxs əvəzliyinin yersiz təkrar olunması norma pozuntusu sayılır.Bəzi reklamlar isə heç bir etik normaya uyğun gəlmir.Mənəviyyatımızı heç nəyə qurban vermək olmaz. Çünki nitq mədəniyyətində etik norma gözlənilməlidir. Əks təqdirdə ədəbi dilin norması pozulmuş olur.

İstər paytaxt Bakıda, istərsə də digər şəhərlərimizdə mağaza,şadlıq evləri, yeməkxana və digər yerlərdə əcnəbi adlar qoyulması bir növ dəb halını alıb. Məsələn, "Şaurma", "Gren House", "Çudo-peçka","Fuci-film","Skazka","Diana" və s.

Nitqi adətən gözəl sözə yox, ağıllı fikrə görə qiymətləndirirlər. Ədəbi dilin normalarını qorumaq üçün onu bacardıqca alınma sözlərdən, varvarizmlərdən, jarqonlardan,slenqlərdən,xaricdən köçürülmüş kalka sözlərdən uzaqlaşdırmaq lazımdır. Bunların əvəzinə özləşməyə daha çox diqqət yetirib Azərbaycan dilinin leksikasını müxtəlif yollarla zənginləşdirməyə çalışmalıyıq.

Ədəbiyyat:

1. A. Qurbanov "Müasir Azərbaycan ədəbi dili" I cild Bakı-2003.
2. N.Abdullayev, Z.Məmmədov "Nitq mədəniyyətinin əsasları" Bakı-2005.
3. "ELM" qəzeti 2012-ci il 5iyun.
4. "Heydər Əliyevin aforizimləri" Bakı – 2005.
5. A.Babayev "Azərbaycan dili və nitq mədəniyyəti" Bakı-2011.
6. R.Manafoğlu, N.Tağısoy, R.Kamal "İzahlı tərcüməşünaslıq terminləri lüğəti" Bakı-2010.
7. " ELM" qəzeti 2013-cü il 15aprel.

Эльдар Агаев

Нарушение норм в современном Азербайджанском литературном языке и сленги

Резюме

В этой статье говарится о нарушение норм в современном Азербайджанском литературном языке и о сленге. Основным нарушителями современного Азербайджанского литературного языка является большая часть нашей молодежи.Можно сказать, что молодежь пользуется такими сленгами,которые искажают нормы языка. Автор подчеркивает, что с нарушениями языка мы сталкиваемся не только в разговорном процессе но и на телевидение и радио. В последнее время эта тема становится еще боле актуальной.

Agayev Eldar

The slangs and norm outrages in contemporary Azerbaijan literature.

Summary

In this article it is spoken about the violation of speech, about slangs.The main resource of violation of speech is our youth. It can be said thad the youth use such prases which violate the speech norms. Author underlines that we come across with violation of speech norms not only in speech process, but also in TV and on radio Recently this theme becomes more actual.

Rəyçi: İ.Kazimov
Filolofiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

XURAMAN HÜMMƏTOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
hummatovax@mail.ru

SUFİ İNANCLARININ XALQ TƏFƏKKÜRÜNDƏ YERİ

Açar sözlər: Sufi, xalq, inanclar.
Ключевые слова: Суфи, верований, народном.
Key words: Sufi, believes, people's.

Təsəvvüf poeziyasının yaranmasında, formalaşmasında xalq inancları və Quran rəvayətlərin böyük rolu olmuşdur. Təsəvvüf fəlsəfi cərəyan, dünyagörüş olaraq ortaya çıxmış, müxtəlif zaman kəsimində fərqli-fərqli baxışları özündə əks etdirmişdir. Bu cərəyanın ortaya çıxmasında təriqətlər və təriqət quruculari ilə bağlı yaranan inanclar xalq təfəkküründə dərin izlər buraxmışdır.F. Bayat türk təriqətlərindən danışarkən onların sırasında yəsəviyyə, kübrəviyyə, rifaiyyə, qədiriyyə, xəlvətiyyə, səfəviyyə, hürufiyyə, nöqtəviyyə, bəktaşiyyə, simaviyyə, bayramiyyə, cəlvətiyyə, nəqşibəndiyyə, ikaniyyə, mövləviyyə kimi təriqətlərdən bəhs edir.(1,131-205). İlk mütəsəvvüflər düşüncə təcrübələrini ətraflarında toplanan insanlara öyrətməklə yanaşı, bugünkü mənada təriqətlər qurmamışdılar. "Bu şeyxlər də şamanlar kimi mənzum ilahilər oxuyur, buddist rahibləri kimi mənqəbələr(dini rəvayətlər-X.H.)söyləyən insanlardır". (2,13,14)Özlərinə şeyx, söhbət şeyxi və ustad, ətraflarına toplananlara da sahib deyilirdi. Bir təsəvvüf məktəbi sayila bilən bu qruplar daha sonralar təriqət olaraq adlandırıldi.(3,29).

Ədəbi təsəvvüfə böyük təsir göstərmiş bəktaşılık təriqətinin ən görkəmli nümayəndələrindən biri də Qayğısız Abdal olmuşdur.Bəktaşilik ənənəsinə görə, Qayğısız Abdal Təkyə Bəyinə tabe olan Əlayi sancağı Bəyinin oğludur və adı Qaibidir. Onun haqqında olan əfsanələrdən biri də budur ki, bir gün ovda olarkən bir keyik (ceyran) vurur. Yaralı keyik qaça-qaça gəlib bir zaviyəyə girir. Onun ardınca qaçan Qaibi də gəlib dərgaha girir, amma öz ovunu tapa bilmir. Onun atdığı oxu Abdal Musa Qaibiyə qaytarır. Bu kəraməti görən Qaibi Abdal Musaya mürid olmaq istədiyini ona bildirir. Şeyx təriqətin sirlərini, onun qarşısına çıxacaq çətinlikləri Qaibiyə anladandan sonra onun atasından icazə almağa göndərir. Təriqət üsulu ilə saç və saqqalını təraş edir, başına tac və əyninə xirqə geyindirirlər. Bundan xəbər tutan atası çox mütəəssir olur, oğlunun bu təriqətə bağlanması atasının heysiyyatına toxunur. O, Abdal Musa təkkəsinə gələrək oğlunu oradan uzaqlaşdırmaq istəyir. Əvvəlcə oğlunu bu təkkədən uzaqlaşdırmaq üçün Təkyə bəylərindən olan İsa adlı birisindən oğlunu götürüb gətirməsini istəyir. Ancaq atından enərkən Şeyxin kəraməti ilə ayağı üzəngiyə işilir, bundan hürkən at üstündə olan adamı yerə

çırparaq parça-parça edir. Təkyə bəyi hiddətindən şeyxin üzərinə əsgər göndərir. Atəş açan əsgərləri görən Abdal Musa 500-ə qədər müridi ilə bərabər səma edə-edə Təkyə bəyinə qarşı vuruşmağa başlayır. Daşlar, ağaclar da sanki onunla bərabər rəqs edirdilər. Onlar beləcə atəş yanan yerə qədər gedirlər və yanan atəşin içərisinə girərək səma edərək atəşi söndürürlər. Sonra onlar geri dönərkən qarşılarına bir qara canavar çıxır. Abdal Musa bunun Təkyə bəyinin ruhu olduğunu deyir. Təkkəyə odun gətirən bir dərviş baltası ilə vuraraq canavarı öldürür. Bu hadisədən Təykə bəyi ölmüş, əsgərləri də dağılmışdır. Əlayi bəyi Musanın Haqq ərənlərindən olduğuna inanır və ona iman gətirir. O, sahibliyində olan 300 adamla gəlib Abdal Musanın əlini öpür və oğlunun qalmasına icazə verir. Bu minvalla Qaibi 40 il təkkədə xidmət edir. Şeyx ona Qayğusuz ləqəbini verir. Nəhayət, bir gün Qayğusuz Abdal Həcc ziyarətinə getmək qərarını mürşidinə bildirir və ondan icazə alaraq səfərə çıxır. Səfərə çıxmaq üçün şeyxi ona icazə vərəqi verir. Bu kağızı saxlayacaq münasib yer tapmadığı üçün onu ayranına doğrayır və içərək qəlbində saxlayır. Bundan sonra hikmətlər söyləməyə başlayır. Həcc ziyarətindən sonra Qayğusuz öz dərvişləri ilə birlikdə Misirə gedir. Deyilənlərə görə, Misir padşahının bir gözü kor imiş. Odur ki, Qayğusuz gözünün birinə bir pambıq taxır və dərvişləri də onun bu hərəkətlərini edir. Misir padşahının zəvvarları Qayğusuzdan sorğu-sual edir. Onun cavabları xoşlarına gəlir və padşah onların vəziyyəti ilə tanış olmasını istəyirlər. Misir padşahı bu dərvişləri ziyarətə çağırır. Padşah süfrəyə çox uzun qaşıqlar qoydurur. Öz abid və bəylərini də oraya dəvət edir. Onlar süfrədə gördükləri bu qaşıqlardan heç nə anlaya bilmir və təəccüblənirlər. Amma Qayğusuzun dərvişləri heç nəyə fikir verməyib süfrəyə əl uzadırlar. Padşah onların çox arif adam olduğunu anlayır. Onların gözlərinə taxalan pambıqların yalan olduğunu hökmdar bilirdi. O səbəbdən də dərvişlərə gözlərindən pambıqları çıxarmalaranı əmr edir. Dərvişlər «Ya Allah» deyərək gözlərindən pambıqları götürərkən Qayğusuz Allaha dua etməyə başlayır. Dərvişlər «amin» deyərək pambığı götürürlər. Misir hökmdarı da bu işləri onlarla bərabər görür. Padşahın da gözləri açılır. Şeyxin bu kəramətini görən hökmdar taxtdan enərək Qayğusuzun əllərini öpür və ona mürid olur.

Qayğusuz bu müddət bəktaşilər arasında yaşamış, onun möcüzə və kəramətləri, təriqət yolu haqqında hətta avropalı səyyahlar da öz əsərlərində qeyd etmişlər. Lütfi babanın verdiyi məlumata görə, Qayğusuz Abdal 791-ci ldə (1454) gəlmiş və 796-cı (1459) ildə isə Misirdən çıxıb Məkkəyə, Mədinəyə, Kərbəlaya, Nəcəfə getmiş, Abdal Musanı ziyarət etdikdən sonra (799) təkrar Misirə dönmüş, 806-cı ilə qədər Qasrül Əyn dərgahında oturmuşdur. 848-ci ildə orada vəfat etdiyi söylənilir.

Qayğusuzun mürşidi olan Abdal Musa haqqında istər Azərbaycan, istərsə də türk ədəbiyyatında çox az məlumatlar var. Ancaq bir çox türk qaynaqlarını araşdırdıqda müəyyənləşdirdik ki, Abdal Musa da Hacı Bəktaş vəlinin müridlərindən olub, Xatın ananın mühibbiydi. Bu o Xatın anadır ki, Hacı Bəktaşa bir türbə tikdirmişdir. Sonradan Abdal Musa da gəlib bir qədər bu türbədə oturmuş, hətta Orxan zamanındakı bəzi savaşlarda da iştirak etmişdi. Günlərin bir günündə üsküf alaraq başına qoyur və öz məmləkətinə gəlir. Aşıq Paşazadə tarixinə görə, bəktaşilərin əliftaclarının əsası bu idi (4, 200-205).

Təsəvvüfi-ədəbi düşüncə və təriqət problemi baxımından diqqəti cəlb edən ən mühüm məsələlərdən biri ələvilikdirvə ələviləllə xalq arasında yaranan inancların olmasıdır. Ələvilik – Həzrət Əli və Əhli Beyt tərəfdarlarına verilən addır. Həzrət Məhəmmədin ən yaxın sirdaşı olan Həzrət Əli islamın ən önəmli şəxsiyyətlərindən biri olmuş və peyğəmbər tərəfindən onun ölümündən sonra yerinə keçəcək insan olaraq müəyyənləşdirilmişdir. Həzrət Məhəmmədin ölümündən sonra onun vəsiyyəti yerinə yetirilməmiş, Əli xəlifəlikdən uzaqlaşdırılmışdır. Həzrət Əlinin tərəfdarları şiə deyə adlandırılmış, islamın ilk illərindən sürüb gələn Həzrət Əli və Əhli Beyt tərəfdarlığı İranlılar və türklər tərəfindən ictimai bir hadisəyə döndərilmişdir. Əliyə olan sevgi nəticəsində onun gerçək şəxsiyyətinin fərqli təfsirləri, müxtəlif Əli obrazları meydana gəlmişdir. Əliyə Tanrı olaraq baxanlar da olmuşdur. Əli sevgisi Anadoluda tamamilə başqa formalarda inkişaf etmişdir. Əli adına ortaya qoyulan ələvilik Anadoluda insan sevgisini yeni bir səviyyəyə qaldırmışdır. Ələvilik burada müxtəlif qollar şəklində inkişaf edən təriqətlərə də təsir etmişdir. Heydərilik, ismaililik, qələndərilik, bəkdaşilik, rafizilik, əxilik kimi qurum və təşkilatlar ələviliyin müxtəlif qollarınldan olmuşdur (5, 117).

Ələviləri başqa təriqətlərdən fərqləndirən bəzi məqamlar var ki, onlardan biri də qırxlar cəmi (40-lar məclisi) deyilən bir inamdır ki, Əliyə olan sevgidən yaranmışdır. Qırxlar cəminin imam Cəfər Bağırdan danışıldığı nəql edilir. Bir gecə Həzrət Məhəmməd meraca gedərkən qarşısına bir aslan çıxır. O, barmağındakı üzüyü çıxarıb Aslana atır və yoluna davam edir. Meracdan dönərkən Həzrət Məhəmməd qarşısında olan qübbənin qapısını döyür. «Kimdir?» - deyə içəridən səs gəlir. Həzrət Peyğəmbər deyir: «Mənəm, peyğəmbər, açın qapını, içəri girim!» İçəridən səs gəlir: «Bizim aramızda peyğəmbər lazım deyil». Ancaq qapı yenə açılmır. Peyğəmbər yenə qapını döyür: «Kimdir?» - deyə yenə soruşurlar. «Yoxsul bir yol oğluyam» dedikdən sonra qapını açırlar. Məclisdə qırxlar oturmuş olduğunu görür. O, Həzrət Əliyə yaxınlaşaraq: «Bunlar kimlərdir?» – deyə soruşur. «Biz qırxlarıq», - deyə cavab verirlər. «Biz hamımız birik», - deyirlər. Peyğəmbər yenə soruşur: «Sizin içərinizdə bir əskikdir». Qırxlar cavab verirlər ki, o birimiz də Salmandır, o, bayıra çıxıb.Həzrət Məhəmməd qırxların hamısının bir olduğunu görmək üçün Həzrət Əlinin qolunun birinə bıçaq vurdu. Qırxların qolundan qan axmağa başlayır. Bu anda bayırdan da içəriyə bir damla qan sıçrayır. Qırxlardan biri Həzrət Əlinin qolunu bağladıqda onların da qanları dayanır. Bayırdan gələn Salman əlindəki üzüm dənəsini Həzrət Məhəmmədin qabağına qoyur ki, onu bizə paylaşdır. Bu zaman Allah-Taala Həzrət Məhəmmədin çətin vəziyyətdə olduğunu görərək, Cənabi Cəbrayıl vasitəsi ilə ona bir tabaq gətirib üzüm dənəsini əzməsini, bir az su qatıb, qırxların qabağına qoymasını bildirdi. qırxlar da ondan içib sərxoş olaraq səmaya başlayırlar. Həzrət Məhəmməd də onlarla səmaya başlayır. Bu zaman peyğəmbərin başından papağı düşüb 40 parça olur. O parçaları qırxlar ətək tutub fırlanırlar. Bu zaman peyğəmbər onların pirlərini soruşur. Onlar pirlərinin «Şahi Mərdan Əli» olduğunun bildirirlər. Həzrət Peyğəmbər Həzrət Əlinin də bu məclisdə olduğunu bilirdi. Bu anda Həzrət Əli peyğəmbərə doğru yüyürür. Həzrət Peyğəmbər merac zamanı aslana verdiyi üzüyün Əlinin barmağında olduğunu görür. Bu məclisdə pey-

ğəmbər də Əlinin yol qardaşı olur. Bu baxımdan bizə o da aydın olur ki, ələ-vilərin məhəbbətlə vəsf etdiyi əsas obrazlardan biri Həzrət Əlidir.

Əlbəttə, təsəvvüf ədəbiyyatı və onun nümayəndələri ilə bağlı yaranan rəvayətlər xalq təfəkküründə qorununb saxlanmaqdadır.Bu ədəbiyyat öz kəmiyyət strukturuna görə bir okeana bənzəyir. Onların hamısından burada, az da olsa da, bəhs etdik . Bu məqalədə əsas məqsədimiz xalq təfəkküründə sufilərlə bağlı inanclardan söz açmaq və onların xalq arasında hansı səviyyə-də qorunub saxlanmasını, onlara olan inamın yaşamasını ortaya qoymaqdır.

Azərbaycanda təsəvvüfün zəngin inkişaf tarixi var. Bundan dolayı elm-də məzmunu Azərbaycanda doğulmuş, yetişmiş, fəaliyyət göstərmiş sufilər, onların qurduqları təriqətlər, azərbaycanlı olduğu halda başqa yerdə fəaliyyət göstərən sufilər, yaxud başqa yerdən olub Azərbaycanda fəaliyyət göstərmiş sufiləri əhatə edən «Azərbaycan təsəvvüfü» termini yaranmışdır (3, 39).

M.Rıhtım IX-XI əsrlər Azərbaycan sufilərindən bəhs edərkən Əbu Bəkr Şa-minin, Hüseyn ibn Əbu Bəkr Yəzdinyarın, İbrahim ibn Əhməd ibn Muvəllәd əs-Su-fi ər Rükkinin, Ərdəbilli Əbu Züra Əbdülvəhhab ibn Məhəmməd Eyyubun, Bərdəli Əbu Abbasın, Əbu Bəkr ibn Tahir Əbhərinin, Kəhməs ibn Əli Həmədaninin, Həsən ibn Əli Yəzdinyarın, Əbu Nasir Şirvaninin, Əbu Abdullah Məhəmməd ibn Abdullah Bakuvinin (İbni Bakuyə), onun qardaşı Pir Hüseyn Şirvaninin, Əbu Səid Abdal Bakuvinin, qadın sufilərdən Bərdəli Fatimənin və başqalarının adlarını çəkir (3, 40-43). Bu sufilərlə bağlı yaranan rəvayətlər, onlara olan inam hələ də xalq təfəkküründə yaşamasındadır.

M.Rıhtım və F.Xəlilli yazırlar ki, Azərbaycan türk ədəbiyyatının ən mühüm mənbələrindən olan «Kitabi-Dədə Qorqud»da bir çox təsəvvüfi məna ilə yanaşı, «qara donlu dərvişlərdən» bəhs edilərək siyah-qara yun xirqə geyən sufilərdən xə-bər verilməsi Türk və Azərbaycan təsəvvüfünün tarixi köklərinə işıq salır. Sufilərin məmnuniyyətlə qarşıladığı İslami şərtlər və mütəvazi həyat tərzi bölgə əhalisinin psixologiyasına və dünya görüşlərinə də uyğun gəldiyi üçün təsəvvüf bu bölgədə geniş yayılmışdır. Azərbaycanın hər yerində rast gəlinən, tarixi çox qədimlərə gedib çıxan və xalq tərəfindən «Pir», «Övliya», «Şıx» deyə adlanan minlərlə qəbir və mə-qamların varlığı, bir çox yaşayış məskənlərinin adında bu anlayışların mövcudluğu zəngin təsəvvüfi keçmişdən xəbər verən zəruri faktlardır (6, 12).

Müəlliflərin «Kitabi-Dədə Qorqud»dakı qara donlu dərvişləri təsəvvüflə əla-qələndirməsi düzgün müşahidədir. Abidədə təsəvvüfün təməl anlayışları, obrazlar sistemi ilə bağlı ciddi məqamlar vardır. Məsələn, dastanda göstərilir ki, «Qanturalı cəmal və kəmal iyəsi yigit idi. Oğuzda dörd yigit üzü niqabla gəzərdi. Biri Qantura-lı, Biri Qaraçəkür və oğlı Qırqqınuq və Boz ayğırlu Beyrək» (7, 87). Tədqiqatçılara görə, Qanturalının camal və kamal sahibi olması «qazi ərən» statusunun cizgilərin-dəndir. «Camal və kamal» sahibi olmaq üzüniqablıların, yəni dörd oğuz igidinin, o cümlədən Beyrəyin keyfiyyətidir. Onların camal sahibi olmaları müqəddəs sayılan sifətlərini, kamal sahibi olmaları isə islami biliklərini göstərir (8, 89). Onu da əlavə edək ki, camal və kamal sahibi olmaq təsəvvüfi statusdur və bu mənada «Kitabi-Də-də Qorqud», əslində, Azərbaycan təsəvvüfi-islami düşüncə tarxinə şahidlik edən son dərəcə möhtəşəm bir faktı qoruyub saxlamışdır.

Ümumiyyətlə, Azərbaycanda həqiqi mənada təsəvvüf təmsilçiləri X əsrdən etibarən görünməyə başlayır. Təsəvvüfün sistemləşdiyi XII əsrdən etibarən Sührə-

verdilyin təsiri ilə Əbhəriyyə, Zahidilik, Xəlvətiyyə və Səfəviyyə təriqətlərinin ortaya çıxdığı məlumdur. Azərbaycan müxtəlif təriqətlərin yaranmasına meydan olduğu üçün ,burada mühüm fəlsəfi və mistik görüşlərin yaranmasına da meydan olmuşdur. Bəhs edilən məsələlər bu bölgənin təsəvvüf fəlsəfəsi və ədəbiyyatı baxımından önəmli bir mədəniyyət mərkəzi olduğunu göstərən faktlardır (6, 12).

Təsəvvüf özünün bütün tarixi boyunca, demək olar ki, həmişə ədəbiyyatla birgə olmuşdur. Bu ümumi qanunauyğunluq Azərbaycan təsəvüf-təriqət tarixi üçün də xarakterik olmuş, bölgədə çox zəngin, ümumşərq ədəbiyyatının parlaq səhifələri sayıcalaq dərəcədə möhtəşəm təsəvvüfi-ədəbi düşüncə prosesləri baş vermişdir. M.Rıhtım və F.Xəlillinin bu xüsusda dedikləri kimi, Yusif Həmədani, Nizami Gəncəvi, Xaqini Şirvani, Mahmud Şəbüstəri, İmadəddin Nəsimi, Şah Qasım Ənvar, Seyid Yəhya Bakuvi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mir Həmzə Nigari kimi yüzlərlə mütəfəkkir və sufi şairlər burada yaşamışdır (6, 12).

Qeyd etmək lazımdır ki, rus-sovet şərqşünaslığında qədim və orta əsrlər Azərbaycan ictimai-elmi fikir tarixi nümayəndələrinin farslaşdırılması kimi zərərli bir ənənə vardır. Belə ki, XII əsr Azərbaycan fəlsəfi fikrinin görkəmli nümayəndəsi (Azərbaycan müsəlman filsofu) Şihabəddin Yəhya Sührəverdinin 1145-ci ildə Cənubi Azərbaycanın Zəncan şəhəri yaxınlığındakı Sührəverd kəndində doğulması, azərbaycanlı olması elmə məlum fakt olmasına baxmayaraq (9, 3; 326, 100; 191, 436), rus-sovet şərqşünası A.Knış onu fars filosof-mistiki adlandırmış və doğum yerini İranın şimal-qərb bölgəsi kimi göstərmişdir (10, 215). İranın şimal-qərbi Azərbaycandır və göstərilən əsrdə bu yerdə indi olduğu kimi Azərbaycan türkləri məskun idilər.

O.Akimuşkin banisi Şihabəddin Sührəverdi olan sührəverdiyyə təriqəti haqqında yazır ki, XII əsrin sonları – XIII əsrin əvvəllərində İraqda ərəb mistikasının Mesopotamiya məktəbi çərçivəsində qurulmasına baxmayaraq, onun yaradıcılırının böyük hissəsi ərəb deyildi (11, 215).

M.Rıhtımın yazdığı kimi, Sührəverdiyə təriqəti ilk dövrlərdən etibarən İslam dünyasında ən geniş yayılan təriqətlərdəndir. Əvvəlcə Bağdad və Şam ətrafında yayılmış, daha sonra İran, Anadolu və Türküstan tərəflərində vüsət tapmışdır. Sührəverdiyyənin ən geniş şəkildə yayıldığı yer, şübhəsiz ki, Hindistandır /(3, 44).

Çoxcəhətli yaradıcılıq yolu keçmiş Şihabəddin Sührəvərdinin əsərləri, əsasən, peripatetizm, sufizm və işraqiliyə həsr olunmuşdur (12, 63-73). İ.Həmidov yazır ki, Sührəvərdi şeirində işıq qeyri-maddi başlanğıc kimi hər şeydən uca və yaranandan varlığın əsası kimi təsvir edilir. Bu işıq nurlar nuru, əbədi və müqəddəs, ən ali bir nurdur. Belə bir nura qovuşmaq onun poeziyasının əsas səciyyəsini təşkil edir. İbn Sinadan fərqli olaraq, Sührəvərdinin poeziyasında nur, işıq simvolu ötəri hal deyil, bir sistem təşkil edir (13, 45). Görkəmli filosof və mütəsəvvif olan Şihabəddin Sührəverdi işraqilik fəlsəfi təliminin yaradıcısıdır. Onun «Şeyx əl işraq» fəxri titulu bununla bağlıdır. A.Knışa görə, Sührəverdinin işraqlik təlimində zərdüştilyin təsirləri var. O, işraqilik təlimində həlledici rol oynayan işıqla emanasiyanın məxtəlif səviyyələrini işarələndirmək üçün Avestadan götürülmüş obrazlardan istifadə etmişdir (14, 215)

Azərbaycan xalqının tarıxı qədər onun inam və tiqadlarının tarıxı də çox qədimdir. Bu etiqadların arxasında minillik keçib gəlmiş xalqın qan yaddaşı dayanır. Bu yaddaşda kök atıb qalan inam və etiqadları xalq qoruyub saxlamaqla yana-

şı, onlara aid çoxlu rəvayətlər yaratmışlar.Zaman keçdikcə bu rəvayət və əfsanələri insanlar nəsildən-nəslə otürərək bir mənəvi abidə kimi qoruyub saxlamışlar.

Ədəbiyyat

1. Bayat F. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı.Elm və təhsil. 2011. s.440
2. Köprülü M.F. Türk ədəbiyyatında ilk mütəsəvvüflər. Ankara 1976
3. Seyid Yəhya Əş-Şirvani əl-Bakuvi. Səfa əl Əsrar (Sufiliyin sirləri) Nəşrə hazırlayan M.Rıxtım.Bakı: Elm, 2010 407 s.
4. Aşik Paşazade. Aşik Paşazade Tarihi.Nəşri.Ali Beyg.İstanbul. 1332.
5. Öz.G. İslamiyyet Türkler ve Alevilik. Bin Dortyüz Yillik Mühalifet AnkaraşYol Bilim Yaynları, 1999, 311 s
6. Rıxtım M. Xəlilli F. İsmayıl Siracəddin Şirvani.CBS Polugraphic Production.2011, 165 s.
7. Kitabi-Dədə Qorqud. Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S. Əlizadənindir. Bakı: Yazışı , 1988, 265s.
8. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004,199 s.
9. Məmmədov Z.C. Azərbaycan fəlsəfə tarixi. Bakı: İrşad, 1994
10. . Кныш А. «ас-Сухраварди» (очерк) / Ислам. Энциклопедический словарь. Москава: Наука, 1991, с. 215
11. Акимушкин О.Ф. «ас-Сухравардийа» (очерк) / Ислам. Энциклопедический словарь. Москава: Наука, 1991, с. 215-216
12. . Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı: Elm. 1978.
13. Həmidov İ. Azərbaycan-ərəb ədəbi əlaqələrindən səhifələr. Bakı: Elm, 2002, 209 s.
14. Кныш А. «ас-Сухраварди» (очерк) / Ислам. Энциклопедический словарь. Москава: Наука, 1991, с. 215

Х.Гумметова

Место суфийских верований в народном мышлении

Резюме

Народные верования и коранические предания сыграли большую роль в зарождении и формировании тасаввуфской поэзии. Тасаввуфское философское течение зародилось как определенное мировоззрение и в различные периоды времени оно отражало в себе различные взгляды. Верования, возникшие в связи с тарикатами и основателями тарикатов, оставили глубокий след в народном мышлении. Ф.Баят, говоря о тюркских тарикатах, перечисляет среди них такие, как ясавийя, кубравийя, рифаийя, гадирийя, халватийя, сафавийя, бахрамийя, джалватийя, нагшибандийя, иканийя, мевлевийя (26, 131-205). Первые мутасаввуфы передавали свой мыслительный опыт сплотившимся вокруг них людям, они не создавали тарикаты в сегодняшнем смысле слова. Эти шейхи были людьми, которые, как шаманы, исполняли поэтические религиозные песни – илахи, как буддистские монахи, передавали религиозные предания – мангабе.

K.Hummatova

The place of Sufi believes in the people's memory

Summary

Guran stories and peoples believes played a big role in creation and formation of Tasaffuv poetry. Tasaffuv appreared as a phylosophic current, worldview and reflected different thoughts and vision in various times.Believes about the creator of sects and sects left deep impression in the memory of the people..While F. Bayat speaking on the turkish sects emphasized yasəvayye, kubraviyye, rifaiyye, qadiriyye, khalvatiyye, saaəviyye, herufiyye, nurqteviyye, bektaşiyye, simaviyye, bayramiyye, calvətiyye, naqshibendiyye, ikaniyye, murvleviyye.(26,131-205). Besides learning the though experience teh mutasaffuvs didnt create a sect as to-day's meaning. "This religious princes sang poetic religious songs as sha-mans and buddist (religious stories-Kh. H).

Rəyçi: Füzuli Gözəlov (Bayat)
filologiya elmləri dokroru, professor

YAŞAR QASIMBƏYLİ
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
yashargasimov@mail.ru

LİRİKADA CAVİD OBRAZI
(Altmışıncıların yaradıcılığı əsasında)

Açar sözlər: Altmışıncı illərin erkən lirikası, Cavid, Bədii ideal, Xəlil Rza Ulutürk, Fikrət Qoca
Ключевые слова: Ранняя лирика шестидесятников, Джавид, художественный идеал, Халил Рза Улутюрк, Фикрет Годжа.
Key-words: First lyrics of sixties, Javid, Khalil Rza Uluturk, Fikret Goja.

Altmışıncıların erkən lirikasında bədii ideal timsalı olan sənətkar obrazlarından söz açarkən dahi Hüseyn Cavidi anmamaq mümkün deyil. Öncə söyləməliyik ki, ömür yolu amansız faciə nəticəsində kəsilmiş şairin xatirəsi gənclik üçün hədsiz dərəcədə əziz və müqəddəs idi. Bu pleyadanın alovlu nümayəndələri Hüseyn Cavidi misilsiz bir ustad, mənəvi ata və milli ideal kimi öz qəlblərində əzizləyirdilər. Onlar bir çox şeirlərində açıq-aşkar olmasa da, xəyalən, müəyyən sətiraltı mənalarla və işarələrlə ötən yüzilin ən tragik dahilərindən birinə müraciət edirdilər. Amma Hüseyn Cavid və Əhməd Cavad adının uzun müddət qəti qadağalar mühasirəsində saxlanması onlara birbaşa ithaflar yazmağa, şeirlər həsr etməyə imkan vermirdi. Düzdür sonralar, xüsusən 80-ci illərdəki məlum hadisələrdən sonra Hüseyn Cavid obrazına açıq müraciət etmək imkanları genişləndi. 60-cı illərdə isə belə bir ictimai-siyasi şərait heç kimin yuxusuna belə girməzdi. Elə bu səbəbdən də zamanların fövqündə duran dahi haqqındakı 60-cı illərin lap əvvəllərində yazılmış və taleyin bir möcüzəsi kimi işıq üzü görmüş nadir əsərləri layiqincə və mərdcəsinə qiymətləndirməliyik. Belə nadir əsərlərdən biri yeniyetməlik çağlarından "Cəsarət - ürəyin istedadıdır" deyən və son nəfəsinə qədər öz sözünə sadiq olan Xəlil Rza Ulutürkə məxsusdur. "Hüseyn Cavidə" (1962) adlanan şeirində gənc şair həqiqətpərəslik və ədalətpərəstlik duyğularını cilovlaya bilməyərək, sanki bütün dünyaya, yerə-göyə, təbiətə və iqlimlərə üsyan edirdi: Qəlbin od, şeirin od! Ömrün-günün od! Özün buz məzarda!

Bu necə işdir? Bəs necə olub ki, o buz dağları Sənin atəşindən ərimə-mişdir?!" (1, 60)

XX yüzil Azərbaycan ədəbiyyatında Cavid obrazına dəfələrlə müraciət edilmişdir. Xüsusən, Müstəqilliyin qazanılmasından sonra, 90-cı illərdə bu mövzuya sıx-sıx müraciət olunduğunu söyləmək olar. Amma altmışıncılar və Cavid xüsusi bir mövzudur. Milli istiqlalı çoxlarının ağlı kəsmədiyi və arzulamağa belə cəsarət etmədiyi zamanlarda bu poetik gənclik Cavid sevgisini ürəklərində yaşatmağa və lirikanın aydın səsi ilə söyləməyə cəsarət etmişdilər. Çağdaş nəsillərin azadlıq arzuları və cəsarətləri o illərin yenilməz gəncliyinin bənzərsiz mərdliyindən və rəşadətindən doğulmuşdur desək, yanılmarıq.

Ümumən, altmışıncıların ilk lirikasında, xüsusən, Xəlil Rza Ulutürkün bu dövr yaradıcılığında bədii ideal və sənətkar münasibətlərinə dair poetik-fəlsəfi düşüncələrlə sıx-sıx rastalışırıq. Bu əsərlərdə idealın aydınlığından, bədii istedadla

birlikdə əqidə və məsləkin də sənətdə həlledici rol oynamasından bəhs edilir. İstedadsız yazılmış əsər nə qədər milli əqidə və dəyərlərdən söz açsa da, təsir edə bilmək keyfiyyətinə malik olmadığı kimi, xalqa yabançı və məsləksiz istedadlar da ədəbiyyatda uzunömürlü, yaşarı əsərlər yarada bilmirlər. Xalqın dərdinə-oduna yanmayan, onu ürəyinin dərinliklərində gəzdirməyən sənət adamı öz elinin, yurdunun sevgisinə nail ola bilməz. Gənc ədəbi qüvvələr bu sərt həqiqətləri erkən anlamışdılar. X. Rza "Meyar" (1962) şeirində bütün bunları gözəl bir cəsarətlə ifadə etmişdi: "Tutaq ki, var istedadın, İlhamın da, Biliyin də. Rədd ol! İtil gözlərimdən,Əgər yoxsa, Vətən eşqi Sümüyündə - iliyində". (1, 50)

Bu ruhdakı şeirlərində 60-cı illərin gəncliyi, tədricən özlərinin əsl sənət və sənətkar haqqındakı görüşlərini ərsəyə gətirirdilər. Nakam getmiş və həyatda olan ustadlarının qismətlərindən, həyat və sənət təcrübəsindən çıxış edərək onlar son dərəcə zəruri olan mühüm həqiqətləri özləri üçün kəşf edir, hamıya məlum və elan etdikləri bu qanunauyğunluqlara həmahəng tərzdə yaşamağa can atırdılar. Cavan və hərarətli Xəlil Rzanın düz yarım əsr əvvəl yazdığı manifest səciyyəli, poetik amalı təqdir və təkid edən əsərlərindən daha bir nümunə - "Şəlalə kimi" (1962) dördlüyündə oxuyuruq: Şəlalə - dağların mərd övladıdır. Qır bütün sədləri! Şəlalə tək qır! İldırım – buludun, tufan – dənizin, Cəsarət – ürəyin istedadıdır!" (1, 55)

Altmışıncıların sənət və sənətkar haqqındakı görüşləri, təbii ki, həyatdan və insana münasibətdən doğurdu. Düzdür, onların hələ təsəvvür və qənaətlərində müəyyən dərəcədə maksimalizm də mövcud idi. Buna baxmayaraq, mənəviyyatı hər şeydən uca tutmaqda, məslək və əqidə yolundan dönməməkdə, milli namus və qürura sədaqətdə bu gənclik heç nəyə güzəştə getməzdi. Məhz bu nöqteyi-nəzərdən Əli Kərim, Məmməd Araz, Fikrət Qoca və Xəlil Rza Ulutürkün lirik qəhrəmanınını, heç bir mübaliğəsiz, ideal mücəssəməsi adlandırmaq olardı. Xəlil Rza məşhur "Əyilmə!!!" (1962) şeirində sanki bütün amaldaş qələm dostları adından ədəbi mühitə müraciət edirdi: "Qalsan belə susuz, ac, Yavan çörəyə möhtac, Boğazına ilan tək, Sarılsa da ehtiyac, Ehtiyac ürəyini Köksündən qoparsa da, Odu, suyu, havanı, Evindən aparsa da, Ağız açma namərdə! Ürəyində dərd, yaşa. Sən İnsansan! Əyilmə! Yoxsul yaşa. Mərd Yaşa!!" (1, 59).

Fikrət Qocanın "Uzaq şərqin üfüqlərində Cavidi xatırladım" şeiri ulu ustadın xatirəsi təkcə 60-cı illərdə yox, sonrakı dövrlərdə də pleyadanın mənəvi-bədii fəaliyyətində mühüm yer tutduğunu göstərməkdədir. Altmışıncılar yaradıcılığa təzə başladığı və formalaşmaqda olduqları zamanlarla yanaşı, artıq boya-başa çatdıqları və öz estetik mövqelərini təyin etdikləri dövrlərdə də öz amallarının mənşəyinə bağlılıqlarını vurğulamqdan usanmırdılar. Fikrət Qocanın şeiri Hüseyn Cavid iztirablarının hərarətinin soyumadığını, əksinə bu həsrətin illər keçdikcə alovlandığını nümayiş etdirir: "Təyyarədəyəm, göyləri fəth etmədə sürət, Çərxi-fələyin sürətini ötmədə sürət. Yay idimi, yer ox kimi atdı bizi ərşə, Qaçqın günəşə çatmağa yerdən üzü ərşə. Cavid, göy üfüqlərdə çiməndə səni andım. Yandım, yenə andım." (2, 148)

Zaman, təbii ki, insanın təsəvvür və qənaətlərinə öz təsirini göstərir. Ancaq zamanın ürəyə təsir dərəcəsi, könül yaddaşına düzəlişlər etmək imkanları çox məhduddur. Fikrət Qocanın şeirində də biz buna bir daha əmin oluruq. Şairin yanıqlı və cavabsız sualları dünən olduğu kimi bu gün də ürəklərin ən məhrəm və köhnəlməyən ağrılarıdır: "Karvanını çəkmiş yenə səyyarə buludlar, Ahındımı, arzundumu

onlar, Nəğməndimi qu nəğməsi, son nəğmən, əzizim, Neyləyim mən əzizim?" (2, 148)

Fikrət Qoca ustad şairin faciəsindən, müsibətlərindən birbaşa söz açmır. Həmin ağrı və itkinin iztirablarına və izlərinə daha çox diqqəti yönəldir. Mənəvi müsibət və əzabların əks-sədasını əks etdirir. Səhər çağı qızaran dan, dalğalanan ümmanlar, bu həsrətə dözməyən çılğın Xəzər də məhz bu ayrılığı andırır. Hüseyn Cavid ayrılığı və ağrısı torpağın altına belə sığmır, vulkan kimi, od-alov kimi göylərə ucalır: "Həsrətli baxışlarını allam bu səmadan Bəlkə o baxışdan qalan izdir qızaran dan. Sakit okean bir tərəfindirsə, a şair, Bir yanda da qəlbin kimi çılğın Xəzərindir. Tayqa məzarındır. Ruhundumu, könlündümü vulkan?! Nəğməndimi qu nəğməsi, son nəğmən, əzizim, Neyləyim mən, əzizim?!" (2, 148)

Ötən yüzildə ulu Cavidimizə həsr olunmuş böyük şeirlərdən bəhs edərkən bir gözəl poetik nümunəni də yaddan çıxartmaq olmaz. Bu şeir də alovlu sənətkarımız Fikrət Qocanın qələminə məxsusdur. Həmin şeirin fövqəladəliyini təkcə böyük Cavidin amansız və dözülməz faciələri deyil, həm də bu müsibətlərin gözlənilməz və fövqəladə sonu, xalq qəlbindəki əks-sədası, şəhid sənətkarın dünyada misli görünməmiş və möcüzəli bir tərzdə Vətənə qayıdışı şərtləndirmişdi. Ulu Öndərin misilsiz cəsarəti və fədakarlığı nəticəsində Azərbaycan xalqının dahi və nakam oğlu Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən doğma vətəninə gətirilməsi və Naxçıvanda ana yurd torpağına qovuşması əsrlərin, tarixlərin, bəlkə də minilliklərin bir möcüzəsi idi. Məhz şeir mövzusunun özü, təkrarsızlığı və müqayisə edilməzliyi bu əsərin taleyini sanki əvvəlcədən müəyyən etmişdi. Bu şeirdə üç böyük obraz – Hüseyn Cavid, Ulu Öndər və Azərbaycan bütün əzəməti, cəsarəti və tragizmi ilə üzvi surətdə birləşmişdir. "Cavid gəlib, aç qoynunu" şeirinin bədii səviyyəsi və dərəcəsi isə öz mövzusuna, ehtiva etdiyi məqsəd və mətləblərə tamamilə həmahəngdir: "Tale, nə gözəl gündü bu, sən insafa gəldin. Qırx ildi gəlirdin, gəl, a Cavid, səfa gəldin." (2, 109)

Şair təhlükəli və səksəkəli illərin bir-birini qova-qova gözdən itməsini, zaman küləklərinin dünyanı təzələməsini, üzü dönmüş insanların dəyişməsini və yenidən özünə dönməsini məharətlə təsvir edir: " İllər külək oldu, yollar çiçək oldu, insan mələk oldu, gördün – vəfa gəldin." (2, 109)

Bu qəribə və fövqəladə vüsal müəllifi o qədər duyğulandırır ki, o hiss-həyacanını və ilhamını cilovlaya bilmir. Zira, bu gözlənilməz Vüsalın yalnız ruhi-hissi təcrübəsi deyil, təbii ki, bədii təcrübəsi də yoxdur. Məhz buna görə də biz bu şeirdə xüsusən, aşağıdakı misralarda yalnız görünməmiş və yaşanmamış yaşantıları deyil, həm də görünməmiş görüntüləri – yazılmamış yazını oxuyuruq: "Torpaq, gözün aydın,onu al bağrına, torpaq!" Ana torpağa belə gözaydınlığı vermək, bu qədər böyük müjdə verə bilmək zatən, heç bir Vətən oğluna və qələm sahibinə qismət olmayıb. Bu misralarda kədər və sevinc, ayrılıq iztirabları və vüsal hıcqırıqları təkcə bir sətirdə deyil, bir sözdə belə birləşə bilir, əks edir: "İtkin düşən oğlun gəlir, Yoldan gəlir, yorğun gəlir, Ey ulu torpaq, ana torpaq…" Bizə elə gəlir ki, şeirdəki növbəti misra – bax bu sətir özünün poetik semantikasına görə daha heyrətamizdir; milli kədər və sevinc, milli məğlubiyyət və qalibiyyət bu bircə misrada son dərəcə təbii bir tərzdə birləşib, bir-birinə qovuşub. Təkcə bu şeirin yox, Fikrət Qoca lirikasının deyil, ümumən, XX əsr Azərbaycan şeirinin şah misrasına çevrilib:

Cavid gəlib, aç qoynunu, bas bağrına torpaq…

Ana Vətənə ünvanlanmış bu amiranə xitab – bu şairanə əmr də özünü doğrul-dur: "Onu kövrəlt, onu qızdır, O qədər həsrət olub ki, Ona yurdun qışı yazdır." Bəli, bu misralar düz qırx il uzaq torpaqlarda həsrət çəkmiş, sümükləri Sibir soyuğunda donmuş şairə Vətən mehrini ifadə edir, ana laylası qədər əziz və şirin səslənir: "Həsrət – onu mərd yıxdı ki, O, insafa gəldi…Ey ayrılıq oğlu, bu Araz sahilinə sən səfa gəldin!" (2, 110)

Bu fövqəladə şeiri dəfələrlə oxuyarkən çox qəribə və qarşısıalınmaz duyğuları yaşayırsan. Bu tragik vüsal şeirini nəzərdən keçirərkən Cavid faciəsindən başqa, qeyri-ixtiyari olaraq, ümumazərbaycan faciəsini də anmalı olursan. Sanki bir gün qərbli, cənublu və şimallı Azərbaycanların birləşərək, bütöv Azərbaycanın yaranması xəbərini eşidən, görən şair, bəli, yalnız həmin şair Fikrət Qocadan çox sevinə bilər. Ümid və arzu edirik ki, Hüseyn Cavidin qayıdışına sevinən XX yüzil şairinin ənənəsini davam etdirərək XXI yüzil Azərbaycan poeziyası bütöv Azərbaycan sevincini yaşaya biləcəkdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Rza Xəlil. Qollarını geniş aç. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1965.
2. Fikrət Qoca. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2004.

Яшар Гасымбейли

Образ Джавида в лирике

Резюме

В статье «Образ Джавида в лирике» впервые и широко поведуется об отношении к личности великого азербайджанского поэта и драматурга Гусейна Джавида в поэтическом процессе 60-80-х годов. Поэты шестидесятники впервые показали, что дух гениального Джавида жил и живёт в нравственной памяти нации. Разбираемые в статье стихи ещё раз демонстрируют живучесть связи между Джавидом и последующами поколениями, а также, и то что этот вопрос никогда не потеряет актуальности.

Yashar Gasimbayli

The image of Javid in lyrics

Summary

The article "The image of Javid in lyrics" for the first time deals with attitute to the personality of the graet Azerbaijani poet and playwrite Huseyn Javid in the 60th and 80th years of the poetical process. For the first time the sixties show that the spirit of the genious Javid is alive in the national-moral memory. The poems which analysed in the article show the connection between Huseyn Javid and generations and show that this problem will never loose its actuality.

Rəyçi: N.Şəmsizadə,
filologiya elmləri doktoru, professor

KÖNÜL MƏMMƏDOVA
AMİ
memmedli.konul@yandex.ru

BƏXTİYAR VAHABZADƏNİN "ATILMIŞLAR" POEMASINDA ANA OBRAZI

Açar sözləri: ana obrazı, əxlaqi dəyərlər, övlada münasibət
Ключевые слова: образ матери, нравственные ценности, отношения к детям
Key words: character of mother, morality values, attitude to child

XX yüzillin Azərbaycan ədəbiyyatının ən önəmli təmsilcilərindən olan Bəxtiyar Vahabzadə dövrün və zamanın ictimai problemləri ilə yaşayan həssas bir şair olduğundan milli-mədəni həyatımızda baş verən məsələlərə həssaslıqla yanaşmış, əsərlərlərində müstəqillik, vətənpərvərlik, azadlıq, istiqlaliyyət, dil, insanlıq və başqa milli dəyərlərin carşısı kimi çıxış etmişdir.

Milli, mənəvi, əxlaqi dəyərlərimiz və onların təbliği onun yaradıcılığın ruhudur. Bəxtiyar Vahabzadə əsərlərində qələmə aldığı mövzuların önündə "ana" və "ana dili" gəlir. Onun üçün" ana", "vətən", "dil" sözləri bir-birindən ayrılmazdır, müqəddəsdir.

"Atılmışlar" poeması ana mövzusunda yazılmış əsərləri sırasında yer alır. 1976-1978-ci illərdə yazılmış bu poemanın başlanğıcında əsərin anasının xatirəsinə həsr olunduğunu qeyd edir. Əsərdə ana-övlad, qadın-cəmiyyət münasibətləri də əks olunmuşdur.

Poemada iki ana obrazı verilmişdir. Bu ana obrazları bir-birindən fərqli cəhətlərə, xarakterlərə malikdirlər. Bu iki ana obrazı təsvir olunduqları şəraitə görə, xarakter cəhətdən bir-birindən fərqlənirlər. Övlad dünyaya gətirməklə ana olmağı eyni hesab etmək olmaz. Deməli, bu "pianinoya sahib olmaqla pianoçu olmaq eynidir" fikrinə gətirir.

Əsərin əvvəlindəki "Körpə" fəslində təsvir edilən ana obrazı digər fəsildəki ana obrazı ilə müqayisəli şəkildə təsviri diqqəti cəlb edir. Bu müqayisə birbaşa deyil, bilavasitə təsvir üsulu ilə verilmişdir. Birinci fəsildə təsvir edilən ana öz təzə anadan olmuş körpəsini atır onu dünyaya gətirdiyinə görə peşmanlıq çəkir.

Övladını nigahsız dünyaya gətirən bu ana ailəsinin, cəmiyyətin ona qarşı pis münasibət bəsləyəcəyindən təşvişə düşür. Ana adına ləkə düşəcəyindən, başqalarının onu tənqid etməsindən, cəmiyyətdə qınaq obyektinə çevriləcəyindən qorxduğu üçün körpəsini atmaq qərarına gəlir. Aşağıdakı misralarda gənc ananın daxili iztirabları ustalıqla qələmə alınmışdır. Körpəsini atandan sonra onun analıq hisləri birdən alışır. Geri qayıdan ana körpəsini yenidən qucağına almaq istəyir.

O, qalxmaq istədi yenə döyükdü.
O, bir də düşündü son niyyətini.
Bildi ki, şüşəylə birgə o, bükdü
Sonuncu analıq məhəbbətini.

Övladından ötrü geri qayıdanda ana yol boyu düşümür ki, onun vəziyyətinə düşmüş insanlar az deyil. Ömrüm boyu bir səhvə görə külmü olacağam?! Həyatı yenidən başlamaq insan kim yaşamaq mənim də haqqımdır!-deyə fikirləşir.

Körpəsini atıb qaçan ana nə qədər unutmağa çalışsa da, yenə də balasının səsi onun qulaqlarından getmir. Bəlkə də bu balasının yox, vicdanının səsi idi...

Övladından imtina edən ana özgələrinin, cəmiyyətin töhmətindən qaçırdı. Onların yanında təmiz görünmək üçün, günahsız görünmək üçün balasından imtina edir. Düşünür ki, övladını atmaqla sanki dərd-qəmindən, adının üstündən ”ləkə”dən qurtulacaq. Özünə bəraət qazandırır, özünü aldadır ki, onun qollarını bağlayan bu körpədən qurtulsa, azadlığa , təmizliyə, sərbəstliyə çıxacaq.

İndi o yüyürür dala baxmadan
Bayaq yüyürmürdü, o sürünürdü
Bayaq analığı tapdayıb danan
İndi ana olub geri dönürdü.

Bayaq körpəsindən bezən ananın “qol” ları körpəyə uzanır. Lakin artıq gecdir. Körpəsini atdığı yerdə görməyən ana özünə haqq qazandırmağa, təskinlik verməyə çalışır. Mən ki geri döndüm. Bəlkə belə olmağı daha yaxşıdır. Günlər, aylar keçsə də, ananın vicdanı susmur.

Poemanın ikinci fəslində digər bir ana obrazı təsvir edilib. Saçı ağaran, övladlarını tək-tənha, çətinliklə, sevgiylə böyüdən ana obrazı təsvir edilmişdir. Bu cəhətləri ilə bu ana əvvəlki fəsildəki ana obrazından fərqlənir. O, heç bir çətinliyə baxmayaraq, təkbaşına övladlarını böyüdür, onların xoşbəxtliyi üçün hər cür çətinliklərə sinə gəlir. Hətta bircə balasının ailəsi dağılmasın deyə qocalar evinə köçən ana ürəyində incisə də, bunu heç kəsə açıb bildirmir. Əksinə öz razılığı ilə evi tərk edir.

Bu ana bəlalara, dərdlərə dözür, övladlarını böyüdür, evləndirir. Övladları üçün hər şey etsə də, ananın qədir-qiyməti bilinmir. Əsərin ən təsirli, insanı düşündürən aşağıdakı misralarını oxuduqca annaın taleyinə biganə qalmaq olmur:

Bir övlad böyütdü bir afət üçün
Ona toy elədi .
Ömür yükündən
Sandi ki, azaddır bu gündən bəri.
Ancaq o bilmədi,
Elə o gündən
Başlanır ən böyük müsibətləri.

Övlad toyunu edən, evinə gəlin gətirən ana fikirləşir ki, bu gündən sonra övladı, gəlini ona yardımçı olacaq. Bütün ömrü boyu çəkdiyi zəhmətlərin əvəzində mükafat alacaq. Balalarının xoş günlərini onlarla bir yerdə keçirəcək.

Ananın ən əzablı günləri öz övladının ona qarşı biganəliyindən sonra başlayır. Ananın nəzərində gəlin evinə, həyat yoldaşına qulluq etməli, böyüyünün yerini bilməli, ailəsinin qayğısına qalmalıdır. Lakin övladlarının fikrincə, zaman o zaman deyil. Bəs hansı zamandır bu zaman? Məgər insanlığın, sevginin zamanımı olur?!

Övladından xeyir gözləyən ana ondan nadanlıq görür, qəlbi qırılır:

Oğul da yar üçün, qız da yar üçün
Övladlar, övladlar bizimçün deyil
Biz onlar üçünük, biz onlar üçün.

Ana övladından borcunu istəyir. Lakin bu borc maddi deyil, mənəvi borcdur. Ananın övladına sevgisi borcudur. Ana övladından bütün çəkdiyi əziyyətlər qarşısında yalnız sevgi istəyir.

-Bu gözəl dünyaya səni bəxş edən
Anaya afərin, anaya əhsən!
Necə fərəhlənir, sevinir ana,
Qapının dalından baxır oğluna
Belə də dərd olar?
Oğul doğasan,
Onun şad gününə gendən baxasan?

Burada qapı arxasında oğlunun uğurlarına sevinən, fərəhlənən ananın keçirdiyi mənəvi sarsıntılar, qoca qadının daxili aləmi qələmə alınmışdır. Mənəvi təzyiqlərə məruz qalan ananın öz xoşu ilə qocalar evinə üz tutması və onun keçirdiyi hiss-həyəcanlar əks olunmuşdur.

Qocalar evinin qaydalarına
Nə qədər çalışır ,uyuşa bilmir.
Yaman ağır gəlir atılmaq ona
Pəncərə önündən bir an çəkilmir.

Qocalar evinə köçən ana başqalarının yanında yalnız olduğunu söyləyir. Ana yalan deyirdi. Çünki, oğulu, gəlini, özü başqalarının yanında alçalmasın deyə yalan danışmalıydı:

Ana yalan dedi, qəlbindəkilər
Dilinə gəlmədi .
Yox, gələ bilməz
Nə özü, nə oğlu, nə də gəlini
Özgələr önündə alçala bilməz.
Susdu...
Boğazında düyüldü qəhər
Saxladı özünü ana birtəhər.

Bu ana bütün xüsusiyyətləri ilə əsl Azərbaycan qadını, fədakar ana, övladları üçün hər cür çətinliyə qatlaşan obrazdır. Bu ana milli dəyərləri özündə birləşdirən bir obrazdır. Bu ana övlad sevincini öz canından üstün tutan fədakar bir anadır.

Ana övladları tərəfindən atılmasına baxmayaraq, yenə də övladına olan məhəbbətini itirmir. Kövrək ürəyə, zəngin mənəvi aləmə malik bu ana özü yalnız

qalsa da, atılmış körpələrin ürəyini ovutmaq üçün az da olsa, ana sevgisini, ana istisini bəxş etmək üçün hər gün onların yanına gedir. Hər dəfə bu körpə balaları gördükcə ananın ürəyi kövrəlir.

Körpə şıltaq edər, ana götürər,
Anasız körpələr şıltaq olarmı?
Onlar dayələrdən məhəbbət umar,
Buna nə hövsələ, nə də macal var.

.Körpələr evində sevgidən, şəfqətdən, ana nəvazişindən, ana qucağından məhrum olan bu uşaqlar nə zamansa, kiminsə onları himayə etmələrini gözləyirlər. Hər dəfə yalnız qalanda kövrəlirlər. Gələcəyə inamları, arzuları yarımçıq qalır. Onların sağlam şəxsiyyət kimi, cəmiyyətə xeyirli bir insan kimi formalaşmasına mane olur. Valideynlərindən, ana nəvazişindən, ana şəfqətindən uzaq olan bu körpələr daim həyatda özlərini yalnız, zəif hiss edirlər.

"Atılmışlar" poeması özündə ictimai, mənəvi, dərin psixoloji məqamları ehtiva edir. Ailə cəmiyyətin kiçik bir üzvü kiçik bir modelidir. Ailəni qorumaq insandan yüksək əxlaq, zəngin mənəviyyat, səbr gərəkdirir.

Ədəbiyyat

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. 2 cilddə. 1-ci c.. Bakı: Azərnəşr, 1974.
2. Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri. 2 cilddə. 2-ci c.. Bakı, 2004.
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri .12 cilddə. 10-cu c.. Bakı: Azərnəşr, 2005.
4. Türk dünyasının Bəxtiyarı. 2 hissədə. 2-ci hissə. Tərtib edən və toplayanı M. Dəmirli. Bakı: Təfəkkür NPM, 2002.

К.А. Мамедова

Образ матери в поэме "Заброшенные" Бахтияра Вагабзаде

Резюме

Образ матери занимает особое место в творчестве Бахтияра Вагабзаде. Поэма "Заброшенные" тоже посвящена теме матери. В поэме отражены две разные образы матери. В поэме также были затронуты проблемам между матерью и ребенком и между женщиной и общества.

Эти женские образы различаются индивидуальными характеристиками, моральными, нравственными качествами.

K.A. Mammadova

The image of a mother in Bakhtiyar Vahabzadeh's poem "Abandoned"

Summary

The image of a mother in Bakhtiyar Vahabzadeh's poem "Abandoned". The image of a mother holds a special place in the creative activity of Vahabzadeh. The poem "Abandoned" is also dedicated to the topic of the mother. In the poem reflected two different images of the mother. In the poem were also touched upon the problems between mother and child and between the woman and the society.

These images of woman are differ in individual characteristics, moral and ethical qualities.

Rəyçi: Bilal Həsənli
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

ŞƏBNƏM NƏCƏFLİ
AMİ
sebnemnecefli@mail.com

KURİKULUM ÜZRƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ İNTERAKTİV METODLARDAN İSTIFADƏ İMKANLARI

Açar sözlər: kurikulum, standart, ədəbiyyat dərsləri, bədii əsər, dərslik, şagird
Ключевые слова: куррикулум,стандарт, уроки литературы, художественное произведение, учебник, ученик
Keywords: curriculum, standard, literature lessons, art work, textbook, student.

Ölkəmizdə uğurla həyata keçirilən təhsil islahatının müasir mərhələsi ümumi orta təhsil pilləsində (V-IX siniflər) kurikulumun tətbiqinə başlanılması ilə əlamətdardır.

Məlumdur ki, bu dərs ilindən etibarən V siniflərdə bütün fənlər üzrə, o cümlədən ədəbiyyat fənni üzrə tədris kurikulumun tələblərinə uyğun olaraq hazırlanmış dərsliklər üzrə aparılır.

Hazırda məktəblərimizdə istifadə olunan yeni nəsil "Ədəbiyyat" dərsliyi (Bakı: Bakınəşr, 2012, müəllifləri S.Hüseynoğlu, B.Həsənli, Ə.Səfərova, Ə.Quliyev) bir sıra xüsusiyyətləri ilə əvvəlki dərsliklərdən fərqlənir. Belə ki, dərsliyin məzmunu, elmi-metodik sistemi, strukturu kurikulumda öz əksini tapmış təlim standartlarını, fəal/interaktiv təlim şəraitini, fəndaxili və fənlərarası inteqrasiya imkanlarını reallaşdırmaq üçün zəmin yaradır.

Bununla yanaşı, dərslikdə şagirdlərin bədii ədəbiyyata, mütaliəyə marağını gücləndirmək, onlara milli və ümumbəşəri mənəvi dəyərlərin aşılanmasını təmin etmək, məktəbliləri axtarıcılığa, tədqiqatçılıq fəaliyyətinə, fərqli mənbələrdən biliklər əldə etməyə sövq etmək, məntiqi, tənqidi, yaradıcı (bədii) təfəkkürü inkişaf etdirmək, həyati bacarıqlar formalaşdırmaq məqsədilə yeni tipli sual və tapşırıqlar sistemi işlənilmişdir.

Ədəbiyyat kurikulumunda qeyd edilir ki, V sinfin sonunda şagird aşağıdakı təlim nəticələrinə nail olmalıdır:

- ədəbi nümunələri nitq texnikasına uyğun oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- şifahi və yazılı ədəbiyyat nümunələrini, bədii təsvir vasitələrini fərqləndirir, müqayisə edir;
- öyrəndiyi yeni söz və bədii təsvir vasitələrindən istifadə etməklə ədəbi nümunələrlə bağlı fikirlərini bildirir;
- müzakirələrdə söylənilən fikirlərə öz münasibətini bildirir;
- topladığı materiallar əsasında plan tutur və ədəbi nümunələrin məzmununu yazır.

Yeni dərsliyin metodik sistemi müəllimi bu təlim nəticələrinə nail olmaq üçün interaktiv təlimə istiqamətləndirir. İnteraktiv təlim metodlarından ardıcıl və sistemli şəkildə istifadəyə dərslik müəllifləri haqlı olaraq, təlim nəticələrinin təmin olunmasının səmərəli yolu kimi yanaşmışlar. Bu, həm də konseptual dövlət sənədi olan kurikulumun tələbidir.Ədəbiyyat fənni kurikulumunda göstərilir ki, artıq təlim pro-

sesinə getdikcə daha çox nüfuz edən interaktiv metodlar mahiyyət etibarilə humanist,demokratik səciyyəlidir, bu metodlarla keçilən məşğələlərdə biliyin mənimsənilməsi prosesində müəllim və şagird eyni hüquqlara malik tərəfdaş kimi çıxış edir. Odur ki, ədəbiyyat dərslərində bədii əsərlərin öyrədilməsi demokratik, humanist mühitdə həyata keçirilməlidir.

İnteraktiv metodlar müəllimlə şagirdin əməkdaşlığı, dialoqu zəminində təlimi, məktəblilərin fəal idrak fəaliyyətinin təşkili və idarə olunmasını nəzərdə tutur.

İnteraktiv metodlarla keçilən dərs elə təşkil olunmalıdır ki, öz həllini gözləyən idraki problem situasiyası yaradılsın, məktəblilər həmin problemin həllini tələb edən tədqiqata cəlb edilsin, yeni biliyin fəal, müstəqil şəkildə mənimsənilməsi təmin olunsun.

Müasir ədəbiyyat dərslərində əqli hücum (beyin həmləsi), söz assosiasiyaları, diskussiya, debatlar, layihələrin hazırlanması, rollu oyunlar, BİBÖ, insert, Venn diaqramı, şaxələndirmə, auksion, ziq-zaq kimi interaktiv metodlardan istifadə etmək daha məqsədəuyğundur.

Təqdirəlayiq haldır ki, yeni dərslikdə kurikulumun tələblərinə uyğun olaraq bilavasitə ədəbiyyat fənni üçün səciyyəvi olan interaktiv metodlara xüsusi diqqət yetirilmişdir. Bu baxımdan fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, ikihissəli gündəlik, müqayisə cədvəli kimi interaktiv metodların tətbiqi xüsusiyyətlərinin şərhi, nəzəri-metodik fikirlərin konkret nümunələr əsasında aydınlaşdırılması, şübhə yoxdur ki, müəllimlər tərəfindən razılıqla qarşılanacaq, təlimin müasir tələblər səviyyəsində təşkilinə zəmin yaradacaqdır.

Dərslikdəki interaktiv metodların tətbiqi ilə bağlı diqqətəlayiq yeniliklərdən biri də layihələrlə işin təşkilidir.Müəllim üçün metodik vəsaitdə layihələrlə işə dair metodik tövsiyələrdə qeyd olunur ki, ədəbiyyat təliminin əsasında bədii əsərlərin oxusu və təhlili dayanır.

Bədii əsərlərin ədəbiyyat dərslərində müzakirəsi şagirdlərdə oxuya maraq və oxucu üçün vacib olan bacarıqlar formalaşdırmalı, bu, nəticə etibarilə yüksək ideyabədii dəyərə malik söz sənəti nümunələrinin müstəqil mütaliəsinə gətirib çıxarmalıdır. Şagirdlərin müstəqil oxusunu istiqamətləndirmək məqsədilə oxunması məsləhət görülən əsərlərin siyahısı dərsliyə daxil edilmişdir. Bu oxuya nəzarət və nəticələrin yoxlanılmasını sinifdənxaric oxu əsasında layihələr üzrə işlər vasitəsilə reallaşdırmaq məqsədəuyğundur.

Bu məqsədlə illik planlaşdırmada layihələr üzrə işə I yarımildə 2 saat, II yarımildə 3 saat olmaqla il ərzində cəmi 5 saat ayrılmışdır. Birinci saatda layihələrin təqdimatı, ikinci saatda isə onların müzakirəsinin keçirilməsi məqsədəuyğundur.

Müəllim dərsliyin sonunda verilmiş layihə nümunələrindən başqa, məqsədəuyğun hesab etdiyi və şagirdlərin maraq və qabiliyyətlərinə uyğun digər layihələr üzərində də iş təşkil edə bilər. Layihələrin nəticəsi şagird portfoliosuna yığıla bilər.

Dərsliyə 1-ci və 2-ci yarımil üçün tövsiyə olunan və müəllimə konkret sinfin imkanlarına uyğun seçim imkanı verən layihə materialları daxil edilmişdir. Dərslikdə aşağıdakı layihələrin həyata keçirilməsi üzrə materiallar, bədii mətnlər, sual və tapşırıqlar sistemi işlənilmişdir:

1.Nağıl qəhrəmanları ilə görüş . Esse müsabiqəsi.

2.Nağıllar aləmində. Tamaşa –viktorina.

3.Şəhidlər unudulmur. Ədəbi-bədii gecə.

4.Ana mövzusunda yazılmış əsərlərin ifadəli oxusu üzrə müsabiqə.
5. Bədii ədəbiyyatda hikmətli fikirlər toplusunun hazırlanması.
6. Doğma yurdum Azərbaycan.Musiqili-ədəbi kompozisiya.
7.Dünya uşaqların gözü ilə. Tamaşa-viktorina.
8.Doğma təbiətimiz. Bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqə.
9. Ədəbiyyat dərsləri bizə nə verdi mövzusunda dəyirmi masa.

Kurikulum üzrə ədəbiyyat dərslərinin qarşısında qoyulan başlıca tələblərdən biri təlim prosesində fəal-interaktiv metodlardan məqsədyönlü şəkildə istifadə olunmasıdır. Bu baxımdan müasir ədəbiyyat dərslərində faəl-interaktiv təlim metodalarından istifadə üzrə metodik tövsiyyələrin işlənilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu layihələr üzrə işin dörd mərhələdə təşkili məqsədəuyğun sayılır. Hazırlıq mərhələsində layihənin mövzusu və məqsədi aydınlaşdırılır. Şagirdlərə təbiət mövzusunda əsər yazmış sənətkarlar haqqında albom hazırlamaq təklif olunur. Onlar tapşırığı yerinə yetirərkən ayrı-ayrı sənətkarlar haqqında məlumat toplayır, əsərdəki təbiət təsvirlərinə illüstrasiyalar çəkir, albomun bədii tərtibatı ilə məşğul olur. Bu mərhələdə həmçinin toplanmış ədəbi-bədii materialın albomda necə yerləşdirilməsi, başlıqlar, mətnlərin əlaqələndirilməsi və s. məsələlər öz həllini tapır.

Planlaşdırma mərhələsində şagirdlər qarşıya qoyulan məqsədəuyğun olaraq bir neçə qrupa ayrılır. Hər qrup ilin bir fəsli üzrə əsərlər toplayır. Layihə ilə bağlı müxtəlif ideyaların, təşəbbüslərin, təkliflərin üzə çıxarılması məqsədilə müzakirələr aparılır, qruplara verilən tapşırıqlar dəqiqləşdirilir.Bu mərhələdə məktəblilərin fərdi maraq və qabiliyyətləri nəzərə alınaraq fərdi tapşırıqlardan da istifadə imkanları dəqiqləşdirilir.

Fəaliyyət mərhələsində hər qrup öz tapşırığına uyğun olaraq təbiət mövzusunda əsərlərlə tanış olur, seçim aparır, bədii-tərtibat işləri ilə məşğul olur, təqdimatın forma və məzmununu dəqiqləşdirir.

Təqdimat mərhələsində qruplar öz fəaliyyətlərinin nəticələrini təqdim edir. Birinci qrupun ifasında musiqili ədəbi-bədii kompozisiya dinlənilir. İkinci qrup tərəfindən təbiət mövzusunda əsərlər üzrə hazırlanmış albom, bədii mətndəki təbiət təsvirləri üzrə çəkilmiş illüstrasiyalar nümayiş etdirilir, ayrı-ayrı sənətkarların əsərlərinin şagirdlər tərəfindən ifadəli oxusu təqdim olunur. Üçüncü qrup mövzu ilə bağlı videosüjet (təbiət mənzərələri, təbiətə münasibət haqqında fikirlər) təqdim edir. Beşinci qrup təbiət mövzusunda əsərlər, sənətkarların yaradıcılığı barədə öz fikirlərini çatdırır.

Təqdimatlar geniş müzakirə olunur. Layihənin iştirakçıları suallara cavab verir, fikir mübadiləsi aparır, öz fəaliyyətlərini dəyərləndirirlər.

Layihələr üzrə işin bir çox müəllimlər üçün yeni metod olduğu və məktəb təcrübəsində bu vaxtadək geniş tətbiq olunmadığı nəzərə alınaraq, dərslikdə konkret tövsiyələr, nümunələr verilməsi kurikulumun qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün münbit zəmin yaradır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı. 2009.
2. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu. Bakı, 2006.
3. Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: ADPU-nun nəşriyyatı, 2011.
4. Həsənli B.Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2012.
5. Həsənli B., Hüseynoğlu S., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. Müəllim üçün metodik vəsait.Bakı: Bakı nəşriyyatı, 2012.
6. Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Bakı nəşriyyatı, 2012.
7. **http://kurikulum.az**

Ш.Наджафлы

Возможности использования интерактивных методов
на уроках литературы по куррикулуму
Резюме

Целенаправленное использование интерактивных методов один из основных задач уроков литературы по куррикулуму. Новый учебник литературы для пятого класса и методическое пособие для учителя создают благопри ятные возможности для применения интерактивных методов с целью достижения реализации стандартов куррикулума.

В статье на примере методов проекта показывается эффективность путей использования интерактивных методов на уроках литературы.

Sh. Nadjafli

Opportunities to use interactive methods in literature classes
on the curriculum
Summary

The purposeful use of interactive methods is one of the main objectives of the lessons of the literature on the curriculum. New literature textbook for fifth grade and a guide for teachers, create favorable conditions for the use of interactive methods in order to achieve the implementation of the curriculum standards.

The article on the example project-based effective ways to use interactive methods in literature classes.

Rəyçi: Ramil Əliyev
filologiya üzrə elmlər doktoru

KÖNÜL EYYUBOVA
AMİ
konül_ahmed@mail.ru

XX ƏSRIN 80-ci İLLƏRİ AZƏRBAYCAN ROMANINDA KONSENTRİK SUJET

Açar sözlər:roman,sujet, təhkiyə, folklor, kompozisiya, zaman, hadisə, əhvalat.
Ключевые слова: роман, сюжет, рассказ, фольклор, композиция, время, случай, событие.
Key words: novel, plot, narration, folk-lore, time, event , story

Romanda hadisə, xarakter, zaman, məkan kimi tipoloji bölgülər ümumi xarakter daşıyır.Hadisə və xarakter arasındakı dialektik əlaqə təhkiyə vasitəsilə sujetdə reallaşır. Sujet romanın çoxşaxəliliyini bütün əlamətləri ilə müəyyən edə bilməz. Məsələn, fəlsəfi, monumental, sosial-psixoloji, ideoloji, satirik, tarixi, monoloq, dialoq, mərkəzdənqaçma, mərkəzəqaçma və s. bütün bunlar nə sujetə, nə də ki struktur dairəyə sığa bilməz.

1980-ci illər Azərbaycan romanlarında dövrün özünəməxsusluğu, şəxsiyyətin mənəvi simasının, fikri-psixoloji aləminin təşəkkülünü şərtləndirən mühitin, mədəni-iqtisadi həyatın əhəmiyyəti göstərilir. Məzmun-ideya zamanın tələbləri səviyyəsinə qaldırılır. Əsərin məzmunu tarixdən alınanda dövrün səciyyəsi, məişətin, adət-ənənənin qayəsi müasirlik duyğusu ilə açılır.

XX əsrin 80-ci illər romanlarında xronikal və konsentrik sujetin növlərini görə bilirik. Təyyar Salamoğlu 80-ci illər romanlarında istifadə olunan sujet tiplərini aşağıdakı kimi bölgüyə ayırmışdır:

a) səbəb-nəticə əlaqəsi ilə bir-birinə bağlanan müxtəlif dövr hadisələrinin bir sujet və ya kompozisiya daxilindəki vəhdəti;

b) real hadisə kimi təsvir olunub şərti-simvolik mənada dərk olunan sujetlər;

c) real hadisələrdən ibarət sujetə paralel şərti-simvolik sujetlər- sujet "üstü" sujetlər;

ç) reallıqla müxtəlif şərti təsvirlərin qarışığından ibarət sujetlər;

d) folklordan gəlmə sujetlər:

1. müstəqil sujet xətti hüququnda;

2. yardımçı sujet xətti hüququnda;

e) tarixi sujetlər:

1.tarixi-sənədli sujetlər;

2.fantaziya məhsulu və ya uydurma sujetlər;

3.bioqrafik sujetlər;

4.avtobioqrafik və ya xatirə sujeti;

ə) eksperimental sujetlər; [1, 240;241 s.]

1980-ci illər Azərbaycan romanlarında əsas diqqət səbəb-nəticə əlaqəsinə yönəlib. Bu romanlarda zamanın iştirakı çox zəif göstərilib. Məsələn, Y.Səmədoğlunun "Qətl günü", Elçinin "Ölüm hökmü", "Ağ dəvə", İ.Şıxlının "Dəli Kür", M.İbrahimovun "Böyük dayaq", M.Süleymanlının "Günah duası", və ya "Səs" romanlar bu sujet tipinə xalis nümunədir.

Yusif Səmədoğlunun "Qətl günü" romanı mürəkkəb kompozisiya quruluşuna malikdir. Kompozisiya ətrafında müxtəlif zaman kəsiyində təsvir edilən hadisələr, yəni müxtəlif sujet xətləri arasındakı bağlılıq diqqəti cəlb edir.

"Qətl günü" üç dövrü−qeyri-müəyyən qədim dövrü, bizə yaxın dövrü və cəmiyyətin bu gününü əhatə edir. Roman daxilində hər dövrün öz romanı var. Hər romanın da öz sujet xətti var. Hər üç roman bir-birini tamamlayır, əsas fikir hər üç dövrə aid nümunə−parallellərlə təsvir edilir. Hər üç dövrün−romanın əsas qəhrəmanları ziyalı şəxslərdir, biri tənqidçi, ikisi şairdir.

"Qətl günü" məhz tarixi romandır. Burada nə konkret bir tarixi şəxsiyyət, nə konkret bir zaman var. Lakin təsvir olunan hadisələr çox real və inandırıcı şəkildə yazıldığına görə romanın məhz tarixi dövrdə baş verdiyi müəyyən olunur.

Roman insan və zaman arasındakı mənəvi ziddiyyətləri əks etdirir və bu ziddiyyətlər konkret obraz və hadisələrlə reallıq kəsb edir.

V.Yusiflinin sözüylə desək, "romanda zamanın üç tipi və bir-birindən fərqli üç forması nəzəri cəlb edir. Dialektik baxımdan yanaşsaq zamanlar dəyişir, bir ictimai quruluş digərini əvəz edir, lakin eyni zamanda keçmiş zaman tamamilə keçib getmir, özündən sonrakı zaman üçün müəyyən irs (həm yaxşı mənada, həm də pis mənada) saxlamışdır. Zamanın müxtəlif tipajları, formaları arasındakı bu qanunauyğun əlaqə və bağlılıq insan nəsilləri arasında da davam edir". [2, 120 s.]

Elçinin "Ölüm hökmü" romanında da roman içində "roman" üsulundan istifadə olunmuşdur. "Qətl günü" romanında əsas mövzuyla bərabər Sədi Əfəndinin yazdığı "Qətl günü" romanı da əsərə daxil olunmuşdur."Ölüm hökmü" romanında da Murad İldırımlının "Hər şey gəlib keçər" hekayəsi bu prinsiplə əsərə daxil olunmuşdur.

Təyyar Salamoğlu çox doğru qeyd etmişdir ki, "Qətl günü"ndən fərqli olaraq, "Ölüm hökmü"ndə roman içində "roman" və yaxud "hekayə" prinsipi əsərin bədii strukturunun ümumi və aparıcı əlaməti sayıla bilməz. "Ölüm hökmü" ilə Ç.Aytmatovun "Əlvida Gülsarı" povestinin bədii strukturunda ciddi səsləşmə, uyğunluq görmək mümkündür. "Əlvida Gülsarı" povesti , ilk növbədə, Gülsarı adlı atın taleyi haqqında "povest" kimi oxunur. Bu "povest" sırf şərti-metaforik məzmunludur. İkinci halda, biz əsəri real planda-Tanabayın həyat "romanı" kimi qavrayırıq".(1, 263 s.)

"Ölüm hökmü" romanının kompozisiya quruluşu paralel sujetlərin assosiativ əlaqə-si, sıx bağlılığında və birinin o birini tamamlaması mənasında mükəmməl görünür.

Elçinin "Ağ dəvə" romanı da mövzu cəhətdən "Ölüm hökmü" romanı ilə oxşardır. Hər iki romanda müharibə dövrü və müharibədən sonrakı Azərbaycan həyatını, insanların yaşamlarını təsvir etmişdir. Elçinin "Ağ dəvə" romanı "Geriyə baxma, qoca" romanındakı kimi təhkiyə formasında yazılmışdır. Lakin bu iki romanlar sujet quruluşuna görə bir-birindən fərqlənir.

"Ağ dəvə" romanında hadisələr indiki dövrdən keçmiş dövrə qədər gedərək açılır. "Geriyə baxma, qoca" romanında isə hadisələr keçmişdən gələcəyə doğru cərəyan edir. "Ağ dəvə" romanı yazıçı Ələkbərin uşaqlıq illərindən başlayaraq hadi-sələr üzərində cərəyan etsə də, əsərdə əlavə bir sujet xəttini nəzərdən qaçırmaq olmaz. Burada Ağ dəvənin əhvalatı da öz əksini tapmışdır.

"Ağ dəvə" romanında təhkiyə kiçikyaşlı qəhrəmana etibar edilir, Bakı məhəl-lələrinin birində baş verən hadisə və əhvalatlar balaca Ələkbərin dilindən söylənir.

"Ağ dəvə" romanı balaca Ələkbərin xatirələri ilə bərabər Ağ dəvə ilə bağlı rəvayətdən ibarətdir.

Əsərdə Ağ dəvə ilə bağlı üç rəvayət söylənilir: Birinci rəvayət Ağ dəvə və Yolçu adlanır. Romanda Ağ dəvə−ömür karvanı, Səhra−dünya, yolçu−insan kimi simvolik məna daşıyır. Dəvənin qumun üstündə saldığı ləpirlər tarixdir(insanların saldığı izdir).

"Ağ dəvə" romanındakı hadisələr səbəb-nəticə əlaqəsi ilə bir-birinə bağlansa da, romanda real hadisələrdən ibarət sujetə paralel şərti-simvolik sujet də əlavə olunmuşdur. Bu da məhz "Ağ dəvə" ilə bağlı əhvalatdan ibarətdir.

1980-ci illərin roman təsərrüfatında səbəb-nəticə əlaqəsi ilə qurulan sujet tipinin başqa bir konstruksiyası İ.Əfəndiyevin "Geriyə baxma, qoca", M.Süleymanlının "Köç" və M.İbrahimovun "Böyük dayaq" romanlarında özünü göstərir. Y.Səmədoğlunun "Qətl günü", Elçinin "Ölüm hökmü", "Ağ dəvə", İ.Hüseynovun "İdeal", M.Süleymanlının "Səs" və ya "Günah duası" romanlarında sujet müasir dövrdən keçmişə doğru istiqamət götürmüşdüsə, "Geriyə baxma, qoca", "Böyük dayaq", "Köç" romanlarında milli varlığın keçmişindən müasir zamana doğru istiqamətlənir.

"Geriyə baxma, qoca" romanı sujet tipinin fərqliliyi ilə digər romandan fərqlənir. Belə ki, digər romanlarda hadisələr gələcəkdən keçmişə doğru getdiyindən bu zamandakı hadisələr keçmişdən gələcəyə doğru hərəkət edir. Hadisələr Muradın dili ilə təhkiyə olunur. Yazıçı Muradın simasında öz xatirələrini əsərdə əks etdirir. Romanda Muradla bərabər Möhnət qarının da dilindən bəzi hadisələr nəql edilir. "Geriyə baxma, qoca" romanında folklordan gəlmə sujetdən də istifadə olunmuşdur.

Biz 80-ci illər romanlarında real hadisələrdən ibarət sujetə şərti-simvolik sujet−sujet üstü "sujet" tipinə də rast gəlirik. Bu tipli sujetlərdə yazıçı real hadisələrdən yazdığı əsərdə onun ideyasını açmaq və ya əsəri daha da zənginləşdirmək, maraqlı etmək üçün bu sujet tipindən istifadə etmişdir. Məsələn, Y.Səmədoğlunun "Qətl günü", Elçinin "Ağ dəvə", "Ölüm hökmü" romanlarında bu sujet tipinə rast gəlirik. Y.Səmədoğlunun "Qətl günü" romanında "Kirlikir", "Baba kaha" ilə bağlı hadisələri bu sujet tipinə daxil etmək olar.

"Ölüm hökmü" romanında M.İldırımlının "Hər şey gəlib keçər" hekayəsi də, bu sujet tipinə bariz nümunədir. "Ağ dəvə" romanında da Ağ dəvə ilə bağlı əhvalatı da buna misal göstərmək olar.

Reallıqla müxtəlif şərti təsvirlərin qarışığından ibarət sujetli əsərlərə

S. Əhmədlinin romanlarını− "Yasamal gölündə qayıqlar üzürdü", "Yaşıl teatr", "Toğana", "Azıxa doğru" romanlarını misal göstərə bilərik. Bu romanların sujetləri müxtəlifliyi, rəngarəngliyi ilə nəzəri cəlb edir. Yazıçı bu romanlarda yazdığı sətrlərə, fikirlərə mənəvi don geyindirir, imperiyanın bütün eybəcərliklərini mətnaltı məna ilə oxucuya çatdırır.

1980-ci illər romanlarında folklordan gəlmə sujetlər də nəzərdən qaçmır. 80-ci illər romanlarında istifadə olunan folklor sujetinə əsasən bu romanları misal göstərək: "Mahmud və Məryəm", "Ceviz qurdu", "Köç", "Geriyə baxma, qoca" və s.

Folklordan gəlmə sujetlər özü də iki yerə ayrılır:

1.Müstəqil sujet xətti hüququnda

2.Yardımçı sujet xətti hüququnda

Müstəqil sujet xətti hüququnda yazılmış romanlara "Mahmud və Məryəm", "Geriyə baxma, qoca", "Köç" romanlarında bu süjet tipi özünü aydın göstərir. "Mahmud və Məryəm" əsərində hadisələr başdan-başa folklor ənənələri ilə yoğrulmuşdur.

"Mahmud və Məryəm" romanında təkcə mövzu baxımından yox, həm də struktur və poetika baxımından xalq yaradıcılığının və aşıq ədəbiyyatının strukturunu xatırladan elementlər mövcuddur.

“"Mahmud və Məryəm" romanında folklor və dastan poetikası ilə bilavasitə üzvü şəkildə bağlı olan, ondan doğan və onu tamamlayan, həm də onu ötüb keçərək, dünya və gerçəklik, zəmanə, gərdiş haqqında fəlsəfi-psixoloji planda müəyyən mətləbləri ortaya qoyan bütöv bir sistem mövcuddur.

Romanda biz fantasmaqorik elementlərə-başı bədənindən ayrılaraq qətlə yetirilmiş Sazlı Abdullanın sazının öz-özünə çalması, müəyyən bir hadisənin fonunda yayın oğlan çağında cadar-cadar torpağın üzərinə ağ qarın yağması, qışın oğlan çağında alma ağacının bütün həyat eşqini və ehtirasını “dilə gətirərək” çiçəkləyib bar gətirməsi və sair və ilaxır bu kimi hadisələr bütövlükdə götürdükdə romanda obrazlarla yaradılmış dövrün mahiyyətini açmaq üçün son dərəcə tutumlu ifadə vasitələri rolunu oynayırlar. ” [3, 117 s.]

"Geriyə baxma, qoca" romanında folklor müstəqil sujet hüququnda verilmişdir. "Cavan tacirlə pristav qızının əhvalatı" fəslində Qarı dağıyla bağlı əhvalatı buna misal göstərmək olar. Romanda qaçaqçılıqla-qaçaq Xanmuradla bağlı epizodlar da vardır ki, bunu da folklordan gəlmə sujet kimi hesab etmək olar.

Müasir Azərbaycan romançılarının tanınmış nümayəndəsi Mövlud Süleymanlı da "Köç" romanını folklor-fantasmaqorik qaynaqlar üzərində kökləmişdir. Roman öz sujetinə belə başlayır:

"Altı yaşlı İmir bir il idi yuxusunda burulğana düşmüşdü. Göydümü, suyudumu, quruydumu, haraydısa, bir quyunun ağzıydı, min bir boya bir-birinə qarışa-qarışa İmir də içində yumurlanıb-yumurlanıb dörd oynayırdı. Əlləri-ayaqları, üz-gözü, əyilənə kimi fırlanırdı. Nəsə deşilirdi, bir-birinə qarışa-qarışa burulan rənglərin qanı axırdı.İmir yavaş-yavaş yerindən dururdu, yatağından qalxırdı, iri-iri açılan göyümsov gözləri ilə yox, bütün canı ilə görə-görə dünyanın üstü ilə addımlayırdı". [4, 7 s.]

Roman mifoloji düşüncə tərzi və təhkiyəsində yazılıb. Mifin tələb etdiyi qarşıdurmalar iki tayfanın təcəssümündə rəmzləşdirilib.

"Ceviz qurdu" romanı yardımçı sujet xətti hüququnda yazılmış əsərlər sırasına daxil etmək olar. "Ceviz qurdu" romanı çox maraqlı sujet tipinə malikdir. Roman başdan-başa qarışıq sujet tipinə xas olaraq folklordan gəlmə sujet tipini də özündə ehtiva edir. Romanda şeytanla bağlı nağıl bu sujet tipinə misal göstərilə bilər.

1980-ci illər roman sujet tipinin rəngarəngliyi ilə zəngindir. Yazıçılar əsərlərinin daha aydın, bəzən də xalq təfəkküründün məhsulunu əsərinə gətirərək zənginləşdirmək üçün bu sujet tiplərindən məharətlə istifadə etmişlər. Bu da 1980-ci illər romanlarının sujet tipinin rəngarəngliyindən xəbər verir.

Ədəbiyyat siyahısı:

1. Təyyar Salamoğlu “Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri”, Bakı-2012, 480 s.
2.Vaqif Yusifli "Tənqid və bədii söz", Bakı-Mütərcim, 2002, 208 s.
3. N. Paşayeva “Yeniləşən ədəbiyyatın yeni insanı”, Bakı-“ATİ” nəşriyyatı, 2004, 224 s.
4. M.Süleymanlı “Köç”, Bakı:Yazıçı, 1984, 278 s.

К. Эйубова

В 80-ых годах 20-ого века сюжетный структур Азербайджанского романа

Резюме

В романе типические разделения, как случай, характер, время, тесто песут обищий характер. Диалектическая связь между случаем и характером в сюжете реализируется посредством рассказа.

Сюжет не может определить со всяким знаком многоветвленность романа. Например, философски, монументалны, сосиало-психологически, монолог, диалог, концентрик, хроникал и др. все эти не могут возмешаться не в сюжет, и не в структурный круг.

K.Eyyubova

The consentric structure of Azerbaijan novels in the 80`s years of XX century

Summary

Typoligical sections such as event, time, location are general characters in novels. Dialectic relationship between event and character are realized with narration in the composition.

Composition can't determine all branches of novels with all aspects. For example, philosophical, monumental, social-physically, ideology, dialog, monologue, centrifugal, historical, satirical all of these can' t locate neither composition nor structural circumference.

Rəyçi: f.e.d., dos. T.S.Cavadov

ÜLFƏT ŞAHBAZOVA
AMI
Email: creeduparadise@mail.ru

XOCALI FACİƏSİ POEMALARDA

Açar sözlər: Xocalı faciəsi, poemalar, həsrət motivi, qəm, kədər, ayrılıq
Ключевые слова: Трагедия Ходжалы, поемы, тоска, грусть, печаль, разлука
Key words: Tragedy Khojali, poems, longing for a motive, grief, sadness, separation

Xocalı faciəsindən 19 il keçir və 19 ildir ki, bu faciənin ağrısıyla qovruluruq. XX əsrdə baş verən və xeyli insan ölümünə səbəb olan, kütləvi qırğınlarla tən tutulan Xocalı faciəsi millətimizin qurumayan göz yaşlarıdır. Təbii ki, bu ümumxalq faciəsi söz sənətində də öz ağrısını yaşayıb və yaşayacaqdır. Mən onlarla bədii əsərin-şeirin, poemanın, dram əsərinin, hekayənin, romanın, publisistik məqalənin adını çəkə bilərəm. Mənim fikrimcə, dərdin, kədərin, ağrının miqdarını hesablamazlar. Bircə onu deyə bilərəm ki, bu əsərlərin içərisində daha çox diqqəti cəlb edən nümunələr az deyil və istəyirəm bu faciəyə həsr olunan dörd poemadan söz açım.

Fransız yazarı Giyom Apollinerin bir fikrini xatırlatmaq istəyirəm. O yazırdı: "Yaddan çıxarmayaq ki, hər hansı bir millətdən ötrü ruhən işğal olunmaq silah gücünə işğal olunmaqdan daha təhlükəli ola bilər". Xocalı faciəsindən söz açan bu əsərlər də çağırışdır, haraydır. Poeziyanın harayı və çağırışıdır. Torpaqlarımızın iyirmi faizi işğal altındadır, lakin biz ruhən işğal olunmamışıq. Poeziya da ruhumuzu işğaldan qoruyan, bizi intiqama səsləyən, qələbə günün uzaqda olmadığını xəbər verən atəş səsidir..

Xalq şairi Zəlimxan Yaqubun "O qızın göz yaşları" poemasının əsasında belə bir əhvalat durur: "Xocalı faciəsinin 13-cü ildönümü ilə əlaqədar yas mərasimi-şəhidləri anma günü keçirilirdi. Hər çıxışda bir üsyan, hər ürəkdə bir tufan, hər baxışda bir leysan var idi. Dərdini dilə gətirənlərə bir-bir söz verilirdi. 21 yaşlı Xocalı qızı Xəzangülə də söz verdilər. Ermənilər onun 36 yaşlı anası Rəna xanımı, 5 yaşlı bacısı Yeganəni Əsgəran meşəsində güllə ilə dəlik-deşik etmişdilər. 38 yaşlı atası Təvəkkülü 8 yaşlı Xəzangülün, körpə qızcığazın gözləri baxa-baxa, diri-diri ağaca sarıyıb yandırmışdılar. Təvəkkülün günahı ondan ibarət olmuşdu ki, ermənilər "Qarabağ erməni torpağıdır" sözünü ona dedirdə bilməmişdilər".

Zəlimxan Yaqub poemaya elə bu dərdin poetik izharı ilə başlayır, daha doğrusu, Xocalı faciəsini poeziyanın ağrısına, kədərinə çevirir:

Doğrandı dayağı, kəsildi soyu,
Qan oldu bayramı, yas oldu toyu.
Qarı ağ görmüşdük ömrümüz boyu,
O gün Xocalıda qar qırmızıydı.(2, s.123)

Beləcə, Xocalıdan gələn qızın qəmli, faciəli hekayəti başlanır və poemanın sonuna qədər biz bu qəmli hekayətin təsirilə yaşayırıq. Ancaq poema təkcə "o qızın göz yaşları" ilə məhdudlaşmır, bir qızın dərdi timsalında illərdir həlli düyünə çevrilmiş Qarabağımızdan, torpaq itkisindən, xalqın bu ağır dərdi necə yaşamasından, sabaha inamından da söz açır.

Poemada ən təsirli səhnə qızın atasının-Təvəkkülün ağaca sarınıb vəhşicəsinə qətlə yetirilməsidir. Şair bu səhnədə bədii təsvir vasitələrindən kifayət qədər istifadə edib-bənzətmələr, mübaliğələr, metaforalar bədii niyyətin reallaşmasına imkan yaradır. Bu səhnəyə "göydən ulduz baxırdı, qayadan çiçək baxır, zirvədən buz baxırdı, yaraların üstünə səpilən duz baxırdı, burada ağac da Təvəkkülə ürək-dirək verirdi, odunu söndürməyə dağlar külək verirdi".

Poema nikbin misralarla başa çatır. "Bir qızın göz yaşları" qəzəbə, nifrətə, qisas harayına çevrilir:

Hər alçağın qarşısında
dizlərini bükməz Vətən.
Yer dağılar, göy alçalar,
heç vaxt yerə çökməz Vətən.(2, s.129)

"Azərbaycan" qəzetində istedadlı şairimiz Ələmdar Quluzadənin Xocalıya həsr edilmiş bir şeirini oxudum. Ələmdar o şeirə belə başlamışdı ki, 26 fevral 1992-ci ildə Xocalıda 613 nəfər ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib. Şeirin sonu belə bitirdi:

Vətən oğlu göstərəcək
Yağılara öz gücünü.
Hansı ana doğub görən
614-cünü? (1, s.145)

Ə.Quluzadə müasir poeziyamızda Qarabağ mövzusunda ən çox əsər yazan müəlliflərdən biridir, deyərdim ki, hətta birincisidir. Onun "Qadan mənə, Qarabağ" kitabı (2006) ilk misrasından son misrasına qədər Qarabağ ağrısına həsr edilib. Çoxlu sayda şeirləri ilə yanaşı, Ələmdarın "Qarabağ oyunu", "Şəhid şəhər", "Alay komandiri", "İlmələrin dastanı", "Şəhid bacısı" poemaları və "Pənah evi" mənzum faciəsi də bu ağrıya həsr edilib. İstəyirəm onun Xocalıya həsr etdiyi "Şəhid şəhər" poeması haqqında qısaca söz açım. Təxminən 1500 misraya yaxın olan "Şəhid şəhər" poemasında müəllif lirik-publisistik bir tərzdə Qarabağda baş verən hadisələr bütün təfərrüatı ilə poetik təhkiyənin əsasına çevrilir. O, Xocalı faciəsinin yaranmasının səbəblərini açıqlayır, kimlərin günahkar olduğunu nişan verir. Ə.Quluzadə bütün bu hadisələrin canlı şahidi olmuşdur. O, Xocalıda doğulmuş, uzun müddət DQVM radio verilişləri komitəsinin Azərbaycan verilişləri redaksiyasında müxbir işləmişdir. Hərdən məlum Xocalı kadrları televiziyada göstərilir, nurani bir qocanın düşmən gülləsindən torpağı qucaqladığının şahidi oluruq. O qoca Ələmdarın atası Allahverdi kişidir.

Ə.Quluzadə Xocalı faciəsini XX əsrin ən böyük, ən qanlı faciələri ilə-Xatın və Xirosima faciələri ilə bir sırada görür. Bizim şairlərin əksər şeir və poemalarında bu faciələrin paralelliyi öz əksini tapır. Ancaq nədənsə Xocalı faciəsinin dəhşəti dünyaya istənilən səviyyədə çatmadı.

Kar üçün, kor üçün çaxmaq daşıdır,
Sərhədi olana yol yoldaşıdır,
Əsrin qan bazarı, qan yaddaşıdır
Xatın-Xirosima-Xocalı yolu.(1, s.146)

Ələmdarın poeması başdan-ayağa düşmənə (həm xarici, həm də daxili) nifrət və qəzəb hissilə qələmə alınıb. Təbii ki, bu kiçik yazıda poema haqqında geniş söz

açmaq mümkün deyil. Ancaq əsərin ideyasını, müəllif məramını ifadə edən bu misraları nəzərinizə çatdırmaq istəyirəm:

Bəylər nökər olur, xanımlar kəniz,
Əmdiyim haramdır, yediyim haram.
Laçının bağrından açılan dəhliz,
Bağlanan qapımdır, açılan yaram. (1, s.154)

Ələkbər Salahzadənin "Xocalı xəcilləri" poeması da bu mövzuya həsr olunan ən təsirli əsərlərdən biridir. Məlumdur ki, Ə.Salahzadə assosiativ planda düşünən, təsvir etdiyi hadisələrə, nəsnələrə, insan obrazlarına tamam fərqli tərzdə yanaşan bir şairdir. Onun poetik mənalandırmaları, qeyri-adi təsvir vasitələri, daha çox alliterasiyalar düzümünə müraciəti bu poemada da nəzərə çarpır. Məsələn, onun poemasında ilk qırx iki misra "X" hərfi və sözü ilə başlayır. "Xocalı adında yer Xəbis, xudbin, Xain yağı əlilə Xarabalığa döndü...Xor baxandaXocalı xarabalıqlarına-Xatın-Xocalıya Xirosima-Xocalıya.." Poema Milli Qəhrəman Çingiz Mustafayevin xatirəsinə həsr olunub və sanki Xocalı dəhşətləri də Çingizin kamerasından seyr edilir. "Nələr görmüşdü, Çingiz, Nələr, nələr çəkmişdi, bir-birindən qorxulu mənzərələr çəkmişdi. Açıq-aşkar nə xəlvətlər, nə gizlinlər çəkmişdi!.. Vətən imtahanından kəsilənlər çəkmişdi. Aşkarlıqlar içində gizlənənlər çəkmişdi. Hələ öndə olacaqlar, gözlənənlər çəkmişdi". Vaxt ötəcək... Çingizin dayandığı yerdəcə bayrağa dönəcəkdi zol-zol pencəyi. Poema belə bir yarımfəsillə bitir: "XXI əsrin "X" ilinin xronikası". Aydan gələn arxeoloqlar yeri qazıb oyurlar. Onlar qəribə bir iy duyurlar. "Ay aman neft qoxusu gəlirdi yerdən". Bu misranın da öz rəmzi mənası var. Azərbaycan torpağı qana bələnib və bu QAN həmişə təbii sərvətlərimiz, dünya xəritəsində bənövşə yarpağı boyda olub başdan-ayağa təbii sərvətlərlə zəngin bir ölkəyə boylanan həris nəzərlərdən xəbər verir.

Bu əsərlə paralel Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi" poemasını xatırlayıram. Poema Xocalı soyqırımının on beş illiyinə həsr olunub. Ancaq konkret bir mövzuya həsr olunsa da, hədəf daha genişdir. Burada son iyirmi-iyirmi üç ilin Azərbaycan məmləkəti DƏRDİMİZİN QAN RƏNGİ obrazında metaforikləşib. QAN burada Xocalıdan bütün dünyaya yayılan fəryadın, kədərin simvoludur. QAN burada tarixdir-bir məmləkətin təklənməsi, səsinin, harayının boğulması, öz içində qərq olmasıdır. Ədalət Əsgəroğlu qan kəlməsinin doğurduğu bütün mənalara, metaforik çalarlara üz tutub:

Ortalıqda dumduru qan,
axır...axır..axıracan...
Xocalıdan Bakıyacan,
qan boyalı villalardan
cana doymuş çadıracan...(1, s.234)

Bu təsvirlərdən sonra Ədalət Əsgəroğlu poetik ahəngi zəiflətmədən publisistik ahəngi qüvvətləndirir. Dərdimizin niyə qan rənginə boyanmasının səbəblərini açıqlayır. Aşıb-daşan sərt və çılğın etirazlar gəlir, bu etirazlar əslində ittihamlardır. Poeziyanın, bir şair ürəyində şahə qalxan etirazları..

Bu boyda qan...
bu yolda can
niyə olmur sənə qurban,

Azərbaycan!
Sənə qurban, Azərbaycan!(1, s.235)

Bu misralar poemanın sonluğudur. Müəllif bir-iki xarakterik səhnə ilə əsərin fəciliyini artıran çalarları gücləndirir. Qızılgülə bənzəyən bapbalaca bir qızcığac "qan-qan!" deyib qışqırır. "Bu qızılgül qönçədi hələ, sinəsindən qan fışqırır". O bapbalaca qız xəyallarda böyüyür, qan içində, öz qanının arxasınca baxır, gəlib on beş yaşına çatır. İllər keçir, Xocalı şəhidləri QAN qiyafəsində qapımızı döyürlər, bizi qisasa çağırırlar.

Bu cür təsirli misralara hələ adını yeni duyduğum Şirinxanım Kərimbəyli Şadiman adlı şairənin "Ağlama, Xocalım" adlı poemasında da rast gəlinir. Şairə poeması haqqında danışarkən deyir: "O vaxt, 2-ci Dünya savaşında (Osmanlı) Türkiyə ilə bütün xaçpərst ölkələr savaşırdı, ermənilər isə Türk dövlətinə arxadan zərbə vururdu. Bəs görəsən bu yaxında, keçən əsrin sonunda, 1992- ci ildə fevralın 25-dən 26 –na keçən gecə Yuxarı Qarabağın Xocalı şəhərində türk olduqları üçün erməni və rus əskərləri tərəfindən vəhşicəsinə Soyqırımına məruz qalmış bu günahsız insanların haqqını sivil dünya ermənilərdən soracaqmı?!...Kütləvi şəkildə diri-diri quyulara doldurulanların, yandırılanların, hamilə qadınların qarnı yarılaraq oradan çıxarılan çocuqların vəhşətli bağırtıları göylərin qəlbin dəlik-deşik edib. Siz tarxə dönün və o qanlı tarixi yaxşı-yaxşı oxuyun. Əgər könlünüzdə Tanrı xofu varsa… Sizdən soruram ey sivil Avropa, sivil Amerika…. Mən torpaqları erməni işğalı altında inləyən azəri-türk qadınıyam! Soruma cavab istəyirəm, cavab, cavab…"

Əsərdə Xocalı qurbanlarının başına gətirilən olmazın əzablar qələmə alınmışdır.

Fevraldı, boz qışın əzazil çağı,
Əsrin yazılmamış qanlı varağı!
İyirmialtısı, qaranlıq gecə,
Udacaq şəhəri şəhər ölüncə..! (1, s.298)

Dərdimiz böyükdür. Şirindil xanım artıq bunun fərqindədir. Zəfər arzulayır şairə. Öz xalqını dərdsiz görmək istəyir.

Bunu sənə gözü yaşlı qız, gəlin deyir,
Min illərlə qılınc vuran sərt əlin deyir,
Azərbaycan adlı böyük bir elin deyir,
Vətənsizə nə səadət?! Vətənlə yaşa!
Qırılmalı zəncir, buxov, yol qurtuluşa!
Zəfərlə çıx savaşlardan, ey VƏTƏN, yaşa!!! (1, s.299)

Bu istəyə yalnız "AMİN!" demək qalır.

Ədəbiyyat

1. Elçin Mehrəliyev Müharibə və ədəbiyyat, Bakı, 2000
2. Zəlimxan Yaqub Gözlərimin nurudur doğulduğum bu torpaq, Bakı, 2005

У.А.Шахбазова

Трагедия Ходжалы в поемах

Резюме

Уже 19 лет в результате насильственного переселения более 1 миллиона граждан Азербайджана претерпевают нечеловеческие трудности, и их положение приводит к серьезным проблемам.В статье анализируются идеи и художественные особенности в поемах который написана о Трагедие Ходжалы. Исследоваеться творчество современных поетов.

U.A.Shahbazova

Tragedy Khojali in poems

Summary

The Khojaly massacre is a tragedy that has been inscribed in the memory of the Azerbaijani people for 20 years, as terrible event involving themass murder of civilians during the Nagorno Karabakh conflict. On the night of February 25th to 26th, 1992, Armenian forces, with the help of the Russian 366th Motor Rifle Regiment invaded Khojaly village. The article analyzes the ideas and artistic features to sing are written about the Khojali tragedy. Lighted work of contemporary poets.

Rəyçi: dos. İ.Orucəliyev

MAHİRƏ QULIYEVA
filologiya elmləri doktoru

NİZAMİNİN "SİRLƏR XƏZİNƏSİ" VƏ QURAN ÜSLUBU

Açar sözlər: Nizami, üslub, Qurani-Kərim, poema, poetika
Key-words: Nizami, Koran, style, poetry, poem
Ключевые слова: Низами, Коран, стиль, поэзия, поема

Bütün poetik məktəblərin, o cümlədən, klassik Şərq poetikasının ədəbi üslubla bağlı olduğu hər kəs tərəfindən qəbul edilən bir həqiqətdir və həmin məsələnin əsas aspektləri ayrıca bir məqalədə təhlil edilmişdir (2.s.225-234). Orta çağların məşhur ədəbi simalarından olan Nizami Gəncəvinin poetikasını araşdırarkən bu önəmli məqamı nəzərdən qaçırmaq olmaz. Həmin məsələnin əhəmiyyəti bir də onunla təsdiqlənir ki, mütəfəkkir şair farsdilli poeziyada yeni bir üslubun – İraq və Azərbaycan üslubunun aparıcı nümayəndəsi sayılır (3.s.770).

Azərbaycan ədəbiyyatşünaslığında üslub məsələləri daha çox yeni və müasir dövrlə məhdudlaşır və çox halda yalnız dilçilik aspektində, həm də epizodik halda qoyulur. Klassik ədəbiyyatın üslubu isə hələ konkret olaraq elmi baxımdan müəyyənləşdirilməmişdir. Bu sahədə yarımçıq da olsa ümumi müddəalar və təsnifat yoxdur. Ona görə bütün dövrün şairləri sadəcə klassik ənənələrin davamçıları sayılır. Halbuki klassik ədəbiyyatın ayrı-ayrı dövrlərində müxtəlif üslublar mövcud olmuşdur. Başqa bir yandan, ədəbi üslub poetika ilə bağlı bir məsələdir və poetik dilin xüsusiyyətlərini öyrənmədən şairin üslubunu müəyyənləşdirmək olmaz.

Orta çağlar farsdilli poeziyada Azərbaycan üslubu Xaqanidən başlasa da, onu mükəmməl biçimə salan, bəlağət və fəsahət baxımından cilalayan Nizami Gəncəvidir. Bu üslubun səciyyəvi xüsusiyyətlərindən biri – ərəb söz və ifadələrinin ədəbi dilə, xüsusilə, poeziyaya nüfuzudur. Həmin prosesin əsasında isə Qurani-Kərim və hədislər dayanır. Bu üslubun ikinci mühüm cəhəti poetik dilin bəlağət və fəsahət baxımından cilalanması və zənginliyindən ibarətdir. Həmin cəhətin kökündə yenə Quran və hədislərin bəlağəti dayanır. Şübhəsiz, hədislərlə müqayisədə öz bənzərsiz üslubu və bəlağət möcüzəsi ilə seçilən Quranın ədəbi əsərlərə təsiri daha çox olmuşdur.

Qurani-Kərimin klassik ədəbiyyata nüfuzu və təsiri bir neçə istiqamətdə özünü göstərir (4.s.34):

1. Etiqad və iman dəyərləri;
2. Əxlaq və didaktik motivlər;
3. Üslub və poetik sistem.

Nizami dünya ədəbiyyat xəzinəsinə beş məsnəvidən ibarət "Xəmsə"si ilə əvəzsiz bir töhfə vermişdir. Onun yaratdığı ədəbi məktəb özündən sonra bütün Şərq xalqlarının ədəbiyat tarixində ən davamlı bir ənənəyə çevrilmişdir və bu ənənə XX əsrin əvvəllərinədək davam etmişdir. Təsadüfi deyil ki, tanınmış alim Qəzənfər Əliyev özünün "Темы и сюжеты Низами в литературах народов Востока" kitabında onun irsini "bədii hünər məktəbi və mükəmməl ideyalar xəzinəsi kimi", Rüstəm Əliyev isə «Низами Генджеви» adlı kitabında şairin yaradıcılığını

dahiyanə hesab edərək dünya ədəbiyyatının qızıl fondunda fəxri yerə layiq olduğunu vurğulayır (5.s.12; 6.s.5).

Şairin "Xəmsə"sinin ilk əsəri "Sirlər xəzinəsi" Sənai Qəznəvinin "Hədiqətülhəqayiq" məsnəvisinə nəzirə olaraq yazılsa da, müəllif kitabının istər quruluşunda, istərsə də üslubunda yenilik edərək onu fərqli və gözəl bir tərzdə oxucularına təqdim etmişdir. Sufi didaktikası, əxlaq və ictimai motivlər mövzusunda yazılan bu əsərdə 20 məqalə üzrə müxtəlif məsələlərə dair baxışlar irəli sürülür, hər məqalədən sonra ona uyğun hekayə verilir. Şairin belə bir üslub seçimi həm oxucularını nəsihətamiz göstərişlərin quru və yeknəsək düsturlarından qoruyur, həm də ayrı-ayrı mövzuların hekayə və ya təmsil vasitəsilə daha anlaşıqlı şəkildə ifadəsinə xidmət edir. Belə bir üslub Qurani-Kərimə xasdır və bu cəhətdən "Sirlər Xəzinəsi" şairin digər məsnəvilərindən fərqlənir.

Quran vəhy yolu ilə nazil olan səmavi kitab olmaqla yanaşı bütün elmləri, bəşər həyatının mühüm cəhətlərini, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını, müsəlman icmasının istək və tələblərini özündə ehtiva edən səmavi kitabdır.

Dünya mədəniyyətinin möhtəşəm abidəsi olan müqəddəs Quran müsəlmanlığın qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir mədəni- tarixi salnamədir. Quranın məqsədi insanlara ilahi həqiqətləri anladaraq onları doğru yola hidayət etmək, haqqın dərgahına çağırmaqdır. Buna uyğun olaraq həmin kitabda fəsahətli və bəlağətli bir üslub işlənir ki, bu da Quranın ecazı adlanır. Quranda müxtəlif məsələlər barədə müəyyən fikirlər irəli sürülür, bəzən keçmişdə baş verən hadisələr nəql edilir, təmsil və misallar gətirilir. Sonda isə hər hansı bir fikrin və ya əməlin doğru və ya yanlış olduğunu qabarıq şəkildə göstərmək üçün ritorik sual ilə "bəs niyə fikirləşmirsiniz?" və ya "ibrət götürmürsünüz?" – deyə insanların diqqətini bəhs edilən məsələyə yönəldir. Ecazkarlığın təkrarolunmazlığını sübuta yetirən bəlağət təliminə görə nitq aydın olmalı, dinləyicinin ruhuna hopmalıdır (7.s.110-112). Cəlaləddin Süyutinin sözləri ilə desək "Quran möcüzədir, çünki ən gözəl düzümü və ən aydın bəyanla çeşidli düşüncələri, ən düzgün və doğru mənaları ifadə etməklə İslam dəyərlərini – tövhid, tənzih, ilahi sifətlər, taət, dua, ibadət, haram-halal, məmnu, mübah, vəz, nəsihət, gözəl əxlaqi yönüm barədə ibrətləri anladır (8.s.201). Mötəzililərin bir qisminə görə,Quran məna, məzmun, hikmət və üslubiyyat baxımından möcüzədir (7.s.47).

Quran öz dil və üslubuna görə başqa kitablara bənzəməz. Onun mətnində vahid və bir-birini izləyən hadisələrin başqa əsərlərə xas süjet xətti yoxdur. Burada çoxlu rəvayət, qissə və təmsillər, müxtəliv misallar işlənir, ancaq bunlar adi hekayə deyil, ibrət və nəsihətdir. Quranda tarixi gerçəkliklər də əks olunur, ancaq O, başqa tarix kitablarna bənzəməz. Bu səmavi kitabı dinlədikcə insanın duyğularına böyük təsir göstərir, onda bədii zövq oyadır, şeir kimi qəlbə və ruha təsir edir. Ayrı-ayrı ayələr müsiqili parçalar kimi ahəngdar poetik sistemə malik olsa da, şeir deyildir. Onun özünəməxsus üslubu vardır. Ali-İmran surəsi, 7-ci ayəyə görə bütün ayələr iki qismə ayrılır:

1. Möhkəm ayələr;
2. Mütəşabih ayələr.

Birinci qism ayələr yığcam şəkildə etiqad və şəriətlə bağlı konkret hökmləri əhatə edir, lakin ikinci qism ayələr nəzərdə tutulan məsələləri daha anlaşıqlı şəkildə

dinləyicilərə təqdim etmək məqsədilə onları analogiya və məsəl gətirmək yolu ilə şərh edir. Quranda böyük yer tutan qissə və məsəllər bu qəbildəndir. Burada əvvəlcə müəyyən hökmlər verilir, sonra onların mənasını açıqlayan, izah edən qissə və misallar gətirilir. Bütün bunlar bir məqsəd daşıyır: nəzərdə tutulan həqiqətləri ibrət ilə anlatmaq.

Nizami Gəncəvi "Sirlər xəzinəsi" məsnəvisini digər əsərlərindən fərqli olaraq daha çox Quran üslubuna uyğun şəkildə yazmağa çalışmışdı: əvvəlcə bir mətləb nəzərə çatdırılır, sonra isə ona uyğun ibrət, nəsihət, hikmət dolu hekayə və təmsil işlənir. Təbiidir ki, sonda müvafiq ibrətamiz nəticə çıxarılır.

Quran üslubuna xas başqa bir cəhət də ondan ibarətdir ki, burada qoyulan mövzular başqa kitablarda olduğu kimi, fəsillərə və bölmələrə ayrılmır. Eyni mövzu və mətləb bir çox surə və ayələrdə verilir və hətta təkrarlanır ki, bu da onları təkidlə xatırlatmaq məqsədi daşıyır. Məsələn, Musa, İbrahim, Nuh və başqa peyğəmbərlərə aid əhvalat və qissələr müxtəlif surələrdə verilir. Yaxud Allahın birliyinə, Onun peyğəmbərlərinə və Axirət gününə iman müxtəlif surə və ayələrdə təkrarlanır. "Sirlər xəzinəsi"ndəki məqalələri mütaliə edərkən oxşar bir mənzərə ilə qarşılaşırıq.

Bu əsərdə irəli sürülən mövzuları məqalələr üzrə belə qruplaşdırmaq olar:

1. Allaha etiqad və münacat.
2. İnsan və onun fəziləti (1, 17, 19-cu məqalələr)
3. Dünya hadisələri və dünyaya münasibət (3, 6, 8, 10-12-ci məqalələr)
4. Nəfslə mübarizə və onun tərbiyəsi (7, 9, 13, 16, 17-ci məqalələr)
5. İctimai ədalət (2, 4, 15, 18, 20-ci məqalələr)

1. Allaha etiqad və münacat.

"Sirlər xəzinəsi" Quran ayəsi ilə başlayır:

بسم الله الرحمن الرحيم
هست كليد در گنج حكيم

"Bismillahir-rəhmanir-rəhim,
Həkimlər xəzinəsinin qapısının açarıdır" (9.s.16)

Nizami ilk dəfə olaraq Allah kəlamını şeir qəlibində işlətmişdir. Burada işlənən "gənci-həkim" (həkim xəzinəsi) ifadəsi həm Allaha və həm də Qurani-Kərimə aiddir; Allahın və Quranın adlarından biri "həkim"dir. Allahın həkim adına 80-dən çox Quran ayəsində işarə vardır, 3 ayədə isə Quran "həkim" adı ilə verilir. Yəni həm Quran, həım də hikmət xəzinəsi Allahın adı ilə açıla bilər. Quran doğrudan da "Bismillahir-rəhmanir-rəhim"lə açılır, eyni zamanda hikmət xəzinəsininin qapısını da Allahın adı ilə açmaq olar.

"*Fikrin başlanğıcı və sözün sonu*
Tanrının adı ilədir, O (adla da bu kitabı) bitir!" (9.s.16)

Bu beyt Nizaminin Allaha olan etiqadını daha qabarıq şəkildə göstərir. Müəllif fikrini Allahla başladığı kimi, sözünün sonunu da Onun adıyla bitirməyi düşünür. Şair Allahın birliyini və başqa sifətlərini vəsf edərkən Qurandan iki yöndə faydalanır:

1. Ayələrin məzmunu;
2. Onların ifadə üslubu.

Nizami əsərinin "Tövhid və münacat" bölümünü:

"*Ey bütün varlığı yaradan*
Zəif torpağı qüdrətli edən!" – beyti ilə başlayır ki, bu da Allahın iki – xaliq və qüdrət sifətini bəyan edir. Həmin sifətlər Ənam: 102, Rəd: 16, Zumər: 63, Mumin: 62, Həşr:24 və onlarla başqa ayələrdə verilir.

Qurani-Kərim bütün kainatın yaradıcısı, hər şeyin xaliqi Allah-Təalanın birliyini, Onun qüdrət və əzəmətini, əzəli və əbədi varlıq olmasını tərənnüm edən İlahi bir kitab, müqəddəs bir himndir. O, insanı məhz Allaha ibadət etməyə, Ona heç bir şərik qoşmamağa, bütün işlərdə yalnız Ona bel bağlamağa, Ondan kömək və mərhəmət diləməyə, yalnız Ona boyun əyməyə çağırır. "Sirlər xəzinəsi"ndə bu motiv ana xəttlərdən birini təşkil edir.

Allaha xas atributlardan biri yoxu var, varı da yox etməkdirsə, Onun əsas sifəti əbədi olaraq qalmaqdır. Allahın substansiyası əvvəli və sonu olmayan bir məfhumdur: Onun üçün nə əzəl, nə də əbəd düşünülməz. Mulk surəsi 23-cü ayədə deyilir:

قُلْ هُوَ الَّذِي أَنشَأَكُمْ وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ قَلِيلاً مَّا تَشْكُرُونَ

"(Ya Peyğəmbər!) De: "Sizi yoxdan yaradan, sizə qulaq, göz və qəlb verən Odur. (Allahın nemətlərinə) nə az şükür edirsiniz!"

Buruc surəsi 13-cü ayədə isə belə deyilir:

إِنَّهُ هُوَ يُبْدِئُ وَيُعِيدُ

"Həqiqətən, (insanı) yoxdan var edən və (öldükdən sonra) təkrar dirildən Odur!"

İxlas surəsi 1 və 2--ci ayədə isə deyilir:

قُلْ هُوَ اللَّهُ أَحَدٌ {1} اللَّهُ الصَّمَدُ

"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!)" . Nizami həmin fikri eyni üslubda belə ifadə edir:

Vücudu və sifətləri əzəli və əbədidir.
Kainatı var edən və yox edəndir. (9.s.17)

Dəyişmək bilməyən yalnız Sənsən,
Ölməz və ölə bilməz yalnız Sənsən. (9.s.20)

Rəhman surəsi, 26-27-ci ayələrdə deyilir:

كُلُّ مَنْ عَلَيْهَا فَانٍ ؛ وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ

"(Yer) üzündə olan hər kəs fanidir (ölümə məhkumdur); Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir". Buna uyğun olaraq Nizami belə söyləyir:

Biz hamımız faniyik, həmişə baqi Sənsən,
Müqəddəs uca məmləkət yalnız sənindir (9.s.20)

Bütün dünyada gələnlərdən əvvəl bir olan Odur
Dünyada əbədi qalanlardan əbədi olan Odur (9. s.16)

Bu məna başqa beytdə belə ifadə olunur:
Ey əzəldən bizlər olmadıqda belə var olan,

Ey bizlər fani olduqdan sonra da əbədi yaşayan (9. s.23)

Şair haqqa bağlılığını və pak etiqadını səmimi tərzdə belə bəyan edir:
Bu qul – Nizami ki, Sənin təkliyini tərənnüm edir,
Hər iki dünyada Sənin səri-kuyinin torpağıdır (9.s. 22)

Yuxarıda verilən misalların çoxunda Nizami Qurana xas olan başqa bir üslubdan faydalanmışdır ki, bu da iki təzadlı tərəfin qarşılaşdırılmasından ibarətdir. Quranda və İslamda iman və küfr, dünya və axirət, həyat və ölüm, fəna və bəqa kimi təzadlar qarşılaşdırılır (10. s.83). Nizami də bir növ Qurana xas bir üslubda başlanğıc-son, zəif-qüdrətli, fani-baqi, var edən-yox edən, əzəl-əbəd kimi qütblər arasında təzadlar sistemi quruir.

2. İnsan və onun fəziləti haqqında.

Qurana görə, insan torpaqdan yaradılmışdır (Ənam: 2, Əraf: 12, Hicr: 26, 28, 33), Kəhf: 37Ş, Taha: 55 və s.). Onu şərəfli edən və başqa məxluqatdan fərqləndirən elm və ağıldır; o, ağıl və elmin köməyi ilə yaxşını pisdən seçə bilir, yəni doğru-düzgün yolu tapa bilir:

Kim ki, düz yolla gedib, özündən bir nişan qoyub,
*Kim ki, pislik edib, onun zəmanətini (əvəzini) verməli olub (*9.s.177)

Şair insan əxlaqı üçün önəmli şərtlər irəli sürür.
Sən humaysansa, şərəfli işlər gör,
Az ye, az danış və az incit. (9.s. 114)

Quranda Adəmə dair ilk hekayətlərdə onun torpaqdan yaradılması və iblisin cənntdə Həvvanı yalnış yola sövq etməsi əks edilir. Quranda deyilir ki, Allah Adəmi torpaqdan yaradıb, Ona səcdə qılmalarını əmr etdi. Yeganə etiraz edən İblis oldu, çünki oddan yaradıldığı üçün özünü torpaqdan yaranmış Adəmdən üstün tutdu ( ). Bütün bu fikirlər Qurana xas üslubda Nizaminin yaradıcılığında öz əksini tapmışdır.

O, pərilərin ən axırıncı uşağı idi,
(Lakin) yüksək rütbəli bəşərin birincisi oldu. (9.s.78)

Quran mətninin böyük bir qismini moizə və nəsihət kimi didaktik-əxlaqi motivlər təşkil edir ki, bunların əksəriyyətində insan fəzilətinin önəmli cəhətləri öz əksini tapır. Həmin motivlərin təbliği və izahında isə hekayə, qissə və təmsillərdən istifadə olunur. Eyni motivlər müxtəlif surələr və ayələrdə, bəzən də təkrar-təkrar diqqətə çatdırılır. Həmin ülubun hədəfi önəmli məsələləri yaddaşlarda və psixologiyada həkk etməkdir.

"Sirlər xəzinəsi"ndə insan və onun fəziləti barədə verilən məqalələr və onlarla əlaqədar işlənən hekayələr Quran üslubu üzərində tənzimlənmişdir.

İnsan və onun fəziləti məsələsi bir çox məqalələrdə öz ifadəsini tapır: 1-ci məqalədə Adəmin yaradılışı və ardınca ümidsiz padşahın bağışlanması dastanı verilir, 7-ci məqalədə Adəmin fəzilətindən bəhs edilir. Ara-sıra başqa məqalələrdə də bu mövzuya toxunulur. 1-ci məqalənin 4 və 5-ci beytləri birbaşa Quran ayəsinə işarədir:

آن بخلافت علم آراسته
چون علم افتاده و بر خاسته
علم آدم صفت پاک او
خمر طینه شرف خاک او

Tərcümə:

"O xilafət üçün öz bayrağını bəzəyib,
Bayraq kimi (bəzən) yıxıldı, (bəzən) ucaldı.
"(Allah) Adəmi öyrətdi" (ayəsi) onun pak sifətidir,
" (Allah) onu torpaqdan yoğurdu" (ayəsi) isə torpağının şərəfidir" (9.s.78)

Burada insanın başqa məxluqatla müqayisədə üstünlüyü və Adəmin xəlifəlik məqamı onun elmi ilə müəyyənləşir. Bəqərə surəsi 31-ci ayədə deyilir:

وَعَلَّمَ آدَمَ الأَسْمَاء كُلَّهَا ثُمَّ عَرَضَهُمْ عَلَى الْمَلآئِكَةِ فَقَالَ أَنبِئُونِي بِأَسْمَاء هَـؤُلاء إِن كُنتُمْ صَادِقِينَ

"(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!"- dedi".

3. Dünya hadisələri və dünyaya münasibət.

Qədim dövrlərdən Şərq xalqlarının düşüncəsində dünyaya belə bir münasibət vardır: o, vəfasız və fanidir, onun parıltılarına aldanmaq olmaz. "Dünyanın faniliyi" motivi Quranın əsas mövzularındandır və bu heç də tərkidünyalıq mənası bildirmir. Əcəl yetişəndə harda olmasından asılı olmayaraq hər bir insan dünyasını dəyişməli olacaq. Deməli, o, öz rəftar və əməlinə nəzarət etməlidir. İnsana verilən həyat onu sınamaq üçündür və o, dünya həyatında axirəti unutmalı deyil. Torpaqdan yaranan insan sonda yenə torpağa gedər, yəni kimsə özü ilə bir şey aparmaz:

Bu torpaqda yaşayanların hamısı torpaq olublar,
Torpaq nə bilir ki, bu torpaqda nə var? (9.s.93)

Dünya həyatının müvəqqəti və keçici olduğunu dərk edən şair, insanı bu dünya evində kirəkeş və ona yem olduğunu gözəl bir məcazi-kinayəli deyimlə ifadə edir:

Dünyanın Səndən yaxşı kirəkeşi (həmxanəsi) yoxdur.
Yer quşunun Səndən yaxşı dəni yoxdur (9.s.108)

İnsan həyatını dəyişərkən özüylə heç bir şey aparmır. Ona qalan büküldüyü bir arşın ağ və bu dünyada qoya biləcəyi təmiz addır ki, o da hər kəsə nəsib olmur.

İstər gözəl, istər çirkin sifətlə get (bunun əhəmiyyəti yoxdur)
Sənə qalan yalnız apardığın ağ olacaq (9.s.177)

Aşağıdakı beytdə isə el arasında atalar sözü kimi işlənən "Süleymana qalmayan dünya kimsəyə qalmaz" hikməti ifadə olunub:

Süleyman mülkünü axtarma ki, hardadır
Mülk elə həmin mülkdür, bəs Süleyman (indi) hardadır? (9.s.93)

Quran ayələri hikmət, nəsihət və ibrətdir və bənzərsiz bəlağət və fəsahətə malik olan bu kitabda yığcam, hikmətli deyimlər diqqəti cəlb edir. Nizami də həmin yığcam, lakin dərin və hikmətli üslubdan yararlanır:

Ömür azdır, ona görə də qiymətlidir,
Ömrün qiyməti onun azlığındadır (9.s. 122)

4. Əmmarə nəfslə mübarizə və onun tərbiyəsi.

Qurani-Kərimdə insanın nəfsi paklığı və tərbiyəsi önəmli yer tutur. İnsan Allaha və Haqqa yaxınlaşmaq üçün əmmarə nəfslə mübarizə aparmalıdır. Nəfs insanı pisliyə sövq edir və bunun ilk təzahürü Qabildə görünür: Nəfs Qabili yoldan çıxararaq qardaşını öldürməyə sövq etdi, o, Qabili öldürdü və bununla da zərərşəkənlərdən oldu (Maidə: 30). Pis işlər nəfsdən doğur. Yusif surəsi 53-cü ayədə deyilir: "Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla nəfs pis işlər görməyə sövq edər."

Nizami "Sirlər xəzinəsi"ndə ürəyi nəfsin məkrindən qorumaq üçün qırx gün çillə keçirməyi tövsiyə edir. Bu əlbəttə, sufiyanə bir tərbiyədən irəli gəlir:

Öz cismini candan da təmiz, pak edərsən,
Onu qırx gün həbsdə saxlasan. (9.s.115)

Başqa bir beytdə nəfs divə bənzədir:

Nəfsin zınqırovundan sədanı yüksəlt,
Dinin qulu ol, divin qulu olma (9.s.116)

Tamahın və nəfsin qarşısını ağıl ilə almaq olar:

Sənə tamahla bərabər ağılı ona görə veriblər ki,
Sənə göndərilməyən şeyi yeməyəsən (9.s.122)

V. İctimai ədalət.

Qurani-Kərim təkcə fərdlərin etiqad və imanını kamilləşdirərək onu doğru yola yönəltməklə məhdudlaşmır. Əxlaqi- mənəvi dəyərlərə böyük qiymət verən bu kitab insanlar arasında rəftar və münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Burada ədalət prinsipi aparıcı yer tutur və Allahın əsas sifətlərindən biri Onun ədalətidir. Ədalət özünü iki yöndə göstərir:

1. Allah kimsəyə zərrə qədər zülm etməz, insanlar özləri-özlərinə zülm edərlər.

Bu baxımdan bir çox ayələr diqqəti cəlb edir: Ali-İmran: 25, Nisa: 40, 49, Yunus: 44, Hud: 101. Ali-İmran surəsi, 25-ci ayədə deyilir:

فَكَيْفَ إِذَا جَمَعْنَاهُمْ لِيَوْمٍ لاَّ رَيْبَ فِيهِ وَوُفِّيَتْ كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ وَهُمْ لاَ يُظْلَمُونَ

"Elə isə (vaqe olacağına) şübhə edilməyən bir gündə (qiyamət günündə) onları (bir yerə) topladığımız zaman (onların) halı necə olacaq? (O gün) hər kəsə qazandığının (tutduğu əməllərin) əvəzi ödəniləcək və onlara heç bir haqsızlıq edilməyəcəkdir".

2. Allah kafirləri sevmədiyi kimi, zalımları da sevməz, deməli, Allahın sevimli bəndəsi olmaq üçün həm iman sahibi, həm də ədalətli olmaq lazımdır. Bu baxımdan aşağıdakı ayələr diqqətəlayiqdir: Ali-İmran: 57, 140, Maidə: 51, Ənam: 144, Şura: 40. Eyni zamanda Allah ədalətli olanları sevər: Maidə: 42, Mümtəhinə: 8.

Quran məktəbindən faydalanan Nizaminin yaradıcılığında sosial ədalət aparıcı mövzulardan biridir. Həmin mövzuya "Sirlər xəzinəsi"ndə də mühüm yer verilir.

Şair ikinci məqalədə deyir:

Ey rəyi (bütün) canlıların şahı olan,
Ey ayanı bütün tacdarların gövhəri olan
Əgər sən şahsansa, şahlıq mülkünü abad et,
Əgər gövhərsənsə, İlahi tacını abad et. (9.s.86)

Şair bu beytləri ilə ağıl və idrakı ilə bütün canlıların şahı və tac gövhəri olan insana müraciət edir: "sən şah və hakimsənsə öz məmləkətini, şahlıq mülkünü

ədalətlə abad elə". "Ədalətli Nuşirəvan və vəzirin hekayəsi" bu mövzuya həsr edilmişdir:

Az-çoxluğu hesablayarkən,
Zəhmətlə muzdu bərabər tut. (9.s.115)

"Sultan Səncər və Qarı" hekayəsində şair şair hömdarları ədalətli və insaflı davranışa dəvət edir:

Yetimlərin malını qəsb etmək (yaxşı) iş deyil,
Ondan əl çək, o ki, abxaz qarəti deyil. (9.s.101
və ya
Ölkənin işini nizama salan şah,
Gərək rəiyyətin hüququna riayət etsin. (9.s.101)

Bu qısa məqalədə verilən məlumatlar və irəli sürülən mülahizələr Nizaminin "Sirlər xəzinəsi"ndə Quran üslubuna xas xüsusiyyətlərin geniş yeri aldığını təsdiqləyir. Bunları belə ümumiləşdirmək olar:

1. İman və etiqadla bağlı yığcam deyimlər ayələrə uyğun verilmişdir.
2. Hikmətamiz və ibrətamiz ifadələr də yığcam Quran üslubuna xas şəkildə ifadə edilir.
3.Misal və rəvayət vasitəsilə hər hansı bir fikrin başa salınması yenə Quran üslubundan qaynaqlanır.
4. Quranda fikir və ideyanın ifadəsində iki yol vardır: Möhkəm ayələrə xas yığcam hökmlər, mütəşabih ayələrə xas təsviri yol və misallar. Bunlar bir-birini tamamlayır və "Sirlər xəzinəsi"ndə hər iki yoldan istifadə edilmişdir.
   a. Məqalələrdə qoyulan məsələlər birinci yola;
   b. Hekayələrdə qoyulan məsələlər isə ikinci yola uyğundur.
5.Quranda diqqəti cəlb edən dünyaya münasibət və ictimai motivlər də bu əsərdə həmin ruha və üsluba uyğun tərzdə ifadə edilir.

Ədəbiyyat

1. Qurani-Kərim.
2. Mahirə Quliyeva. Klassik şərq poetikası dil və üslubiyyat kontekstində. Filologiya məsələləri. "Elm və təhsil" nəşriyyatı, 2012, №6, s, 225-234
3. Dər bareye-ədəbiyyat və nəqde-ədəbi. Doktor Xosrov Fərşidvərd. Tehran: Əmir Kəbir. 1385.
4. Hələbi Əliəsgər. Təsir Qoran dər ədəbe-farsi. Tehran: Agah. 1382
5. Г.Ю. Алиев. Темы и сюжеты Низами в литературах народов Востока. М. 1985
6. Р. Алиев. Предисловие к «Лирике» Низами Гянджеви. Баку: Язычы. 1981
7. Mahirə Quliyeva. Şərq poetikasının əsas kateqoriyaları. Bakı: "Maarif". 2010
8. Doktor Osman Kəşkioğlu. Nüzulundan günümüzə Qurani-Kərim bilgiləri. Ankara. !989 bilgiləri

9. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Müqəddimə, filoloji tərcümə, şərh və lüğət: R. Əliyev. B.1981
10. Nəsib Göyüşov. Quran və irfan işığında. Bakı: İqtisad Universiteti. 2004.

Mahira Quliyeva

” Preasure – house of Mysteries” by Nizami and style of Koran

Summary

In the article analysed the main peculiarities style of Koran, which used in the poem “Preasure-house of Mysteries” by Nizami. Agreed with this style, first is given the didactical recommendation and then translated the correspondiny story. Here is distinguished the common didactical meaning including the following motives

1. Religion and conviction:
2. The human being and his virtues:
3. Attitude to the world
4. Lighting against the flesh soul and its upbringing
5. Soiral justice

Маира Кулиева

“Сокровищница тайн” Низами и коранический стиль

Резюме

В статье анализирован основные свойства коранического стиля, которые использованы в поэме “Сокровищницы тайн” Низами. Согласно данному стилю, сначала даются дидактические рекомендации, а затем приводятся соответствующие сказания. Здесь выделяется общее дидактическое ядро, включающее в себя следующие мотивы:

1. Вероисповедание и убеждение;
2. Человек и его добродетели;
3. Отношение к миру;
4. Борьба против плотской души и ее воспитание;
5. Социальная справедливость.

Rəyçi: Nəsib Göyüşov
filologiya elmləri doktoru

AYGÜL AĞAYARLI
Qafqaz Universiteti
aygul12@box.az

NƏSİMİ POEZİYASINDA AŞİQLiK MƏNƏVİ-ƏXLAQİ KAMİLLİK KİMİ

Açar sözlər: Allah, Nəsimi, vəhdət, aşiqlik, kamil insan, ilahi eşq
Key words: God, Nasimi, unity, the state of being in love, perfect man, divine love
Ключевые слова: Бог, Насими, влюбленность, единство, совершенный человек, божья любовь

Klassik ədəbiyyatımızın söz xəzinəsini zənginləşdirən şairlərdən biri də İmadəddin Nəsimidir. Nəsiminin ictimai-fəlsəfi ideallarla zəngin olan ədəbi irsi yüksək bədii-estetik səviyyəyə malik poeziya kimi Azərbaycan ədəbiyyatı tarixində əzəmətli bir mərhələ təşkil etməklə bərabər, həm də humanist ideyaların carçısı, azad düşüncəli poeziya kimi olduqca böyük əhəmiyyətə malikdir.

Məlumdur ki, bədii sözün ideya və bədii-estetik təsir qüvvəsindən tarix boyu bütün yeni fikir nümayəndələri istifadə etmişlər. Bir şair kimi Nəsiminin qüdrəti yalnız qabaqcıl fikirlərində deyil, həm də bu fikirləri şüurlara yeridən bədii sözdən məharətlə istifadə edə bilməsində idi. Belə ki, Nəsimi klassik şeir dili ilə xalq dilini ustalıqla birləşdirərək əsrinin oxucu və dinləyicilərinə maksimum dərəcədə təsir göstərməyə, təbliğ etdiyi fikirlərə müvafiq bədii forma, şüurlara nüfuz edən poetik ifadələr tapmağa müvəffəq olmuşdur. Zəngin dil ehtiyatına malik olan şair həm klassik poeziyanın ənənəvi məhəbbət lirikası qolunda, həm də dini-fəlsəfi şeirlərində qələminin məharətini ustalıqla nümayiş etdirə bilmişdir.

Nəsimi şeirinin dərin ictimai-fəlsəfi məna kəsb etməsi, poeziyasının həyati qüvvəsi, heç şübhəsiz, şairin ərəb və fars dillərini bilməsi sayəsində Yaxın Şərq ədəbiyyatına, ictimai-fəlsəfi fikrinə yaxından bələdliyi ilə üzvi surətdə bağlıdır. Özündən əvvəlki şeirin təcrübəsindən özünə lazım olan vəznləri, daha çox mütəhərrik, oynaq bəhrləri seçən Nəsiminin üslub axtarışları xüsusilə onun dini-fəlsəfi şeirlərində daha qabarıq görünür. Məhz bu şeirlərdə Nəsimi döyüşkəndir, tələbkardır, o, yeni fikirlər, tezislər irəli sürür, köhnə fikirləri inkar edir. Bu müxaliflik ruhu şairin üslubuna, lüğətinə də təsir edir.

İnsanı mənəvi məhkumluqdan, köləlikdən, cəhalətdən, ətalətdən azad etmək, cəmiyyətdə baş verən hadisələrə qarşı onda narahatlıq, fəallıq və qayğı yaratmaq, insan adı ilə fəxr etmək Nəsiminin humanizm proqramının əsasını təşkil edirdi. Nəsimi bütün yaradıcılığı boyu insana məhəbbəti, insan zəkasını, kamalını, gözəlliyini tərənnüm etmişdir. Ona görə, insan Allahın (c.c) təcəllasıdır. Allah insanı yer üzünün xəlifəsi olaraq xəlq etmişdir, yəni yer üzündəki bütün gözəlliklər insan üçün yaradılmışdır. Belə olan halda nə üçün insanlar arasında dini, irqi ayrı seçkilik olmalıdır?! Dinindən, irqindən, məzhəbindən asılı olmayaraq bütün insanları məhz insan kimi dəyərləndirməyi bütün yaradıcılığı boyu təbliğ edən şair bu düşüncələrini də çox aydın şəkildə ifadə etmişdir. Bəs Nəsiminin insanı Allahın təcəllası adlandırmaqda məqsədi nə idi? Tədqiqatçı alim M.Quluzadə bu barədə yazır: "Şair insanları əxlaq və təbiətcə kamala çatdırmaq üçün bu görüşdən istifadə

edir. Nəsimiyə görə, Allahı həqiqi surətdə tanımaq ədalətli bir qəlbə, saf, nəcib bir ruh malik olmaq, insanlara doğruluq və sədaqətlə xidmət etmək, hər cür rəzillikdən, alçaq əməllərdən uzaq durmaq sayəsində mümkündür. Allahı göylərdən yer üzünə, insanların içərisinə endirmək də məhz bu qayədən irəli gəlirdi " (1,s.47). Fikrimcə, alim Nəsimi yaradıcılığındakı bu əsas cəhəti çox doğru qiymətləndirir, çünki tədqiqatçı alimin də vurğuladığı kimi Nəsimi məhz onu demək istəyir ki, yaradılışının qayəsini dərk edən insan, Allahın hər an onunla olduğunu bilərək, insanlıq xislətinə, yaradılış qayəsinə zidd olan əməllərdən uzaq durar.

Nəsiminin yaratdığı dini-fəlsəfi şeir dili onun türk xalqları poeziyası tarixində ən böyük, ən misilsiz xidməti idi. Dərin fəlsəfi əsaslara söykənən poeziyası ilə mühüm ictimai, bəşəri ideyaların ifadəçisinə çevrilən Nəsimininin məhəbbətə həsr olunan şeirləri də sadəcə sevgi hissinin tərənnümü ilə məhdudlaşmır, bu nəcib duyğunun həm bəşəri, insani, dünyəvi gözəlliyini, həm də təsəvvüf ədəbiyatından qaynaqlanan ilahi mahiyyətini müxtəlif çalarlarla, bədii-poetik boyalarla bütün dolğunluğu ilə, təfərrüatlı şəkildə əks etdirir. İlahi atributların zənginliyi ilə seçilən Nəsimi poeziyasında məhəbbət bir fəlsəfi kateqoriya kimi maddi aləmlə ruhi aləmin vəhdəti prinsipindən yaranmışdır. Məntiqi-əqli düşüncə tərzi ilə intuitiv, yəni əsasında eşq olan nəzəriyyə arasındakı əlaqəni öz yaradıcılığında uğurla müəyyən edən filosof şair İlahi mahiyyətlə maddi təzahürlərin qarşılıqlı əlaqəsini də dialektik vəhdətdə verə bilmişdir. Bir sözlə, Nəsimi yaradıcılığında İlahi eşq-insani məhəbbətlə, İlahi harmoniya-Kainatın tarazlığı ilə, İlahi həqiqət-həyat həqiqəti ilə, İlahi saflıq-saf əxlaq və xeyirxahlıqla uzlaşır. Məhəbbətə həsr olunan şeirlərində Nəsiminin başlıca məqsədi ölüm və ölməzlik arasındakı münasibəti tənzimləməkdən ibarətdir desək, yanılmarıq. Eşqə kor-koranə fiziki qüvvə kimi deyil, fəlsəfi kateqoriya kimi qiymət verən Nəsiminin yaradıcılığında məhəbbət insanı mənəvi yüksəlişə aparan bir yoldur və məhz onunla varlığın ilkin mahiyyəti dərk edilir.

"Nəsimi yaradıcılığının nüvəsini, əsasını təşkil edən insan konsepsiyasını iki aspektdə müəyyənləşdirərək Aşiq "Mən" və Məşuq "Sən" obrazlarının və onların qarşılıqlı münasibətləri timsalında ümumiləşdirmək olar" (2,s.96).

Kamil aşiq və yaxud aşiq "Mən" kamilllik atributlarını özündə əks etdirən və yer üzünə xəlifə kimi göndərilən ən ali varlıqdır. Nəsimiyə görə, bu ali varlıq yalnız və yalnız öz yaradılışının ən yüksək mərtəbəsinə çatdıqda kamilləşər, öz "Mən"ini Allaha olan sevgisində əridər və Onunla vəhdət təşkil edər. Bu vəhdət məqamının baş verməsi üçün isə aşiqi-kamil olan insan ilk novbədə özünü dərk etməlidir ki, öz daxilində, öz varlığında ilahi təcəllanın işartılarını duysun, ilahi cövhəri kəşf etsin.

"Cövhəri olmaq gərəkdir, cövhəri bulmaq gərək,
Hər kimin könlündə vardır, vara ol kan istəyə" (3,s.49).

Bir məqamı da qeyd etmək lazımdır ki, aşiq "Mən" anlayışı şərti anlayışdır və bu ad altında məhz şairin özü nəzərdə tutulmuşdur. Çünki bütün məqamlarda Nəsimi poeziyasındakı lirik qəhrəman, kamil aşiq məhz elə şairin özüdür. Həmçinin məşuq "Sən" obrazına da bu şərtilik aiddir. Lakin xüsusilə vurğulamaq lazımdır ki, Nəsimi poeziyasındakı "məşuq" obrazına muxtəlif baxış bucaqlarından yanaşmaq olar. Belə ki, şairin yaradıcılığına həsr olunan tədqiqatlarda üç məşuq obrazı ilə qarşılaşırıq:

1) Sovet dövrünə aid olan tədqiqatlarda Nəsimi yaradıcılığındakı məşuq obrazı sırf real insan kimi təhlil olunmuşdur. Aydındır ki, bu insan bir qadındır, bu qadın yüksək əxlaqi-keyfiyyətlərin və gözəlliyin daşıyıcısıdır.

2) Müstəqillik dövründə meydana çıxan tədqiqatlarda isə Nəsimi yaradıcılığında daha iki "məşuq" obrazının olduğuna diqqət çəkilmişdir. Bunlardan biri Allah, digəri isə Nəsiminin müəllimi Fəzlullah Nəimidir. Nəzərə alsaq ki, Nəsimi özü də hürufilik ideyasının daşıyıcısı olmuşdur, onun yaradıcılığındakı "məşuq" obrazının da əslində simvolik bir obraz olduğunu və "məşuq"u vəsf edərkən istifadə etdiyi bədii təsvir və ifadə vasitələrinin də simvolik qata malik olduğunu qəbul etmək, bu ad altında daha çox onun Allaha olan sevgisinin və müəlliminə olan dərin məhəbətinin öz əksini tapdığını demək daha doğru olardı. Lakin bununla yanaşı şairin real gözələ həsr etdiyi şeirlərin mövcudluğunu da inkar etmək mümkün deyil. Bu fikirləri şairin öz misraları da təsdiq edir.

"Sənəma, üzün gülündən gülə-gülə gül utandı,
Xəcil eylədi dodağın şəkəri, nabatı, qəndi" (3,s.112).
Qara qaşların yayından mana kirpik oxun atar,
"Ala gözlərin məgər kim, yenə qanıma susandı" (3,s.112).

Göründüyü kimi, bu misralar yalnız real insani məhəbbətin təsvirindən ibarətdir. Başqa bir nümunəyə nəzər yetirək.

"Surətin çün "əhsəni-təqvim" imiş,
Səndə zühur eylədi sübhanımız!
"Savvarakəllahü əla şəklihi"
Üştə nəbinin sözü bürhanımız" (4.s,111).

"Bu şeirdə isə şair Fəzlullaha müraciətlə deyir ki, sənin surətin "əhsənüt-təqvim" imiş. "Tin surəsinin 4-cü ayəsində deyilir ki, "biz insanı ən gözəl biçimdə" (əhsənüt-təqvim) yaratdıq. Nəsimiyə görə, bu söz Fəzlullahın simasında isbata yetir" (4.s,111).

Ümumilikdə, gətirilən misallardan da bir daha aydın olur ki, Nəsimi poeziyasında həm gözələ olan sevgi, həm müəllimi Fəzlullah Nəimiyə olan dərin hörmət və məhəbbəti, həm də özünü dərk etmə məqamlarından keçərək kamilləşən aşiqi-kamilin Allaha olan sonsuz sevgisi bədii sözün bütün ifadə imkanlarından maksimum dərəcədə istifadə edilərək şairin poeziyasına xas yüksək bədii-estetik səviyyəli, təntənəli üslubda qələmə alınmışdır.

"Təsəvvüf fəlsəfəsində aşiqlik haqqında iki cür anlayış vardır: İnsan cismi daxilində runun aşiqliyi, yəni bəlalı, dərdli bir aşiqlik və insan cismində olan ruhun cisimdən xilas olaraq Yaradana doğru gedişindəki aşiqlik. Cismdən azad olan ruhun aşiqliyi qəm və iztirablardan uzaqdır. İlahininin sonsuz gözəlliyi və İlahi vüsal ümidi ilə sonsuz sevinc hissi yaradır" (5,s.69). Nəsimi poeziyasında da biz aşiqliyin bu aspektdə inkişafını görürük.

"Can quşunu uçuranda buldu iman hər kim ol,
Canü dildən ol pərirüxsara döndərmiş üzün" (6,s.52).

Nəsimi poeziyasında "kamillik mütləq mənada ancaq Allaha aid edilir. İnsanın kamilliyi isə birbaşa ilahi kamilliklə bağlı olub onun mahiyyətindən irəli gəlir" (5,s.45). Həmçinin bu kamillik insanın mənəvi-əxlaqi keyfiyyətləri ilə bilavasitə əlaqədar olaraq aşiqliyin, saf və təmiz eşqin əsas göstəricisi kimi çıxış edir və ilahi eşq yolunun bütün mərhələlərindəki iztirablara və çətinliklərə məhz bu

kamilliklə qalib gəlmək mümkündür. Bu yolda çəkilən cismani əzablar mənəvi yüksəlişə xidmət etdiyindən məmnuniyyətlə qəbul olunur, hətta mənəvi-əxlaqi kamillik yolunun yolçusu olan insana-aşiqə Rəbbani eşq yolunda çəkdiyi cəfalar belə səadət gətirir.

"Aşiq bəla yolunda gərək kim, həmul ola,
Mə'şuqədən ana nə gəlürsə, qəbul ola.
Gerçək mühibbə cövrü cəfa çünki yar edər,
Neyçün cəfadən incinə, qəmdən məlul ola?" (3,s.16).

Nəsimiyə görə, insan cisim və ruhun vəhdətinin ahəngdar daşıyıcısıdır. İlk növbədə elə bu vəhdətin, ahəngin özü kamilliyin göstəricisidir. Sufilikdəki kamil insan təlimini, yəni ruhun mərifət hasil edərək, kamala çatmasını məmnuniyyətlə qəbul edən Nəsimi şeirlərinin əksəriyyətində də ruhun insanda mərifət kəsb edərək, kamala çatmasından danışır, lakin bu nəzəriyyəni sadəcə təkrar etmir, ondan özünəməxsus nəticələr çıxarır, təsəvvüf fəlsəfi dünyagörüşündən qaynaqlanan ideyaları şeirlərinin ümumi poetik ruhuna xələl gətirmədən böyük ustalıqla ifadə edir.

Təsəvvüf fəlsəfəsinə əsasən deyə bilərik ki, mənəvi təmizlənmə məqamlarından uğurla keçib Allahla vüsal dəminin son mərhələsi olan və mənəvi-əxlaqi kamilliyin ən yüksək göstəricisi sayılan "bəqa" halını yaşayan kamil insan Allaha xoş gedən əxlaqa sahib olaraq yer üzərində öz üzərinə düşən missiyanı yerinə yetirmək üçün həm fiziki, həm də ruhani mahiyyət etibarilə tam hazırdır. Bu işinə isə o, Allahın mahiyyətindən, İlahi həqiqətdən süzülüb gələn sevgi və şəfqət hissi ilə yanaşır. Artıq aşiqi-kamilin gözünə kainatın bütün yaradılmışları Onun təzahürləri kimi görünür. Bu təcəlla prinsipinin Nəsimi yaradıcılığında da eynilə olduğu kimi oz əksini tapdığını görürük.

"Kimi verməz nişan səndən əgərçi,
Yerü gög dopdolu cümlə nişansan" (6,s.78).

Beləliklə, Nəsimiyə görə, bütün cismani şeylərin gözəlliyi Həqiqətin əşyalarda təcəssümünün gözəlliyi kimi təzahür edir. Buna görə də "forma almış əşyalar, yaxud maddi aləmin formaları ilk "Obraz"ın obrazları olub "güzgü" vəzifəsini yerinə yetirirlər" (5,s.84). Bu "güzgü"də kamil insanlar Allahı seyr edə bilirlər. Bu seyr zamanı isə yaradılanların gözəlliyi, tamlığı, ahəngdarlığı kamil insanı Allahdan nəinki ayırmır, əksinə ona Vahid olanı xatırladır.

"Necə kizlədəyim məndən səni çün,
Nəyə kim baxıram, anda əyansan" (6,s.78).

Ədəbiyyat siyahısı:

1. Quluzadə M. Böyük ideallar şairi, Bakı: Gənclik, 1973
2. Xavəri Sərxan. Azərbaycan təsəvvüf ədəbiyyatı (namizədlik dissertasiyası), Bakı, 2000
3. İmaməddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild, Bakı: Lider, 2004

4. Qasımova Aida. XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri, Bakı: Bakı Universiteti, 1998
5. Şəkixanova Mətanət. Sufizm fəlsəfəsinin "kamil insan" konsepsiyası (doktorluq dissertasiyası), Bakı, 2006
6. İmaməddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild, Bakı: Lider, 2004

A. Agayarli

The state of being in love as spiritual moral maturity in the poetry of Nasimi

Summary

Perfect man takes part as a harmonious carrier of body and spirit in the creative work of Nasimi who has praised humanist ideas during all his activity. In this article has been talked about the state of being in love of the man amounted unity with the spiritual moral maturity who has perceived of yourself in the creative work of Nasimi. It has been defined in which aspect of the man maturity had been put in the poetry of poet with examples brought from his creative work.

А. Агаярлы

Влюбленность в поэзии Насими как нравственно-этическое совершенство

Резюме

Совершенный человек, являющийся гармоническим носителем тела и души, выступает в качестве главного образа в творчестве воспевающего гуманистические идеи Насими.

В данной статье дается описание влюбленности познавшего себя человека в единстве с нравственно-этическим совершенством в творчестве Насими. Примерами, приведенными из творчества поэта, определяется, в каком аспекте рассматривается в его поэзии совершенство человека.

Rəyçi: Sərxan Xavəri
filologiya elmləri üzrə fəlsəfə doktoru

доц. РЕНА КЕРИМОВА
Бакинский славянский университет

ЛИНГВОСТРАНОВЕДЕНИЕ В ТЕОРИИ И ПРАКТИКЕ ПРЕПОДАВАНИЯ РКИ

Ключевые слова: преподавание, учебный процесс, средства общения, интеграционные процессы
Acar sözlər: tədris, tədris prosesi, əlaqə vasitəsi, inteqrasiya prosesləri
Key-words: teaching, the learning process, means of communication, integration processes

В современной методике обучения русскому языку как иностранному прочно утвердилось мнение об изучении языка и культуры в их взаимосвязи и взаимодействии. Итак, усвоение любого иностранного языка – это усвоение новых понятий, которые отражают культуру изучаемого языка и выражаются различными языковыми средствами.

Основы лингвострановедческой теории были заложены в начале 70-х годов XX века в работах российских ученых Е.М.Верещагина и В.Г.-Костомарова. Лингвострановедение определялось как «аспект преподавания русского языка иностранцам, в котором с целью обеспечения коммуникативности обучения и для решения общеобразовательных и гуманистических задач лингвострановедчески реализуется кумулятивная функция языка и проводится аккультурация адресата, причем методика преподавания имеет филологическую природу – ознакомление проводится через посредство русского языка и в процессе его изучения» (1, 37).

Работая с иностранными учащимися, преподаватель должен включать в содержание своего обучения сведения и рекомендации о реалиях страны изучаемого языка и стереотипах поведения ее носителей, что очень важно. Национальные стереотипы есть в каждой культуре, а их существование имеет очень глубокий социальный, культурный, психологический и коммуникативный смысл. Незнание норм поведения может нарушить коммуникацию, привести к так называемому культурному или коммуникативному конфликту.

Развитие мировых интеграционных процессов в начале 90-х годов XX века привело к необходимости пересмотреть подходы к определению понятия «лингвострановедение», выяснить его место в кругу сложных дисциплин, а также выяснить способы презентации лингвострановедения в учебном процессе.

В настоящее время лингвострановедение рассматривается как область методики, связанная с исследованием путей и способов ознакомления иностранных учащихся с современной действительностью, с культурой через посредство изучаемого языка и в процессе его изучения и преподавания. Здесь, с одной стороны, язык выступает как средство познания национальной культуры, а с другой стороны, национальная культура рассматривается как непременное условие полного овладения русским языком. В то же время лингвострановедение – это и область лингвистики, которая занимается

изучением национально-культурной специфики в языковых единицах, исследует элементы семантики, отражающие национальную культуру (2, 62).

В лингвострановедении длительное время преобладал такой подход, когда национально-культурная специфика языка и текстов изучалась безотносительно к национальному составу обучаемых. Широко практиковались лингвострановедческие пособия, адресованные любым иностранцам, изучающим русский язык. В меньшей степени уделялось внимание проблемам сопоставительного лингвострановедения.

Главная цель сопоставительного лингвострановедения – «через изучение выраженной в языке национальной культуры, обеспечение коммуникативной компетенции в актах межкультурной коммуникации представителей конкретных языков и культур» (4, 253).

Поскольку национальное своеобразие культуры находит выражение, прежде всего в лексике и фразеологии, то именно лексические и фразеологические единицы являются объектом сопоставительного лингвострановедения. Свои традиционные способы здороваться, знакомиться, поздравлять, ссориться есть в каждой культуре.

Присутствие в языке слов, обозначающих элементы национальной культуры, быта, национальной одежды, кухни, слов, обозначающих имена, фамилии, географические названия и т.п. затрудняет коммуникацию в силу их уникальности и отсутствия эквивалента в родном языке учащегося.

Цель лингвострановедческой работы на занятиях по русскому языку состоит в том, чтобы помочь учащимся преодолеть трудности восприятия специфических для русской действительности и культуры явлений, чтобы слова, обозначающие эти явления, а также нормы поведения и формы речевого общения стали понятны им, и учащиеся смогли бы правильно употреблять их в речи и вести себя адекватно в соответствии с возникающими ситуациями.

В задачу преподавателя входит не только формирование коммуникативной компетенции в сознании учащихся, но и социокультурной компетенции, помочь в реализации межкультурного общения. Предметом исследования лингвострановедения являются языковые единицы и текст. Наиболее ярко национально-культурная специфика проявляет себя в лексике, во фразеологии и афористике, в невербальных средствах общения, в тексте.

Характерной особенностью лексических единиц является и тот факт, что они могут передавать не только семантику, но и эмоционально-стилистическое или страноведческой отношение говорящего к фактам, событиям, реалиям действительности, что вносит в слово дополнительные оттенки значений. Например, слова **матрешка**, **колхоз**, **жар-птица**, **баба-яга**, **спутник** не могут быть переведены на родной язык иностранного учащегося, их надо объяснять с помощью толкования, показывать, если это возможно, предметы, факты, явления или объяснять каким-либо другим способом.

Лингвострановедческий аспект преподавания предполагает не только семантизацию основного значения слова, но и семантизацию дополнительных оттенков значения слова, а также описание тематических и синтаксических связей слова, т.е. описание лексического фона слова.

Так, если в лексической работе с учащимися указывать и объяснять тематическое и синтаксическое окружение слова, то через эти связи учащиеся не просто овладевают языком, но и знакомятся с некоторыми элементами русской культуры. Например, при семантизации слова «шапка-ушанка» необходимо не только методом толкования объяснить учащимся, что собой представляет этот головной убор, как он выглядит и когда он используется, но и описать его тематические и синтагматические связи. Слово «шапка-ушанка» входит в тематическую группу наименований головных уборов: шляпа, кепка, шапка, берет, панама и др. Оно имеет синтагматические связи с прилагательными: зимняя, теплая, меховая, с глаголами: носить шапку-ушанку в мороз, надевать шапку-ушанку, опускать «уши» и т.п. Кроме того, преподаватель должен рассказать учащимся о русском климате, морозах и что может случиться, если в мороз не беречь лицо и уши. Таким образом, учащиеся получают некоторые лингвострановедческие знания об особенностях русской природы.

Национально-культурную специфику передают и невербальные средства общения, в число которых входят жесты, мимика, выражения лица, душевные переживания и волнения, позы и др. Например, кивком головы русский человек может выразить согласие, в то время как болгарин семантику согласия выражает покачиванием головы, что может носителем русской культуры быть воспринято как отказ, например, от разговора, или несогласие.

Значительное внимание в области лингвострановедения, уделяется национально-культурной семантике русской фразеологии и языковых афоризмов. Фразеологизм может отражать национальную культуру комплексно (идиоматическое значение фразеологической единицы), расчлененно (единицами состава фразеологической единицы), а также через словосочетания – прототипы фразеологической единицы.

Текст как источник лингвострановедческой информации играет существенную роль в обучении русскому языку как иностранному. Тексты художественной литературы, периодика, являются фактами русской культуры и источниками сведений о национальной культуре. Без знакомства с русской литературой и русской прессой иностранному учащемуся обойтись нельзя, поэтому его надо учить читать необходимые тексты и извлекать из них необходимую информацию.Через чтение иностранный учащийся пытается осмыслить жизнь, познать людей, мотивы их поступков.

Задача преподавателя русского языка как иностранного заключается в умелом соотнесении контактирующих национальных культур, в проведении, где это возможно, научно обоснованных аналогий и параллелей, в обучении иностранных учащихся творческому овладению знаниями в области русской культуры. Для решения поставленных задач преподавателю необходимо проводить работу по следующим направлениям:

- пересмотр программных тем и их подробный анализ;
- комплексный подход к изучаемому материалу в условиях аспектного преподавания русского языка как иностранного;
- соизучение культур стран, участвующих в межкультурном диалоге, (например, Россия – Азербайджан);

- поиски новых технологий обучения в условиях диалога культур;
- взаимосвязь аудиторной и внеаудиторной работы с учетом региональной языковой среды.

Преподавание русского языка как иностранного в контексте диалога культур требует разработки особой технологии обучения, отбора наиболее эффективных методов и приемов.

Чтобы иностранные учащиеся более глубоко поняли читаемый материал, необходимо в методический аппарат анализируемого текста включать элементы лингвострановедческого анализа. Это предтекстовые справки, рассказывающие о писателе, о времени, когда было написано произведение, и о времени действия, которое описывается в этом произведении, это введение в систему предтекстовых заданий языковых единиц с национально-культурной спецификой, их первичная семантизация, и, наконец, лингвострановедческий анализ должен иметь место и в системе послетекстовых заданий. На этом этапе проводится вторичная семантизация ранее введенных языковых единиц с национально-культурной семантикой, отрабатывается система заданий на более глубокое восприятие художественного произведения (3).

Лингвострановедческая работа должна проводиться на всех занятиях по обучению русскому языку как иностранному. Проблемы быта, экологии, отдыха, образования, проблемы молодежи требуют особого внимания в конкретной национальной аудитории. Даже поход в магазин на первых порах представляет для иностранца определенные трудности. Чтобы межкультурная коммуникация проходила без видимых сбоев, необходима тщательная проработка всех элементов, несущих национально-культурную специфику.

Для настоящего времени характерна тенденция к обновлению лингвострановедения, однако при этом важно сохранить культурно-языковую преемственность, совмещая сегодняшние интересы с культурным опытом предшествующих поколений.

Список использованной литературы

1. Верещагин К.М., Костомаров В.Г. Язык и культура. Лингвострановедение в преподавании русского языка как иностранного. 4-е изд., перераб. и доп. М., 1990.
2. Крючкова Л.С., Мощинская Н.В. Практическая методика обучения русскому языку как иностранному. М., 2009.
3. Томахин Г.Д., Фомин Б.Н. Проблематика сопоставительного лингвострановедения. В кн.: Научные традиции и новые направления в методике преподавания русского языка и литературы. М., 1986.
4. Маслова В.А. Лингвокультурология. М., 2004.

Rəna Kərimova

Rus dilinin xarici dil kimi nəzəri və praktiki tədrisində dilçilik ölkəşünaslığı

Xülasə

Rus dili dərslərində ölkəşunaslıq üzrə işlərin məqsədi şagirdlərə rus gerçəkliyi və mədəniyyətinin səciyyəvi xusüsiyyətlərinin, cətinliklərinin öhdəsindən gəlməkyinə kömək etməkdən, həmçinin nitq ünsiyyət formalarını, əxlaq normalarını onlara aşılamaqdan ibarətdir. Şagirdlər yaranan müvaviq vəziyyətdə onları öz nitqlərində düzgün işlədib, özlərini adekvat apara bilməlidirlər.

Rena Kerimova

Linguistic area studies as a part of the theory and practice of RIE (Russian as a foreign language) teaching

Summary

Nowadays linguistic area studies is considered to be a field of methods, which is closely associated with the investigation of ways modes of foreign students acquaintance with reality culture through studied language in the process of teaching.

The process of teaching RIE as a culture co-operation demands an elaboration of special teaching technology and selection of the most effective methods.

Rəyçi: к.ф.н. Арзу Гусейнова

ARZU QAFAROVA
ADPU
qafarova-arzu @ mail.ru

“ DƏDƏ-QORQUD ” MOTİVLƏRİ AZƏRBAYCAN ROMANINDA

Açar sözlər: dastan, süjet, bədii, obraz, roman.
Ключевие слова: епос, сюжет, художественной, образ, роман.
Key words: epos, plot, fiction, character, roman.

İstər nəzm, istər nəsr, istər dramaturgiyada xalq təfəkküründün “məhsullarına”[1] tez-tez rast gəlmək olar. Xalq bədii təfəkkürü sənətkarları həmişə özünə cəzb etmiş, ədəbiyyatımıza bəxş etdiyi ədəbi nümunələrindəki dərin və hikmətli mənaları ilə onları heyrətləndirmişdir. Deməli, ”ədəbiyyat o zaman böyükdür ki, o, güclü etnik-mədəni əsaslar üzərində dayanır. Eposa, epos mədəniyyətinə söykənməyən ədəbiyyat nəhəng ola bilməz”. (N.Cəfərov) Bu mənada çağdaş Azərbaycan romanında öz qədim epos mədəniyyətinə müraciət edən, xalq bədii təfəkkürünə yaradıcı yanaşan nasirlərə rast gəlmək olar.

Bədii nəsrdə “Kitabi -Dədə Qorqud” boylarına müraciət əsasən keçən əsrin 40 – cı illərindən başlamışdır. Bu sahədə birinci təşəbbüs yazıçı Mikayıl Rzaquluzadəyə məxsusdur. O, dastanda olan üç boyu - “Dirsə xan oğlu Buğacın boyu”, ”Salur Qazanın evinin yağmalandığı boy”, “Bayburanın oğlu Bamsı Beyrəyin boyu” “ Ana ürəyi, dağ çiçəyi”, ”El gücü” və “ Dəli ozan” adı ilə nəsrə çevirmişdir.

Nəsrimizdə “Kitabi-Dədə Qorqud” mövzusuna müraciət edən nasirlərimizin yaradıcılığında iki meyl müşahidə edilməkdədir. Birinci halda yazıçılarımız Dədə Qorqud boylarındakı süjeti əsas götürüb ona yaradıcı şəkildə yanaşır, müasir bədii təfəkkürün işığında keçmişə, dastan və mif dünyasına səyahət edir. Nəsrimizdə bu mövzu ilə bağlı ikinci tendensiya isə bundan ibarətdir ki, bir çox nasirlərimiz birbaşa “Kitabi-Dədə Qorqud” mövzularına müraciət etməsələr də, tarixi və müasir mövzuda yazdıqları əsərlərdə dastanın dil və üslub xüsusiyyətlərinə, yazılış tərzinə, dastandakı qəhrəmanlıq və vətənpərvəplik motivlərinə sadiq qalırlar. Bunun nəticəsində ədəbiyyatımızda “Kitabi-Dədə Qorqud”dan götürülmüş və yazıçı təxəyyülündən keçərək yenilənmiş obraz və süjetlər yaranmışdır. Məhz Azərbaycan roman tarixində “Dədə Qorqud” dastanına yaradıcı şəkildə yanaşan Mövlud Süleymanlı və Kamal Abdulla bu baxımdan ədəbiyyatımızda öz imzalarını atmışlar.

M. Süleymanlı “Köç” romanında xalqımızın tarixi inkişaf yolunu, mənəvi – psixoloji aləminin təşəkkülünü şərti -rəmzi-metaforik planda-bir tayfanın, elatın keçdiyi yolun timsalında ümumiləşdirir. Bir çox motivlər romana dastandan gəlir. Romanın konfiliktinin mahiyyətini Qarakəllə kökü ilə Qanıq nəsli arasındakı düşmənçilik təşkil edir. “Üç ildən çox idi ki, Qarakəllə kökü ilə Qanıq nəsli

[1] T. Cavadov.”Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri”. Bakı.2008. səh.47.

arasında qan axırdı. Üç yüz il idi ki, iki kök arasında döyüşlər gedirdi".[2] Məlumdur ki, dastanda Oğuz tayfaları ilə kafərlər arasındakı düşmənçilik motivi mühüm yer tutur. Dastanda təsvir edilən düşmənçiliyin kökü çox əvvəllərə gedir. Romanda təsvir edilən dövr isə Azərbaycan xalqının son 200 illik tarixini özündə əks etdirir.

Qarakəllə kökü öz tarixi torpaqlarına qayıdanda Qoşqar ozanlarının "yerlərini-yurdlarını atıb məmləkətlər qurmağa, səltənətlər tikməyə gedən Qarakəllə kişilərinin dastanı"nı oxuduqlarını eşidirlər. Qarakəllə kökü öz tarixi torpaqlarında məskunlaşmaq istəyəndə Qoşqar evinin ağsaqqalları o yerlərin "Qanıq uşağı"nın olduğunu bildirir. Dədə isə qətiyyətlə "oralar bizimdi. Qanıq uşağı bizim yerləri tutub"-deyir. M. Süleymanlı romanda tarixi torpaqlarını qorumaq üçün hiyləgər və satqın "qonşular"ın gizli və aşkar hücumlarına qarşı mübarizə aparan Azərbaycan xalqının həyatını əks etdirmişdir: " İki kök arasında neçə il idi , beləcə güllə səsləri ilə danışıq gedirdi".[3] Romanda baş verən hadisələr-Qarakəllə torpaqları hesabına Qanıq yurdunun get-gedə genişlənməsi, Qarakəllələrə "sığınmış törəmələrin" artıb çoxalması, Qarakəllə yurdunun hökümətin əli ilə yadlara satılması Azərbaycanın Rusiyaya vicdansızca ilhaqından başlayaraq, sovet rejimi illəri də daxil olmaqla torpaqlarımızın hissə-hissə kəsilib ermənilərə hədiyyə edilməsi faktları ilə üst-üstə düşür. Romandan bir parçaya diqqət edək :

Qanıq evinin elçisi atın üstündə dikəlib:

- Qarakəllə camaatı, - dedi, - sizin yeriniz, otlaqlarınız satılıb. Bu gündən sürülərinizi

otlaqlara çıxartmayın, hökümət bu yerləri Qurtan ağaya satıb, Lemsə Qurtana...

Kiçik Beyrək qabağa yeridi:

- Qanıq oğlu, niyə sizin yerlər satılmayıb, bizim yerlər satılıb?

- Bu hökümətin işidi, Qarakəllə oğlu, get hökümətlə danış.

- Biz torpaqlarımızı heç kəsə verməyəcəyik.[3]

İki tərəf arasında uzun illər torpaq üstə çəkişmələr davam edir. Qanıq uşağı namərdcəsinə

Qarakəllələrin at ilxısını, qoyun sürüsünü, mal-qarasını sürüb aparırlar. ("Salur Qazanın evinin yağmalanması"nda olduğu kimi) Həmçinin Qanıq oğullarının bu "cəsarəti" təkbaşına etmədikləri, onların arxalarında kiminsə dayandığını müəllif açıq bir şəkildə bildirir.

"Dədə Qorqud " mövzusunun çağdaş bədii ədəbiyyatda fəallaşmasında Kamal Abdullanın özünəməxsus rolu vardır. "Yarımçıq əlyazma" " Kitabi-Dədə Qorqud" dastanlarının ümumi süjeti, hadisələrin axarı, obrazlarının səciyyəsi ilə müəyyən mənada paradoks təşkil edir.

Məsələn, dastanda Dədə Qorqud müdriklik, Beyrək qəhrəmanlıq, igidlik simvoludursa, romanda onlar mənfi planda işlənmişdir. Dastan qəhrəmanları romanda öz əsas missiyasından qopmuş, ayrılmış vəziyyətdədir. Lakin "Yarımçıq əlyazma"nı postmodernist bir əsər kimi qəbul etsək, belə yanaşmanın yolverilən ola biləcəyi aydınlaşar. Bilindiyi kimi, postmodernist əsərlərdə bu və buna bənzər

[2] M. Süleymanlı."Köç". Bakı. Yazıçı,1984, səh. 120

[3] M. Süleymanlı."Köç". Bakı. Yazıçı,1984, səh.119

"çevrilmələr", "tərsinə yozmalar", "gizli, ağlagəlməz qatlara baş vurmaq" halları mövcuddur. Belə əsərlərdə, təbii ki, bu cür yanaşma və mənalandırma heç də birmənalı qarşılanmır.

Dastanı olduğu kimi yox, bir qədər fərqli şəkildə qavramağa səbəb isə Oğuz dünyasında baş verən daxili münaqişələrdir. Qeyd edək ki, elə dastanın özündə - "İç oğuzla Dış oğuz asi olub Beyrək öldüyü" boyda həmin daxili münaqişələr ön plana çəkilir. Beyrək düşmən tərəfindən yox, parçalanmış oğuzun "düşmən tərəfinin" əli ilə qətlə yetirilir. Deməli, K. Abdulla həmin daxili münaqişələrin yaranması səbəblərini öz yozumunda ön plana çəkir. O, dastanda o qədər də nəzərə çarpmayan ikinci dərəcəli hadisələri və olayları, personajları qabağa çəkir, sanki görünməz qatlara işıq salır, qaranlıqları üzə çıxarır. Məsələn, dastanda casusçuluq motivi olsa da, bu motiv aparıcı xəttə çevrilməmişdi. Aparıcı xətt Oğuzun qəhrəmanlıq, igidlik, ərənlik ruhu idi. "Yarımçıq əlyazma" romanında isə casusçuluq motivi aparıcı xəttə çevrilmişdir. K.Abdulla Oğuzun parçalanması səbəbini məhz bu xəyanətdə axtarır. "Kitabi – Dədə Qorqud" dastanlarında hər bir obrazın öz missiyası var: Bayındır xan başçıdır, Qazan xan onun sağ əlidir, Beyrək , Qanturalı, Dəli Domrul, Uruz bəy, Basat, Bəkil, Səgrək... bunlar isə Oğuz qəhrəmanlarıdır. Onlar qılınc çalır, qan tökür, Oğuzun şərəfini qoruyurlar. Dastanda bir sıra qadın obrazları da var ki, onlar da qeyrətdə, igidlikdə kişilərdən geri qalmırlar.

Lakin "Yarımçıq əlyazma" romanında qəhrəmanlıq motivləri arxa plana keçir. Məlum olur ki, dastandan qəhrəman kimi qavradığımız və qəbul etdiyimiz obrazlar tamamilə fərqli planda nəzərə çarpırlar. Burada ağsaqqal obraz kimi Dədə Qorquddan heç nə qalmayıb, o, adicə katibdir, həm də elə bir aparıcı obraz da deyil. Boğazca Fatmanı əvvəlcədən məsələdən hali edir və bununla Dədəlik vəzifəsini yox, miyançılıq missiyasını yerinə yetirir. Qazan xan da günahlar içindədir. Beyrək isə açıq – açığına mənfi planda təsvir olunur. Banuçiçəklə Basat arasında sevgi macərası təsvir edilir. Beləliklə, əsl "Kitabi-Dədə Qorqud"dan heç nə qalmır.

Bu roman yazıldığı vaxtdan tənqidçilərin diqqətini cəlb edir və onların əksəriyyəti "Yarımçıq əlyazma" mətninin diktə etdiyi bədii həqiqətlərdən yox, " Kitabi-Dədə Qorqud" mətninin "Yarımçıq əlyazma" mətnindəki təhrifindən danışmağa üstünlük verirlər. Tənqidçiləri həmişə belə bir sual maraqlandırıb: milli – mənəvi varlığımızın dayaqları kimi tanıdığımız mifoloji obrazlar öz təbiətindən niyə çıxarılıb? Həqiqətən, dastan qəhrəmanları ilə roman qəhrəmanları tamam başqa – başqa adamlardır. Bu, belə də olmalıdır. Birincisi, ona görə ki bu obrazlar fərqli zamanların bədii düşüncə məhsullarıdır. İkincisi, bir tərəfdən Dədə Qorqud, Qazan xan, Beyrək, Burla xatun kimi tanıdığımız bu insanlar tarixi şəxsiyyətlər deyil, bədii əsər-dastan qəhrəmanlarıdır.

Romanın "Kitabi-Dədə Qorqud"la bağlı mətninin süjet xəttinin əsasında belə bir hadisə durur: məlum olur ki, Oğuzda casus var və bu casus tutulur. Lakin cəzalandırılmır, əksinə sərbəst buraxılır. Çünki casus Boğazca Fatmanın oğludur və bu qadın hər bir Oğuz bəyinə sübut edə bilir ki, bu elə sənin oğlundur. Bu, cəmiyyətin başçısı Bayandır xanda şübhə yaradır və o, casusun kim tərəfindən buraxıldığını öyrənmək üçün istintaq qurur. Həmin "istintaq prosesi" romanın süjet xəttinin əsasını təşkil edir.

Casusun tutulduğu məqamda onun hərəkətini Oğuza ağır bir zərbə kimi qiymətləndirən bütün Oğuz bəyləri sonda onu "günahsız" elan edərək açıb

buraxırlar. Oğuz bəylərinin öz şəxsi talelərini bütün Oğuzun mənafeyindən üstün tutmaları və casusu azad edərkən qətiyyən tərəddüd etməmələri sosial əxlaqı pozulmuş cəmiyyəti görüntüyə gətirir.

İstintaq zamanı ağır sınaq qarşısında qalan Oğuz bəyləri ancaq öz şəxsi taleləri üçün narahatlıq hissi keçirir. Sıravi bəylərdən tutmuş "Oğuzun dirəyi" Qazana qədər ən alçaq hərəkətləri belə özlərinə rəva görürlər. Təki canlarını ölümdən qurtarsınlar, təki tutduqları mövqedən məhrum olmasınlar.

"Yarımçıq əlyazma" romanının tədqiqatçısı professor T.Cavadov İç Oğuzla Dış Oğuz arasında münasibətlərin getdikcə daha artıq kəskinləşməsini, başçı olmaq uğrunda aparılan amansız mübarizəni, bəylərin daha yüksək rəyasət pilləsinə ucalma üçün qarşısındakını bütün mümkün vasitələrlə sıradan çıxarmaq istəyini, hətta bunun üçün öz qadınlarından bir vasitə kimi istifadə etmələrini, yurdun ölüm – qalım zamanında qaçıb kafir torpaqlarına üz tutmalarını, daxili münaqişələrin birləşməyə mane olmasını çağdaş zaman və cəmiyyətdə baş verən hadisələrlə bağlayır.

"Yarımçıq əlyazma" romanında Təkgözlə bağlı məqamlar diqqəti cəlb edir. Belə ki bu epizodda Azərbaycan-erməni savaşının mahiyyəti ifadə olunmuşdur. Romandakı bu obrazla bağlı tənqidçi T. Cavadov öz tədqiqatında yazır : "Romandakı Təkgözün dastandakı nəhəng Təpəgözdən fərqli olaraq "sısqa, biçimsiz birisi" olması, onun gücünün və qoşununun da real qüvvə yox, sehrlə, əfsunla bağlılığı bu varlığın kimliyi haqqında müəllif qənaətini təcəssümləndirir. Fikrimizcə, müəllif "dilləri bizim dil deyil", "dinləri bizim din deyil" məlumatı ilə bu qüvvənin kimliyini aşkarlayır. Təkgözün məhz Basat tərəfindən öldürülməsi və ona da anası Doğan Aslanın yardımçı olması oxucuda maraq doğurur. Çünki yazıçı dastandan götürülmüş bu hissəyə də yaradıcı yanaşa bilərdi. Amma bu belə deyil. Çünki burada ermənіyə qarşı savaşda qələbənin pozulmamış əxlaqdan keçməsinə üstüörtülü işarələr var".

Deməli, "Yarımçıq əlyazma" "Kitabi – Dədə Qorqud" dastanının təhrifi kimi səslənsə də, əslində öz keçmişini unutmuş, öz keçmişindən örnək və ibrət almayan cəmiyyətin nə dərəcədə qəhrəmanlıq, vətənpərvərlik, müdriklik, gücünə və bacarığına görə ad qazanmaq əxlaqından uzaqlaşdığını göstərir.

İstifadə olunmuş ədəbiyyat :

[1] K.Abdulla "Yarımçıq əlyazma". Bakı : "XXI"- YNE. 2004.
[2] Ə.R.Xələfli. "Yarımçıq əlyazma"nın dörddə biri. "Kredo" qəzeti, 19 fevral ,2005 – ci il.
[3] Ə.R.Xələfli. "Yarımçıq əlyazma"nın yarısı. "Kredo" qəzeti, 26 fevral, 2005 – ci il.
[4] Ə.R.Xələfli. "Yarımçıq əlyazma"nın qalanı. "Kredo" qəzeti, 5 mart , 2005 – ci il.
[5] T.Salamoğlu. "Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri",Bakı -BQU – 2008
[6] M. Süleymanlı. "Köç". Baki :Yazıçı, 1984.
[7] B.Vahabzadə. "Köç" haqqında . "Ədəbiyyat və incəsənət" qəzeti, 10 iyul, 1981-ci il.

А. Кафарова

Тема «Дэдэ Горгуд» в проз
Резюме

Сюжет и образы епоса «Дэдэ Горгуд» широко используются в художественной литературе. Это статя о мотивах из епоса «Дэдэ Горгуд» которые исползовалис в романе М.Сулейманлы под именем «Кочевье» и в романе К.Абдулла под именем «Недоконченный рукопис». Мовлуд Сулейманлы обобщает историческое развитие своего народа в примере событий происходящих в стране одного племени. Суть конфликта в романе это враждебность между двумя племенами по имени "Гара Келле" и "Ганыг". В рукописи незаконченного романа героические мотивы переходят на задний план, так как Деде Горгуд описываться как обычным клерком, Газан-хан в грехах, а Бейрек очевидно описается в негативной роли. Сюжет основан на такое случае: обнаружен шпион в провинции Огуз, он был арестован и процесс его расследования является сценарий романа.

A. Gafarova

The theme of Kitabi Dede Gorgud in prose
Summary

The plot and characters from epos “Dədə Gorgud” are used in fiction extensively. This article is about “Dədə Gorgud” motivs which have been used in M.Suleymanlı’s romance by name “Nomad”(Koch) and in K Abdulla’s romance by name “Unfinished manuscript”. Movlud Suleymanli generalizes the historical development of his nation by the events that took place inside one tribe. Hostility between two kins by name "Gara Kelle" and "Ganig" is the essence of conflict of the novel. Heroic motives in the unfinished novel manuscript remain in the background, as Dada Gorgud describes an ordinary clerk, Gazan Khan is in full of sins and Beyrek is described quite obviously in a negative role. The plot is based on an such event: there is a spy in Oguz province, he was arrested and the process of his interrogation is the scenario of the novel.

Rəyçi: dos. N. Qasımzadə

АРЗУ АХМЕДОВА
Бакинский государственный университет
УДК 654.197
arzu.ahmadova@mail.ru

ИСТОРИЧЕСКИЕ ТЕНДЕНЦИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ТЕЛЕВИДЕНИЯ И РАДИО

Açar sözlər: Açar sözlər: TV, radio, jurnalistika tarixi, mətbuat, radiodalğalar, kanallar, antenna, telejurnalistika, inkişaf, təsir
Ключевые слова: история журналистики, азербайджанская журналистика, телевидение, радио, печать, формирование и развитие телевизионной журналистики.
Keywords: history of journalism, the Azerbaijani journalism, television, radio, print, the formation and development of television journalism

Известно, что журналы, газеты, средства массовой информации оказывают сильное влияние на общество. Для телевидения же нет вообще понятия «граница» и «расстояние» [1,с.40]. Это средство информации повсюду: в университете, театре, концертном зале, на стадионе, одним словом, на любом пространстве. Телевидение стало трибуной миллионов людей. Телевидение является незаменимым средством рациональной организации досуга населения [3,с.124].

Все эти неповторимые особенности телевидения формировались на протяжении долгих лет. Однако в 50-е гг. XX века, когда азербайджанское телевидение делало свои первые шаги, осознать преимущества этого средства массовой информации было не так легко. 14 февраля 1956 г., когда Азербайджанское телевидение начало свою деятельность, оно вступило как мощное оружие в систему государственной и коммунистической идеологии и начало служить существующему режиму. Точное определение его социально-политической функции как средства массовой информации словно было забыто. Примеры из однотипных газет, журналов и радиожурналистики транслировались и по телевидению [2,с.55].

Следует отметить, что Азербайджанское телевидение выступало как продолжение Центрального телевидения СССР. Факторы мощной централизации проявлялись во всех проблемах и оказывали негативное воздействие на творческий процесс. Поэтому для определения и исследования этапов развития Азербайджанского телевидения весьма важно обратить должное внимание и на историю Центрального телевидения. Исследователи телевидения историю республиканского телеэфира делят на два больших периода: а) 1956-1991 годы – советский период; б) с 1991 года - период независимости [1,с.79].

В 70–80-е гг. журналисты, трудившиеся в области тележурналистики, пытались уже демонстрировать новую форму и стиль. В 80-е гг. по азербайджанскому телевидению транслировались передачи под 50-тью различными названиями.

После 1991 г., под влиянием процессов, происходящих на телепространстве, на АзТВ также были проведены реформы: редакции были заменены студиями, дикторы ведущими. Хотя это было сделано с целью приближения к разговорному языку, стало возможным частично выйти за рамки долгих лет, и то за счёт некоторых телеведущих [6,с.139].

Произошли изменения в содержании и форме информационной программы «24 часа»; вышли в эфир ночная информационная программа «1000 секунд», «215 КЛ представляет», «Добро пожаловать» и другие. В начале 1992 г. обострение общественно-политической ситуации в стране, расширение масштаба боевых действий в Нагорном Карабахе и в близлежащих районах привело к изменению власти в Республике. Это изменение проявилось прежде всего в информационно-аналитических программах «Вести», «Пульс дня» и «Неделя». 2007 год стал для Азербайджанского телевидения годом новшеств: появились новые программы, передачи, спектакли; на конкурсной основе к работе были привлечены молодые ведущие и репортёры; началось планомерное вложение капитала в эфир и инфраструктуру каналов.

АзТВ снова пытается стать самым профессиональным телевидением и законодателем телевизионной моды на телепространстве. В настоящее время на Азербайджанском телевидении демонстрируются ток-шоу, портретные зарисовки, музыкально-развлекательные программы, телеспектакли на самые различные темы. Хотя привлекается широкий переводческий и актерский потенциал для оригинального озвучивания на азербайджанском языке зарубежных фильмов, купленных с сохранением авторских прав, всё ещё остаются проблемы, связанные с литературным языком, с разговорными нормами. ЗАО АзТВ не забывает и своих маленьких зрителей, постоянно держит их в центре внимания. Однако имеется немало недостатков и в языке наиболее интересных для малышей запоминающихся персонажей мультипликационных фильмов [5,с.226].

Здесь, наряду с просветительством, краеведением, историей, отдельными историческими личностями представлены самые интересные сведения о жизни кинозвёзд, режиссёров, музыкантов и т.д. Редакция, учитывая национальные интересы и вкусы азербайджанских зрителей, обращается к этим разделам и, дублируя их, демонстрирует своим зрителям.

Сотрудники АзТВ стараются максимально использовать словесные ресурсы азербайджанского языка, строить предложения согласно закону сингармонизма. Однако, к сожалению, для этого переводческий и редакторский персонал максимально не используется.

После восстановления Азербайджанской Республикой государственной независимости проблема сохранения и развития азербайджанского языка стала ещё более актуальной. Азербайджанский Национальный Совет телевидения и радио сделал первые шаги для сохранения и развития азербайджанского языка. Так, на какой-то период даже был наложен запрет на показ зарубежных сериалов и фильмов по азербайджанскому телевидению без дубляжа. В «Законе о телерадиовещании», принятом 25 июня 2002 г. и вступившем в силу 8 октября того же года, данная проблема нашла своё отражение:

«должно быть обеспечено употребление государственного языка в программах (передачах)» (статья 32.0.6) [4, с.146].

В соответствии со статьей 21 Конституции Азербайджанской Республики, принятой в 1995 году, государственным языком Азербайджана является азербайджанский язык, т.е. согласно Конституции, любой неазербайджанский язык является иностранным. В Азербайджане, наряду с Конституцией, основную законодательную базу телерадиовещания составляют законы «О СМИ», «О государственном языке Азербайджанской Республики» и «О телерадиовещании» [1,с.79].

В пункте 2 статьи 18 под названием «Сохранение и развитие государственного языка» «Закона Азербайджанской Республики о государственном языке», вступившего в силу 30 сентября 2002 г., говорится: «На территории Азербайджанской Республики все средства массовой информации (пресса, телевидение, радио и др.), структуры, занимающиеся книгопечатанием и другой издательской деятельностью, должны обеспечивать соблюдение норм азербайджанского языка» [2,с.55].

Азербайджанский Национальный Совет Телевидения и Радио, опираясь на Конституцию и законодательные акты, 25 июня 2005 года определил «Специальные правила», которые регулируют отношение к употреблению государственного языка во время эфира. В пункте 1 «Специальных правил» указывается, что телерадиовещание ведется на государственном языке». В пункте 3, представленном к новой редакции с января 2008 г., говорится, что передачи (программы), транслируемые посредством телевидения и радио, в полном объёме должны быть на азербайджанском языке. Выполнение этих правил, принятых АНСТР, телерадиотрансляторами необходимо. Сегодня мы во время встреч с государственными и правительственными официальными лицами, деятелями науки и культуры с гордостью демонстрируем успехи, достигнутые Азербайджаном, уверенную линию интеграции в мировое содружество.

В настоящее время у азербайджанцев, проживающих за пределами Родины, свои проблемы. Одной из них является обучение детей и молодёжи, родившихся и выросших в зарубежных странах, родному языку, древним обычаям и традициям, богатейшей культуре, многовековой истории, одним словом, национально-духовным ценностям. Отсутствие в странах, где проживают наши соотечественники, азербайджанских школ, наглядных пособий, является серьёзной проблемой. Поэтому Азербайджанское телевидение, транслируемое по всему миру посредством спутниковой связи, выступает в роли настоящей школы для детей и молодежи [7, с.69].

В последнее время показ по Азербайджанскому телевидению национальных фильмов, народных песен, передач, отражающих военный патриотизм и духовные ценности, оказывает значительное влияние на воспитание молодого поколения в национальном духе. Принимая во внимание интересы азербайджанцев, проживающих в зарубежных странах, руководство АзТВ демонстрирует в ночные часы национальные фильмы, доказывая тем самым, что Азербайджан владеет не только природными богатствами, но и национально-духовными ценностями. Азербайджанское телевидение достойно выполняет

свою миссию, находясь на страже национально-духовных ценностей азербайджанского народа.

Телевидение, вошедшее в эту систему в середине прошлого столетия, по интенсивности развития было более глобальным, и по силе воздействия играло важную роль в общественной жизни. Конечно, история радиожурналистики связана с созданием радио. Подобно тому, как история газеты связана с появлением книгопечатания, история радиожурналистики связана с созданием радио. Через 20 лет после изобретения радио появилось телевидение [4,с.146].

Радиожурналистика сразу не сформировалась с появлением радио как технического изобретения. Радиожурналистика как понятие и сфера деятельности является результатом последующего периода. Ещё до этого этапа азербайджанское радио прошло весьма интересный путь развития.

Регулярные радиопередачи в Азербайджане начались с 6 ноября 1926 г. Именно из-за этой «регулярности» история создания радио в Азербайджане начинается с этой даты. Однако правительство Азербайджанской Демократической Республики, функционировавшее в 1918-1920 г.г., заложило основы радио в стране [2,с.103]. В рамках общественных, политических и культурных связей между Францией и независимым Азербайджаном при особой помощи Франции ещё в ноябре 1919 г. в Азербайджане начала действовать первая радиостанция [7,с.116]. Однако после распада Демократической Республики всё остановилось на полпути. Как отмечают исследователи, после этого периода создание радио в Азербайджане было связано с развитием этой области в России. Коммунисты, осознавая неоценимую роль радио в деле пропаганды и агитации, вынуждены были уделить особое внимание его развитию как в самой России, так и на окраинах империи. Таким образом, созданная в Москве 21 августа 1922 г. Центральная Радио-телефонная станция, начавшая радиовещание по всей России, послужила основой создания радио в других республиках. 6 ноября 1926 г. азербайджанские слушатели начали регулярно слышать голос азербайджанского радио [3,с.124].

Радио как средство массовой информации вступило на путь развития во всех уголках мира. По мере совершенствования информативной деятельности радио стали проявлять себя и первые представители радиожурналистики.

Радио прошло различные этапы развития. Период с 1927 г. до конца второй мировой войны можно считать периодом его формирования. В этот период радио уже приобрело статус весьма серьезного средства информации. В период войны между СССР и Германией все официальные сведения Советского информбюро передавались по радио. Скорость, живость и прямая передача радионовостей сделали радио незаменимым средством информации. Это – этап появления радиожурналистики. Он характеризуется быстрой передачей информации, созданием нового типа репортёра в журналистике. В этом плане именно радио создало большую базу и сыграло роль переходного периода. Поэтому период с 1950 г. может характеризоваться как период конкуренции радиожурналистики и радио в целом с тележурналистикой, а также с телевидением [5,с.79].

В этот период люди предпочитают видение слушанию, т.е. те, кто ещё вчера воспринимали радио как чудо, отдают преимущество телевидению.

Радио пережило период серьезной борьбы, и в этой борьбе оно нашло новые формы и способы передачи информации, обогатило свои технические средства и, по мнению многих исследователей, выстояло перед телевидением. Это противостояние продолжается и в настоящее время. Сейчас невозможно представить мир без радио.

Благодаря компактным радиостанциям – FM мир словно проникает в дома слушателей. Все эти технические средства – результат деятельности творческих личностей, значительную часть которых составляют журналисты. Такая серьезная профессиональная сфера, как радиожурналистика, связана с их именем.

Таким образом, как и во всем Советском Союзе, в Азербайджане телевидение со дня появления находилось в монополии государства. В условиях существования запретов на частные телеканалы ни о каком развитии телевидения или тележурналистики не могло быть и речи.

В начале 1990-х г.г. Азербайджан стал независимым государством, и с того же времени началось развитие функциональных стилей журналистики, в том числе и телевидения. В начале появилась Медиа-компания ANS, затем телеканалы Space, ABA, Lider, ATV. Процесс продолжается. Таким образом, телевидение вошло в систему средств массовой информации. «Вхождение телевидения в систему средств массовой информации вызвало революционные изменения в жизни человечества. Люди получили возможность воочию видеть события, происходящие далеко». Развитие телевидение в Азербайджане, как медиа-системы увеличило активность общества, сильно повлияло на мировоззрение людей». В настоящее время каждый гражданин Азербайджана, живущий в независимом государстве, в обществе, где существуют свобода слова и печати, демократические институты, политический плюрализм и желающий участвовать в процессе юридического, демократического мирового государственного строительства, узнаёт о процессах, событиях, происходящих в стране, в основном посредством телевидения.

В настоящее время телевидение Азербайджана, характеризующееся богатством и разнообразием палитры, приобретает всё больший вес в системе СМИ. Азербайджанское телевидение наряду с выполнением общественной функции оказывает достаточно сильное воздействие на общественную жизнь. Будучи зеркалом жизни, оно играет незаменимую роль в социально-культурном развитии азербайджанского народа, и поэтому исследование особенностей создания и развития Азербайджанского телевидения приобретает особую значимость и актуальность. Без этого невозможно дать общую панораму национальной тележурналистики, определить тенденции её развития и рациональность намеченных работ.

Список литературы*:*

1. Ализаде Я.М., Магеррамлы Г.М. Азербайджанский эфир: история и современность. Баку, «Нурлан», 2006. (ст.182)

2. Гулиев Э. Телевидение: теория, тенденции развития. Баку, издательство «Восток-Запад», 2004, (364 ст).

3. Магеррамлы Г. Язык телевидения. Баку, «Элм», 2002. (ст.302)
4. Роль средств массовой информации и пропаганды в духовном воспитании. Баку, 1982. (ст.296)
5. Магеррамлы Г. Аудиовизуальная речь. Баку, 2000. (ст. 443)
6. Прохоров П.П. Введение в теорию журналистики: Учебное пособие. М., 1998. (ст.356)
7. Ворошилов В.В. Журналистика: Учебник. 4-е издание — СПб., 2002.(ст.275)
8. Юровский А.Я. цит по: Телевизионная журналистика. 1998. (ст.379)

Arzu Əhmədova

Azərbaycan televiziya və radiosunun tarixi inkişaf mərhələləri

Xülasə

Məqalədə dünya TV sisteminin müasir inkişaf tendensiyası, televiziyanın ictimai həyatda yeri barədə söhbət açılır. Belə bir əsas məsələ vurgulanır ki, hər hansı bir ölkədə telesistemin formalaşması mütləq şəkildə bu sahədə qanunvericiliyin yaradılması ilə şərtlənir. Bu mənada müstəqil Azərbaycan dövlətinin iradəsilə qəbul olunmuş elektron informasiya sahəsindəki qanunların mahiyyəti açılır. Belə bir şəraitdə ölkədə formalaşmış dövlət, kommersiya və ictimai televiziya sistemi qısa şəkildə təhlilə cəlb edilir, telekanalların tipoloji xarakteristikası ətrafında elmi-nəzəri fikir qoyulur. Məqalə televiziya sahəsində ən yeni yerli və xarici elmi-nəzəri ədəbiyyata söykənir.

Arzu Ahmedova,

Historical trends in azerbaijan television and radio

sammary

Azerbaijanian audience can watch both television functioning in the republic and foreign channels. “It is known that at present in such a highly-developed country as the USA in the big cities the number of ether TV – channels doesn’t exceed 80-90. Video news for net can be prepared and distributed by anyone”. It gives great perspectives to audience to use archives, to broadcast to concrete address, to spend less money on broadcasting from ether – TV, to gain plenty of advertisements. We must be ready to catch a pulse of modern development of information technology and for further requirements of such a perspective information mean as internet-television.

.

Rəyçi: professor Yalçın Əlizadə

ZİVƏR HÜSEYNLİ
Xəzər Universitəsi
zevarus@gmail.com

SƏFƏVİLƏR DÖNƏMİNƏ AİD TARİXİ QAYNAQLAR
(I Şah Abbas dönəmindən sonunadək)

Açar sözlər: Səfəvilər dövrü, tarixi əsər, əlyazma, müəllif
Key words: The Safavid period, historical artifacts, manuscript, the author.
Ключевые слова: Период Сафевитов, исторические произведения, рукописи и автор.

Teymurilər dövründən başlayan tarix yazma ənənəsi, əsasən, Səfəvilər dönəmində daha geniş şəkildə davam etməyə başlamışdır. Bu ənənə sayəsində Səfəvilər dövrü tarixi əsər baxımından çox zəngin bir dönəm olmuşdur. Belə ki, bu dönəmdən əvvəl və sonrakı sülalələrin hakimiyyəti dövrünə aid bu qədər tarixi əsər yazılmamışdır.

Adı çəkilən dönəmdə yazılan tarixi əsərlərin sayı yüzdən çoxdur ki, bunlardan bəziləri bir, bəziləri isə bir neçə cilddən ibarətdir. Sayca çox olan tarixi əsərlər mövzü baxımından da çox zəngindir. Məşhur İran yazıçısı Zəbihullah Səfa həmin tarixi əsərləri mövzu və məzmun baxımından altı hissəyə bölmüşdür:

1.Ümumdünya tarixi;
2. İslamdan əvvəlki, İslam dövrü, Səfəvilər dövrünədək İran tarixi;
3. Səfəvilər, Əfqanlar və Nadir şah dövrü tarixi;
4. Hind sultanlarının tarixi;
5. Məhəlli (bölgə, şəhər) tarix;
6. Dini tarix.(20; C.5/3. – S.1551)

Məqalədə bu bölgünün üçüncü hissəsi olan Səfəvilərə aid əsərlər haqqında məlumat verəcəyik.

Səfəvilər dövrünə aid yazılmış bu tarixi əsərlərdə Səfəvilər sülaləsi, əcdadları, onlara məxsus hakim və hökmdarların tarixi ilə yanaşı, yazıldığı dövrün ictimai-siyasi, mədəni, elmi, dini və s. məsələlər haqqında da geniş məlumat verilir. Bu əsərlərin çoxu Səfəvi hökmdarlarının göstərişi ilə qələmə alınmışdır. Ona görə də əsər hansı hökmdarın dövründə yazılmışdırsa, burada həmin hökmdarın siyasi fəaliyyətindən başqa, onun şəcərənaməsi və s. haqqında məlumatlara geniş yer verilmişdir. Bəzi əsərlər Səfəvilər xanədanının əcdadları haqqında məlumatla başlayıb, Səfəvilərin güclü hakimlərinin dönəmi, yəni: I Şah İsmayıl, I Şah Təhmasib və ya I Şah Abbas dönəmindəki hadisələrlə sona çatır. Bəzi tarixlər isə I Şah Abbasdan sonrakı hökmdarların dönəmi haqqındadır. Bu əsərlərin əksəriyyəti I Şah Abbas dönəmindən sonrakı tarixi əhatə etsə də, bir çoxu Səfəvilərin əcdadlarının dönəmindən başlayır, bəziləri Səfəvi sülaləsinin süqutu, süqutundan sonra Əfqanlar və Əfşarlar dönəmi haqqındakı hadisələrdən bəhs edir.

Əsər müəlliflərinin bir çoxu elm, ədəb əhli olduqları üçün öz əsərlərində şeirlər, beytlər vermiş, habelə dövrün tanınmış şairləri və elm adamları haqqında yazmışlar.

Burada təqdim olunan əsərlərin yazıldığı dil fars dilidir. Lakin bu əsərlərdə dönəmin dini dili ərəb dili və ikinci rəsmi dili olan türk dilində də nümunələrə rast gəlinir.

Haqqında söz açdığımız tarixi əsərlərin müəllifləri özlərindən əvvəlki müəlliflərin əsərlərindən qaynaq kimi istifadə etsələr də, hadisələri daha çox öz müşahidələri əsasında qələmə almışlar.

Aşağıda həmin tarixi əsərlər arasından I Şah Təhmasibdən sonrakı hökmdarların dönəmindən bəhs edən tarixi əsərlər haqqında məlumat verəcəyik. Bu əsərlər qələmə alındıqları və aid olduqları tarixə əsasən təhlil olunacaq.

Belə tarixi əsərlərdən biri Həsən bəy Rumlu tərəfindən yazılmış *Əhsən-üt-təvarix* kitabıdır. Əsas hissəsi Şah Təhmasib dönəminə aid olsa da 807-985 h.q.(1404-1577m.) illəri arasında, Şah Təhmasibdən sonra hakimiyyətə gəlmiş II Şah İsmayıl və Şah Soltan Məhəmməd Xudabəndənin dövürü haqqında çox dəyərli məlumatlardan ibarətdir. Müəllif, qələmə aldığı hadisələri öz müaşhidəsi əsasında yazmışdır. Əsər Çarlz Narmen Siden tərəfindən təshih olunmuşdur.

Əhsənüt-təvarix kimi ilk illərdən etibarən yazılmış digər əsər Qazi Mir Əhməd Qumi İbrahimi tərəfindən yazılmış *Xülasət-üt-təvarix* kitabıdır. Səfəvilər sülaləsinin ilk padşahından 999 h.q. (1591m.) ilinədək hakimiyyət etmiş padşahlar haqqında olan bu əsərin müəllifi, 984 h.q. (1576m.) ilində II Şah İsmayılın fərmanı ilə bu əsərini yazmağa başlamış və 999 h.q. ilində I Şah Abbasa təqdim etmişdir. Əsər beş cilddən ibarət ümumi tarix kitabı olsa da, yalnız Səfəvilər dönəminə aid olan beşinci cildi mövcuddur. Dövlətdə yüksək məqamlarda işlədiyi üçün öz müşahidələri və *Lob-üt-təvarix, Həbib-us-siyər, Cahanara* və *Əhsən-üt-təvarix* kimi etibarlı qaynaqlar əsasında yazılan bu əsərdə müəllif illəri nizamlı şəkildə yazmışdır.(9; C.1. S. 9-18) Bu əsər Ehsan İşraqi tərəfindən təshih edilmişdir.

Digər bir əsər Mahmud ibn Hidayətullah Əfuşteyi Nətənzinin *Noqavətul-asar fizikrul-əxyar* əsəridir. Bu qaynaqda 998-1007-ci hicri-qəməri (1590-1598-ci miladi) illərində baş verən hadisələr öz əksini tapır. Kitabda Şah Təhmasibin ilk illərindən I Şah Abbas hakimiyyətinin on birinci ilinədək baş verən hadisələrdən bəhs olunur. Bu, Səfəvilər dönəminə aid qaynaq olsa da, kitabda bununla eyni dövrdə yazılmış digər kitablarda rast gəlinməyən bəzi tarixi hadisələr də yer alır və diqqəti özünə çəkir. Burada qələmə alınmış ***hadisələrin əksəriyyəti*** müəllifin vaxtilə canlı ***şahidi olduğu*****,** öz gözü ilə gördüyü, duyub-yaşadığı, iştirak etdiyi hadisələrdir, bir hissəsi isə digər tarixi əsərlər əsasında yazılmışdır. Müəllif obrazlı ifadələrdən geniş istifadə etmişdir. (4; S. 18-19) Kitabı Ehsan İşraqi təshih etmişdir.

Dəyərli qaynaqlardan bir də Mirzə Əfzəlinin üçcildlik *Əfzəl-üt-təvarix* kitabıdır. Kitabın birinci cildində Şeyx Səfiəddin Ərdəbili zamanından başlayaraq I Şah İsmayılın vəfatınadək olan dönəmdən, ikinci cildində Şah Təhmasib, II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dönəmindən, üçüncü cildində isə Şah Abbas dönəmindən danışılır. Müəllif bu kitabı Səfəvi şahı Şah Abbas haqqında məlumat vermək üçün yazdığını bildirir. Kitab Səfəvi dövrünün əsas qaynaqlarından biri hesab olunur. (20; C.5/3. S.1565-1566)

Şah Abbasın münəccimi və yaxınlarından biri Mövlana Cəlaləddin Məhəmməd ibn Kəmaləddinin yazdığı *Tarixi- Abbasi* və ya əsl adı *Ruznameyi Molla Cəlal dər əhvale Şah Abbas* əsəri Şah Abbasın şəxsiyyəti və hakimiyyət illəri haqqında yazılan dəyərli mənbələrdən biridir. Bu kitabda Şah Abbasın şəcərənaməsi

geniş şəkildə verilməklə yanaşı, Şah Təhmasibin vəfatından Şah Abbas hakimiyyətinin iyirmi beş ilinədək olan Səfəvilər tarixindən də söz açılır. Kitabın dili olduqca sadədir. Əsəri Seyfullah Vəhidniya Tehranda çap etdirmişdir.(18; giriş bölümü)

Eyni zamanda, Mövlana Cəlaləddinin oğlu Kəmaləddin *Zöbdətüt-təvarix* adlı əsər də yazmışdır. Bu kitab *Lobut-tarix* və ya *Mocmələt-təvarix* adı ilə də tanınır. Kitab dünyanın yaranmasından 1063-cü hicri-qəməri (1653-cü miladi) ilinədək hadisələrin qısaca tarixindən bəhs edir.* (20; C.5/3- S.1566)

Səfəvi dönəminə aid şah əsər sayılan və hər kəsin tanıdığı *Tarixi- Aləmarayi-Abbasi* əsərini İsgəndər bəy Münşi yazmışdır. Müəllif bu əsərində Səfəvi sülaləsinin ilk nümayəndələrindən başlayaraq Şah Abbasın dönəmi, vəfatı və onun canişini Şah Səfi dönəmində baş verən hadisələrdən bəhs edir və öz dönəminin elm, ədəb əhli, alim və seyidləri haqqında məlumat verir. Ədəbi dildə yazılmış bu əsər dövrünün ən sanballı və təfərrüatlı əsərlərindəndir.(8; C.1. – S.16-20) Qaynaq İrəc Əfşar tərəfindən təshih edilmiş və üç cilddə çap edilmişdir.

Nizam Siyaqinin *Futuhati-Homayuni* adlı əsəri Şah Abbas haqqında yazılmışdır. 1007-ci hicri-qəməri (1598-ci miladi) ilində Şah Abbasın adına yazılmış bu kitab onun hökmdarlığının on iki ilində baş vermiş hadisələrdən danışır. "Kəramət" adlı giriş və "Fəth" adlı on iki fəsildən ibarət olan bu əlyazma haqqında *Bərresihayi- tarixi* və *Ketabi-mah* jurnallarında geniş məlumat verilmişdir.(21; S.207-278 və 6; S.30-40)

Zəbihullah Səfa Şah Abbas haqqında digər bir tarixi əsərin – Abdullah oğlu Məhəmmədin *Xülaseyi-Abbasi* əsərinin adını çəkir.(20; C.5/3. – S.1567) Bu əsər haqqında başqa qaynaqlardan məlumat əldə etmək mümkün olmadı.

Mirzə Bəy ibn Həsən Hüseyn Conabadinin *Rövzətüs-Səfəviyyə* əsərində Səfəvi xanədanının 130 ilindən, yəni Şah İsmayılın taxta çıxdığı tarixdən (907-ci hicri-qəməri –1501-ci miladi) I Şah Abbasın hakimiyyətinin qırxıncı ilinədək (1036-cı hicri-qəməri – 1627-ci miladi) olan hadisələrdən danışılır. Müəllif bu əsərini 1023-cü hicri-qəməri (1614-cü miladi) ilində Şah Abbasın adına yazmışdır. Kitabda Seyx Səfiəddin Ərdəbili dönəmindən başlayaraq Səfəvi sülaləsi haqqında da şərhlər vardır. Səfəvi dövrünün ən dəyərli qaynaqlarından olan bu kitab müəllifin gördükləri və eşitdikləri, ən əsası, müşahidələri əsasında yazılmışdır. Əsər hadisələrin dəqiqliyi, təfərrüatlılığı, həmçinin dövrün adət-ənənələri haqqında hərtərəfli məlumatın olması ilə digər tarixi qaynaqlardan seçilir.

Kitab, dövrün digər əsərləri kimi, mürəkkəb cümlələrdən ibarət olsa da, mətləbin çatdırılması səlisliyinə görə həmin əsərlərdən üstün sayılır.(14; S.17-25)Bu əsər Qulamrza Təbatəbai Məcd tərəfindən təshih edilmişdir.

Digər bir mənbə *Tarixi- Şah Səfi* əsəridir. Əsər iki bölümdən ibarətdir. Birinci mətn Əbülməfaxir ibn Fəzlullah Əlhüseyni Təfrişi tərəfindən yazılmış *Tarixi- Şah Səfi* adlanır. Əsərdə Şah Səfinin hökmdarlığı illərində (1038-1052-ci hicri-qəməri – 1628-1642-ci miladi) yaranmış ictimai-siyasi vəziyyət haqqında qısa məlumat verilir.

I Şah Abbas və Şah Səfi zamanında yaşamış bu şəxs dövrün tarixçi və şairlərindən biri olmuşdur. İkinci mətn Mir Məhəmməd Hüseyn Hüseyni Təfrişi tərəfin-

* Əlyazmanın nüsxəsi Məclisi- Şurayi- Melli kitabxanasında 14135 nömrəsi altında saxlanılır.

dən yazılmış *Məbadiyi- tarixi, zamani-Nəvvab Rezvan məkan (Şah Səfi)* adlı tarixi qaynaqdır. Həmin dövrün münşi, ədib və tarixçisi olan bu şəxs Əbülməfaxirin qardaşıdır. 1038-1041-ci hicri-qəməri (1628-1631-ci miladi) tarixində yazılmış bu əsər dövrün ən mühüm mənbə***lərindən*** sayılır və Şah Səfi dönəmi haqqında lazımi tarixləri özündə cəmləşdirir. Müəllif bu əsəri öz müşahidələri əsasında qələmə almışdır.(3; giriş bölümü) Bu iki əsəri *Tarixi- Şah Səfi* adı ilə Mohsen Bəhramnejad təshih etmişdir.

Şah Səfi haqqında digər bir qaynaq Mirzə Məhəmməd Məsum ibn Xacegi İsfahaninin qələmə aldığı *Xülasət-üs-seyr* kitabıdır. Şah Abbas və Şah Səfi dövründə yaşamış bu yazıçı hər iki hökmdarın dönəmində mənsəb sahibi olmuşdur. Müəllifin yazdığına görə, bu kitab Şah Səfinin istəyi ilə yalnız onun dövründəki hadisələr haqqında yazılan qısa bir tarixdir.(20; C.5/3. S.1567-1568 və 16; giriş bölümü) Kitab Məhəmmədrza Qənnadi tərəfindən təshih edilmişdir.

Mirzə Məhəmməd Tahir Vəhidinin yazdığı *Tarixi-Cahanarayi-Abbasi* əsəri də dəyərli bir qaynaq kimi diqqəti cəlb edir. Müəllif əlyazmada kitabın adını yazmamışdır. Bu səbəbdən də kitab sonrakı dönəm müəllifləri tərəfindən *Tarixi- Abbasi*, *Tarixi Şah Abbasi dovvom*, ya *Şah Abbasi-sani* və *Abbasname* kimi müxtəlif adlarla tanınmışdır. Kitab II Şah Abbas haqqında yazılmış əsas qaynaqlardan biridir. Bir çox nəzm və nəsr əsərləri yazmış müəllifin bu əsərində II Şah Abbasın doğulduğu tarixdən hakimiyyətinin iyirmi ikinci (1052-1073-cü hicri-qəməri – 1642-1663-cü miladi) ilinədək olan hadisələrdən söz açılır. O, əsərini daha çox öz müşahidələri əsasında qələmə almış, elm və fəzl əhli olduğu üçün kitabı ədəbi bir dildə və düzgün qaydalarla yazmış, yeri gəldikcə öz beytlərindən də istifadə etmişdir.(17; S.33-54) Əsər Seyyid Səid Mir Məhəmməd Sadiq tərəfindən təshih olunmuşdur.

Dövrün digər tanınmış əsərlərindən biri olan *İran dər zamani-Şah Səfi və Şah Abbasi-dovvom* əsərini Məhəmməd Yusif Valeh Qəzvini İsfahani yazmışdır. Bu əsər, əslində, *Xoldbərin* əsərinin bir hissəsidir. *Xoldbərin* əsəri adı çəkilən müəllif tərəfindən yazılmış və səkkiz fəsldir. 1078-ci hicri-qəməri (1667-ci miladi) ilində yazılan, ümumtarix sayılan bu əsərin səkkizinci fəsli Səfəvilər dövrünə aiddir və bu da yeddi bölümdən ibarətdir. Həmin yeddi fəsldən son ikisi, yəni altıncı fəsl Şah Səfi, yeddinci fəsl Şah II Abbas və 1071-ci hicri-qəməri (1661-ci miladi) ilindəki hadisələr haqqındadır. Səfəvi şahları haqqında çox dəyərli məlumatlardan ibarət *İran dər zamani-Şah Səfi və Şah Abbasi- dovvom* kitabı haqqında söz açdığım *Xoldbərin* kitabının səkkizinci fəslinin iki bölümündən alınmışdır. Müəllif Şah Səfi və II Şah Abbas dövrünün hadisələrini öz gördüyü və eşitdiklərinin əsasında yazmışdır.(13; S.8) Əsər Məhəmmədrza Nəsiri tərəfindən təshih edilmişdir.

İranlı yazıçı Zəbuhullah Səfa I Şah İsmayıldan II Şah Abbas dönəminə qədər olan hadisələrdən danışan daha iki əsərin adını çəkmişdir. Bunlardan biri *Riyaz-ut-təvarix*, digəri isə *Xülasətül-məqal* kitablarıdır.(20; C.5/3. – S.1568) Onu da qeyd edək ki, bu iki əsər haqqında heç bir məlumat əldə edə bilmədik.

II Şah Abbas haqqında yazılan ən kamil əsərlərdən biri də Vəliqulu bəy ibn Davudqulu Şamlu tərəfindən yazılmış *Qesəsül-xaqan* əsəridir. Səfəvi xanədanı haqqında qısa məlumatdan ibarət olan bu kitab II Şah Abbasın son dönəminə aid hadisələrlə (1076-cı hicri-qəməri–1665-ci miladi) sona çatır. Adı çəkilən hökmdarın dönəmi haqqında geniş məlumatdan başqa, dövrün elm adamları, hikmət sahibləri

ilə bağlı məlumat, habelə bir çox siyasi sənəd və yazışmalar da bu kitabda yer almışdır. Kitab üç fəsildən ibarətdir. Birinci fəsil Səfəvilərin əcdadları, Sultan Firuzşah Zərrinkolahdan I Şah İsmayılın taxta oturmasınadək, ikinci fəsil I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl, Şah Məhəmməd Xudabəndə, I Şah Abbas və Şah Səfi haqqında, üçüncü fəsil isə II Şah Abbasın hakimiyyət illərinədək (1086-cı hicri-qəməri –1675-ci miladi) olan hadisələrdən ibarətdir. Kitabın sonunda üç təzkirə yazılmışdır. O, kitabını Şah Süleyman Səfəvi haqda yazmaq fikrində olduğunu bildirən bir sonluqla başa vurmuşdur. Müəllifin yazılarına nəzər saldıqda onun ziyalı olduğunun, öz elm və biliyini yazılara yansımasının şahidi oluruq.(2; S.111-116) Doktor Seyyid Həsən Sadat Nasirinin təshih etdiyi bu kitabın birinci cildi 1371-ci hicri-şəms (1992-ci miladi), ikinci cildi isə 1374-cü hicri-şəms (1995-ci miladi) ilində çap edilmişdir.

Məhəmməd Əmin Yəzdinin yazdığı *Təcəlliyati-Abbasiyye* əsəri də diqqətçəkicidir. II Şah Abbas haqqında yazılan bu əsər (1067-ci hicri-qəməri ilinin şəvval ayı – 1657-ci miladi ilinin avqustu) İsfahanda yazılan kiçik əsərlərdən biridir. Bəzi tarixçilər həmin əsərin I Şah Abbasa aid olduğunu qeyd edirlər.Ancaq mətndəki bir sıra dəlillər bu əsərin II Şah Abbasa aid olduğunu sübut edir. Örnək üçün: əsər II Şah Abbasa təqdim olunarkən şah bu əsərə öz möhrünü vurmuşdur. Əbuyi Məhrizi Məhəmməd Rza *Bərresihayi noine tarixi* jurnalında bu əsər haqqında maraqlı məlumatlar və əsərin tam mətnini dərc etdirmişdir.(1; S.123-142)

Töhfətül-aləm dər ousaf və əxbari-Şah Sultan Hüseyn əsəri Seyyid Əbutalib bəy Musəvi Fəndərski tərəfindən yazılmışdır. 1107-ci hicri-qəməri (1706-cı miladi) ilində qələmə alınmış bu əsər Şah Sultan Hüseyn haqqındadır. 1106-cı hicri-qəməri (1705-ci miladi) ilində Şah Sultan Hüseynin taxta oturduğu tarixdə bu kitab yazılmağa başlamışdır. Müəllifin Şah Süleymanın yanında böyük hörməti olmuşdur. Ancaq bu elm və fəzl sahibi Sultan Hüseynin nüfuzunu qazana bilməmişdir. Görünür, bu kitabı yazmaqla ona yaxın olmaq istəmiş və buna nail olmuşdur. Əsər dörd müxtəlif fəsildən ibarət olub, il yarım müddətində yazılmış (19; S. 15-16) və Rəsul Cəfərian tərəfindən təshih edilmişdir. R. Cəfərian əsərin siyasi, tarixi, ədəbi əhəmiyyəti haqqında maraqlı məlumatlar vermişdir.

Şah Sultan Hüseyn haqqında yazılmış digər bir əsər Məhəmməd İbrahim ibn Zeynəlabidin Nasirinin qələmə aldığı *Dəsturi-şəhriyaran* kitabıdır. Şah Sultan Hüseyn dövrünə aid ən dəyərli qaynaq sayılan bu kitabın müəllifi adı çəkilən şahın məclisi-nevisi vəzifəsində işləmiş və şaha yaxın olmuşdur. Bu səbəbdən dövrün hadisələri haqda daha dəqiq məlumat əldə etmiş və bunları qələmə almışdır. Əsərdə 1105-1110-cu hicri-qəməri (1694-1699-cu miladi) illər arasında baş verən hadisələr yer alır, lakin əlyazmanın son vərəqləri tapılmadığı üçün əsərin nə vaxt sona çatması haqda məlumat yoxdur.

Müəllif əsərinin bəzi yerlərini sadə dillə, bəzi yerlərini, xüsusilə şah və dövlət rəsmilərinə aid olan yerlərini mürəkkəb və qəliz ədəbi dildə yazmış, şeir və beytlərdən istifadə etmişdir.(11; S. 52-55) Əsər Məhəmməd Nader Nəsiri Müqəddəm tərəfindən təshih edilmişdir.

XII əsrin tanınmış şairi Məhəmməd Əli Həzi iki tarixi əsər yazmışdır: *Vaqiati- Hind* və *Tarixi-Həzin*.*Tarixi-Həzin* Səfəvilərin son dönəmində İsfahan şəhəri, əfqanların bu şəhərə hücumları və Nadir şahın hakimiyyəti haqqındadır. Bu kitab Belfor tərəfindən 1831-ci ildə Londonda çap edilmişdir. Həzinin İsfahan

şəhərində əfqanlar tərəfindən qarət edilən kitabxanasında digər əsərlərinin olduğu da ehtimal olunur. *

Mirzə Məhəmməd Xəlil Mərəşinin yazdığı *Məcmuət-təvarix* əsəri Səfəvilərin son dönəmi, əfqanların hücumu haqqında geniş məlumatlı digər qaynaqdır.

Səfəvi və Mərəşi ailəsindən çıxan bu müəllifin əsəri öz dövrü haqqında dəyərli məlumatlarla zəngin bir əsərdir. Kitabın tam adı *Məcmuət-təvarix dər enqerazi- Səfəviyye və bəd ta sale 1207 h.,* mövzusu İranda əfqanların üsyanı, Qəndəhar hadisələrindən (1120-ci hicri-qəməri – 1709-cu miladi ilindən) başlayaraq müəllifin öz dönəmində, özəlliklə 1709-cu ilədək, 87 il boyu baş verən hadisələrdən ibarətdir. Müəllifin adı çəkilən dönəmə aid verdiyi məlumatlar dəqiqlik baxımından heç bir yazıçı tərəfindən yazılmamışdır.(10; S.1) Kitabı Abbas İqbal Aştiyan təshih etmişdir.

Mirzə Əbülhəsən ibn İbrahim Qəzvininin yazdığı *Fəvaidus-Səfəviyyə* kitabı da *Məcmuət-təvarix*-dən qaynaq almış digər əsərdir. Yazar bu kitabında II Şah Süleyman dönəmindəki hadisələrdən yazıb. Bu müəllif digər müəlliflərin qorxub yazmadıqlarını Mirzə Xəlilin qələmə aldığını bildirmişdir.(15; S. 81) Bu əsərin ən əsas üstünlüklərindən biri Səfəvi xanədanının hakimiyyətinə son qoyulduqdan sonra bu sülalənin nümayəndələri haqqında məlumat verməsidir. Belə ki, Səfəvilərdən sonra gələn Əqfanlar, Əfşarlar, Zendiyyə və Qacarlarla eyni zamanda İranın müxtəlif yerlərində bu xanədanın nümayəndələri hakimiyyətlərini davam etdirmişdilər. Sülalənin ən son nümayəndəsi Qacarlar dönəmində yaşamış Sultan Məhəmməd Sani ləqəbli Əbülfəth Sultan Məhəmməd mirzə olmuşdur. Müəllif Hindistanda yazdığı bu əsərini 1211-ci hicri-qəməri (1997-ci miladi) ilində Sultan Məhəmməd Saniyə təqdim etmişdir. Mirzə Əbülhəsən öz təlifində Səfəvilər dönəminə aid etibarlı qaynaqlardan istifadə etmişdir.(15; S. 9) Bu əsəri Məryəm Mir Əhmədi təshih etmişdir.

Məhəmməd Şəfi Tehraninin yazdığı *Merati-Varidat* əsərində Səfəvilərin süqutu, süqutdan sonra baş verən hadisələr və Mahmud Sistaninin hakimiyyəti illərindən bəhs edilir. Əsər 1139-cu hicri-qəməri (1727-ci miladi) ilində yazılmağa başlayıb, mövzusu 1100-cü hicri-qəməri (1689-cu miladi) ilindən 1146-cı hicri-qəməri (1734-cü miladi) ilinədək, Merati-Varidatın digər nüsxəsində isə 1152-ci hicri-şəmsi (1740-cı miladi) ilinədək hadisələrdən bəhs edir.(12; S.27-28) Əsər Doktor Mənsur Sefətgül tərəfindən təshih edilmişdir.

Səfəvilər dönəminin sonu, Əfşarların hakimiyyətə gəlişi dönəminə aid daha bir əsər tarixçi Əbdül Əla tərəfindən qələmə alınmış *Tarixi-Təhmasibi* kitabıdır. Əsər Şah Sultan Hüseynin 1105-ci hicri-qəməri ilində (1694-cü miladi) tac qoyduğu tarixdən 1160-cı hicri-qəməri (1747-ci miladi) ilinə – Nadir şahın öldürülməsinə qədər baş verən hadisələr haqqındadır. Əlyazma Tehran Universiteti mərkəzi kitabxanasında saxlanılır, təshih olunması haqda bir məlumat əldə edə bilmədik.(20; C.5/3. – S.1569)

Mərv vəziri Məhəmməd Vəzirin yazdığı *Nameyi- Aləmarayi Nadiri* kitabı Nadir şah haqqında ən yaxşı və ən dəyərli qaynaqlardan biri olsa da, bu kitabın əvvəllərində əfqanların qələbəsi, Nadir şahın onlarla müharibəsi və bu tayfanın tamamilə uzaqlaşdırılması haqqında məlumatlar vardır.(20; C.5/3. – S.1569)

* http://www.encyclopaediaislamica.com/madkhal2.php?sid=6095; saat 21:56.

Bu tarixlərdən başqa, ümumi tarixlər, İslamdan əvvəlki, İslam dövrü İran və Səfəvilər dövrünədək İran tarixi kitablarında bir hissə Səfəvilər tarixinə aiddir. Belə kitabların sayı çox və məqalənin həcminin məhdud olduğu üçün sadəcə, Səfəvi dövrü tarixi kitabları haqqında yazmaqla kifayətlənirik.

Nəticə

Səfəvi dövrü qaynaqları istər özündən əvvəl, istərsə də sonrakı dövrlərlə müqayisədə sayca daha üstünlük təşkil edir. Məqalədə yalnız Səfəvilər dövrünə aid kitablardan məlumat verildi. Haqqında məlumat verilən kitablar sayca 29 addadır. Lakin bəzi kitabların birdən artıq adı, bəzilərinin isə birdən artıq cildi var.

Bu tarixi əsərlər I Şah Təhmasibdən sonrakı hökmdarların dövründən bu sülalənin süqutuna qədərki hadisələrdən bəhs edir.

Müəlliflər bu əsərlərdə sadəcə dövrün tarixi hadisələri deyil, ictimai, mədəni, dini , elmi və s. vəziyyətlərindən də xəbər verirlər.

Eyni zamanda, müəlliflər öz dövrlərindən əvvəlki qaynaqlardan yararlansalar da, əsərlərini daha çox öz müşahidələri əsasında qələmə almışlar.

Onu da qeyd edək ki, haqqında məlumat verilən tarixi əsərlər fars dilindədir.

Ədəbiyyat

1- Əbuyi Məhrizi, Məhəmməd Rza. Nəqd və bərresiye kitabi-Təcəlliyati- Abbasi. Bərresihayi- noine- tarixi. Bahar 1386. No. 3.
2- Əbülhəsən Mubin. Tarixi-Səfəviyye be rəvyəti- "Qesəsül-xaqani". Ketab-mah tarix və coğrafiya. Dey bəhmən 1382 h.ş. no.75-76.
3- Əbülməfaxir ibn Fəzlullah Əlhüseyni Təfrişi. Tarixi Şah Səfi. Təshih edən Mohsen Bəhramnejat. Tehran. Mirasi- Məktub nəşriyyatı, 1390 h.ş.
4- Əfuşteyi Nətənzi Mahmud ibn Hidayətullah. Noqavətul-asar fizikrul-əxyar. Təshih edən Ehsan İşraqi. Tehran. Şerkəti- enteşarati- elmi və fərhəngi nəşriyyatı, 1350 və 1373 h.ş.
5- Həsən bəy Rumlu. Əhsən-üt-təvarix. Təshih edən Çarlz Narmen Siden. Ketabxaneyi- Şəms nəşriyyatı, 1931
6- Həsən Zendiye. Müərrifi və bərresiyi- nüsxeyi- xətti "Futuhati-Homayuni" əsəri- Siyaqi Nizam. Ketabi- mah tarix və coğrafiya jurnalı. Mehr 1380 h.ş. no.48.
7- http://www.encyclopaediaislamica.com/madkhal2.php?sid=6095; saat 21:56.
8- İsgəndər bəy Münşi. Tarixi- aləm-arayi-Abbasi, 3 cilddə. Təshih edən İrəc Əfşar. Tehran. Əmir Kəbir nəşriyyatı, 1382 h.ş.
9- Qazi Mir Əhməd Qumi İbrahimi. Xülasət-üt-təvarix, iki cilddə. Təshih edən Ehsan İşraqi, Tehran. Tehran universiteti nəşriyyatı, 1383 h.ş.
10- Məhəmməd Xəlil Mərəşi Səfəvi. Məcmuət-təvarix dər enqerazi- Səfəviyye və bəd ta sale 1207 h.s. Təshih edən Abbas İqbal Aştiyanı. Tehran. Kitabxaneyi Tahuri və Saneyi nəşriyyatı, 1997 m.,
11- Məhəmməd İbrahim ibn Zeynəlabidin Nasiri. Dəsturi- şəhriyaran. Təshih edən Məhəmməd Nader Nəsiri Müqəddəm. Tehran. Bonyadi-moqufati Doktor Mahmud Əfşar nəşriyyatı, 1373 h. ş.

12- Məhəmməd Şəfi Tehrani. Merati- Varidat. Təshih edən Mənsur Sefətgül. Tehran. Mirasi-məktub nəşriyyatı. 1383 h. ş.
13- Məhəmməd Yusif Valeh Qəzvini İsfahani. İran dər zamani- Şah Səfi və Şah Abbasi- dovvom. Təshih edən Əsər Məhəmmədrza Nəsiri. Tehran. Əncüməni- asar və məfaxiri- fərhəngi nəşriyyatı, 1382 h. ş.
14- Mirzə Bəy ibn Həsən Hüseyn Conabadi Rövzətüs-səfəviyye. Təshih edən Qulamrza Təbatəbai Məcd. Tehran. Bonyadi- Moqufati- Doktor Mahmud Əfşar nəşriyyatı, 1378 h. ş.
15- Mirzə Əbülhəsən ibn İbrahim Qəzvini. Fəvaed-üs Səfəviyyə. Təshih edən Məryəm Mir Əhmədi. Tehran. Müəssiseyi- motaleat və təhqiqati- fərhəngi nəşriyyatı, 1367 h. ş.
16- Mirzə Məhəmməd Məsum ibn Xacegi İsfahani . Xülasət-üs-seyr. Təshih edən Məhəmmədrza Qənnad. Tehran. Elmi nəşriyyatı 1368 h. ş.
17- Mirzə Məhmməd Tahir Vəhid tərəfindən yazılmış Tarirxi-Cahanarayi- Abbasi. Təshih edən Seyyid Səid Mir Məhəmməd Sadiq. Tehran. Pəjuheşgahi- ulumensani və motaleati- fərhəngi nəşriyyatı, 1383 h. ş.
18- Mövlana Cəlaləddin Məhəmməd ibn Kəmaləddin. Tarixi- Abbasi ya Ruznameyi- Molla Cəlal dər əhvale Şah Abbas. Seyfullah Vəhidniya. Tehran. 1366 h. ş.
19- Seyyid Əbutalib bəy Musəvi Fəndərski. Töhfətül-aləm dər ousaf və əxbari- Şah Sultan Hüseyn. Təshih edən Rəsul Cəfərian. Tehran. Ketabxane, muze və mərkəzi-əsnadi- məclesi şurayi islami nəşriyyatı, 1388 h. ş.
20- Səfa Zəbihullah. Tarix-i Ədəbiyat dər İran. C.5/3. Tehran. Ferdous nəşriyyatı, 1386 h. ş.
21- Zəryab Xoyi Abbas. Futuhati-Humayun. Bərresihayi-tarixi jurnalı. Fərvərdin və ordibeheşt 1352. No.44-45.

Z.Huseynli

Sources of the history of the Safavid period
(End of period of Shah Abbas I)

Safavid period is considered to be one of the richest work of prose. Many works on different branches of science have been written during this period: Literature of the poetry and prose, astronomy, medicine, mathematics, religion, etc. Historical texts are more prevalent among of prose belonging of the the same scientific areas. İn other words, historical writings are taken the most important place among the prose work of this period.

Historical artifacts related to the Safavid period, even though a wide range of topics and in terms of content, most of the texts of the Safavid dynasty, rulers of the Safavid period, and about the events.

The majority of these works are in Persian, the article, written in terms of the historical and social time are analyzed and comprehensive information on them.

З. Гусейнли

Источники истории периода Сефевидов
(На конец периода шаха Аббаса I)
Ruzume

Период Сафавитов считается одним из насыщенных произведениями Наср периодами. В этот период были письменно запечатлены как литература поэзия и проза так и астрономия ,медицина, математика, религия и а так же произведения в других областях. В данных научных произведениях проза часто встречаются исторические темы. Т. е в важнейших произведениях проза того периода особенное место уделяется историческим рукописям. Не смотря на широкую распространённость исторической тематики в основном это было посвящено Сафавитской династии и её правителям а также событиям происходящим вокруг них. В статье в основном написанные на фарси эти произведения анализируются и даётся подробная информация об этих событиях.

Rəyçi: Namiq Musalı
tarix üzrə fəlsəfə doktoru

f.e.n SOFİYA MİRZƏYEVA
ADU

ANAR YARADICILIĞINDA FƏLSƏFİ FİKİRLƏR

Açar sözlər: Anar, dramaturgiya, müstəqillik dövrü.
Ключевые слова: Анар, драматургия, период независимости
Keyword: Anar, dramaturgy, period of independen

Əslində yaradıcılıq mövqeyindən asılı olmayaraq istənilən yazar haqqında nəsə yazırsansa əksər hallarda mütləq onun həyatından, tərcümeyi-halından qısa da olsa məlumat verilir. Amma əgər söhbət yaradıcı insandan gedirsə deməli onun tərcümeyi-halı,həyat yolu məhz elə onun yaradıcılığıdır. Anarın əsərləri ilə tanış olarkən oxucunu ilk olaraq cəlb edən məqam Anar yaradıcılığının həqiqətən renesans genişliyinin istedad və maraq dairəsindən başqa, mənəvi qaynaqların da olmasıdır. Özgə əməllər ilə, talelər ilə, səyləri ilə bu qədər ürəkdən məşğul olmaq yalnız ölümü unutmayan və həyatı sevən adamın işidir.

Anarın şəxsiyyət, sənətkar, ictimai xadim kimi Azərbaycan mədəniyyətində unikallığı aydın həqiqətdir. İstedadın, geniş erudisiyanın, xalqına, ölkəsinə gərəkli olmaq yolunda xidmətin və zamanın son dərəcə dəqiq duymağın belə üzvü vəhdətini tutmaq hər yazara qismət olmur.

Anar həyatda, sənətdə heç kimə bənzəmir, ədəbiyyatımızda onun özünəməxsus yeri və dəsti-xətti var. Hər hansı bir əsərini oxuyanda bilirsən ki, bu, Anarın qələmindən çıxıb. Yazıçının nəinki əsərləri, özünün çəkdiyi filmlər də adi bədii filmlər deyil. Bunlar həm də görkəmli sənətkarlarımız haqqında monumental tədqiqat əsərləridir. Yazıçının həyatına aid xatirələri oxuyarkən, kinoaktyor HəsənMəmmədovun fikirləri diqqəti çəkir o yazır: "MənAnarı bir yazıçı kimi çoxdan tanıyıram. Mən çox rejissorlarla işləmişəm . Amma Anarda başqalarından fərqlənən cəhətlər görmüşəm.

Çəkiliş meydançasında çox danışmaqla, obrazı aktyora uzun-uzadı başa salmaqla işi yoxdur. O, baxışlar ı ilə, iki kəlmə ilə sözlə aktyoru inandırır. Mən Anarla fəxr edirəm. Moskvada yaşlı nəsild ən olan ədiblərin ona necə hörmət və izzətlə müraciət etdiklərini görəndə ürəyim dağa dönürdü".

Xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi,- bir sözlə, insan ruhunun ali və xırda duyğularını nəsr səviyyəsinə qaldırmaq ehtirası bu gözəl yazıçımızın fitrətindədir.

Anarın müasir nəsrimizin inkişafında, yeni ruhlu ədəbiyyatın yaranmasında, lirik-psixoloji üslubun daha da qabarıq şəkil almasında xidmətləri böyükdür.

Dünya ədəbiyyatında elə yazıçılar var ki, onların qələmindəki axıcılıq, dilin gözəlliyi, obrazların zənginliyi və genişliyi oxucunu valeh edir. Elə sənətkarlar da var ki, onlardakı bədii xəyalın yüksəkliyi, konfliktlərin kəskinliyi bizi cəlb edir.

Bir qism sənətkarlarda süjet qurmaq bacarığı, başqa bir qismində isə xarakterlər yaratmaq məharəti, bəzilərində hadisələrlə xarakterləri bağlamaq tərzi, digərlərində insan psixologiyasına dərindən nüfuz etmək qabiliyyəti bizi heyran qoyur. Bütün bunlar və yaradıcı şəxsiyyətin digər fərdi xüsusiyyətləri bir yerə toplanand a biz böyük istedadla üz-üzə gəlirik. Məhz belə halla r da hər bir istedad öz çaları ilə ortaya çıxanda, bədii yaradıcılıq tarixində rəngarənglik yaranır,

ədəbiyyatın nəfəsində həyatın ətri duyulur, ictimai varlığın bir səhifəsi canlanır, insan şəxsiyyətinin, ayrı-ayr ı fərdlərin, qrupların və ya zümrələrin cəmiyyətdəki yeri, mövqeyi görünür. Bax, Anarda bütün bu istedadmı, bacarıqmı, peşəkarlıqmı, adını nə qoyuruqsa qoyaq cəmlənib. O, böyük istedadların cərgəsindədir, amma onun bu cərgədə tutduğu yerin də öz xüsusiyyəti var. Onun əsərlərini oxuyanda bilmirsən nəyə çox diqqət edəsən: müəllifin yüksək bədii istedadınamı, oxunaqlı yazı üslubunamı, yoxsa təsvir rəngarəngliyinə? Yazıçı mədəniyyəti vacib məsələdir və böyük istedad sahibinin yaradıcılıq işində bu məsələ həmişə ön planda dayanır. Çünki fitri istedad nə qədər böyük nemət olsa da, onun parlaması, tələb olunan istiqamətdə hərəkəte gəli b inkişaf etməsi yazıçının mədəniyyətindən, onun h əyatla qarşılaşmaq və onu əks etdirmək üçün nədərəcə də hazır olub-olmamasın dan asılıdır. Bu hazır lıq onun mədəni səviyyəsi ilə qırılmaz tellərlə bağlıdır. Məhz Anar kimi böyük sənətkarlarda istedad, yüksək yazıçı mədəniyyəti ilə birləşdiyinə görədir ki, onlar öz zəmanlərinin bədii aynasına çevrilə biliblər.

Mövzu rəngarəngliyinə baxmayaraq, Anarın demək olar ki , bütün əsərlərində insanın daxili aləmi əsas diqqət mərkəzindədir. Həm də Anar psixoloji halın təsvirini məqsədə çevirmir, onun vasitəsilə insana müraciət edir, şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibətlərindəki bir sıra ziddiyyətləri göstərir.

Anarın müasir nəsrimizin inkişafında, yeni ruhlu ədəbiyyatın yaranmasında, lirik-psixoloji üslubun daha da qabarıq şəkil almasında xidmətləri böyükdür. Hekayə, povest, romanları ilə Azərbaycan nəsrini zənginləşdirən, ona yeni ruh, məzmun, əhval-ruhiyyə gətirən görkəmli yazıçıdır. "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Evləri köndələn yar", "Sizsiz", "Ağ qoç, Qara qoç", "Dantenin yubileyi", "Mən, sən, o və telefon" kimi əks-səda yaratmış, adı Azərbaycan Ədəbiyyatı Tarixinə düşmüş dəyərli əsərlərin müəllifidir. "Anlamaq dərdi", "Dədə Qorqud" kimi dərin elmi-publisistik araşdırmaları da maraqla qarşılanıb.

Anar əsərlərində öz dövrünün ən aktual problemlərini qabardıb, onun həssas nöqtələrinə toxunduğundan bu əsərlər təbii ki əhatəli ədəbi-tənqidi münasibətlərə, diskussiyalara hədəf olur, estetik qavrayış çevrəsini formalaşdırır.

Onun yaradıcılığı haqqında Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yazılan çoxsaylı məqalələr, aparılan tədqiqatlar yəqin ki bu zərurətin bəhrəsidir. Anarın qələmindən çıxan əsərləri oxuyub başa çatdırandan sonra həmin əsərlər haqqında yazılmışları göz önünə gətirdikcə, belə bir qanunauyğunluq meydana çıxır: Azərbaycanın klassik və çağdaş mədəniyyəti, xüsusilə ədəbiyyatı küll halında Anar yaradıcılığında bu və ya digər formada öz əksini tapıb. Ortaya qoyduğu ictimai problemləri, əxlaqi-mənəvi dəyərləri, bədii-estetik zövqü və yönləri ilə.

Çağdaş ədəbiyyatımızın, tənqidimizin və mədəniyyətimizin elə seçkin nümayəndəsi yoxdur ki, Anar yaradıcılığına bu və ya digər formada, səviyyədə müraciət etməmiş olsun. Anar yaradıcılığı Azərbaycan mədəniyyətinə tarixilik və müasirlik baxımından elə oturuşub ki bu vəhdətdəki harmoniyadan yalnız heyrətə gəlmək olar

Anarın nəsri, şübhəsiz, onun çoxşaxəli yaradıcılığının nüvəsini təşkil edir. Yazıçının nəsri 60-cı illərdən ta günümzədək özünəməxsus zənginləşmə, dərinləşmə yolu keçmiş, bu axtarışlarda yeni çalarlar, özəl keyfiyyətlər üzə çıxmışdır. Bu əsərlərdə insan məhəbbəti, ləyaqəti, arzu və istəkləri qələmə alınmışdır. Qəhrəmanların və aparıcı obrazların hamısı öz yüksək daxili ehtirasları,

həyat eşqi, azadlıq və ədalət, həqiqət və səadət arzuları ilə çırpınırlar. Və demək olar ki onların hamısı bu yolda böyük sıxıntılara rast gəlir, sınaqlarla, çətinliklərlə üzbəüz qalırlar. Anarın özünəməxsus süjet xətti bəzən hadisələri romantik və estetik mühitə keçirir, Moskvanı, İstanbulu, Kislovodskı təsvir edir, lakin belə hallarda da real həyatdan və həqiqətdən ayrılmır.

Yazıçı Anarın "Seçilmiş əsərlər"ində toplanmış yazıların demək olar ki hamısında qüdrət, aydınlıq və müdriklik müşahidə olunur. Müəllifin tələtümü, inkar və təsdiqi qabartması söz oyunundan deyil, adi ehtirasdan, əks-sədadan, daxili inamdan doğur. Bizi əhatə edən aləmdəki xırda detallar belə, yazıçını dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi,- bir sözlə, insan ruhunun ali və xırda duyğularını nəsr səviyyəsinə qaldırmaq ehtirası bu gözəl yazıçımızın fitrətindədir. Mütəfəkkir sənətkarımızın, qocaman ağsaqqalımızın başlıca qayəsi, uğuru da məhz bundadır.

Qadın-kişi ünsiyyətindən doğan ədəbi mövzu onun qələmində təzələnir, sevgilisindən küsənin nisgili, qəribəlikləri və bunun əksinə, əsas obrazların dilindən deyilən sözlərdə yaşayan mərdanə dözüm və vəfalılıq bizi riqqətləndirir, bir az kövrəldir; çünki yazıçı hamıya doğma olan bu acılı-şirinli münasibətlərdə sözə sığışmayan ilahi duyğuları sehrlə "ovlaya" bilir.

İndiki keşməkeşli zamanımızda tanınmış yazıçı olmaq və eyni zamanda şəxsiyyətini saxlamaq çox çətin bir işdir. Ədəbi dərgiləri vərəqlədikcə, saytlarımıza nəzər yetirdikcə görürsən ki, əsl sənətkar da azdır. Anar kimi həqiqi yazarlar oxucuların yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Şüuraltı psixologiyanın içərilərinə varmada Anar əsrdaşları nəsr poetikası ilə səsləşən, lakin tamamilə orijinal bir poetikanın yaradıcısı olur. Bu - büsbütün Azərbaycan psixologiyasının dərinliklərinin poetikasıdır. Personajlar bütün mental biçimlərində Azərbaycan ekzistensiyasını ifadə edirlər. Şüuraltı proseslərin döngələri, uçurumları, çırpıntıları miniatür və epik təsvirlərin kontrastı ilə açılır.

Yazıçının fikir, söz labirintləri, dolanbacları insan mənəviyyatının daha çatılmaz qatlarına yetmək vasitələridir.

Mənəviyyatın əks dərinliklərində - okeanında və kosmosunda bulunduqca nəinki realizmin və romantizmin hüdudları itir, həm də bu dərinliklərin birindən o birinə əbədi yollar, cığırlar, ünsiyyət kanalları olduğu üzə çıxır.

Təbiətin okeanı və kosmosu birləşdirən harmoniyası insaniçi dünyaların aranışında da tapılır. Bu mənada Anar qəhrəmanlarının Qəlb qalaktikasını, Marian çökəkliyini kəşf etmiş sənətkardır. Bir-biri ilə incə, dordolaşıq, ötəri, isti, soyuq, sevgili, yağı münasibətləri olan bu qəhrəmanlar - zəngin dünyanın xırda, xırda dünyanın zəngin insanları Anar nəsrində bütöv bir cəmiyyət, "poetik dövlət" təşkil edirlər. Xarakterlərin açılması məkan dəyişmələrini, məkan dəyişmələri xarakter açılmalarını şərtləndirir. "Ağ liman" - "Beşmərtəbəli evin altıncı mərtəbəsi" - "Otel otağı" yalnız ayrılıqda mövcud olan fiziki məkanlar deyil, həm də sıralanmış düşüncə, tale məkanlarıdır. Nemətin qapalı dünyadan qurtuluşuna heç olmasa bir ümid yeri var: ağ liman. Zaur isə hələ sağlığında əldən verdiyi ölmüş Təhminəni "beşmərtəbəli evin altıncı mərtəbəsində" tapıb da itirir. Bütün ümidlərin qırıldığı yer - otel otağı isə Kərimin ölüm məkanı olur… Tragik sonluğa doğru bu çapışı Anarın başqa əsərlərində əks tərəfə və ayrı tərəflərə yönəlmələr şəklində də

"düzmək" olar. Məsələn, "Otel otağı"ndan "Dədə Qorqud"a - dağ zirvəsində alovlanan, insanları bir-birinə hay verməyə çağıran üç tonqala doğru.

Burası da önəmlidir ki, yazıçının əsərləri süjet xəttinin düyünməqamları, unudulmaz epizodları və bitkin insan obrazları ilə daha çox yadda qalır. 60-70-80-ci illərdə yazılmış əsərlər məhz belə səciyyəvi - seçənəkli xüsusiyyətlərinə görə indinin və gələcəyin də diri əsərləridir. Bütün səviyyələrin və zövqlərin yazarı Anarın qəhrəmanları elə real və tükənməzdir ki, onlara bütün səviyyə və zövqlərdən yanaşmaq olar. Heç şübhəsiz, bu qəhrəmanların "yaşadığı" əsərlərdən başqa, minlərlə oxucunun yaddaşında da onların bənzərsiz obrazı var. Həmin qəhrəmanlar və onların yaddaşımızdakı obrazları bizim mənəvi-intellektual həyatımızın sinirlərindədir.

"Asılqanda işləyən qadın"ı xatırlayaq. Sən demə, heç nəyi ilədiqqəti cəlb etməyən, cəmiyyəti kənardan izləyən bu qadın insan münasibətlərinin kardioqrammasını hamıdan yaxşı çıxarırmış. "Ağzında bir dənə də sağ dişi" olmayan adi bir idarə işçisi Məmməd Nəsir sən demə, əsl insan sərrafı imiş…

Buna görə də Anarın bədii yaradıcılığında tamdeyilməzliyin estetikası xüsusilə önəmlidir. Anar heç vaxt hazır dəyərlər kompleksini təqdim etmir. Əksinə, Anarın təqdim etdiyi dünya öz dəyərlər kompleksini təbii şəkildə doğurur.

Əsərlərini dili nə qədər sadə olsa da əslində Anarı anlamaq və düşüncələrinin dərinliklərinə varmaq bir o qədər çətindir.Anarın Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Mütəfəkkir yazıçının dünya sənətkarları haqqında düşüncələri, milli mədəniyyətimizin dünya mədəniyyəti ilə təmas və ilişgilərinibir qədər də artırır və dərinləşdirir. Azərbaycan - dünya mədəniyyətləri arasındakı İpək Yolu həm də Anarın klassik və modern üslubların orijinal sintezindən ibarət olan çoxşaxəli - ornamental yaradıcılığından, genişmiqyaslı ədəbi-ictimai fəaliyyətindən keçir.

Dünya mədəniyyətinin şəhdi-şirəsi Azərbaycan mədəniyyətinə, Azərbaycan mədəniyyətinin şəhdi-şirəsi Anar yaradıcılığına süzülüb. Ona görə də bu yaradıcılıqdan dünyanın dərin mənalarına çıxmaq, dünyadan bu yaradıcılığın dərin mənalarına enmək mümkündür.

Anarın özü ilə qarşılaşan, onun yaradıcılığı az-çox tanış olan hər bir insan onun necə bir estetik zövqə və intellekt düşüncəyə malik olduğunu, elə ilk cümlələrdən tuta bilir.

Hal-hazırda Anar öz möhtəşəm sənət dünyasının ucalığındadır. Hətta bu gün o heç bir şey yaratmasa belə, onun Azərbaycan ədəbiyyatı və mədəniyyəti sahəsində etdiyi yeniliklər heç vaxt unudulmayacaq və məncə gələcək nəsillər onun layiqincə qiymətini verəcəklər.

Bu söz sarayını ucaldan əllər mahir və qüdrətli əllərdir. Anar fəlsəfəsi, Anar ədəbi mədəniyyətinin Anar yaradıcılığının tədqiqatı, aradırılması hələ qarşıdadır. Yəqin ki, tədqiqatçı alimlərimiz Anar yaradıcılığına müraciət edəcək və bu dərinlikdən ümmanlara dəyərli və qiymətli fikirlər ucalacaq.

С. Мирзоева

Философские мысли в творчестве Анара

Резюме

В статье ведется разговор о теме гражданстве, отношениях к нравственным и моральным ценностям в творчестве Анара. Произведения Анара принесли ему известность как в Азербайджане, так и в переделах республики.

В произведениях Анара философские мысли имеют свой спефечиский образ героев.

S.Mirzayeva

Anar`s philosophical thoghts

Summary

The article deals with the subject of citizenshop, and the attitudes towards moral-spiritual values in works of the writer. His draw attention due to its shylistic richness, conciseness, and the ability to properly meet the modern requirement of stage , and simple and clear language of dialoges.

Rəyçi: dos. F.Səfiyeva

İSMAYIL AĞAYEV
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialı

"TƏNHA İYDƏ AĞACI" PYESİNDƏ HAKİM İDEOLOGİYANIN İFLASI VƏ İNSAN MƏNƏVİYYATINDA QOYDUĞU İZLƏR

Açar sözlər: mühacirət həyatı, vətəndaşlıq duyğusu, müstəqillik, azadlıq, imperiya siyasəti, müasirlik, mənəvi dəyər.

Key words: in migration, sense of citizenship, independence, freedom, imperial policy, contemporaneity, moral values.

Ключевые слова: в миграции, чувства гражданственности, независимость, свобода, имперская политика, современный, моральные ценности.

XX əsrin 90-cı illərində İ.Əfəndiyev qürbətdə vətən həsrəti ilə ömür sürən azərbaycanlıların acı taleyi və mühacirət həyatını doğuran ictimai-siyasi problemlərlə bağlı "Tənha iydə ağacı" pyesini yazmışdır. Bu pyesin mövzusu mürəkkəb ictimai-siyasi şəraitlə bağlı olaraq yaranmış mühacirət problemindən, mühacir həyatı keçirən həmvətənlərimizin fikir və düşüncələrində, həyata baxışlarında olan dəyişiklik və vətəndaşlıq narahatlıqlarından götürülmüş, pyesdə qürbət həyatının insanların mənəviyyatına etdiyi təsirlərdən söhbət açılmışdır. Pyesdə qürbət həyatı ilə bərabər, bu həyatı doğuran səbəblərin ictimai-siyasi kökü araşdırılmış, mühitin sosial qanunları, mənəvi-əxlaqi normaları ustalıqla təsvir edilmişdir. "Tənha iydə ağacı" pyesində dramaturq həm Vətən həsrəti ilə yaşayanların fikir və düşüncələrini, daxili narahatlıqlarını, Vətən qarşısında borc hissini, həm də öz doğma yurdunda yaşayanların ciddi ictimai-siyasi problemlərindən danışaraq, cəmiyyətdə hakim olan ideologiyadan, amorf məntiq və ehkamların əhatəsində yaşayan Vətənin taleyindən, insanların acı həyatından dolğun, mənalı lövhələr vermişdir. İmperiya daxilində yaşayan Azərbaycanın hansı irtica və dəhşətlə qarşılaşdığını həmin imperiya dövründə cəsarətlə qələmə alan dramaturq mövcud siyasi sistemin xalqımızın tarixində törətdiyi faciələri, insanların acı taleyini, vətən həsrətini təsvir etmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın işğala məruz qalması, imperiya siyasətinin qeyri-humanist və antibəşər məzmunu İ.Əfəndiyevin digər tarixi dramlarında da təsvir edilmiş, bu imperiyanın siyasətinə inananların faciəvi taleyi, bu siyasətlə törənən ağır, dəhşətli həyat tərzinin insanların fikir və düşüncələrində yaratdığı dəyişikliklərdən söhbət açılmışdır. Dramaturqun böyük şəxsiyyət kimi inamı odur ki, dialektik və obyektiv tarixi vicdanın, həqiqətin meyarı bu siyasi çevrilişlər zamanı dəyişməz qalmalıdır. Vicdanın, həqiqətin meyarlarının dəyişdiyi, ictimai vicdanla bağlı normaların pozulduğu şəraitdə çox böyük faciələr, qarşıdurmalar baş verir. Vicdan və əxlaqi bütövlük üçün daxili narahatlıq keçirən, zaman qarşısında məsuliyyətin daşıyıcısı və milli-əxlaqi dəyərlərin qorunmasına cavabdeh olan ziyalının vətəndaş narahatlığının bədii düşüncə tərəfindən təhlil obyekti kimi götürülməsi İ.Əfəndiyev dramaturgiyasının özünəməxsus xüsusiyyətlərindəndir.

"Tənha iydə ağacı" pyesində şəxsiyyətin, əxlaqi bütövlüyün, milli-mənəvi yaddaşa sadiqliyin ümumxalq miqyasında təzahürü və təsdiqi bir daha göstərir ki, dramaturgiyada bədii meyarlar daha genişlənmiş, cəmiyyətin daxilinə, ictimai-əxlaqi və sosial problemlərinə nüfuzetmə daha da ciddi şəkil almışdır. Bədii düşüncə və idrak özünün zaman, tarix qarşısında məsuliyyətini dərk edərək sərt gerçəkliyin analitik izahını vermək istəmişdir. Bu inikas və ya bədii tədqiqat zamanı insan ömrünün mürəkkəb yaşantılarının təsviri, real gerçəkliklə insan qəlbinin, arzularının əksliyindən doğan faciəvi anların ictimai-sosial məzmunda mənalandırılması yolu ilə göstərilməsi sənətin həyat həqiqətlərinə, gerçəkliyin daxilinə daha dərindən yaxınlaşmasına bariz sübutdur. Bu pyesdə dramaturq insan və onun dəyəri, zaman və tarix qarşısında böyük məsuliyyəti barəsində, milli-əxlaqi dəyərlərin qorunması və yaşadılması üçün daxili narahatlığını sənətkarlıqla təsvir etmişdir.

"Pyes ilk milli dövlətimzin – Azərbaycan Demokratik Respublikasının banisi, xalqımızın böyük mütəfəkkir oğlu, görkəmli ziyalı M.Ə.Rəsulzadənin həyatına həsr edilmişdir. Pyesdə ön plana çəkilən əsas məsələ və ideya torpağımızın bütövlüyü, vətən, dil, məslək birliyi bu gün üçün də çox aktualdır"[1.224]. Əsərin əsas qəhrəmanları mühacir həyatı keçirən Kərim bəy və sovet imperiyasında yaşayan tarixçi alim Behbud bəydir. Bunlardan biri mühacir həyatı yaşayan, onun ağrı-acılarını öz varlığında daşıyan, vətən həsrəti ilə, onun azadlığına böyük inam hissi ilə ömür sürən vətən övladlarının, digəri isə bütün ömrünü imperiya daxilində yaşayaraq onun çürük fəlsəfəsinə, amorf məntiqə əsaslanan ideologiyasına həsr edən Azərbaycan ziyalılarının ümumiləşmiş obrazlarıdır. Müstəqil dövlətimiz işğala məruz qalanda xilas olmaq naminə öz doğma elini, vətənini tərk edib xaricə gedən Kərim bəy həmişə öz daxilində böyük bir dünya – Azərbaycan gəzdirir, ömrünün hər anında öz doğma vətəninin taleyi üçün narahatlıq, gərgin anlar yaşayır. Gördüyü azad ölkələr, qazandığı sərvətlər onun qəlbindəki vətən, yurd eşqini söndürmür, əksinə, vətənin düçar olduğu ağır imperiya əsarəti, mübarizə və qurbanlar hesabına qazanılan azadlığın, müstəqilliyin imperiyanın qanlı əlləri ilə boğulması onun daxilində, fikir və düşüncəsində gərginlik yaratmış, bütün ömrünü daxili dramatizm yaşamaqla keçirmişdir. Vətən, xalq üçün müqəddəs və ülvi arzularla yaşayan Kərim bəy imperiyanın mənhus qanunlarından xilas olmaq üçün vətəndən uzaq düşür, arzuları reallaşmadan ömür sürür. Onun həyat idealı azad Azərbaycan, müstəqil vətəndir, lakin imperiya və onun sadiq nökərləri belə arzuları boğur, vətəni onun ailəsi, xalqı üçün amansız qanunlarla idarə edilən məhbəsə çevirirlər. Kərim bəyin qəlbində bəslədiyi o ülvi, müqəddəs arzular həyata keçməmiş qalır, imperiya bütün bunlara, onları yaşadan vətən oğullarına düşmən kəsilir, onların fiziki məhvi ilə kifayətlənməyib milli-əxlaqi dəyərləri özünün məhdud, amorf qanunları, ehkamları içərisində məhv etməyə cəhd göstərir. Kərim bəyi daxilən daha ciddi sarsıdan öz həmvətənlərinin imperiya siyasətinə nökərlik etmələri, milli-əxlaqi dəyərlərə xəyanətləridir. İmperiya siyasətini alqışlamaqla öz vətənlərinə, xalqlarına edam kötüyü olanların əqidə və baxışları onu dəhşətə gətirir, mənən sarsıdır. Vətən, xalq taleyinə bu qədər biganəlik, siyasi ambisiyaların əsiri olaraq manqurtlaşmış varlıqların törətdiyi əməllər Kərim bəyin gərgin daxili ağrılar yaşamasına səbəb olur, vətən oğullarının bir-birinin qatilinə çevrilməsini mənəvi korluq, əqidə, məslək pozğunluğu kimi qəbul edir. O, bütün bu dəhşətləri yaşamağa məcbur olur, faciələr onu daha da sarsıdır, çıxış yolunu öz doğma elini, vətənini tərk etməkdə görür: "…

Məgər mən xaricə xoşbəxt olmaq üçün qaçmışdım? Xeyr, qətiyyən belə deyildi. Mən anamın, atamın, qoca nənəmin təhqir olunmağına, hansı əclaf tərəfindənsə alçaldılmalarına dözə bilmirdim. Mən onları öldürsəydim də, təhqirlərə son qoya bilməyəcəkdim. Ağalar! Bu yetmiş ildə Azərbaycan elə bir qaranlıq hasar içindəydi ki, onun səsi heç yerə çatmırdı..” [2.19].

Mühacirət həyatı yaşayanda da Kərim bəy öz milli-mənəvi kökündən ayrılmır, öz varlığında, ruhunda böyük Azərbaycan yaşadır, doğma vətənin azadlığı və müstəqilliyi onun ən müqəddəs arzusu olaraq qalır. Övladları Sürəyya və Gülnazı yaşadıqları mühitin mənəvi dəyərlər əsasında deyil, milli dəyərlərin, qanı ilə süzülüb gələn əxlaqi sərvətlərin nurunda, işığında böyüdür. Doğma vətəni Qarabağ haqqında olan şirin söhbətləri, yaddaşında vərəqlənən tarixin səhifələrindən qopub gələn milli-mənəvi sərvətlər, yüksək insani hiss və duyğular övladlarına da sirayət etmiş, onların varlığına hopmuşdur. Mühacirət həyatını tək Kərim bəy deyil, onun övladları da yaşayır, bu həsrətin, ayrılığın doğurduğu qəlb ağrılarını bütöv ailə çəkir. Yüksək təmtəraqlı həyat tərzi onları öz milli varlıqlarından, milli ruhlarından ayıra bilmir, çünki bu bağlılıq, doğmalıq onlara ata və babalarının qanı ilə, eşitdikləri bayatıların, vətənlə bağlı xatirələrin ruhu ilə verilmişdir. Həqiqi vətən övladları həm qan yaddaşından, həm də mənəvi yaddaşdan uzaq düşmür, ona yad olmurlar. Zamanın amansız qanunları bu ailənin varlığına biganəlik, laqeydlik duyğularını hakim edə bilməmiş, əksinə, ayrılıq, həsrət vətən məhəbbətini, vətən istəyini daha da alovlandırmışdır. Zaman ötsə də, çox «göz yaşı kimi duru bulaq»lar qurusa da bu ailənin qəlbində vətən eşqi, yurd həsrəti doğma yurddakı tənha iydə ağacı kimi özünəməxsus rayihə, ətirlə yaşamış, heç bir ətirə bənzəməyərək, ruha təzəlik gətirən, insan qəlbini işıqlandıran, xoş arzular dünyasına qanad verən bu ecazkar hiss və duyğudan güc almışdır. Mühacirət, həsrət dünyasının üzərinə vüsal dünyasına olan inamın xoş nəfəsini gətirmişdir.

Sürəyya və Gülnazı doğma el, vətən ruhunda böyüdən Kərim bəy onların gələcəyi üçün narahatlıq keçirir, övladlarının taleyini yaddan çıxarmır. Qəlbindəki həsrəti yüngülləşdirmək, daxili gərginliyinə rahatlıq gətirmək üçün qızlarının vətən övladları ilə qovuşmasını arzulayır. Onun daxilində qırılmaz bir inam var ki, Vətənin taleyi belə qala bilməz, onun gələcəyi işıqlı sabaha doğrudur. Məhz həmin tarixi dövrdə vətən həsrətli övladları doğma yurdun gələcəyi, çiçəklənməsi üçün çox şey edə bilərlər, bir ata kimi o övladlarının qəlbində çatdığı alovun güc və qüdrətini çox gözəl bilir. Zaman artıq dəyişmək üzrədir, imperiya öz gücündə deyil, kökündən sarsılmışdır, bütün xalqların milli şüuru oyanmışdır, imperiya isə bu oyanışdan öz yeni siyasəti, siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərir, bütün bunlar Kərim bəyə tamamilə aydındır.

Kərim bəy qəlbində vətənin gələcəyinə böyük ümid və arzularla övladlarının doğma Azərbaycana getməsini, öz vətənləri üçün qurub-yaratmağı çox böyük qürur və fərəh hissi ilə qarşılayır, Kərim bəy anlayır ki, yol gəncliyindir, babaların nəsihətindən, qan yaddaşından doğan fikir və baxışlar bu gəncləri tamam başqa ruhda, əxlaqi simada böyütmüşdür. Bu gün vətənə belə gənclər lazımdır, vətən qəlbi, varlığı yurd eşqi ilə döyünən gənclərin ehtiyacındadır.

Pyesin əsas qəhrəmanlarından biri də Behbud bəydir, o, imperiyanın sərt qanunlarını görmüş, rejimin xalqla hansı prinsiplər əsasında rəftar etdiyinin şahidi

olmuşdur. Gənclik illərində tarixçi olmaq istəyi ilə yaşayan Behbud bəy zamanın sərt, amansız küləkləri qarşısında çox dəhşətli əzablar çəkmişdir. Həyatda nə qədər acılar və məhrumiyyətlər görsə də, qəlbindəki vətən eşqi, torpağa bağlılıq itməmiş, daxili narahatlıq və ağrılarla yaşamışdır. Onun da arzu və istəyi, məqsəd və prinsipləri uğurlu nəticə ilə sona varmamışdır, xalqa, açıq fikirli insanlara edilən "o əzabları öz ailə üzvləri", "öz həmvətənləri" ilə birgə yaşadığı üçün vicdanından razı qalan bu tarixçi alim, ziyalı zamanın sərt qanunları qarşısında sındırılmış, qeyri-insani imperiya ideologiyasının xidmətçisinə çevrilmişdir. Varlığı vətən, xalq eşqi ilə döyünən bu fikir adamı ağır təzyiqlər, sərt irtica qarşısında qalaraq xalqın tarixini, şərəf və ləyaqət yolunu, mübarizələrlə dolu tarixini imperiya ideologiyasının, sosialist siyasətinin ölgün, sxematik fikir və baxışları dairəsində izah etmişdir. Real gerçəklik onun əsərlərində özünün təhrif edilmiş inikasını tapmışdır, imperiya istilasından əvvəlki Behbud bəylə əsrin sonlarındakı Behbud bəy arasında böyük fərq vardır, "lənətə gəlmiş Türkmənçay müqaviləsini tikə-tikə eləyib, küləyə" verəcəyi haqda düşünən bu gənc, ruhu vətənin azadlığı arzusu ilə dolu olan bu ziyalı, imperiya siyasəti qarşısında itaət edir, milli yaddaşa, mənəvi dəyərə yadlıq göstərir. Ağır mübarizədə, qanlı irtica ilə döyüş əvəzinə, onun sərtliyi, siyasi qəddarlığı qarşısında susur, imperiyanın addımlarını, Vətənin köksündə qanlı yaralar açmaqla irəliləyişini, azadlığa, müstəqilliyə düşmən münasibətini tərənnüm etməli olur.

Millətin bir-birinə düşmən təbəqələrə bölünməsi onun bir tam kimi qüvvəsini, bütövlüyünü parçalayır, mənəvi-əxlaqi deformasiyalara uğramasına şərait yaradır. Sosializm sistemi daxilində imperiya, əsarət məzmununu gizlətməklə zahirən tərəqqipərvər, demokratik ideyalar daşıyıcısı kimi pərdələnməyə cəhd edir, lakin həmin ideologiya ilə silahlanmış qüvvələrin fəlakətlər, dəhşətli qırğınlar törətdiyini gizlədə bilmir. Artıq zaman dəyişmişdir, imperiya saxta, amorf ideologiya ilə yaşadığını elan etməklə özünün qeyri-bəşəri dəyərlər əsasında formalaşdığını göstərir. Sanki tarix yenidən təkrar edilir, çar Rusiyasını kəskin tənqid edərək özünü humanist bir sistem kimi qələmə verən sovet imperiyası indi də eyni yolla gedərək keçdiyi yolu kəskin tənqid edir, yeni cəmiyyət, sistem yaratmaq iddiası ilə yaşamağa cəhd göstərir. Lakin əvvəllərdə olduğu kimi yenə də mahiyyət dəyişməmiş, imperiya qanunları, əsarət və köləlik yeni ad və forma altında, "yenidənqurma" adı ilə reallaşmağa başlamışdır. Düşüncə və təfəkkürdə olan sosialist həyat tərzinə aludəçilik, sosialist cəmiyyətinin siyasi-əxlaq prinsipləri ilə yaşamaq özünün mənəvi puçluğunu, zamanın tələbindən çox uzaq olduğunu göstərdi. Cəmiyyət daxilində yeniləşmə sosialist ictimai-əxlaqi görüşlərin iflasa vardığını, dərin böhran keçirdiyini göstərdi, ən dəhşətlisi o idi ki, bu ideya və baxışlarla yaşayan insanların, fikir adamlarının mənəvi iflası, fikir və təfəkkür böhranı başlandı. Dünən dəyişməz, əbədi qanunlar kimi təqdim edilən ehkam və ideologiya, siyasi-əxlaqi normalar bu gün böyük fəlakət və faciələrin əsas səbəbkarı, cəmiyyət daxilində böhranı dərinləşdirən, insan mənəviyyatında əxlaqi dəyərləri parçalayan, məhv edən baxışlar, ideyalar sistemi hesab edilirdi. Belə bir tragik məqamda, tarixin sərt dönüşündə ən kəskin faciəvi həyat keçirən köhnə ideologiya ilə silahlanmış insanlar, Behbud bəy kimi fikir və düşüncə sahibləri idilər. Artıq zaman öz hökmünü vermişdir, sosialist ideologiyası məhdud baxışlar, bəşəri dəyərlərlə səsləşməyən fikir sistemi kimi qiymətləndirilərək onu tarixin

sınağından çıxmayan, praktikada iflasa uğrayan ideoloji baxış kimi qəbul edirdilər. Azərbaycan xalqının tarixini, bu gününü və gələcəyini həmin qeyri-obyektiv ideoloji baxışlar altında izah etməyə cəhd göstərmiş Behbud bəyin faciəsi ağır və mürəkkəbdir. Sərt imperiya dövründə saxta ideologiya ilə həyatı, gerçəkliyi izaha məcbur edilməsi, bu yalan izaha özünün bütünlüklə inanması onun faciəsi olmuşdur. Sovet imperiyasının xalqın tarixində qoyduğu ağır, faciəvi izləri, müstəqilliyin qan içində boğulmasını, repressiya dövrünün faciələrini bilərəkdən unudaraq, xalqın tarixini doğru izahdan çəkinmiş, xalqın mənəvi dünyasına, ləyaqət və şərəfinə ləkə vuranların qarşısında susmuş, susmaqla bu despotik siyasi sistemin mövcudluğu və fəaliyyəti ilə barışmışdır. Zaman ziyalıdan, fikir və düşüncə sahibindən mövcud siyasi sistemə qarşı kəskin mübarizə tələb etdiyi halda, passivlik göstərmək, yalnız özünümüdafiə hissi ilə yaşamaq fikir və zəka sahiblərinə heç bir şərəf gətirmir, Behbud bəy mənən süqut etmiş, fikir və baxışları zamanın sınağından çıxmayaraq məhvə məhkum olmuş faciəvi taleli obrazdır. Fikir və zəka sahibini tragik həyata yuvarlayan sosializm cəmiyyəti və onun əxlaq qanunları, düşüncə tərzi qeyri-humanist məzmununu insanların həyat tərzində, hiss və fikirlərində, psixologiyalarında göstərir. Sosial mühit insanların yüksək mənəvi-əxlaqi sərvətlərin daşıyıcısı kimi qalmasına, inkişafına mane olaraq, insanları bir-birindən qorxub «gizlənən soyuq, ikiüzlü əcaib varlığa çevirmişdir". Behbud bəy etiraf edir ki, "Son yetmiş ildə mənim yazdıqlarımın hamısı yalandır. Mən stalinizm cəlladlarına xoş gəlsin deyə, tariximizin bütün böyük hadisələrini saxtalaşdırıb onların tələblərinə uyğunlaşdırmışam! Mən əsrlər boyu cəhənnəm əzabı çəkmiş xalqımızın fərəhlə qurduğu bərabərlik, sülh demokratiya təbliğ eləyən müsavat hökumətini böyük kapitalistlərin, böyük bəylərin, xanların hökuməti kimi qələmə verib tarixdən xəbəri olmayan avam kəndliləri, bisavad fəhlələri aldatmışam. Mən çarın istilaçı qoşununun Azərbaycanı işğal edərkən xalqa tutduğu divanı ondan gizlətmişəm…" [2, s.31].

Kərim bəy vətəndən uzaqlaşıb vətəni öz dərdləri, ağrıları ilə birgə qoymuşdur, ağır həyat, kəskin ziddiyyətlər zamanı o heç bir kömək göstərə bilməmişdir. Behbud bəy isə vətəndə yaşamaqla onun tarixinə, mənəvi müqəddəsliyinə xəyanət etmək məcburiyyətində qalmışdır, o etdiyi əməlləri dərk edərək deyir: "…Mən saxtakar bir xain olmuşam! Belə mürtədin yaşamağa haqqı yoxdur. Mənim kitablarım kimi özüm də məhv olmalıyam. Öldürün məni! Allah da məni bağışlamayacaq!" [2, s.31].

Behbud bəyin etirafı illər boyu hakim olmuş düşüncə və təfəkkür tərzinin iflasa uğradığını, süqut etdiyini, siyasi cəmiyyətin amorf hüquq normaları və əxlaqının zamanın sınağından çıxmadığını sübuta yetirir. Bu idrak böhranı, mənəvi iflas insanların həyat və dünyagörüşündə olduqca böhranlı, faciəvi vəziyyətlər yaradır, onları tragik həyat yaşamağa vadar edir. Etirafla, saxta ideologiyaya inandığını bildirməklə problemlər həll edilmir, cəmiyyət elə bir varlıqdır ki, o, ideoloji baxışlardan çətinliklə azad olur. Dramaturqun qənaəti budur ki, saxta ideoloji baxışlar insanların düşüncə və təfəkküründə uzun müddət qalacaq, ondan xilas olmaq, fikir böhranından çıxmaq üçün isə çox illər və gərgin zəhmət lazım olacaqdır. Bu ideoloji baxışlar uzun müddət ictimai münasibətlərdə, insanların fikir və baxışlarında, mənəvi-əxlaqi münasibətlərdə özünü büruzə verəcəkdir. Bunlardan xilasa cəhd göstərmək, mənəvi yaddaşda qorunub saxlanılan əxlaqi dəyərlərin

işığına, nuruna qovuşmaq, milli özünədərkə nail olmaq kimi məsələlər oxucu qarşısında qaldırılan ciddi problemlərdəndir.

Oxucu bir daha inanır ki, "Bədii ədəbiyyat varlığı insan vasitəsi ilə tədqiq və əks etdirir. Həyat materialının yeniliyi, ictimai münasibətlərdə baş verən dəyişikliklər şəxsiyyətin daxili aləminə də yenilik gətirir. Sənətdə novatorluğun ümdə şərtlərindən biri dövr üçün yeni səciyyəvi olan insan tipini görmək və göstərmək, onun düşüncə tərzi, hərəkətlərini bildirmək bacarığıdır"[3.12]. İ.Əfəndiyev məhz bu istiqamətdə hərəkət edərək saxta ideologiyadan azad olmuş, bəşəri, yüksək dəyərlərə söykənən, öz amal və məqsədlərində humanizm prinsiplərinə istinad edən yeni nəslin cəmiyyət daxilində mövcudluğunu, fəaliyyətini də göstərməyə çalışmışdır.

Kərim bəy İstanbulda, Behbud bəy Azərbaycanda yaşasalar da, onların faciəvi talelərində oxşarlıq vardır, biri vətəndən ayrı düşdüyü, ağır günlərdə vətənə kömək edə bilmədiyi üçün əzab çəkir, digəri isə xalqın ağır həyatını tərənnüm etdiyindən, saxta ideologiyanın əsiri olduğundan fikir, idrak böhranı keçirir, hər iki şəxsin faciəvi taleyi özünəməxsus fərdi cəhətlərlə təsvir edilmişdir. Hər iki azərbaycanlı xalq qarşısında mənəvi borclarını, zamanın tələb etdiklərini verə bilməmişlər. Bütün bunlara baxmayaraq, onlar özlərini dərk etmiş, həyat yollarını müdrikliklə analiz edərək gənclərə yeni, işıqlı yolu göstərən faciəvi taleli insanlardır, "Əgər bu iki dünya görmüş kişi surətlərindən biri olmasaydı, digəri yarımçıq və birtərəfli görünərdi. Bunlar haradasa bir-birini tamamlayan, zənginləşdirən və xalqın təfəkkür tərzini biri xaricdə, digəri isə doğma yurdunda əks etdirən müdrik qocalardır" [4].

Dramaturq "Tənha iydə ağacı" pyesini daxilən böhran keçirən, vicdan mühakiməsi qarşısında əzablar çəkən obrazların fikir və baxışları ilə tamamlamamış, sənətkar əqidəsinə sadiq qalaraq müasir gəncliyə, onun fikir və baxışlarına geniş yer vermişdir. Bu pyesdə gəncliyin fikir və baxışları, arzu və istəkləri Doktor Altayın, Səriyyənin, Gülnazın, Kəkliyin, Eyvazın arzu və düşüncələrində öz əksini tapmışdır. Dramaturq tarixin irəliyə doğru hərəkət etdiyini göstərərək, buraxılmış səhvlərdən ibrət götürməyə səsləyir, gəncliyi, keçilmiş yolları dərindən öyrənməklə vətən, xalq taleyini, mənəvi yaddaşın müqəddəsliyini unutmamağı tövsiyə edir. Pyesdə bütöv Azərbaycan uğrunda mübarizəyə çağırış, Cənubi Azərbaycan üçün ciddi narahatlıq, xalqın azadlıq, istiqlaliyyət yolunda bütünlüklə mübarizəyə qalxmasına, tam səfərbər olmasına atəşli çağırış, inam vardır. Milli mənliyini unutmuş Ağayi Əşrəfi obrazı özünəməxsus ustalıqla işlənmiş, pul-kapital dünyasının əsiri olan bu varlıq milli heysiyyətini varlanmaq ehtirasına qurban vermiş, özünün hansı millətə mənsub olduğunu unutmuşdur. Vətənin ağrılı, dərdli taleyi belə şəxslər üçün yaddır, həm sovet, həm də fars imperiyaları altında əzilən xalqın mübarizə, nicat yolu belə şəxsləri maraqlandırmır. Azadlıq, milli istiqlaliyyət, müstəqillik kimi ideallar imperiya nökərlərinə, pul-kapital dünyasının əsarəti altında ömür sürənlərə yad olan fikir və baxışlardır.

"Tənha iydə ağacı" pyesi "Azərbaycan xalqının yetmiş illik faciələrindən sonra yeni-yeni doğulub ayaq açan, həyat və yaşamaq eşqini, onun vahidlik, suverenlik və azadlıq ideallarının bizim günlərdəki keşməkeşlərini, milli şüurunun oyanışını və formalaşmasını öz varlığı və mənliyi uğrunda mübarizəsinin lirik-tragik boyalar, bütöv və orijinal xarakterlər, real, rəngarəng səhnələrlə əks etdirən yüksək qiymətə layiq bir əsərdir" [5].

Ədəbiyyat

1. Əfəndiyev *Ə. İlyas Əfəndiyevin yaradıcılığı.* Bakı: Elm, 2000, 310 s.
2. Əfəndiyev İ.M. Tənha iydə ağacı // *«Azərbaycan»,* 2001, № 10, s.14-41
3. Məmmədov E.H. *Dramaturgiyada ənənə və novatorluq.* Bakı: Yazıçı, 1985, 199 s.
4. Xəlilov Q. İydə ağacının xiffəti. «*Kommunist» qəz., Bakı,* 1991, 9 may
5. Mehdi F. Qarabağ harayı, vətən xiffəti. «*Ədəbiyyat qəzeti», Bakı,* 1991, 17 may.

A. Ismail

The insolvency of main ideology in play “Lonely oleaster tree” and its traces in human`s morality.

Summary

Artistic – aesthetic features, social – moral contents are mentioned in this article. The essence of historical events are explored and complexity in people s thoughts taking part in these events is also interpreted here. The role of occasions in modern people` s ideas and actions are also mentioned in this article.

А. Исманл

Распад основной идеалогии в пьесе «Одинокое дерево лоха» и их следы в человеческой духовности

Резюме

В статье исследуются художественно – эстетическое особенности и социальное нравственное содержание драма. В этой статье также исследуются суть исторических событиях, интерпретурется сложности возникшие в мнениях и взглядах людей. Рассматривается роль этих отношений в мыслях и деятельностях людей.

Rəyçi: dosent Yusif Aslanov

AYGÜN ƏLIYEVA
Qafqaz Universiteti

ŞƏRTİ-METAMORFOZLARIN "İZDİHAM" ROMANINDA BƏDİİ HƏLLİ

Açar sözlər: *izdiham, çevrilmə, qəhrəman, reallıq, həyat həqiqəti*
Ключевые слова: *толпа, преобразование, герой, реальность, правда жизни*
Key words: *crowd, turning, hero, reality*

"İzdiham" düşünən hər kəs üçün onun müəllifini təhlil etməyə sonsuz imkanlar yaradır", yaxud, "bu əsər şüuraltı yaddaş xatırlamasıdı"... kimi açıqlamalar forma və üslub, həmçinin, mövzu və məzmun baxımından fərqli nəsr nümunəsi kimi nəzər-diqqəti cəlb etmiş bu romanın çoxplanlı və çoxcəhətli ilmələrində azıb qalmış oxuculardan xəbər verir.

Roman ətrafında aparılan çoxsaylı təhlillər, yazılan məqalələr arasında əsəri qorxulu yuxu (ujas) "janr"ına aid edənlərlə yanaşı[1], təkliyin faciəsindən, ekzistensializmdən söhbət açanlar da oldu.

Əsərin riyazi düsturunu isə Ramiz Rövşən müəyyənləşdirdi:

"...Sadəcə, eyni mənzildə doğma adamlar bir-birinə mane ola-ola, sürtüşə-sürtüşə, hər təmasda bir-birindən nə isə qopara-qopara, ala-ala, amma əvəzində heç nə verməyə-verməyə yaşayırlar. Bu adamların təkcə bir-birinə hirsi və nifrəti yox, sevgisi və mərhəməti də dağıdıcıdır".[2]

Doğurdan da, əsərdəki obrazlar nələrisə itirir, əvəzində isə verməyə cəhd belə göstərmədən yaşayırlar, ətrafdakı insanlara da qazandırdıqları yalnız "iztirab"dır. İztirab hissi akt kimi insanları bəzən ümidsizliyə düçar edir, insanları təkliyə sürükləyir. Bəzən iztirab –həyatdan küskünlüyə, ekzistensial yadlaşmağa deyil, əksinə, yaşamağa təkan verir. Amma bu zaman kənar qanunlar təhtəlşüura diktə edə bilmədiyindən yaşanılanlar da iztirabın özü qədər qəliz "kimyəvi tərkib" kimi üzə çıxır. Məhz "İzdiham" romanında İztirab elə öz qeyri-adi tərkibi ilə daşıyıcısını sözün əsl mənasında yaşamağa həvəsləndirir, lakin bütün bunlar çevrilmələr əsasında qeyri-mümkündən mümkünə çevrilir.

"Afaq müasir nəsrimizdə şəxsiyyətin təkliyi və ekzistensial yadlaşmadan çəkdiyi əzabları təsvir etmək baxımından müasir nəsrimizdə bir çox maraqlı nümunələr yaratdı. Onun yazı tərzindəki ironik çalarlar (özünü ironiya) bəzən tragizmi, fəci məqamları yumşaldır. Bəzən oxucuya elə gəlir ki, müəllif özü bu tragizmi təsvir etməkdən qorxur və çəkinir".[3]

Bizə məlum olur ki, müəllif, nəinki, bu səhnələri təsvir etməkdən çəkinir, əksinə, hətta bundan zövq alır. Bu yazıçının üslubundan irəli gələn məsələdir. Qeyd olunan halın onun digər əsərlərində ("Sərçələr", "Qəza"...) üzə çıxması ilə də yazıçının bu barədə fikirləri tam üst-üstə düşür:

"Ədəbi qəhrəmanlarımı ... psixoloji labrintlərdə dolandırmağıma gəlincə, bilirsiz ki, psixoloji nəsr yazıram. Bu üslub geniş oxucu kütləsi üçün rahat həzm olunan əsərlər yetirmir və ola bilsin, qəhrəmanlarıyla bir, yarıqaranlıq labirintlərlə, mistik dəhlizlərlə dolaşan müəllif kənardan qorxu və iztirablar içində qovrulan

insan təsiri bağışlayır. Lakin bu heç də belə deyil. ... o dərinliklər, yarıqaranlıq, qapalı məxfiliklər mənim çoxdandan bəri temperaturuna öyrəşdiyim doğma yerlərdir".[4]

Yəqin ki, biz də əvvəli və finalı, kuliminasiya nöqtəsi və sonu cənazə daşımaqdan yorulan, bir az da qocalan insanların müxtəlif hallarda üzə çıxması ilə müşayiət olunan "İzdiham" barədə elə də yeni bir söz deməyəcəyik, sadəcə romana fərqli yanaşmağa çalışacağıq. Qeyri-ənənəvi yazının tənqidi və təhlili metodu da fikrimizcə, qeyri-ənənəvi olmalıdır. Əks halda, Həqiqətdən-Həyat Həqiqətindən uzaqlaşmış olarıq.

Sadəcə, romanın canında duyduğumuz dörd sözün axtarışına çıxacağıq: İzdiham, İztirab, Olum, Ölüm. Və bununla da "Çevrilmələrin" sirri açılmış olacaq.

Romanda hadisələr bir süjet kimi cərəyan etmir..Ayrı-ayrı hislər və onların daşıyıcılarının iştirakı ilə süjetlər qurulur. İzdiham bu çoxplanlı süjetləri birləşdirən yeganə səhnədir. Yuxarıda göstərilən parça əsər boyu bir-neçə dəfə təkraralanır. Romanda ənənəvi qəhrəman tipi görünmür. Məlum olur ki, baş verən hadisələr bir şəxsin təhtəlşüurunun, ruhundakı çevrilmələrin məsuludur və aparıcı hiss iztirabdır. İzdiham romanın baş hissi "qəhrəmanı" iztirab- ağrıdır.

Qeyd edək ki, əsərin qəhrəmanı-evi, işi, normal ailəsi olan bir qadındır. Adını əsərin sonuna qədər öyrənə bilmədiyimiz bu qadın, əslində, təhtəlşüurun diktəsi ilə ətə-qana dolmuş real bir qəhrəmandır (Axı, təhtəlşüurun özü də realdır). Lakin o, hamıdan fərqlidir və fərqlənməyi bacarır: sevgisi, nifrəti, gülüşü, doğmalara və yadlara münasibəti də fərqlidir.

Bu qadın körpəlikdən, bəlkə hətta lap ondan əvvəl də ata-anası, nənə-babalarının, onların da ata-analarının...yaşadığı nifrətin, sevginin, qorxunun mənəvi və fiziki daşıyıcısıdır. Amma nədənsə, elə onlar tərəfindən də xəstə, anormal hərəkətlər edən birisi kimi qəbul edilir. Hamı ona məsləhət verməyə, başına ağıl qoymağa tələsir, canfəşanlıq edirlər. Hətta atasının tabutunu göz bəbəyi kimi qoruya-qoruya çiyinlərində daşımaqdan yorulmayan qaranlıq izdihamın içində olanlar belə...Bizim qəhrəman əvvəllər hərəkətlərinin məntiqi izahını verməyə, özünü qorumağa çalışırsa da, getdikcə qüvvəsinin tükəndiyini, məsləhətlərdən və ibrətlərdən bezib yorulduğunu , bütün cəhdlərinin mənasız olduğunu anlayır və artıq kimsənin danlağına əhəmiyyət vermədən, bildiyi kimi yaşamağa çalışır. Sadəcə çalışır... Qarmaqarışıqlığında azıb qaldığı bu dünyanın, anasını axtardığı qəbrin dibindən tapdığı min bir xırdavat, yəni heçlik olduğunu anladıqca, Həqiqi Reallıqda –cansız varlıqların hərəkətə gəldiyi, insanların cansız varlığa çevrildiyi, doğmaların "domino" daşlarına çevrildiyi məkanda yaşamağına davam edir...

Romanı fərqli ədəbi nümunəyə çevirən cəhətlər -əsər boyu izlənən ən ağlasığmaz çevrilmələrin və yerdəyişmələrin real məntiqə dayanması, obrazların, hadisə və situasiyaların sürrealist priyomlar və elementlərlə təsviri, zahirən sanki heç bir məntiqi izahı olmayan absurdluğun alt qatındakı həqiqilik, bütün bu ağlasığmazlıqların riyazi sistemliliklə ifadəsidir.

Zəncirvari ardıcıllıqla üzə çıxan bütün qeyri-adiliklər bizləri, işıq şüasından, səsdən, atmosfedə gedən ən xırda dəyişkənlikdən təlatümə düşən bu qadının bir reallıqdan başqa reallığa, bir vəziyyətdən başqa vəziyyətə düşdüyünün şahidinə çevirir. Bu sirli çevrilmələr təkcə qəhrəmanın zahirində yox, onun hiss və düşüncələrində, davranışında ad baş verir. Və bu baxımdan, Afaq Məsudun

qəhrəmanının bəxti, onunla tez-tez müqayisə edilən Kafkanın Zamzasından daha çox gətirir. Belə ki, Kafkanın Zamzası zahirən həşərata çevrilsə də (hissi hallüsinasiya səviyyəsində), şüur etibarı ilə insan olaraq qalır. Yəni ətrafında baş verənləri insan kimi qavrayıb, düşünə bilsə də, insan kimi hərəkət edə bilmir.(Bu, ayrı bir söhbətin mövzusudur ki, ona bu məqalədə toxunmuruq.) Bizim qəhrəman isə, ən ağlasığmaz hissi çevrilmələrlə yanaşı, həm də cismində asanlıqla baş tutan operativ metamorfozların daşıyıcısına çevrilir. Bu sayaq çevrilmələr onun ətrafında (izdiham, məktəb direktoru, müəllimlər, nənəsi, anası, xalaları...) baş versə də, sonradan bunların zahiri, yəni görüntü xarakteri daşıdığı, qəhrəmanın yaşadığı ikili ölçüyə çatmadığı məlum olur. Yəni kimsə, pişi kimi miyoldayırsa da, pişik ola bilmir və s.

Bu adsız qadın-qəhrəman isə unikal cisim və ruh vəhdəti ilə budaqda almaya, bələkdə çağaya çevrilə bilir. Bu yalnız onda alınır...Ötəri bir hal, yaxud, hadisə onu bir məkandan ayrı məkanlara və zaman ölçülərinə salır.

Ən qəribə olanı isə onun, hər cəhətdən ona yöndəmsiz gələn bu qəddar sosiumda da, heç nə baş verməmiş kimi rahat yaşamaq qabiliyyətidir...Səbəb aydın və sadədir: "qəhrəman özü-özünə qalib gələməyi bacarır"...

Dahi Lev Tolstoy yazırdı ki, "insan haqqında ən yanlış mülahizələr ondan ibarətdir ki, biz insanı aqil, səfeh, rəhmdil, zalım, qüdrətli, zəif adlandırırıq, insan isə bütün bu cəhətləri özündə birləşdirən dəyişkən varlıqdır". Bu mənada Afaq Məsudun qadın qəhrəmanının da cəmiyyət tərəfindən qəbul olunmamasının səbəbi-onun, sadalanan bütün cəhətləri ilə yanaşı, həm də mütəmadi dəyişkənliyə uğraması, fərqli bir varlıq olaraq, oxucunu öz həyat həqiqiətinə inandırmasıdır. Bu zaman yazıçının hansı təhkiyə üsulundan istifadə etməsi, psixoloji labrintlərdə necə hərəkət etməsi elə də əhəmiyyət kəsb etmir.

Romanda interyerin, demək olar ki, olmaması da fikrimizi təsdiqləyir. Sanki "səhnədə" ancaq bir insan var və projektorlar yalnız onun üzərinə işıq salır, ətrafdakı mənzərə(hətta canlı insanlar belə) yazıçı üçün maraqlı deyil. Yeri gəldikcə, gur işıqlar qəhrəmanın iç dünyasını belə təsvir edir, lakin bu dərinə enmələr zamanı ətrafda can verən, itirilən, izdihama qoşulan kütlələr elə səssiz-səmirsiz birtəhər yaşayaraq, birtəhər də ölürlər. "İzdiham" romanının qəhrəmanı da bu təsvirdə özünütəsdiq və yaşam fəlsəfəsi ilə nəinki ətrafdakılardan təcrid olunur, əksinə, onların da iztriabını özündə yaşada bilir. Bu baxımdan əsərdə haqqında söhbət açılan qəhrəman ümumiləşmiş tipik qəhrəman təsirini yaradır. Romanın "İzdiham" adı da, daşıması təsadüf deyil. İzdiham, həm də iztirabın özüdür...İzdihamda var olmağı bacaran bu qadın –müxtəlif ziddiyyətli hisləri eyni anda özündə yaşadan, eyni anda nifrət etməyi, eyni anda zəifləyib-yüksəlməyi bacaran möcüzəvi varlıqdır. Elə ədəbiyyatın möcüzəsi də o anda üzə çıxır: iki hissin (əks hissin) qovuşduğu an.

Böyük sənət əsərləri insana, onun fərdi dünyasına mövcud olduğu cəmiyyət rakursundan baxmaqla insanın iç dünyasından ətrafı seyrin qovuşmasından yaranır. Bədii əsəri də dəyərli edən də, məhz o iki qütbün qovuşduğu an yaranan konfliktlərdir. Bu zaman meydana çıxan hadisələrin süjeti və onu hərəkətə gətirən xarakterlər isə geniş anlamda insanın bədii təcəssümünün ifadəçisinə çevrilir ki, bu isə böyük sənətin qələbəsidir.

Əsərdə baş verənlər bir sıra tədqiqatlarda[5] real həyat və yuxu qismlərinə bölünsələr də, baş qəhrəmanın əsər boyu cəmi bir neçə dəfə gördüyü yuxu mənzərələri əsərin "janr" təmsilçisinə çevrilmir. Burada yuxu ilə reallıq arası məsafələri konkret detallarla ayıran bədii təsvir və ştrixlərin qabarıqlığı qəhrəmanın təhtəlşüurunda baş verən hadisə və situasiyaların yuxu kimi qəbul olunmaması üçün kifayət qədər imkan yaradır.

"İzdiham" zərrə qədər də reallıqdan qaçmır desək yanılmarıq. Əks halda, əsərdə obyektivliklə təsvir olunanlarda uyğunsuzluqlara təsadüf etmiş olardıq. Baş qəhrəmanın şüuraltısındakı zədələr fərdlərarası qırılmış mənəvi bağların bərpası cəhdlərində üzə çıxır. Fərdin şərti metamorfozlarla təsviri ilə yanaşı, onun daxili dünyasının reallıqları, baş verən hadisə və situasiyalara obyektiv baxış bucağında təzahür edir. Cəmiyyətdə baş verənlərin, ictimai münasibətlərin dərinliyinə varmağın vasitələrindən biri, fərdin daxili dünyasının realistcəsinə təsviridir. Bununla da bir fərdin simasında sosium ümumiləşir, A.Məsudun bu haqda fikirləri də maraqlıdır:

"Ədəbiyyatın insanların sarsıntı və ağrılarını müalicə etmək gücü var. Daha doğrusu, əslində bu, onun birbaşa vəzifəsidir. İnsanlar doğulan andan ölənəcən yaşadıqları real həyatlarında da, öz iç dünyalarında da baş verən qəzalardan yayına bilmirlər. Və ən qorxunc qəzalar çox vaxt insanın öz içində-rahat kreslosuna yayxanıb televizora baxdığı, yaxud, çarpayısında uzanıb xəyala daldığı məqamlarda baş verir". İnsanın iç dünyasında baş verən hadisələr, gizli reallıqlar "İzdiham" romanında çevrilmələr vasitəsi ilə üzə çıxır. Yazıçı bundan ədəbi priyom kimi istifadə edir. Çevrilmənin özü isə, bu, bir varlıqdan başqa bir varlığa çevrilmə məqamı-psixoloji bir akt, tam qeyri-şüuri, fitri bir haldır. Mifoloji mətnlərdə belə hadisələrlə tez-tez rastlaşırıq. Burada isə yazıçı baş verən metamorfozaları açıqlamır. Oxucunu, eləcə də qəhrəmanı faktlar qarşısında qoyur. Səbəbləri göstərmədən təsvir edir.Romandakı lokaniklik də maraq doğuran fərqli üslub, müstəsna ədəbi hal kimi nəzər- diqqəti cəlb edir. "...Liftin qapıları bağlandı və onlar havasızlığın içində boğulub sıxıla-sıxıla harasa yuxarı qalxdılar..."[4] Göründüyü kimi, yazıçı üçün liftə necə mindiyi, ora hansı formada keçdiyi maraqlı deyil. "...Liftin qapıları açılanda onlar güzgü döşəməli geniş zala keçdilər..." deyən yazıçı ətraflı təsvirə ehtiyacı olan bu səhnəni qısaca bir ştrixlə verməklə kifyətlənir. Əsərdə yazıçı maksimum sözçülükdən, uzun-uzadı hadisə və süjet təsvirindən qaçmağa çalışır, yalnız qəhrəmanın daxili dünyasında gedən çevrilmələri, hislərin təlatümünü, duyğuların imperiyasını süjetləşdirir. Təsadüfi deyil ki, Afaq Məsud "Ədəbiyyatı hadisələrin deyil, hislərin süjeti hesab edir".

Kafka insan taleyini, mənasız və absurd adlandırdığı həyat qarşısında aciz və cılız təsvir etməklə kifayətlənirsə, A.Məsud baş verənlərin mahiyyətini qəhrəmanın gizli psixoloji qatlarında, şərti həqiqətlər reallığında axtarır. Və məhz bi səbəbdən onun qəhrəmanı soxulcana, almaya, çağaya çevrilsə də , son nəticədə məhvə düçar olmur. Əsərləri, yaradıcı baxışları tez-tez müqayisə olunan Kafkanın qəhrəmanı əsərin sonunda ölsə də, Afaq Məsudun qəhrəmanı yaşamağa davam edir. Üstəlik, yazıçının digər əsərlərinə də ayaq açıb, başqa adlarda və formalarda üzə çıxır. Bu keçidlər hərfi məna da yox, ruhsal- duyğu köçürmələri iilə baş verir. Bizim bu qadın- qəhrəmanı şüalanır... Ona yazıçının növbəti əsərlərində, ayrı forma və məzmun çalarlarında, ayrı zaman və məkan ölçülərində yenidən rast gəlirik.

Bütün bu çevrilmələr, şərtiliklər hərəkət və məkan şərtilikləri ilə yanaşı zaman şərtiliyini də ehtiva edir. Elçinin "Mahmud və Məryəm", Yusif Səmədoğlunun "Qətl günü" romanlarında da bu sayaq zaman şərtiliklərinə rast gəlinsə də, "İzdiham"dakı zaman və məkan keçidlərinin sürətliliyi, fantasmaqorik düşüncə və təsvir imkanları tam fərqlidir. Yazıçı bu keçidlərdə o qədər zərgər dəqiqliyi ilə işləyib ki, şüurun qəbul etmədiyi bu çevrilmələri izlədikcə insan "necə" sualına vermir və bunun mümkünlüyünə inanır.Çünki yazıçı istər təsvir və təhkiyədə, istərsə də süjetin qurulmasında maraqlı bir metoddan istifadə edir: Üçölçülü çevrilmə.Yəni çevrilmə prosesində ətraf da fəza, kosmos kimi genişləndiyindən (ən azı bu cür təsvir olunur) baş verən proses real təsiri bağışlayır və alınır. Həyatın bü cür, yəni çevrilmələrlə təsviri sosiumun ani qıcıq funksiyasının ifadəçisinə çevrilir. Qəhrəman ətrafdan alacağı hər reaksiyaya əvvəlcədən hazırdır və belə yaşamaq ona daha rahatdır. Burada həyat üçölçülü reallıqda təsvir olunur, şərti-meteforik qəhrəman həmin bu üç ölçünün hər birində ayrı-ayrılıqda üzə çıxır ki, buna əsaslanaraq A.Məsudun şərti-metaforik psixoloji nəsrin yaradıcısı olduğunu deyə bilərik.

Ədəbiyyat:

1. Əsəd Cahangir. Kim yatmış, kim oyaq. Bakı: Yazıçı, 2013 .
2. Afaq Məsud. Yazı. Ön söz Bakı: Qanun, 2005, s.4
3. Nurlana Əliyeva. "Tək və İzdiham", Azərbaycan jurnalı, 2005 № 8, s. 198-201
4. Afaq Məsud. Seçilmiş əsərləri. I c-Bakı: Elm və Təhsil, 2012, s.288-289.
5. "İzdiham"dan şüuraltı reallığa keçid"Ədəbiyyat evi, Qərbi Berlin.1996.s28
6. Afaq Məsud. Seçilmiş əsərləri. II c-Bakı: Elm və Təhsil, 2012, s.566

А.Алиева

Художественное решения условного превращения в романе «Толпа»

Резюме

Герой романа «Толпа», автором которого являеться Афаг Месуд, представляеться в условно- метофорическом плане. Это история жизни героя произведения. Случаи убедительных действий в романе- это показатель художественного, условно-метофорического решения. В романе «Толпа» Афаг Месуда была описана изменении в душе героя тоже.

A.Aliyeva

Art solution of the conditional transformation in the nowel «Crowd»

Summary:

The hero in the Afag Masud′ s nowel by name «Crowd» has been analysed in the conditional-metaphorical aspect. This is the manner of the hero′ s life in this novel. Convincing description of events is a conditional metaphorical solution indicator in the novel. In the nowel of Afag Masud by name «Crowd» has been described changes in the sprid of hero too.

Rəyçi: Füzuli Bayat
filologiya elmləri doktoru

AYTƏN QULİYEVA
ayten.@mail.ru

ANARIN HEKAYƏLƏRİNİN MÖVZU, İDEYA XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Anar, mövzü, motiv, yazıçı, hekayə
Key words: Anar, theme, motiv, writer, story
Ключевые слова: Анар, тему, мотив, писател, рассказ

Görkəmli sənətkarımız Anar öz yaradıcılığı ilə yeni dövr Azərbaycan ədəbiyyatına incilər bəxş etmiş sənətkarlardandır. Onun çoxşaxəli yaradıcılığının önəmli hissəsini hekayələr təşkil edir. Bu hekayələr, mövzusuna, ideyasına, üslub xüsusiyyətlərinə, dil keyfiyyətinə, yaradıcılıq metoduna görə ədəbiyyatımızın dəyərli örnəklərindəndir.

Yazıçının bütün bədii yaradıcılığı, demək olar ki, məhəbbət məfhumu üzərində qurulub. Onu ədəbiyyat tariximizdə məşhurlaşdıran, sevdirən də məhz məhəbbət motivinin əfsunlayıcı gücü olmuşdur. İstər sənətkarın hekayələrində, istərsə də roman və povestlərində biz müxtəlif tipli, məhəbbət, sevgi təzahürləri ilə qarşılaşırıq. Burada yetkinlik yaşına təzəcə qədəm qoymuş gənc bir qızın qəlbinin ilk sevgi qığılcımlarını, "sevgi bayramı" həsrətini, gənc ikən kövrək, formalaşmamış duyğuları, tərəddüdləri ucbatından ilk məhəbbətini taksi ilə əbədiyyən yola salmış qəhrəmanın mənəvi əzablarını, məhəbbətin əsl mahiyyətindən agah olan, beşmərtəbəli binanın altıncı mərtəbəsindəki Təhminəni, bütün səylərinə baxmayaraq bu mərtəbəyə çatmağı bacarmayan, məhəbbəti uğrunda sonuna qədər mübarizə aparmağa qadir olmayan Zauru, təsadüfi telefon əlaqəsi ilə həyatının qadınını tapmış Seymuru, itirdiyi sevgi hisslərini yenidən yaşamaq, xatırlamaq üçün bir günlüyə də olsa ətrafındakı hər şeydən ayrılıb "ilk eşqinin vüsalına gələn" Əsməri görürük.

Heç təsadüfi deyil ki, Anarın ilk mətbu əsərlərindən olan və ədəbi mühitdə böyük maraqla qarşılanan "Asılqanda işləyən qadının söhbəti" orijinal bir dillə qələmə alınmış məhəbbət hekayəsidir. Həcmcə çox kiçik olan bu hekayə öz emosional təsir qüvvəsi, qeyri-adi üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu hekayə ilə yazıçı ilk baxışda adi bir əhvalat təsiri bağışlayan hadisələri çox böyük ustalıqla sənət səviyyəsinə qaldırmaq məharətini göstərir. Oxucu asılqanda işləyən qadının nağılvari anlatım tərzi ilə sanki qeyri-adi bir eşq hekayəsini dinləyir. "Sarı paltolu qadın"ın bir günün içərisində tərk etdiyi "qara paltolu" kişi uzun zaman öz sevgisini unada bilmir. Bunu isə yalnız insanları dərindən hiss edən, əsl məhhəbbətin qədrini bilən asılqanda işləyən qadın anlayır. Və əlindən gələn yardımı bütün qadağalara baxmayaraq qara paltolu kişidən əsirgəmir: "Bilirsən, bala, bizdə belə qayda var: kim ki, hansı nömrəni verir elə həmin paltonu da alır. Lap istəyir atam oğlu, qardaşım olsun, nömrəsiz ona palto vermərəm. Amma buna ürəyim gəlmədi. Qıymadım. Dinməz-söyləməz qızın sarı paltosunu ona uzatdım. Aldı, baxdı, baxdı... Sonra qaytardı. Çıxdı getdi. Bundan sonra bir də onu görmədim".

Nasirin əvvəldən sona qədər qəhrəmanın keçirdiyi duyğuların ifadəsindən ibarət olan "Taksi və vaxt" hekayəsi dörd kiçik hissədən ibarətdir. Bu hissələrin hər

birində biz qəhrəmanı müxtəlif stuasiyalarda, müxtəlif vəziyyətlərdə görürük. Yazıçı hekayə boyu qəhrəmanının müxtəlif zaman kəsimlərində daxili dünyasını, hiss və həyəcanlarını, fikir və düşüncələrini insan sərrafı kimi izləyir. Birinci hissədə qəhrəman gəncdir, onun cəmi-cümlətanı iyirmi yaşı var. Qəlbi ilk eşqin həyəcanı ilə döyünür, lakin buna baxmayaraq tərəddüd edir.

Bu çağda onun düşüncəsinə laqeydlik duyğusu hökm edir və ya o, qəlbinə hakim kəsilən hisslərini mənasını tam anlamıyla dərk edə bilmir. Qəhrəman ehtiyat edir ki, indi alacağı mənfi və ya müsbət cavab bir müddət keçdikdən sonra artıq onun üçün mənasızlaşacaq, ona səadət gətirməyəcək.Və özünün uydurduğu bu "fəlsəfəyə" görə həyatının mənasını itirir. Sevgsini boz bir taksi ilə əbədi olaraq yola salır.

Hekayənin ikinci hissəsində isə biz qəhrəmanı yetkin bir insan kimi görürük. O, yaşa dolmuş, müdrikləşmiş, "fəlsəfə"sinin yanlış olduğunu anlamış, səadət, sevgi haqqında düşün-cələri tamamilə dəyişmişdir. Vaxt ona çox baha başa gələn "həyat dərsi" vermiş, onun gəncliyində xoşbəxtliyini itirməsinə səbəb olan, "dayazı dərin görünən fəlsəfə"sini alt-üst etmişdir. Həm əvvəlki aldanış, həm də indiki dönüş qəhrəmanın daxili dünyasında müxtəlif hiss-həyəcan oyadır.

Həyatının müdrik çağında da o, aşiq olmuşdur. Yenə də qəlbi intizar içindədir, yenə də tərəddüd edir, sevgisini etiraf edə bilmir. Lakin bu səfər real səbəblərdən. Çünki artıq sinli bir kişidir, lakin dostunun gənc qızı Nərgizə aşiq olmuşdur. O, gəncliyində itirdiyi qadını Nərgizdə tapmaq, bununla gənclik məhəbbətini qaytarmaq istəyir. Bu dəfə isə ona mənəvi saflığı, əxlaqi təmizliyi mane olur. Çünki Nərgiz onun dostunun qızıdır və Asəf adlı bir gənclə nişanlıdır.

O, bir zamanlar əldən buraxdığı şansını, sevgisini, səadətini yenidən əldə etməyi nə qədər ehtirasla, nə qədər böyük həsrətlə əldə etmək istəsə də, yüksək mənəviyyat sahibi olduğu üçün vəziyyətdən faydalanmaq fikrinə düşmür. Nərgizi sevsə də, onun gələcək xoşbəxtliyi naminə yenidən sədaətini itirməli olur. Və elə bu itki ilə də sanki özü-özünü anlayır, səadətini tapır.

Göründüyü kimi, "Taksi və vaxt" hekayəsinin qəhrəmanı orijinal, bənzərsiz, zəngin bir mənəviyyat sahibdir. Biz onunla bağlı hər bir hadisədə bunun şahidi oluruq. Vaxt məfhumunu və taksini də hekayənin simvolik qəhrəmanları kimi götürmək olar. Çünki qəhrəman səadətini tapmaq, sevgisinə qovuşmaq, xoşbəxt olmaq üçün sanki əsər boyu ona qarşı olan qüvvələr – vaxt və taksi ilə passiv mübarizə aparır. "Taksi burada bir simvoldur – qəhrəmanın qarşısına çıxan şansların, təsadüflərin simvoludur, bu təsadüflər və şanslar hər zaman insanın qarşısına çıxa sbilər, lakin zamanı, vaxtı heç cürə qaytarmaq olmaz, ona heç bir maşınla, taksi ilə çata bilməzsən. Burada vaxt anlayışı səadət, insan xoşbəxtliyi, uğuru ilə bağlanır"(2,15).

Qəhrəman gənclik çağlarında yaşının, həyat təcrübəsinin azlığı ucbatından vaxtın insan həyatında oynadığı rolu anlaya bilmir "Vaxt hər şeyə məlhəmdir" deyiminin əsl mahiyyətini başa düşmür və taksinin simvollaşdırdığı – həyatının anlamını, sevgisini itirir.

Ömrünün yetkin çağlarında isə saf mənəviyyatı, real əxlaq qanunları, ictimai fikir onun son təsəlli olaraq gördüyü Nərgizi ondan ayırır. O, ilk məhəbbətini vaxtsız gəldiyi üçün itirmişdisə, ikinci məhəbbətini də gecikdiyi üçün itirir. Bununla

belə, həyatdan ümidlərini qırmır. İtirdiklərinin qarşılığı kimi xəyallarını, xatirələrini vəfalı həmdəmi sayaraq səadətə can atır.

1967-ci ildə qələmə alınan "Gürcü familiyası" problematikası baxımından "Taksi və vaxt" hekayəsinə çox yaxındır. "Anar hər şeyi zaman müstəvisində, vaxt bölgüsünün mizanı ilə təsnif edir...

Müəllifin zamanı da taksi kimi saxlamaq, anı qaytarmaq, saxlamaq arzusu və bunun qeyri-mümkünlüyü hekayəyə sonralar Anarın bütün yaradıcılığı boyu davam edəcək bir kədər işığı aşılayır... "Gürcü familiyası"nda isə yenə də vaxtın arxasınca qaçan qəhrəman bu dəfə onu taksi ilə yox..., təyyarə ilə qovur... Şərti Gürcü familiyası – Kamikadze – məhz zamansızlığa məhkumluq deməkdir: zaman kimi Kamikadzenin də qolunda və taleyində saat yalnız bir istiqamətdə işləyir və geriyə axa bilmir"(5,151).

"Taksi və vaxt" hekayəsinin qəhrəmanı ilə Oqtayın, Əsmərin bir çox oxşar cəhətləri var. Hər iki hekayənin qəhrəmanları vaxtı dəyərləndirə bilmirlər və bu da onların həyatda bir çox şeyləri itirmələrinə səbəb olur. "Taksi və vaxt" hekayəsinin qəhrəmanı itirdiyi zamanın geri dönməsini arzulayır: "Qaytarın mənə 20 yaşımı. Hardan qaytaracaqlar? Kim qaytaracaq? 20 yaşımda 20 yaşımın qədrini bilmədim. Dayazı dərin görünən fəlsəfələr qapıldım. İndi isə hər şey keçib getmişdir"(1,38). Əsmər isə bir günlüyə də olsa uşaqlıq xatirələrini, ilk sevgisini qaytamaq istəyir, lakin o da bunun mümkünsüzlüyünü dərk edir.

"Əsmər Oqtayla görüşür, lakin təbii ki, ömrünün ən xoş çağlarına, bir vaxt Oqtayın ad gününə yığışdıqları, 29 aprel axşamına qayıda bilmir, qovuşa bilmir. Hətta anadan olduğu evi görmək də ona nəsib olmur... "Yaponiya müharibələrdə" filminə baxan Əsmər yapon təyyarəçiləri kamikadzelərin bir daha geriyə qayıda bilməmələri ilə özünün keçmişə qovuşa bilməməsi arasında bir yaxınlıq görür"(4,38).

Hər iki hekayənin qəhrəmanları mənəviyyatca saf, təmiz, kövrək qəlbli insanlardır. Onlar vaxtın, sevgilərinin, bu sevgi ilə mənalanacaq ömürlərinin qədrini bilməmiş, tərəddüdləri ucbatından həyat səadətlərini əbədi olaraq itirmişlər. Lakin daxili dünyalarının zənginliyinə, əxlaqi kamilliklərinə görə ruhdan düşmür, həyatdan ümidlərini kəsmirlər. Burada məhəbbət intim, fərdi duyğulardan çox yüksəkdə dayanan dərin mənəvi-əxlaqi mənalar aşılanmış keyfiyyətə malikdir.

Cəmiyyətimizdə olan naqisliklərə, çatışmazlıqlara qarşı etiraz yazıçının yaradıcılığının əhəmiyyətli hissəsini təşkil edir. Sələfləri kimi Anar da dövrünün eybəcərliklərini göstərmək üçün satiraya, yumora müraciət edir. Və bu hekayələr vasitəsilə biz onu çox gözəl və maraqlı yumoristik hekayələr ustası kimi görürük.

Yazıçının "Molla Nəsrəddin-66" satirik hekayələr silsiləsi öz problematikası, orijinal dəst-xətti ilə ədəbi ictimaiyyətin marağına səbəb olmuşdur. Bu haqda görkəmli ədəbiyyatşünas İsa Həbibbəyli "Ədəbiyyatımızda Anar zirvəsi" məqaləsində qeyd edir ki, "Fikrimizcə, Anar sənət aləmində "Ağ liman" povesti ilə özünü təsdiq etmiş, "Molla Nəsrəddin-66" ilə ədəbi mühitdə zəfər çalmışdır.

"Molla Nəsrəddin-66" klassik satira ənənəsi ilə çağdaş ciddi ədəbiyyatın vəhdətindən yoğrulmuş yeni tipli satiradır, ədəbiyyat nəzəriyyəsi dili ilə desək, sarkazm, qroteskdir. O vaxt cəmi otuz yaşında olan Anar parlaq istedadının məhsulu olan bu satirik hekayələr sisiləsinə görə Azərbaycan ədəbiyyatı yeni dövrünün Molla Nəsrəddini olmaq səlahiyyətini qazana bilmişdir"(3).

Cəmiyyətin inkişafına mane olan bəzi insanların tərbiyə olunması, əxlaqi keyfiyyətlərin yayılması prosesində meydana çıxan mənfiliyin qarşısını almaq, həqiqət, gözəllik və mənəvi-əxlaqi təmizliyi yaymaq bu hekayələrin məğzini təşkil edir. Silsiləyə daxil olan "Rəng", "Başımızın ağası", "Bir stəkan su" kimi hekayələrdə öz yerində olmayan, tutduqları vəzifəyə təsadüf nəticəsində gəlmiş insanların komik vəziyyətindən danışılır. "Əli yuyar və yaxud bozbaş dəsgahı", "Maraqlı tədqiqat", isə elm, ədəbiyyat aləmində əxlaqi cəhətdən kasad olan insanların tənqidinə yönəlib. Silsilənin ən maraqlı hekayələrindən biri "Marallarım"dır. Burada ədəbiyyat aləmində olan insanların mənəvi dünyası, əxlaqi düşüncəsi ön plandadır.

Anarın "Bayram həsrətində", "Hekayə", "Könlümüzün gecəsi", "Sabah biz ayıq olacağıq", "Yağış kəsdi" hekayələrində müxtəlif tipli sevgi, məhəbbət hisslərinin insan mənəviyyatına təsiri, onun daxilən saflaşdıran bir qüvvə kimi əhəmiyyətinin təsviri önəmli yer tutur.

Oxucuya lazım olan da məhz bu tipli yaradıcılıq nümunələridir. Həqiqətən, günümüzdə belə əsərlərə tələbat var. Bu cür hekayələr həm insanların ruhunu oxşayır, həm də onlara sözün əsl mənasında müsbət tərbiyəvi təsir göstərir. Və oxucu zövqünün formalaşmasında böyük rol oynayır.

Anar hekayələrində təkcə mövzü istiqamətlərinin əhatəsinə görə deyil, Azərbaycan ədəbi dilinin inkişaf qanunauyğunluqlarına, sözün semantik məna xüsusiyyətlərinə və imkanlarına vaqif, bədii kateqoriyaların tələb və ehtiyaclarını gözəl bilən bir sənətkar kimi təsdiqlənir.

Ədəbiyyat siyahısı

1. Anar "Seçilmiş əsərləri" B., "Nurlan", 2003
2.Əliyeva Nurlana "Anar – şəxsiyyət və sənətkar" B., "Təhsil", 1999
3.Həbibbəyli İsa "Ədəbiyyatımızda Anar zirvəsi" Lİt.az
4.İmanov Muxtar "Müasir Azərbaycan nəsrində psixologizm" B., "Elm" 1991
5.Qarayev Yaşar "Meyar – şəxsiyyətdir" B., "Yazıçı", 1988

Aytan Guliyeva

Features of theme, idea of the Anar's stories

Sümmary

Different themes in the story of our notable craftsman are analysed in the article. Characteristic features of images and the motives of some stories of the writer are investigated. It are spoken top of the love motive stories of the craftsman, "Taxi and time", "Georgian Last Name". "Molla Nəsrədin-66" taking important place in the Anar's prose is shown targets of criticism in the stories range. Basic idea of the stories is elucidated.

Кулиева Айтен

Особенности тему, идею рассказов Анара

Различные темы оформления в историю нашего заметным мастером анализируются в статье. Исследованы характерные черты образы и мотивы некоторых рассказов писателя. В статье говорят верхней части мотива рассказкий любви художника, “Такси и время”, “Грузинская фамилия”. “Молла Насреддин-66» принимают важное место в прозе Анара показано объектом критики в диапазоне рассказы. Основная идея рассказы освещается.

Rəyçi: B.M.Babayev
f.ü.e.d., dosent

MAYA YUSİFOVA
myusifli@box.az

FOLKLORIZMLƏR MƏMMƏD ARAZ YARADICILIĞINDA ÜSLUB KİMİ

Açar sözlər: Folklor, nağıl, milli xarakter, üslub, dastan, millik.
Ключевые слова: фольклор**,** сказка, национальный характер , стиль, сага, гражданство.
Key words: folklore, fairy tales, folk character, style, epic, nationality.

Folklor yazılı ədəbiyyatın yaranması və inkişafında əvəzsiz mənbə hesab olunur. Bütün dünya ölkələri müəlliflərinin ən dəyərli əsərləri xalqın yaradıcılıq xəzinəsindən götürülmüşdür. Azərbaycan ədəbiyyatı da ən qədim zamanlardan müasir dövrədək şifahi xalq ədəbiyyatı ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Beləki, folklor yazılı ədəbiyyatın əsas mənbəyi olduğu və inkişafı boyu yazılı ədəbiyyata təsir etdiyi kimi, yazılı ədəbiyyatda öz növbəsində şifahi yaradıcılığa təsirsiz qalmamışdır. Bu təsir dildə, formada, ifadə vasitələrində, bir sıra ideya və motivlərdə özünü göstərmişdir. Xalqa bağlı olan sənətkarlar onun yaradıcılığına biganə qalmamış folkloru hər cəhətdən faydalı bir qaynaq hesab etmişlər. Beləliklə çox əsirlik milli və dünya ədəbiyyatı materialları göstərir ki,folklordan istifadə ‘‘ sənətkarlığın əsas əlamətidir”, “bu klassik və müasir ədəbiyyat üçün tipoloji məziyyətdir”. Bu mənada Məmməd Araz yaradıcılığı çox rəngarəng və təkrarolunmazdır. Məmməd Araz poeziyasının bu qədər şirinliyi və ecazkarlığı ilk növbədə onun “duyduğu gözəlliklərin xalqla təmasından qaynaqlanması” və xalq yaradıcılığından ustalıqla bəhrələnməsilə bağlıdır. Xalq içərisindən çıxan şairə xalqın zəhmətkeş nümayəndələrilə oturub-durmaq, nənələrin şirin nağılları ilə yuxuya getmək, təmiz dağ havası ilə qidalanmaq şərait yaradırki, hər misrasından xalq səsi, xalq nəfəsi duyulsun. Məmməd Araz poeziyasında folklor nümunələrinə -bayatıya, nağıla, dastana, əfsanəyə böyük məhəbbət duyulur. Nənələrin, babaların sinəsindən qopan nağıllar, dastanlar, əfsanələr, rəvayətlər, bayatılar və.s folklor nümunələri Məmməd Araz qələmilə yenidən cilalandı, başqa bir şəkil aldı,yeni məzmun və forma çalarları ilə zənginləşdi. Məmməd Araz yaradıcılığında folklor motivləri məzmunca zəngin formaca əlvandır. Onları burada ümumi şəkildə “folklorizm ” anlayışı ilə səciyyələndirməyi məqsədəuyğun hesab edirik. Lakin folklorizm anlayışının özüdə geniş məna tutumuna malikdir; Yəni folklordan gələn motivlər, süjetlər, epizodlar, mifoloji elementlər, deyim tərzi, obrazlar sistemi və.s bütün bunlar hamısı birgə Məmməd Araz yaradıcılığında folklor layını təşkil etməklə şərti olaraq folklorizmlər adlandırıla bilər. Lakin biz burada folklorizmin dil kontekstindən ,yəni folklorun istənilən elementinin Məmməd Araz yaradıcılığında dil qəlibində ifadələnməsinə fikir verəcəyik, yəni folklordan gələn hazır deyim vahidləri; bunlar elmdə paremeoloji vahidlər adlanır, başqa sözlə nitq folkloru...Beləki, M.Araz yaradıcılığında folklorizmlər çox geniş mövzu olduğu üçün folklorizmlərin üslubi imkanlarına toxunacağıq. Bu nümunələrdən istifadə edilməsi onun şeirinə nəinki ağırlıq gətirmək, əksinə bu şeirlərin təsir gücünü artırmağa və səmimiyyətini gücləndirməyə xidmət etdi. Zəngin folklor xəzinəsindən bəhrələnən digər

sənətkarlardan fərqli olaraq Məmməd Araz xalq yaradıcılığına birbaşa müraciət etmədi ,o folklordakı fikri yeni tərzdə , yeni biçimdə ortaya qoydu. Ona sanki bir şirinlik gətirdi, xalqdan aldığını zənginləşdirərək xalqa qaytarmağı bacardı. Digər şairlərdən fərqli olaraq M.Araz şeirində folklor nümunələri olduğu kimi, konkret şəkildə verilmir, folklordan gələn deyimlər ümumən şeirin məzmunundan çıxır. Fikirimizi konkret nümunələrlə əsaslandıraq, məsələn, xalq deyimində işlənən "könül sevən göyçək olar" ifadəsini şair "Iki səs" şeirində belə işlətmişdir:

Könül sevdiyini sevəsən gərək
Kiçik bir şeirdə könül varıdır
Bu axşam bayırda at çapan külək
Sanki xəyalımın qanadlarıdır

Yaxud folklordan gələn:

Başımda külahım var
Ürəyimdə ahım var
Göz gördü könül sevdi
Mənim nə günahım var

Məmməd Araz şeirində başqa bir formada təqdim olunur :

Ay çıxıbdır kənarsız
Gəzmək olmur fanarsız
Göz gördü könül sevdi
Niyə məni qınarsız

Məmməd Araz yaradıcılığında folklorizmlərin üslubi xüsusiyyətləri geniş və rəngarəngdir. Folklorizmlərdən istifadə Məmməd Araz şeirinin bədii keyfiyyətini artırmağa və onu xalqa yaxınlaşdırmağa xidmət edir.Şair öz yaradıcılığında ən kiçik həyat detalının təsvirindən tutmuş,ən böyük bədii faktın təsvirinə qədər milli həyat materialına ,folklor örnəyinə söykənir. Məsələn, şairin S.vurğuna həsr etdiyi "Sən tələsmədin" şeirində "Asta gedən usta gedər" xalq deyimi aşağıdakı kimi təqdim olunur:

Tələsən atlılar yolda qalacaq
Aramla gedənlər çox getdi ancaq
Görməyə tələsdi səni bağça- bağ
Bənövşə üzəndə tələsmədin sən

Məmməd Araz şeiri folklordan faydalanmaqla bərabər,folklorun zənginləşməsinə də güclü təsir etmişdir. Hətta şairin məhşur "Əlvida dağlar" şeiri bəzən folkorlaşmış,aşıq ədəbiyyatı nümunəsi kimi təqdim olunmuşdur. Bu şeiri oxuyan hər kəs xalq ədəbiyyatına vurğunluğunu gizlədə bilmir.Bu şeir aşıq şeirinin ən gözəl nümunələri ilə yaxından səsləşir.Bu baxımdan "Miskin Abdal və Sənubər" dastanında verilən gəraylını xatırlayaq:

Mən gedirəm,sən qalırsan.
Ulu dağlar salamat qal!
Yadıma nələr salırsan
Gur bulaqlar salamat qal!

Miskin abdal gəraylısında duyulan bu ayrılıq,həsrət,qubar eynilə Məmməd Araz şeirində də qəlbləri kövrəldir:

Bəlkə bu yerlərə birdə gəlmədim
Duman salamat qal,dağ salamat qal!
Dalımca su səpir yoxsa buludlar
Leysan salamat qal,yağ salamat qal!

Qıy vuran qartallar yox oldu çəndə
Nərgizlər saraldı şehli çəməndə
Ey qaragöz pəri,ardımca səndə
Boylan salamat qal,bax salamat qal!

İstedadlı şairin xalq yaradıcılığına hədsiz bələdçiliyini və marağını ifadə edən "ərim gəldi qayası" şeiri və "Yeddi bulaq əfsanəsi" poeması folklordan alınan əfsanə süjetləri əsasında qələmə alınmışdır.

Xalq ədəbiyyatından qidalanan şeirlərdən biri də "Altı qızın biri Pəri" şeiridir .Eyni adlı xalq mahnısını dinləyən şairi mahnının sədası keçmişə,xatirələr bulağına aparır,ötənləri yada salır,elə bu nəğmə qədər həzin,ürəyəyatan şeirini yazmağa vadar edir.

M.Arazın folklordan qaynaqlanan və şairin üslubunu fərqləndirən şeirlərdən biri də eyni adlı xalq məsəlilə səsləşən "Yalançının evi yandı" şeiridir. Bu şeirdə ifadə olunan fikir xalq arasında geniş yayılan "Yalançının evi yandı, heç kəs ona inanmadı" fikirinin davamı kimi görünür və xalq məsəlində olduğu kimi əxlaqi-tərbiyəvi məzmun kəsb edir.

Beləliklə aydın oldu ki,Məmməd Araz şeiri folklorizmlərlə sıx bağlı olmuş,şair elin mənəvi sərvətindən məharətlə istifadə etmiş,onların yeni forma və məzmunda inkişafına şərait yaratmışdır. Folklor nümunələri də öz növbəsində Məmməd Araz şeirini şirinləşdirmiş,ona canlılıq və millilik bəxş etmişdir. Məmməd Araz poeziyasının ən böyük uğuru-məhz folklor şirinliyini oxucuya daddıra bilməsindədir. Məmməd Araz poeziyasını xalq yaradıcılığı ilə bağlayan əsas tərəflərdən biri də, bu poeziyada Araz obrazının xüsusi yer tutmasıdır. Xalq yaradıcılığında, folklor nümunələrində Araz mövzusu yetərincə işlənmişdir. Folklorda Araza müraciət, Arazdan kömək diləmək, Araza qarğış, Araza inam və .s mövzular geniş yer almışdır. Folklordan:

Araz ,Araz xan Araz
Sultan Araz,xan Araz
Görüm suyun qurusun
Mənim kimi yan Araz

Araz,Araz xan Araz
Dağlardan axan Araz
Yardan bir xəbər gətir
Evimi yıxan Araz

Məmməd Araz şeirində də folklorla səsləşən Araz dərdini,Araz sevgisi və Araz nisgilini obrazlı şəkildə ifadə edən nümunələr çoxdur.

Sən canlı tarixsən doğurdan Araz
Səsində min ildən qəm,qubar qalıb

Sinəndə dil açan bu yanıqlı saz
Ulu babalardan yadigar qalıb

Şair Arazın bəzən lal-dinməz,bəzən kükrəyib-daşan,bəzəndə həzin səsini babalardan yadigar olan sazın səsinə bənzədir. İncə qəlbli şair çox zaman Arazı iki sevgilini, ana və balanı bir-birindən ayıran həsrət və hicran çayı kimi təsvir edir.

Qoca şahidisən qoca dünyanın
Çox nahaq qanlara boyanmısan sən
Nə bilim bəlkədə neçə ananın
İlıq göz yaşımdan yaranmısan sən

Səndə təmkinlikdə, dəlilik də var
Dağlarda pələngsən, düzlərdə quzu
Bəlkə sularında dil açıb ağlar
Leyli məhəbbəti,Məcnun arzusu

Araz gah səbirlə-lal-dinməz axır, gah Koroğlu kimi nərə çəkir, gah da Leyli məhəbbətindən, Məcnun eşqindən söhbət açır. Araz çayının axışındakı bu incəlikləri duymaq üçün də elə M.Araz kimi qüdrətli şair qələminə və həssas şair qəlbinə sahib olmaq gərəkdir. Məmməd Arazın vətənpərvərlik duyğularının mərkəzində Araz dərdi , Araz sevgisi yer alır və bu səbəbdəndir ki, şairin bir sıra şeir və poemalarının mərkəzində Arazın müxtəlif məzmunlu poetik obrazını folklor qəliblərində görə bilirik.

Şairin poeziyasında yaradılmış Arazın lal axan obrazı, yaxud nərə çəkən Koroğluya bənzədilməsi,yaxud da sularında Məcnun eşqinin çağlaması folklordan gələn obrazlardır. Bunlar dil folklorizminin müxtəlif səviyyələridir. Koroğlu ,Leyli, Məcnun adları folklor psixologizminin dil səviyyəsi, Arazın səbirli, lal axımı hadisə psixologizminin dil ifadəsidir. Bütün bunlar onu göstərir ki, folklorizmlər xüsusi ifadə,üslub,dil kodudur. Folkloru dildən kənarda təsəvvür etmək mümkün deyildir. Folklor milli düşüncənin səviyyəsi kimi dildə ifadələnir. Bu ifadələr, hazır folklor qəlibləri yazılı ədəbiyyata keçəndə biz onu folklorizmlər adlandırırıq.

Son olaraq Məmməd Arazın sənət dunyasının rel portretinə qüdrətli tənqidçi Yaşar Qarayev qələmindən baxaq: " Əsil, həqiqi, böyük –poeziya-ümumbəşəri yaddaşdır. Məncə Məmməd Araz şeiri də düşüncədə, əxlaqda və qeyrətdə yaddaşın ifadəsidir. Poeziyanın dumduru , şəffaf bulağı başına o, Arazın bulanıq, yaralı sahillərindən ayrılıb gəldi, özü ilə poeziyaya Arazın dərdini, ağrısını da gətirdi. Özüdə tarixdən və təbiətdən, ana dilindən, bayatılardan, folklordan axan bir Araza döndü- Məmməd Araza !

İstifadə olunan ədəbiyyat:

1.Azərbaycan şifahi xalq ədəbiyyatı, Paşa Əfəndiyev,Maarif nəşriyyatı.1992
2.Məmməd Araz seçilmiş əsərləri, Lider nəşriyyatı,bakı-2004
3.Məmməd Araz, Daş harayı şeirlər kitabı, Bakı-1992
4.M.Araz.Seçilmiş əsərləri, Bakı, 2010

М. Юсифова

Выражений фольклора как стили Мехмет Арас творчества

Резюме

Фольклора с читается бесценным ресурсом в развитии письменной литературы . В Азербайджанского литературе древних времен до наших дней была разработана в сотрудничестве с устного народного творчества. Не равнодушны к работе художников, которые связаны с людей с точки зрения фольклора, которые были рассмотрены быть полезным ресурсом. Это очень красочное и уникальное чувство Мехмет Арас. . Мехмет Арас форме создания богатого содержания с красочными народными мотивами. Мехмет Арас художественное качество и увеличить использование в фольклоре поэзия ближе к народу, которому она служит.

Maya Yusifova

Expressions of folklore , such as styles in the Mehmet Aras creativity.

Summary

Folklore is considered to be an invaluable resource in the development of written literature. The Azerbaijan literature of the ancient times to modern days has been developed in collaboration with the oral folk literature. Not indifferent to the work of artists who are related to people in terms of folklore that have been considered to be a useful resource. It's very colorful and unique sense of Mehmet Aras creativity. Mehmet Aras shape the creation of rich content with colorful folk motifs. Mehmet Aras artistic quality and increase the use of folklore poetry closer to the people it serves.

Rəyçi: Xəlili Ağaverdi
filologiya üzrə fəlsəfə doktoru, dosent

LƏMAN PƏNAHOVA
AzDİU

İNGİLİS POSTMODERNİZMİNİN XÜSUSIYYƏTLƏRİ KONTEKSTİNDƏ K.İSIQURONUN BƏDİİ ÜSLUBU

Açar sözlər: postmodernizm, oyun, diskurs, refleksiya
Ключевые слова: постмодернизм, игра, речь, отражение
Key words: postmodernism, game, diskurs, reflection

Postmodernizmin XX əsrin ikinci yarısında ortaya çıxmasına baxmayaraq o, bu gündə, XXI əsrin artıq ikinci onilliyində ən məşhur və geniş vüsət almış hadisədir.

Hərdən hamıya elə gəlir ki, postmodernizm nəinki mədəniyyətə, ədəbiyyata, incəsənətə, hətta bizim həyatın bütün sferalarına siraət edib. O, insanların düşüncəsi, yaşayış tərzi, qəbul olunmuş stereotipləri yerindən oynadaraq, tam yeni dünya yaradıb.

Müasir ingilis ədəbiyyatında da postmodernizm özünə yer alaraq getdikcə daha mükəmmələşir və müəyyən transformasiyalara uğrayır. Əvvəlcədən onu qeyd etmək lazımdır ki, Avropa mədəniyyəti və ədəbiyyatı dedikdə biz bəzən sanki tam arealı, bir məkanı nəzərdə tuturuq. Lakin bu heç də belə deyil. Əgər fransəz ədəbiyyatı, elmi, fəlsəfəsi və s. həmişə avanqard rolu öz öhdəsinə alaraq, çox vaxt lider kimi çıxış edirdisə, qonşu avropa ölkələrində belə çevikliyi hər zaman müşayiət etmək olmur. Belə ki, Almaniya ədəbiyyatı öz ənənəvi yolu ilə inkişaf edərək, postmodernizmi heç də dərhal qəbul edə bilmirdi. Məşhur amerika tənqidçisi Lesli Fidler alman yazçıları, elm xadimləri və s. qarşısında çıxış edərək və postmodernizmi təbliğ edərək, alman intellektuallarının etirazına və qəti tənqidinə məruz qaldı. Lakin alman mədəni mentallığının özünəməxsus intellektual, fəlsəfi xarakterli ənənəsinə baxmayaraq, alman ədəbiyyatı da gec-tez postmodernizmin zəruriyyətini qəbul etməli oldu.

Böyük Britaniya ədəbiyyatının demək olar ki, həmişə öz yolu olub. İngilis mentalitetinə uyğun olaraq milli- mədəni ənənələr bütün dövrlərdə böyük nüfüza malik olmuşdu. İngilis romanında realist ənənələr, güclü məntiq, şəffaf təhkiyyə stili, ifrat emosionnalıqdan üstün tutulan təmkinlik və. s onun spesifikasını təşkil edir. Müəyyən dövrlərdə, misal üçün XX əsrin əvvələrində görkəmli modernistlər – C.Coys, V.Vulf, G. Lourens və b. ingilis ədəbiyyatına modernizmi gətirdilər.

Müasir ingilis ədəbiyyatı çox köklü transformasiyalar dövrü yaşayır. Böyük Britaniya imperiyasının süqutu, bir sira koloniyaların azad olunması ilkin mərhələdə bu ölkələrdə bir eyforiya atmosferini yaradmışdır. Tədricən dünyada baş verən proseslər, cəmiyyətdə yaranmış böhran, dünya xəritəsinin dəyişməsi, qloballaşma postkolonial ölkələrin mövqelərində əsaslı dəyişiklərə gətirdi. Böyük kütlə şəklində miqrantlar Avropaya, Britaniya adalarına üz tutaraq burada məskunlaşmış və istər istəməz bu ölkənin mədəniyyətinə yeni çalarlar gətirmişlər.

Bu gün Britaniya ədəbiyyatı deyərkən, biz artıq onun ayrılmaz tərkib hissəsi kimi postkolonial ədəbiyyatının görkəmli nümayəndələri – Nobel mükafatı laureatı V.Naypol, çin əsilli T.Mo, yapon asilli K.İsiquro və b. nəzərdə tuturuq. Bu yazıçılar

yeni ingilisdilli Britaniya ədəbiyyatı yaradırlar və bu artıq dünyada qəbul olunmuş bir faktdır.

Bu gün Britaniya ədəbiyyatında müxtəlif cərəyanlara məxsus romanlar mövcuddur – realist, neo-viktorian, mifoloji, yeni –tarixi, magik reallizm üslubunda yazılmış və s. bunların arasında əlbət ki, postmodernizm üslubda yazılmış əsərlər aparıcı mövqə tuturlar. P.Akroyd, A.Bayyet, Q. Svift, həmçinin K.İsiquro, T.Mo, S.Rüşdi öz romanlarında postmodernizm stilinə məxsus bütün priyomlardan istifadə edirlər. Burada oyun, metaproza, allüziyalar, ikili kodlaşma, kollaj, intertekstuallıq və bir çox başqa postmodernist mətninin atributları istifadə olunur. Lakin son vaxtlar bəzi yazıçılar və tənqidçilər tərəfdən sanki spontan, üstüörtülü, eyni zamanda günbəgün daha inadla səslənən fikirlər ortaya qoyulur.

Postmodernizm diskursu yarananda, bir sıra fransız strukturalistləri, filosofları, yazıçıları ədəbiyyatın paradiqmasının dəyişməsindən bəhs edirdilər. Müəllifin ölməsi (R.Bart), bədii əsərin yerini mətnin tutması (Derrida), ciddiliydən çox oyuna üstünlük verilməsi (Höyzinqa), sanki heç bir yeni əsərin yaranmasının mümkünsüzlüyü və bu baxımdan intertekstuallıq (Kristeva), stimulyakrlar (Bodriyyar) və s. atributlar yeni narrativ strategiyasının yığımını təşkil edirdi. Bunlar hamısı reallığın ciddi dəyişməsilə əlaqələndirildi və bu şəraitdə yazıçı üçün əsl insani hisslərinin bədii əsərdə ifadə olunmasının mümkünsüzlüyü vurğulanırdı. Yəni ironiya, oyun, şərtlilik- bunlar insanın daxili hisslərini ört- basdır etməsinin üsulları idi.

Lakin postmodernizmi uzun müddət realizmlə qarşıdurma prinsipi mövqeyindən dəyərləndirməsi tədricən öz aktuallığını itirir. Həmişə istehza ilə səslənən postmodernizmin "yüksək həssaslığı", "mütəssirliyi" müəyyən vaxtdan sonra başqa bir səmtə yönəlir.

Bir sıra ingilis yazıçısı, tənqidçisi öz çıxışlarında və əsərlərində "insani təcrübənin", humanizmin, insani emosiyaların vacibliyindən danışırlar. Belə ki, 80-90 – cı il yazıçı nəslinin nümayəndələri – K. İsiquro, Makyüen belə deyirlər: "Bədii eksperiment məni mövzunun emosionallığının tam əhatəli açılması tərəfdən maraqlandırır" (K. İsiquro); "Mənim oynamaq, lakin ciddi oynamaq istəyim intellektlə deyil, dərin hisslərlə bağlıdır" (Makyüen).

Yəni ingilis postmodernizmi daxilində müəyyən proseslər baş verir. Zahirən postmodernizmin atributları, brendləri hələ də saxlanaraq, öz funksiyalarını dəyişir, onlar radikal siyasi – fəlsəfi tərəddüdlər, şübhələr alleqoriyasına çevrilir. Britaniya ədəbiyyatında hər şeyi eksperimente, istezaya, öldürücü skepsisizmə çevirən oyun strategiyası öz əhəmiyyətinin itirir. Bir sıra əsərlər özünütəhlil (refleksiya) üstündə qururlur, bu isə qəhrəmanın daxili dünyasına çıxış deməkdir.

K. İsiquronun bir çox romanları yüksək mükafata layiq olmuşlar. Yapon nəsilli olan yazıçı öz əsərlərində Yapon, Çin, Böyük Britaniya reallıqlarını əks etdirir. Bu əsərlərdə yazıçı müxtəlif mövzulara toxunaraq fərqli bədii stillərdən istifadə edir. Lakin onları ümumiləşdirən bir faktor var ki o, insan istirablarından, bəzən qəhrəmanların həyatına faciəvilik gətirən, daxillərində gizlənən, yalnız onlara məlum olan və hətta özlərinə belə etiraf etməkdən qorxan böyük insan ağrısından bəhs olunur.

Bu əsərlərdən biri – "Biz yetim olarkən" romanı K. İsiquro yaradıcılığı üçün çox səciyyəvidir.

Məşhur amerika tənqidçisi H.Bhaba qeyd etdiyi kimi yazıçı – miqrantlar həyat və ədəbiyyatda "interstitial space", yəni aralıq məkanda yaşayırlar. Onlar, Bhabanın təbirincə, iki dünyaya məxsus olduqları halda, heç birinə uyğunlaşmırlar. Bu yazıçıların əsərlərində "özü" – "özgə" binar qarşıdurması üzə çıxır.

K. İsiquronun əsərlərində postmodernist stilinin bütün parametrlərinə uyğun olaraq təsviri üsullar dəyişir, yeni mədəni konseptlər yaranır, mətndə qeyri-adi, adətə uyğun olmayan dil variantları, qeyri standart qəhrəmanlar, qeyri-standart vəziyyətlər və s. yaranır. "Biz yetim olarkən" romanı sanki bir konseptin – "vətən" konseptinin üstündə strukturlaşır.

əsas qəhrəman məntiqə görə yapondur, yəni onun atası yapondur və hansısa ingilis şirkətində aparıcı vəzifədə çalışır. Anası isə, göründüyü kimi, yaponiyalı deyil, lakin onun milli mənsubiyyəti müəllif tərəfdən müəyyənləşdirilmir. Qəhrəmanın uşağlığı Çində, Şanxayda keçir və beləliklə həmin "özü" – "özgə" binarlığı silinərək, özünün mətnin müxtəlif səviyyəsində büruzə verir.

Əsərin süjeti zahirən ənənəvi tərzdə qurulur. Əsas qəhrəman – Kristofer Benk Şanxayda uşağlığ illərini yaşayaraq, bura bağlılığını bütün ömrü boyu öz daxilində gəzdirir. Onun uşağlıq dostu – Akira Kristoferdən fərgli olaraq, öz yapon köklərinə daha bağlıdır və Kristoferi də buna sövq etməyə çalışır. Lakin qəhrəmanın anasına xüsusi bağlılığı, atasına ehtiramı onun milli ruhda tərbiyələndirilməsinə dəlalət etmir. O, yalnız anasının hansısa səbəbdən atasına qarşı olmasını müşayyət edərək, bundan narahatlanır və ailələrində səmimilik və məhəbbətin olmamasından əziyyət çəkir. Hadisələr elə cərəyan edir ki, qəhrəmanın atası çıxır: o, ya oğurlanır, ya öldürülür, sonra isə o anasını itirir. Yetim qalmış uşağı ailə dostları İngiltərəyə, guya orada yaşayan imkanlı xalasının yanına göndərirlər və Kristoferin "ingilis" həyatı başlayır.

Yuxarıda qeyd etdityimiz kimi, postmodernist əsərdə yeni konseptlər yaranır. Buradakı mətni təşkilləndirən əsas konsept – "vətən" anlayışıdır. Yəni, qəhrəman böyüdükcə qarşısında sanki əsaslı yeganə məqsəd qoyur-oxuyub, yüksək səviyyəli xəfiyyə olub, Şanxaya qayıtmaq və valideynlərininin başlarına gələn hadisələri araşdırmaq. Beləliklə romandakı "vətən" konsepti bir sıra yeni mənalarla dolğunlaşır. Kristofer üçün belə bir mürəkkəb kontekstdə vətən nə deməkdir?

Onun doğulduğu və uşaqlıq dostu Akira ilə bağlı məkan? Lakin bu Çindir, Şanxaydır. Onda onun vətəni, yəgin ki, soykökü olan Yaponiyadır? Lakin sujetdə görünən kimi o, özünün bu ölkəyə məxsusluğunu hiss etmir. Bəlkə qəhrəman özünü avropalı, britaniyalı sayır? Lakin Britaniyada yaşayarkən o, çox qapalı, heç kimlə qaynayıb-qarışmayan, izolyasiya olunmuş həyat tərzi keçirir.

Roman süjetinin ikinci hissəsi Çində baş verən hadisələrlə bağlıdır. Ingiltərədə istedadlı xəfiyyə kimi məşhurlaşmış Kristoferi Çinə məlum hadisələri təhqiq etmək üçün dəvət edirlər. O, bu hadisələrin onun valideynlərinin taleyi ilə bağlı olduğunu hiss edərək, var gücülə istintaqa qoşulmaq istəyir, lakin hansısa qüvvələrin buna yol vermədiyini anlayır. Kristofer özü hadisələrin dolaşığını tədricən araşdıraraq, bəzi açıqlamalara yaxınlaşır. Bu məqamda ölkəni dəhşətli çin-yapon qarşıdurması bürüyərək qanlı müharibəyə dönür və qəhrəmanı elə bir insanlarla və hadisələrlə üzləşdirir ki o, sanki müəmmalı labirintə düşür. Kristofer məhz belə xaosda çox axtardığı uşaqlıq dostu Akirayla rastlaşır. Akira hərbi

geyimdə yapon qüvvələrini təmsil edərək düşmən çin terrorçuları tərəfindən əsir götürülür. Kristofer Akiranın azad edilməsinə müəssər olur.

Sonrakı hadisələrin cərəyanı, məkanların bir-birini əvəz etməsi, zamanın sanki məcrasından çıxması və s. K.İsiquronun başqa əsərlərində istifadə olunan təhkiyyə manerasını xatırladır.

Qəhrəmanı sanki təsadüfən rast gəldiyi insanlar, hansısa ötəri eşidilən sözlər, nə vaxtsa ona tanış gəldiyi küçə və binalar müəmmalı yollarla itkin düşmüş anasının olduğu yerə aparır.

Uşağlıqdan tanıdığı, guya "ailə dostu" olan Filiplə Kristoferin rastlaşması ona bir çox sirləri açır. Müəyyən olur ki, Kristoferin atası qaçırılmayıb o, başqa qadınla əlaqəyə girərək ailəsini tərk edib və sonralar ölüb. Qəhrəmanın anası həmişə narkotik satışına qarşı mübarizə apararaq, özünə çoxlu düşmən qazanıb. Filip, illərcə bu qadına rəğbət bəsləməsinə baxmayaraq, onunla yaxınlığa nail ola bilməmişdir. Ara qarışanda isə o, qəsdən guya kristoferin xilası naminə onun anasını narkotik kontrabandistinin əlinə verir. Bu sanki bütün müəmmaların açılmasıdır. Kristofer bunları öyrənərək bundan sonrakı axtarışlarını anasının hansı evdə saxlandığını və o evin tapılmasına cəhd göstərir. Belə qeyri-müəyyən final əsərin mənasına yeni çalarlar gətirir. Təni, əsərdə təşkilləndirici funksiyanı daşıyan "vətən" konsepti İsiquro tərəfindən ikili-binar oppozisiya kimi deyil, özü-özgə qarşıdurması deyil, tam ayrı məna daşıyıcısı kimi çıxış edir. Vətən-vətənsizlik, qəhrəmanın öz valideynlərinin itirməsi, vətəninin itirməsi insanın ümumiyyətlə tənhalığı, qəribliyi, yetimliyi deməkdir. Bu faciəvi dünyada insan taleyinin əsas durumunun göstəricisidir.

Kristofer K.İsiquronun başqa qəhrəmanları kimi öz faciəsini daxilində gəzdirərək, ondan açıq danışmağa qadir deyil. Onun davranış tərzində daha çox üstünlük hərəkətə, fəaliyyətə, nəinki sözə verilir. Qəhrəmanın susqunluğa meyilliyi onun daxili ağrısının, tənhalığının büruzə verməmək cəhdindən irəli gəlir. Kristofer uşaqlıqdan tənhadır. Onun valideynləri xoşbəxt deyillər və bu ailə atmosferi balaca Kristoferi öz daxili həyatı ilə yaşayaraq, valideynlərinə heç bir yük olmadan sakit, sözəbaxan uşaq kimi davranışına sövq edir. Bu halda onun şəxsi həyatı yalnız qonşu oğlan – Akira ilə dostluğudur. Londonda yetimlik illərini keçirərkən Kristofer heç bir kəslə yaxınlaşıb, dostluq etmir. Onun bütün daxili dünyası – Şanxayla, valideynləri və Akira ilə bağlıdır. Burada bir məqama da toxunmaq vacibdir – bu da İsiquro qəhrəmanlarının yaddaçıdır. Adətən, insan şüurunda uşağlıq yaddaçı güclü bir məfhumdur. Hələ M.Prust impressionizmin başçısı kimi, yaddaşın vasitəsilə böyük bir dünya yaradır. Yaddaşın "ilişdiyi" hansısa rəmzlər, əşyalar, qoxular, rənglər yaddaşa impuls verərək, keçmiş həyatı canlandırır və dağınıq dünyaya harmoniya, yetkinlik gətirərək, itirilmiş zamanı qaytarır, bərpa edir.

İsiquro qəhrəmanları üçün keçmişə qayıdış onun bərpasına çevrilmir. Belə ki, kristofer yenidən Şanxaya qayıdanda, yaşadığı evlərini tapmır, o müxtəlif məkanlara düşərək, hansısa detalları sezir, oxşadır, lakin bunlar onun yaddaşının tamlanmasına kömək etmir. Yəni, isiquronun əsas personajları bu dağınıq dünyada öz tənhalıqlarını, qəribliyini hər zaman hiss edirlət. Onların yaddaşı da çox dəyişkən, fiktivdir. Misal üçün İsiquronun bir sıra başqa romanlarının eləcə adlarında bu qeyri-müəyyənlik, mütərəddidlik vurğulanır – "Təpələrin qeyri-müəyyən cizqiləri", ya da "Axıb-gedən dünyanın rəssamı" və s.

Bu keçmişə daxil olmasının xülya, qeyri-real olmasına dəlalət edir. Bəlkədə burada personajlar öz yaddaşları ilə hansısa şərtlə müqavilə bağlayırlar – yəni çox şeylər yaddaşdan silinməsədə, onları üzə çixarmamaq, daha da dərin qatlarda gizlətmək. Səbəbi yəqin ki bu təəsüratların həddindən artıq dözülməzliyi, köhnə yaraların təzələnməsidir. Qəhrəman bundan qaçır və bu səbəbdən İsiquronun zahirən çox ləng olan təhkiyyə stili süjet baxımından elə bil ki kasıb, laqeyddir. Lakin bu lal axan suların altından gözəgörünməz sular axır, bu susma daxilində güclü dinamika gizlənir. Təhkiyyənin alt mənası əsərin sonuna yaxın bir çox faciə və hadisələrin baş verməsi, qəhrəmanın öz alın yazısından qaçmasının mümkünsüzlüyünü aşkar edir. Belə final İsiquronun bir sıra başqa əsələrində - "Məni tərk etmə", "Təsəlli tapmayanlar" və s. yer tutur.

Ədəbiyyat

1. K.İsiguro "When we were orphans". United Kingdom. 2000
2. Bhabba H. Nation and Narration London and New York. 1990

Ляман Панахова

Творчество К.Исигуро в контексте постмодернистской литературы Великобритании

Резюме

В представленной статье анализируется творчество К.Исигуро в контексте постмодернистской литературы Великобритании. Как известно, К.Исигуро относится к одной из ярчайших фигур новой постколониальной английской литературы. В статье на примере анализа известного романа Исигуро «Когда мы были сиротами» исследуется поэтическое своеобразие произведения с точки зрения наметившейся тенденции постмодернистского дискурса к сближению с реализмом.

Laman Panahova

The creation work of K.Isiguro the context of postmodern literature in Great Britain

Summary

The contemporary British writer K.Isiguro's literary style is investigated in the presented article. Traditionally K.Isiguro is shown as an acknowledged example of postmodernism English literature. New ideas recently created among the postmodern writers are described in the article. This is tendency reaching to realism human feelings and humanism. The novel called "When we were orphans" is analysed in this article from that point of view.

Rəyçi: prof. S.Cəbrayılova

GÜLNAR QULİYEVA
i-mail: quliyevagulnar89@mail.ru

XARAKTERƏ PSIXOLOJI YANAŞMA
(“Beşmərtəbəli evin altıncı mərtəbəsi” əsəri əsasında)

Açar sözlər: obraz, emosionallıq, hiperaktivlik, təsadüf, zərurət, şəxsiyyət
Ключевые слова: изображение, эмоциональность, гиперактивность, совпадение, необходимость, личность
Key words: image, emotionality, hyperactivity, coincidence, necessity, personality

Mövzunun şərhinə keçməzdən əvvəl qeyd edək ki, Anar da, başqa yazıçılar kimi yaratdığı obrazlarla nəyi vurğulamaq, nələri göstərmək və nələrə toxunmaq istədiyini ən yaxşı özü bilir. Əlbəttə, bu obrazlar istənilən oxucuya fərqli təsir bəxş edə bilir. Şübhəsiz, oxucuda yaratdığı təəssürat heç də yazıçının təbliğ etmək istədiyi olmaya bilər.

Bu cəhətdən Anarın yaratdığı Təhminə və eyni zamanda Zaur obrazına toxunmaq, amma onları bir qədər fərqli prizmadan aydınlatmaq istəyirəm, özümün düşündüyüm kimi...

Şəxsi (məni düşündürən suallarla əhatələnən) araşdırmalarım nəticəsində deyə bilərəm ki, adını çəkdiyim əsərlə maraqlanan və ya həmin əsəri dərindən oxuyan fərqli-fərqli insanların əsərdəki obrazlar (xüsusən də Təhminə obrazı) haqqında müxtəlif fikirlərdə olması diqqətimi çəkdi və mən bu əsərə belə bir mövzu ilə yanaşmaq qərarına gəldim.

Təhminənin zəngin daxili aləmi... emosionallığı, dəlisovluğu, duyğusal, kövrək, həssas və eyni zamanda hərdən sirli və qəti addımlar atmağa qadir olan bir qadın olması, əlbəttə ki, diqqətləri çəkməyə bilməzdi. Əsərin müxtəlif hissələrində bütün bunlar Təhminə obrazının xüsusiyyətləri kimi verilir. Anar Təhminə obrazı ilə həyatda anlanılmayan qadınların, daxili aləmini, düşüncələrini, onları belə anlanılmamaq probleminə sürükləyən səbəbləri sadəcə yazmayıb, sanki usta bir rəssam kimi təsvir edib. Məhz həmin Təhminə xarakterli qadınlar öz faciələrini topluluq önündə yox, öz daxillərində yaşayırlar. Onlar soyuqqanlı kimi görünən əslində isə daxillərində məşəl alovları gizlədən qadınlardır.

Doğrudur, Təhminə obrazı heç də bizim yaşadığımız cəmiyyətin qadınlarıyla uyğunlaşmayan, daha çox öz idealogiyası, özünəməxsus çılğın düşüncələri, azadlığı, ətrafındakı insanların ona qarşı fikirlərini elə də önəmsəməyən bir insanı yaradır təsəvvürümüzdə. Amma elə həmin Təhminə obrazı sübut edir ki, kimlərinsə düşüncələrindən çəkinərək yaşamaq, ətrafdakılar tərəfindən pis qarşılanacağını fikirləşərək imtina etdiyimiz nələrsə və ya rastlaşdığımız hansısa bir insan, hadisələr haqqında əvvəlcədən səbəbsiz olaraq verdiyimiz səhv qərarlar bizi təkcə yanıltmır, həm də çox şeylərdən, başlıca olaraq, azad və öz düşüncələrimizə söykənərək yaşamaqdan məhrum edir. Elə bu məhrumiyyətlər də insanı natamam bir həyat yaşamağa sürükləyir.

Təhminə obrazını təhlil edərkən və onu cəmiyyətimizdə, real həyatdakı insanlarımızla müqayisə edərkən belə bir obrazın həyatımızın müxtəlif məkan və

zamanlarında göründüyünü anlamış olarıq. Elə həmişə olub Təhminələr, Təhminə kimilər. Qadına qarşı yönəlmiş məhdudiyyətlər, ayrı-seçkiliklər əslində Təhminə kimi qadınların yaranma səbəbi kimi dəyərləndirilə bilər. Onları belə acınacaqlı edən daxillərindəki ikinci "mən"lərinə məğlub olmaları və həyatın bütün bu haqsızlıqlarına sadəcə içlərindən, öz aləmlərindən eşidilməz bir tərzdə, amma görünən yolla etiraz etmələri deyilmi? Elə odur. İnsan ən çox "mən"ən sınır, ən çox mənəvi sarsıntıdan kövrəlir. Belə qadınlar adətən kövrək, emosional, duyğusal olmaqla yanaşı eyni zamanda gizli qalmağı seçirlər məcburən. İçlərində çağlayan seldən təkcə özləri xəbərdar olurlar. Çünki cəmiyyətin və hətta ən yaxın bildiklərinin belə onları anlaya bilməyəcəyi qənaətinə gəlirlər. Bu da öz növbəsində mənəvi sarsıntılarına başqa bir təkan verir. Get-gedə alova atılmış polad kimi asta-asta əriyir, tədricən bu haqsızlıqlar içində məhv olurlar. Onlar həyatı başqa gözlə seyr edirlər. Bu normal seyrdən, normal baxışdan çox fərlənir. Bu fərq danışmaqla susmaq arasındakı fərq kimidir. Primitiv görünür, amma mürəkkəbdir. Onlar daim öz dünyalarını qururlar məxsusu olduqları ideologiyalarında. Orda istədikləri kimi yaşayırlar, ailə qururlar, övlad sahibi olurlar və s. bu kimi arzularla təchiz edirlər öz daxili dünyalarını. Bütün bunlar əslində dövrdən dövrə qadına qarşı düzgün yanaşılmamasının nəticəsində meydana gəlir. Belə halların əksəriyyətində kənar təsirlərin müəyyən qədər rolu vardır. Təhminə isə heç də həmin kənar təsirlər qarşısında boyun əymir. Bəlkə də həmin təsirlər bir baxıma ona güc verir. O, bütün ətrafındakı insanların qəbul etmədiyi, hətta edə bilməyəcəkləri üçün paxıllığını belə çəkəcəyi addımlar ataraq, özünəməxsus etirazını qəbul etdirir və etirazını, haqsız yanaşmalara qarşı bu özünəməxsus inqilabını davam etdirməyə də güc tapır. Ətrafındakı insanların düşüncəsində etinasız kimi gözə çarpan, arxasından sözlər qoşulan, dedi-qodular söylənən, etmədikləri belə etmiş kimi səsləndirilən Təhminə, bütün bunlardan çox yaxşı xəbərdardır və hətta təngə gəlmişdir. İstər iş yerində, istərsə də olduğu digər mühitlərdə bütün diqqətlər onun üzərindədir. Bu diqqətlər onu müxtəlif zamanlarda çox sıxır. Buna baxmayaraq Təhminə obrazı ümumi nəzərdən baxanda çox səbrlidir. Qarşılaşdığı olumsuz hadisələrdən, gördüyü yalnışlıqlardan, saxtalıqlardan nə qədər təsirlənmiş olsa da, etirazlarını içində saxlamağa müvəffəq ola bilir. Əsərdə bir baxıma qayğısız, düşünmədən addımlar atan bir insan kimi görünən Təhminə eyni zamanda öz daxili aləmi və mənəviyyatı ilə maraq cəzb edir. Daxili aləmində gizli qalmış, yalnız müəyyən şəraitlərdə özünü göstərən Təhminə və zahirdə görünən Təhminə arasında böyük ziddiyyət mövcuddur. Üzdə görünən qədər sadə olmayan bu obraz içində böyük arzular, istəklər, sönməz bir inam, xoşbəxt ailə ümidinə sahibdir.

Əsərdə yazıçının canlandırdığı bir səhnədə sahil gəzintisindən qayıdarkən Təhminə Zauru Spartakgilin bağına gizlincə girməyə məcbur edir. Və bağda olarkən Təhminə Zaurun əl cizgilərinə əsasən falına baxır. Bir növ reallıqdan kənara çıxan bir səhnə də olsa, baxdığı falın nəticəsində Təhminənin dilindən çıxan kəlmələrlə əsərin sonrakı inkişafının müəyyən qədər uyğunlaşdığının və Təhminənin dediklərinin nisbətən reallaşdığının şahidi oluruq. Normal düşüncə qabiliyyətinə malik, utopik fikirlərdən uzaq olan hər bir insan fal vasitəsi ilə gələcəyi görməyin və ya gələcəkdən danışmağın real bir yanaşma olmadığını təbii ki dərk edir. Amma bunu təkcə falla deyil, Təhminənin həssaslığı ilə əlaqələndirsək, başqa bir nəticəyə gələ bilərik. Bəlkə də Təhminə heç "fal baxma qabiliyyətinə" məxsus biri deyildi və

bəlkə də fal adı altında Zaura dediyi bu sözlər əslində sadəcə özünün düşüncələri idi və bunları Zaura deməyin ən münasib yolunu fala baxaraq deməkdə gördü. Elə həmin görüş sonrası Təhminə Zauru uzun müddət axtarmadı. Ta ki Zaurun ad gününəcən. Zaura zəng edən Təhminə aralarındakı uzaqlığı və müəyyən müddətdir ki görüşmədiklərini, danışmadıqlarını yaddan çıxarmış kimi danışırdı telefonda. Niyə belə idi? Doğrudanmı Zaura həddən artıq uzun gələn bu ayrılıq Təhminəyə elə də uzun gəlmirdi? Bəlkə onun üçün heç bunun fərqi də yox idi?

Yox, Təhminə hadisələrin belə inkişafının fərqindəydi və hardasa özü seçmişdi bunu, özünün bildiyi səbəblərə söykənərək. Amma bu o demək deyildi ki, o həyatındakı insanlara, hadisələrə dırnaqarası, səhlənkar yanaşır. Təhminə həmin gün Zaura zəng etdi, sabahkı gün isə televiziyadakı öz çıxışında cəsarətlə onu təbrik etdi. Deməli, o heç də diqqətsiz biri deyildi.

Bizim özümüzün necə olmağımızdan, nələrə üstünlük verməyimizdən və ya nələri qətiyyətlə pisləməyimizdən asılı olmur tanıdığımız insanların xüsusiyyətləri. Təkcə bizim prizmamızda deyil həyat və biz sadəcə bu həyatın bir hissəsiyik. Bəzən aza qane olmağımız lazım gələndə çoxu istəyirik, bəzən də gərəksiz yerə aza qane oluruq... Ətrafımızdakı insanlar həmişə bizim düşündüyümüz kimi düşünmək məcburiyyətində, bizim görmək istədiyimiz kimi olmaq məcburiyyətində deyillər. Əksinə, biz onları olduqları kimi qəbul etməli, təbiiliklərini dərk etməliyik. Bununla razılaşmayan insan ilk növbədə bu suala cavab tapmalıdı. Mən özüm dəyər verdiyim insanların görmək istədiyi kimiyəmmi?

Görəsən Zaur və Zaurun ətrafında Təhminəni pisləyənlər bu suala cavab tapa biliblərmi?

Moskva sərgüzəştlərində Zaura Pirşağıdakı bağlarından danışaraq uşaqlıq xatirələrini bir-bir yada salan, hətta neftçilərin istirahət evindən sədaları eşidilən tanqonun, "onun aləmində" unudulmayacaq cümlələrini indi də eşidərkən kövrəldiyini deyən Təhminənin əslində saf və tez incinən bir ürəyi olduğunu görmək elə də çətin deyil. "Uşaqlığından danışırdı ən çox. Pirşağıdakı bağlarından, yayın son günlərindən, çimərlikdə düzülmüş əlvan pioner dəstələrindən, bazar günləri həmişə saat ikidə verilən muğamat konsertlərindən-aram melodiya dənizin, qızmar sahilin, odlu qumların üstündən tüstü kimi uçub gedirdi. Neftçilərin istirahət evindən eşidilən musiqi səslərinə qulaq verərdi. İstirahət evində Təhminədən on-on iki yaş böyük oğlanlar və qızlar rəqs edərdilər, onların aləmi özgə bir aləm idi, musiqi, tanqolar, aylı gecələrdə sahil gəzintiləri, görüşlər və ayrılıqlar, sevgi və şirin ağrılar vardı bu aləmdə. Təhminə sevinirdi ki, bu aləm onunçün hələ irəlidədir... Uşaqlığından əbədi tərk olunmuş diyar kimi danışırdı, elə bil, didərgin, itkin düşmüşdü o diyardan..."(1.səh.196) Bu sətirlərlə, təkcə Təhminənin deyil, keçmişdən gələcəyə doğru addımlayan cəmiyyətimizin bu günündə yaşayan Təhminə kimilərin, hər hansı kənar təsirlərə məruz qalaraq özlərinə yer tapa bilməyən və ya olduqları yerdə özlərini tapa bilməyənlərin acınacaqlı yaşantıları, xatirələrə söykənən daxili yaşantıları üzə çıxmış olur.

Bu xatirələr Təhminənin içindədir, bir qış günəşi kimi isidir ruhunu, ilıq nəfəs kimi... Bəzənsə sazaq kimi dondurur pəmbələşmiş simasını, təbəssümlü dodaqlarını. Eyni xatirələr, eyni düşüncələrdi cərəyan edən. Amma necə də fərqlidi təsiri. Qaranlıqla işıq kimi...

Bir neçə dəqiqənin, kiçik zaman diliminin dəyişməsi ilə dəyişən bu hisslər, əslində insanın daxilində, düşüncə və xatirələrində cərəyan edən proseslərin həmin insanın özünə belə sirr qalması mənasına gəlir bir növ.

Eyni xatirələrin soyuqluğu və ilıqlığı... eyni insanların, eyni düşüncələrin və bütün eyniliklərin əslində nisbi olduğu anlamını vermirmi?

Təhminə anasının ölümünə ən son ana qədər inanmayan, onun nə vaxtsa əlində sarı güllərlə ağappaq libasda gəlib çıxacağına inanan bir qız olub. Və bu ümidini ən son ana qədər (anasının qəbrini görənəcən) yaşada bilib. Və o ətrafındakı insanların hansına nə qədər dəyər verəcəyini bilirdi, ya da bunu tam olaraq bilməsə də, ən azından buna cəhd edirdi öz aləmində və hardasa ona dəyər verənlərlə verməyənlər arasında fərq qoyurdu birmənalı olaraq.

Bizə qayğı göstərən insanlara, bizə diqqətini əsirgəməyənlərə qarşı uzaq, bizə ehtiyacı olmayan, varlığımızın onun üçün elə də çox fərqi olmayanlara qarşı isə o qədər yaxın oluruq ki bəzən, özümüz də bu ədalətsiz yanaşmanın içində itib gedirik hiss etmədən. Yaşadığımız itkilərin səbəblərindən biri də bu tip yanaşmadı elə və itkilərin böyük və ya kiçikliyi onlara verdiyimiz dəyərin miqdarına bərabərdir bir az da.

Saysız yarpağı olan ağacdan yerə düşən bir yarpaq, ya dünyadan köçən insan... Nə dəyişdi?

Görəsən bir yarpaqla ağac nə itirdi? Ya da bir insanla dünya nə itirdi? Ağac yenidən gül açacaq, yenidən yarpaqlarla əhatələnəcək və yenidən canlanacaq. Dünya var olduqca yeni- yeni insanlara qucaq açacaq fasiləsiz. Amma indi həmin yarpağın və ya həmin insanın prizmasından baxaq. Yarpaq da, insan da sahibi olduğu hər şeyi itirdi. Bir daha təkrarlanmayacaq varlıqlarını.

Elə bəlkə ağac da fəsil dəyişkənliyi ilə yarpaqsız qalanda hiss edəcək təkliyini, çılpaqlığını, üşüdüyünü. Elə bəlkə nə vaxtsa dünya da...

Bir digər misalda əsərin lap əvvəlində, birinci fəslində, Zaurun uzaq Afrikada, Seneqalin Dakar şəhərindəki otel otağında gördüyü yuxu və müəllif tərəfindən canlandırılmış həmin yuxunun təsvirini (həmin təsvirlə əslində nə demək istədiyinə toxunmadan) izah etmək istərdim. "Zaur hələ də yuxu içində idi, yuxu içində fikir eləyirdi: hardan gəlib çıxdı bu qoxu bura, Dakara, otelin 17-ci mərtəbəsinə? Bu iyin nə iy olduğunu bu qoxunun kimin qoxusu olduğunu bilirdi axı...hələ də yuxudaydı, amma bu qoxudan-Təhminənin qoxusundan başqa-müxtəlif fransız ətirlərinin qarışığından yaranan bu təkrarsız qoxudan başqa- heç bir şey duymurdu. Yuxuda düşünürdü ki, axı bu yuxudur, gərək oyanam, gərək cəhd eləyəm oyanmaqçün, gərək əlimi uzadıb gecə çırağını yandıram. Əlini uzadırdı gecə çırağını yandırırdı, amma çıraq yanmırdı və Zaur başa düşürdü ki, hələ də yuxudadır, yuxuda uzadıb əlini çırağa, əslində isə heç uzatmayıb da, yuxuda yandırıb çırağı, əslində heç yandırmayıb da, yuxuda ayılıb yuxudan, əslində heç ayılmayıb da..."(1.səh.147) Göründüuyu kimi Zaur qeyri-real şəkildə Təhminənin ətrini duyur və hətta onun bu qədər yolu necə gəlməsinəcən düşünür, yuxusunda təhlil edir. Müəllifə görə o əslində bunun yuxu olduğunu şüuraltı şəkildə başa düşür, amma yalnız uzun cəhdlərdən sonra oyana bilir. Deməli insan şüuru açıq və bilinən şəkildə fəaliyyətdən başqa, həm də əslində gizli fəaliyyətdədir və bizim tamlığını bilmədiyimiz məlumatlar, obyektlər, qeyri-ixtiyari istəklər orda öz əksini tapır, canlanır, yaşayır və yalnızca biz həmin məfhumların yanımızda olmadığını hiss etdikdə çox əvvəllərdən bəri içimizdə bir yerlərdə olanların var olmuş olduqlarını

və artıq yerlərinin boş qaldığını dərk edə bilirik. Bəzənsə bunların keçici olduğunu düşünürük. Amma nəticədə insan bir düşüncəsi ilə yaxınlaşa bildiyi həqiqətlərdən, eyni zamanda, bir düşüncəsi ilə uzaqlaşa bilər anlamı ortaya çıxır.

Doğrudur, Zaur heç də həmin dövrlərdə (Təhminə yanında olarkən) bu hisslərə qarşı laqeyd deyildi. Sadəcə içindəki qorxu və tərəddüdlər, bir yandan da özünəsevgi idi onu laqeyd göstərən.

Zaur özü də düşünürdü bunu: Təhminəyə yönələn mənfi fikirlər, istər anasının, istərsə də ətrafdakı digər insanların onun ünvanına sərf etdiyi sözlər, Təhminənin həyatına daim başqalarını calayan dedi-qodular... Bütün bunlar Zauru ancaq Təhminədən uzaqda olarkən narahat edirdi. Daha çox onda zəif olurdu bu fikirlər qarşısında...

Deməli, Zaur güclü görünən, amma həqiqətdə daxilən həmin güclülükdən bir o qədər uzaq olan bir insan idi. İkinci ehtimal, ya da Təhminə onun üçün sadəcə yaxınında olarkən var idi (nə qədər dürüst görünsə də Zaur).

Bəzən düşüncələrimizlə getdiyimiz dərin yollar, nəinki bizə kömək etmir, həm də əslində lüzumsuz yerə yaratmış olduğumuz şübhələrlə birgə əlimizdə olanlara qarşı, yanımızda olanlara qarşı və eyni zamanda yanımızda olanlarda özümüzə qarşı güvənsizlik yaradır.

Başqa bir misalda isə Zaurun yuxudan əvvəl Firəngiz barədə düşüncələrini qələmə alan müəllifin yazdıqlarına toxunmaq istəyirəm.

-"Zaur fikrində həmişə Firəngizi çox bahalı şüşədən cilalanmış şəffaf güldana bənzədirdi. Ağla sığışdırmaq olmurdu ki, belə bir güldan xoruldaya bilər, qışqıra bilər və bir də Zaurda belə bir təsəvvür vardı ki, qəfildən bu güldana toxunmaq, onu salıb sındırmaq olar... Özündən altı yaş kiçik olan bu qıza, onun arvadı olmuş Firəngizə münasibətində dolaşıq bir duyğu kələfi vardı-həm nəvaziş, həm qayğı, həm də qalın bir pərdə..." (1. səh.146)

Bu fikirlə və əsərdə yazılan, burda yazmadığım bundan sonrakı fikirlərlə məlum olur ki, Zaurun həyat yoldaşı olan Firəngizə çox böyük hörməti, bundan əlavə isə onun tərbiyəsinə, arına rəğbəti var. Bütün bunları yazan müəllif onlar arasında azacıq da olsa münasibət pərdəsi olduğunu yazmağı da unutmayıb. Deməli, Zaur yaxınında olan Firəngizə uzaq, uzağında olan Təhminəyə isə daha yaxındır. Bunun səbəbi Firəngizin durğun və passivliyi, ya da bəlkə Zaurun yaddaşına həkk olunan Təhminəyə məxsus hiperaktivliyi ola bilər. Görünən odur ki, Zaur ya yenilik axtarır ya da indiki həyatını anlaya bilmirdi. Deməli, Zaurdakı bu xüsusiyyətə yanaşdığımız kimi ümumi insan yaşantılarına yanaşaraq, insanların daim maraq axtarması, əslində ahıl yaşlarınacan, hətta bəzən yaş öz sözünü deyəndən sonra belə həvəslə yeni nələrləsə qarşılaşmağa olan meylləri izaholunmaz və bir o qədər də qəliz, həm də tam təbii duyğudur deyə bilərik. Zaurun müəyyən amillərin təsiri ilə formalaşan şəxsiyyəti şüurlu surətdə anlayır ki, Təhminə fikrini başından atmağı lazımdır, amma nəticə heç də həmişə planlaşdırılan kimi olmur. Elə bunun nəticəsi kimi bu ona təsirsiz ötüşmür və Zaur bu kimi problemlərlə tez-tez qarşılaşır.Həmin epizod vasitəsilə yazıçı dolayı yolla "yaxınımızdakı uzaqlar, uzağımızdakı yaxınlar" ifadəsinin psixoloji mahiyyətini açmış olur. Haqqında danışılan ifadə, Təhminə obrazında və ümumi Təhminə-Zaur münasibətində, onların timsalında isə ümumi qarşılıqlı insani münasibətlərdə, insanların özləri üçün gizli dəyərə mənsub obyektlərin varlığına və dadına öyrəşdiyi, yaxınında

olarkən dəyərini hiss etmədiyi və ya hiss etməyə cəhd etmək üçün gecikdiyi mənasına söykənən mücərrəd, amma başqa aspektdən düşünəndə isə, bir o qədər reallığa uyğun, həqiqətləri özündə əks etdirən hadisə kimi qavranıla bilər.

Yaşadığımız həyatın hər anı, qarşılaşdığımız hər hadisə, təsadüflər, zərurətlər əslində bizim üçün çox vaxt yalnız həmin vaxt qüvvədə qalır (xatirəmizə çevriləcək qədər iz buraxanlar xaric), amma bütün bunların elə "biz"i təşkil etdiyini başa düşmək üçün ya onlardan ən qiymətlilərini itirməli, ya da geriyə dönüb baxanda nələri qazanma imkanımızın olub da, diqqətsiz yanaşmaqla bu imkanımızdan məhrum olduğumuzu görməliyik. Təəssüf ki, günümüzün ən qlobal problemlərindən biridir bu. Çox vaxt biz özümüz istəklərimizi yönləndirə, bizə məxsus olanları layiqincə dəyərləndirə bilmirik və buna təkcə ətrafdakı nələrsə və mühit yox, bəzən də "öz"ümüz mane oluruq. Həmişə təhlükəni kənar insanlardan, kənar hadisələrdən gözləyən insan ən böyük təhlükənin öz içində gizlənən qaranlıqdan, özünün bilmədiyi xüsusiyyətlərindən də gələ biləcəyini başa düşməlidi.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

Anar. "Seçilmiş əsərləri"; Bakı-2004, səh.143-322.

Гюльнар Кулиева

Психологический обзор характера
(основанный на романе "Шестом этаже трехэтажного дома")
Резюме

Произведенье Анара "Шестом этаже пятиэтажного дома", их центральные персонажы-Тахмина и Заур, были предметом спора с момента его публикации. Есть достаточное исследование о романе и о его героях. В каждом из них можно увидеть разный подход к характерам . В данной работе с посредством етих героев говарится об влияние эмоциях к человеческому поведению которое не управляеться умом.

Gulnar Guliyeva

Psychological approach to character
("The sixth floor of the five-storey house" based on the novel)
Summary

The central characters of the novel ,"The sixth floor of the five-storey house", Tahmina and Zaur have been the subject of controversy since the publication of the novel. There are many interesting approaches, researches dedicated to this novel and its main characters. In each of them we can see different approach to the characters. In this article by means of these two characters the author speaks about the influence of unintentional emotions to the human activities.

Rəyçi: Minaxanım Nuriyeva (Təkləli)
filologiya elmləri doktoru, professor

CƏMİLƏ NƏSİBOVA
Odlar Yurdu Universiteti
e-mail: camila_nasibova@box.az

OSKAR UAYILDIN XIX ƏSR İNGİLTƏRƏ ƏDƏBİYYATINDA NÜMAYƏNDƏSİ OLDUĞU ƏDƏBİ CƏRƏYANIN NƏZƏRİYYƏSİ İLƏ YARADICILIĞI ARASINDAKI ZIDDİYYƏT

Açar sözlər: XIX əsr ingilis ədəbiyyatı, ədəbi cərəyanlar, Oskar Uayıldın ədəbiyyatda mövqeyi

Key words: English literature in the XIX century, literary trends, the position of Oscar Wilde in the literature

Ключевые слова: XIX век – английская литература, литературные течения, роль Оскара Уайылда в литературе.

XIX əsrdə İngiltərənin təkcə tarixində deyil, eləcə də ədəbiyyatı, rəssamlığı, memarlığı, musiqisində – bir sözlə, incəsənət dünyasında dəyişikliklər baş vermişdi. Bu dəyişikliklər özünü ədəbiyyatda daha aydın göstərirdi.

Bəzən bu dövr İngiltərə tarixində "the turn of the century" – "əsrin çevrilişi, dəyişikliyi" də adlanır. Məhz bu dönəmdə insanlar, təhsil səviyyəsinin yaxşılaşması, kapitalizmin sürətli inkişafı, koloniya müharibələri, ölkələr arasında gedən iqtisadi və siyasi rəqabət, eyni zamanda işsizlik kimi hadisələrə şahid olmuşlar. Bütün bunların nəticəsidir ki, bu dövrdə yazılan kreativ əsərlərdə bu hadisələrin təsiri açıq şəkildə duyulur və elə yaranan əsərlərdə də bu hadisələr ya dolayısı, ya da birbaşa təsvir edilir.

Dövrün yazarları hadisələrə fərqli mövqedən yanaşırdılar. Bəziləri reallığın hüdudlarından çıxmır, yaradıcılığında romantizmə yer vermir, digərləri isə ədəbiyyata tamamilə əks aspektdən yanaşırdılar. Onlardan bəziləri fəlsəfi ideyalardan bəhrələnir, bəziləri isə öz ideyalarına əsaslanırdılar.

Nümunə üçün bir neçə misal göstərək: dövrün aparıcı yazarlarından biri olan Ridyard Kiplinq "right of the strong" – "güclünün haqqı" fəlsəfəsinə əsaslanırdı. Digər görkəmli bir yazar olan Tomas Hardinin əsərlərində isə hər an insanları izləyən, onları xoşbəxtlik uğrunda apardıqları mübarizədə gücsüz edən bir qüvvə - alın yazısı və onu dəyişməyin mümkünsüzlüyü öz ifadəsini tapmışdır. Robert Luis Stivenson və Cozef Konrad isə öz əsərlərində insanları gündəlik həyatın eybəcərliklərindən qaçmağa çağırır və romantik macəra dünyasına dəvət edirdilər.

XIX əsrdə İngiltərə ədəbiyyatında yeni ədəbi cərəyanlar meydana gəlməyə başladı. Naturalizm, simvolizm kimi cərəyanları bunlara misal göstərmək olar. Naturalistlər mühüm sayılmayan, tipik olmayan faktları vacib və real həyatı əks etdirən şəkildə qələmə alırdılar. Onlar bəzən hətta hökumət qanunlarını da təbii qanunlar adlandıraraq etibarlı və möhkəm quruluşlu cəmiyyətin təsvirlərini yaradırdılar, bu isə təbii ki, hər kəs tərəfindən birmənalı şəkildə qəbul olunmurdu.

Bu dövrdə yaranan cərəyanlardan biri də ədəbi-estetik cərəyan və ya simvolizm idi. Bu cərəyan XIX əsrin sonlarında Fransada meydana gəlmişdir. Əsas məqsədi burjua eybəcərliklərinə, riyakarlığa, dayaz düşüncə tərzinə qarşı mübarizə

aparmaq idi. Simvolistlər reallığı simvollar və xüsusi mətnaltı məna daşıyan sözlər vasitəsilə təsvir edirdilər. Onlar burjua cəmiyyətinin eybəcərliklərini, mənfiliklərini görür və həyatın həqiqi təsvirlərini yaradırdılar.

Bununla belə, onlar bu eybəcərliklərə necə son qoymağın yolunu bilmirdilər, sadəcə onları kütləyə çatdırmağa çalışırdılar. Çıxış yolunu isə cansıxıcı və qəddar reallıq əvəzinə süni gözəllik dünyasına üz tutmaqda görürdülər. Simvolistlər bütün sosial və mənəvi məhdudiyyətləri rədd edir, bildirirdilər ki, hər kəs özünün şəxsi xoşbəxtliyi və həyatdan zövq alması uğrunda mübarizə aparmalıdır. Onlar gözəlliyə etiqad edirdilər və onu doğrunun və yanlışın ölçüsü kimi qəbul edirdilər. Belə qəbul edirdilər ki, gözəl yaradılmış, gözəl görünən hər bir şey doğru, çirkin görünənlər isə yanlışlardır.

Təbii ki, yaradılmış varlıqlara bu prinsiplə yanaşmaq doğru deyil. Lakin bu fikrin özündə də bir həqiqət gizlənir. Əgər estetiklər bu fikri yalnız fiziki varlıqlara deyil, daha çox mənəvi keyfiyyətlərə aid etsəydilər onların görüşlərini qeyd-şərtsiz qəbul etmək olardı. Yəni, etdiyimiz əməllərdə, mənəvi keyfiyyətlərimizdə gözəllik axtarmaq daha düzgün olardı, çünki xarici gözəllik əbədi deyil və bu o demək deyil ki, bir kəsi gözəl olarkən qəbul edib, gözəlliyini itirdiyi zaman uzaqlaşdırmalıyıq. Estetiklərin yanlış yanaşma tərzi də elə bunda idi.

Bu cərəyanın tərəfdarlarına görə "art for art`s sake" – "sənət sənət üçün" ideyası aparıcı yer tuturdu. Bu ideyanın mahiyyəti ondan ibarət idi ki, onlar yaratdıqları əsərlərdə sənətin bütün qaydalarına ciddi əməl etməyə çalışırdılar. Məsələn, yazılan hər hansı bir şeirdə qafiyələrin tam uyğun gəlməsinə, sətirlərdə hecaların sayının uyğun olmasına, bir sözlə, zahiri görünüşə mənadan daha çox diqqət edilirdi. Bu o demək deyil ki, onların yaratdığı əsərlər mənasız idi, bu heç də belə deyildi, sadəcə olaraq onlar sənətin qayda-qanunlarına çox ciddi şəkildə əməl edirdilər. Yaradılan hər hansı bir əsərdə zahiri gözəllik olmasa estetiklər onu gözəl bir əsər kimi qəbul etmirdilər. Onların fikrincə, əsər o zaman mükəmməl olur ki, o həm mənalı, həm də tam qaydalara uyğun yazılsın.

Əslində bu fikirdə onlarla razılaşmaq olar. Amma bəzən onlar incəsənəti tamamilə həyatdan təcrid edirdilər. Onlar belə bir səhv qənaətə gəlmişdilər ki, incəsənət reallığı əks etdirməli deyil, o yalnız zövq verməyə xidmət etməlidir. Onların fikrincə, yaradılmış hər hansı bir əsərdən oxucu ilk olaraq zövq almalıdır. Əsər oxucuya mənəvi keyfiyyətlər aşılamasa belə, onun əsas prinsipi zövqləri oxşamaq olmalıdır. Təbii ki, gözəl mənəvi keyfiyyətlər aşılayarsa, o əsər daha uğurlu hesab edilər, amma estetiklər əsas diqqəti yenə də insanların alacağı zövqə yönəldirdilər. Əsəri oxuyan insanda daxilən müsbət bir dəyişiklik olub-olmaması vacib deyil, əsas odur ki, oxuyarkən o, oxucuya zövq verə bilsin. Bu, estetiklərin yanaşma tərzi idi. Onların düşüncəsinə görə incəsənət həyatdan ayrı, tamam fərqli idi. Həyat, sadəcə, incəsənətin təzahürlərini əks etdirirdi.

Bu cərəyanın ən məşhur nümayəndələrindən biri Oskar Uayıld idi.

Oskar Uayıld 1856-cı ildə məşhur irland ailəsində dünyaya gəlmişdir. O, orta məktəbi əla göstəricilərlə bitərərək Oksford universitetində ali təhsil almışdır. Orada da ədəbiyyata olan marağı hər kəsin diqqətini cəlb etmiş, müəllimləri onu dahi adlandırmışlar. Universiteti uğurla bitirən O.Uayıld sonra Amerikaya getmiş, orada incəsənət haqqında biliklər əldə etmişdir.

1881-ci ildə "Poems" – "Şeirlər", 1888-ci ildə "The Happy Prince and Other Tales" – "Xoşbəxt Şəhzadə və Digər Nağıllar" silsilə nağılları dərc olunsa da Oskar Uayıld dramaturq kimi şöhrət qazanmışdır. "A Woman of No Importance" – "Dəyərsiz Qadın", "An Ideal Husband" – "İdeal Ər", "The Importance of Being Earnest" – "Ernest Olmağın Mühümlüyü" adlı komediyaları müasir teatr həvəskarları üçün bu gün də maraq doğurur. Bu əsərlərdə həyatın eybəcərlikləri elə gülüş doğurucu şəkildə və ağıllıca təqdim olunur ki, oxucu həqiqətən də onlardan zövq alır. Məhz Oskar Uayıldın nümayəndəsi olduğu cərəyan da bunu tələb edirdi. Lakin Oskar Uayıldın bəzi əsərlərində biz bunu görə bilmirik, yəni onun fikirlərilə cərəyanın prinsipləri arasında tam bir uyumsuzluğun, ziddiyətin yarandığını görürük. Bu ziddiyəti açıq şəkildə əks etdirən işi isə "The Picture of Dorian Gray" – "Dorian Qreyin Rəsmi" əsəridir.

"The Picture of Dorian Gray" – "Dorian Qreyin Rəsmi" əsəri Oskar Uayıldın nəzəriyyəsi ilə onun ədəbi yaradıcılığı arasındakı ziddiyəti üzə çıxarır. Bu əsər göstərir ki, insanın əsas məqsədi, amalı zövq axtarmaq olmamalıdır. Insan hər şeyi zövqünə, istəyinə qurban verə bilməz. Yaxşı insan olmaq gözəl görünüşlü olmaqdan daha vacibdir.

Baxmayaraq ki, əsərin əvvəlində Oskar Uayıld incəsənətin faydasız olduğunu göstərir, əsər özü bütövlükdə bu fikri tamamilə inkar edir. "Dorian Qreyin Rəsmi" psixoloji bir əsərdir. Burada günahsız və təcrübəsiz bir insanın yaxşıdan pisə doğru dəyişilməsi, daxili tənəzzülü əks etdirilib.

Əsər incəsənətin və reallığın problemləri əsasında qurulub və hadisələr incəsənət və reallıq vəhdətində cərəyan edir. Hadisələr üç əsas xarakter üzərində cəmlənib: gənc və alicənab cavan Dorian Qrey, onun dostu, rəssam Bezl Holvod və riyakar Lord Henri incəsənət və reallıq, gözəllik və mənəviyyatla bağlı problemləri müzakirə edirlər. Bezl Holvod üçün gözəllik yaradıcı işlə məşğul olmaq üçün ilham mənbəyidir. Çəkmiş olduğu Dorian Qreyin portreti onun şah əsəridir. Şəkili görərək Dorian deyir: " Mən qocalıb qorxunc, dəhşətli hala düşəcəyəm, amma bu şəkil həmişə cavan qalacaq. Kaş bir çıxış yolu olaydı! Mən öz ruhumu, canımı bunun əvəzində verməyə hazıram. Gənclik insanın saxlaması gərəkən yeganə dəyərli məhfumdur."

Dorianın arzusu həyata keçir. İllər ötür, onun siması isə gənc və gözəl qalır, lakin şəkil dəyişməyə başlayır. Dorianın şəkli, əslində, elə onun ruhunun, qəlbinin əks olunduğu bir lövhədir. Şəkil onun daxilən necə dəyişdiyini, necə bir adama çevrildiyini göstərir. Dorian yalnız zövq üçün yaşayır, o, mənəviyyatsız həyat keçirir. Lord Henrinin təsiri altında o, laqeyd və qəddar bir məxluqa çevrilir, dəhşətli cinayətlər törədir.

Portret isə riyakar, yaşlı və korlanmış bir insanı əks etdirir. Dorian şəkli gizli saxlayır, onu kimsənin görməsini istəmir. Əslində, burada yazıçı şəkli simvolik olaraq göstərmişdir. Dorianın gizlətdiyi elə onun öz qəlbi, öz ruhu idi. O, əsl riyakara çevrilmiş qəlbini hər kəsdən gizlədirdi, öz gözəl simasıyla insanları günahsız olduğuna inandırırdı. Gizlətmiş olduğu portretə hər gün baxır, orada əsl simasıyla qarşılaşdığı üçün acıqlanırdı. Bu portret əsərdə Dorianı öz əməllərilə üzləşdirən yeganə vasitə idi və Dorian ondan canını qurtarmaq qərarına gəlir. O, şəkli bıçaqla parça-parça edir və bıçağı şəklin ürəyinə saplayır. Bu, onun son

cinayəti olur. Dorian ürəyinə bıçaq saplanmış halda döşəməyə yıxılır. Divarda isə çox məsum və gözəl bir simanı əks etdirən portret öz yerini tutur.

Bununla yazıçı göstərmək istəyirdi ki, əslində, Dorian şəkli parçalamaqla özünü məhv etmiş oldu. Çünki, həyatda olan deyil, məhz şəkildə olan dəyişmiş Dorian onun əsl siması idi. Məhz bu fikirlər Oskar Uayıldın nümayəndəsi olduğu cərəyanın nəzəriyyəsi ilə yaradıcılığı arasındakı ziddiyəti aydın şəkildə üzə çıxarır. Gözəlliyi həmişə doğru kimi qəbul edən, gözəlliyin yalnız gözəl işlərə səbəb olduğunu göstərən Uayıld bu əsərində tamamilə əks fikirlər nümayiş etdirib. Burada Dorianın gözəl siması onun daxili məhvinə, cinayətlərinə və sonda isə özününməhvə səbəb olur. Buradan belə nəticəyə gəlmək olar ki, Oskar Uayıld estetik nəzəriyyənin heç də həmişə doğru olmadığı qərarına gəlmiş və onu öz əsərində çox məharətlə oxucularının diqqətinə çatdırmışdır.

Ədəbiyyat

1. Ousby Ian. Literature in English. Cambridge University Press, 1996
2. Hecker M. English Literature. Moscow, 1971
3. Hecker M. American Literature. Moscow, 1978
4. Abeltina R. English and American Literature. Riga, 1976.
5. Dyakonova M.Y. An Anthology of the English Literature. XIX century. Leningrad, 1978
6. Sanders Andrew. The Short Oxford History of English Literature. 2nd edition. London, 1999

J. M. Nasibova

The contradiction between the theory of the trend which Oscar Wilde belonged to in the XIX century of English Literature and his literary work

Summary

This article deals with English Literature in the XIX century, literary trends, their theories, and Oscar Wilde's literary work , the contradiction between his theory and his literary work. According to his theory, beauty is the source of all good things, beautiful creatures. Beauty always creates beauty.

However, it is, of course, not true. Sometimes evils can be hidden behind beauty. During his literary work Oscar Wilde understands that he was not right and expresses it in his novel "The Picture of Dorian Gray".

Д.М.Насибова

Противоречия Оскара Уайылда между творчеством и теорией
в английской литературе XIX века

Резюме

В этой статье говорится о течениях в английской литературе XIX века и творчестве Оскара Уайылда, о противоречиях между творчеством и теорией. По его теории красота исток всего прекрасного. Красота всегда создаёт красоту. Несмотря на это, это не так.

Иногда за прекрасным может скрыться зло. За всё время своего творчества Оскар Уайылд понимает, что он был не прав. И это отразил в своём произведении «Портрет Дориана Грея».

Rəyçi: b.N.Məmmədova

AYGÜL MEHRALİYEVA
Odlar Yurdu Universiteti
e-mail: aygul.mehraliyeva@live.com

ŞARLOTTE BRONTENIN "CEYN EYER" ƏSƏRİNDƏ MƏCAZİ MƏNALI SÖZLƏRİN TƏHLİLİ

Açar sözlər: başlıq, təqdimat, janr, məcazi mənalı sözlər,simvol
Keyword: title, inroduction, genre, lexical stylistic devices,symbolism,
Ключевые слова: заглавие, презентация, жанр, переносные значения слов, символ

Ceyn Eyer adlı bir qadının həyatından bəhs edən bu romana Şarlotte Bronte "Ceyn Eyer" adı vermişdir.Başlıq iki hissədən ibarətdir:Ceyn və Eyer.Ceyn bəsit bir ad olaraq bizi düşünməyə vadar edir .Nədən ilham alaraq yazıçı əsər qəhrəmanına bu adı verib? Çünki Ceyn adı dövrlə səsləşən zərif bir ad olmamaqla yanaşı,hər gün eşidə biləcəyimiz sadə bir addır.Lakin əsərin gedişindən gördüyümüz kimi,Ceyn həyatda çox şeylər etmək istəyən bir fərd kimi və ya ən azından həyatdan istədiklərini tələb edən bir obraz kimi məsələni arxa plana qoyur.Digər tərəfdən başlığın ikinci hissəsi Eyer bizim heç bir yerdə eşidə bilməyəcəyimiz, bəzən fövqəltəbii qüvvələri xatırladan bir addır.Eyer ingilis dilində "air" sözü kimi tələffüz edildiyindən ola bilsin ki,yazıçı Ceyni Cənab Roçesterə nəfəs verən bir obraz kimi təsəvvür etmək istəyib.

Əsərdə obrazların hiss-həyəcanları və həyatda qazandıqları təcrübələri qeyd edilməklə yanaşı,əsas qəhrəman Ceynin böyüyüb yetkinlik yaşına çatması,Cənab Roçester adlanan qürurlu,şıltaq,bəzən insanları xor görən, qəlbi səfalət içində olan,qisas alarkən rəhmsiz bir insan kimi təsvir olunan, lakin hələ də insanlar üzərində güclü və dərin təsiri olan,Bayron obrazlarını xatırladan,Sornfild malikanəsinin sahibinə olan sadiq sevgisindən bəhs olunur.Romanda bütün hadisələr baş verərkən Ceynin mənəvi və əxlaqi keyfiyyətlərinin tədricən ortalığa çıxması müşahidə olunur. Əsərdə ədəb qaydaları və onun mahiyyəti ilə yanaşı,sosial tənqidin bir sıra ünsürləri özünü göstərməkdədir.Əsəri təhlil edərkən biz həmçinin klassisizm, seksuallıq,feminizm,din kimi bir sıra məsələlərin müzakirə olunduğunu görürük.

Romanda əsərin baş qəhrəmanı Ceynin olduğu beş fərqli mühit təsvir olunur; Ceynin uşaqlığının keçdiyi və daima xalası və xalası uşaqları tərəfindən fiziki və mənəvi cəhətdən sui-istifadə edildiyi,danlandığı və təhqir olunduğu Qeytshid mühiti,təhsil aldığı,yeni insanlarla və dostları ilə tanış olduğu,zaman-zaman təzyiqlərdən və yoxsulluqdan əziyyət çəkdiyi Luvud məktəbi,mürəbiyyə kimi fəaliyyət göstərdiyi, həyatının eşqinə rast gəldiyi Roçester malikanəsi,Riverlər ailəsinin mühiti və möhkəm-əqidəli və soyuqqanlı əmisi oğlu Conun ona evlənmə təklif etməsi,onun yenidən Sornfild malikanəsinə qayıtması və Roçesterlə evlənməsi.

Ceyn Eyer romanının janrına gəldikdə isə burada 5 janrdan bəhs etmək olar: Yetim bir uşaq olan Ceynin böyüməsi və həyatda keçdiyi yollar və sonda Cənab Roçesterlə xöşbəxt ailə həyatı qurmağı romanda hadisələrin tədricən inkişafına

dəlalət verir.Digər tərəfdən Ceynin Roçesterə bağlılığı və ona sadiq sevgisi romanın dram janrı kimi tanınmasına səbəb olur.Romanda istifadə olunan vahiməli Berta obrazı romanı got janrına yaxınlaşdırır.Berta əqli cəhətdən qüsuru olan bir insan olmasına baxmayaraq,əsərdə vampirə bənzədilir.Eyni zamanda romanın Şarlotte Brontenin avtobioqrafiyası olduğunu nəzərə alsaq,bu janrın da xüsusiyyətlərini daşıdığını müşahidə edərik.

Əsəri oxuyarkən müəllifin bir sıra bədii təsvir və ifadə vasitələrindən istifadə etdiyini görürük. Müəllif varlığın gözəlliyini, insanın xarakterini, hiss və duyğuları daha gözəl ifadə etmək üçün epitet, mübaliğə ,metafora,metanimiya, ironiya,təşbeh kimi .bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir. Zəngin məna çalarlarına malik olan bu sözlər həm obrazların, həm də sənətkarın dilində bol-bol işlənmişdir.

Ümumiyyətlə,biz bilirik ki,metafora bir əşya, varlıq və hadisəyə məxsus əlamətin başqa bir əşya, varlıq və ya hadisə üzərinə köçürülməsi yolu ilə yaranır.Əsərdən bəzi nümunələrə diqqət yetirək:

"But when I saw him lift and poise the book and stand in act to hurl it,instinctively started aside wih a cry of alarm:not soon enough ,however;the volume was flung ,it hit me,and I fell,striking my head against the door and cutting it."

Cümlədə "cry of alarm" ifadəsi işlənmişdir,mənası "həyəcan siqnalının ağlaması" deməkdir.Müəllif bu ifadədə insana aid hərəkət olan "ağlamaq" felini cansız əşya olan həyəcan siqnalına köçürməklə metaforadan istifadə etmişdir.

Digər bir cümləyə diqqət yetirək:

"The kind whisper went to my heart like a dagger."

Cümlədə "kind whisper" ifadəsindən istifadə etməklə müəllif metafora işlətmişdir."Kind whisper" ifadəsinin tərcüməsi "mehriban pıçıltı" deməkdir.

Müəllifin əsərdə istifadə etdiyi məcazi mənalı sözlərdən biri də mübaliğədir.Bildiyimiz kimi,mübaliğə sözün təsirini gücləndirmək üçün birşeyin olduğundan daha çox və ya daha az göstərilməsidir.Əsərdən bir nümunəyə diqqət yetirək:

"John had not much affection for his mother and sisters,and an antipathy to me.He bullied and punished me;not two or three times in the week,nor once or twice in a day,but continually:every nerve I had feared him,and every morsel of flesh on my bones shrank when he came near."

Cümlədə "every morsel of flesh on my bones shrank when he came near" ifadəsində müəllif mübaliğədən istifadə etmişdir.Cümləni azərbaycan dilində tərcüməsi belədir:"o yaxınlaşanda sümüklərimdəki ətin hər tikəsi kiçilirdi."

Metanimiya nədir?Metanimiya bir əşyanın onunla əlaqəli olan digər bir əşya ilə əvəz olunmasıdır.Şarlotte Bronte bu bədii ifadə vasitəsindən də əsərində məharətlə istifadə etmişdir.Nümunəyə diqqət yetirək:

"Where the dickens is she?"-he continued."Lizzy!George!(calling to his sisters) John is not here:tell mamma she is run out into the rain bad animal!"

Cümlədə "dickens" sözünə diqqət yetirək.Mənası "şeytan" olan bu söz cümlədə metanimiya kimi istifadə edilmişdir.

Digər bir cümləyə diqqət yetirək:

"If all the world hated you,and believed you wicked,while your own conscience approved you,and absolved you from guilt,you would not be without friends".

"World hate you" ifadəsində müəllif dünya əhalisini nəzərdə tutaraq metanimiyadan istifade etmişdir.

Məcazın növlərindən biri olan epitet ədəbi əsərlərdə başqa bir sözü qüvvətləndirmək üçün ona əlavə edilən sifətdir.Başqa sözlə,epitet hadisələrin, şəxsin, əşyanın hər hansı bir keyfiyyətini aydınlaşdıran, təyin edən sözdür.Müəllif məcazın bu növündən də məharətlə istifadə etmişdir.Nümunəyə diqqət yetirək:

"Where the Northern Ocean,in vast whirls,Boils round the naked,melancholy isles of farthest Thule;and the Atlantic surge Pours in among the stormy Hebrides."

Cümlədə "qəmgin adalar" kimi tərcümə olunan "melancholy isles" epitetdir.

Məcazi mənalı sözlərdən biri olan sadalama da əsərdə istifadə olunmuşdur.

"Wicked and cruel boy!" I said."You are like a murderer,you are like a slave driver,you are like the Roman emperors!"

Bənzətmə əsasında yaranan təşbehdən də müəllif öz əsərində məharətlə istifadə etmişdir.Bəzi nümunələrə baxaq:

"Hold her arms,Miss Abbot:she's like a mad cat."

Cümlədə insanı pişiyə bənzətməklə müəllif təşbehdən istifadə etmişdir.

Başqa bir cümləyə nəzər yetirək:

"Miss Temple had looked down when he first began to speak to her;but she now gazed straight before her,and her face,naturally pale as marble,appeared to be assuming also the coldness and fixity of that material."

Cümlədə müəllif "mərmər kimi solğun" ifadəsini işlədərək təşbehdən istifade etmişdir.

Şarlotte Bronte bu əsərdə söz oyunu adlanan məcazdan da istifadə etmişdir.Nümunədə göstərilmişdir:

"Julia's hair curls naturally,"returned Miss Temple,still more quietly.Yes,but we are not to conform to nature.I wish these girls to be the children of Grace:and why that abundance?I have again and again intimated that I desire the hair to be arranged closely,modestly,plainly.Miss Temple passed her handkerchief over her lips,as if to smooth the involuntary smile that curled them."

Cümlədə "curl" sözü iki fərqli mənada verilmişdir.Buna görə də biz bunu söz oyunu adlanan məcaz növünə daxil edə bilərik.

Beləliklə,zəngin məna çalarlarından istifadə edərək Şarlotte Bronte varlığın gözəlliyini,insanın hiss və həyəcanlarını ustalıqla əks etdirmişdir.

Əsərdə həmçinin bir sıra simvollardan istifadə edilmişdir.Məsələn qırmızı otaq bayat sıyıq və ya buz

Qırmızı otaq-Günlərin bir günü Ceyn dayısı Ridin öldüyü imarətə-qırmızı otağa həbs olunur.Ceynin bu ürpərdici otaqdakı keçirdiyi vaxtlar,dayısının onun ruhunu izlədiyi hissi onu son dərəcə ağır bir travmaya sürükləyir.Əsərdə qırmızı otaq ana bətni kimi təsvir olunur.Bura Rid xalanın Ceyni yenidən anadan olmağa sürüklədiyi,saflığın və məsumluğun gərginlik və acı emosiyalarla görüşdüyü neybət həyat təcrübəsinə çevrilən bir yerdir.Beləliklə,qırmızı otaq qəzəb,qorxu,və narahatçılığın nəticəsi olan böyük bir travmanın simvolu olur.

Bayat sıyıq-Ceynin həyatında iki ürəkbulandırıcı və iyrənc sıyıq fiquruna rast gəlinir.Onlardan biri Ceynin Luvud məktəbində keçirdiyi vaxtlarla üst-üstə düşür.Ceyn və digər qızlara səhər yeməyində yanmış sıyıq xidmət olunur.Yemək o qədər iyrənc olur ki,heç kəs yeyə bilmir,nəticə etibariylə Xanım Tempıl bu

xoşagəlməz yeməyin əvəzində qızlara əlavə yemək təklif edir.İkinci bir sıyıq fiquru Ceynin evsiz qaldığı vaxtlarda,donuz bəsləyən bir qadın və qızcığazın Ceynə donuzun belə yeyə bilməyəcəyi bir kasa soyuq, qatılaşmış sıyığı verməsi idi.Əsində bu yoxsulluğun və tabeliliyin simvolu idi.

Buz-Əgər Franksensteinden oxumusunuzsa,belə bir statı xatırlamış olarsınız. "Odun olduğu yerdə buz da olar."Ceyn uşaq ikən Bevikin "British birds" əsərini oxuyur və orada arktika landşaftında təsvir olunan quşa böyük maraq göstərir.Ceyn sadəcə uşaqlıqda deyil,eyni zamanda yetkin yaşında belə buz və qarla örtürülmüş mənzərələrdən zövq alırdı.Bu bir daha soyuqluğun Ceynin həyatında xüsusi məna kəsb etdiyini göstərirdi.Hətta o Roçesterdən uzaqlaşmağa qərar verəndə,ona qarşı dərin duyğular bəslədiyinə baxmayaraq,özünə söz verir ki,o Roçesterə soyuq münasibət göstərəcək.Əsərdə onun soyuq münasibəti "daş" və "buz" sözləri ilə təsvir olunur.Əlbəttə ki,əsərdə ən soyuq obraz Ceyn deyil,heç bir şövqə yoluxmayacağını iddia edən Con obrazıdır.Ceynin buza olan məftunluğu onun özündən tez çıxan təbiətinin nəticəsi idi.Əsərdə o bəzən soyuq bir obraz kimi göstərilə bilər,amma həqiqətdə Ceyn ədalətsizliklə barışmayan,son dərəcə ehtiraslı bir xarakterdir.Nəticə etibariylə,o buz və donmuş hər şey tərəfindən hipnoz olunur.

Ədəbiyyat

1. Harold Bloom declared *Eyre* a "classic of Gothic and Victorian literature."

2. . Gaskell, Elizabeth (1857). The Life of Charlotte Brontë

3. *The Madwoman in the Attic* by Sandra Gilbert and Susan Gubar

4. Burt, Daniel S. (2008). The Literature 100: A Ranking of the Most Influential Novelists, Playwrights, and Poets of All Time..

5. .Brontë, Charlotte. 1847. Jane Eyre. London. Smith, Elder & Co.

6..Jerome Beaty. "St. John's Way and the Wayward Reader" in Brontë, Charlotte (2001 (Orig. 1847)).

8. Oates, Joyce Carol (1998). "Jane Eyre: An Introduction".

A.A.Mehralıyeva

Lexical stylistic devices in Charlotte Bronte's novel "Jane Eyre".

Summary

The article deals with the lexical stylistic devices in the novel "Jane Eyre".Various stylistic devices such as metaphor, metonymy, simile, hyperbola, pun, epithet were used in detail by Charlotte Bronte. She also used different interesting symbols such as ice,porridge or red room.In that novel, marriage is about a combination of three things: compatibility, passion, and ethics.And characters try to claim that marriage and love are the same thing.It somehow reflects to author's life.

А.А.Мехралиева

Лексические и стилистические приемы романа
"Джейн Эер". Шарлотта Бронте
Резюме

В статье рассматриваются лексические и стилистические приемы романа "Джейн Эер". Шарлотта Бронте использовала разные стилистические приемы, такие как метафора, метонимия, сравнение, гипербола, каламбур, эпитет.**Она** также использовала в романе разные интересные символы, такие как лед, каша или красная комната.**В** романе брак показан как комбинация из трех вещей: совместимость, страсть и этика.**Образы** пытаются утверждать, что брак и любовь одно и то же.**Это** как то отражается в жизни самого автора.

Rəyçi: b.m Ü.Nəsirova

TƏRANƏ QULİYEVA
Odlar Yurdu Universiteti
e-mail : terane90@gmail.com

TƏRCÜMƏDƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİNİN VƏ FƏRDİ MÜƏLLİF ÜSLUBUNUN QORUNMASI

Açar sözlər: bədii tərcümə, bədii ifadə vasitələri , fərdi müəllif üslubu
Keywords: literary translation, stylistic devices, the individual style of an author
Ключевые слова: литературный перевод, средствы художественного стиля, индивидуальный стиль автора

Hər hansı bir xalqın mədəniyyət, mənəviyyat və dünyagörüşünü orijinal əsərlərlə birliktə tərcümə ədəbiyyatı da əhəmiyyətli dərəcədə zənginləşdirir .Tərcümə əsəri ədəbiyyata yeni ab-hava, yeni nəfəs gətirir və həmin yaradıcılıq məhsulunun başqa xalqların milli mədəniyyəti ilə təması və əlaqələndirilməsi onun inkişafına yeni qüdrət və canlanma gətirir.Xalqlar məhz tərcümə ədəbiyyatları vasitəsilə bir-birilərinin tarixi, adət-ənənəsi,mədəniyyəti ilə tanış ola bilir, söz ustalarının ölməz əsərlərini öz doğma dillərində oxumağa imkan tapırlar.

Tərcümə, geniş mənada, insanlar arasında ünsiyyət vasitəsidir. Tərcümə həm böyük coğrafi məkanda, ölkələr və xalqlar arasında, həm də keçmişlə bu gün arasında əsas ünsiyyət vasitəsidir, gediş-gəlişi təmin edən körpüdür. Tərcümə bir yerdə və ya bir dövrdə əldə olunmuş məlumatları, elmi-texnoloji nailiyyətləri, bədii gözəllikləri başqa yerə və ya başqa dövrə daşıyan zəhmətkeşdir. Puşkin gözəl demişdir: "Tərcüməçilər maarifin poçt atlarıdır". Tərcüməçi və tərcümə nəzəriyyəçisi Y. Ryaşentsev «Ən yaxşı tərcümə nədir?» sualına belə cavab vermişdir: «Əgər ikinci dildə yaradılan əsər orijinalın oyatdığı təəssürata maksimum dərəcədə yaxın təsir oyada bilirsə, onu ideal tərcümə hesab etmək olar». Ona görə də tərcüməni mexaniki iş deyil, yaradıcılıq adlandırırlar.

Hələ "eramızdan əvvəl III–II əsrlərdə Luçiy Liviy Andronik Homerin məşhur "Odisseya" əsərini latın dilinə tərcümə edərək dünya ədəbiyyatı tarixində bədii tərcümənin bizə məlum ilk nümunəsini yaratmışdır.

Dillərarası və mədəniyyətlərarası ünsiyyətin spesifik forması olan tərcümə yetkin

qoşadilliyin ən yüksək pilləsidirsə, tərcümənin çoxəsrlik tarixə malik zirvəsi bədii

tərcümədir. Bədii tərcümənin tarixi hər ölkənin ədəbiyyat tarixinin ayrılmaz hissəsidir. Bütün xalqların qədim yazılı abidələrində tərcüməçilik fəaliyyəti nəzərə çarpır.

Azərbaycanda bədii tərcümənin ilk nümunələri hələ orta əsrlərdə yaranmış, XIX əsrdən geniş inkişaf etmişdir. Abbasqulu ağa Bakıxanov rus ədəbiyyatından tərcümələr etmiş, M.F.Axundov özünün «Puşkinin ölümünə Şərq poeması»nı rus dilinə çevirmişdir.

M.F.Axundovun komediyaları 1853-cü ildə Tiflisdə rus dilində nəşr olunmuş, sonralar fars və Qərbi Avropa dillərinə tərcümə edilmişdir.

XX əsrdə Azərbaycanda tərcümə işi daha geniş vüsət almış, dünya ədəbiyyatı klassiklərinin əsərləri dilimizə çevrilmiş, saysız-hesabsız tərcümə əsərləri nəşr olunmuşdur.

Bədii tərcümənin bir-birilə bağlı iki qolunun - poeziya və nəsr tərcüməsinin özünəməxsus çətinlikləri və fərqləri vardır. Nəsr əsərlərinin başqa dilə çevrilməsi prosesində tərcüməçi mütləq orijinalın sintaktik özünəməxsusluğunu, obrazlar sistemini nəzərə almalı, doğma dildə onun qarşılığını axtarıb tapmalıdır. Poeziyada isə bu şeirin təkcə spesifik xüsusiyyətlərinin (vəzn, qafiyə quruluşu, ritmik quruluş və s.) deyil, həmçinin şeirdə işlənən leksik vahidlərin və daxili ritmin çatdırılması deməkdir. Qudspid bildirir ki, ən yaxşı tərcümə odur ki, onu oxuyanda tərcümə oxunduğu yada salınmır, təbii ingilis dilinə çevrilir, yeni bir dildə oxucuya orijinalın öz oxucusuna bağışladığı təsiri bağışlayır. . Bədii tərcümədə müxtəlif tipli kontekslərdə sözlərin ayrı-ayrı mənalarının ifadə olunması və onların tərcüməsi prosesini nəzərdən keçirdikdə tərcüməçinin işinin nə qədər çətin olduğunu daha aydın görmək olar. Şekspir "Romeo və Cülyetta"faciəsində çoxmənalı sözlərdən geniş istifadə etmiş,onların demək olar ki,bütün mənalarını və məna çalarlarını açıb göstərmişdir. Məs :"Serv: My master is the great rich Capulet and if you be not of

the house of Montagues, I pry, come and crush a cup of wine.

-Nökər: Mənim ağam məhşur varlı, dövlətli kopulettidir. Əgər sizin Monteki nəsli ilə qohumluğunuz yoxdursa, xahiş edirəm, bir piyalə şərab nuş edin".

Buradan görünür ki, dilin rəngarənk dil çalarlarından məharətlə istifadə edən Şekspirin əsəri elə eyni ustalıqla tərcümə olunmuşdur. Bəzən isə elə bir cümləyə rast gəlirik ki, cümlənin tərkibindəki bütün sözləri bilirik, lakin tərcümədə çətinlik çəkirik. Məsələn:

Better be late, driver

Than the late driver.

Bu cümlənin düzgün tərcümə olunması üçün ilk əvvəl o düzgün intonasiya ilə

oxunmalıdır. Yəni birinci cümlədəki driver (sürücü) sözü xitabdır və onu qısa fasilə edərək oxumalıyıq və cümlədəki sözlərin digər mənalarına da baxmalıyıq. Həm də ikinci cümlədə işlənən driver sözünü sifət kimi axtarmalıyıq. Və nəticədə "late sözünün "mərhum" mənasına rast gəlirik. Yəni düzgün tərcümə belədir: "Gecikən sürücü olmaq, mərhum sürücü olmaqdan yaxşıdır."Bədii əsərin tərcüməsi prinsipində tərcüməçi bir sıra incə, zərif, sirli hallara rast gəlir. Elə obrazlı ifadələr, təşbehlər və idiomlarla qarşılaşır ki, onların müstəqil tərcüməsi mümkün deyil. Adekvat şəkildə ifadəsini tapmaq bir və bəlkə də bir neçə səhifənin tərcüməsindən artıq vaxt, qüvvət tələb edir. Tərcüməçi üçün bir qayda olaraq atalar sözlərinin, zərbi-məsəllərin, idiomatik ifadələrin, frazeologizmlərin və s. tərcüməsi çətinlik törədir. İngilis ifadəsi olan "In the straw" (*samanda*) "hamilə" mənasında işlədilir ama öz mənşəyi etibarilə belə bir adətlə bağlıdır. Belə ki, yoldan keçən maşınların doğan qadını narahat etməməsi üçün onun evinin qabağına saman qoyurdular.

Məlumdur ki, bu ifadələrin böyük əksəriyyəti öz mahiyyətinə görə xalqın məişət və milli koloritilə əlaqədardır.

Hər hansı bir sənət əsərinə, abidəyə vurulan naxışlar, ornamentlər ona gözəllik gətirdiyi kimi, bədii əsəri də gözəlləşdirən epitetlər, təşbehlər, metoforalar, metonimiyalar və s. bu kimi məcazlardır. Bədii tərcümədə də bu kimi bədii təsvir vasitələrindən başqa təzad, bədii sual, inversiya, təkrir, mübaliğə, litota, kinayə kimi

bədii ifadə vasitələrindən də istifadə olunur. Bədii ifadə vasitələri təkcə əsərin deyil tərcümənin də incəliyini, zərifliyini və möhtəşəmliyini artırır.

Sözün təsir gücünü artırmaq üçün təzad xüsusi əhəmiyyət kəsb edir. Təzad iki zidd əhval-ruhiyyənin qarşılaşdırılması vasitəsilə əmələ gəlir. Sənətkarlar təzadlar vasitəsilə öz fikirlərini oxucuya daha qabarıq çatdıra bilirlər. Təzad istifadə edilən şeirləri tərcümə edərkən də eynilə bədii təzad yaradılmalıdır. Hamlet İsaxanlının "Təzadlar" poeması bu baxımdan maraq doğurur:

Həyatın al günəşi var, zülməti, küləyi var,
Hər kəsin öz ürəyincə arzusu, diləyi var.
Saraylarda həm əl çalmaq, həm susmaq gərəyi var,
Aqillərin məclisində hərənin öz rəyi var. (Hamlet İsaxanlı).

Müəllif burada zülmətlə işıq rəmzi olan günəşi, xoşbəxtliklə bədbəxtliyi, nadanla aqili müqayisə edir.Şeiri tərcümə edən Allı Axundov da poetik ustalıq nümayış etdirmiş bədii təzad yaratmışdır :

Огонь и пепел, свет и мрак –
природные контрасты жизни.
Есть человечьи : друг и враг,
земля чужбины и отчызны.
Есть в залах царственных дворцов
молчанье и рукоплесканье,
Звучить в собранье мудрецов
за утвержденьем – отрицанье.

Sözün təsir gücünü qat-qat artıran, ona emosionallıq, ifadəlilik, bədii kəsər verən digər bədii ifadə vasitələrindən biri də bədii sualdır.Bədii sual adi cavab almaq məqsədilə işlədilən suallardan ciddi şəkildə fərqlənir.Çox vaxt cavabın özü də sualın daxilində, onun cövhərində olur :

Məni candan usandırdı, cəfadan yar usanmazmı ?
Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı ? (M.Füzuli)

Şeksprin məşhur "Hamlet" monoloqunun Azərbaycan dilinə tərcüməsi zamanı da bədii sualın orijinal əsərdə işlədilmə incəliyi qorunub saxlanılmışdır :

To be or not to be that is the question:
Whether 'tis nobler in the mind to suffer
The slings and arrows of outrageous fortune,
Or to take arms against the sea of troubles

Bu parçanı Cəfər Cabbarlı nəsr formasında : " Olum, ya ölüm… Budur məsələ. Hansı şərəflidir? Düşmən qəzanın ağır tokaklarına dayanmaq və ya fəna seylabının coşğun dalğalarına qarşı qoyub onu qurutmaq, əzmək…" tərcümə etdiyi halda , Sabir Mustafa nəzm formasını saxlamağı üstün tutmuşdur :

Olum, ya ölüm, budur məsələ.
Hansı şərəflidir? Azğın taleyin
Müdhiş oxlarına susub dözməkmi
Yoxsa fəlakətlər dənizlərinə
Qarşı silahlanıb üsyanmı etmək:
Ya qələbə çalmaq, ya həlak olmaq?

Ədəbiyyatşünaslıqda şairlər şüurlu şəkildə mübtəda ilə xəbərin yerinin dəyişməklə ahəngdarlığa nail olurlar ki bu da inversiya adlanır. Nitqin təsir

qüvvəsini artırmaq məqsədilə yazıçı sözlərin adi, normativ axarını pozur. Məs, " Qarnım üçün demirəm, qədrim üçün deyirəm". Poeziyada inversiyaya daha çox rast gəlinir. Ramiz Rövşən də "İlan Balası" şeirində inversiyadan məharətlə istifadə etmişdir:

Böyüyüb bu körpə ilan balası,
gah o başa, gah bu başa sürünür.
Sevinir udduğu havaya, suya,
Torpağa sevinir,daşa sevinir.
Bir sevgi həvəsi dolur canına,
Gecələr gözünün itir yuxusu.

Poetik tərcümə zamanı inversiyanın saxlanması da ustalıq tələb edir:

The small baby snake is growing,
Crawling here and there.
Enjoying the air that it breathes,
The water, the sand, and the stone.
Taking away its sleep at nights.

Təkrir eyni söz və söz birləşmələrinin təkrarlanmasından yaransa da təkrardan fərqlənir. Təkrir sözün bədii təsir gücünü artıraraq əsərin dilinə,üslubuna emosional çalar qatır.

Edəməm tərki Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir,vətənimdir, vətənim.(M.Füzuli)

Əgər təkrarlanan söz və ya söz birləşməsi misra əvvəlində gəlirsə anafora, sonunda gəlirsə epifora adlanır. Bəzən bütöv bir beyt epifora ola bilir. Bunu Ramiz Rövşənin "Yağış yuyur,gün qurudur" şeirində daha aydın görmək olar:

Bu yerləri, bu göyləri
Yağış yuyur, gün qurudur,
Bu dünyada çox şeyləri
Yağış yuyur, gün qurudur.

Yağış yuyur, gün qurudur beytinin " Are washed by rain and dried by the sun" kimi təkrir olaraq saxlanılması edilən tərcüməyə xüsusi gözəllik qatmışdır:

These lands and sky
Are washed by rain and dried by the sun.
Many things in this world
Are washed by rain and dried by the sun.

Bədii ədəbiyyatda şairlər bir şeyin həqiqi mənasını şişirtmək vasitəsilə öz qəhrəmanlarının hiss və həyəcanlarını daha dolğun hiss etdirməyə nail olurlar.

Bu bədii ifadə vasitəsini mübaliğə və bəzən də hiperbola adlandırırlar:

Burda ahlar duman –duman,
Burda göz yaşı göl-göl. (R.Rza)

Bəxtiyar Vahabzadə "Örtmə pəncərəni" adlı şeirində çəkdiyi dərdləri qaralan ocaq adlandıraraq küləkdən onu daha da alovlandırmasını tələb edir :

Tufan istəyirəm, yandıra bilsin
Könlümün qaralan ocaqlarını.
Gəlsin, qarışdırsın, alt-üst eyləsin
Yazdığım, pozduğum varaqlarımı.

Bu şeiri tərcümə edən Şəhla Nağıyeva və Piter Makuk şairin mübaliğə ziyafətini korlamadan poetik bir yaradıcılıq nümayış etdirmişlər :

I want a storm that will blow
and brighten the fading embers of my spirit.
Let it rush in and rearrange my papers,
All my writings and rough drafts.

Mübaliğədə bir şey şüurlu şəkildə şişirdilməklə nəzərə çarpdırılırsa, litotada bunun əksinədir: "Qızın beli o qədər nazik idi ki, bir gilas dənəsi udsa,elə bilirdin ki, hamilədir". Lermontov əsərində dilənçinin vəziyyətindən danışarkən şair litotadan istifadə edərək daha canlı ruh vermişdir:

У врат обители святой
Стоял просящий подаянья
Бедняк иссохший, чуть живой
От глада, жажды и страданья.

Eyvaz Borçalı tərcümə edərkən " bir dəri bir sümük qalmış" deyərək şeirin həminki təravətini qoruyub saxlaya bilmişdir:

Müqəddəs bir kilsə önündə biri
Sədəqə umurdu gəlib keçəndən.
Bir sümük qalmışdı, yazıq bir dəri
Aclığın, əzabın, dərdin içində.

Ədəbiyyatşünaslıqda satirik, yumoristik əsərləri kinayəsiz təsəvvür etmək mümkün deyil. Kinayədə sözün nə formada deyilməsi ilə bərabər, onun ifadə etdiyi daxili mənası da əsasdır.

Sən beləsənmiş, balam, ay bərəkallah sənə!
Fisq imiş əmrin tamam,ay bərəkallah sənə !

Hamlet İsaxanlı "Şər və xeyir" şeirində vəfasız dünyaya kinayə ilə sual verir:

Düşündüm, kiməm, nəçiyəm
Nə fitrətin təsdiqiyəm?
Dünyanın heç vecinəmi
Sərkərdə, ya pinəçiyəm?

Bu bəndi Allı Axundov həmin şirinlikdə oxucuya çatdırmağa nail olmuşdur :

Кто я? Чьи играю роли ?
Я- должник или заложник ?
Мир, тебе не все равно ли,
Полководец я ? Сапожник ?

Hər bir müəllif dünyagörüşündən və həyat təcrübəsindən irəli gələn ifadə üslubuna malik olur. Tərcüməyə başlamazdan əvvəl əsərin nəinki ideyasını, həm də onun emosional ruhunu dərindən dərk etmək lazımdır ki, əsərin üslubunu müəyyənləşdirib onu tərcümədə saxlamaq mümkün olsun. Bu və ya digər şairin, yaxud yazıçının üslubu hər şeydən əvvəl əsərin dilində, onun melodiyasında və intonasiyasında, obrazlar sistemində və s. də özünü göstərir. Ümumiyyətlə, yazıçının fərdi üslubunun saxlanması məsələlərini tədqiq edərkən, xüsusən də bunu eyni əsərin bir neçə tərcümə variantı üzərində apararkən bəzi qanunauyğunluqların meydana çıxdığı müşahidə olunur.

Birincisi, ümumi qanunauyğunluq, yəni şeirdə sözbəsöz dəqiq tərcümənin qeyri-mümkünlüyüdür. Tərcüməçi orijinala formal cəhətdən uyğun gələn elementi

yox, kontekstə müvafiq elementi seçməli olur.İkincisi, konkret qanunauyğunluqdur, yəni müvafiq termin, metafora və söz birləşmələrinin eynilə saxlanmasıdır. Lakin hər bir halda tərcüməçi yazıçının fərdi yaradıcılıq üslubundan irəli gələn prinsipləri rəhbər tutmalı, kontekstdən çıxış edərkən yaradılan obrazın əksini yaratmalı, bununla yanaşı milli koloritin qorunmasına diqqət yetirməlidir.

Ona görə də bədii obrazın tərcümədə saxlanması üçün dil kateqoriyaları, məna yığcamlığı, spesifik tarixi və milli çalarla yanaşı, yazıçının fərdi yaradıcılıq özünəməxsusluğu, fərdi üslubu mühüm rol oynayır.

Ədəbiyyat :

1. Nağıyeva Ş.B. Bədii tərcümə: nəzəriyyə və praktika. Bakı, 2009.
2.Rafiq Yusifoğlu.Ədəbiyyatşünaslığın əsasları .Bakı, 2001
3. Hamlet İsaxanlı (şair-tərcüməçi) "Poetik tərcümə. Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı" adlı məqaləsindən
4. www.translit.az / Elektron kitabxana

T.Guliyeva

Preserving stylistic devices and individual style of an author in translation

Summary

The article deals with the importance of preserving stylistic devices in literary translation. Stylistic devices like antithesis, inversion, repetition, hyperbole, litotes, rhetorical question ,etc have priceless power in literary translation. Coming across a stylistic device the translator has to make up his mind whether it should be preserved in his translation or left out and compensated for at some other place. It depends on translator's creative approach, theoretical knowledge and experience.

Т.Гулиева

Сохранение средств художественного выражения и индивидуального стиля автора в переводе

Резюме

Литературная статья в переводе повествует о важности сохранения средств художественного стиля . Такие художественные стили как:антитеза,инверсия,тафтология,гипербола,литота,риторические вопросы имеют бесценное влияние в художественном переводе. Переводчик в случае столкновения со средством художественного выражения должен решить,сохранить ли перевод в своем виде,раскрыть или изменить его. Это зависит откреотивного подхода переводчика его теоретических знаний и опыта

.Rəyçi: b.m. Zemfira Abbasova

AYGÜN SALMANOVA
Odlar Yurdu Universiteti
e-mail: s_aygun@live.com

CEK LONDONUN ƏSƏRLƏRİNDƏ İSTİFADƏ OLUNAN MÜBALIĞƏLƏRİN SƏCİYYƏVİ XÜSUSIYYƏTLƏRİ

Açar sözlər : müqayisə, mübaliğə, ədəbi dil
Ключевые слова: сравнение, гипербола, литературный язык
Key words: comparison, hyperbole, literary language

Cek London XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, bədii fəaliyyətə XIX əsrin sonlarında başlamış, qısa müddət ərzində görkəmli yazıçı və publisist kimi məşhurlaşmışdır. Əsərlərinin əsas bəşəri qayəsini humanizm təşkil edir. Con Qriffit Çeyni 1876-cı il 12 yanvar tarixində San-Fransisko şəhərində anadan olmuşdur. Anası Flora Bellman musiqi müəlliməsi olmuş, eyni zamanda spiritualizm (ruh çağırma) ilə məşğul olurdu. Atası professor Çani əslən irlandiyalı idi. O, Men ştatında doğulub böyümüş, gəncliyini dəniz səyahətlərində keçirmiş, sonra elmi axtarışlarla məşğul olub professor adı almışdı. Lakin Cek London hələ dünyaya gəlməzdən əvvəl atasız qalmışdı, belə ki, professor Çani hamilə qadını atıb getmişdi və Cek körpəlikdən ağır ehtiyac içərisində böyümüşdür. Az sonra Cekin anası Con London adlı var-yoxdan çıxıb müflisləşmiş bir fermerə ərə getmişdir. Maddi yoxsulluğuna baxmayaraq, Con ailəcanlı və əməksevər bir adam idi. O, ailəyə, xüsusən balaca Cekə qayğı ilə yanaşmış, onun xarakterinin formalaşmasına xeyirli təsir göstərmişdir. Bu xeyirxahlığa minnətdarlıq əlaməti olaraq Cek sonralar atalığının soyadını özünə təxəllüs seçmiş, ədəbi mühitdə Cek London imzası ilə məşhurlaşmışdır.

C.London ilk təhsilini San-Fransiskoda ibtidai məktəbdə almışdır. O, çox kiçik yaşlarından ağır zəhmətə qatlaşmalı olur. Məktəbli illərində qəzetlər satırdı. Qadağan olunmasına baxmayaraq San-Fransisko limanında dəniz iblizləri ovu ilə də məşğul olmağa başlayır. London 1989-cu ildə Hicmott konserv fabrikində gündə 12-18 saat işləməyə başladı. Bu ağır iş şəraitindən canını qurtarmaq üçün borc pul ilə qayıq alaraq dənizçiliyə başladı. 1893-cü ildə gəmidə matros işləməyə başlayır. Cek ömürlük dənizdə də qala bilərdi. Amma gecələr ulduzlu səmada ən parlaq ulduzu axtararkən o yenə də pıçıldayırdı: "Mən yazıçı olacam, eşidirsiz! Onda atam kim olursa olsun eşidib mənimlə fəxr eləyəcək". Səyahətdən qayıtdıqdan sonra yenidən fəhləlik edir; cut (kəndir) fabrikində işləyir. Bu zaman San-Fransisko qəzetlərindən biri yaxşı oçerk üçün müsabiqə keçirir. Anasının məsləhəti ilə müsabiqədə iştirak edən Cek London "Yaponiya sahillərində qasırğa" oçerkinə görə birinci mükafatı alır. Bu, onun yaradıcılığının başlanğıcı idi.

İlk hekayələri 1899-cu ildə nəşr olundu, 1900-cu ildə isə artıq onun ilk hekayələr toplusu kitabı "Canavar oğlu" (Boston, 1900) adı altında çap olundu. Bunun ardınca "Atalarının tanrısı" (Çikaqo, 1901), "Şaxtanın övladları" (Nyu-York, 1902), "İnsana inam" (Nyu-York, 1904), "Ayüzlü" (Nyu-York, 1906), "İtirilmiş sima" (Nyu-York, 1910) hekayələrdən ibarət toplu, "Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904), "Martin İden" (1909) kitabları nəşr olundu. Onun "Cənub

dənizinin hekayələri" (1911), "Günəş oğlu" (1912), "Məğrurlar məbədi" (1912) məcmuələri Sakit okeana səyahət zamanı aldığı təəsüratlar əsasında yarandı.

Yazıçının 40 yaşı olsa da, o, çox yorulmuşdu və bu baxımdan Cek London həyatının son illərində qəhrəmanı Martin İdeni ("Martin İden" romanı) xatırladırdı. Necə deyərlər, yorulsa da, o hər gün yazmağa məhkum idi, yazmaq onun yeganə gəlir mənbəyi, yaşamaq vasitəsi idi. Ona görə də hər gün azı min söz yazırdı. Yazıçı 1915-ci ildə "Böyük evin kiçik sahibi" romanını yazdı. Romanın əsasında bir qadının eyni zamanda iki kişini sevməsi və onlar arasında seçim edə bilməməsi dayanır. Əslində bu qadın xarakter etibarı ilə daha çox Cek Londonu xatırladır. Ümumiyyətlə, Cek Londonun bütün qəhrəmanları onun özünə oxşayır, onların hamısı həyatın ən ağır sınaqlarına məruz qalırlar. Fiziki ağrılar, xəstəlik yazıçını rahat buraxmır. O, beyin yorğunluğundan, əsəb gərginliyindən şikayətlənir. Ömrünün son günlərində başağrısı çoxalır, orqanizmdə uremiya (böyrək çatışmazlığı nəticəsində qanın zəhərlənməsi) başlanır. O, bədənindəki şiddətli ağrıları kəsmək üçün narkotik maddələrdən istifadə edir və 1916-cı il noyabr ayının 22-də morfidən zəhərlənib əbədi olaraq gözlərini yumur.

Yazıçının ölümü bütün amerikalıları, onu tanıyan dünya oxuyucularını kədərləndirir. Cek Londonu öz vəsiyyətinə əsasən cənazəsini yandırandan sonra külünü təbiətin qoynunda, yazıçının tez-tez gəzdiyi gözəllik parkında hündür bir təpənin üstündə dəfn edirlər.

Sələflərinin heç birinə bənzəməyən Cek Londonun əsərlərinə diqqət yetirdikdə, onların bədii təsvir və ifadə vasitələri ilə zəngin olduğunu görmək mümkündür. Bu ifadə vasitə sırasında mübaliğədən də geniş şəkildə istifadə olunmuşdur.

Ədəbi əsəri bədii cəhətdən gözəlləşdirən və bəzəyən poetik fiqurlardan biri də mübaliğədir. Bədii əsərdə nəzərə çatdırılacaq hadisənin, hiss-həyəcanın qəsdən əslində olduğundan daha güclü, qabarıq verilməsinə - şişirdilməsinə, bədii fikri dərinləşdirmək, təsəvvürü daha da canlandırmaq məqsədilə ədəbiyyatda bir hadisənin, işin, xarakterin, keyfiyyətin həddindən artıq böyüdülməsi və ya kiçildilməsinə mübaliğə deyilir. Mübaliğə nəzərdə tutulan fikrin, ideyanın oxucuya, dinləyiciyə daha qabarıq çatdırılmasına xidmət edir. Bu elə bədii vasitədir ki, müəyyən bir hadisə daha təsirli görünmək üçün həddindən artıq böyüdülür, güman olunmayan hadisə və faktlarla müqayisə edilir. Ədəbiyyatşünaslıqda mübaliğə bəzən hiperbola sözü ilə də ifadə olunur. Mübaliğə hadisənin mahiyyətini, məzmununu böyütməyə, artırmağa, şişirtməyə əsaslandığı üçün həyata həqiqətindən, reallıqdan uzaq olur. Lakin buna baxmayaraq oxucuya bədii cəhətdən xoş təsir bağışlayır, və əsərin ideya-estetik cəhəti ilə sıx surətdə bağlı olur. Məsələn, mübaliğə ilə zəngin olan "Oyun" ("The Game") povestindən aşağıdakı nümunəyə nəzər yetirək:

"The head of the department did them the honor of waiting upon them himself--or did Joe the honor, as she well knew, for she had noted the open-mouthed awe of the elevator boy who brought them up". ("Şöbə müdiri lütfkarlıq göstərərk özü onlar üçün xalça seçirdi; qız yaşı bilirdi ki, şöbə müdiri bunu Conun xatirinə edir, onlar yuxarı mərtəbəyə qalxdıqca liftdə işləyən oğlanın heyrətdən ağzı açıla qalmışdı").

Əlbəttə ki, bu səhnəni reallıqda təsəvvür etdikdə, təbii ki, oğlanın ağzı heç də açıq halda deyildi, amma yazıçı əsərdəki obrazın təəccübünü bədii şəkildə təsvir edərək mübaliğənin gözəl bir nümunəsini yaratmışdır.

Yenə həmin əsərdə başqa bir mübaliğə nümunəsinə diqqət edək:

"She was all that was pure and good, a holy of holies not lightly to be profaned even by what might possibly be the too ardent reverence of a devotee. She was--well, she was Genevieve, a being of a class by herself, nothing less than a miracle of creation." ("Qız oğlanın nəzərində paklığın, xeyirxahlığın nümunəsi idi, müqəddəslərin müqəddəsi idi, belə ki, ona çox məftunluğun özü belə onu təhqir edirdi. Qız-bir sözlə, başqalarına bənzəməyən yaranmışların möcüzəsi yüksək məxluq idi").

Bu iki cümləni təhlil etdikdə, Cek Londonun sənətkar qələminin qəhrəmanın hiss və həyəcanını necə gözəl bədii obrazlarla təsvir etdiyinə şahid ola bilərik. Oğlanın sevdiyi qıza məhəbbəti elə yüksək həddədir ki, onu ən müqəddəs insan, bütün yaradılmışlardan üstün, möcüzəvi məxluq hesab edir.

Nümunələrdən də göründüyü kimi, ifadəlilik, emosionallıq, sözlərin qazandıqları və ya ümumi kontekstə əlavə etdikləri yeni mənaları bədii-estetik keyfiyyətləri özündə təcəssüm etdirir. Söz öz məna qəlibindən çıxır, ümumi kontekstin və ya işləndiyi kontekstin məna qəlibində özünəməxsus yer tutur. Cek Londonun əsərlərində mübaliğə funksiyasını yerinə yetirən hər bir söz təsvir olunan səhnələrlə, obraz və xarakterlərlə möhkəm vəhdətdə çıxış edir ki, bu da əsərin bədii dilinə xüsusi emosionallıq və ifadəlilik gətirir.

Bədii əsərdə işlənən mübaliğələr ayrılıqda götürülmüş bir söz deyildir. Mübaliğə sözlərin birləşərək yeni bir məna əmələ gətirməsidir. Mübaliğələr fikrin obrazlı ifadəsinin bir forması, təsvir olunan hadisənin invariant hadisələrdən seçilməsinə, fərqləndirilməsinə xidmət edir. Hadisələrin ekvivalentliyi, adekvatlığı, oxşarlığı, nəhayət invariantlığı, bədii əsərlərdə onların eyni formada təsvirinə bəzən zəmin yaradır, bəzən isə eyni hadisələrin fərqləndirilməsinə xidmət göstərir. Aşağıda "Kişi sədaqəti" hekayəsindən gətirdiyimiz nümunədə də nadirən baş verən hadisə şişirdilərək bədii çalarlarla əks olunmuşdu:

"Hutchinson sighed: Couldn't happen once in a million times," said. "Nor in a million lives" ("Hatkinson köks ötürdü: "Belə hadisə yüz ildə bir dəfə olur. Milyonda bir dəfə".)

Qeyd etdiyimiz kimi Cek London əsərlərinin dili mübaliğələrlə zəngindir. Mübaliğələr qəhrəmanların güc və qüdrətini, onların səxavət və xeyirxahlığını, eyni zamanda məkr və hiylələrini, qorxuncluq və eybəcərliyini açmaq məqsədi daşıyır, nəql edilən hadisələrin emosional və ekspressivlik çalarlarını artırır. Cek Londonun ədəbi dilinə və üslubuna xas olan bu xüsusiyyət onun əksər əsərlərində öz əksini tapır. Əsərlərdə istifadə olunan mübaliğələr sənətkarın həm mövzuya, süjetə münasibəti, həm də təhkiyə forması ilə seçilir.

Cek London öz əsərlərində qəhrəmanların xarakterlərini onların daxili aləmlərinin təsvirində də mübaliğələrdən məharətlə istifadə etmişdir. Onun "Lit-Litin ərə getməsi" ("The Marriage of Lit-lit") hekayəsindən bir nümunəyə nəzər salaq:

-"White daddy good?" was what she asked, and the boy answered that his father was the best man he had ever known. ("-Ata yaxşıdır? –Oğlan cavab verdi ki, yer üzündən ondan yaxşısı yoxdur")

Nümunədən göründüyü kimi oğlan öz atasının müsbət keyfiyyətlərini ümumiləşdirərək onun kimi insanın yer üzündə olmadığını qeyd edir. Oğlanın bütün dünyanı gəzməsi, yer üzündə yaşayan bütün insanları tanıması təbii ki, qeyri-mümkündür. Yazıçı mübaliğə vasitəsi ilə oğlanın atası haqqında düşüncələrini gözəl şəkildə təsvir etmişdir.

Cek Londonu əsərlərindəki qəhrəmanların daxili dünyasını, düşüncələrini, rastlaşdıqları müxtəlif situasiyalarda keçirdikləri hissləri təsvir etməkdə də dahi sənətkar adlandırmaq olar. Yazıçı bu təsvirlərdə də mübaliğələrdən geniş şəkildə istifadə edərək gözəl nümunələr yaratmışdır.

Yazıçının yaradıcılığının şah əsəri sayılan "Martin İden" ("Martin Eden") romanının qəhrəmanı olan Martin İdenin ruh halını əks etdirən nümunədə :

"Martin almost fainted when Ruth's hair touched his cheek. He had fainted but once in his life, and he thought he was going to faint again. He could scarcely breathe, and his heart was pounding the blood up into his throat and suffocating him." ("Rusun saçları Martinin yanağına toxunanda o, az qala huşunu itirmişdi. O, həyatında bir dəfə huşunu itirmişdi və düşündü ki, bu dəqiqə yenə huşunu itirəcək.O çox çətinliklə nəfəs alırdı, ürəyi boğazına döyünür və onu boğurdu.")

Bu cür təsvirlər surətlərin hisslərinin romantic təbiətini vurğulayır. Təsvirləri, eləcə də, surətlərin və onların fəaliyyətlərinin rəsmini təsvir edərək, London öz fikirlərini təqdim etmək üçün vacib sözləri tapmışdı. Onun bədiiliklə zəngin olan dili ifadəlidir.

Yazıçının digər məşhur əsəri "Əcdadların harayı" ("Call of the wild") əsərindəki mübaliğə nümunəsinə nəzər yetirək:

"For two days and nights he neither ate nor drank, and during those two days and nights of torment, he accumulated a fund of wrath that boded ill for whoever first fell foul of him. His eyes turned blood-shot, and he was metamorphosed into a raging fiend." ("O, iki gün nə yemiş, nə də içmişdi və bu iki günün əzabları ilə onu acıqlandıranlara qarşı qəzəb ehtiyatını yığmışdı. Onun gözlərini qan bürümüş və o hiddət dolu şeytana çevrilmişdi.")

Əvvəlki nümunədən fərqli olaraq, bu nümunədə yazıçı qəzəbin, hiddətin təsirini və bu təsir ilə əsərin qəhrəmanı Bak adlı itin necə dəyişdiyini və onu sanki bir şeytana çevirdiyini mübaliğə ilə oxucuya çatdırır.

Cek London əsərlərində istifadə olunan mübaliğələrin səciyyəvi xüsusiyyətlərini araşdıraraq belə bir qənaətə gəlmək olar ki, bu mübaliğələr əsərlərin bədii dəyərini artırmağa xidmət etdiklərindən əlavə, həm də yazıçının üslub xüsusiyyətlərini fərqləndirən amillərdəndir. İstər cərəyan edən hadisələrin təsvirində, istərsə də qəhrəmanların duyğuları, hiss və həyəcanlarının ifadəsində Cek London mübaliğədən məharətlə istifadə edərək gözəl sənət nümunələri yaratmışdı.

Ədəbiyyat

1. London Cek. Seçilmiş əsərləri, Bakı 2005.- 512 s.
2. London Cek "Oyun." Povest və hekayələr, Bakı, 1980. Səhifə: 202.
3. London Cek "Martin İden.". Roman. Bakı., 1962. Səhifə: 438
4. London C, Povestlər, hekayələr... Bakı, 1991. Səhifə: 334.
5. Əliyev R. Ədəbiyyat Nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360s.
6. "Martin Eden" Paperback, 480 pages San Francisco, California (United States)
Published February 1st 1994 by Penguin (first published 1909)
7. Jack London, South Sea Tales, Published April 9th 2002 by Modern Library
Paperback, 384 pages

S.H. Salmanova

Characteristic features of hyperboles in the works of Jack London

Summary

The peculiarities of use of hyperboles in the works of Jack London are researched in the paper. Latent and obvious motives of hyperboles are examined. The research is carried out in comparative and private aspects. Besides, comparison is made between inner world of the characters and description of the events.

А.Г.Салманова

Характеристика гипербол в произведениях Джека Лондона

Резюме

В данной статье исследуются особенности употребления гипербол в художественных произведениях Джека Лондона. В ходе исследования рассматриваются скрытые явные признаки гипербол. Причем исследование это проводится в частном виде, так и в сравнительном аспекте. Кроме того, сравнение проводится между внутренним миром образов и описанием событий.

Rəyçi: b.m Nafilə Məmmədova

TƏRANƏ RƏHİMLİ,
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: t_raqimli@mail.ru
UOT: 821 (479, 24)

1960-70-ci ILLƏR AZƏRBAYCAN NƏSRI KAMAL TALIBZADƏ TƏNQİDİNDƏ

Açar sözlər: yeni nəsr, ədəbiyyat, tarixi roman, povest, qəhrəman, ədəbi tənqid.
Ключевые слова: Новая проза, литература, исторический роман , повесть, герой , литературная критика.
Key words: New prose, literature, historical novels, narrative, heroes, literary criticism.

1960-1970-ci illər tənqidi ədəbi prosesin başlıca və önəmli hadisəsi kimi diqqət mərkəzində olan yeni nəsrin müxtəlif yaradıcılıq problemlərinə münasibət özünəməxsusluğu ilə seçilir. Bu mərhələdə nəsrin müxtəlif yaradıcılıq problemləri, ideya, mövzu, bədii qəhrəman, sənətkarlıq və s. xüsusiyyətləri dövrün tanınmış tənqidçilərini ciddi düşündürür, K.Talıbzadə, B.Nəbiyev, Y.Qarayev, Ş.Salmanov, A.Hüseynov, A.Dadaşzadə, A.Səfiyev və b. tanınmış ədəbiyyatşünas-tənqidçilər yeni nəsrlə bağlı dəyərli tədqiqat əsərləri ərsəyə gətirirdilər.

Kamal Talıbzadənin çoxcəhətli və zəngin elmi yaradıcılığında çağdaş milli ədəbiyyatın müxtəlif problemləri ilə yanaşı, bədii nəsrin tədqiqi məsələləri xüsusi diqqət çəkir. Tədqiqatçının yeni dövr Azərbaycan ədəbiyyatının inkişaf problemləri fonunda dəyərləndirdiyi çağdaş nəsrə dair çoxsaylı elmi-nəzəri məqalələri, tədqiqatları xüsusi maraq doğurur. Həmin məqalələrində Kamal Talıbzadə çağdaş milli bədii nəsrin ən aktual məsələlərinə toxunmuş, dövrün görkəmli nasirlərinin yaradıcılığına müasir elmi mövqedən münasibət bildirmiş, bununla da bədii nəsrin müasir ədəbiyyatda, çağdaş ədəbi prosesdə aparıcı mövqeyi haqqında konkret, aydın təsəvvür yaratmağa müvəffəq olmuşdur.

Tədqiqatçı məqalələrində dövrün nəsrini belə səciyyələndirirdi: «Nəsrimiz həyatın hərtərəfli, analitik təhlilini verməyə getdikcə daha dərindən yiyələnə-yiyələnə inkişaf etmiş, insan mənəviyyatının daha dərinliklərinə nüfuz etmək, mürəkkəb psixoloji vəziyyətlərlə hadisələrin harmoniyasını yaratmaq sahəsində müəyyən nailiyyətlər əldə etmişdir. Bir çox nəsr əsərlərimizdə konflikt təkcə təkcə mənəvi-əxlaqi ziddiyyətlər üzərində qurulmur, həyata nüfuz, təşrihedici müdaxilə onların ictimai səbəbləri ilə əlaqələndirilir» (1, s.48).

Yeni mərhələdə Azərbaycan nəsrinin inkişaf istiqamətlərini diqqətlə izləyən Kamal Talibzadə bir sıra tənqidi məqalələrində problemin təhlilinə daha geniş yer vermiş, xüsusilə çağdaş milli nəsrin ideya-mövzu xüsusiyyətlərinə diqqət yetirimişdir. Tənqidçi İlyas Əfəndiyevin «Dağlar arxasında üç dost», «Sarıköynəklə Valehin nağılı» romanları, Əli Vəliyevin «Narahat adam», İsa Hüseynovun «Kollu Koxa», «Şəppəli», Bayram Bayramovun «Açılmamış kitab», Ənvər Yusifoğlunun

«Cərrahlar», «Düşmənimin düşməni», Sabir Əhmədovun «Dünyanın arşını», S.Süleymanovun «Dan qaranlığı», Əfqan Əsgərovun «Gülyanaq», Gəray Fəzlinin «İldırımlı dağlar», Fərman Kərimzadənin «Qarlı aşırım», Sabir Azərinin «Yol üstündə toy» kimi roman, povest və hekayələrini bu mərhələnin ən qiymətli nəsr əsərləri kimi dəyərləndirmişdir.

Tənqidçi 1960-1970-ci illərdə ədəbiyyatın aparıcı mövzularından biri olan kənd mövzusunun çağdaş milli nəsrimizdə tutduğu yeri müəyyənləşdirir, mövzunun işlənmə səviyyəsinə münasibət bildirir, ümumiyyətlə, altmışıncı illərdə kənd mövzusunun nəsrimizdə yeni ideya-estetik keyfiyyətlərlə zənginləşdiyini vurğulayır. Kamal Talıbzadəninin «Müasir kənd və nəsrimiz» məqaləsi bu cəhətdən xüsusilə diqqətəlayiqdir. Tənqidçi bu məqalədə öz araşdırmasını bir neçə əsərin təhlili ilə məhdudlaşdırmayıb, Azərbaycan nəsrində yeni kənd mövzusunda yazılmış sanballı bədii əsərlərin demək olar ki, hamısını nəzərdən keçirmişdir. O, bu əsərlərdə altmışıncı illər Azərbaycan kəndinin real mənzərəsinin, problemlərinin dürüst və dolğun bədii əksini görür, milli yazıçılarımızın müasir insanın mənəvi aləmini canlandırmağa daha çox önəm verməsini təqdirəlayiq hesab edirdi.

Müəllif müasir kənd mövzusunu yaradıcılıqlarında dolğun şəkildə əks etdirən nasirlərin sənət örnəklərini tədqiq edir, M.Hüseyn, M.İbrahimov, S.Rəhimov, Əbülhəsən, Mir Cəlal, Ə.Vəliyev, S.Rəhman, I.Əfəndiyev kimi yazıçıların bu sahədə qazandıqları nailiyyətlər fonunda nəsrimizin orta və yeni nəslinin yaradıcılıq uğurlarını diqqətlə təhlil etmişdir.

Tənqidçi altmışıncı illərdə kənd mövzusunun nəsrimizdə inikasının yeni ideya estetik keyfiyyətlərlə zənginləşdiyini göstərir, yeni nəsrin nümayəndələrindən xüsusilə Isa Hüseynovun əsərlərinin bütövlükdə milli nəsrimizin səviyyəsi haqqında fikir söyləmək üçün geniş material verdiyini vurğulayır. K.Talıbzadə yazıçının konkret nəsr əsərlərinin təhlili əsasında ümumiləşdirmələr aparır, maraqlı elmi nəticələrə gəlir. Yazıçının «Kollu Koxa» povestini və «Şəppəli» hekayəsini son illərdə yazılan ən uğurlu nəsr əsərləri kimi təhlilə cəlb edən tənqidçi İ.Hüseynovun xarakter və portret ustalığının bu əsərlərdə də aydın müşahidə edildiyini göstərir.

Tədqiqatçı yazırdı: «Bu əsərlərdə əsl sənətə aid keyfiyyətlər çoxdur: insan mənəviyyatına, daxili aləminə nüfuz, surəti real danışdırmaq; təbii mükalimə, yığcamlıq, kiçik bir detali lə geniş bir Aləm yaratmaq istedadı; tipikləşdirmə; ümumiləşdirmə qüvvəsi; həyatı kənar müşahidəçi, seyrçi kimi deyil, məhz vətəndaş yazıçı kimi dərk edə bilmək, onun dərinliklərinə cuma bilmək bacarığı; nəhayət, konkret həyat probleminin həllini vermək məharəti.» (1, s.62) Kamal Talıbzadə yazıçının «Şəppəli» hekayəsini diqqətlə təhlil edir, nəşrindən sonra dövrün ədəbi tənqidinin dərhal nəzərini cəlb edən, çoxsaylı məqalələrdə, tənqid materiallarında yer alan bu hekayənin klassik realistlərin yaratdıqları kiçik adamların taleyini xatırlatdığını göstərirdi. Tənqidçi əsərdəki Şəppəli obrazının – təmiz mənəviyyatlı, saf qəlbli, xeyirxah hesabdar Mədəd kişinin ədəbiyyatda bu surətlər silsiləsinin – «kiçik adamlar»ın davamı kimi dolğun təəssürat yaratdığını vurğulayır.

İsa Hüseynovun «Kollu Koxa» povestində isə yazıçının kənd həyatının həm müsbət, həm də mənfi tərəflərini işıqlandıra bilməsi, müasir kənd adamlarının psixologiyası, dünyagörüşü zəminində mənfi xüsusiyyətləri kəskin tənqid hədəfinə çevirməsi, eləcə də Kollu Koxa obrazının dərin təsir oyatması təqdir olunur. Əsərin qəhrəmanını İ.Hüseynovun digər nəsr əsərlərinin qəhrəmanları ilə müqayisədə təhlil

edən tənqidçi belə bir məntiqi nəticəyə gəlir: «Koxa, elə bil hadisələrdən, insanlardan kənarda dayanıb qüsurları, nöqsanları müşahidə etməklə məşğuldur. Qılınc Qurban, Cavanşir iş görür, fəaliyyət göstərir, Koxa isə onların nöqsanlarını, səhvlərini düzəldir, onları tərbiyə edir. Məhz buna görə də, yəni şəxsi, ictimai həyatının açılmaması üzündən Koxa «Saz»dakı İsfəndiyar kimi, Hacı kimi sevilmir.» (1, s. 65)

Ənvər Yusifoğlu, Əfqan, Gəray Fəzlinin müasir kənd mövzusunda yazılmış bir sıra nəsr əsərlərinin təhlili də eyni məntiqlə davam etdirilir. Tənqidçi yazır: «Bu əsərlərdə konkret həyat materialı – kənd mövzusu ümumiləşdirmənin qüvvəsi və genişliyi sayəsində, xarakterlərin təbiiliyi və mürəkkəbliyi sayəsində, realizmin gücü nəticəsində əxlaqi, fəlsəfi bir problemə, həyatın, cəmiyyətin ümumi istiqamətini, inkişaf perspektivini, etik keyfiyyətlərini ifadə edən bir problemə çevrilir» (2, s.67). K.Talıbzadə Bayram Bayramov, Sabir Əhmədov, Sabit Rəhman və başqa milli yazıçıların nəsr əsərlərini də bu aspektdə nəzərdən keçirir, 1966-1970-ci illərdə kənd həyatına dair yazılan və nəşr olunan bu roman, povest və hekayələrin, o cümlədən oçerklərin nəsrimizə yeni ideya-estetik xüsusiyyətlər, üslubi çalarlar bəxş etdiyini göstərir.

Çağdaş Azərbaycan bədii nəsrinin nailiyyətlərini, xüsusilə 1960-70-ci illərdə yazılan möhtəşəm sənət örnəklərini təhlil etdiyi məqalələrində tədqiqatçı bədii əsərin mövzu və ideyasını, quruluşunu, obrazlar aləmini, sənətkarlıq xüsusiyyətlərini, üslub özünəməxsusluğunu təhlil etməklə kifayətlənmir, həmçinin onun spesifikasını, müasir ədəbiyyat üçün əhəmiyyətini, çağdaş ədəbi prosesdə tutduğu yeri və əsərdə ədəbi ənənə və təsirin rolunu da müəyyənləşdirir.

İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» əsəri haqqında K.Talıbzadənin «Yazıçı ideyası və təhkiyə» adlı məqaləsi bu cəhətdən xüsusi maraq doğurur. Əsərdə mənəvi saflıq probleminin qoyuluşuna münasibət bildirən tədqiqatçı bu problemin İ.Əfəndiyevin bütün yaradıcılıq örnəklərinin mərkəzində dayandığını vurğulayır, romanda yazıçı məqsədi və ideyasının iki müxtəlif qütbdə cəmləşən, xeyirxah və çirkin əməllərə xidmət edən obrazların fikri mənəvi mübarizəsi zəminində gerçəkləşdiyini nəzərə çatdırır. K.Talıbzadənin təhlillərində romanın əsas qəhrəmanları Valehlə Sarıköynək insan mənəviyyatının paklığı uğrunda mübarizədə getdikcə saflaşan, ülviləşən, mənən təmizlənən, təcrübə qazanan, güclənən obrazlar kimi təqdir olunurlar.

Burada tədqiqatçı İ.Əfəndiyevin sənətkar özünəməxsusluğunu, əsərində təhkiyənin hansı formasına müraciət etməsini, romanın ideyası ilə üslubu arasındakı əlaqənin nədən ibarət olduğunu, nəhayət, əsərin nəsrimizə nə kimi yeniliklər gətirdiyini, onu hansı ideya sənətkarlıq keyfiyyətləri ilə zənginləşdirdiyini izah etməyə çalışır, beləliklə də, müasir nəsrimizin inkişaf yollarında onun mövqeyini müəyyənləşdirir.

«Sarıköynəklə Valehin nağılı»nı lirik-romantik üslubun ideya-estetik tələbləri baxımından təhlil edən tədqiqatçı romanı XX yüzillikdə Azərbaycan bədii nəsrinin mühüm nailiyyətlərindən biri hesab edir, onu orijinal struktura, zəngin obrazlar aləminə malik dəyərli nəsr örnəyi kimi yüksək qiymətləndirir. K.Talıbzadə geniş nəzəri təhlillər nəticəsində belə bir məntiqi qənaətə gəlir ki, həmişə yaradıcılığı ədəbi ictimaiyyətin diqqət mərkəzində olan, «öz mövzuları, həyat hadisələrinə öz yanaşma yolu» ilə fərqlənən, hər yeni əsəriylə ədəbi maraq oyatmağa müvəffəq

olan, «heç kimə oxşamayan yazıçı» İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» romanı da problematikası, mükəmməl strukturu, konfliktin xarakteri ilə, bənzərsiz yazıçı üslubu, rəngarəng, bir-birini təkrarlamayan obrazlar aləmi və təhkiyənin manerası baxımından tənqidi fikrə yeni söz deməyə, müasir bədii nəsrin ideya-sənətkarlıq xüsusiyyətlərindən söhbət açmağa geniş imkanlar yaradır. Məhz bu yüksək sənətkarlıq məziyyətlərinə görə də tədqiqatçı romanı çağdaş milli nəsrimizin üslub müxtəlifliyini təmin etmək, onun inkişafı üçün hər cür yararlı yaradıcılıq zəmini hazırlamaq cəhətdən səmərəli və faydalı bir bədii nümunə hesab edir.

K.Talıbzadə göstərir ki, romanın adındakı «nağıl» sözü təsadüfən sərlövhəyə çıxarılmamış, «konkret bədii janrı təmsil edən terminə qəsdən müraciət edilmişdir.» Tənqidçinin qənaətinə görə, yazıçının lirik-romantik üslubu romanın mövzusunu nağıl strukturunda işləmək imkanı vermiş, nağılvarilik bütünlükdə əsərin ruhuna hopmuş, surətlərin tipində, təqdimində, səciyyəsində, hadisələrin mahiyyətində özünü göstərmişdir. Məqalə İ.Əfəndiyevin yazıçı üslubuna aydın elmi-nəzəri münasibətlə səciyyələnir.

Tənqidçinin əsərin müxtəlif məziyyətləri haqqında təhlilləri də üslubi özəlliklərlə əlaqəli şəkildə reallaşır. Tənqidçi bu qənaətə gəlir ki, «Lirik-pomantik üslub surətlərin romantikləşdirilməsinə, müəllif mövqeyinin qabardılmasına imkan verir, hadisələrlə müəllif xəyalının daha fəal vəhdətinə şərait yaradır. » (1, s.35) K.Talıbzadə nəsrimizin üslub rəngarəngliyinə çalışmağı, bu sahədəki hər hansı uğurlu təşəbbüsə rəvac verməyi, onun inkişafı üçün hər cür yararlı yaradıcılıq zəminini yaratmağı mühüm və faydalı yol hesab edir.

Tədqiqatçı nəsrə dair məqalələrinin yazıldığı dövrdə bədii nəsrin problematika yeniliyi, qəhrəman konsepsiyası, ideya-bədii səviyyəsi, sənətkarlıq xüsusiyyətləri, dil və üslub məziyyətləri ilə seçildiyini vurğulayır, bütün bu keyfiyyətlərin nəsrin ədəbi prosesdə yerini müəyyənləşdirmək üçün olduqca zəngin material verdiyini göstərir və əsaslandırırdı. Kamal Talıbzadənin 1960-70-ci illər Azərbaycan bədii nəsri, bütövlükdə yeni mərhələdə milli ədəbiyyatımız, onun görkəmli nümayəndələri haqqında fikir və mülahizələri, konkret ədəbi hadisə və ya əsəri təhlil edərkən gəldiyi məntiqi elmi nəticələr, dərin nəzəri ümumiləşdirmələr çağdaş ədəbiyyatımızın ən aktual yaradıcılıq problemlərinin həllinə kömək etmiş, onun inkişaf istiqamətlərinin düzgün müəyyənləşməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Müasir ədəbi prosesi araşdıran tədqiqatçı 1960-70-ci illərdə ədəbi tənqidlə bədii nəsr arasındakı intensiv əlaqənin daha da möhkəmləndiyini, dərinləşdiyini, tənqiddə yeni keyfiyyətlər yarandığını müşahidə edirdi.

Ədəbiyyat:

1. Talıbzadə K. Seçilmiş əsərləri, 2 cilddə, c.1. Bakı, Azərnəşr, 1991.
2. Talıbzadə K. Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974.
3. Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, yazıçı, 1978.
4. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı, Yazıçı, 1988.
5. Nəbiyev B. Tənqid və ədəbi proses, Bakı, Azərnəşr, 1976.

6. Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998.
7. Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998.

Тарана Рагимли

Азербайджанская проза 1960-70-х годов в литературной критике Камаль Талыбзаде

Резюме

В статье повествуются об отношении литературной критике о новой прозы 1960-70 годов, как важная литературные события. Испытания изучения нового прозы был центром анализа научных исследлваний известного литературного критика Камал Талыбзаде. Соответствующий современным требованиям научного подхода к анализу на научной статьей были тщательно исследован прозаических произведений Илйас Эфендийев, Иса Гусейнов, Сабир Ахмедов, Байрам Байрамлы, Анвар Юсифоглу, Афган и Гярай Fazli. В статье особенно изучалось исследовании о романах И.Эфендиева и о повестах и рассказах И.Гусейнова.

Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

Tarana Rahimli

Azerbaijan prose 1960-70`s of years in the literary criticism of Kamal Talibzadeh

Sammary

In article of the 1960-70`s "new edition" of the literary criticism and literary event, this was about attitude. Well-known literary critic Kamal Talibzadeh trials of a new study of the prose was the center of the analysis. Researcher articles İlyas Efendiyev, Isa Huseynov, Sabir Akhmedov, B. Bayramly, Anwar Yusifoglu, Afghan , Garay Fazli creative , carefully researched, up-to-date scientific approach to the analysis of the prose works were on. In the article especially was studied a study about the novels of İlyas Efendiyev and about the novel and stories Isa Huseynov.

Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Təyyar Cavadov
filologiya elmləri doktoru, professor

f.ü.f.d.GÜLNARƏ ABDULLAYEVA
BDU, Şərqşünaslıq fakültəsi

YƏHUDİ ƏDƏBİYYATININ ORTA ƏSR İSPAN DÖVRÜNDƏ ÜMUMİ VƏZİYYƏTİ

Açar sözlər: İbri dili, Maymonid, Yəhudi ədəbiyyatı
Ключвые слова: Иврит, Маймонид, Еврейская литература
Key words: Hebree, Maymonid, Jewish literature

Müasir dünyamızda mədəniyyətlərarası dialoq günün vacib tələblərindən birinə çevrilmiş, müxtəlif dini-mədəni sistemləri təmsil edən xalqların yaxınlaşması mühüm önəm kəsb etmişdir. Uzun illərdən bəri səngimək bilməyən yəhudi-ərəb konfliktinin çözülməsi bir sıra mühüm məsələlərə yeni dövrün tələbləri baxımından yanaşmağı, bu iki xalqı vaxtilə bir-birinə bağlamış amilləri araşdırmağı tələb edir.

Hər bir milli ədəbiyyatın müasir səviyyəsinə nəzərən onun yaranma və inkişaf tarixini izlədikcə, istər-istəməz bu ədəbiyyatın genetik təşəkkül mənbəyi və köklərinin, digər xalqlarla ictimai-siyasi və mədəni əlaqələrinin təhlil və tədqiqlə üzə çıxarılıb müəyyənləşdirilməsinin elmi zərurət və əhəmiyyət kəsb etdiyini görürük.

Orta əsrlər ərəb ədəbiyyatı olduqca çoxşaxəli bir ədəbi proses olmuşdur. Bu ədəbiyyat ilkin olaraq ərəblərin tarixi vətəni sayılan Ərəbistan yarımadasında yaranmış, lakin İslam dininin meydana gəlib yayılması ilə əlaqədar zaman-zaman Hindistandan tutmuş Fransa sərhədlərinədək bir çox əraziləri əhatə etmişdir.

Hələ İslamdan öncəki Cahiliyyət dövründə bu ədəbiyyatın əsas prinsipləri yaranıb bərqərar olmuş, həm əsrlər boyu etalon halını almış formal cəhətlər – qafiyə sistemi, mükəmməl vəzn və obrazlar aləmi təşəkkül tapmış, həm də ədəbiyyatın mövzu, məzmun və ideya cəhətləri formalaşmışdır. (2, 25) Sonralar uzun əsrlər boyu ərəb ədəbiyyatının Cahiliyyət dönəmində yaranmış nümunələri bir təqlid mənbəyi olmuşdur. Bu təqlidçilik və onun doğurduğu epiqonçuluq hətta müasir dövrümüzdə belə özünü göstərməkdədir.

Əvvəllər yalnız ərəb dühasının məhsulu kimi meydana çıxmış bu ədəbiyyat xilafətin yaranmasından sonra zamanın axarına uyğun olaraq sırf ərəb zəminindən uzaqlaşıb ümummüsəlman ədəbiyyatı xarakteri kəsb etmişdir. Belə ki, məcburən və ya könüllü şəkildə, sidq-ürəkdən İslama tapınmış bir çox xalqlar bu ədəbiyyatın inkişafı yolunda çalışmışlar. Onların içərisində farslar, taciklər, Anadolu, Orta Asiya və Azərbaycanın türk xalqları da daxil olmaqla əksər türklər, gibti və bərbərlər, yunanlar, eləcə də VIII əsrin əvvəllərində ərəblər tərəfindən fəth edilmiş İspaniyanın bir sıra yerli xalqları, o cümlədən yəhudilər də var idi. (6, 16) Ona görə də, ərəb ədəbiyyatı məfhumu möhtəşəm bir anlam olub, bir çox zamanlarda bir çox xalqların yaratdığı cahanşümul müsəlman mədəniyyətinin tərkibindəki böyük bir ədəbi irsi əhatə edir. Bu ədəbiyyatın ideya-məzmun istiqamətlərinin və sənətkarlıq xüsusiyyətlərinin zənginliyi, çoxcəhətliliyi də məhz bu amillə, yəni onun bir çox xalqların bədii fikir və qəlb dünyasından qaynaqlanması ilə bağlıdır.

Klassik müsəlman-ərəb ədəbiyyatının məhsuldar qollarından birini də İspaniyada yaranmış Əndəlus ədəbiyyatı təşkil edir. Bu ədəbiyyat klassik ənənələrə nə qədər bağlı olsa da özündə orijinal cəhətləri də cəmləşdirmişdir. İlk vaxtlar ərəb-

ispan ədəbiyyatında təqlidçilik və epiqonçuluq aparıcı istiqamət təşkil etsə də, getdikcə burada istər nəzm, istərsə də nəsr sahəsində orijinal əsərlər də meydana gəlmişdir. (6, 30)

Poeziyada orijinallıq ilk vaxtlar yalnız ideya-məzmunla bağlı zühur etsə də, zaman-zaman formaya da müdaxilə edib Muvaşşah və zəcəl şeirlərinin yaranması ilə nəticələnmişdir. Beləliklə, əsrlər boyu ərəb qəsidələrində hegemon olmuş iki cəhət – vahid qafiyə sistemi və vahid bəhrin gözlənilməsi prinsipi məhz ilk dəfə artıq ərəb-ispan ədəbiyyatında nəzərə alınmır. Bu prinsiplərdən qurtulmuş rəngarəng şeir formaları da məhz İspaniyada yaranır.

Poeziya ilə yanaşı ərəb-ispan ədəbiyyatının nəsr qolunda da yeniliklər yaranırdı. Bu, bədii nəsrdə fəlsəfi təmayülün güclənməsi ilə özünü göstərirdi. İspaniyadakı ərəb nəsri həyat, varlıq, insan cəmiyyəti, buradakı konseptual ideyalar və fikir axınları, varlığın sirləri ilə bağlı bir çox problemlər və həmin sirlərdən irəli gələn fəlsəfi-ideoloji və psixoloji fikirlərin ifadəsi, inikası və əksi ilə səciyyəvi idi.

Ərəb-ispan nəsrini Şərqdə yaranmış nəsrdən fərqləndirən əsas cəhət isə burada fəlsəfi fikirlərin ifadəsi, bədii əsərlərin dərin fəlsəfi tutumu oldu. Başqa sözlə desək, bu fəlsəfi nəsr idi. (6)

Ərəb-ispan ədəbiyyatı bütün müsəlman dünyasında şöhrət qazanmış İbn Zeydun, İbn Hani, İbn Tüfeyl, İbn Rüşd, İbn Həzm, İbn Əbdi Rəbbihi, İbn Ərəbi kimi şairləri, ədibləri, mütəfəkkir filosofları yetişdirmişdir. Onların yaradıcılığı yalnız Şərq ədəbiyyatına deyil, eləcə də Qərb ədəbiyyatına da dərin təsir buraxmaq baxımından səciyyəvi idi.

Digər tərəfdən, Əndəlus ədəbiyyatı Şərq-Qərb arasında bir körpü rolunu oynayırdı. Bu cəhətdən, İspaniyadakı real həyat və cəmiyyət hadisələrindən nəşət almış və orta əsrlərdə fəlsəfi məzmunlu ərəb məqamələrinin təsiri ilə yaranmış kələkbazlıq romanlarını, eləcə də İbn Tüfeylin «Hayy ibn Yaqzan» əsərindən təsirlənmiş ingilis yazıçısı Daniel Defonun məşhur «Robinzon Kruzo» romanını, yenə də ərəb-müsəlman esxatologiyasından, xüsusilə Məhəmməd peyğəmbərin Meracı ilə bağlı rəvayətlərdən və Əbül-Əla əl-Məərrinin «Risələtul-ğufran» əsərindən qaynaqlanmış italyan şairi Aligyeri Dantenin «İlahi komediyası»nı ayrıca qeyd etmək lazımdır.

Digər tərəfdən, tədqiqat mövzumuzla bağlı orta əsrlər yəhudi elm və mədəniyyətindəki ilkin intibahın məhz müsəlman İspaniyasında baş verdiyini də xüsusilə vurğulamaq yerinə düşər və bu fakt da öz növbəsində islami zəminin heç bir xalqın inkişafı önündə sədd çəkmədiyinə bir sübutdur.

Yəhudilər öz mənəvi-dini xüsusiyyətlərini qoruyub saxlamağa çox meyilli bir etnik qrup olmuşdur. Yəhudilərin dini və mədəniyyəti başqa mədəniyyətlərlə toqquşmalar zamanı bir çox dəyişikliklərə məruz qalmışdı, lakin onların içində əriyib itməmişdi. Bu özünü yəhudi-ərəb mədəni-ədəbi əlaqələrində də göstərir. Bu əlaqələrdə kifayət qədər qarşılıqlı faydalı təsir özünü göstərmiş, amma heç bir mədəniyyət digərinin içərisində əriməmişdir.

Yəhudilər üçün orta əsr dövrünün başlanmasını onların həyatlarında bu dövrdə gedən yüksəlişə görə ayırmaq olar. Məlumdur ki, dünya xəritəsini bütövlüklə dəyişən ərəblər, böyük bir İslam imperiyası – xilafət yaratmağa müvəffəq olmuşlar.

Böyük bir ərazinin İslam bayrağı altında birləşməsi və bu hökmranlığın İspaniyada da bərqərar olması bu ərazilərdə yaşayan yəhudilərin mədəni-mənəvi inkişafının həlledici mərhələlərindən birinə çevrildi. Bu dövr yəhudi xalqının tarixinə «Qızıl əsr» kimi yazılıb.

Bütün İslam imperiyası ərazisində, əsasən də həmin dövrdə ərəb İspaniyasında – Əndəlusda yaşayan yəhudilər öz tarixlərində ən parlaq izlər qoydular. Yəhudi xalqının varlığı, onların yaşayıb yaratmaq qabiliyyətləri bu dövrdə özünü çox gözəl büruzə verdi. Orta əsrlərdə yəhudilər bir xalq kimi onların varlığının əsasında duran İudaizmin əsas ideyalarını inkişaf etdirdilər, ibri dilində dünyəvi poeziya yaratdılar, ibri dilinin qrammatikası, lüğəti üzərində böyük işlər gördülər. Bütün sonrakı əsrlərdə yazıb-yaradan yəhudi şair və yazıçıları bu dövrdən tükənməz bir mənbə kimi faydalanıblar. Bütün bunlar xristian Avropasında deyil, məhz Avropanın İslam imperiyasının hakimiyyəti altında olan ərazisində, yəni Əndəlusda baş vermişdir.

Ərəb İspaniyasında yəhudilərin ədəbi-bədii və elmi-nəzəri yaradıcılıq həyatını ümumən yəhudi mədəni irsinin zirvəsi hesab etmək olar.

Həmin dövrdə Əndəlusdakı ərəb ədəbiyyatı haqqında mənbələr zəngin olsa da, ibri dilində yazılan ədəbiyyat haqqında çox az məlumatlar vardır. Maraqlı haldır ki, o dövrdə yəhudi ədəbiyyatının durumunu əks etdirən əsərlərin də bir çoxu ərəbcə yazılmışdır.

Ərəb ədib və alimlərinin ərəb dili və ədəbiyyatı barədə kitablarından geniş istifadə etmiş yəhudi şair və filoloqları öz ədəbiyyatlarını yaradır, ədəbiyyatşünaslıq məsələlərini araşdırır və ibri dilinin qrammatikasını sistemləşdirməyə can atırdılar. Ərəb dilində yazıb-yaradan yəhudi alimlərinin ibri dilində də yazmağa başlamaları bu dövrdə ibri dilinin qrammatikasının inkişafına və tədqiqinə səbəb olmuşdur. Ərəb ədəbi-bədii janr nümunələrindən istifadə edən yəhudi ədib və şairləri ibri dilində də anoloji janr, üslub nümunələri yaratmağa can atırdılar. (4, 18)

Ərəb ədəbi mühitində olduğu kimi yəhudilər arasında da ensiklopedizmə meyil gülcü idi. Yəni yəhudi alimi həm də şair, yəhudi şairi həm də alim və filosof idi. Bu dövrdə yaşayıb-yaratmış alimlərin əksəriyyəti ədəbi-bədii yaradıcılıqla məşğul idilər. Lakin onlar həm də qrammatika və ədəbiyyatşünaslıq sahəsində tədqiqatlar da aparırdılar. Bunlardan Xazday ibn Şaprut, Moşe ibn Ezra, Şlomo ibn Qabirol, Avraham ibn Ezra və başqalarını göstərmək olar. Orta əsrlərdə ibri dilinin inkişafına ən böyük təkan verən tərcümə işləri oldu.

Yəhudi alimləri, şairləri, yazıçıları bir tərəfdən ərəbcə yazıb-yaradır, digər tərəfdən isə ərəb dilli ədəbiyyatı ibri dilinə tərcümə edərək dilin inkişaf etməsinə şərait yaratmışdılar. Məsələn, məşhur yəhudi filosofu Maymonidin ərəb dilində yazdığı «Mütərəddidlərin müəllimi» kitabını Avraham ibn Ezra ibri dilinə tərcümə etmişdir. Bu dövrdə gedən bir çox proseslər ibri dilində olan ədəbiyyatın inkişafına böyük təsir göstərmişdir. (5)

Orta əsrlərin həm ərəb, həm də ibri dilini mükəmməl bilən ədiblərinə inkişaf etmiş ərəb dilindən bir nümunə kimi istifadə etmək çox rahat idi. Sami dilləri ailəsinə mənsub olduqlarına görə bu dillərdə həm leksik vahidlərin, həm də qrammatik formaların tarixən bir-birilə qaynayıb-qarışmaları nəticəsində bir çox oxşar əlamətlər yaranmışdı. Ərəb bədii ədəbiyyatının bənzər nümunələrini, ərəb şeir, poeziya janrlarını eynilə ibri dilində də yaratmaq çox rahat idi. Biz bunu

Yehuda ha-Levinin, Şlomo ibn Qabirolun əsərlərində görürük. Yehuda əl-Hərizinin də ibri dilində yazdığı nümunələr sonraki dövrlərdə yəhudi qrammatikləri üçün tədqiqat obyektinə çevrilmişdir.

Müasir ibri dilinin əsasını təşkil edən Aşkenazi yazısı və Sefard tələffüzü də bu dövrdə təşəkkülə başlamışdır. Orta əsrlərdə ibri dili o qədər təkmilləşmişdi ki, hətta sonrakı dövrlərdə gündəlik istifadə olunmamasına baxmayaraq yəhudi xalqının yadından çıxmamış, XX əsrə qədər yaşamış və 1947-ci ildə İsrail yarananda onun ərəb dili ilə bərabər dövlət dili kimi qalmasına səbəb olmuşdur. Bu «Qızıl əsr» ibri dilinin indiki danışıq dili, bir yazılı ədəbi dil kimi mövcudluğuna rəvac vermişdir.

Ədəbiyyat

1. Cabir İsgəndərli. Cahiliyyət dövrünün bütpərəst ərəbləri və monoteizm. Bakı.
2. Qasımova A.Ş. Cahiliyyət ərəblərinin dini təsəvvürlərində monoteizmin yeri: yəhudilik. Elmi axtarışlar. (VII buraxılış). Bakı, 2004.
3. Qasımova A. XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri (Qazi Bürhanəddin, Nəsimi, Xətai və Füzulinin ana dilində olan əsərləri əsasında). Bakı: Bakı Universiteti nəşriyyatı. 1998.
4. Абба Эвен. Мой народ. Иерусалим, 1990.
5. Александр Иванов. Путешествие по Андалусии в поисках страны Сефарад. М., 1998.
6. Арабская поэзия средних веков (пер. с арабского; вступит. статья К.Яшена. Сост., послесл. и примеч. И.Фильштинского). М., 1975.
7. Великие имена в еврейской истории. Израиль, 1992.
8. Галкин А. Иудео-исламская эпоха. – «Три великие эпохи в истории еврейского народа», Иерусалим, 1991.

Г.М.Абдуллаева

Общее положение еврейской литературы в средневековой Испании

Резюме

В статье говорится об арабо – еврейской культуре, которая нашла своё развитие в средневековой Испании. В этом периоде арабская литература и культура сильно влияли на еврейскую.

В еврейской и мировой литературе этот период (X-XIII в.в.) называют «Золотым веком».

Abdullaeva Q.

The common situation of Jewish literature in midcentruy's Spain

Summary

The article is about the Jewish -Arabian culture that has developed in Spain in midcentury. In this period Arabian literature had a huge influence to the Jewish literature. This period (X-XIII) is called "Golden Century" both in Jewish and World literature.

Rəyçi: Prof. A.Qasımova

SEVINC RƏHİMOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun doktorantı

TƏNQİDİN METODOLOJİ PROBLEMLƏRİ

Açar sözlər: tənqid, metodoloji problemlər, məqalə, ədəbi proses, dövr.
Ключевые слова: критика, методологические проблемы, статья, литературный процесс, период.
Key words: critism, methodological problem, literary prosess, article, epoch.

Spesifik idrak hadisəsi olan tənqid yalnız bədii ədəbiyyatın inkişaf perspektivlərini, məzmun, obraz və xarakter təsnifatını müəyyən etmir, eləcə də ədəbi prosesi yaxından izləyir, bütövlükdə müasir ədəbi-bədii fikrin analizini verir. Dövrün təfəkkür prosesində tənqid bədii düşüncə ilə ümumestetik, ümum-elmi meyarlar kontekstində çıxış edərək müasir idrakın səciyyəvi xüsusiyyətinə çevrilir. Özündə bədiiliklə elmiliyi sintez edən tənqid yalnız obrazlı təcəssümetdirməni təhlil etməklə kifayətlənmir, həm də özünün inkişaf yolunu, metodologiyasını müəyyənləşdirməyə çalışır. Tənqid metodoloji cəhətdən, həmişə eyni mövqeyini qoruyub saxlaya bilmədiyi kimi, bədii ədəbiyyata yanaşma metoduna görə zaman-zaman fərqli situasiyalarda çıxış edir. Ədəbi-bədii fikirdə baş verən axtarışlar tənqiddən də yan keçməmiş, ədəbi-bədii fikir mübadiləsinin aparılmasında, yaradıcılıq atmosferinin canlanmasında, ictimai, bədii fikrin formalaşmasında müəyyən rola malik olmuşdur. Belə demək mümkünsə, tənqidin özünütənqid və özünüdərk prosesi ilə məşğul olması onun axtarış dairəsini genişləndirir, estetik təsir imkanlarını artırmış olur. Bu baxımdan Elçinin tənqidi yaradıcılığı çoxşaxəli, monumental və problematikdir. O, bir tənqidçi kimi yalnız bəzi materialı - mövcud olanı təhlil etmir, eyni zamanda tənqidin nəzəri, ədəbi-estetik istiqamətlərini də işləyib hazırlamağa üstünlük verir. Uzun müddət ədəbi tənqidimizdə elmi-nəzəri, estetik konsepsiyalara lazımi diqqət yetirilmədiyi halda, Elçin tənqidin özünə, problemlərinə nəzər yetirərək onun estetik prinsiplərini nəzəri, metodoloji cəhətdən işləyib hazırlaya bildi. Tənqidçi Ş.Alışanov doğru qeyd edir ki: "Elçini tənqidimizin müasir nəzəri-estetik səviyyəsi, təhlil mədəniyyəti, metodoloji hazırlığı daha çox narahat edir. Azərbaycan tənqidinin 60-70-ci illərdə professionallıq baxımından irəliyə hərəkəti ilə yanaşı, onun ictimai-ədəbi fikrin inkişafında əngələ çevrilən cəhətləri müəllifi eyni dərəcədə düşündürür. Tənqidin nəzəri savadı artır, ümumittifaq və dünya estetik fikrinin nailiyyətləri ilə silahlanır - bu müəllifin ardıcıl təqdir və tələb etdiyi vacib mətləblərdir" (1).

Tənqidçinin bütün məqalələrinin tənqidi metodologiyası ilə estetik konsepsiyası vəhdətdə çıxış etdiyi kimi, ayrıca tənqidin dərkolunma, metodoloji problemlərinə həsr olunmuş nəzəri məqalələri də yox deyildi. "Tənqidimizin metodoloji problemləri" (birinci məqalə), "Tənqidimizin metodoloji problemləri" (ikinci məqalə), "Azərbaycan tənqidinin axtarışları", "Tənqid və ədəbiyyatşünaslığımızın yaradıcılıq problemləri", "Müasir tənqidimiz, vəziyyət və vəzifələr" (Azərbaycan ədəbi tənqidi haqqında düşüncələr), "Tənqidçinin "məni" və tənqidin problemləri" və s. məqalələrində tədqiqat obyektini ədəbi tənqidin özünüdərk problemi, metodoloji istiqamətləri və qanunauyğunluqları təşkil edir.

Aydındır ki, tənqidin 1920-50-ci illər təşəkkül mərhələsində onun əsasını marksist-leninçi metodologiya təşkil edirdi. Bədii ədəbiyyat kimi ədəbi tənqiddə də ideologiya, partiyalılıq prinsipləri önə çəkilirdi.

Marksizm-leninizm metodologiyası bədii ədəbiyyatla yanaşı, ədəbi tənqidin də qarşısında müəyyən vəzifələr qoyurdu. Bu zaman ədəbi tənqidin vəzifəsi gündəlik canlı ədəbi prosesə müdaxilə etmək, ideoloji cəhətdən yazılmış əsərlərə qarşı həssas olmaq, marksizm-leninizm prinsiplərinə uyğun gələn əsərlərə vaxtında və "ədalətli" qiymət vermək, yazıçıya, yaxud oxucuya kömək etmək, onu əsərin ideoloji məqsədlərinə istiqamətləndirmək dərəcəsində məhdudlaşdırılırdı. "Ədəbi-bədii tənqid haqqında" Sov. İKP MK-nın müxtəlif dövrlərdə qəbul etdiyi qərarlar ədəbi tənqidi də sovet ideologiyasının ruporuna çevirmək, ideoloji mübarizənin ön sıralarına çıxarmaq məqsədi daşıyırdı. Eyni zamanda ədəbi tənqid sovet ideologiyasına yad estetik, nəzəri prinsiplərin ayaq açmasına, "mürtəce, burjua" ədəbiyyatının, sənətinin zərərli təsirinə qarşı mübarizənin keşiyində durmağı başlıca məqsədlərdən biri hesab edirdi.

Elçinin ədəbi tənqidi yaradıcılığa başladığı dövrdə isə tənqid sosialist realizmi metodu məsələlərinə yaradıcı yanaşmanı zəruri hesab edir və tənqidin metodoloji səviyyəsinə yüksəlməklə bağlı elmi-nəzəri, tənqidi araşdırmalar aparılırdı. Xüsusilə, tənqidçilərdən Asif Əfəndiyevin, Yaşar Qarayevin, Məsud Əlioğlunun, Ş.Salmanovun məqalələrində cəmiyyət, həyat və sənət haqqında özünəməxsus fikirlər səsləndirilir, tənqidin yeni metodoloji prinsipləri işlənib hazırlanırdı. Elçinin yuxarıda göstərdiyimiz məqalələri də ədəbiyyat, ədəbi proses haqqında tutarlı, maraqlı fikirlər söyləməklə kifayətlənmir, bütövlükdə vətəndaş narahatlığı ifadə edir, yaşadığı cəmiyyət hadisələrinə müdaxilə etməkdən belə çəkinmirdi. Ən əsası isə Elçinin tənqidi məqalələrinin elmi-nəzəri səviyyəsi janrın nüfuzunu artırır, getdikcə ideoloji yüklərdən azad olurdu. Elçinin yaradıcılığında tənqidin tənqidi ilə onun metodoloji problemləri bir-birini tamamlayan vəhdətdə çıxış edir. Onun tənqidi materiallarında ədəbi materiala əsaslanma və nüfuzetmə üstünlük təşkil edir. Sosialist realizmi metodu üçün səciyyəvi olan ideoloji postulatlar, prinsip və vəzifələr mexaniki şəkildə ədəbiyyatımıza tətbiq edilmir. "Müasir tənqidimiz. Vəziyyət və vəzifələr" (bu məqalə "Protiv provinsializma v kritike" ("Drujba narodov", 1973 N4) adı ilə dərc olunmuş və ilin ən yaxşı məqaləsi mükafatını almışdır) məqaləsində tənqidin qarşısında duran vəzifələri (bu vəzifələrin çoxu sosialist realizmi metodu ilə üst-üstə düşmürdü) müəyyənləşdirməyə çalışırdı. Ədəbi tənqidin əsas xüsusiyyəti kimi prinsipiallığı qəbul edən tənqidçi bu xarakter daxilində obyektivlik, elmi-nəzəri səviyyə, vətəndaş qeyrəti, sağlam məfkurə, yüksək bədiilik kimi komponentləri əsas götürürdü. Azərbaycan ədəbi tənqidinin ümumi mənzərəsinə nəzər salan tənqidçi son dövrlərdə tənqiddə polemikanın zəifləməsini qeyd edir və diqqəti ona çəkir ki, 20-30-cu illərin tənqidindəki pafosu və ifrat meylləri çıxmaqla onun polemik keyfiyyətini yaşatmaq lazım gəlir. Ədəbi prosesdə saysız-hesabsız tənqidi məqalələrin monoton xarakteri resenziyaçılıq, təhlil əvəzinə tərifçilik tənqidin yeni metodologiyasının formalaşmasına mane olan amillərdən hesab etməsi yerinə düşür (74, 23).

Elçinin yaradıcılığında tənqidin tənqidi ilə onun metodoloji problemləri bir-birini tamamlayan vəhdətdə çıxış edir. Onun tənqidi materiallarında ədəbi materiala əsaslanma və nüfuzetmə üstünlük təşkil edir. Sosialist realizmi metodu üçün səciyyəvi olan ideoloji postulatlar, prinsip və vəzifələr mexaniki şəkildə ədəbiyyatımıza

tətbiq edilmir. "Müasir tənqidimiz. Vəziyyət və vəzifələr" (bu məqalə "Protiv provinsializma v kritike" ("Drujba narodov", 1973 N4) adı ilə dərc olunmuş və ilin ən yaxşı məqaləsi mükafatını almışdır) məqaləsində tənqidin qarşısında duran vəzifələri (bu vəzifələrin çoxu sosialist realizmi metodu ilə üst-üstə düşmürdü) müəyyənləşdirməyə çalışırdı. Ədəbi tənqidin əsas xüsusiyyəti kimi prinsipiallığı qəbul edən tənqidçi bu xarakter daxilində obyektivlik, elmi-nəzəri səviyyə, vətəndaş qeyrəti, sağlam məfkurə, yüksək bədiilik kimi komponentləri əsas götürürdü. Azərbaycan ədəbi tənqidinin ümumi mənzərəsinə nəzər salan tənqidçi son dövrlərdə tənqiddə polemikanın zəifləməsini qeyd edir və diqqəti ona çəkir ki, 20-30-cu illərin tənqidindəki pafosu və ifrat meylləri çıxmaqla onun polemik keyfiyyətini yaşatmaq lazım gəlir. Ədəbi prosesdə saysız-hesabsız tənqidi məqalələrin monoton xarakteri resenziyaçılıq, təhlil əvəzinə tərifçilik tənqidin yeni metodologiyasının formalaşmasına mane olan amillərdən hesab etməsi yerinə düşür (2, 23).

Maraqlıdır ki, tənqidçi Elçinin bu narahatlığını paralel olaraq Y.Qarayev də görür və qeyd edirdi. Tənqid tendensiyasının bədii fikrin tendensiyasını qabaqlamadığını bildirən tənqidçi "Dəli Kür" kimi nəsr əsərini "dərindən açan", onu tənqiddə yenidən yaradan, "tənqid obrazının yaranmadığına təəssüfünü gizlətmirdi: "Bədii prosesi biz bu tənqiddə hərəkət və inkişafında, fəal dirilik şəklində görürük. Ədəbi aləmi bütünlükdə düşündürən, tərpədən, hərəkətə gətirən problem məqalələrin tədqiqində görmürük.

Tendensiya və təmayüllər əvəzinə ayrı-ayrı imzalar, adlar və əsərlər, konsepsiya əvəzinə epizodlar-bütün bunlar ədəbiyyatı cansız sxematik aləm kimi yox, məhz hərəkət edən canlı bir proses kimi qavramağa və tədqiq etməyə kömək etmir" (5).

"Cansızlıq, "sxematiklik", "tendensiyaçılıq" Elçinin də tənqid estetikasında müasir ədəbi tənqidimiz üçün səciyyəvi xüsusiyyət hesab olunur. Bu zaman tənqidçi mövcud vəziyyətdən çıxış edir və müəyyən mənada sovet ədəbi tənqidinin sərhədlərinin məhdudluğuna (və ya qəsdən məhdudlaşdırılmasına!) işarə edirdi. Bu vəziyyət elə bir həddə gəlib çatmışdı ki, hətta tənqiddə "emosional" və "analitik" olmaq üzrə müəyyən bölgünün aparılması haqqında söhbət gedirdi. Bu isə tənqiddə birtərəfliliyə gətirib çıxarırdı. Tənqidçi yalnız Azərbaycan tənqidi üçün deyil, ümumən sovet ədəbi tənqidi üçün səciyyəvi olan bu halı metodoloji cəhətdən düzgün hesab etmir və çıxış yolunu analitikliklə emosionallığın vəhdətində görürdü.

Qeyd edək ki, tənqidə bu baxış tamamilə yerində olmaqla, janrı yeni metodoloji istiqamətə yönəldən faktor olaraq diqqəti çəkir. Belə ki, bu zaman hər hansı ədəbi hadisələrin baş verdiyi zaman tənqidin bəzən susması, bəzən isə "dişsizliyi", yəni Elçinin də göstərdiyi kimi emosionallığı "ədəbi tərifə" (Y.Qarayev) gətirib çıxarırdı. Halbuki tənqid bədii materialın (yaxud yazıçının, şairin) ardınca sürünməməli, əksinə bədii materialdan çıxış edərək həyat, cəmiyyət, eləcə də əsərin əhatə etdiyi hadisə və keyfiyyətlərin mahiyyətinə enməlidir. Tənqid həm də ictimai proseslərin təhlili olmalı, lakin bu proseslər düzxətli, birxətli deyil, bütün ziddiyyətləri ilə əks olunmalıdır. Bütün bunlar ədəbi tənqidin analitikliyini və effektivliyini də təmin etmiş olurdu.

Azərbaycan tənqidinin bir yaradıcılıq növü olaraq vəziyyəti, ideya və məzmunu, ictimai rəyə nüfuz dairəsi, ədəbi prosesə intensiv şəkildə daxil olması məsələlərinə Elçinin "Müasir Azərbaycan tənqidinin axtarışları" məqaləsində də cavab axtarılır. 80-ci illərin əvvəllərinin tənqid təsərrüfatını fundamental şəkildə araşdıran

tənqidçi ədəbi tənqidin inkişafına mane olan amilləri də aşkara çıxarır. Dövrün ədəbi tənqidi məhsulları sərf-nəzər edilərək iki yerə ayrılır:

1. Elmi-nəzəri səviyyəsinə görə tənqidin hadisəsinə çevrilən, janrın inkişafını irəli aparan tənqid.

2. Fərdi qiymət və bədii-estetik zövq səviyyəsindən yuxarı qalxa bilməyən tənqidi yazılar. Birinciyə nisbətən ədəbi-tənqidi təsərrüfatımızda çoxluq təşkil edən bu yazılar müəllifin özünün də qeyd etdiyi kimi, "çox zaman: "... hətta fərdi özünütəsdiq dərəcəsinə belə gəlib çatmır və biz əslində səriştəsiz, dayaz, mübaliğəli, bəzən kökündən yanlış və metodoloji baxımdan ziyanlı mülahizə və münasibətlərin şahidi oluruq" (3. 53).

Azərbaycan ədəbiyyatının problemlərinə və ədəbi prosesə həsr olunmuş onlarla monoqrafiya və kitabları (M.Cəfər "Həmişə bizimlə", K.Talıbzadə "Sənətkarın şəxsiyyəti", Ə.Mirəhmədov "Yazıçılar, talelər, əsərlər", Ə.Ağayev "Əsrin tərənnümü", A.Zamanov "Əməl dostları", M.Əlioğlu "Amal və sənət", Ə.Hüseynov "Sənət yanğısı", B.Nəbiyev "Təzə izlər sorağında", Q.Xəlilov "İdrak və həyat", Y.Qarayev "Poeziya və nəsr", A.Hüseynov "Nəsr və zaman", T.Mütəllimov "Sənət qayğıları", X.Əlimirzəyev "Ədəbi qeydlər" və s.) tənqidin uğurları və metodoloji təsdiqi kontekstindən təhlil edən tənqidçi, ümumən tənqid təsərrüfatımızdakı boşluqları, zəiflik və qüsurları da görür və göstərirdi. Tənqidçini ən çox narahat edən problemlərdən biri bir-birini təkrarlayan resenziyaların yazılmasıdır. Müəllifin müşahidəsinə görə yalnız respublika mətbuatında deyil, eləcə də ümumittifaq mətbuatında "şeir axınından", "hekayə axınından" şikayət edilməsinə rəğmən, "nədənsə "sönük məqalələr və resenziyalar axınından" şikayət edilmir. Halbuki bu cür məqalə və resenziyalar ədəbiyyatın inkişafına əngəl olan amillərdən hesab olunmalıdır.

Elçin tənqidin metodoloji və yaradıcılıq problemləri ilə məşğul olarkən, yalnız nəzəri baxımdan fikrini əsaslandırmır, həm də bu nəzəri mülahizələri məqalələrində tətbiq etməyə çalışırdı. Beləliklə, tənqidin yaradıcılıq axtarışlarına həsr olunmuş məqalələrdən də "tənqid necə olmalıdır" tezisi ilə kifayətlənmir, onun necə olmalı olduğunu faktlarla göstərir, ədəbi prosesdəki təmayüllərin elmi təhlilini verirdi. Tənqidçinin nəzəri təsnifatları faktlarla daha da möhkəmləndirilirdi. O, tənqiddə ümumiləşdirmə nisbətinə üstünlük verirdi. Hər hansı bir tənqidi, yaxud tədqiqatlarda "fikir genişliyini", "elmi-nəzəri təfəkkür yüksəkliyini", "yaradıcılıq psixologiyasının dərinliklərinə varmaq bacarığını" yüksək qiymətləndirirdi. Tənqidin başlıca olaraq bəhs etdiyi predmetin, dövrün, psixologiyanın fəlsəfəsini açmaqda çətinlik çəkməsini, bəzən isə buna heç cəhd də göstərməməsini" xüsusi vurğulayaraq, metodoloji prinsipləri müəyyənləşdirməyin zəruriliyini önə çəkirdi: "Müasir ədəbiyyatın nəzəri təsnifatı, onun tipikləşdirilməsi ədəbi tənqidin metodoloji məharəti və dəqiqliyi ilə ən sıxı əlaqədardır. Çünki nəzəri müddəalar, elmi nəticələr və bu zaman bədiiliyə verilən qiymət bilavasitə tənqidin öz tədqiq və predmetinə yanaşma üsulunun, yəni metodoloji prinsiplərə riayətinin sayəsində yaranır" (2, 138).

Elçin ədəbi tənqidin metodoloji problemlərini diqqət mərkəzinə çəkməsi ilə ədəbi tənqiddə mövcud olan yeknəsəkliyi aradan qaldırmağa, bədiiliyin qiymətini verərkən subyektivizmə yol verməməyə, bir sözlə, janrı metodoloji qüsurlardan azad etməyə çalışırdı. Ədəbi tənqidin istər nəsr və poeziyada, istərsə də dramaturgiyada yanaşma üslubundakı qüsurları aşkara çıxararkən onu metodoloji səhvlərdən sığortalayırdı. 80-ci illərin əvvəllərində yazdığı məqalələrdə ("Tənqidimizin meto-

doloji problemləri") (birinci və ikinci məqalə) daha çox hər hansı bir tənqidçinin (birinci məqalədə Akif Hüseynovun, ikincidə Arif Hacıyevin) ümumən ədəbiyyatımızın hər hansı bir faktına, hadisəsinə düzgün yanaşmaması (A.Hüseynovun Azərbaycan nəsrini Pribaltika və gürcü ədəbiyyatları ilə müqayisə etməsi, A.Hacıyevin oxucunun dili ilə ümumittifaq ədəbi meyarlarını əsas götürməsi və ona üzdən yanaşması) elmi, ədəbi-tənqidi cəhətdən təhlil edilirdisə, sonrakı illərdə tənqidin qlobal məsələlərini tədqiq obyekti edirdi. "Tənqid və ədəbiyyatşünaslığımızın yaradıcılıq məsələləri" , "Tənqidçinin "mən"i və tənqidin problemləri", "Tənqidin vətəndaşlığı", "Nəsrimizdə konflikt və xarakter problemini tədqiqi", "Azərbaycan tənqidinin axtarışları", "Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri" və s. məqalələrində ədəbiyyatın hərtərəfli öyrənilməsində tənqidin yerini, rolunu, metodoloji prinsiplərini işləyib hazırlayır, onu düzgün istiqamətə yönəltməyə çalışırdı.

Məlumdur ki, yaşadığımız cəmiyyət, ictimai həyat yeniləşdikcə ədəbiyyatın ictimai həyata, tənqidin isə ədəbiyyata münasibətində də yeniləşmə baş verir.Məhz 80-ci illərin sonları da ictimai-həyat kimi ədəbiyyatda, tənqiddə də bu yeniləşməni zəruri edirdi. Azərbaycan ictimai, ədəbi fikrini yeni dövrə hazırlamaq üçün tənqidin üzərinə düşən vəzifələri Elçin ilk görən və problemi bütün mahiyyəti ilə qaldıran tənqidçilərdən olur. Elçinin fikrincə, tənqid (yaxud tənqidçi!) bu dövrdə daha artıq vətəndaş cəsarəti, milli-mənəvi təəssübkeşlik və bəşəri ehtiva, öyrənmək və öyrəndiklərini müasirlərinə çatdırmaq, obyektiv prinsipiallıq və tələbkarlıq göstərməlidir. Lakin bütün bunlar tənqidçidən dəyişən (yaxud dəyişməkdə olan!) ictimai-siyasi, ədəbi təfəkkürün keçib gəldiyi yola yenidən nəzər salmağı, ədəbi fakt və hadisələri sərf-nəzər etməyi tələb edirdi. Tənqidçi fakt və hadisələri qələmə alarkən və onun bədii-estetik qiymətini verərkən əsas götürülən metodoloji prinsiplərin "hakim aparatı" və "ictimai quruluşun" təzyiqinə məruz qalmamasını əsas götürürdü. Uzun illər boyu sovet ədəbiyyatına tətbiq edilən metodoloji prinsiplərin müasir bədii-estetik ehtiyacı ödəmədiyi tənqidçinin təsfirində elmi-nəzəri cəhətdən əsaslandırılır. Sənətdə partiyallılıq, mövzunun aktuallığı kimi məsələlər mövcud ədəbi tənqid tərəfindən vulqar-sosioloji mövqedən də təhlil edilirdi.

Bütün bunlar ölkəmizin keçib gəldiyi ictimai-siyasi, ədəbi həyat yolunun fakt və hadisələri olsa da, yeni mərhələdə artıq öz qüvvəsini itirdiyini reallıq kimi qəbul edən Elçin həmin reallığı görmək, göstərmək lazım olduğunu cəsarətlə qeyd edir. Tənqidçi Elçin bu meyarları dağıtmaq, ondan qurtulmaq üçün yalnız ədəbi tənqid sferasında düşünmür, yeni dövr üçün metodoloji prinsiplərin işlənməsinə çalışırdı: " ... Yaxın keçmişimizin siyasi-ictimai həyatındakı müəyyən bir dövrü (hətta mərhələni!) bu gün biz "durğunluq dövrü" kimi qiymətləndiririk, lakin indi sanki o durğunluq ictimai-siyasi mündəricəsindən ayrılıb yenidənqurma dövründə Azərbaycan ədəbi prosesini səciyyələndirməyə başlayıb: ədəbiyyatşünaslar susub, tənqidçilər susub, yenə də sönük və "növbətçi" dissertasiyalar, məqalələr, resenziyalar, hərgah belə demək mümkünsə, ədəbi məmulat məhsulları..." (4).

Tənqidçinin bu fikirləri ədəbi tənqidin və ədəbiyyatşünaslığın perspektivi üçün ona görə aktual səslənir ki, dövrə, mövcud ədəbi hadisə və faktlara metodoloji cəhətdən doğru yanaşır. İlk dəfə olaraq ədəbi tənqidi özünüdərk prosesinə dəvət edir: ədəbi tənqidin, yaxud ədəbiyyatşünaslığın keçmişi qiymətləndirməsi lazımdır, lakin müasir ədəbi hadisə və faktları yeni metodologiya baxımından qiymətləndir-

mək ondan da vacibdir. Bu mənada tənqidçinin ədəbi tənqidimizdə "vətəndaşlıq biganəliyinin" olduğunu və mürgü "mərhələsini" keçirdiyini etiraf etməsi başadüşüləndir.

Elçin tənqidin tənqidi və metodoloji problemləri ilə bağlı fikir və mülahizələrində tənqidi təfəkkürü elmi-nəzəri cəhətdən irəli aparan faktlar üzərində də dayanırdı. Azərbaycan tənqidinin yeni mərhələdə inkişaf etdirilməsində əsas faktor kimi yeni təfəkkürü və onun daşıyıcıları gənc nəsil tənqidçilərini əsas götürən Elçin ədəbiyyat tariximizin 20-30, 40-50-ci illər mərhələsində yazıçı-tənqidçi tandeminin formalaşmasına diqqəti çəkərək S.Vurğun, M.İbrahimov, S.Rüstəm, M.Müşfiq, S.Rəhimov, R.Rza, Əbülhəsən kimi yazıçı və şairlərlə yanaşı Ə.Nazim, H.Zeynallı, M.Arif, M.K.Ələkbərli, M.Hüseyn, M.Rəfili kimi tənqidçi və ədəbiyyatşünasların ədəbi-ictimai fikri irəli apardığını söyləyir. O, Anarın 60-cı illər nəslinin öz yaşıdlarından tənqidçi nəslinin yetişmədiyindən gileylənməsinə münasibət bildirərkən yeni tənqidçi nəslinin artıq formalaşdığına diqqət çəkir. Bu tandem 50-60-cı illərdə İ.Əfəndiyev, M.Dilbazi, Ə.Cəmillə yanaşı, M.Cəfər, C.Cəfərov, H.Əfəndiyev, Ə.Ağayevin şəxsində bir qədər də inkişaf edir. Ədəbi tənqid sahəsində 70-ci illərdə formalaşan yeni nəsil isə ədəbi prosesi irəli aparan qüvvə kimi təqdim edir. Elçinin yeni təfəkkürlü tənqidçilər siyahısında olan Aydın Məmmədov, Kamil Vəliyev, Nadir Cabbarov, Şirindil Aslanov, İlham Rəhimli, Vaqif Yusifli, Nizaməddin Babayev, Kamal Abdullayev, Qurban Bayramov, Rahid Xəlilov, Vilayət Quliyev yalnız ədəbi prosesi təhlil etmək, Anar, Ə.Əylisli, İ.Məlikzadə, İ.Hüseynov, S.Əhmədov, R.Rövşən, M.Süleymanlı, V.Cəbrayılzadə haqqında yazdıqları tədqiqatlarla tanımadılar, həm də ümumiyyətlə, ictimai fikrin önündə getdilər, respublikamızın son iyirmi illik siyasi-ictimai mühiti kontekstində fəaliyyət göstərdilər. Bədii estetik tələb və təhlillərə, nəzəri, metodoloji problemlərə yaradıcılıqlarında xüsusi yer verən gənclərin fəaliyyətini yüksək qiymətləndirərək yazırdı: "Gənc tənqidçilərin yaradıcılığında, ayrı-ayrı nümunələrində, olsun ki, təcrübəsizliklə, hissə qapılmaq halları ilə, aludəçiliklə, ehtiyac olmadığı yerdə orijinallıq cəhdləri ilə rastlaşa bilirik, lakin bir küll halında, onların yaradıcılığını məhz "vətəndaş yanğısı" ilə, "vicdani norma" səciyyələndirir və biz belə bir səciyyəni əlamətdar, həm də təbii, qanunauyğun hesab edirik, çünki bu cavanların həm bir tənqidçi, həm də bir vətəndaş kimi formalaşdığı son on ilə təsadüf edir" (3, 69-70).

Tənqidin müxtəlif problemləri Elçinin "Tənqidçinin "mən"i və tənqidin problemləri", "Fikrin karvanı", "Nəsrimizdə konflikt və xarakter probleminin tədqiqi", "Tiflis ədəbi mühitinin tədqiqi" və s. məqalələrində bu və ya digər şəkildə ifadə olunmuşdur. Bu məqalələr içərisində "tənqidçinin "mən"i və tənqidin problemləri" resenziyasını ona görə fərqləndirmək lazımdır ki, bu məqalə görkəmli Azərbaycan tənqidçisi Yaşar Qarayevin "Tənqid: problemlər, portretlər" (5) və "Poeziya və nəsr" (6) kitablarına həsr olunmuşdur. Adətən kitablara yazılan resenziyaların ədəbi-tənqidi yükü polemik məqalələrə nisbətən az olur, müəllif problematik məsələlərə az hallarda toxuna bilirdi. Lakin Elçinin resenziya janrına münasibəti və öz yaradıcılığında janrın klassik nümunəsini yazması tənqidin problemləri ilə bağlı bir çox polemik məsələləri qaldırmasına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, tənqidçinin tənqidin vəziyyəti və metodoloji problemləri ilə bağlı araşdırmasına şərait yaradan faktorlardan biri də Y.Qarayevin tənqidi təfəkkürünün, bu kitablarda toplanmış məqalələrin tədqiqat obyektinin ümumən tənqidimizin problemləri (nəzəri və

praktik olaraq) ilə birbaşa bağlı olması idi. "Realizm: mübahisələr və həqiqətlər", "Romantizm: mübahisələrin davamı", "Tənqidi realizm: estetik ideal və müsbət qəhrəman", "Sosialist realizminin mənşəyi", "Tənqidin nüfuzu", "Tənqidçinin müdrikliyi", "Tənqidçinin şəxsiyyəti", "Tənqidçinin sənətkarlığı", "Tənqidimiz və ədəbi əlaqələrimiz" və s. məqalələr özlüyündə tənqidçiyə ədəbi prosesin təhlilini aparmağa imkan verir. Tənqidçi Y.Qarayev tənqidinin spesifik özünəməxsusluğunu, yaradıcılığının əsas komponentlərini (müasir elmi-nəzəri kontekst, obrazlı təfəkkürlə elmi təfəkkürün vəhdəti) araşdıraraq onun "sosioloji düşünmək bacarığını", "təhlil mədəniyyətini", "fəlsəfi, estetik hazırlığını", "tənqidçi vətəndaşlığını" yüksək qiymətləndirir. Xüsusilə, realizm, romantizm, tənqidi realizmlə bağlı Y.Qarayevin araşdırmalarına münasibət bildirən Elçin onun elmi tədqiqatlarında metodoloji yanaşmanın müasir elmi-nəzəri səviyyəsinin fövqündə durduğunu önə çəkir: "Yaşar Qarayevin Azərbaycan realizminin tarixi inkişaf mərhələlərinə tətbiq etdiyi metodoloji prinsipin ən rasional cəhəti odur ki, o, formal "həyata bənzərlik" əlamətləri ilə, zahiri empirik detallarla, necə deyərlər, əylənmir, həmin metodun bədii nümunələrinin xalqın azadlıq hərəkatı, mənəvi-əxlaqi və fəlsəfi fikir tarixi ilə əlaqələrini tədqiqatın mərkəzinə çevirir, cəmiyyətin vətəndaşlıq tarixi ilə bədii tarixinin hərəkətini eyni vaxtda şərtləndirən müştərək obyektiv-ictimai amillərdən çıxış edir, realist üsluba - milli azadlıq hərəkatı ilə əlaqəsi baxımından təhlil verir" (5).

Elçin Y.Qarayevin "Poeziya və nəsr" kitabını da təhlil edərək tənqidçini ədəbi prosesə bağlayan amillərə nəzər yetirir. Y.Qarayevin bu kitabında bütövlükdə ədəbi prosesin (poeziya və nəsr janrları baxımından) yeni, orijinal fakt və hadisələrinə münasibət bildirilir. Elçin bu məqaləsində ilk dəfə olaraq Y.Qarayevin tənqidçi portretini yaradır, onun yazı tərzini, təhlil özünəməxsusluğunu yüksək dəyərləndirir (7).

Beləliklə, tənqidin müxtəlif problemlərini yaradıcılığının prioritetlərindən edən tənqidçi janrın inkişafında daha artıq estetik rol oynayan problemlərin təhlilinə və tədqiqinə geniş yer ayırır. O, tənqidin problemlərinə həm nəzəri cəhətdən yanaşır, həm də konkret materiallar əsasında inkişaf mərhələlərini, qanunauyğunluqlarını, eləcə də ayrı-ayrı nümayəndələrini yaradıcılıq kontekstində müəyyənləşdirməyə çalışır. Bu zaman tənqidçi dövrə məxsus olan sxolastika, sosioloji faktorlara, doqmatikaya, demək olar ki, müraciət etmir. Əksinə, onun fikirləri, mülahizələri, ümumiyyətlə, bədii fakta yanaşma və təhlil üsulu obyektivliyi ilə yanaşı, yeniliyi, novatorluğu ilə seçilir.

Ədəbiyyat

1.Alışanov.Ş.H. Tənqidi sözün kəsəri. "Ədəbiyyat və incəsənət" qəz.,25 sentyabr, 1987.

2.Elçin. Ədəbiyyatımızın yaradıcılıq problemləri. Bakı: Təhsil,1999.

3.Ədəbi tənqid.Bakı:Yazıçı,1984.

4.Elçin. Tənqid və ədəbiyyatımızın yaradıcılıq məsələləri. "Ədəbiyyat və incəsənət" qəzeti.,7 iyul, 1989.

5.Qarayev Y.V.Tənqid:problemlər,portretlər. Bakı:Azərnəşr,1976.

6.Qarayev Y.V. Poeziya və nəsr. Bakı:Yazıçı, 1979.

7.Elçin. Tənqidçinin "mən"I və tənqidin problemləri. "Ədəbiyyat və incəsənət" qəz., 4 dekabr,1976.

С. Рагимова

Методологические проблемы критики

Резюме

Художественный процесс занимает очень важное место в творчестве Эльчина. Писатель регулярно проявлял свое мнение художественным фактам и событиям. Эльчин Азербайджанскую литературу, превратив в объект широкого изучения, не обделил вниманием и проблемы критики. Ища ответ на вопрос «Какая должна быть настоящая критика?» он уточнил цели и задачи критики. А так же затронул существующие в этой области неверные тенденции.

Sevinj Rahimova

The methodological critical of problems

Summary

Literary process takes very important place in E метlchin”s literary activities. The writer regularly showed his opinion to the literary facts and events. Became the object of an extensive investigation of the Azerbaijan literature didn't ignore the problems of critism .How is the become literatury criticism? Seeking to answer the question, clearified the critical goals and objectives. Touched upon as well as trends in this field is invalid.

Rəyçi: Bədirxan Əhmədov
filologiya elmləri doktoru

ŞƏHLA XƏLİLLİ
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
shehlaxelilli@yahoo.com

ƏLAƏDDIN SABIT BOSNƏVI "KÜLLIYATI"NIN MÜQAYISƏLI-TEKSTOLOJI TƏDQIQI

Açar sözlər: Külliyyat, nüsxə, tektoloji təhlil, müqayisə, köçürücü
Keywords: Kulliyyat, copy, textual analyses, comparison, transcription
Ключевые слова: полное собрание сочинений, копия, текстовые исследования, сравнение, транскрипция

Bosniyada anadan olan Əlaəddin Sabit Bosnəvi XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Türkiyədə yaşayıb yaratmışdır. Şairin "Divan"ı, "Dərənamə", "Bərbərnamə", "Ədhəm və Hüma" adlı məsnəviləri, Krım xanı Səlim Gəray üçün yazılmış "Zəfərnamə"si, "Əmrülleys" adlı böyük bir mənzuməsi, **"**Hədisi-ərbəin tərcümə və təfsiri" adlı yarı mənzum, yarı mənsur əsəri vardır. Sabit əsərlərinin dünya kitabxanalarında 65-ə yaxın əlyazma nüsxəsi mövcuddur. Onun "Külliyat"nın əlyazmalarının geniş yayılmasına baxmayaraq Azərbaycan ədəbiyyatşünaslığında tekstoloji tədqiqi aparılmamışdır. Məqalədə "Külliyyat", əldə olunan digər nüsxələrlə qarşılaşdırılaraq istər tarixilik, istər tekstoloji, istərsə də filoloji baxımdan tərəfimizdən təhlil olunmuşdur. Sabitin "Külliyyat"ı müxtəlif xəttatlar tərəfindən dəfələrlə köçürülmüşdür. "Külliyyat"ın dəqiq elmi-tənqidi mətnini yaratmaq üçün tədqiqata bir neçə nüsxə müqayisəli şəkildə tədqiq edilsin. "Hər hansı əsərlərə özlərindən əvvəlki əsərlərin təsirinin bir sistem halında olduğu orta əsrlər ədəbiyyatında bütün bunların əlaqəsi öyrənilməlidir. Mətnşünaslıqda belə bir fikir mövcuddur ki, heç bir abidə təklikdə - yeganə olaraq mövcud deyil" (4). O zaman ortaya çıxan tənqidi mətn orijinala daha yaxın olur. Mükəmməl tədqiqat üçün əlyazmanın ən qədim nüsxəsini əldə etmək vacibdir. Əlyazma qədim olduğu qədər öz orijinallığını saxlayır.

Ümumiyyətlə, əlyazmanin üzü katiblər tərəfindən köçürülərkən müxtəlif xətalara, təhriflərə yol verilirdi. Əlyazmalar üzərində aparılan tədqiqat və müşahidələr göstərir ki, bəzi yüksək savadlı, istedadlı katib və xəttatlar üzünü köçürdükləri əsərlərin mətnini bilərəkdən dəyişərkən bəzən hətta müəlliflərin özlərindən də qüvvətli kəlmə, ifadə, misra, beyt, təşbeh, istiarə və s. bədii ifadə vasitələri tapıb işlətmişlər. Klassiklərin əsərləri mətnşünaslıq baxımından araşdırılarkən tədqiqatçılar, adətən, onların ayrı-ayrı əlyazma nüsxələrində olan əlavələrə, ixtisarlara, dəyişmələrə, ciddi fərqlərə və müxtəlif xarakterli təhriflərə görə katib və xəttatları ittiham edirlər (5). Lakin bəzi şairlər müəyyən dövrdən sonra özləri öz əsərlərində düzəlişlər etmiş, zənginləşdirmək istəmişlər. Tədqiqatçı bu düzəlişlərin müəllifə, yaxud katibə aid olduğunu müəyyənləşdirməlidir. Katiblər tərəfindən baş verən xətalar və təhriflər müxtəlif səbəblərdən irəli gəlirdi. Bu təhriflərin səbəblərindən bəzilərini qeyd etmək istəyərdik: Köçürdüyü abidənin dilini, imla qanunlarını, qrammatik qaydalarını və s. zəif bilən, yaxud bilməyən katib və xəttatların mətnlərdə yol verdikləri təhriflər; katib və xəttatların dil tarixini və arxaizmləri yaxşı bilməmələri üzündən müəllifin dilini müasirləşdirmələri ilə yol verdikləri təhriflər; müəllifin dilinin yerli ləhçələrə uyğunlaşdırılması üzündən meydana gəlmiş, müəllifin öz

dövrlərinə xas yazı və imla qaydalarının dəyişdirilərək, katiblərin köçürdükləri dövrlərin yazı qaydalarına uyğunlaş-dırmaları üzündən yaranmış təhriflər; ərəb əlifbasının çətinlikləri üzündən meydana gəlmiş təhriflər, milli düşüncələr və siyasi məqsədlərlə klassik abidələrdə əlavələrə və dəyişmələrə yol verməklə yaradılmış təhriflər (8).

Nüsxələrin üzü köçürülərkən baş verən mətnlər arasındakı fərqləri, xəta və təhriflərini ortaya çıxarmağa çalışarkən, mətnlərin hər birində müxtəlif xətaların olduğunu gördük. Sözlərin təsadüfən düşməsi və ya qəsdən düşürülməsi, beytlərin düşməsi və ya əlavə edilməsi halları qarşımıza çıxır. Bəzi nüsxələrdə səhifə kənarlarında bu xətaların düzədilməsi var, bəzilərində isə yoxdur. Düşünürük ki, düzəldilən xəta və ya təhriflər katibin ya diqqətsizliyindən, ya da savadının aşağı səviyyəli olmasından irəli gəlir və ya katib nüsxəni öz istədiyi kimi köçürmüş, lakin üzünü köçürdüyü nüsxədə olan səhv hesab elədikləri sözləri və ya beytləri səhifənin kənarında göstərmək ehtiyacı duymuşdur.

Qarşılaşdırılan nüsxələrin içərisində yer alan janrlar kəmiyyət baxımından müxtəliflik göstərir. Digər nüsxələrlə Bakı nüsxəsi (ب) arasında janrların saylarının müqayisəsi:

Nüsxələr / Janrlar	Bakı (ب)	Ank. 550 (ه)	Ank. 1949 (ا)	Kays. (ق)	Top.90 1 (م)	Top. 902 (ت)	Top. 1620 (ی)	Top. 878 (ل)
Meracnamə	1	1	1	1	1	1	1	1
Nət	2	2	2	1	2	2	2	2
Qəsidə	15	40	28	27	30	37	30	26
Qəzəl	334	339	339	306	352	355	324	355
Tarix	28	36	37	33	33	42	43	37
Qitə	9	32	41	30	2	57	57	22
Rübai	31	18		18		3		24
Lüğəz	5	5	5			5	5	5
Təkbeyt	134	110	83	113	160	150	159	105
Təxmis		3	3	3	3		3	2
Tərcibənd			2			2	2	
Müsəddəs	3							
Müsəmmən		1						
Mürəşşər		1						

İlkin olaraq "Divan"ın strukturunu nəzərdən keçirək. Qeyd etdiyimiz kimi Bakı nüsxəsinin ilk vərəqi yoxdur. ه nüsxəsinə görə 16 beyt, ا görə 19 beyt, ق nüsxəsinə görə 16 beyt, ی nüsxəsinə görə 18 beyt, م nüsxəsinə görə 14 beyt, ت nüsxəsinə görə 18 beyt, ل nüsxəsinə görə isə 14 beyt əskikdir[1].

[1] Nüsxələr şərti olaraq belə adlandırılıb: Bakı nüsxəsi – ب, Kayseri nüsxəsi - ق, H.901 - م, H.902 - ت, A1949 - ا, H.878 - ل, E.H.1620 - ی, A550 - ه.

Sabit "Divan"ının ən geniş tədqiqatını aparan Turqut Karacan bir çox nüsxələrdəki beytləri ümumiləşdirib nəşr etdirdiyindən, onun nəşrində Bakı nüsxəsində başlayan beytdən əvvəl 21 beyt görə bilərik. Bakı nüsxəsindəki sətirlərinin sayının 19 olduğunu nəzərə alsaq, düşən vərəqdə daha az beyt olduğunu təxmin edə bilərik. Sərlövhəni də hesaba aldıqda beyt sayının 19-dan az olduğunu ehtimal edirik.

Bəzi nüsxələrin əvvəllərində beytlərin düşməsi və ya əlavə bir beytin olması yaxud beytlərin yerlərinin dəyişilməsi nəzərə çarpır. Məsələn:

Degil cürmüqəmər, pürcuş olub bəhri-siyahi-şam,
Bir altun pullı mahı taşra atdı mövceyi-dərya.

د کل جرم قمر پر جوش اولوب بحر سیاه شام
بر التون پوللی ماهی طشره اتدی موجهء دریا

beyti ب nüsxəsində, ا nüsxəsində, ق nüsxəsində, ه nüsxəsində, 3-cü, ت nüsxəsində, ى nüsxəsində 4-cü olaraq yazılmışdır. Və ya

Nihan etdikdə tobi-afetabı-mehrə-bazı-çərx,
Çıqardı hoqqasından səd həzaran möhreyi-beyza.

نهان ایتدکده طوب افتابی محره باز چرخ
چقاردی حقه سندن صد هزاران مهرهء بیضا

beyti م , ق , ه nüsxələrində yoxdur (1,2,3,7,9,10,11,12).

Divanın meracnamə bölməsində ب nüsxəsi ilə digər nüsxələr arasındakı beyt sıralaması eyni deyildir. Meracnamənin beyt sayına gəldikdə isə hər nüsxə müxtəlifdir. ه-də 106, ا-da 110, ق-da 92, ى-də 164, م-də 90, ت nüsxəsində isə 111 ədəddir. ب nüsxəsində isə ilk vərəqi saymasaq 75 ədəddir. Burada digərləri ilə müqayisədə bir neçə beyt yoxdur.

Bakı nüsxəsində 2 nət var, yuxarıda qeyd etdiyimiz cədvəldə göründüyü kimi digər nüsxələrin bəzilərində 2, bəzilərində isə 1 nət yer alır. ى nüsxəsində 1-ci nətin başladığı səhifə yoxdur. Arada bir səhifə düşmüşdür. Ona görə də bu nüsxədə ilk nətin beyt sayını demək mümkün deyildir.

Gəl ey gönül olalım dilgüşudeyi-çeşmi-şühud,
Yetər bu kureyi-zٹlli-həvan bud nəbud

گل ای کوکل اوله لم دلکشوده چشم شهود
یتر بو کورئ ذل هوان بود نبود

mətləli beytlə başlayan nət ب nüsxəsində 76 ədəd, ه və ا-da 89, ق-də 88, م-də 76 ədəd beytdən ibarətdir.

Divanda olan ikinci nət ilk beytdən fərqliliyini göstərir. ب nüsxəsində nət

Quruldu urduyi-sultanı-***ruzə pür***təcil,
Göründü möhcəti-alami-şəhrdən bir mil.

قورلدی اوردوی سلطان روزه پر تعجیل
کورندی مهجة اعلامی شهردن بر میل

beyti ilə başlayır. Digər nüsxələrdə isə

Kuruldu urduyi-Sultanı-***savm alət***-təcil,
Göründü məhcəyi-alami-şəhrdən bir mil.

قورلدی اوردوی سلطان صوم علی التعجیل
کورندی مهجة اعلامی شهردن بر میل

beyti ilə başlayır. Burada fərqlilik göstərən ***ruzə*** və ***savm*** sözlərinin hər ikisinin mənası oruc deməkdir. ب nüsxəsində və digər 3 nüsxədə nətin beyt sayı 90, digər nüsxələrdə isə 89 ədəd təşkil edir.

Daha sonra nüsxələrdə olan digər janrlar saylarına görə (sayları yuxarıdakı cədvəldə göstərilmişdir) müxtəliflik göstərir. Bunlardan başqa bölmələrin və janrların adları da hər nüsxədə fərqli şəkildə yazılmışdır.

Mətni oxuyarkən pozulmuş, çətin oxunan və oxunması mümkün olmayan yerlərlə çox rastlaşdıq. Bu sözlərin aydınlaşması digər mətnlərlə müqayisə edilərək ümumi fikrə gəldikdən sonra mümkün olmuşdur.

Tekstoloji araşdırma apararkən müəyyən etdiyimiz fərqlilikləri aşağıdakı kimi sıralaya bilərik:

1. Sözlərin əlavə və ya ixtisar edilməsi yaxud digər sözlərlə əvəz edilməsi
2. Misralarda sözlərin əlavəsi, ixtisarı və yerdəyişməsi
3. Misraların yerdəyişməsi, ixtisarı
4. Beytlərin yerlərinin dəyişdirilməsi və ya düşürülməsi.

1. Sözlərin əlavə və ya ixtisar edilməsi yaxud digər sözlərlə əvəz edilməsi.

Araşdırmaya cəlb olunan mətnlərin daxilində sözlərin digər sözlərlə dəyişdirilməsinə, əlavə və ya ixtisarına kifayət qədər təsadüf etmək mümkündür. Bu hadisələr bəzən bilərəkdən, bəzən isə təsadüfən baş vermişdir. Bunlar bəzən katibin sözü düzgün oxumaması (təsadüfən), ərəb əlifbasında bəzi hərflərin nöqtələrinin düzgün qoyulmaması (məsələn "pür" (پر) sözündə nöqtələr əskik qoyularkən, söz "yer" (یر) və ya "bir" (بر) kimi oxuna bilir, bu da mətndə tez-tez qarşımıza çıxır) və ya ərəb-fars dilinə meylli olan katibin türkcə sözü məqsədli bir şəkildə ərəb dilində yazması (və ya əksinə)) nəticəsində meydana çıxır.

Mətndə bir çox sözlər digərləri ilə əvəz edilmiş, misralara sözlər əlavə edilmiş və ya bəzi sözlər ixtisar edilmişdir.

1) Sözlərin diğər sözlərlə əvəz edilməsi. Müqayisəsi aparılan mətnlərdə sözlərin əvəz olunması bu şəkildə qarşımıza çıxdı: türk sözləri türk sözləri ilə, türk sözləri ərəb-fars sözləri ilə və ya əksinə və ərəb-fars sözləri ərəb-fars sözləri ilə əvəz olunmuşdur. Sözlərin əvəz olunmasını nümunələrlə aşağıdakı kimi verə bilərik:

a) türk sözlərinin türk sözləri ilə əvəz olunması. Məsələn: etdi اتدی (ب)//əsdi اسدی (ل,ی), alınsa النسا (ب, ی)//alında الندا, (ه, ق, م, ت), gəlsin (کلسن)//olsun (اولسن), bu (بو)//ki (کی), səpmək (سپمك)//səpməyəcək (سپميجك), olur (اولور)//olub (اولوب), ol (اول)//bilsəm (بلسم), verərək (ويررك)//deyərək (ديررك), dedi (ديدی)//sandı (صندی), keçərək (كچرك)//gəzərək (كزرك), bin (بيك)//yüz (يوز), bu (بو)//o (او), ilə (ايله)//etmək (ايتمك), olub (اولوب)//alub آلوب)), gətirdi // geyirdi, ura // qura, uydı//oldı (ب. 27 a), virər // dürər. (ب. 27 b) və s.

b) türk sözlərinin ərəb-fars sözləri ilə əvəz olunması. Məsələn: o (او)//dü (دو), çü (چو)//bu (بو), nur (نور)//buz (بوز), ğaliba (غالبا)// var isə (وار ايسه), pür//bir , hiç //ki (کی), kim (کم)//əsa (اسا), ana (اکا)//yanına (يانکا), çeşmi (چشمی)//gözlər (کوزلر), məsəl (مثل)//yalan (يالان), netəkim (نتکم)//şekən (شيکن), dildə (دلده)//əldə الده, qullan (قللان)//dəst ur (دست اور) və s.

c) ərəb-fars sözlərinin ərəb-fars sözləri ilə əvəz olunması. Məsələn: məs'əd (ب, ی, ت)sözünün məqsəd (ه, م) sözü ilə əvəz olunması. Məs'əd - nərdivan, mərhələ

mənasındadırsa, məqsəd – məram, istənilən bir şey mənasını daşıyır. Bu sözlər hər nüsxədə müxtəlifdir. Bundan başqa övrəng (اورنك) (ب, ى, م)//sərtac (سرتاج) (ا, ه, ق, ت), rizidə (ريزيده) (ب)//rizan (ريزان) (ا, ه, ق, ت)//rizəndə (ريزنده) (م), tələb (طلب) (ب, م)//ümid (اميد) (ا, ه, ق, ى, ت), nasut () (ب, ا)//mələkut (ملكوت) (ه, ق, ى, م, ت), mihinə (ب, ا)//rehin (رحين) (ى, ت), lütflə (لطفله)// fəzllə (فضلله) və ya fəzl ilə (فضل ايله), lütfünə (لطفكه) (ب, ه)//vəslinə (وسلكه) (ا, ق, ى, ت), fələk (فلك)//sipehr (سپحر), məlahət (ملاحت) (م, ه, ى, ب)//məhəbbət (محبت) (ا, ق, ت), bargah (باركاه) (ب, ا, ى, م, ت)//dərgahdan (دركاهدن) (ق, ه), tul () (ب, ه, ق, م)//dur (دور) (ا, ى, ت), salavat (ب, م)//səlat , tair (طائر) (م, ت, ا)//tahir (طاهر) (ب), təkkə (تكه) (ب)//yekkə (يكه) (ه, ت, ا, ق), əcəb (عجب) (ب)//qərib (غريب) (ه, ا, ت, م), niyaz (نياز) (ت, ب)//piyaz (پياز) (ا, ل, ه, ق, ى), zeyf//zəyfə , xəta//həzair//xətair //xəsair, naqiyyə (ناكيه)//baqiyyə (باكيه), mah (ماه)//şah (شاه), ran (ران)//rəvan (روان), baf (باف)//naf (ناف), kəmali-nuri (كمال نورى)//kəmalı-nəbəvi (كمال نبوى), çarə (چاره)//çar (چار), zəng (زنك)//jəng, sarayi//rəvayi (روايى), adayı//livayı, zərrə (ذره)//ruzə (روزه), lətafət (لطافت)//nəhafət (نحافت), müşkil (مشكل)//şəkl (شكل), rüxünü (رخكى) (ب, ق, م, ه, ل)//xəttini (خطكى) (ت, ا), cahanda (جهانده)//çəməndə (چمنده), dəstinə (دستنه)//dəstəyi (دستيى), pərd (پرد)//bərd (برد), ərusi//nəsim, müdəbbər (مدبر)//müdəmmər (مدمر), minanın (مينانك)//mina-nuşun (مينا نوشوك), zaman (زمان)//cahan (جهان), səfadan (سفادان)//səbadan , ‘udun (عدون)//müşkin (مشكن), aləmi-qüdsi (عالم قدسى)//aləmi-nur (عالم نور), ma-aşiq(ما عاشق)//çərxi-aşiq (چرخ عاشق), dili-xəstə (دل خسته)//dili-ğəmzə (دل غمزه), dövlət (دولت)//nemət (نعمت), asudə (آسوده)//aludə (آلود), təlxab//həmxab, bak (باك)//pak (پاك), xumar (خومار)//hamar (حمار), zənn//zəmm, xizanə//hizanə, qeyri (غيرى)//eydi (عيدى), qüdrət // rəhmət, səy//cəhd (ب. 47 a), can//ruh (ب 47 a), dəm // vəqt (ب 48 a)

Yuxarıda da qeyd olunduğu kimi daha çox ərəb-fars sözlərinin ərəb-fars sözləri ilə əvəz edilməsi hadisəsi qarşımıza çıxır. Mətndə bu cür əvəzedilmə hadisələri bəzən mənanın dəyişməməsinə, bəzən qismən dəyişməsinə, bəzən isə tam olaraq dəyişməsinə gətirib çıxarır.

Sözlərin əvəz edilməsi nəticəsində mənanın dəyişməməsinə misal olaraq aşağıdakı örnəkləri verə bilərik:

Lisane-xəlqdə həb zülfi-müşk sayəsidir,
Hədise-**tul**ü diraze-yılan hekayəsidir.
لشان خلقده هب زلف مشك سايه سيدر
حديث طول دراز يلان حكايه سيدر

Lisane-xəlqdə həb zülfi-müşk sayəsidir,
Hədise-**dur**ü diraze-yılan hekayəsidir.
لشان خلقده هب زلف مشك سايه سيدر
حديث دور و درازى يلان حكايه سيدر

Burada ilk beytdə yazılan **tul** sözü uzunluq, ikincidəki **dur** sözü uzaq deməkdir. Xalq dilində müşk kimi (ətirli və qara) saç kölgəsidir, uzun söhbət ilana bənzəyər deyərlər. Sözlərin eyni mənanı daşıması nəticəsində beytin ümumi mənası pozulmamışdır.

"Tul" sözü ب, ه, ق, م nüsxərində, "dur" sözü isə ا, ى, ت nüsxələrində yazılmışdır.

Yübusət aləmində sən də bir dolab **qullan** kim.
يبوست عالمنده سنده بر دولاب قوللنكم

Yübusət aləmində sən də bir dolaba **dəst ur** kim.
ییوست عالمنده سنده بر دولابه د اور کم

Bu örnəkdə isə "qullan" (قوللن) sözü "dəst ur" (دست اور) sözü ilə əvəz olunmuşdur. "Qullan" sözü ب və ه nüsxələrində, "dəst ur" isə ق, ا, ت, ی nüsxələrində görülməkdədir. Qullanmaq istifadə etmək, ***dəst ur*** əl vur deməkdir. Mənası "Havanın quru keçdiyi vaxtda sən də bir iş gör ki....." kimidir. Nəticə etibarilə söz başqası ilə əvəz olunsa da məna dəyişməmişdir.

Başqa bir örnək:
Sabitin qıl duasın məqbul.
ثابتن قیل دعاسن مقبول
Sabitin bu duasın eylə qəbul.
ثابتن بو دعاسن ایله قبول

Göründüyü kimi bu örnəkdə də sözlər dəyişmişdir. Lakin məna və nəticə etibarı ilə eynilik təşkil edir: "Sabitin bu duasını qəbul et".

Daha bir misal:
Dəbiristanə almaq cəhd edər ol tifl ruzü şəb, (b. 47 a)
Oqutsun kəndüyi divanə olmuş xaceyi-məktəb.

Dəbiristanə almaq səy edər ol tifli ruzü şəb,
Oqutsun kəndüyi divanə olmuş xaceyi-məktəb.

Bu beytin ilk misrasında ب nüsxəsində "cəhd" sözü digər nüsxələrdə "səy" sözü kimi qarşımıza çıxır. Sözlərin ikisi də eyni mənanı daşıdığına görə məna dəyişməz qalmışdır. "Gecə-gündüz o uşağı məktəbə almaq istəyir; o dəli, divanə məktəb müdiri, müəllim əvvəlcə getsin özünü oxudub tərbiyə etsin". Hər iki söz çalışmaq mənasını verdiyinə görə məna dəyişmədi. Burada oxutmaq sözünü bir neçə anlamı var. Türk dilində "oxutmaq" din adamının yanına gedib dua oxutmaq mənasında da olur. Bir çox hallarda dəli olmuş insanlara bu məsləhət görülür. Bu beytdə Sabitin hər iki mənanı anlatmaq istədiyini görə bilərik. Dəli, divanə olmuş müəllim getsin din adamına özü üçün dua oxutsun.

Elə sözlər də vardır ki, digər sözlərlə əvəz edilmə nəticəsində məna qismən dəyişmişdir. Bunlara aşağıdakı örnəkləri verə bilərik:

O şahənşahe-fərmanrane-**övrəng**e-risalət kim,
Negine-hökmünün altındadır dünyavü mafiha.
او شاهنشاه فرمانران اورنك رسالتكم
نكين حكمنيك التنده در دنيا و ما فيها
O şahənşahe-fərmanrane-**sərtace**-risalət kim,
Negine-hökmünün altındadır dünyavü mafiha.
او شاهنشاه فرمانران سرتاخ رسالتكم
نكين حكمنيك التنده در دنيا و ما فيها

Burada "övrəng" sözü ب, ی, ت nüsxələrində, "sərtac" sözü isə ا, ه, ق nüsxələrində görünür. Birinci beytə görə o "fərman verən, fərman yürüdən" şahların şahının elçilik taxtında bütün dünya və axirət hökmünün möhürü altındadır mənasındadır. İlk beytdə elçilik taxtı mənasını verən söz digər beytdə olan baş tacı mənasına gələn sərtac sözü ilə əvəz olunmuş, elçiliyin (peyğəmbərliyin) baş tacı anlamını daşıyır.

Və ya

Bir cərb yeyüb eylədim, ey bağı-**məlahət,**
Şəftaluyi bustanə camalınla qənaət.
بر جرب ییوب ایلدم اي باغ ملاحت
شفتالویی بستانه جمالکله قناعت

Bir cərb yeyüb eylədim ey, bağı-**məhəbbət,**
Şəftaluyi bustanə camalınla qənaət.
محبت بر جرب ییوب ایلدم اي باغ
شفتالویی بستانه جمالکله قناعت

Bu beytdə ب, ى, ه, م, ل nüsxələrində məlahət sözü, ا, ق, ت nüsxələrində məhəbbət kimi göstərilmişdir. Mənası ilk beytdə "ey gözəllik bağı, şaftalı bir cərb yeyib şaftalı bağına, gözəl üzünlə qənaət elədim, digər beytdə gözəllik bağı məhəbbət bağı ilə əvəz olunmuşdur. Burada məna çox az dəyişir.

Məali-cövhərü erazi-xütteyi-**nasut.**
جوهر و اعراض خطهء ناسوت مال
Məali-cövhər ü arazı-xütteyi-**mələkut.**
مألل جوهر و اعراض خطهء ملکوت

"Nasut" sözünü ا və ب nüsxələrində, "mələkut" sözünü isə ه, ق, ى, م, ت nüsxələrində görmək mümkündür. Nasut – maddi aləm, mələkut sözü isə mələklər aləmi mənasındadır.

O şəb Mövla həbibin xakdan qaldırdı, lütf etdi,
O şəb oldı Rəsulun cilvəgahı **məs'ədi**-ə'la.
او شب مولا حبیبن خاکدن قالدردی لطف ایتدی
او شب اولدی رسولك جلوه کاهی مصعد اعلا

O şəb Mövla həbibin xakdan qaldırdı lütf, etdi,
O şəb oldı Rəsulun cilvəgahı **məqsədi**-ə'la.
او شب مولا حبیبن خاکدن قالدردی لطف ایتدی
او شب اولدی رسولك جلوه کاهی مقصد اعلا

Burada ilk beytdə yazılan məsəd sözü ب, ى, ت nüsxələrində, məqsəd sözü isə ه, م nüsxələrində görünür. Məsəd sözü yuxarı çıxılacaq yer mənasında, məqsəd isə məram, istənilən şey mənasındadır. Beytin ümumi mənası isə belədir. O gecə Mövla sevgilisini (Məhəmməd s.ə.s) yerdən göyə qaldırdı, o gecə peyğəmbər yüksəklərə təcəlli etdi. Ikinci beytin isə belə açıqlaya bilərik: o gecə Mövla sevgilisini (Məhəmməd s.ə.s) yerdən göyə qaldırdı, o gecə peyğəmbər yüksək məqsədə təcəlli etdi. Ümumi olaraq nəticə eyni görünür amma misralarda sözlərin mənası ayrıdır.

Bəzi sözlərin dəyişməsi isə mənanı tamamilə dəyişmiş, fərqli mənalar meydana çıxmışdır. Məsələn:

Mihinə illəte-təqvine-həsti-fitrət bud.
مهینه علت تکوین هست فطرت بود
Rehine-illəte-təqvine-həsti-fitrəti bud.
رحین علت تکوین هست فطرت بود

Bu örnəkdə ilk misradakı mihinə böyük, ulu mənasındadır, ikinci misrada onu əvəz edən rehin sözü isə nəyinsə qarşılığında saxlanılan mənasındadır. İlk misranın mənasına görə varlığı yaratma səbəb böyükdür, ikinciyə görə isə varlığı yaratma səbəbi nəyinsə qarşılığında əsir olaraq tutulmuşdur. Burada misralardakı məna tamamilə fərqlidir. Böyük (mihinə) sözü ilə əsir (rehin) sözü ayrı mənalar

daşıyır. Güman edirik ki, mihinə sözü doğru olaraq işlədilmişdir. "Mihinə" sözünə ب, ا, ه, ق, nüsxələrində, "rehin" sözünə isə ی, م və ت nüsxələrində rast gəlinməkdədir.

Qəbayi-təng kibi **pərd** sıqmış idi əzim.
قبای تنك طبی پرد صقمشیدی عظیم
Qəbayi-təng kibi **bərd** sıqmış idi əzim
قبای تنك طبی برد صقمشیدی عظیم

Pərd-qat, büküm, bərd isə soyuq mənasındadır. "Pərd" sadəcə bakı nüsxəsindədir, digərlərində "bərd" sözü qeyd olunur. Burada da sözlərin mənası fərqlidir. Dar üst paltarı kimi qat kəsmişdi, üst paltarı kimi soyuq kəsmişdi. Zənnimizcə, burada pərd sözü düzgün yerində işlənmişdir.

2) Mətndə sözlərin ixtisar edilməsi. Bakı nüsxəsində sözlərin ixtisar edilməsi faktlarına da rast gəlirik. Bu sözlərin bəziləri bilərəkdən verilməmiş, bəziləri isə təsadüfən nəzərdən qaçmışdır. Sözlərin ixtisarının əksəriyyətinin diqqətsizlik ucbatından baş verdiyini düşünürük. Buna təsadüfi ixtisarlar da deyə bilərik. Amma bəzən bilərəkdən edilmiş ixtisarlar da qarşımıza çıxır. Bunun səbəbi dövrün poetik tələbinə uyğun olaraq müəyyənləşdirilmiş xüsusi qəliblərdir. Misralar qəlibə uyğun gəlmədikdə və ya sığışmadıqda bu hadisə baş verir. "Külliyyat"dan söz ixtisarlarına bir çox örnəklər verə bilərik:

Xasavü naqavü ahuvü **zi'b** ü zəbbü əjdərha
خصا و ناقه و آهو و زئب و ضب و ازدرحا
Sipariş **qıldı** dəftrəxaneyi-icmali-balayı
سپرش قیلدی دفترجانهء اجمال بالایی
Guşad etmiş yenə şəh-**pərri**-izzü cahı ol Ənqa
کشاد ایتمش ینه شهپر عز و جاهی اول عنقا
Aşiq, ey şuxi-**cəfa**pişə, günahkar olmaz
عاشق ای شوخ پیشه کنهکار اولماز جفا
Əhli-tərk olsa olurdu tace-dövrane-qədəh
احل اولسه اولردی تاخ دوران قدح
Şeyx**şəh,** rahe-məhəbbətdə əsaya tayanur
شیخ شه راه محبنده عصایه طیانور
Saçaqlıdır ki, **edər** əsbi-himmətə edad
صچقلیدر که ایدر اسب همته یعداد
Nərgis ki çəməndə rinde-**cəm**məşrəbdir
نرکسکه چمنده رند جم مشربدر
Duaye-rind ilə üç günlügünə uğradı **həb**
دعایی رند ایله اوچ کونلکنه اوغرادی هب
Şuxtəb idi açıqməşrəb **idi**
تب هیدی اچق مشرب ایدی شوخ
Yıldızı düşdü siyahkareyi-minanın
یلدزی دوشدی سیه کارئ مینانك
Yıldızı düşdü siyahkareyi-mina**neşin**
یلدزی دوشدی سیه کارئ مینا نوشك

Yuxarıda göstərdiyimiz örnəklərdə misralarda "ziyb" (ضئب), "qıldı" (قیلدی), "pəri" (پری), "cəfa" (جفا), "əhli" (احلی), "şəh" (شه), "edər" (ایدر), "cəm" (جم), "həb"

(هب), "idi" (ایدی), "nuşin" (نوشك) sözləri ixtisar edilmişdir. Bu sözlər digər nüsxələrdə yazılmış, lakin ب nüsxəsində düşmüşdür.

3) Mətndə sözlərin əlavə edilməsi. Mətndə sözlərin əlavə edilməsi hadisəsi daha az baş vermişdir. Bu hallar az da olsa müqayisə zamanı üzə çıxarılmışdır. Elə sözlər vardır ki, onlar digər nüsxələrdə görünməsə də ب nüsxəsinə əlavə olunmuşdur. Məsələn:

Döküldi maideyi-əbr şöylə kim xurşudi **ol**
دوکلدی ماءده ابر شویله کیم خورشید اول
Göricək səbzeyi-xəttin didi **çü** piri-mümtaz
کوریجك سبوءه خطك دیدی پیر ممتاض چو

Yuxarıda göstərilən örnəklərdə ilk misrada "ol" (اول) sözü, digərində isə "çü" (چو) sözü əlavə olunmuşdur.

2. Misralarda sözlərin yerdəyişməsi.

Mətni tədqiq edərkən əlavə və ixtisardan başqa misralarda sözlərin yerdəyişməsinə də təsadüf olundu. Bu yerdəyişmələr də bəzən təsadüfən baş vermiş, bəzən isə bilərəkdən edilmişdir. Mətndə kifayət qədər örnəklərlə qarşılaşdıq. Məsələn ب nüsxəsində:

Bu naliş ilə nə **xod yürək qalur nə cigər,**
Xərabə məstəbədə nə şərab olur, nə kəbab
بو نالش ایله نه خود یورك قالور نه جکر
خرابه مصطبه ره نه شراب اولور نه کباب

Şəklində olan beyt ا, ه, k, ی, م, ت nüsxələrində aşağıdakı şəkildədir:

Bu naliş ilə nə **xod cigər qalur, nə yürək,**
Xərabə məstəbədə nə şərab olur, nə kəbab.
بو نالش ایله نه خود جکر قالور نه یورك
خرابه مصطبه ره نه شراب اولور نه کباب

ل nüsxəsində isə belədir:

Bu naliş ilə nə **xune-cigər qalur, nə yürək,**
Xərabə məstəbədə nə şərab olur, nə kəbab.
بو نالش ایله نه خون جکر قالور نه یورك
خرابه مصطبه ره نه شراب اولور نه کباب

Bu beytdə həm sözlərin yerdəyişməsi baş vermiş, həm də ل nüsxəsində "xod"sözü "xun" sözü ilə əvəz olunmuşdur. Aşağıda başqa nümunələr də göstərə bilərik:

Gətürdi ümmətə **zəyfə ol** mehmanxanyi-izzət
کتوردی امته ضیفه اول مهمانخانهء عزت
Gətürdi ümmətə **ol zəyf** mehmanxaneyi-izzət
کتوردی امته اول ضیف مهانخانهء عزت

Bakı nüsxəsində "zəyfə ol" kimi yazılan söz digər nüsxələrdə "ol zeyf" kimi qeyd olunmuşdur.

Ələ verdi boğazı şişə gibi
اله ویردی بغازی شیشه کبی
Boğazı verdi ələ şişə gibi
بغازی ویردی اله شیشه کبی

"Ələ virdi boğazı" ifadəsini ب, ه, ا, ی, م nüsxələrində, "boğazı verdi ələ" ق nüsxəsində görə bilərik.

Nəql eylədi bir əcaib pabənd
نقل ایلدی بر عجایب پا بند
Eylədi nəqlə səza bir pabənd
ایلدی نقله سزا ب پا بند

Bakı nüsxəsində "nəql eylədi" kimi, digər nüsxələrdə isə "eylədi nəqlə" kimi yazıldığını görürük.

Bülbəşər adəm səfi dədəsi
بو البشر ادم سفی ددسی
Adəm bülbəşər səfi dədəsi
آدم بو البشر سفی ددسی

Misraların yerdəyişməsi, ixtisarı.

Tədqiqata cəlb olunan Sabit "Külliyatının" mətnində diqqəti çəkən digər proses mətndə beytlərdə misraların yerlərinin dəyişməsi və ya ixtisarıdır. Bakı nüsxəsində

Bənimlə şəxsi-qəmi-eşq hər səhər qalqar,
Sənlə hər gecə əğyare-natəraş yatur.
بنمله شخس غم عشق هر سحر قالقر
سنكله هر كجه اغيار نا تراش ياتور

kimi olan beytin misraları hər nüsxələrdə müxtəliflik göstərir. Məsələn bu beyt ه-də

Bənimlə şəxsi-qəmi-eşq hər səhər qalqar,
Sənlə hər gecə ol zülfü-müşkpaş yatur.
ا بنمله شخس غم عشق هر سحر قالقر
پاش ياتور سنكله هر كجه اول زلف مشك

ی-nüsxəsində

Girüb fəraşına çün məğribiyi-gisudar,
Sənlə hər gecə ol zülfü müşkpaş yatur
كيرب فراشنا چون مغريبئ كيسودار
پاش ياتور سنكله هر كجه اول زلف مشك

kimi yazılmışdır. Göründüyü kimi beytdə bəzən birinci misra, bəzən isə ikinci misra dəyişmişdir. Bu da şübhəsiz ki, beytin mənasına öz təsirini gəstərir. Belə ki, bakı nüsxəsində beytin mənası "mənimlə hər səhər eşq qəmi qalxır, sənlə hər gecə yonulmamış, kobud rəqib yatır" kimidirsə (yəni mən sevginin, məhəbbətin qəmi, kədəri ilə yatıb, qalxıram, sən isə başqalara ilə), ه-də "mənimlə hər səhər sevginin kədəri qalxırsa, sənlə hər gecə ətir saçan saşlaryatır" kimi , y-də "Sənlə hər gecə o axşama müşk ətrr saçan qara saçlar yatağa girib yatır" kimidir. Bakı nüsxəsində beytin mənası açıq-aşkar digərlərindən fərqlənir. Digər nüsxələrdə isə bu beyt qeyd olunmamışdır.

Aşağıdakı örnəkdə də misraların yerdəyişməsi açıq-aydın özünü göstərir, lakin bu beytdə misraların yerdəyişməsi məna dəyişikliyinə səbəb olmamış, olduğu kimi qalmışdır:

Keçmədi bus-kənara diləgi,
Əlinə girmədi simin biləgi.
كچمدی بوسه كنارا ديلكی
اليكه كرمدی سيمين بيلكی

Əlinə girmədi simin biləgi,
Keçmədi buse-kənara diləgi.
الیکه کرمدی سیمین بیلکی
کچمدی بوس و کنارا دیلك

Beytlərin yerlərinin düşürülməsi və ya əlavəsi

Mətn tədqiq olunarkən daha başqa bir hadisə qarşımıza çıxdı ki bu da bəzi beytlərin bəzi nüsxələrdə olmaması və ya əksinə əlavə olunmasıdır. Bəzi beytlər vardır ki ب nüsxəsində yoxdur. ب nüsxəsində olmayanlar:

Xakdə bəxtimi humayun et,
Toprağə yapışursam altun et.
خاکده بختمی همایوت ایت
طپراغه یاپشورسم آلتون ایت
Rouzeyi-qürbə dikmişdi əsa,
Dəxi nə Tur va,r nə xod Musa.
روزهء قربه دیکمشیدی عصا
دخی نه طور وار نه خو موسا
Oldı işrət gün gibi ruşən,
Toğdı xurşid səmti-məğribdən.
اولدی اشراط کون کبی روشن
طوغدی خورشید سمت مغربدن

Beytlərin əlavəsi faktı isə çox az qarşımıza çıxdı. Aşağıdakı beyt ب nüsxəsində qeyd olunmuş, digər nüsxələrdə isə qeyd olunmamışdır.

Nədir bu kaseyi-dəşnayə rəğbəti yarın,
Ləbi kirası gibi ömre-cavidanmı verür?
ندیر بو کاسهء دشنایه قطغبتی یارن
لبی کیراسی کبی عمرو جاویدان می ویرر

Olub azimi-ərvahe-qüdsi izzət ilə,
Xüludi-mənayı-təbrikə gəldi Əzrail.

Sabit "Külliyyat"ının nüsxələrində kifayət qədər məqsədli və ya məqsədsiz xətalar, nöqsanlar mövcuddur. Mətnşünaslığın tələbləri nəzərə alınaraq bu nüsxələr müqayisəli şəkildə təhlil olunmuşdur. Əldə olunmuş əlyazma nüsxələri əsasında aparılan bu təhlil nəticəsində üzə çıxarılan nöqtələr elmi-tənqidi mətnin hazırlanması zamanı xüsusi əhəmiyyət ifadə edir.

Ədəbiyyat siyahısı

1. Ankara Milli Kitabxana A.1949;
2. Ankara Milli Kitabxana A.550;
3. Kayseri, Raşit Əfəndi Kitabxanası;
4. Musayeva A. Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı: Problemlər, Araşdırmalar (Tekstoloji, Filoloji tədqiqat). Bakı: Nurlan, 2002, səh.
5. Musabəyli A. Mətn bilgisi və mətnşünaslıq. Bakı: Elm, 2005, 181 səh.
6. Sabit. Divan. (hazırlayan: Turqut Karacan). Sivas: 1991. 633 s.

7. Sabit. Külliyyat. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmaları İnstitutu, M-25.
8. Şərifli K. Mətnşünaslığın nəzəri əsasları. Bakı: 2003. 312s.
9. Topqapı sarayı kitabxanası H.878;
10. Topqapı sarayı kitabxanası H.901;
11. Topqapı sarayı kitabxanası H.902;
12. Topqapı sarayı kitabxanası H.1620;

Shehla Khalilli

Comparative-textual research of alaaddin Sabit Bosnavi's "Kulliyat"

Summary

Alaaddin Sabit Bosnali who was born in Bosnia had lived in late 17th century and early 18th century in Turkey. Alaaddin Sabit Bosnali has got the distiches like "The Divan", "Derename", " Berbername", "Edhem u Huma", as well as "Zafername", written for Selim Geray, khan of Crymea, a large poem "Amrulleis", half-poem and half-prose called "Hadisi-arbain translation and interpretation". Nearly 65 manuscripts of Alaaddin Sabit Bosnali were fixed in the world libraries. Though manuscripts of his work "Kulliyat" spread widely, their textual research was not done in Azerbaijani history of literature . "Kulliyyat" was mixed with other copies gained and analysed both from historical and philological scope. The article is dedicated to Sabit's Divan's research from textual stand.

Шахла Халилли

Сравнительно-текстовое исследование «Кулият» Аладдина Сабит Боснави

Резюме

Аладдин Сабит Боснави родился в Боснии, жил в конце 17-ого столетия и в начале 18-ого столетия в Турции. У Аладдин Сабит Боснави есть двустишия как "Диван", "Деренаме", "Бербернаме", "Адхам и Хума", так же как "Зафернаме", написанный для Селима Джерая, Крымского хана, большого стихотворения "Амрулейс", полустихотворения и полупрозы, названной "перевод и интерпретация Хадиси-Арбаин". У Аладдина Сабит Боснави имеется почти 65 копии рукописей в мировых библиотеках. Хотя рукописи "Кулият" распространяются широко, их текстовое исследование не было проведено в Азербайджанской истории литературы. "Кулият" был смешан с другими полученными копиями и проанализировался нами от с исторической и филологической точки зрения. В статье имеет место текстовое исследования «Диван»а Сабита.

Rəyçi: fil.e.d., porf. Azadə Musayeva

MURADOVA PƏRİXANIM
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin
Elmi kitabxana şöbəsinin müdiri
perixanim@mgmail.com

QARABAĞLI AŞIQ PƏRİ (1811-1847)

Açar sözlər: Aşıq sənəti, dil, ədəbiyyat, şeir, klassik irs.
Ключевые слова: Ашугское творчество, язык, литература, стихотворения, классические наследие,
Keywords: As hug arts, language, literature, poetry, classic heritage

Azərbaycan xalq ədəbiyyatı qədim, maraqlı, eyni zamanda çox zəngin bir xəzinədir. Xalqın qəlbində və dilində yaşayaraq gəlib bizə çatmış bu xalq ədəbiyyatında geniş bir dünya vardır. Xalqın estetik və bədii zövqünü, yaradıcılığını, dil inkişafını özündə əks etdirən nağıl, bayatı, mahnı və laylalar el arasında ağızdan-ağıza keçərək yayılmış və bu günümüzə gəlib çıxmışdır. Azərbaycan dünya mədəniyyətinə öz istedadlı sənətkarları ilə həmişə töhfələr bəxş etmişdir.

Dəyərli sənətkarları ilə tanınan bölgələrimizdən biri də Qarabağ olmuşdur. Qarabağ şairləri, yazıçıları ilə nəinki öz ölkəsində, hətta onun hüdudlarından kənarda da tanınırdı. Zəngin ədəbi ənənələrə əsaslanan və daim yeni ideyalarla zənginləşən Azərbaycan ədəbiyyatı başqa milli ədəbiyyatlar kimi əlaqələr şəraitində inkişaf etmişdir. İstər poeziya, istərsə də dramaturgiya olsun hər biri öz inkişaf mərhələsində istedadlı yazarları ilə dünya ədəbiyyatına daxil ola bilmişdir.

Azərbaycanın zəngin tarixi irsə malik olan poeziyasında qadın şairələrin xüsusi yeri olub. Bu şairələrdən biri də XIX əsrin əvvəllərində yaşayıb, yaratmış məşhur poeziya bilicisi, aşıq sənətinin görkəmli nümayəndələrindən hesab edilən və istedadı ilə insanları heyran edən Aşıq Pəri idi. O, öz dəsti-xətti ilə aşıq sənətində görkəmli yerlərdən birini tutmuşdur.

Aşıq Pəri 1811-ci ildə Qarabağda Cəbrayılın Maralyan kəndində yoxsul bir ailədə dünyaya gəlmişdir. Mənbələrdə onun anadan olduğu və vəfat etdiyi illər ya göstərilmir, ya da müxtəlif rəqəmlərlə verilir. Amma bu o qədər əhəmiyyət kəsb etməyir. Əsas odur ki, bu mənbələrin hər birində Aşıq Pərinin fitri istedadından, ağlından və gözəlliyindən bəhs edilir. Həmən mənbələrdə onun deyişmələrindən, bu deyişmələrdə qarşı tərəfi sözlə bağlamağından və hər dəfə də uğur qazanmağından yazılır. Aşıq Pəri öz dövrünün məşhur söz ustadları ilə deyişirdi. Sözünü demiş sənətkarlarla deyişmək o qədər də asan deyildir, lakin gənc bir qızın bu meydana girməyi onun böyük ürəyinin və istedadının olduğundan xəbər verirdi.

Aşıq Pəri ruhani məktəbində təhsil alıb. O, məktəbi bitirdikdən sonra xalq yaradıcılığının əsas qollarından hesab edilən aşıq sənəti ilə yaxından maraqlanmış və bu sahədə marağını daha da genişləndirməyə çalışmışdır. Məktəb illərindən ərəb və fars dillərinə mükəmməl yiyələnərək özünü poeziya aləmində sınamışdır. Ruhani məktəbində təhsil almasına baxmayaraq Aşıq Pərinin müasir düşüncəli,

geniş dünyagörüşünə malik idi. Onun fikrini açıq söyləmək bacarığının olduğunu şeirlərindən duymaq olur. Aşıq Pəri gənc vaxtlarından öz həmyaşıdlarından seçilməyə və tanınmağa başlamışdır.

Dədə Qorquddan üzü bəri Dədə Şəmşir, Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Növrəc, İman və sair tanınmış aşıqlarla birlikdə Aşıq Pərinin də Azərbaycan ədəbi-mədəni mühitinin formalaşmasında böyük rolu olmuşdur.

O dövrün şairləri içərisində özünəməxsusluğu ilə seçilən Aşıq Pərinin qoşmaları az zaman içərisində dillər əzbərinə çevrilirdi. 16 yaşında olan gənc qızın bu cür fitri istedadının olması ətrafdakıları heyrətləndirməyə bilməzdi. Məhz bu məharətinə görə xalq onu sevərək "Aşıq" adını vermişdi. Qarabağın ilk qadın şairi adlandırılan Aşıq Pəri sözsüz ki, rəftarına, gözəlliyinə və ağlına görə bu hörməti qazana bilmişdir. Aşıq Pəri şeirlərinin sadə dildə yazılması sözsüz ki, asan qavranılmasına səbəb olmuşdur. Ümumiyyətlə tədqiqatçılar şairlər haqqında danışarkən tez-tez sadə dil üslubuna toxunur və şeirin sadə formada yazılmasının vacibliyindən daha çox bəhs edirlər. Burada bir həqiqət vardır ki, sadə dildə yazılmış şeir yaddaşlara asanlıqla qalır.

Aşıq Pəri klassik irsə, şifahi xalq ədəbiyyatına yaxşı bələd idi. O, şeirlərində mənalı fikir verməyi və bir-birini tamamlayan ifadələr işlətməyi bacarırdı. Aşıq Pəri bədii sözün təsir və qüvvətini bilən zövqlü sənətkar olmuşdur. Bir qadının adi həyat hadisələrinə, sevgi hisslərinə bu qədər dərindən baxması, gənclik duyğularını ağılla şeirlərində hiss etdirməsi onun fitri istedadından xəbər verən amildir.

1829-cu ildə görkəmli şərqşünas Adolf Petroviç Berje Azərbaycanı səyahətə çıxarkən, Qarabağda olmuş və Aşıq Pəri ilə görüşmüşdü. O, Pərinin istedadını və gözəlliyini heyranlıqla təsvir edərək yazırdı: «В Карабахе в деревне Маралиан, на берегу Аракса, Явилась в 1829году 16-ти летняя татарская девица, по имени Ашиг Пери, замечательная не только красотою, но и прекрасным поэтическим дарованием, в особенности даром импровизации. Она вступала в состязание со многими современными поэтами и оставалось всегда победительницею»(1).

A.P. Berjenin yazdığına görə Aşıq Pərinin doğum tarixi haqqında belə qənaətə gəlmək olur ki, əgər 1829-cu ildə Aşıq Pəri 16 yaşında idisə, onda onun doğum tarixi təqribən 1811-1813-cü illərə düşə bilər. Başqa məqalələrdə Aşıq Pərinin 34-36 yaşlarında dünyasını dəyişməsinin qeyd edildiyini nəzərə alsaq, onda ölüm tarixinin 1847-ci illərə təsadüf etdiyini anlamaq olar. Hətta bəzi mənbələrdə onun 1833-cü ildə vəfat etdiyi göstərilir. Təəssüf ki, Aşıq Pərinin həyatı haqqında əldə məlumat azdır. Amma bununla yanaşı onun şeirlərindən qismən də olsa həyatını başa düşmək olur(2).

Aşıq Pəri ruhən xalq poeziyasına bağlı idi və xalq poeziyasının davamçısı adlandırılırdı. Xalq tərəfindən verilən "Aşıq" adına layiq olmağa çalışan bu gənc qız, iç dünyasını poeziya dili ilə deməyi bacarırdı. Məşhur söz ustadları ilə deyişən Aşıq Pərinin ən yaxın dostu və müasiri Mirzəcan Mədətov idi. Doğrudur, Aşıq Pəri müasirlərinin çoxu ilə məktublaşmış və dostluq etmişdir. Amma bunların içərisində Mirzəcanla olan dostluq əlaqəsi daha möhkəm və deyişmələri də daha çox olmuşdur. Mirzəcan Aşıq Pərinin Qarabağdakı şöhrətini eşitdikdə Tiflisdən Qarabağa gəl-

miş və özünün ən yüksək lirik şeirlərini bu gözəl Azərbaycan şairəsinə təqdim etmişdir (8). Mirzəcanın Azərbaycan dilində yazdığı qoşmaları onun xalqımızın dili və ədəbiyyatı ilə yaxından əlaqədar olduğunu göstərir. Aşıq Pəri ilə Mirzəcanın deyişmələri dillər əzbəri idi. Mirzəcan Mədətovun ölümü Aşıq Pərini olduqca mütəəssir etmiş və o bu münasibətlə yazdığı

Dünya sənin etibarın yox imiş,
Bir xəbər ver, Mirzəcanı neylədin?
Neçə bəylər ilə, neçə xan ilə,
Göftarı xoş əhli-canı neylədin?(3)

şeiri bu gün də yaddaşlarda qalmaqdadır.

1830-cu ildə Şuşaya köçən Aşıq Pəri ömrünün sonuna qədər orada yaşamışdır. Onun həyatının heç də hamar olmadığına mənbələrdə rast gəlmək olur. 25 yaşında ikən qurduğu uğursuz ailə taleyindən və əri Molla Məhəmmədin Aşıq Pərini bir şair olaraq qəbul etməməyi ailədə problemlər yaradırdı. Hər şeir məclisindən qayıdandan sonra ərinin narazılığı ilə qarşılaşan Aşıq Pərinin yazılarından onun ruhən nə qədər sarsıldığını görmək olur. Tamamilə başqa-başqa adamlar olan Aşıq Pəri ilə əri Məhəmmədin ailə səadəti uzun çəkməyibmiş. Ailə səadəti olmayan Pəri bəlkə də bu səbəblərdən çox qısa ömür sürmüşdür. Onun yazılarının birində oxuyuruq:

Molla qoymur qələm alım dəstimə,
Ərzi-halım bəyan edim, neyləyim?(7)

deməsi sanki onun ailəsindən narazılığını oxucuya çatdırır.

Bütün qadağalara baxmayaraq, böyük hörmətə və istedada sahib olan Aşıq Pərinin şöhrəti ətraf rayonlara da yayılmışdır. Onun gözəlliyini şairlər öz şeirlərində vəsf edirdilər.

Azərbaycanda XIX əsrin ikinci yarısında bəzi elmlər: realist dramaturgiya, nəsr və nəzm inkişaf etməyə və ədəbiyyat ideyaca zənginləşməyə başlayır. Aşıq Pəri yaradıcılığına olan maraq da məhz o vaxtdan, yəni XIX əsrin ortalarından ədəbiyyatşünasların diqqətini çəkir.

Azərbaycanın ədəbiyyat tarixində görkəmli yerlərdən birini tutan böyük alim, tənqidçi, pedaqoq və ədəbiyyatşünas Firidun bəy Köçərli(1863-1920) məqalələrindən birində Aşıq Pəri haqqında gözəl fikirlər söyləmişdir. 1903 –cü ildə o yazırdı: "Özünün ağıl və istedadı ilə çoxlarında heyrət doğuran gözəl və gənc şairə Aşıq Pəri o zamankı savadlı, təhsil görmüş ədəbi simaların mərkəzində dayanırdı.

Görkəmli alim F. Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında yer alan, o dövrün məşhur şairləri ilə Aşıq Pərinin adının birlikdə çəkilməsi, bu qadın şairənin nə qədər istedadlı və yüksək hörmətə malik olduğunu göstərir. Gözəlliyi və istedadı ilə müasirlərinin məftun edən Aşıq Pərinin yüksək keyfiyyətlərinin olması onun yaradıcılığında vəhdət təşkil edir. Onun müasirləri Aşıq Pəriyə çoxlu qoşmalar həsr edirdilər və bu qoşmalarda xüsusilə onun gözəlliyi vəsf olunurdu. F. Köçərlinin araşdırmalarının əsasında hazırladığı monoqrafiyasında belə bir yazı yer almışdır. O, yazırdı: Mirzə Həsən "Mirzə" təxəllüs – necə ki, sabiqdə zikr olundu, - Aşıq Pərinin gözəlliyini bu günə tərif etmişdir:

Qönçə lətafətli, lalə üzlüsən,
Məstanə baxışlı, xumar gözlüsən,
Şirin hərəkətli, şəkər sözlüsən,
Yoxdur yer üzündə misalın sənin.

Və yenə onun vəsfində Mirzə yazmışdır:

Etdikcə vəsfini Mirzə mükərrər.
Tazələnib ruhum olur müəttər.
Gülüstanda zülfün kimi müənbər
Nə susənlər, nə sünbüllər oynaşır(3).

Bunlardan başqa Aşıq Pəri Mirzəyə xəstə olduğu halda yazdığı namədir ki, burada zikr olunur:

Nə yatıbsan lətaf bəstər içində,
Bimarmısan, nədir bəs halın sənin?
Eşqin mərizinə mən də təbibəm,
Bəyan eylə mənə əhvalın sənin.

Aşıq Pərinin sözləri ürəyatımlı, yadda qalan və sadədir.

Aşıq Pərini öz qoşmalarında vəsf edən o dövrün məşhur şairlərindən Məhəmməd bəy Aşiq olmuşdur. "Aşiq" Məhəmməd bəyin şair təxəllüsü olmaqla bərabər, həm də Pəri aşiqlərindən biri olduğunu göstərir. O Aşıq Pəriyə yazdığı bir müxəmməsdə deyir:

Ey Pəri, dəhrdə yox sən kimi bir cananə,
Tən edər mehri-rüxün göydə məhi-tabanə,
Gərçi bihəd görürəm lütfünü hər insanə,
Piri-biqaidədir, uyma Məlik Aslanə[2],
Olgilən yar yenə mən təki bir oğlanə.

Yenə Aşıq Pəriyə yazmışdır:

Təxəllüs nə lazım, ey Aşıq Pəri,
Bir kəs ki, mehrdən xəbərdar ola?
Könüldən könülə yollar görünür,
Əlavə, nə hacət, aşikar ola?

Aşıq Pəri cavabında Məhəmməd bəyə yazmışdır:

Şayəstədir, ey mürşidi-kamilim,
Dostlar arasında etibar ola.
Şair odur ustadından dərs ala,
Ziddü cinsi rədifi-pərgar ola(4).

Aşıq Pərinin deyişmələrinə nəzər saldıqda həqiqətən də maraqlı bir mənzərənin şahidi olursan. Bir anlıq o dövr gözlərin önündə canlanır. Elə bir dövrdə

[2] Məlik Aslan – məşhur tuğlu bəy olub.

gənc bir xanımın kişilərlə söz deyişmələri onun tam əksinə olan molla ərinin təbii ki, xoşuna gələ bilməzdi.

Şuşanın adlı-sanlı şairləri Aşıq Pərini deyişmələrində bağlaya bilmirlərmiş. Mirzə Həsən bəy Mirzə, Kərbəlayi Abdulla Canızadə, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Mirzəcan Mədətov və s. aşıq və şairlər ilə deyişmələri xüsusilə maraqlı idi. Adları qeyd olunan bu şairlər o dövrün sayılıb, seçilən görkəmli söz ustadları idilər. Deyişmələrdə üstünlüyü ilə həmişə uğur qazanan Aşıq Pərinin şöhrəti az zaman içərisində ətraf obalara da yayılır. Həmkarlarını hazırcavablığı ilə bağlayan gənc bir qızın belə fitri istedada malik olması əlbəttə ki, həm təəccüblü, həm də sevindirici haldır. Çünki, o mühitin qayda-qanunları, milli xüsusiyyətləri, adət-ənənələri xüsusilə də qadın hüquqsuzluğunun olduğu bir zamanda bizləri düşünməyə vadar edir ki, azad fikir söyləmək, bu günümüzlə ayaqlaşan müasir düşüncəyə malik olmaq doğrudan da o dövrdə nə qədər çətin imiş. Yəni həm mühitin qanunlarına tabe olmaq, həm də şeir yazmaq, yazdıqları qoşmalarla məclislərinə getmək və deyişmələrdə iştirak etmək bir qadının bu qədər ağırlığına tab gətirə bilməyini yada salır. Bəlkə də bu səbəbdən Azərbaycan ədəbiyyatında öz dəsti-xətti, şeir üslubu olan Aşıq Pəri həmkarları tərəfindən hörmətlə qarşılanırdı. Bəlkə də bu insanlar dövrün çətinliklərini görərək Aşıq Pəriyə dəstək olmaq xatirinə onu hörmət və rəğbətlə qarşılayırdılar.

Aşıq Pəri çəkdiyi dərdini, əzabını şeirlərinə köçürməklə sanki özündə bir rahatlıq tapırdı. Biz onun yaradıcılığı ilə tanışlıqdan sonra bu qənaətə gələ bildik. Qısa ömür yaşayan Aşıq Pəri bəlkə də qəlbində olan sevgi hisslərini açmadan, heç kəsə söyləmədən dünyadan köçmüşdür.

1830-cu ildə Şuşaya köçən Aşıq Pəri ömrünün sonuna qədər orada yaşamışdır. Vəfatından sonra qardaşları Kərbəlayi Fərzalı və Mahmud onu öz kəndlərinə gətirmiş və Karxulu kəndində torpağa tapşırmışlar.

Aşıq Pəri haqqında xoş söz söyləyən tanınmış simalardan biri də Mir Möhsün Nəvvab olmuşdur. 1833-1918-ci illərdə Şuşada yaşayıb yaratmış o dövrün məşhur simalarından olan musiqişünas, rəssam, eyni zamanda astronomiya, kimya, riyaziyyat elmlərinin mahir bilicisi sayılan Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərindəki təzkirələrindən birində Aşıq Pərinin adını hörmət və məhəbbətlə çəkmişdir(5).

Aşıq Pərinin bizim bu günümüzə gəlib çatan qoşmaları bir o qədər çox olmasa da biz bu xanımın iç dünyasını onun yazılarından görə bilirik. Onun lirik şeirləri qələmə almasının əsas səbəblərindən biri, bəlkə də birincisi ailə səadətinin uğursuz olması idi.

Aşıq Pəri Qarabağın ilk qadını şairəsi olmaqla bərabər eyni zamanda Azərbaycanın qadın aşıq sənətinin banisi sayılır. A. Berjenin məqaləsində belə bir cümlə var: "Поистине, закавказския мусульманки могуть гордиться таким явлениемь, как Ашиг Пери"(9).

Aşıq Pərinin Azərbaycan xalq ədəbiyyatında açdığı səhifə onun yaradıcılığının bu sənətə verdiyi qiymətli şeir incilərıdir. Bu əlbəttə ki, Aşıq Pəri sənətinə verilən yüksək qiymətdən irəli gəlir. Aşıq pərinin adı Azərbaycan ədəbiyyatında hər zaman yaşayacaqdır.

İstifadə olunan əbəbiyyat:

1. «Русская старина» jurnalı, Sankt-Peterburq 1887, № 10 s, 821.
2. Yenə orada.
3. F. Köçərli "Azərbaycan ədəbiyyatı" 1 hissə, Bakı, 1978, s, 307.
4. Yenə orda: s, 342.
5. Yenə orada: s, 343-345.
6. "Kaspi" qəzeti, 2012, № 389.
7. AMEA-nın xəbərləri, 1939, №4. s. 71.
8. "Azərbaycan ədəbiyyatı tarixi". Bakı, 1944. II cild. s, 58.
9. "Русская старина» jurnalı, № 10, s. 824.

Периханум Мурадова

Ашуг Пери Карабагская
Резюме

Одним из выдающихся представителей Азербайджанской народной литературы является Ашуг Пери. Несмотря на короткую жизнь, Ашуг Пери написала стихи, которые многие знали и знают наизусть. Она всегда добивалась успеха в буриме («дейишме» – соревнование между ашугами) со знаменитыми поэтами своего времени. Ашуг Пери писала простым и понятным языком.

Perixanim Muradova

Garabaghly Ashug Peri
Sammary

One of the most outstanding representatives of the Azerbaijan folk literature is Ashug Peri. In her short life, Ashug Peri wrote poems, which most people knew and know by heart. She always achieved success in bouts-rimes ("deyishme" – competition between ashugs) with famous poets of her time. Ashug Peri wrote in simple and clear language.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, prafessor

LEYLİ ƏLİYEVA
AMEA-nın Nizami adına Ədəbiyyat Unistututu

FÜZULİ İRSİNİN İNGİLİS ƏDƏBİYYATŞÜNASLIĞINDA TƏDQİQİ YENİ ELMİ-NƏZƏRİ KONTEKSTDƏ

Açar sözlər: Füzuli, Həmidə Dəmrəl, şair, ədəbi irs, poeziya, ingilis ədəbi tənqid.

Ключевые слова: Физули, Хамиде Демирель, поэт, литературное наследие, поэзия, английская литературная критика.

Key-words: Fuzuli, Hamide Demirel, poet, literary heritage, poetry, English literary - criticism

XVI yüzillikdə yaşayan, özünə qədərki Şərq poetikasının incəliklərini tam mənimsəyərək daha da inkişaf etdirən böyük şair Məhəmməd Füzulinin hələ sağlığında şöhrət tapmış əsərlərinin zaman keçdikcə dünya xalqlarının dillərinə tərcümə edilməsi, qərb yazarlarının, eləcə də ingilisdilli araşdırıcıların tədqiqat obyektinə çevrilməsi təbiidir. Bu baxımdan Türk araşdırıcısı doktor Həmidə Dəmirəlin ingilis dilində olan «The Poet Fuzuli (His works, study of his Turkish, Persian and Arabic Divans» (Şair Füzuli, əsərləri − türkcə, farsca və ərəbcə divanlarının öyrənilməsi) əsəri Füzuli irsinə marağın artmasının bariz nümunəsidir. On iki fəsildən və hər fəslə verilən yarım başlıqlardan ibarət olan bu əsər üç hissəyə bölünür. Hər bir hissədə ayrıca yazılmış zəngin biblioqrafik məlumat və istifadə edilmiş ədəbiyyat siyahısı verilir. Tədqiqatçı birinci fəsli aşağıdakı kimi səciyyələndirmişdir:

1. Füzuli dövründə İraqın coğrafi durumu
2. Füzuli dövründə Şərq və Türk ədəbiyyatının vəziyyəti

Əsərin müqqədiməsində şairlə bağlı verilən məlumatlardan anlaşılır ki, alim təkcə təzkirəçilərin və qərb şərqşünaslarının fikirlərini təkrar etməmiş, bu böyük sənətkarın türkcə divanını, farsca divanını və eləcə də ərəbcə yazdığı əsərlərini araşdırmışdır. Tədqiqatçı bunları haqlı olaraq şairə şöhrət gətirən əsərlər sayır və Füzuli şeirləri ilə bağlı mülahizələrini söyləyərkən yazır: «Bunlar forma cəhətdən elə zərif, elə rəngarəngdir ki, heç bir türk şairi buna nail ola bilməz. O, böyük zərif ifadələr ustasıdır» (8, 1).

Füzulinin dövrünə və yaradıcılığına belə çoxtərəfli yanaşmaq müəllifə geniş yaradıcılıq imkanları açmış, saysız-hesabsız suallarına şairin zəngin yaradıcılığında cavablar axtarmış, beləliklə, onun şəxsiyyəti və əsərləri ciddi təhlil süzgəcindən keçirilmişdir.

Füzulini həm şair və həm də kamil bir insan kimi xarakterizə edərkən alim onu belə təsvir edir: «Hər bir klassik şairin özünün romantik bir aləmi var. Və təbii ki, onların keçirdiyi bütün hisslər; istər romantik və istərsə də ziddiyyətli olsun, şairin qəlbindən süzülür» (8,1). Tədqiqatçının fikrincə Füzulinin qələmə aldığı bütün əsərlər yenidən çap edilmiş, bəziləri isə çapa hazır vəziyyətdədir. O, füzulisevər bir müəllif kimi hətta belə ümid edir ki, vaxt gələcək dünyanın bütün guşələrindən, məşhur kitabxanalarından, xüsusilə də, Türkiyə kitabxanalarından Füzuli əsərlərinin işığı gələcək. Daha sonra Həmidə Dəmirəl şairlə bağlı saysız-hesabsız elmi məqalələrin yazılmasını, onun dövrü və həyatını işıqlandıran, anadan

olduğu il və yer haqqında bitkin əsərlərin yazılmasına ümid bəsləyir. Yazılmış əsərlər içərisində samballı əsər saydığı doktor Müjgan Cunburun 1956-cı ildə İstanbulda çap etdirdiyi «Füzuli haqqında bir biblioqrafiyası denemesi» əsərini nəzərə çatdırır. Həmidə Dəmirəl yazır ki, Müjgan Cumbur özünün də qeyd etdiyi kimi Türk kitabxanalarının əksəriyyətində Füzuli ilə bağlı kataloqların yox dərəcəsində olduğundan bu boşluğu doldurmaq məqsədilə belə bir əsəri ərsəyə gətirmişdir. Müjgan Cumbur bu məqsədlə Avropaya səfər etmiş, həmçinin Türkiyənin bütün kitabxanalarına baxmış, professor Abdulqadir Qaraxanın 1949-cu ildə şairlə bağlı yazdığı «Füzuli, mühiti, həyatı və şəxsiyyəti» adlı əsəri və professor Mazioğlunun «Füzuli-Hafiz» əsərini diqqətlə araşdırmış (bu əsərdə Füzulinin türkcə qəzəlləri ilə fars şairi Hafiz Şirazinin qəzəlləri müqayisəli şəkildə təhlil edilir) eləcə də Füzuli haqqında E.C.V. Gibbin çoxcildli «Osmanlı poeziyasının tarixi» əsərini tədqiq etmişdir. Müəllif onu da qeyd etmişdir ki, Füzulinin elə əsərləri var ki, onlara aid heç bir məqalə belə yazılmamışdır. Füzulinin fikirləri, düşüncələri ilə bağlı mülahizələr söyləmək üçün mənbə olacaq bir şeyin olmadığını söyləyən müəllif şairin anadan olduğu il haqqında müxtəlif fikirlərin olduğunu söyləyir, şairin yaratdığı obrazların Məcnun, Rind və Zahid haqqında geniş məlumat olarsa Füzulinin daha aydın anlaşılmasına kömək olacağını bir daha vurğulayır. O, çalışmışdır ki, daha çox şairin Divanına müraciət etsin, çünki müəllifin fikrincə Divanın və eyni zamanda başqa əsərlərinin də araşdırılması şairin sənəti və düşüncələri ilə bağlı çox söz deməyə imkan verir.

Tədqiqatçının fikrincə Füzuli bütün həyatını (1480-1556-cı illər) Bağdadda keçirmiş, Kərbəlada, Nəcəf, Hillə və Kufədə qərar tutmuşdur. Onu da qeyd edək ki, İraq əvvəllər Mesopotamiya (əl-Rafizeyn) kimi tanınmış, yalnız 1921-ci ildə İraq adlandırılmışdır. Füzulinin dövründə İraq Ağqoyunlular hakimiyyəti tərəfindən idarə edilirdi (1508-1534-cü illər). Orta əsrlərin ilk çağlarından Bağdad İslam mədəniyyətinin beşiyi olmuş, bu dövrlərdə Ərəb ədəbiyyatı özünün ən yüksək zirvəsinə çatmışdı. 1258-ci ildə Moğolların işğalından sonra Bağdad öz mövqeyini və əhəmiyyətini itirmiş, lakin bir mərkəz kimi təhsilin − təkcə ərəb və fars ədəbiyyatının deyil, eləcə də Türk ədəbiyyatının beşiyi kimi öz fəaliyyətini davam etdirmişdir. Əsas idarəçilik Moğollarda idi. Tarixə nəzər salan Həmidə Dəmirəl Bağdadın 813/1410-cu ildə Qaraqoyunlular hakimiyyətinin əlinə keçməsi və 871/1467-8-ci ilədək davam etməsi, yalnız 1468-ci ildən sona Ağqoyunlu Türkmənlərin hakimiyyətinə keçməsi haqqında da məlumat verir. Tədqiqatçı eyni zamanda Səfəvi hökmdarı Şah İsmayılın 914/1507-8-ci illərdə Bağdadda mövqe tutmasını, 26 il farsların nəzarəti altında qalması barədə də açıqlama verir. Araşdırıcı bu burədə əsasən «Sonuncu böyük İslam hakimiyyəti» (13, 77-87) adlı əsərə istinad etmişdir.

Həmidə Dəmirəl vəzir İbrahim Paşanın böyük ordu ilə heç bir xəbərdarlıq etmədən 1534-cü ildə Bağdada hücumundan, Soltan Süleymanın böyük ordu ilə şəhərə daxil olub yaza qədər orada qərar tutmasından bəhs edir. Soltan Süleymanın həyat və nailiyyətindən danışan tədqiqatçı qeyd edir ki, hökmdar tarixdə daha çox siyasətçi kimii qalmışdır. Onu da deyək ki, XVI yüzilliyin tarixində Soltan Süleyman Türkiyə üçün Bağdad üzərində çaldığı qələbəsi ilə öz ölkəsi naminə ədəbiyyatın, elmin, incəsənətin yüksək zirvəyə qalxmasına yardım etmiş, şərait yaratmış, məhz onun beş oğlunun da təzkirəçilər və lirik şairlərin siyahısına düşməsi təsadüfi deyil. Bu dövrdə yaşayan Füzuli həm Soltan Süleymana, həm İbrahim Paşaya və

həm də o illərdə Bağdadda olan yüksək təbəqəli şəxslərə qəsidələr yazmışdır. Əlbəttə bu dövrün tarixi zəminini öyrənmədən şairin düşüncə tərzini ətraflı şərh etmək çətinlik törədir. Tədqiqatçının fikrincə ən zəif şeir də insanın keçirdiyi hiss, fikir, düşüncə haqqında təsəvvür yaradır. Həmidə xanım haqlı olaraq bu dövrün ingilis şərqşünası Gibb tərəfindən daha ətraflı təhlil edildiyini qeyd edir. Türk ədəbiyyatının keçdiyi yola nəzər salan Həmidə Dəmirəl bu ədəbiyyata lirik və romantik şairlərdən − xüsusilə Hafiz və Əli Şir Nəvainin təsirindən söz açır. Bu şairlər həm fars və həm də cığatay türk dilində yazıb yaradırdılar. Fars ədəbiyyatının Türk romantik poeziyasına təsirinə misal olaraq tədqiqatçı «Leyli və Məcnun», Xosrov və Şirin» əsərlərini göstərir. Bu dövrlərdə təsəvvüf ədəbiyyatında alleqoriya formasında əsərlərin yaranmasını və buna rəğmən «Gül və Bülbül», «Səhhət və Mərəz» əsərlərini misal gətirən Həmidə Dəmirəl qərb şərqşünası Volter Lifin (17) təsəvvüf ədəbiyyatının Fars ədəbiyyatına təsir etməsi fikrini xatırladır. Tədqiqatçı belə bir fikir irəli sürür ki, Türk və fars lirik poeziyasında əsas vurğu «eşq» anlayışı olsa da və bu anlayış poeziyanın əsas aparıcı meyarı sayılsa da, şairlərin əksəriyyəti heç vaxt eşqin nə olduğunu bilməmişlər. Sufi şairi Əbu Səid ibn Əbül Xeyr (967-1049) təsəvvüf ədədiyyatını bir növ poeziyaya gətirmiş, onu inkişaf etdirmiş və bu meyl tezliklə yayılmışdır, lakin bu poeziyada canlı həyatdan və hissdən heç bir əsər-əlamət olmamışdır. Şairlərin əksəriyyətinin fikrincə qəlbləri oxşayan dilbər əslində zalım, vəfasız bir varlıqdır. Hətta təsvir edilən gözəl əslində real gözəl deyil. Həmidə Dəmirəl öz fikrini qüvvətləndirmək üçün Füzulinin bir beytini misal çəkir:

Gər dersə Füzuli ki, gözəllərdə vəfa var,
Aldanma ki, şair sözü əlbəttə yalandır (12, 264).

Onu da qeyd edək ki, bu ənənə o dövrdə yaşayan təkcə Şərq şairlərinin əsərlərində deyil, hətta fransız Qustaf Flaubert (1821-1881) öz yazılarında bu barədə belə yazmışdır: «Çox vaxt elə təsirli, ehtiras doğuran şeylər yazmaq olur ki, orada heç bir məhəbbət, hiss, həyacan olmur. Sən şərabı, sevgini, qadını təsvir edə bilərsən, bu sənə ləzzət və ya ağrı verə bilər, amma bunların heç biri olmaya da bilər. Mənim fikrimcə sənətkar qeyri-təbii bir məxluqdur (8,10).

Soltan Süleyman dövrünü xarakterizə edən Həmidə Dəmirəl bu dövrdə poeziyanın bir sənət nümunəsi kimi inkişaf etdiyini də vurğulayır. Soltan Süleyman dövründə (1520-1566) romantik məsnəvinin «qızıl dövrü» olduğunu qeyd edən tədqiqatçı Şeyxinin «Xosrov və Şirin» əsərinin böyük bir ehtirasla qələmə alındığını, cəmiyyətin bütün təbəqələrinin burada iştirak etdiyini vurğulayır. Soltanlar, şahzadələr, vəzirlər müftilər, dərvişlər və başqaları. Əslində şairlər sarayla əlaqə saxlamırdılar, lakin əsərlərində sarayda baş verən hadisələr əks olunurdu. Soltan Süleyman dövründə poeziyaya böyük diqqət verilmiş, şair ruhlandırılmış, hətta onların özləri də şeir yazmağa başlamışdılar. Ən məşhur, tanınmış şairlər soltan, vəzir və valilərlə əlaqə saxlamışlar. Başqa bir cəhətdən isə o dövrlərdə Türk ədəbiyyatı poeziyası xalq kütləsi üçün bağlı bir kitab idi. Təhsil almayan bir şəxs bu poeziyanı anlaya bilməzdi. Əlbəttə, poeziya hər şeydən əvvəl bir sənət idi, yaradıcı bir iş idi. Bu dövrdə Türk şairləri sənətkarlıq baxımından birinci yerdə idilər. XIX yüzilliyin görkəmli tədqiqatçısı, Von Hammer Purqştal (10) belə hesab edirdi ki, Soltan Süleyman dövrü Türk poeziyasının son zirvəsidir. Bu dövrdə poeziya elə bir

səviyyədə idi ki, hər üç nəfərdən ikisinin adı Osmanlı şairlərinin arasında idi» (15, 211-213). İngilis şərqşünası Gibb də Soltan Süleyman dövrünü xarakterizə etmiş, Soltan Məhəmmədin (1481) şeirlərini Şekspir şeirləri ilə müqayisə etmişdir.

Füzuliyə gəlincə Gibb onu heç bir şairlə müqayisə etmir. O, şairi Şərqdən çıxan bir günəşə bənzədir, onu Süleyman dövrünün heç bir şairilə müqayisə edilə bilməyəcəyini söyləyir (7, 73). Şərqşünas Lord Hoqton dövrün şairləri ilə bağlı maraqlı fikir irəli sürür: «şair təsvir edərkən istər lirik olsun və istərsə də dramatik olsun, öz hisslərini gizlətmir, əksinə qəlbinin sirlərini açır. Onun həyatı yazılarındadır və həqiqətən də onun şeirləri öz əsərləridir (14).

Lətifi öz təzkirəsində Füzulini dövrünün ən böyük şairi adlandırır. Özünə məxsus üslubu və yolu olduğunu qeyd edir. Sam Mirzə «Tohfe-yi-Sami» əsərində Füzulini Bağdadda Türk və ərəb dillərində yazan ən gözəl şair hesab edir. Əhdi özü Bağdadlı olduğundan şair haqqında daha geniş məlumat verməyə çalışır. O, şairin gözəl təbiətə və danışıq tərzinə malik olduğunu vurğulayır.

Professor Abdlqadir Qaraxan Füzuliyə həsr etdiyi əsərində şairin həqiqətən Kərbəlada doğulduğunu, israrla Füzulinin Hillədə doğulmadığını, sadəcə olaraq qısa müddətdə ya ora səfər edib və yaxud da az müddətdə orada yaşadığını söyləyir. Sadiği də Füzulinin Hillədə doğulmadığını, lakin şairin oranı sonralar vətən adlandırdığıtı qeyd edir. İranlı Əli Tərbiyyət də «Daneşməndani-Azərbaycan» əsərində Füzulinin Bağdadda və ya Kərbəlada doğulduğunu desə də, heç bir fakt göstərmir. Əbdülhəq Həmid Süleyman Nazifin kitabının müqəddəməsinə əsasən yazır ki, Füzulinin bəzi şeirləri hələ də təhlil olunmayıb, bəziləri isə əzbər deyilir. Lakin təəssüflər olsun ki, şairin həyatı haqqında orada məlumat azdır. Onu da deyək ki, Füzuli özü farsca divanının müqəddiməsində yazmışdır: «Doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və sakinlərinin şüursuzluğu üzündən xaraba qalmış bir ölkədir (12,13).

Həmidə Dəmirəl Füzulinin Türkcə Divanına əsasən belə qənaətə gəlir ki, Abdulqadir Qaraxanın İslam ensiklopediyasında Füzuli ilə bağlı yazdığı əsərində olduğu kimi şairin doğum yeri Ağqoyunlu hakimiyyəti dövründə İraq olmuşdur.

Türk araşdırıcısı tədqiqatında «Füzulinin doğum tarixi» fəslində bu məsələ ilə bağlı deyilən fikirləri yada salır. O, əsasən professor Karaxana istinad edir. A.Qaraxan əvvəlki fikrindən fərqli olaraq 1953-cü ildə «Türk yurdu məcmuəsi»ndə dərc etdirdiyi məqalələrdə şairin 1498 və 1502-ci illərdə Şah İsmayılın məğlub etdiyi və 1504-cü ildə Diyarbəkirdə edam edilən Əlvənd bəyə yazdığı bir qəsidəsinə əsasən yazır ki, sənətkarlıqla yazılmış bu qəsidəni Füzulinin 1500-cü ildə yazdığını güman etsək, onda şairin təxminən 1480-ci ildə doğulduğunu söyləyə bilərik. Füzuli Divanında «50 il Əli türbəsində xidmət etmişəm» fikrini götürəndə onun 20 yaşında şeir yazmağa başladığını güman etsək, onda Füzulinin ən azı 70 il ömür sürməsini söyləmək olar. Belə olduqda şairin 1480-ci ildə doğulmasına heç bir şübhə qalmır.

Tədqiqatçı bu mühüm məsələnin sonralar geniş müzakirə edilmədiyinə və məqalələrin yenidən işıq üzü görmədiyinə təəssüf edir.

«Füzulinin təxəllüsü» məsələsinə gəlincə alim müasir tədqiqatçıların onu Mövlanə Füzuli və ya Füzuli-Bağdadi adlandırdıqlarını söyləyir. Adının Məhəmməd, atasının Süleyman olduğu və bəzi qaynaqlara görə atasının Hillədə müfti olması söylənilir. Füzuli təxəllüsünü bütün qəzəllərində və nəsr əsərlərində işlədir. Şair heç kəsin getmədiyi bir yolla getdiyi kimi təkrarolunmaz və heç kəsin

götürmək istəmədiyi bir təxəllüs seçmişdir. Həmidə Dəmirəl şairin farsca divanının müqəddiməsində nə üçün məhz bu təxəllüsü götürdüyünü şairin öz dili ilə verir: «Şeirə başladığım zamanlar hər gün bir təxəllüs bəyənir, bir müddət sonra eyni təxəllüsü işlədən bir şairə rast gəlir və aldığım təxəllüsü dəyişdirirdim. Sonra anlaşıldı ki, məndən əvvəl gələn dostlar ibarələrdən çox təxəllüsləri götürmüşlər. Düşündüm, əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürərsəm, müvəffəq olmadığım təqdirdə mənə zülm olar, müvəffəq olarsam ortağıma zülm etmiş olaram. Bu bənzərliyi ortadan qaldırmaq üçün «Füzuli» təxəllüsünü aldım və ortalıqlarımın mənə zülm edib, məni iztirab içində qoymalarından qurtarmaq üçün təxəllüsümün himayəsinə sığındım. Bildim ki, bu ləqəb heç kimin xoşuna gəlməyəcək. Həqiqətən də bu ləqəbi almaqla ortalıqdan mənə gələ biləcək əzabların qapısını bağladım və şeirlərimin qarışıq düşməsi həyacanından qurtardım. Həqiqətən bu təxəllüs bir çox cəhətdən tamam mənim istədiyim kimi oldu, mənim arzuma çox uyğun gələn ləqəb oldu. Əvvəla, mən özümü ruzigarın yeganəsi görmək istəyirəm. Bunu təxəllüsüm təmin etdi. İkincisi, mən bütün ülum və fununu özündə toplamış bir insan olmaq üçün çalışırdım. Bunu ifadə edən bir təxəllüs tapdım, çünki füzul lüğətdə fəzlin cəmidir. Füzulinin xalq arasında başqa mənası ədəbi müxalif deməkdir. Bundan da ədəbə müxalif nə ola bilər ki, yüksək qədirli alimlərlə çox az görüşmüşəm, mərhəmətli padşahlara və sultanlara yaxın olmamışam. Səyahət etmədiyim halda həmişə əqli mübahisələrdə həkimlərin (filosofların) müxtəlif hökmlərinə etiraz edir, müqayisəyə girərəm. Bu hərəkət nə qədər Füzulinin kamalına əlamətdirsə, o qədər də füzulluğun son dərəcəsinə işarədir (12, 13). Bu da bir faktdır ki, şair bəzən Füzuli təxəllüsünü əks məna verən bir söz kimi də işlədir:

Tədqiqatçı buna misal olaraq «Bəng-ü-Badə» əsərinin son misralarını nümunə verir:

Çün Füzulidir mənim ləğəbim,
Əcəb olmaz gər olmasa ədəbim.

Həmidə Dəmirəl şairin təxəllüsü ilə bağlı bir çox görkəmli yazarların kəlamlarını xatırladır. Süleyman Nazif «Füzuli» əsərində yazır: «Füzuli naqis bir sözə çox qəşəng məna verir. Onun adı bu gün də bizə onu gözəl, müqəddəs, pak bir şəxs kimi xatırladır» (16,14). Professor A.Qaraxan da eyni fikirdədir: «Onun təxəllüsü hansı məna verirsə versin, o, həmişə bizim düşüncəmizdə bir aşiq, bir arif, kamil bir insan kimi qalacaq» (8, 17-21).

Həmidə Dəmirəl «Füzulinin həyatı və qadınlarla bağlı düşüncələri» bölməsində əvvəl qeyd etdiyi kimi bu dahi şairin həyatı və şəxsiyyəti haqqında geniş məlumat verməyin çox çətin olduğunu etiraf edir. Çünki onun haqlı olaraq qeyd etdiyi kimi Qərb şair və nasirlərdən tam fərqli olaraq, Şərq şairləri özləri haqqında danışmır, danışsalar da bunu ədəbi ənənəyə sadiq olaraq edirlər. Ona görə də bu həmişə şərqşünaslar üçün bir problemə çevrilir.

İlk növbədə araşdırıcı məşhur Osmanlı təzkiraçisi Əbu-Ziya Tofiqin (1848-1913) «Nümuneyi ədəbiyyat» və Faiq Rəşadın (1851-1914) «Tarixi-ədəbiyyat-i Osmaniyyə» əsərinə müraciət edərək şairin poeziyaya gəlməsini öz müəlliminin qızına vurulması ilə bağlayır. Bu bağlılıq şair Həbibi tərəfindən söylənmişdir. Artıq yuxarıda qeyd edilmişdi ki, Füzulinin atası Hillədə müfti olmuş, savadlı bir ailədən çıxdığına görə Füzuli gözəl təhsil almış və dövrünün bütün elmlərindən xəbərdar

olmuşdur. Ona Mövlana adının verilməsi də təsadüfi deyildir. İlk təhsilini Kərbəlada almış, Hillə və Bağdadda davam etdirmişdir. Şair özü də Türkcə Divanının dibaçəsində poeziyaya olan eşqindən danışmışdır. Dövrünün ən məşhur şairi olduğundan onunla bağlı müasirləri gözəl fikirlər söyləmişlər. Şairin qeyri-adi, qəlb ovsunlayan əsərlərin müəllifi olduğunu söyləyən Lətifi və Əhdi ona heyran olmuşlar. Qınalizadə (1510-1571) şairin ana dilinin şirinliyini Səlsəbil suyuna, zəngin poeziyasını şəfəq saçan Günəşə, qəzəllərini dünyanın qibtəediləcək gülüstanına, mavi səmanın göy qurşağına bənzədir. Şairin qadın haqqında düşüncələrinə gəldikdə isə tədqiqatçı göstərir ki, heç bir qaynaqlarda onun anası və qadını haqqında məlumata rast gəlmədim. Bir qadın kimi bu məni çox düşündürürdü. Bəzi mənbələrdə onun müəlliminin qızına vurulduğu barədə söz getsə də, əlavə məlumat yoxdur. Füzuli heç bir şeirində sevgilisinin adını vermir. O, bu barədə qəzəllərinin birində yazır:

Daşə çəkmiş xəlq üçün Fərhad Şirin surətin,
Ərz qılmış xəlqə məhbubun əcəb bimar imiş.

Füzulinin ümumən qadına olan məhəbbətini araşdırmağa çalışan H.Dəmirəl bunu özünəməxsus bir tərzdə qruplaşdırır:

1) Cəmiyyətdə qadınların mövqeyi.
2) Qadınlar tarixi və dini əsərlərin qəhrəmanları kimi.
3) Qadınlar romantik əsərlərin qəhrəmanları kimi.
4) Qadın və yaxud qadınların şairin emosional və sevgi həyatında.

Alim qadınların cəmiyyətdəki mövqeyindən danışarkən hələ erkən islami Türk cəmiyyətində qadınların yüksək mövqedə durduğu vurğulayır və qeyd edir ki, Füzulinin «Həqiqətus-süəda» əsərində Məhəmməd peyğəmbərin (S) zamanında ərəb qadınlarının yüksək yer tutmaları xatırlanır, eləcə də «Kitabi Dədə-Qorqud»da Türk qızlarının at sürmələri, qılınc oynatmaları təsvir edilməklə onların vəfalı, sədaqətli, etibarlı xanım olmaları da göstərilir.

Orta əsrlərin ilk çağlarında da qadınların rolu böyük olmuşdur. Qaraxanid şahzadəsi olan Türkan Xatun Səlcuq Sultan Məlik şahın həyat yoldaşı olmaqla dövlət işlərində böyük rol oynamışdır. Atabəy Əbu Bəkr ibn Zənginin oğlu Sədin qızı şahzadə Əbiş Xatun 1264-1284-cü illərdə fars şahzadəsi kimi dövləti idarə etmişdir. Füzuli üçün böyük örnək olan Azərbaycan şairi Nizami Gəncəvi (1140-1209) də öz qəhrəmanları olan Şirini, Leylini və Yeddi gözəli təsvir etmişdir.

Əsərin «Qadınlar lirik əsərlərin qəhrəmanı kimi» bölməsində Türk məsnəvi ədəbiyyatının ən məşhur qəhrəmanları kimi Şirin və Leyli təsvir edilir və onlar Fərhad və Məcnunun sevgililəri kimi göstərilir.

Misal üçün:

Qıl təfaxür kim sənin həm var mənim tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var (12, 56-58).

Məşhur türk məsnəvisi olan «Leyli və Məcnun» əsərində Füzuli Leyli haqqında olan fikirlərini genişləndirir. Orta əsr Türk ədəbiyyatında sevgili elə təsvir edilir ki, onun qadın və kişi olması məlum olmur. Lakin Füzuli Leylisi bütün xüsusiyyətlərinə görə qadındır. Tədqiqatçı Həmidə Dəmirəl sonrakı fəsillərdə şairin əsərlərində qadın obrazını necə yaratmağının yollarını şərh edəcəyini söyləyir.

«Füzulinin həyatında qadın və yaxud qadınlar» bölməsi də maraq doğurur.

Tədqiqatçıya görə Füzulinin həyatında fərziyyə olunan bir qadın var ki, o da Əbu-Ziyanın fikridir (4,87). Belə ki Əbu-Ziya Tofiqin fikrincə Füzuli müəlliminin qızına vurulmuş, aşağıdakı gözəl və təsirli şeiri ona həsr etmişdir.

Pərişan halın oldum, sormadın hali-pərişanım.
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım.
Nə dersən, ruzigarım böyləmi keçsin, gözəl xanım,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım (12,27).

Doğrudanmı Füzuli həyatında yeganə bir qadını sevmişdir, yoxsa onun ətrafında çox qadın olmuşdur? Biz bilmirik. Onun bəzi şeirlərində bir çox gözəllərə müraciət olunduğundan bəzən çətinliyə düşürük (8, 38).

«Füzulinin milliyyəti» bölməsində tədqiqatçı şairin üç dildə – ərəb, fars və türk dillərində eyni səviyyədə yazıb-yaratdığını vurğulayır və şairin öz dövrunun bütün elmlərindən xəbərdar olduğunu bir daha xatırladır. Həmidə Dəmirəl şairin öz sözlərinə müraciət etməyi məqsədəuyğun sayaraq şairin farsca divanının müqəddiməsinə müraciət edir. Şair yazır: Bəzən ərəbcə şeir yazdım və ərəb fəsihlərini müxtəlif mənzumələrimlə şadlandırdım. Bu mənim üçün asan idi. Çünki mənim elmi bəhslər (fənlər, yaxud mübahisə) dilim ərəbcə idi. Bəzən türkcə şeir meydanında at çapdım və türk zəriflərinə türkcə şeirin gözəlliklərilə zövq verdim. Bu da məni o qədər təşvişə salmadı, çünki türkcə şeir mənim əslimin səliqəsinə uyğundur. Bəzən fars dili sapına inci düzdüm və o budaqdan könül meyvəsi dərdim (6, 9). Tədqiqatçı şairin işlətdiyi «türkcə şeir mənim əslimin səliqəsinə uyğundur» ifadəsini əsas götürərək şairin ana dilinin türk dili olmasını qeyd edir. Türkcə Divanın müqəddiməsində şair gənclik illərində yazdığı lirik qəzəllərini topladığını söyləyir ki, bu da şairin gənc yaşlarından məhz Türk dilində yazdığını və onun ana dilinin Türk dili olmasını bir daha təsdiqləyir.

Professor Hasibə Mazioğlu (9, 354) belə fikirləşir ki, Füzulinin dialekti onun qəzəllərinə Osmanlı poeziyasında çox nadir olan xüsusi gözəllik verir, onu daha da oxunaqlı edir. Hətta sonralar Osmanlı şairləri Füzulinin sözlərindən öz şeirlərində istifadə edərək onu təqlid etmişlər. Professor A.Cəfəroğlu (3, 192-194) da da Füzuli dilinin Azəri xalqının dilinə və ədəbiyyatına təsir etdiyini qeyd edir və bu yeni inkişaf xəttinin XVII və XVIII yüzilliyədək davam etdiyini vurğulayır.

Klassik Azəri ədəbiyyatının günü-gündən inkişaf etdiyini və onun folklor ədəbiyyatında da əks olunduğunu söyləyən tədqiqatçı buna bariz misal olaraq «Koroğlu» və «Əsli və Kərəm» dastanlarını göstərir. Folklor ədəbiyyatında olan bu inkişaf XVII və XVIII əsrlərdə Azəri şairləri Şirvani və Molla Pənah Vaqif (1717-1797) şeirlərində əksini tapmışdır.

Dillə bağlı Füzuzi özü bir qitəsində yazır ki, fars poeziyası çoxdur, lakin Türkcə gözəl yazmaq çətindir. Türkcə yazarkən uyğun sözləri tapmaq çətinlik törədir. Belə ki, yaz gəlir, qızıl gül heç nədən baş qaldırır. Əgər Tanrı mənə uğur versə, bu çətinliyi asan edərəm:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzm-nazik ləfzilə türk ikən düşvar olur,
Ləhceyi-türki qəbuli-nəzmə-tərkib etməyib
Əksərən əlfazi namərtübü nahəmvar olur.

Məndə tovfiq olsa bu düşvari asan eylərəm.
Növbahar olğac tikəndən bərgi-gül- izhar olur (12,218).

Füzuli dilinin zənginliyindən danışan araşdırıcı qeyd edir ki, şair hər üç dili mükəmməl bildiyindən poeziyasında onlardan məharətlə istifadə etmişdir. Füzuli məsnəvidə Nizami Gəncəvini, Əmir Xosrov Dəhləvini, Cami və Hatifini izləmiş, qəzəldə Sədi, Salman və Hafiz yolunu tutmuş, Lütfi və Nəvainin, eləcə də Nəsimi və Həbibi ənənəsini davam etdirmiş və Osmanlı şairlərinin əsərlərinə bələd olmuşdur.

Füzuli eyni zamanda Soltan Süleyman ordusu ilə Bağdada gələn Xəyali və Yəhya kimi şairlərlə də görüşmüşdür. Doktor Zeynəp Qorxmaz Füzulinin dili ilə bağlı məqaləsində yazır ki, Füzuli türk, ərəb və farsca yazdığı əsərləri ilə XVI yüzilliyin ədəbi dilini işıqlandırmışdır (18). Tədqiqatçı nəzər-diqqəti bir maraqlı nöqtəyə də yönəldir ki, Füzulinin dilini öyrənməyə cəhd edərkən qarşıya çıxan çətinliklərdən biri də o oldu ki, heç bir yerdə onun öz əli ilə yazılan əlyazmaya rast gəlmədik. Mərhum professor Əhməd Atəş İstanbul Universitetinin kitabxanasında fars kitabları arasında olan bir əlyazmasında «Füzuli» imzasına rast gəlmişdir.

Professor Əhməd Atəş (5, 545) «Türk dili» məcmuəsində verdiyi məlumata görə «Bustan» əsərinin üzünü köçürəndən sonra onu Füzuliyə aparmışlar və xahiş etmişlər ki, o, bu əlyazmaya bir neçə xatirə sözü yazsın. Əlyazmanın axırıncı səhifəsində bu sözlər yazılmışdır:

Hezaran dərud hezaran salam
Əz ma be Muhammad əleyhüssalam
Molla Muhammad Füzuli kətəbəl eyd.
Bizdən Muhəmməd əleyhhüssəlama
min salamın olsun.
Bunu Məhəmmədin (s.a.s.) qulu Füzuli yazdı:

Professor Əhməd Atəş israr edir ki, heç bir Divan şairi Füzuli təxəllüsünü götürməmişdir və buna görə də Füzulinin imzasından bir kimsənin istifadə etməsi ağılasığmazdır. Bu, elə həqiqətən də Füzulinin imzasıdır.

Türk tədqiqatçısının əsərinin dördüncü fəslinin «Füzuliyə təsir» bölməsi böyük maraq doğurur. Burada ilk növbədə şairin yaşadığı dövr və ənənə ilə bağlı qısa məlumat verilir. Onu da deyək ki, ərəb dünyasında yaşayıb-yaradan, müqəddəslərin uyuduğu bir məkanda qərar tutan şair-mövlana özünün imza etdiyi kimi molla Füzulinin ilk istifadə etdiyi və təsirləndiyi mötəbər qaynaq ərəb dilində bəşəriyyət üçün tanrının göndərdiyi müqəddəs Qurani-Kərimdir. İslam dünyasının, ilk və son kitabı olan Qurani-Kərimdən təhsil alan hər bir türk şairi onu özü üçün ilk qaynaq hesab etmişdir. Təhsil almış türklər ərəb dilindən başqa kitabları da oxumuşlar. Bunlardan Quranın məşhur təfsirçisi ibn Xaldun və məşhur ərəb şairi Həririni göstərmək olar. O dövrdə ərəb söz və ifadələrini fars dili ilə qarışdırıb yazmaq Türk şairləri üçün böyük məharət sayılırdı. Belə ki, istər ədəbiyyat, istərsə də Osmanlı soltanlarından başlayaraq bütün Türk yazarları üçün Sədi Şirazi və lirik şair Hafiz Şirazi bir örnək idi. Ərəb poeziyasında fars poeziyasının, xüsusilə Hafizin təsiri böyük idi. Türk şairləri bir qayda, bir ənənə olaraq Şiraz və Xorasan şairlərinin fikirlərindən istifadə edirdilər. Xüsusilə ifadələr şairlər üçün əsas idi. Şairlər sanki tutuquşunu xatırladırdı. Elə bir xırda fikir yox idi ki, Hafizdən və ya Camidən götürülməsin. Bu dövr türk və Fars ədəbiyyatında bütün müəlliflərə xas bir

xüsusiyyət idi. Onlar istər nəzm və istərsə də nəsr əsərləri yazsınlar, bu ifadələrdən istifadə edirdilər.

İlk təzkirəçilərdən Lətifi (XVI əsr), Qınalızadə (XVI əsr), müasir yazarlardan pofessor Gölpinarlı və professor Əli Nihad Tərlan belə bir fikirlə razılaşırlar ki, Məhəmməd Füzuli yaradıcılığına ən böyük təsir edən Cığatay şairi Soltan Hüseyn Bayqaranın ən yaxın dostu və vəziri, 1501-ci ildə Heratda vəfat edən, türk ədəbiyyatında «Nəvai» təxəllüsü ilə yazan Əlişir Navai olmuşdur. Buna belə izah etmək olar ki, o dövrdə yaşayan Əlişir Nəvai türkcə yazan ilk məşhur şair idi. Onun dili Osmanlı şairlər üçün bir nümunə idi. Hələ neçə əsrlər sonra da Nəvai poeziyası fars və Osmanlı lirik şairləri üçün ən mötəbər qaynaq olmuşdur. Şeyx Qalib yazırdı ki, Füzuli Nəvai üslubunu götürdü və öz yolunu tapdı.

Tədqiqatın «İslam Türk ideologiyası və ədəbiyyatında Füzulinin yeri» adlı bölmədə Həmidə Dəmirəl şairin öz sözlərinə istinadən «Elmsiz şeir əsassız divar kimidir» ifadəsini əsas götürərək yazır ki, o dövrdə məşhur olmaq, tanınmaq üçün dövrün bütün elmlərinə yiyələnmək lazım gəlirdi. Füzulinin şöhrəti və təsiri ilə yaşadığı dövrdə hamıya bəlli idi və o, bütün Türk dünyası üçün tanınmış bir şəxsiyyət idi.

Professor Qaraxana (11) görə Füzulinin təsiri çox genişdir. Xüsusilə XVII-XIX yüzilliklərdə yaşayan şairlərə – Ruhi, Nəviradə Ətai, Müidi, Fəzli, Danişi, Nili, Naibi, Fasih, Asim, Niyazi Misri, Şeyx Qalib, Esrar Dede, İzzet Mövla, Akif, Seyid Nigari, Konyalı Sami, Gulami və başqalarına çox böyük təsiri olmuş, onlar şairin əsərlərindən təsirlənərək gözəl əsərlər yazmışlar.

Füzuli əsərlərinin Türk folklor-şairlərlərinə də təsirindən söz açan Həmidə Dəmirəl buna misal olaraq «Aşıq Ömər və Dərtli» əsərinin müəllifi Çövhərini nümunə göstərir. Və nəhayət Fuad Köprülü bir şeyi də vurğulayır ki, Füzuli daha çox Azəri, Türkmən və Cığatay ədəbiyyatına böyük təsir göstərmişdir. İngilis şərqşünası Gibbə görə Füzulinin təsiri daha çox Şərq ədəbiyyatına olmuşdur. Baqi (1600-cü ildə vəfat etmişdir) Osmanldı dövrünün farsdilli şairi kimi işıq saçırdı, amma Türk ədəbiyyatında Füzuli Bağdadidən böyük şair, onun yerini tuta biləcək bir şəxs hələ yoxdur (7, 70-73). Əhdi də (XVI əsrə) Türk, fars və ərəb dillərində eyni səviyyədə yazan Füzuliyə bərabər şair olmadığını dönə-dönə qeyd edir. O yazır: «Füzulinin Farsca Divanı bütün dünyada oxunur. Türkcə şeirlərini bütün moğollar əzbər bilir, ərəbcə şeirləri ərəblər arasında məşhurdur» (8, 86-87).

Həmidə Dəmirəl Füzuli ilə bağlı müxtəlif dövrlərdə yaşayan şair və təzkirəçilərin fikirlərini önə gətirən Həsən Əli Yucelin də mülahizələrini qeyd edir. Həsən Əli Yucel Füzulinin «Leyli və Məcnun» əsəri haqqında yazır ki, Türk ədəbiyyatında bu səviyyədə əsər yazılmamış və bu əsər bir çox dillərə tərcümə olunaraq məşhurlaşmışdır. Həsən Əli Yücelə görə Füzuli təkcə şair deyil, o, eyni zamanda mütəfəkkirdir, filosofdur.

Dr.Məhərrəm Erqin də «Türk tarixi» adlı məqaləsində Füzuli təsirinin bu gün də davam etdiyini vurğulayır. İnamla deyə bilərik ki, son illərdə Füzuli ədəbi irsinin ingilisdilli qaynaqlarda araşdırılması ilə bağlı yazılan əsərlər sırasında görkəmli Türk tədqiqatçısı Doç. Dr.Həmidə Dəmirəlin əsəri nəinki bütün qərb araşdırıcıları üçün, eləcə də füzulişünaslıq elminin daha dərindən öyrənilməsi üçün istifadə edilə biləcək ən dəyərli qaynaqlardan sayıla bilər.

Ədəbiyyat

1. Cunbur Müjdan. Füzuli haqqında bir biblioqrafiya denemesi. İstanbul, 1956
2. Ensyclopaedia of İslam. vol. I, article written by A.Caferoğlu. 1959
3. Ensyclopaedia of İslam. 2nd ed. (article by H.Ritter)
4. Əbu-Ziya Tofiq. Numuneyi-Adabiyyat. İstanbul, 1879
5. Əhməd Atəş. Füzulinin əl yazısı. Türk Dili Məcmuəsi, Ankara, 1956, vol. V. № 57
6. Füzuli. Persian Divan. ed. by Mazioğlu. Ankara, 1962
7. Gibb E.J.W. A history of Ottoman Poetry. London, 1904, vol.III
8. Hamide Demirel. The Poet Fuzuli. (His works, study of his Turkish, Persian and Arabic Divans). Ankara, 1991
9. Hasibə Mazioğlu. Füzuli-Hafiz. Ankara, 1959
10. Joseph Von Hammer-Purgstall, Geschichte der Osmanischen Dichtkunst, 4 vols, pest 1836-1838
11. Karahan Abdulkadir. Füzuli, mühiti, həyatı və şəxsiyyəti. İstanbul, 1949
12. Külliyatı Divani-Füzuli. İstanbul, 1891
13. The last great Muslim Empire. Trans. F.R.C.Bagley. Leiden, 1969
14. Lord Houghton. Life and Letters of Gohn Keats. London. n.d.Preface.
15. Nuri Eren. Turkey today and tomorrow. London, 1963
16. Süleyman Nazif. «Füzuli», İstanbul, 1925
17. Walter Leaf. Versions from Hafiz. London, 1898
18. Dr. Zeynep Korkmaz and Dr. Selahattin Olcay. Füzulinin dili haqqında notlar. Türk tarix kurumu. Ankara, 1956

Лейли Алиева

Исследование наследия Физули в английском литературоведении в новом научно-теоретическом контексте

Резюме

В представленной статье говорится о труде известного турецкого ученого, исследователя литературоведа, доктора Хамиде Демирель «Поэт Физули (произведения, изучение его тюркского, персидского и арабского диванов), посвященном выдающемуся поэту XVI века Мухаммеду Физули. Автор в своем объемном труде (315 страниц), используя многочисленные произведения Физули, рукописи и статьи о поэте, изданные в различных странах мира, исследует эпоху, жизнь и творчество поэта. Хамиде Демирель внимательно и глубоко исследует каждое произведение Физули, она анализирует различные мнения по поводу жизни Физули и рассматривает в различных главах книги различные произведения поэта.

Leyli Alieva

Study of Fuzuli's heritage in the new scientific
and theoretical context of English literary criticism
Summary

The article deals with valuable book "The poet: Fuzuli" (His works, study of his Turkish, Persian and Arabic divans) by the Well-Known Turkish scholar Dr.Hamide Demirel who examined the great poet Mahammad Fuzuli's literary heritage lived in the 16 th century. Here the authoress studies all works by Fuzuli in her voluminous scientific book (315 pages) used a large number of works, articles and manuscripts have been written about the time, life and works of Fuzuli published in different part of the world Dr.Hamide Demirel studied attentively each work by Fuzuli and examined various thoughts about the life of Fuzuli and described and studied the poet's other works in different chapters of her work.

Rəyçi: Mahirə Quliyeva
filologiya üzrə elmlər doktoru

F.E. N. AL-ABBASI NOVAL
BDU

AZƏRBAYCAN-AVSTRİYA ƏDƏBİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN TARİXİ HAQQINDA

Açar sözlər: Palfi sarayı, elmi simpozium, Zayler, Mervald,musiqi festivalı, Rəqs və Mahnı ansamblı, N.Xəzri, Z.Bağırov,H.Mindorf, P.Bülbül oğlu, Valdner
Ключевые слова: Дворец Палфи, научный симпозиум, Зайлер, Мервалд, фестиваль музыкального искусства,ансамбль песни и танца, Н.Хазри, З.Багиров, Г. Миндорф,Р.Бюль-Бюль оглы, Валднер.
Key words: The Palffi Palace, Scientific Symposium, Zeiler, Mervald, Festival of music, song and dance. N. Hazri, Z. Bagirov, G. Mindorf, R. Byul-Bul oglu, Waldner.

Azərbaycan-Avstriya ədəbi və mədəni əlaqələri bu günlərimizdə səmərəli və hərtərəfli şəkildə inkişaf etməkdədir. Azərbaycanın neçə illərdir Avstriyada fəaliyyətə başlamış səfirliyinin bu işdə müəyyən rolunu qeyd etmək lazımdır.Bir müddət bundan öncə KİV 2010-cu ildə Bakida Avstriya səfirliyinin açılacağı barədə xəbər vermişdir. Lakin bu əlaqələrin yaranmasının yalnız Azərbaycanın öz müstəqilliyini əldə etməsindən sonra mümkün olması haqda düşünmək lazım deyildir. Əldə etdiyimiz faktlar göstərir ki, bu əlaqələrin tarixini 1970-ci illərdən-Vyananın Palfi sarayında keçirilmiş elmi simpoziumdan hesablamaq lazımdır. Həmin simpoziumda açılış sözü ilə o illərin Avstriya-Sovet Cəmiyyətinin prezidenti (professor Anton Zayler) və katibi (Frans Mervald) çıxış etmişlər.

Həmin yüksək tribunadan qonaqlara o zamankı Azərbaycan Sovet Respublikasının son əlli ildə əldə etdiyi nailiyyətlərdən danışılmışdır. Avstriya diplomatları, siyasətçiləri və natiqləri böyük həvəslə Azərbaycan xalqının gözəl ənənələrindən bəhs etmişlər.Aşkar etdiyimizə görə, Cəmiyyətin katibi Frans Mervald dəfələrlə Azərbaycanda olmuş və onun respublikanın maarif, təhsil, yaşayış sahələrində əldə etdiyi nailiyyətlər və respublika sakinlərinin yüksək həyat səviyyəsi haqqında söhbəti iştirak edənlərdə dərin təəssürat yaratmışdı. Frans Mervald xüsusilə ümid etdiyini bildirmişdir ki, gələcək görüşlər zamanı Azərbaycan elçiləri və Avstriya-Sovet Cəmiyyətinin fəalları arasında yeni və olduqca səmərəli əlaqələr yaranacaqdır (5,4).

Avstriya paytaxtında dəfələrlə səfərdə olmuş " Bakinski raboçi" qəzetinin müxbiri azərbaycanlı oxucuları Alp dağlarının ətəklərində salınmış şəhərin qeyri-adi arxitekturası ilə tanış etmiş və həmçinin qeyd etmişdir ki, müxtəlif illərdə divarları arxasından on iki Nobel mükafatçısının çıxdığı Vyana Universiteti bütün dünyada məşhurdur. Məqalədə ustalıqla ədəbi yaradıcılığın, həmçinin Vyana tibb elminin, teatr incəsənətinin və hətta məşhur Vyana mətbəxinin nailiyyətləri təsvir olunmuşdur.Lakin 1970-ci illərdə Avstriyanın müsiqi incəsənəti haqqında demək olar ki, tanış olmayan azərbaycanlı oxucular üçün müəllif xüsusilə qeyd edirdi :

"Vyanada əsas şey və burada ikinci rəy ola bilməz- əlbəttə ki, musiqidir. Sanki o, vals kralı İohann Ştausun əlində skripka olaraq yaradımış bürünc heykəlində, o cümlədən uzun müddət Vyanada yaşayıb-yaratmış Bethoven, Mosart,

Haydenin, Şubertin və gigər məşhur bəstəkarların heykəllərində donub qalmışdır, belə ki, musiqi ədəbi nailiyyətlərlə yanaşı şəhər sakinləri üçün müqəddəs olmuşdur" (5,4).

Azərbaycan jurnalist və yazıçısı heç də təsadüfi olaraq Avstriya bəstəkarlarının adlarını çəkməmişdir..Bu amilə xüsusi diqqət yetirən müəllif ümumiləşdirərək yazır: " Musiqi, demək olar ki, Vyanada hər addımda səslənir, parklardan, bağçalardan, evlərin açıq pəncərələrindən, müqəddəs Ştefan kilsəsinin qapılarından mahir xor və kapellanın ifa etdiyi Bruknerin " Təntənəli messa"sının tragik nəcibliyini və ülvi hissləri aşılayan, hələ XV əsrdə yaranmış oğlanların məşhur xorunun oxuduğu "Xofburq " saray kilsəsindən nəğmələr yayılır" (5,4).

Beləliklə, oxucuya Vyana sakinlərini hər hansı yeni musiqi hadisəsilə təəccübləndirməyin olduqca çətin bir məsələ olduğu məlum olur.Lakin bununla yanaşı, həmin azərbaycanlı yazıçı və jurnalistinin ehtimalına görə, belə bir hadisə 1977-ci ilin 14 mayında Vyanada baş vermişdi. O zaman Azərbaycan Dövlət Rəqs və Mahnı ansamblının rəqs qrupunun konserti baş tutmuş və bu barədə Vyana mətbuatı da yazmış və " Xəzər sahillərinin" incəsənətini yüksək qiymətləndirmişdi (2,1).

Astriya qəzetləri yazırdı ki, Vyana müsiqi incəsənəti festivalı Səid Rüstəmovun " Azərbaycan " süitası ilə açılmış və rəqs qrupunun solistləri Aliyə Ramazanovun və Əlağa Yəhyayevin ifası ilə bağlanmışdır. İlk dəfə olaraq belə bir yüksək səviyyədə Vyana onların adlarını, habelə Azərbaycan musiqi alətlərinin ifasında müsiqi nömrələrini dinləmişdir (3,4).

Azərbaycan İnformasiya Agentliyi (Azərinform) həmin illərdə xəbər vermişdi ki, 17 mayda Vyanada təntənəli şəraitdə" Azərbaycanın müasir rəssamları " mövzusunda Azərbaycanın xalq-dekorotiv incəsənəti sərgisi açılmışdır. Sərginin eksponatları Dunay sahillərinə Xəzər sahillərindən gətirilmişdi. Məqalədə deyilirdi ki, görkəmli müsir rəssamların ən yaxşı işləri Xofburq salonlarına qeyri-adi və yeni bir kolorit əlavə etmişdi.

Həmin sərgini açan Vyana Etnoqrafiya Muzeyinin direktoru professor Hans Mindorf öz çıxışında demişdi. " Şəhərimizdə Azərbaycan xalqının incəsənətini alqışlamaqdan fərəh duyuruq. Bu muzeyin divararı indiyədək çoxlu sayda müxtəlif sərgilər görmüşdür, lakin Azərbaycandan eksponatlar ilk dəfə bura gətirilmişdir. Biz məmnuniyyətlə onları Vyana sakinlərinə təqdim edirik " (3,4).

Aydın olur ki, məşhur Azərbaycan rəssamlarının incəsənəti həqiqətən də hamının diqqətini cəlb etmişdir. Sərgidə altmışdan çox mövzu və janr etibarı ilə müxtəlif olan təsviri qrafik əsərlər nümayiş olunmuşdur. Həmin əsərlərin hər birinin fərdi dəsti-xəttilə səciyyələnməsinə baxmayaraq, onların hamısımüsir insanın obrazının yaradılmasına, Azərbaycan xalqının həyatının, onun iqtisadiyyat və mədəniyyət sahələrində əldə etdiyi nailiyyətləri zəngin boyalarla təsvir olunmasına xidmət edir.

Sərgidən əvvəl xoreoqrafik səhnələr nümayiş etdirilmişdir ki, bu da öz növbəsində musiqi janrının və incəsənətin müasir Azərbaycan-Avstriya əlaqələrində prioritet olmasını bir daha dərindən təsdiq edir.Vyanada keçirilmiş həmin nəhəng musiqi şousunun bilavasitə iştirakçısı olmuş məqalə müəllifi yazır : " Xofburq sarayının qübbələri altında musiqi səsləndi.Azərbaycan xalq musiqi alətlərini orkestrinin müşaiyətilə M.F.Axundov adına Akademik Opera və Balet Teatrının solisti Xuraman Qasımova tamaşaçılar qarşısında Fikrət Əmirovun xalq motivləri əsasında yazdığı mahnını ifa etdi " (7,3).

Yeri gəlmişkən, N. Ağayev tərəfindən qeyd olunan sevindirici bir fakta da qiddəti cəlb etmək istərdik. Jurnalist məqalələrinin birində Vels şəhərinin ən böyük tamaşa salonlarının birində baş tutmuş başqa konsert haqqında oxuculara məlumat vermişdir (6,1).

N. Ağayev yazır ki, konsert əsasən Azərbaycan xalq melodiyalarından yaranmış popurri şəklində rəqs süitaları ilə başladı, sonra Avstriya tamaşaçıları Azərbaycanda böyük populyarlıq qazanmış klassik muğamla tanış oldular.Lakin proqramın əsasını yerli publikada razılıq hissi oyadan gənc müğənni Xuraman Qasımovanın öz repertuarına A.V.Mosartın " Fiqaronun toyu "ndan parçaları daxil etməsi təşkil etdi.

Həmin məqalə müəllifi konsertdən öncə müğənni ilə söhbət etmiş və jurnalistə etiraf edərək demişdi: " Mənim üçün- bir azərbaycanl müğənni üçün Avstriya torpağında böyük Mosartın musiqisini ifa etmək şərəfi nəsib olmuşdur. Aydındır ki, mən müəyyən dərəcədə həyəcan keçirirdim: bəstəkarın vətənində onun əsərinin gənc müğənninin ifası necə qarşılanacaq" (6,1).

Konsert bitdikdən sonra məşhur Avstriya professoru Alois Marer Xuraman Qasımovanı və rəqs qrupunun gigər iştirakçılarını tıbrik etmiş və demişdir : " Mən baş tutmuş konsertdən böyük zövq aldım. Qonaqlarımız hərarətlə və böyük coşqunluqla çıxış etmiş və həmin konsert zalında iştirak edən bütün tamaşaçıların rəğbətini qazanmışlar" (6,1).

Sərgilərin təşkili üçün böyük işlər görüldüyündən bəhs edən o zamnkı Avstriya-Sovet Cəmiyyətinin prezidenti Anton Zayler təntənəli şəkildə bu sahədə əməyi keçən bütün təşkilatlara öz təşəkkürünü bildir-miş və demişdir ki, " belə sərgilər şübhəsiz ki, xalqları bir-birinə yaxınlaşdırır".

Azərbaycanın Mədəniyyət naziri Z.Bağırov çıxış etmiş və Avstriya-Azərbaycan sərgisinin nəticələrini ümumiləşdirərək demişdi : " Mən əminəm ki, bu sərgi də müstəsna hal olmayacaqdır.Biz bu gün böyük razılıq hissilə Respublikamızın incəsənət sərgilərinin açılış mərasimində iştirak etdik. Sovet xalqının çoxmillətli incəsənətini burada təmsil etməyimizdən böyük şərəf duyuruq və bu eksponatların Vyana sakinlərinə Azərbaycanı daha yaxşı tanımaq imkanı verəcəyindən çox şad olardıq" (1,2).

Azərbaycan-Avstriya tarixində ilk dialoqun əhəmiyyətində danışan Avstriya-Sovet Cəmiyyətinin Katibliyinin üzvü Karl Mervald aşağıdakıları demişdir: "Azərbaycanın özünəməxsus mədəniyyətinə həqiqətən də heç kəs, hətta mən deyərdim ki, Vyananın incəsənətin ən tələbkar bilicilərinə laqeyd qala bilməzdi.İndi əminliklə demək olar ki, Azərbaycanda dünya çapında məşhur olan rəssamlar yaşayır və yaradır və orada rəssamların ən müasir və original məktəblərindən biri yaradılmışdır" (4,3).

Azərbaycanla Avstriya arasında ədəbi və mədəni yaxınlaşma prosesi 1980-cı illərin əvvəllərində davam etdirilmişdir. O zaman Avstriya paytaxtında dərc olunuan, Avstriya Mərkəzi Komitəsinin orqanı " Folksştimme " həmin tarixi dövrdə Azərbaycanın xatici ölkələrlə dostluq və mədəni əlaqələr cımiyyətinin sədri, Azərbaycanın xalq şairi Nəbi Xəzri ilə (Babayev) " Böyük mədəniyyətə malik böyük xalq " adlı müsahibə dərc etmişdi.

Nəbi Xəzri (Babayev) ilə müsahibəni görkəmli Avstriya jurnalisti Helmut Ritsi aparmışdı və o həmin məqalədə xüsusi olaraq vurğulayırdı ki, müasir Azərbaycan ədəbiyyatının ən mühüm prioritetləri sülh uğrunda mübarizə, xalqlar

dostluğu, yüksək mənəvi-etik idealların elan olunması idi. Azərbaycan yazıçıları doğma xalqlarının həyat fəaliyyətinin bütün sahələrində iştirak etməyi özlərinin bir nömrəli etik borcları hesab edirlər.1985-ci ilin mart ayının 23-də Azərinformun verdiyi xəbərə görə, həmin məqalədə göstərilirdi ki, Azərbaycanın milli mədəniyyəti əsil çoçəklənmə dövrünü yaşayır və bu, H.Ritsinin fikrincə, ən müxtəlif sahələrdə, o cümlədən xalq təhsili sistemində, iqtisadiyyatda, siyasətdə, ideologiyada və beynəlxalq əlaqələrin inkişaf etdirilməsi sahəsində özünü büruzə verir. Avstriya jurnalistinin göstərdiyi kimi, Azərbaycan və Avstriya arsında getdikcə genişlənən ədəbi-mədəni əlaqələr mühüm əhəmiyyət kəsb edirdi.

Öz növbəsində Azərinform məqalələrinin birində xəbər verir: "Folksştimme" qəzetinin bu məqaləsilə Avstriya mətbuatında Sovet Azərbaycanı haqqında silsilə materiallar, Respublikamız haqqında məqalələr, fotoreportajlar SSSR Günlərini fəal şəkildə keçirməyə hazırlaşan Avstriya-Sovet Cəmiyyətinin nəşrlərində dərc olunmağa başladı. Həmin günlər çərçivəsində həm də Cəmiyyət təsis olunmasının 30-cu ildönümünü qeyd edəcəkdir.Avstriya-Sovet Cəmiyyətinin xüsusi jurnalı da qarşıdakı Günlərin tədbirlərindən, orada iştirak edəcək dövlət adamlarından, əmək qabaqçıllarından, mədəniyyət nümayəndələrindən söhbət açacaq" (9,3).

Digər mədəni dəyərlər sahəsindəki mübadilələrdən əmin olmaq üçün qəzet buraxılışlarının xronologiyasını diqqətlə nəzərdən keçirmək kifayət edər. Məsələn, Avstriya hökuməti tərəfindən çoxlu sayda təşkil olunmuş sərgilərdə də dünya çapında şöhrət qazanmış məşhur Azərbaycan xalçaları ilə yanaşı, mis, gümüş, melxior materialların, lahıc, Şəki, Qarabağ və digər rayonların ağaş və sümük üzərindəki əl işlərinin də nümayiş etdirilməsi təklif olunmuşdu.

XX əsrin sonuncu rübündə Vyana Azərbaycanın dekorativ-tətbiqi incəsənət sahəsinin mahir ustalarının yüksək peşəkarlığının dəfələrlə şahidi olmuşdur. Bütün bu sərgilər xalq həyatının müxtəlif dövrlərindən xəbər verir və təbii ki, Azərbaycan-Avstriya əlaqələrinin möhkəmlənməsinə öz töhfəsini verir (8,3).

Hər bir elmdə istənilən hipoteza yalnız zəruri dəlillərin toplanmasından, təcrübədə aprobasiyasından sonra etibarlı mənbə hesab edildiyi kimi, incəsənət aləmində də keçirilmiş mədəni tədbirlərin çəkisi konkret nəticələrlə və " qəbul edən", ən obyektiv tərəf olan nüfuzlu tənqidçilərin rəylərilə qiymətləndirilir.Təlil etdiyimiz Azərbaycan-Avstriya əlaqələrinin inkişaf etdirilməsində incəsənəti töhfəsi və bunun nəticəsində iki dövlət arasında əlaqələrin genişləndirilməsi faktı həm məsul işçilər, həm də Avstriya mütəxəssisləri tərəfindən etiraf olunur. Son illərdə keçirilmiş çoxlu sayda konsert və sərgilərdə professor Anton Zayler, Avstriya –Sovet Cəmiyyətinin katibi Frans Mervald, Vyana Etnoqrqiya Muzeyinin direktoru professor Hans Mindorf, professor Alois Marer, Elm və Tədqiqatlar naziri Herta Firnberq, Rlm və Tədqiqatlar nazirliyinin məsul əməkdaşı Leopold Oberman, vitse-burqomistr Veli Freylix və bir çox başqaları iştirak etmişlər. Onların hamısı yekdilliklə və böyük heyranlıqla Azərbaycan nümayəndə heyətlərinin iştirakı ilə Avstriyada keçirilən mədəni tədbirlər haqqında öz müsbət rəylərini bildirmişlər.

Xronologiya prinsipini nəzərə alaraq qeyd edək ki, 2002-ci il Azərbaycan-Avstriya ədəbi və mədəni əlaqələrinin inkişafı nöqteyi nəzərdən olduqca zəngin bir il olmuşdur. Məsələn, aprelin 16-da Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbül oğlu yüksək səviyyədə Avstriyanın xarici işlər naziri xanım Benita Ferero-Valdnerlə görüşmüşdür. İnformasiya mübadiləsi , ilk növbədə iki dövlət

haqqında məlumatlar səviyyəsinin qaldırılması ilə əlaqədar olaraq Benita Ferero-Valdner 2000-ci ildə Azərbaycana səfər etmişdi. Azərbaycan ın rəhbərliyinə təkrar səfəri zamanı Respublikamızda ona göstərilən yüksək səviyyədə qəbula görə təşəkkürünü bildirərək, Avstriya hökuməti tərəfindən ona tapşırılmış missiyan yerinə yetirməyə başladı.

Dissertasiya işinin bütün beş fəsli boyunca dəfələrlə qeyd etdik ki, müasir dövrdə ədəbiyyat və incəsənət siyasətlə sıx bağlıdır. Coğrafi cəhətdən bir-birindən uzaq, nəzərəçarpacaq mentalitet müxtəlifliyinə malik iki ölkə arasında mədəni dəyərlərin mübadiləsi ətrafında söhbət gedərkən bunun bir daha canlı şahidi oluruq. Azərbaycan və Avstriyada tarixin gedişi çoxlu sayda müxtəlif problemlər yaratmış və bunların arasında dərk və izah olunan, o cümlədən az da olsa ağrılı problemlər də vardır. XX əsrin son rübündə Azərbaycan üçün ən kəskin və ağrılı problemlərdən biri Dağlıq Qarabağ münaqişəsidir.

2002-ci ilin aprelin 16 keçirilmiş Azərbaycan-Avstriya Dostluq Cəmiyyətinin plenar iclası bu mövzuya aid bəyanatla açıldı. Polad Bülbül oğlu və xanım Benita Ferero-Valdner arasında ilk növbədə iyirimi ildən bəri davam edən Ermənistan-Azərbaycan arasındakı hərbi qarşıdurma ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan respublikasının mədəniyyət naziri həmin iclasda qeyd etdi ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yeni minillik ərəfəsində bir milyondan çox azərbaycanlı faktiki olaraq məcburi köçkün və qaçqına çevrildilər.Polad Bülbül oğlu fürsətdən istifadə edərək eyni zamanda qeyd etdi ki, bir çox iqtisadi və hüquqi haqlarla yanaşı, əhalinin böyük təbəqəsi öz dədə-baba yurdlarında həm öz vətənlərinin , həm də başqa Avropa ölkələrinin mədəniyyət və ədəbiyyatına çıxış hüququ da pozulmuşdur.

O, xüsusi olaraq Avstriya nümayəndə heyəti rəhbərinin nəzərinə çatdırdı ki, ATƏT Minsk qrupunun münaqişənin həlli sahəsindəki fəaliyyəti bu günədək gözlənilən nəticələrə gətirib çıxarmamışdır. Mədəniyyət naziri həmçinin Avstriya hökumətini Azərbaycan Respublikasının haqq işini təsirli vasitələrlə və məqsədli şəkildə dəstəkləməyə çağıraraq, bu məsələnin tezliklə, birdəfəlik həllində beynəlxalq təşkilatlar tərəfindən fəallığın artırılmasının vacibliyini vürğulamışdır.

Azərbaycan-Avstriya Dostluq Cəmiyyətinin Plenar iclasının başlanğıcı olan siyasi problemlərdən iki ölkənin nümayəndələri ədəbi-mədəni dəyərlərin mübadiləsinə keçdilər.Məsələn, elə həmin gün Azərbaycanın incəsənət və ədəbiyyat ustalarından ibarət nümayəndə heyəti Avstriya Vilayətini Ştriyanın paytaxtı Qras şəhərinə səfər etdi. Burada Polad Bülbül oğlu Ştriya Vilayətinin qubernatoru xanım Valtraud Klassinçlə görüşdü. Görüş zamanı Azərbaycanla Ştiriya Vilayəti arasında ədəbiyyat və mədəniyyət sahəsində daha sıx əlaqələrin yaradılması ətrafında fikir mübadiləsi aparıldı.Bundan başqa, hər iki dövlət arasında milli ədəbiyyat üzrə yeni kitabların sərgilərinin keçirilməsi ətrafında da razılıq əldə olundu.; Avstriya və Azərbaycanın təhsil sistemlərinin imkanlarının öyrənilməsi haqda da söhbət aparılmışdır. Sonra Polad Bülbül oğlu yenidən daha ağrılı problemlərə toxunaraq , Avstriya tərəfinə Azərbaycanın yeniəsrin əvvəlindəki siyasi-iqtisadi vəziyyəti, o cümlədən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin vəhşicəsinə məhv edilməsi haqda ətraflı məlumat vermişdir.

Belə hesab edirik ki, Mədəniyyət naziri tərəfindən qaldırılmış məsələ yalnız sırf siyasi xarakter daşımır, həm də butədqiqatın mövzusu ilə də bağlıdır. Çünki mədəniyyət ocaqları ilk növbədə, çoxlu sayda qiymətli kitabların, qədim əlyazmala-

rın və hətta Azərbaycan tarixinə aid mənələrin, müxtəkif növ manuskriptlərin və s. saxlandığı mərkəzi kitabxana fondlarını əhatə edir. Müasir tarixi dövrdə iki ölkənin hərbi qarşıdurması şəraitində Azərbaycan-Avstriya, daha geniş səviyyədə Azərbaycan-alman əlaqələrinin daha da genişləndirilməsindən ciddi şəkildə söhbət aparmaq olmaz.

AzərTacın qeyd etdiyi kimi, həmçinin " Qras şəhərinin meri Alfred Ştinqlə də görüş baş tutmuşdur. Polad Bülbül oğlu qeyd etmişdir ki, zəngin mədəni potensiala malik Qras şəhəri Azərbaycan-Avstriya ədəbi və mədəni əlaqələrin genişləndirilməsində xüsusi rol oynaya bilər. A.Ştinql dedi ki, belə tədbirlərin həyata keçirilməsi xalqların bir-birinə yaxınlaşmasına olduqca böyük təsir göstərir.

AzərTac xəbər verir ki, görüşlərdə Azərbaycanın Avstriyadakı səfiri Vaqif Sadıxov iştirak etmişdir" (10,4).

Azərbaycan nümayəndə heyətinin Qras şəhərinə gəlməsi və ədəbi-mədəni dəyərlərin mübadiləsi münasibətilə 2002-ci ilin aprelin 16-da Qras şəhərində Azərbaycanın incəsənət ustalarının qala konserti keçirilmişdir.Konsertdən qabaq Qras şəhərinin meri A.Ştinql və Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbül oğlu çıxış etmişlər. Həmin materiallardan göründüyü kimi, konsert böyük uğurla keşmişdir.

2008-ci ilin aprelin 9-da Sankt-Peterburq Universitetinin filologiya fakültəsində Avstriya yazıçısı Sabina Qruberin Vyanada 1999-cu ildə işıq üzü görmüş "Özünə yer tapa bilməyənlər " (" Die Aushausigen") romanının və onun Moskvanın " Tekst "nəşriyyatı tərəfindən Rus dilinə tərcüməsinin prezentasiyası keçirilmişdir.

Görüş Avstriya kitabxanası tərəfindən təşkil olunmuş və Sankt-Peterburqda aprel ayını 4-dən 11-dək keçrilən Avstriya Mədəniyyət Günləri proqramının bir hissəsi idi. Bizi ilk növbədə hörmətli qonaq sifəti ilə görkəmli Azərbaycan dramaturqları Rüstəm və Maqsud İbrahimbəyovların həmin tədbirdə iştirak etməsi faktı maraqlandırdı.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, Azərbaycan və Avstriyanın ədəbiyyatları və mədəniyyətləri arasındakı qarşılıqlı əlaqələr inkişaf etməkdə davam edir.

İstifadə olunmuş ədəbiyyat:

1.На дни Азербайджана в Австрии // газета « Баку» (Баку), 1977 от 11 мая (О делегации, выехаишей в Аистрию во главе с Министром культуры Азербайджанской ССР З.Н.Багировым).

2. Гольденберг А. Мелодии Азербайджана – на улицах Вены. Дни Азербайджана в Австрии // газета « Баку» (Баку), 1977 от 14 мая.

3. Контакты становятся прочнее. Дни Азербайджана и Аистрии // газета «Вышка» (Баку), 1977, 17 мая.

4. Успехи искусства Азербайджана // газета « Бакинский рабочий» (Баку), 1977 от 19 мая.

5. Аплодисменты азкрбайджанским артистам. Дни Азербайджана и Австрии // газета « Бакинский рабочий» (Баку), 1977 от 22 мая.

6. Н. Агаев. Аплодисменты азкрбайджанским артистам в Вельсе // газета «Баку» (Баку), 1977 от 23 мая.

7. Маслов И. Венцы восхищены // « Баку» (Баку),1977, 9 июня.
8. Альпийская республика в красках и образах. Дни Азербайджана и Австрии // газета « Бакинский рабочий» (Баку), 1983, 21 сентября.
9. Австрийская печать об Азербайджане // газета « Бакинский рабочий» (Баку), 1983, 25 марта.
10. Искусство страны огней на родине венских вальсов // газета« Бакинский рабочий» (Баку), 2002, 18 апреля.

Аль- Аббаси Новаль Хейри

Об истории Азербайджанско-Австрийских литературных и культурных связей.

Резюме

В последнее время государство Азербайджана устонавливает литературные и культурные связи со многими странами, А что касается государство Австрии, то основа таких связей с ним были устоновлены начиная с 1970-х годов. Иследование автора показывает, что ёще во время советского периода Азербайджанская культура и литература была представлена в Австрии всесторонее и австрийцы оказывали ей большое внимание.

Al- Abbasi Noval Khayri

About the history of literary and cultural relations of Azerbaijan-Austria

Summary

Lately, Independent Azerbaijan establishes literary and cultural relations with a lot of the countries. The foundation of these relations with Austria was laid in 1970. The authors researches show that in the Soviet time Azerbaijani culture and literature were represendent comprehensively in Austria and the Austrians had showed interests for it.

Rəyçi: C.Nağıyev
filologiya elmlər doktoru, professor

SEVİNC QURBANOVA
Email: sevindj-gurbanova@rambler.ru

"DANABAŞ KƏNDİNİN ƏHVALATLARI" POVESTİNDƏ QADIN HÜQUQSUZLUĞU

Açar sözlər: qadın, azadlıq, kölə, bədbəxtlik, qadın taleyi, ana, qadın problemi
Ключевые слова Женщина, свобода, раб, несчастье, судьба женщин, мать, проблема женщин
Key words: woman, freedom, slave, unhappiness, the fate of women, mother, the problem of women

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Cəlil Məmmədquluzadədir. Onun ədəbi irsi zəngin və rəngarəngdir. Zəngin yaradıcılığı boyu qadın azadlığı mövzusunu ön plana çəkmiş, Azərbaycan və ümumən Yaxın Şərq qadınlarının taleyini əks etdirmişdir.

Dramaturgiyası və felyetonlarında olduğu kimi, Mirzə Cəlilin bədii nəsrində də qadın taleyi problemi əsas mövzulardandır. "Onun yaradıcılığında zülm və istismar zənciri ilə əl-ayağı bağlanmış, şəriət hökmü ilə ağzı möhürlənmiş, qara çadra ilə gözəlliyi zülmətə bürünmüş, ömründə üzü gülməyən qızların, qadınların canlı obrazlar qalereyası vardır." (1, 108)

"Danabaş kəndinin əhvalatları" povestində klassik ədəbiyyatımızda ən çox işlənmiş qadın problemi, qadın əsarətinə qarşı mübarizə mövzusu mühüm yer tutur. Bu məsələni geniş planda göstərmək məqsədilə Cəlil Məmmədquluzadə əsərin sujetində Xudayar bəy-Zeynəb xəttinin inkişafına xsüsusi diqqət yetirmiş və bunu əhvalatın mərkəzinə qoymuşdur. Cəlil Məmmədquluzadənin bu mövzuya münasibətində diqqəti cəlb edən xüsusiyyət budur ki, o ailə münasibətlərindəki belə haqsızlıqlara, müsəlman aləmində hökm sürən qadın alış-verişinə, kor-koranə məcburi evlənməyə qarşı qadınların kəskin etirazını da bildirmişdir.

"Danabaş kəndinin əhvalatları" povestində din ehkamlarının şikəst edib kölə vəziyyətinə saldığı, dövrün ədalətsizlikləri üzündən bütün arzuları ürəyində qalan bədbəxt qadınların taleyi ilə üz-üzə gəlirik: İzzət, Şərəf, Zeynəb kimi qaragünlər diqqətimizi cəlb edir. Müxtəlif ailələri təmsil etsələr belə, onların üçü də bədbəxtdir, kölədir. Lakin hərəsi bir cür bədbəxtdir, köləliklərinin səbəbi müxtəlif, düçar olduqları dərd və bəla eynidir. Zeynəb inqilabdan əvvəlki bədii nəsrimizdə yaradılmış ilk müsbət qadın surətlərindəndir. Zeynəbin səciyyəvi xüsusiyyəti o dövr kəndli qadınlarının etirazını əks etdirməsidir. O, özünün acı taleyindən şikayətlə kifayətlənmir, çıxış yolun axtarır, özünü müsibətə düçar edən səbəblərə tapmağa çalışır.

Zeynəb bir bölük yetim içərisində qalmış dul, kimsəsiz arvaddır. Uşaq ikən ata-anasını itirən Zeynəbin həyatında ən ağır illər ərinin ölümündən sonra başlanır. Zeynəbin bədbəxtliyi həm də İzzət və Şərəfin də faciəli güzəranı ilə bağlıdır. O özündən asılı olmayaraq, Şərəfin günü bacısına çevrilir, İzzətin vaxtsız ölümü də dolayısı ilə Xudayar bəyin Zeynəbi siğə etmək macərası ilə bağlıdır. Bu zavallı qadınların faciə və bədbəxtliyinə səbəbi isə ədibin öz sözləri ilə cavab versək, "şəriətin kəməndi, müsəlmançılığın zənciri, hərəmxanaların zindanı, qara çarşabın zülməti"dir. Azərbaycan qadınlarının uzun müddət zülm altında qalmasının kökü

islam dini, feodal adət-ənənələri ilə bağlıdır. Bu fikri Mirzə Cəlil məqalələrində də əsas xətt kimi inkişaf etdirir, əsaslandırır. "Danabaş kəndinin əhvalatları" povestində də öz yaradıcılıq üslubuna müvafiq yumorla, kinayə və bəzən də satirik gülüş vasitəsilə ifadə edir: "Əgər duraq insafdan danışaq, haqqı itirməyək, gərək heç Xudayar bəyi günahkar tutmayaq... Onun qəsdi məhz Zeynəbi almaqdır. Burada bir xilaf əməl yoxdu. Şəriət evlənməyə heç vaxt mane olmuyubdur" (2, 77). Ədibin bu kinayəli fikrindən çıxış edərək, prof. Mir Cəlal düzgün qeyd edir ki, "bu yalnız Danabaş kəndinə və Xudayar bəyin işlərinə deyil, bütün feodal dünyasına, islam dini ehkamına, eybəcər şəriət qayda-qanunlarına verilən kəskin bir ittihamdır" (5, 56)

Zeynəbin varına, dövlətinə göz tikən Xudayar bəy onu zorla almaq istəyir. Zeynəb isə Xudayar bəyin çirkin niyyətini bilir, onun şöhrətinə, mənsəbinə aldanmır, hədələrindən əsla qorxmur, ləyaqətini hər şeydən üstün tutur. Zeynəb özünü həlak etməyə hazırdır, amma Xudayar bəy kimi iyrəncə arvad olmağa, üzünü onun "adamaoxşamaz üzünə və iri burnuna sürtməyə" razı deyildir. Xudayar bəy qadına münasibətdə son dərəcə mühafizəkar bir mövqe tutur. Onun nəzərində qadın insan deyildir. Qadına hər necə zülm eləsən dözər. O, təkcə Zeynəblə rəftarında deyil, habelə öz kəbinli arvadı Şərəfə qarşı da vəhşi, qeyri –insani hərəkətləri ilə qadın azadlığı və sərbəstliyinə düşmən olduğunu büruzə verir. Evlənməyinə razı olmayan arvadını möhkəm kötəklədikdən sonra Xudayar bəy deyir: "And olsun Allahın birliyinə, sən bir də mənim işlərimə qarışasan, mənim sözümün qabağında söz danışasan, ta onda özünü ölmüş bil. And olsun Allaha, qabırğalarını sındırram. Ayişənin qızı, mənim evlənməyimin sənə nə dəxli var." (2, 82)

Povestdə qazı kəllə qəndin hesabına yalançı vəkil və şahidlərin vasitəsilə Zeynəbin kəbinini Xudayar bəyə kəsdikdən sonra əsil müsibət başlayır, haqsızlıq, ədalətsizlik və zorakılıq baş qaldırır. Yasavul, qlava, naçalnik, molla və başqaları şəriətin verdiyi hökmü nəyin bahasına olursa-olsun icra etməyə cəhd göstərirlər. Onlar Zeynəbi məcbur eləyirlər ki, Xudayar bəyin evinə getsin. Deməli, bütün bəlalar şəriətin hökmündən başlayır. Şəriətdən çıxan kafirdir, qazının oxuduğu nikaha zidd çıxmaq heç kəsin hünəri deyil. "Zeynəbi əsarətdə saxlayan feodal adətləri, hakim sinfin qüvvədə olan ideoloji silahı-din ehkamları idi. Ona görə də Cəlil Məmmədquluzadənin qadın məsələsindən bəhs edən əsərlərinin başlıca tənqid hədəfi bunlar idi." (1, 115)

Əslində povestdə Xudayar bəy kimiləri yetirən, onları tərbiyə və himayə edən, onlara güc və imtiyazlar verən ictimai mühit, din ehkamları ifşa olunur. Zeynəb, ümumiyyətlə sabit əqidəlidir, ərinə sonsuz sədaqətlidir. Hətta Xudayar bəydən dəfələrlə üstün olan adamlara da ərə getmək niyyətindən uzaqdır. Onun fikri, məqsədi ölənəcən ərinə sadiq qalmaq, yetimlərini böyüdüb bir yana çıxartmaqdır. Povestdə ədibin məqsədi Zeynəbin, Şərəfin və başqalarının timsalında Azərbaycan qadınlarının qul və kölə vəziyyətini, yazıq, məzlum halını və bunun səbəblərini bədii şəkildə əks etdirməkdir. Xudayar bəyin arvadı Şərəf ərinin özbaşınalığına, əxlaqsızlığına qarşı çıxır, onunla əlbəyaxa da olur. Bəzən ona kəskin cavablar da qaytarır. Ancaq boşanma söhbəti ortaya gələndə canına qorxu düşür. Şəriətin qadına qul gözü ilə baxmağı Şərəfə çoxdan məlumdur. "Xudayar bəyin övrəti elə xoşbəxt övrətlərdən deyil ki, ərlərinə cürət ilə desinlər ki "məni boşa"".(2, 83) Doğrudur, Şərəfin saçları zalım, qansız bəyin əlinə keçəndə, döyülüb söyüləndə o da cana doyub qeyzə gəlir, günübacı söhbəti ortalığa çıxanda Xudayar bəyi

söyür, boğazdan yuxarı məni boşa deyir. Bu sözü ürəkdən deyə bilmir, cəsarətlə demir və deyə də bilməzdi. Məsələ reallaşanda, yəqinlik hiss edəndə, Xudayar bəy guya arvadı Şərəfi boşamaq üçün şəhərə getdiyini qızına bildirəndə evə vaveylə düşür.

Povestdə əsas maneəyə qarşı qadınların heç bir müqaviməti yoxdur. "Zeynəb ağlamır, inləmir; fəlakət və iztirabları möhkəmlik və mətinliklə qarşılayır."- deyə yazanlar da var. Doğrudur, o bir qadın kimi, möhkəmlik və mətinlikdən məhrum deyildir. Lakin ağlamaq və inləmək bu obrazın səciyyəvi cəhətlərindəndir. Zeynəbin kəbini Xudayar bəyə kəsildikdən sonra onun yanına altı nəfər gəlir və xəbərdarlığa, hədə-qorxuya başlayırlar. Zeynəb çıxılmaz vəziyyətdə qalır. Ədib öz qəhrəmanının sıxıntılı vəziyyətini belə təsvir edir. "Mən istərdim Zeynəbin indiki halını sizə məlum edim, onun dərdini söyləyim, onun fikir-xəyalını, qəmini, qüssəsini və qəlbinin sıxılmağını açıb bəyanə gətirim; o cəhətə istəmirəm ki, qorxuram sizi də ağlamaq tuta". (2, 73)

Təsadüfi deyil ki, prof. Mir Cəlal Zeynəbi "öz yetimləri ilə daxmasında sızıldayan" bir obraz kimi səciyyələndirir. Zeynəb də, Şərəf də şəriət qanunlarının qolubağlı əsiri olan Azərbaycan qadınlarını ümumiliklə təmsil edirlər. Bu surətlər ədibin yaratdığı onlarla bədbəxt ananın ilk nümayəndələridir. Bu povestdə nə qədər qız, nə qədər qadın varsa, hamısının taleyi qaradır. "Danabaş kəndinin əhvalatları" povestində uşaqlı-böyüklü nə qədər qadın, qız varsa, hamısının taleyi uğursuzdur, hamısı bədbəxtdir. Hətta Xudayar bəyin lap təzə arvaddan – Qasıməlinin bacısından olan körpəsinə Xoşqədəm adının verilməsi də ədibin mövcud ailə münasibətlərinə istehzanı, kinayəli baxışını əks etdirir. Bu, balaca qızcığazın adı ilə gələcək taleyi arasındakı kontrastı göstərnək üçündür. Kim bilir, dünyaya "xoşqədəmlə" gələn bu zavallının irəlidə nə kimi fəlakətlər, necə bədbəxt tale gözləyir. "Danabaş kəndinin əhvalatları" povestində Zeynəb köləliyin, hüquqsuzluğun timsalı kimi verilmişdir. "Qaranlıq feodal mühitinə, qadına həqarətlə baxan islam dininə qarşı, bunların fəal icraçılarına – mülkədar və ruhanilərə qarşı gülüş, kinayə və nifrət oyatmağa edən bir sürət kimi təsvir olunmuşdur." (1, 119) Zeynəb hadisələrin qələmə alındığı dövr üçün son dərəcə tipik surətdir. Azərbaycan qadınlarına məxsus olan ismətlilik, səmimilik, təbiilik, vəfa və sədadət, abır-həya onun xarakterini tamamlayan, müəyyənləşdirən cəhətlərdir. Zeynəb həmçinin övladlarının taleyini dərindən düşünən, həssas ürəkli anadır. O, öz şəxsi səadətini, cavanlıq və təravətinin, bütün var-yoxunu balalarının xoşbəxtliyinə qurban verən anadır.

Hər yerdən ümidi üzülən Zeynəb arxalandığı Vəliqulunun da tənələrinə məruz qalır. Çünki Xudayar bəy öz yalan sözləri ilə ana ilə balanın arasını vurur, ananı balanın gözündən salır. Vəliqulu anasını acılayır. Evdən küsüb gedir. Lakın Zeynəbdə bir an da olsun analıq hissi azalmır. Ədib Zeynəbin timsalında, həmçinin bitkin ana surəti yaratmışdır.

Cəlil Məmmədquluzadə realizminin gücü, ədibin ustalıq və sənətkarlığı da elə ondadır ki, dövrünün qadınlarını heç bir süniliyə yol vermədən göstərə bilmişdir.

Ədəbiyyat

1. Hüseynov Firudin. Adi Əhvalatlarda böyük həqiqətlər, Bakı, Gənclik, 1977
2. Məmmədquluzadə Cəlil. Seçilmiş əsərləri, Bakı, 2004

3. Paşayev Mir Cəlal. Cəlil Məmmədquulzadə realizmi haqqında, Bakı, ADU nəşriyyatı, 1966

4. Məmmədov Məmməd. C.Məmmədquluzadənin bədii nəsri, Bakı, 1963

5. Paşayev Mir Cəlal, Hüseynov F.C. XX əsr Azərbaycan ədəbiyyatı, Bakı, Maarif nəşriyyatı,

1969

Севиндж Курбанова

Безсправность женщин в повести «Истории деревни Данабаш»

Резюме

Одним из выдающихся представителей литературы Азербайджана XX века является Джалил Мамедкулизаде. Его литературное наследие богато и разнообразно. На протяжении всего своего богатого литературного пути он ставил во главу угла проблему освобождения и равноправия женщин не только Азербайджана, но и всего Ближнего Востока.

Проблема о судьбе женщины является одним из основных тем в художественной литературе, также в драматургии и фельетонох Мирза Джалила. Темы о проблемах женшин которые не раз использовались в классической литературе занимает важное место в повесте «Истории деревни Данабаш».

Зейнаб одинокая вдова, которая потеряла своих родителей в детсве. Самые трудные года ее жизни начинаются после смерти ее мужа.

Sevindj Gurbanova

Women illegality in the “Stories of Danabash village” narrative

Summary

Jalil Mammadguluzadeh is one of the prominent representatives of Azerbaijan literature of the XX century. He has a rich and colourful literary heritage. He always highlighted the theme of women freedom, describes the fortune of Azerbaijani women and women of Near East during his rich creativity period.

The problem on the fortune of women is one of the key themes in the fiction of Mirza Jalil and in his dramaturgy and topical satire, as well. The highlighted the themes on the problem of women, the fight against the women slavery in his “Stories of the Danabash village” narrative, these themes were mostly used in our classic literature.

Zeynab is a lonely widow. She lost her parents when she was a child. The hardest years of her life began after the death of her husband.

Rəyçi: dosent Jale Hüseynova

XANIM ZAİROVA
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu

ADAM OLEARIUS AZƏRBAYCAN VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI HAQQINDA

Açar sözlər: Səyahət, səyyah, Olearius, əyalət.
Keywords Travel, traveler, provinces, Olearius
Ключевые слова: путешественник, путешествия, провинция, Олеариус

Müqayisəli ədəbiyyatşünaslıqda bir sıra ədəbiyyatdankənar formalar vardır ki, bunlar ciddi müzakirə obyektidir. Bu baxımdan səyahətnamələr və səyyahların rolu mühüm əhəmiyyət kəsb edir.

"Səyahət" sözü mənbələrdə müxtəlif şəkildə izah edilmişdir. Məsələn, tanınmış alman coğrafiyaşünası Hanno Bek "səyahət" sözünə verdiyi açıqlamada onu sırf coğrafiya ilə əlaqələndirərək qeyd edir ki, ""XIX əsrdə səyahətlər coğrafiyanın dəzgahı kimi inkişaf edir"[1,1].

Orta əsrlərdə Avropa ədəbiyyatında Şərq haqqında bilgilər demək olar ki, müstəsna olaraq səyahətnamələrdə verilmişdir.

XVII əsr Avropada səyahət təsvirlərinin ilkin yaşı hesab edilir. 1700-cü ilə qədər bir çox Avropa ölkələrində, başlıcası isə İtaliyada qiymətli və zəngin toplular yaradılmışdır ki, bunlarda çoxlu sayda səyahət təsvirləri var. XVIII əsrin sonlarında tərtib edilmiş səyahət təsvirlərinin siyahısına [2,18] əsasən demək olar ki, bu əsərlər arasında latın dilində yazılmış səyahət təsvirləri xüsusi yer tutur. Bu siyahıda XVI-XVII əsrlərdə 30-a yaxın latınca olan səyahət təsviri vardır ki, bunlar birmənalı surətdə Şərqdən bəhs edir və təqribən yarısı Almaniyada nəşr edilmişdir.

P. Hulçun məlumatına görə 1700-ci ilə qədər Şərq haqqında məlumat verən müqayisəli səyahət təsvirləri və səyahət əsərləri sırasında 143 əsər vardır ki, həmin əsərlərdən 5% İspaniyanın, 15% Hollandiyanın, 18% İngiltərənin, 28% Almaniyanın, 34% Fransanın payına düşür. Bunlardan 38 alman səyahət təsvirinin yalnız 28-i 1660-1700 –cü illərdə nəşr edilmişdir. Alman dilində olan səyahət təsvirlərinin 27-si xarici dillərdən (11-i fransız, 7-si holland, 5-i italyan, 2-si isə ingilis, 2-si ispan dillərindən çevrilmişdir; bunlardan 23-ü 1660-1700 illər arasında nəşr edilmişdir) tərcümə olunmuşdur. P.Hulç bu səyahət təsvirlərinin ən mükəmməl nümunəsi kimi Adam Olearіusun səyahət kitabını göstərir [2,18]. Qeyd olunan dövrdə səyahətnamələr əhalinin müxtəlif təbəqələri üçün yazılır və müxtəlif məqsədlər daşıyırdı. Belə ki, bəzi səyahətnamələr missionerlərə işlərinin sübutu və reklam vasitəsi kimi xidmət edirdisə, digər səyahətnamələr tədqiqat, təhsil məqsədi daşıyırdı. XVI əsrdə Frankfurt am Mayn, XVII əsrdə Nürnberq, Hamburq və Amsterdem səyahətnamələrin nəşriyyat ocağı kimi fəaliyyət göstərirdi.

Almandilli alim və səyyahların Azərbaycan haqqında elmi mülahizələri və məlumatları uzun zamandan məlumdur. 4 əsrdən bəri Almaniyanın sərhədlərini aşaraq Avstriya – Macarıstan və Rusiya da daxil olmaqla H.Şiltberqer, G.Tektander, A. Olearius, E. Kempfer, S. Q. Qmelin, A. Q.Serebrov, F.M. Biberştayn, K. E. Ayxvald, H. Abix, Ç. Hentsşe, N. Saydlitts, H. Bruqsch, Q. Radde, A. Pettsold [3, 63-66] kimi bir çox alman mənşəli səyyahlar bu ərazini təsvir və tədqiq etmişlər.

XVII əsr alman səyyahlarından Azərbaycanı ziyarət edənlərdən və Azərbaycan haqqında daha dəqiq və ətraflı məlumat verən alman səyyahı Adam Olearius olmuşdur. 1647-ci ildə onun "Yeni Şərq səyahət təsviri" [4] adlı səyahətnaməsi nəşr olunur. Səyahətnamə Şlesviq-Holştaynın hersoqu V Fridrixin tapşırığı ilə 1635-1639-cu illərdə Irana edilən səyahət nəticəsində meydana gəlmişdir. Əsər 403 ikisütunlu foliosəhifədən ibarətdir. Əsər Baltik dənizindən Narvaya qədər, oradan Moskvayadək, Moskvadan Volqaboyunca gəmi ilə Xəzər dənizinə qədər, oradan Dərbənd, Şamaxı, Ərdəbil, Qəzvin və İsfahana qədər olan səyahəti əhatə edir. A.Oleariusun təsvirləri onun son dərəcə nadir müşahidəçilik qabiliyyətinə malik olduğunu göstərir. O, yalnız təsvirlə kifayətlənməyib Herodot, Strabo, Ksenofon kimi antik yazıçıların verdiyi məlumatları müqayisə etmiş, özündən əvvəl yazılmış səyahətnamələrə münasibətini bildirmişdir. Müəllifin həm bu əsərində, həm də səyahətnamənin daha mükəmməl variantı olan "Moskvaya və Irana səyahətin ətraflı təsviri" [5] əsərində Azərbaycandan da bəhs edilir. Lakin mühacir Azərbaycan türkoloqu Ə. Cəfəroğlunun da qeyd etdiyi kimi *"ne yazık ki, Olearyin bize buraktığı bu malumat Dağıstanla yalnız Azerbaycanın şark kısmına yani Mugan, Derbent ve Şamaxı gibi mahallerine temas etmektedir. Zira heyetin azası yalnız bu sahalarda bulunmuş ve ileri varamamıstır"* [6]. A.Oleariusun bu səyahətnaməsindən sonralar yaranmış səyahətnamələrin əksəriyyətində də demək olar ki, Azərbaycanın Muğan, Dərbənd və Şamaxı kimi əyalətləri təsvir olunur. Bu da həmin dövrdə İrana və digər Şərq ölkələrinə səyahət edən səyyahların eyni istiqamət üzrə hərəkət etməsindən irəli gəlirdi. Sözügedən əsərdə müəllif "Fars dövləti və onun əhalisindən bəhs edən "Yeni fars səyahət təsvirləri" adlı Beşinci kitabın "Fars dövləti adı altında anlaşılan müxtəlif landşaft və əyalətlər, xüsusilə İraq, Fars, Şirvan, İran və Azərbaycan" adlı 2-ci fəslində İraq, Fars, Şirvan, Gilan, Azərbaycan, Tabaristan (bugünki Mazandaran və Gülistan əyalətini əhatə edən ərazi – X.Z.) və Mazandaran, İran və Qarabağ, Xorasan, Kirman, Xuzistan, Diyarbəkr kimi əraziləri [5, 540] fars dövlətinin məşhur landşaftları kimi qeyd edir. Elə həmin kitabda A.Olearius Şirvanı belə təsvir etmişdir:

"Schirwan, welches von den Europeischen in gemein Servan tituliret wird/hat vor zeiten Media atropatia geheissen/nicht aber Hircania wie Anton Jenkintoniusder Engelländer in seinem Itinerario schreibet. Ist das Nordertheil von Meden gewesen/ und haben wir also wahr befunden/was demselben Heradorus und Strabo, daß es hoch und sehr kalt liege... Die Hauptstadt in dieser Landschafft ist Schamachie und nicht wie ihrer viel schreiben/Sumachia..." [5, 541].

"Qədim zamanlardan Midiya Atropatia adlanan, avropalılar tərəfindən ümumilikdə Servan adlandırılan ərazi ingiltərəli Anton Yenkintoninin yol qeydlərinidə yazdığı kimi Hirkania deyil, Şirvan adlanır. O, Midiyanın şimal hissəsi olub, Herodot və Strabonun yazdıgı kimi, hündürdə və soyuqda yerləşir. Bu landşaftın paytaxtı çoxlarının yazdığı kimi Sumaxie deyil, Şamaxıdır"

Daha sonra Şirvanın ayrı-ayrı şəhərlərindən bəhs edən müəllif Bakı, Dərbənd, Şabran, Niyazabad haqqında epizodik məlumatlar verir:

"Bakuje lieget an der See am Berge/darvon die See auch den Nahmen bey den Scribenten Mare de Baku bekommen/treibt grossen Handel.

Derbent, welches wegen des engen durchganges eines von den Caspischen Pforten ist. Das ist die Stadt welche Alexander der Grosse seinen alten ausgedieneten Macedonier zur Ruhe hat bawen/und nach seinen Namen Alexandria

nennen lassen/ wie darvon Q.Currius. Daher wird noch heutiges Tages bey den Einwohnern ein Theil von der Stadt Schaher Junan die Griechen Stadt genennet.

Schabran ist ein sein Stadtlein in der Gegend Miskur, wo selbst wir strandeten/nicht ferne von der See gelegen". [5,541].

"Bakı (Bakuje) dəniz sahilində, dağ ətəyində yerləşir. Buna görə də dəniz bəzi müəlliflər tərəfinn dən Bakı dənizi adlandırılır, burada böyük ticarət aparılır. Dərbənd şəhərinin dar keçidlərindən biri Xəzər dənizinin qapısıdır. Bu, Böyük Aleksandrın öz qədim makedoniyalıları üçün tikdirdiyi və öz adı ilə Aleksandria adlandırdığı şəhərdir. Bundan sonra bugünədək şəhərin bir hissəsinin əhalisi tərəfindən bura şəhri yunan - yunan şəhəri (Schaher Junan - die Griechen Stadt) adlandırılmışdır. Şabran dənizin yaxınlığında yerləşən bizim qəzaya uğradığımız Miskur ərazisində yerləşən şəhərcikdir"

Bundan əlavə Olearius viran qalmış bir Azərbaycan şəhəri haqqında da belə bir məlumat verir:

"Eres oder Aras, welches hin und wieder gedacht wird/ist verwustet/ und jetzo nicht mehr/als die blosse Städte am Fluß Aras/ so jetzo Arisbar genannt wird/zu finden."

"Indi Araz çayı sahilində yerləşib Arisbar adlandırılan Erez və ya Araz viran qalmışdır" [5,541].

Verdiyi məlumatlarda A.Olearius Azərbaycana məxsus digər ərazilərin yalnız adını çəkir. A.Olearius "Azərbaycan" məfhumunu ölkənin cənub rayonlarına aid edərək yazır:

"Adirbeitzan, welches etliche der unserigen auch taussen/ ist der Südertheil von Meden und also Mediamajor gewesen. Nubeinsis in seiner Geographia meinet/daß er vor alters sey der Nordertheil von Assirien gewesen/welches sich der Gegend nach darfür ansehen lasset. Dann es stossest an Curdestan, welches Assyrien gewesen. Sonsten wird es durch die Moganische Heyde von Schirwan/und dem Strom Aras von Karabach geschieden/ hat auf der Osten seite die Kilaner zu Nachbarn" [5,542].

"Azərbaycan Midiyanın, deməli, Böyük Midiyanın cənub hissəsidir. Nubensis "Coğrafiya" əsərində qeyd edir ki, o, qədim zamanlarda Assuriyanın şimal hissəsi olmuşdur. Sonra o, Assuriya olmuş Kürdistana söykənir. Bundan başqa o, Şirvanın Muğan düzü və Qarabağın Araz çayi ilə sərhədlənir, şərq tərəfdən Gilanla qonşudur".

İran və ya Qarabağ adlı hissədə Qarabağın əhatə etdiyi ərazini A.Olearius Araz və Kür çayı arasında yerləşən ərazi kimi təqdim edir: "Çoxlarının Qarabağ adlandırdığı İran (Aran - X.Z.) landşaftı iki nadir çay olan Araz və Kür arasında yerləşir, onların armenie və gürcü adlandırdıqları Ermənistan və Gürcüstanın bir hissəsini əhatə edir". Eyni zamanda, müəllif burada bir sıra gözəl, məşhur şəhər, ərazi və qalaların - Bərdə, Beyləqan, Şəmkir, Gəncə, Bərgüşad, Naxçıvan, Ordubad, Bəyazid, Maku, Magasburt, Tiflisin adını qeyd edir" [5,541].

Ədəbiyyatların bir-birinə təsirindən bəhs edərkən səyahətnamələrin də əhəmiyyətli rolunu qeyd etmək lazımdır. Məhz bu səyahətnamələr sayəsində Almaniyada Şərq ədəbiyyatı ilə ilk tanışlıq başlamışdır. Bu baxımdan A.Oleariusun fəaliyyəti xüsusi qeyd edilməlidir. Ümumiyyətlə, A. Olearius həm də XVII əsrin məşhur tərcüməçisi hesab edilir. O, fars şairi Sədinin "Gülüstan"ını "Fars Gülüs-

tanı"[3] adı altında almancalaşdırmışdır. [7] Alman tədqiqatçısı P. Hulç yuxarıda adı çəkilən əsərində A.Olearіusun İranda hədiyyə olaraq aldığı orijinalın mətninə sadiq qaldığını qeyd edir. [3,16]

A.Olearіusun "Moskva və İrana səyahətin yeni təkmilləşdirilmiş təsviri" adlı sözügedən əsərinin 5-ci kitabının 27 fəslində "Onların şairləri və həmin şairlərin misraları" adlı başlıq verilmişdir ki, burada müəllif İranda poeziyanın bu yerlərin adamları tərəfindən necə çox sevildiyini göstərmiş, şairləri qismən də olsa xarakterizə edərək, həqiqi şairlərlə başqalarının şeirlərini söyləyənlər arasında fərq olduğunu, bu yerin fars və türk dilli şairlərinin gözəl əsərləri olduğunu, onların türk və fars dilinə fərq qoymadığını vurğulamış, bir sıra tanınmış şairlərin adlarını qeyd etmişdir:

„Sie haben herrliche Schriften der alten ihrer Nation Poeten/ so wol in Türkischer als Persischer Sprache. Denn weil beyde Sprachen bey Ihnen gleich gültig seynd/ lesen sie so gern die Türkische als Persische Poeten - Ihre beste Poeten aber/ die sie in Schrifften haben/ seynd (nach dem sie mir kund geworden) Saadi, Hafis, Firdausi, Füssuli, Chagani, Eheli, Schems, Nawai, Nisami, Schahidi, Ferahsed, Deheki, Nessimi, &c." [5, 624].

„Onlar həm türk, həm də fars dilində klassik şairlərinin yazılarını saxlayirlar. Çünki onlar üçün bu iki dilin fərqi yoxdur, onlar həm türk, həm də fars şairlərini oxuyurlar. Əsərləri yazılı surətdə saxlanılan ən tanınmış şairləri (mənə verilən məlumatlara görə) bunlardir: Sədi, Hafiz, Firdovsi, Füzuli, Xaqani, Əhali, Şəms, Nəvai, Nizami, Şahidi, Fərahzad, Deheki (Dəhləvi –X.Z), Nəsimi və s."

Eyni zamanda, müəllif M. Füzulinin (?) bir beytini həm türk dilində, həm də alman dilinə tərcümədə vermişdir:

„Man hat derer einen grossen Unterschied; etliche machen sittlliche/ etliche auch schlechte Sachen/ gleich auch bez uns zu geschehen pfleget/ und können den Nahmen Schaer (so nennen sie die Poeten) nicht wol führen/ diese lassen sich auch begnügen/ daß sie mit andern Federn geschmückt in den Krügen und Marckt stehen/ und von gemeinen Leuten etliche *Pul* oder *Schilling* bekommen. In betrachtung dieses/ hat der fürnehme Türkische Poet Füssuli geschrieben:

Schaer olmisch her derede bir kodokh
Biz dahe schaeleri elden koidukh.
Ein jeder junger Esel will Poete seyn.
Drumb die Poeterey stell ich nun gänzlich ein". [5, 622-623]

"Onların arasında böyük bir fərq var, bizdə olduğu kimi bəziləri bunu ustalıqla, bəziləri isə pis bir iş kimi yerinə yetirirlər və şair adı ala bilmirlər. Onlar bazar və mehmanxanalarda başqalarının qələmindən çıxanları söyləməklə kifayətlənir və adamlardan pul və ya şillinq alırlar. Bunları nəzərə alaraq şairlərin yüksək təbəqəsinə mənsub olan türk şairi Füzuli belə yazmışdır:

(Şair olmuş hər dərədə bir qoduq
Biz daha şayələri (?) əldən qoyduq).

[3] Sa'di. Persianisches Rosenthal; Schleswig, 1654, Übersetzt vom A.Olearius mit Zuziehung eines alten Persianers Namens Hakwirdi.

Göründüyü kimi, A. Olearius sitat gətirdiyi beyti həm türk dilində, həm də almanca yazmışdır. Lakin türk dilini bilmədiyindən şeirin türk dilində olan hissəsində „şayiələri“ sözünü “şairliyi” kimi tərcümə etmişdir. Şeirin alman dilində olan variantı (Poeterey- şairliyi) da bunu sübut edir. Lakin buna baxmayaraq, şeirin qafiyə sistemini və müəyyən dərəcədə vəznini saxlamışdır.

Nəticə olaraq qeyd olunmalıdır ki, XVII əsr alman səyyahı A. Oleariusun səyahətnaməsində Azərbaycan və Azərbaycan ədəbiyyatı və mədəniyyətinə dair qeyd etdiyi faktlar avropalılara Azərbaycanın coğrafiyası və mədəniyyəti haqqında daha çox informasiya vermişdir, bu da əsərin daha mükəmməl surətdə araşdırılması üçün zəmin yaradır.

Ədəbiyyat

1. Beck, H. Geographie & Reisen im 19.Jh. Prolegomena zu einer allgemeinen Geschichte der Reisen. 1-27. In: Petermanns geographische Mitteilungen, 101 Jahrgang, Leipzig, 1957.

2. Hultsch, Paul. Der Orient in der deutschen Barockliteratur. Längerich. 1936, 99 S.

3. Auch, Eva-Maria. Öl und Wein im Kaukasus.Wiesbaden: Reichert Verlag,2001, 224 S.

4. Olearius A., Neue Orientalische Reisebeschreibung, Schleswig, Bey Jakob zur Glocken, 1647, 546 S.

5. Olearius Adam. Vermehrte Moscowitische und Persianische Reisebeschreibung. Schleswig. Gedruckt in der Fürstl. Druckerey/ durch Johann Holwein, 1656, 768 S.

6. Caferoğlu, Ahmet. Avrupa seyyahlarına göre XVII inci asır Azerbaycanı, 255-263, “Azerbaycan Yurt Bilgisi” Nr.18, 1933.

7. Sa’di. Persianisches Rosenthal; Schleswig, 1654, Übersetzt vom A.Olearius mit Zuziehung eines alten Persianers Namens Hakwirdi.

Ханым Заирова

А.Олеариус об Азербайджане и азербайджанской литературе

Резюме

В данной статье говорится о произведении немецкого путешественника XVII века А. Олеариуса «Новое подробное описание путешествия в Московию и Персию», где речь идёт о таких провинций Азербайджана как Муган, Дербент и Шамахи, здесь же говориться о высоком оценивании поэзии.

Khanim Zairova

A. Olearius about Azerbaijan and Azerbaijan literature

Summary

The article deal with the work of the German traveller of a XVII century A.Olearius's "New complementary the description of travel to Moscow and Iran" in which it is a question about such provinces of Azerbaijan as Mugan, Derbend and Shamahi, is here again told about high estimation of poetry.

Rəyçi: prof. Vaqif Arzumanlı

YÜCƏL KARAUZ
azarbaycan.yk1985@hotmail.com

"QARDAŞ KÖMƏYİ" MƏCMUƏSİ

Açar sözlər: jurnal, müharibə, nəşr edilib, məqalə, fəaliyyət
Ключевые словы: журнал, война, опубликованы, статья, деятельности
Keywords: magazine, War, published, articles, activity

Azərbaycan türkləri Qafqaz Cəbhəsi döyüşlərində fəlakətə uğrayaraq, zərər çəkmiş Türk qardaşlarına kömək edə bilmək üçün müxtəlif fəaliyyətlərlə məşqul olmuşlar. Bu mövzuda "Qardaş köməyi" günləri tərtib edilmiş, teatr, opera kimi fəaliyyətlər təşkil olunmuş, bunlardan əldə edilən gəlirlər Anadoluda çətin vəziyyətə düşmüş qardaşları üçün istifadə edilmək üzrə Bakı Müsəlman Cəmiyyət-i Xeyriyyəsinə təslim edilmişdi. 1915-ci ilin mart ayında tək nömrəlik "Qardaş Köməyi" adıyla bir qəzet nəşr edilmiş, qəzetin gəliri "hərbzadələr" faydasına istifadə olunmuş, Azərbaycan xalqı da köməyə dəvət edilmişdir.

Döyüş boyunca Azərbaycan türkləri Anadoludakı qardaşlarına kömək edə bilmək üçün hər fürsətdən istifadə etmişdi. Azərbaycanda olan yazar və şairlər də xüsusi bir jurnal çıxararaq iştirak etmək istəyirdilər. Əslində ilk günlərdən etibarən Azərbaycanda çıxan qəzetlərdə, Anadolu fəlakətzadələrinə kömək edilməsi üçün yüzlərlə məqalələr yazaraq Azərbaycan xalqına bu mövzuda məlumat verən və maarifləndirən onlar olmuşdu.

Yanvar 1917də, Bakıda bir yığıncaq təşkil edən azərbaycanlı Türk yazıçılar, "hərbzadələrə" xərclənmək üzrə "Qardaş köməyi" adıyla bir jurnal çıxarmağı qərarlaşdırdılar. Azərbaycanlı müsəlman yazıçılar tərəfindən bir ədəd olaraq çıxarılacaq bu jurnal üçün, Bakı Müsəlman Cəmiyyət-i Xeyriyyəsi lazım olan icazəni alacaq və Cəmiyyət "in sədri Mirzə Əsadullayev də jurnalın məsul müdiri olacaqdı.

1917-ci ilin Fevral ayında çıxarılması qərarlaşdırılan "Qardaş köməyi" jurnalı [(1)] bəzi səbəblərdən ötrü gecikərək ancaq 1917-ci ilin may ayında çıxarılmışdı. Məhəmməd Əmin Rəsulzadənin sahibi olduğu "Açıq söz" qəzetinin " mətbəəsində nəşr edilən jurnal 80 səhifədən ibarət olub, 1 manatdan satışa təqdim edilmişdi(2).

Ərəb hərfləriylə, türkçə olaraq çıxarılan "Qardaş köməyi" jurnalının başında, "Gəlir hərbzadələr faidəsinə getmək üçün yazıçı tərəfindən nəşr olunmuş siyasi, ədəbi, ictimai bir məcmuə" şəklində yazılaraq çıxarılmış, məqsədi izah edilmişdi(3).

"Qardaş köməyi" jurnalının fevral deyil , may ayında çıxması daha əhəmiyyətli olmuşdu. Çünki Rusiyada meydana gələn 1917-ci ilin Fevral İnqilabının təsiri ilə Azərbaycanda Rus senzura və nəzarəti azalaraq sərbəst bir mühit meydana gəlmişdi. Bu səbəblə, daha əvvəl yazıldığında senzuraya məruz qalacaq bir çox yazı senzura və yoxlamadan xilas olmuş, Azərbaycan türk yazıçıları düşüncələrini daha azad və senzura narahatlığı olmadan qələmə ala bilmişdilər. Bu vəziyyət "Qardaş köməyi" jurnalında belə ifadə edilmişdi: "Xahiş edirik bir az düşünün. Bir az əvvəl nəşr olunsaydı heç şübhəsiz ki, bu məcmuə ən qüvvətli sətirləri, ən ruhlu və ən mənalı cümlə və hətta məqalələri senzura ağaya məxsus bir" sirr "təşkil edib, sizə ancaq şəbəkə (ağ) parçalar çatacaqdı. Siz də o ağ parçalara baxıb, qara qüvvələrin nə surətlə ağıl və ruhumuza hakim olduğuna acıyacaq, millətin, camaatın acizlik və zəifliyini düşündükcə gəl etiraf edəlim əziləcək, küçüləcəkdiniz.Halbuki bu gün elə deyil. Siz azad bir vətəndaş. Azad bir vətənin azad yazılarını oxuyur, geniş bir nəfəs alırsınızl ..."(4,s.1-2).

"Qardaş köməyi" jurnalının çıxarılmasında bir çox yazar və şair məqalə və şeirləri ilə iştirak etmişlər. Bununla yanaşı döyüş başlanandan Bakı Müsəlman Cəmiyyət-i Xeyriyyəsinin Anadolu hərbzadələrinə etmiş olduğu yardımlar böyük xidmətləri olan və "Baş köməkçi" vəzifəsinii alan Dr. Xosrov Paşa bəy Sultanov, Azərbaycanın Dövlət Duması vəkili olub, hərbzadə Müsəlmanlara kömək işinin dövlət nəzdində rəsmi vasitələrlə da dəstəklənilməsinə çalışan Məmməd Yusif Cafərovun da yazıları olmaqdadır.

	Yazar	**Əsəri**
1	Ömər Faiq Nemanzadə	Mən kiməm ?
2	Fateh Kərim (Orenburg)	Millət sağ olsun
3	Hüseyn Mirzə Camalov	Ümid
4	M.Ə.Rəsulzadə	Bizim nöqteyi-nəzərdən Rusiya Cumhuriyyəti-Ənam
5	Əhməd Cövdət	Xuda Qəbul Məkr
6	Məhəmməd Ayaz Əli-İsaqi	Bəqayi-Həyat Məsələsi
7	Salman Məhəmməd Əmin oğlu Turxan	Qul
8	Seyid Hüseyn	Ağarılan dişlər
9	Şəfiqə Əfəndizadə	Qadın səsi
1	Xarkof (Təqi Şahbazi) Simurq	Aclar
1	Abbas Səhhət	Qara günlü Həlimə
1	Məhəmməd Yusif Cəfərov	Müsəlman hərbzadələrinə yardım işi və müsəlman vəkilləri
1	Xosrov Paşa bəy Sultanov	Bakı müsəlman Xeyriyyə-cəmiyyəti hərbzadələrinə yardım şöbəsinin Fəaliyyəti
1	Firudin bəy Köçərli	İnsan və heyvan
1	Əbdürrəhim Haqverdiyev	Süleyman Əfəndi
1	Asiya Nərimanova	Bənövşə çiçəyi
1	Oruc Orucov	Bizdə ticarət və sənaət
1	Xəlil İbrahim	Müharibə ve Qadınılar
1	Hacı İbrahim Qasımov	İctimaiyyət cəmiyyətlərimiz
2	Rəşid Yusifzadə	Ruhanilərimiz

Jurnalda nəşr edilən məqalələr. Jurnalda, 20 yazar, ziyalı tərəfindən 20 məqalə yayımlanmışdır. "Qardaş köməyi" jurnalında, Azərbaycan xaricindən bəzi müsəlman-türk yazıçılarının da yazıları var.

Ömər Faiq Nemanzadə isə "Mən Kiməm?" adlı məqaləsi ilə jurnalda iştirak edirdi. Türklüyün keçmişini və üstünlüklərini təriflədiyi, bütün türklərin din, məzhəb nəzərə almadan birlik içində olmasının lazımlığını izah etdiyi məqaləsində Ömər Faiq, insanların soy və millətlərini tanımaqlarının, keçmişlərini bilmələrinin lazım gəldiyi haqqında bunları yazmışdır: "Zəmanəmizdə yəni din və ubudiyətdən artıq irq və milliliyin hökm sürdüyü belə bir çağda, insan öz soy və millətini tanımamağı, daha doğru kökünü bilmərnəsi ən böyük günahlardan, silinməz ləkələrdən biridir...Lakin bu ləkə tezliklə gedən ləkəyə də bənzəmir. Bu ləkə yaman ləkədir. Bu ləkə surətində elə bir yılancık (qanqren) yarasıdır ki, millətimizin bədənini, Türklük varlığını yavaş yavaş gəmirir, yox edir...Bu gün həm də kiçik millətlərin xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası bu qədər qan tökülən bir vaxtda, bizim kükümüzü tanırnamazlıq bəlası-dərindən düşünülərsə-qara yaradan da taun çibanından da daha ağrılı və daha zəhərlidir(5,s..6-7).

Fatih Kərim isə döyüşün və gətirdiyi fəlakətlər haqqında düşüncələrini bu şəkildə dilə gətirmişdir: "Bu gün bütün Avropa qaçqınlarla doludur. Bütün Avropa fəlakət ocağına dönüb. Hərb meydanlarına yaxın olan yerlər bir yana, daxili Rusiya, Türküstan və Sibirin hər tərəfində hər şəhər və kəndlərində hər millətə mənsub qaçqınlar var. Bunların arasında xəstə qocalar, yetim uşaqlar, gözləri yaşlı analarda çoxdur. Bunları gördükdə heç bir din və millət fərqinə baxmayaraq, kim olursa olsun insanın gözündən yaş gəlir. Mərhəmətli qəlblər bunların üzündən gözlərini ala bilmədən saatlarla baxır. Bütün varını yoxunu onlarla ortaqlaşdırmaq istəyir. Onların başlarına gələn, dəhşətlər, fəlakətlər öz başına gəlib kimi baxıldıqda bütün vücud lərzəyə gəlir"(6,s.11-12).

Məhəmməd Əmin Rəsulzadə "Bizim Nöqtə-i Nəzərdən Rusiya 'da Respublikaya İnam" məqaləsində, Rus və Türk tarixi haqqında məlumat verdikdən sonra, Rusiya İmperatorluğu içərisində olan türk və müsəlman əhalinin böyük bir yekun təşkil etdiyi, Rusiyada meydana gələn qiyamın bu əhali üzərindəki təsiri və bundan sonra qurulacaq idarə şəklinin Respublika idarəsi olması lazım olduğunu ifadə etmişdi*(7,s.17-19)*.

Məmməd Yusif Cəfərov "Müsəlman Hərbzadələrinə Kömək İşi və müsəlman Vəkilləri" başlıqlı yazısında Anadolu hərbzadələrinin düşmüş olduqları fəlakətli günlərə toxunaraq, bunlara kömək üçün Rusiya Dövlət Dumasında olan müsəlman vəkilləri işləri haqqında məlumat vermişdi. Cəfərov müsəlmanların diqqətlərini bu ac və çılpaq müsəlman hərbzadələrinə çəkməyi özlərinə bir vəzifə olaraq qəbul etdiklərini ifadə edərək, bütün Rusiya və xüsusilə də Qafqaz müsəlmanlarını maddi və mənəvi köməyə çağıraraq, onların səsini eşitdirməyə çalışan "Qardaş köməyi" jurnalı haqqında da düşüncələrini dilə gətirmişdi (8, s.43).

Xosrov Paşa bəy Sultanov "Bakı Müsəlman Cəmiyyət-i Xeyriyyəsi Hərbzadələrə Kömək şöbəsinin fəaliyyəti" başlıqlı yazısında cəmiyyətin Anadolu hərbzadələrinə etmiş olduqları yardımları və bölgələrdəki fəaliyyətləri haqqında ətraflı bir şəkildə məlumat vermiş və Cəmiyyət-i Xeyriyyeənin etdiyi bu yardımların əhəmiyyətini yekunlaşdırmışdır (9,s.49).

Xəlil İbrahim isə "Müharibə və Qadınlar" adlı məqaləsi ilə, döyüş zamanlarında, qadınların ictimai həyatda əhəmiyyətli mövqe qazandığı, kişilərin etmiş olduğu işlərin böyük hissəsini qadınların boynuna götürdüyünü və bu səbəblə də özlərini daha da inkişaf etdirdiklərini, lakin I Dünya Döyüşü əsnasında, Qafqaz Cəbhəsindəki müsəlman qadınların özlərinə

mövqe qazanmaqla yanaşı, min cür fəlakət və bəlaya düşdüklərini belə ifadə etmişdi: "Bu barədə də hamıdan artıq bəlaya düçar olan həmin Qafqaz cəbhəsindəki müsəlman qadınları oldu. Bunların qəhrəmanları iddiaya getmədilərsə də, əri iddiaya gedənləri çox müsibətə düşdülər. Çünki kəsləri ailə başçıları iddiaya gedənlərə az da olsa himayə edən tapılır. Amma bu yazıq qadınların ərləri, oğulları , qardaşları,qismən qırılaraq, qismən günahsız olduqları halda "xəyanətlərə ittiham" olunaraq yurdlarından sürüldillər, məhkum edildilər, həbsxanalara doldurul-dular, gülləyə düzüldilər, qismən də bir "xain" kimi edam edildilər.Belə xain adlandırılanların ailələrinə isə himayə olmazdı. Bunları himayə əvəzinə təqib etdilər. Nəticədə bütün ailələr ayaqlar altında əzilərək səssiz, sorğusuz, tələf olub getdilər.Xülasə bu müharibədə bir bəla qalmadı ki, bizim qadınlarımız ona düçar olmasınlar. Ölmək, bir dəfə ölüb qurtarmaq yaxşı şeydir. Amma diri ikən bəşəriyyət aləmində quru muqəvva təşkil etmək, həm də min cür səfalət, aclıq, çılpaqlıqla birlikdə, digər tərəfdən də ayaqlar altına düşmək , ismət və namusdan məhrum olmaq ... çəkilməz dərdlərdir. Budur müharibənin bizim qadınlarımıza verdiyi nəticə, minlərlə qadınlarımız səfil, sərgərdan ortalıqda qaldı.Əlbəttə başqa millətlərə mənsub qadınlar da müharibədən azad olmamış qalmadılar. Lakin onların bir qismi fəlakətə uğradısa da, qalanları böyük mənfəətlərə nail oldular. Amma bizim qadınlarımız bir şey qazanmadıqları halda qismətləinə bəla və müsibət düşdü " (10, s.66-78).

Jurnalda nəşr edilən şeirlər. Jurnalda biri sahibsiz olmak üzrə toplam 16 şeir vardır.

1	Hüseyn Cavid	Hərb və fəlakət
2	Hüseyn Cavid	Yazıq
3	Aşqabad, Marafzadə Sabit	Bir lövhə qarşısında
4	Ə.Nəzmi	Arş iləri
5	Hüseynzadə Ə.Sabur	Gəl etmə Fəratkeş
6	Yusifzadə Ali Rai	Qonaqlara
7	Abbas Səhhət	Taxliya yaxud Qaçqın
8	Hacı Səlim Kasımzadə	Hacı Ağlıyor bəndə ağlıyorum
9	Salman Məhəmməd Emin oğlu Turhan	Cılxa tükçə dürülmüş düzmə
10	Balaxanı Ali Mirsan	20-ci əsrin qanlı yadigarı
11	Mehmet Səid Ordubadi	Hür Hüriyyətə
12	Ali Sevki	İllərimiz
13	Gərip	
14	Bədrettin Əl-Hüseyni	Fələk zədələri yad ediniz
15	Nemat Basir	Dəvet
16	Cəfər Cabbarzadə	

Hüseyn Cavid isə "Hərb və fəlakət" adlı şeirində Anadolu harpzedelerinin düşdükləri kədərli vəziyyəti təsvir edərək belə deyir:

"İşdə bir lövhə! Görmək istəsən,
Bax da gör! Ah bir baxıb görsən?!
O şahamətli Türkün övladı,
İndi torpaq yeyir da, fəryadı,
Yüksələr ərşə, həmişə yanar sızlar,
İşdə bax! Balalar, xanım qızlar,
Titrəyir pəncə-i fəlakətdə
Həmişə ölüm qarşısında zilləttə ...
Hamısı avara, hamısı ac-çılpaq,
Hamısı biçarə bax! Gözündən iraq?
Hamısı qan ağlayır da pərdə-ü zəbfuı
Hamısı mahsun, hamısı şikəstə-pər, dilhun ..
Hamısı Qardaşça bir nigar anyor,
Bir kömək, bir pənahgah arıyor,
Dinləyən kim, lakin o fəryadı?
Ovudan kim, ürək-i naşadı?
Nə fəlakət bu, həm necə müdhiş
Ah, ölüm ən böyük səadət imiş!. ..
Yoldaş, yoldaş! Ey vətəndaş uyğun gələn!
Yatma artıq yetər ... Dəyişdi zaman ... "(11, s.4-5).

Əhməd Cavad da "Təəssüf" adlı şeirini Anadolu hərbzədələri üçün yazmışdı:

Dəniz dərdə düşər, dalğalar ağlar,
Dağlara dərd gəlsə, dumana təəssüf!
Sənsiz öz elində qəribə kəsilib,
Dumalardan xəbər umana təəssüf!
Bir quş oxucu bizə səhər azanı,
Çağırmakda yola, yoldan azan,
Ərənlər söyləyən-Allah yazanı,
Duymadan yox olan imana təəssüf.
Zəmzəmə dərdini dinləyən Qardaş;
Ölkəni bir könül etməyə məşğul ol!
Açılınca yollar Kəbəyə bir baş,
Bir könül etməyən vicdana yazıq!
Gün batanda sarı bulud sarısı,
Söyləyər, sizə düşər dərdin yarısı,
Ey ilin xanımı, qızı, arvadı!
Əl açmış bacılar düşmənə təəssüf! "(12,s.13).

A. Nəzmi "Ərş Irəli!" adlı şeirində Anadoluda türklərin daha əvvəl yaşadıqları gözəl həyatı təsvir etdikdən sonra, döyüş səbəbindən düşmüş olduqları fəlakətləri, çətinlikləri izah edərək vaxt keçirmədən bunlara kömək edilməsi üçün müraciət etmişdi. Şair şeirində Anadolulu hərbzadələrinin vəziyyətini bu sözlərlə dilə gətirməkdədir:

Bu vək'adan il təhvil verdi, aylar geçdi
Hər məzluma ölümünə bir gün seçdi

Yuvaları uçurulmuş bu canların
Balasından ayrı düşmüş ceyranların
İki payı, bu vaxta qədər ölüb itələmiş
Zəhmət farig olub, işi bitmiş.
Lakin yenə aç çılpaqlar həddən əfzun
Bizimlə tərəf baxışırlar qəmli qəmli
Arvad, uşaq, xəstə, hamı ac yalavac
Bir kömək yox, ancaq ölüm ölüm dərman
Bu qadınlar, bu uşaqlar, bu xəstələr
Bu kimsəsiz şikəstədil pərbəstələr
Dərdləri çox, dərmanı yox, həm ürəyi qan
Axır bunlar həmişə müsəlman, əhli-i Quran!
İl bunlara bi-kaydanə baxışır mı?
Bu Türklüyə, İslamlığa yaraşarmı?
Dözüləməz bu gamlara, ağrılara
Acıyalım bu bəxtsiz bacılara
Ey Türk oğlu! Ey müsəlman kəsləri!
Miskinlərə kömək üçün Ərş İrəli! "(13,s16).

Yuxarıda göstərilən yazar və şairlərdən başqa, jurnalın çıxmasında yazıları və şeirləri iştirak edənlərin adları belədir: Hüseyn Mirzə Cəmalov, Manafzadə Sabit, Hüseynzadə A. Sabur, Əhməd Cövdət, A. Sahid, Məmməd Ayaz, Əl-İshaki, Hacı Səlim, Qasımzadə. Salman Məmməd Əmin Oğlu Turhan, Şefika Əfəndizadə, Məmməd Səid Ordubadi, F. Göçərli, A. Haqverdiyev, Asiya Nərimanov, Oruc Orucov, Hacı İbrahim Qasımov, Bədrəddin Əl Hüseyni, Hüseyn Cavid, A. Nəzmi, Yusufzade Əli, Əli Misa, Tağı Şahbazi, Nemət Bəsri, Əli Şövqü, Seyid Hüseyn, Cavad.

Drama. Bundan başqa, **Talıbzade Abdullah Şaik**'in **"əşxas"** adlı bir pərdəlik draması da jurnalda yer alır(14, s.3-8).

Qeyd edək ki,dünyada iki dövlət arasındakı qardaşlığı bu sözlərdən daha gözəl izah edəcək hər halda söz yoxdur. Təbii ki gəlinən bu nöqtə ortaq tarix, ortaq mədəniyyət, ortaq dil və ortaq dindən bəslənir. Bu qardaşlıq 1915-ci ildə Balkan müharibəsində, Çanaqqala müharibələrində, 1917-ci ildə bu məqalənin mövzusu olan "Qardaş Köməyi"ndə və 1918-ci ilin Qafqaz İslam hərəkatında özünü sübut etmişdir. Türkiyə - Azərbaycan münasibətlərini zamandan, məkandan çıxaran müstəqil ilşkilərdir. Bu səbəbdən bizlərə əmanət edilən bu irsi ən yaxşı şəkildə mühafizə etmək və gələcək nəsillərə çatdırmaq əsas vəzifəmiz olmalıdır.

Ədəbiyyat:

1."Qardaş Köməyi", Bakı,1917- ci il,s.1.
2. "Qardaş Köməyi", Bakı, 1917- ci il,s.80.
3. "Qardaş Köməyi", Bakı, 1917- ci il,s.1.
4. "Qardaş Köməyi", Bakı, 1917- ci il,s.1-2.
5.F.Nemanzadə."Mən kiməm?", "Qardaş Köməyi", Bakı, 1917- ci il,s.6-7.
6.Fatih Kərim."Millət sağ olsun". "Qardaş Köməyi", Bakı, 1917- ci il,s.11-12.
7. Rəsulzadə M.Ə."Bizim nöqteyi-nəzdən Cümhuriyyəti-ənam", "Qardaş Köməyi",

Bakı, 1917- ci il,s.17-19.
8.Cəfərov M.Y.”Müsülman Hərbzadələrə Yardım işi və müsülman vəkilləri”, ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.43.
9.Sultanov X.”Bakı Müslüman Cəmiyyəti -Xeyriyyəsi hərbzadələrə yardım şöbəsinin fəaliyyəti”.
”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.49.
10.İbrahim X.”Müharibə və qadınlar”. ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.66-68.
11.H.Cavid .”Hərb və fəlakət”. ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.4-5.
12.Ə.Cavad . “Təəssüf”. ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.13.
13.Ə.Nəzmi. “ Arş irəli”. ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.16.
14. ”Qardaş Köməyi”, Bakı, 1917- ci il,s.3-8.

Юуджел Карауз

Журнал «Гардаш комейи» («Помощь Брата»)

Резюме

В этой статье повествуется о деятельности журнала « Кардаш комейи» («Помощь Брата») в период Первой Мировой Войны.В 1917 году в журнале были опубликованы очень интересные и ценные материалы.Отметим,что впервые глубоко анализируется материалы того журнала в этой статье.

Yucel Karauz

“Brother Help” magazine

Summary

This article was devoted to activity of “ Brother Help “ magazine. It is known that , this magazine was published in 1917 in Baku. So many articles which were about helping people who suffered from First World War were published in this magazine.

Rəyçi: Nəsiman Yaqublu
tarix elmləri namizədi, dosent

MÜNDƏRİCAT

DİLÇİLİK

Fatimə Vəliyeva. İngilis və Azərbaycan dillərində ornitonim komponentli frazeoloji vahidlərin antroposentrik əsaslı leksik – semantik təsnifatlandirmasi 3
Sevinc Sadıqova. Qərbi Azərbaycan ərazisindəki oronimlərin sintaktik xüsusiyyətləri 8
Fatma Əmirova. Zərf (das adverb) 15
Vəliyev Məhəmməd. Dillərin tipoloji bölgüsü və analitizm 23
Ирада Алиева Систематизация письменных речевых упражнений на начальном этапе обучения русскому языку студентов-иностранцев 29
Наджаф Набиев
Наргиз Мурадова. Смысловой анализ исходного текста как Средство достижения эквивалентности переводного текста 34
Gülər Həsənova. Tədris prosesində kommunikasiyanin təşkili və rolu 39
Vəfa Hacıyeva. Cerund 45
Elmira Süleymanova. Alınma söz problemi 52
Mətanət Allahverdiyeva. Beynəlmiləl sözlər və onlarin ümumişlək sözlərlə oxşar və fərqli cəhəti 58
Эльмира Ашурбейли. Роль перевода в когнитивной лингвистике 64
Ramilə Nəsirova. Apofonasiya 69
Rəhimə Məmmədova. Suffikslərin sxemi və modeli 75
Уткир Ражабов. Сочинение Мухаммада Ризо Агахи «Шохиду-л - икбол» как важный источник при исследовании топонимов 80
Nazakat Mammadova. The role and place of translation in teaching a foreign language 86
Sevda Charkazova. The use of abbreviations in the English language 90
İradə Abdullayeva. Türk dilçiliyində mürəkkəb cümlə məsələsi 95
Firəngiz Qurbanova. Mətnin formalaşmasında ədatların rol 102
Turanə Qurbanova. İnformativlik mətnin kateqoriyası kimi 107
Светлана Гурбанова. Прямые и переносные значения Некоторых чешских и Азербайджанских обрядовых лексических единиц конфессиональной сферы 113
Aynurə Bağırova. İsa Hüseynovun əsərlərində ləqəblər 121

Mətanət Mehdiyeva. Şəxs adları və erqonimlərin adlandırılması ilə bağlı qarşıya çıxan bəzi problemlər 129
Vüsalə Həsənova. İngilis və Azərbaycan dilində xüsusi adların təhlili 134
Sanurə Səmədova. Nitqin mədəniyyətlə qarşılıqlı əlaqəsi 139
Nərgiz İsmayılova. Şekspirin sonetlərində bədii ifadə vasitələri 145
Suqra Rəhmanova. S.Xətai dilinin fonetik-qrammatik xüsusiyyətləri 150
Məlahət Məhərrəmova. Alman dilinin söz yaradıcılığında *-chen* və *- lein* şəkilçilərinin rolu 162
Nigar Məmmədova. İngilis dilində alınma sözlərin mənbələri 169
Фирангиз Махмудова. Фрейм как особый структурно-Содержательный тип концепта 176
Humay Əhmədova. İngilis və Azərbaycan dillərində ixtisas adlarının tədqiqi və mənşəyinə görə növləri 183
Lalə Sultanova. Oğuz qrupu türk dillərində ismin hal kateqoriyası ... 188
Mahirə Hüseynova. Həsən Mirzəyevin tədqiqatında feili sifət 196
Aftab Hacızadə. Müasir Azərbaycan və ingilis dillərində əvəzliklərin aktuallaşaraq mətnyaratma imkanları 206
Akifə Sadıqova. Mürəkkəb və çoxmənalı sözlər, fərqi, müqayisəli təhlili və əhəmiyyəti 212
Тамилла Мамедова. Внедрение латиницы в русское кириллическое письмо (на материале русской прессы Азербайджана) 217
Sevinc Bagırova. Müasir ingilis dilində ön şəkilçiləri vasitəsi ilə düzələn fellər 222
Kamalə Mehdixanlı. Azərbaycan dilində ikidilli və çoxdilli terminoloji tərcümə lüğətləri və onlarin tərtibi üsulları 227
Gulnara Aliyeva. Sentence combining in English and Azerbaijanian languages 232
Eldar Ağayev. Müasir Azərbaycan ədəbi dilində norma pozuntuları və slenqlər 238

ƏDƏBİYYATŞÜNASLIQ

Xuraman Hümmətova. Sufi inanclarının xalq təfəkküründə yeri..... 243
Yaşar Qasımbəyli. Lirikada Cavid obrazı (altmışıncıların yaradıcılığı əsasında) 250
Könül Məmmədova. Bəxtiyar Vahabzadənin "Atılmışlar" poemasında ana obrazı 254

Şəbnəm Nəcəfli. Kurikulum üzrə ədəbiyyat dərslərində interaktiv metodlardan istifadə imkanları 259
Könül Eyyubova. XX əsrin 80-ci illəri Azərbaycan romanında konsentrik süjet 263
Ülfət Şahbazova. Xocalı faciəsi poemalarda 268
Mahirə Quliyeva. Nizaminin "Sirlər xəzinəsi" və Quran üslubu 273
Aygül Ağayarlı. Nəsimi poeziyasında aşiqlik mənəvi-əxlaqi kamillik kimi 282
Рена Керимова. Лингвострановедение в теории и практике преподавания РКИ 287
Arzu Qafarova. " Dədə-Qorqud " motivləri Azərbaycan romanında 292
Арзу Ахмедова. Исторические тенденции развития Азербайджанского телевидения и радио 297
Zivər Hüseynli. Səfəvilər dönəminə aid tarixi qaynaqlar (I Şah Abbas dönəmindən sonunadək) 303
Sofiya Mirzəyeva. Anar yaradıcılığında fəlsəfi fikirlər 312
Ağayev İsmayıl. "Tənha iydə ağacı" pyesində hakim ideologiyanın iflasi və insan mənəviyyatında qoyduğu izlər 317
Aygün Əliyeva. Şərti-metamorfozların "İzdiham" romanında bədii həlli 324
Aytən Quliyeva. Anarın hekayələrinin mövzu, ideya xüsusiyyətləri ... 329
Maya Yusifova. Folklorizmlər Məmməd Araz yaradıcılığında üslub kimi 334
Ləman Pənahova. İngilis postmodernizminin xüsusiyyətləri kontekstində K. İsiquronun bədii üslubu 339
Gülnar Quliyeva. Xarakterə psixoloji yanaşma ("Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsəri əsasında) 344
Cəmilə Nəsibova. Oskar Uayildin XIX əsr İngiltərə ədəbiyyatında nümayəndəsi olduğu ədəbi cərəyanın nəzəriyyəsi ilə yaradıcılığı arasındakı ziddiyyət 350
Aygül Mehraliyeva. Şarlotte Brontenin "Ceyn Eyer" əsərində məcazi mənalı sözlərin təhlili 355
Təranə Quliyeva. Tərcümədə bədii ifadə vasitələrinin və fərdi müəllif üslubunun qorunması 360
Aygün Salmanova. Cek Londonun əsərlərində istifadə olunan mübaliğələrin səciyyəvi xüsusiyyətləri 366
Təranə Rəhimli. 1960-70-ci illər Azərbaycan nəsri Kamal Talibzadə tənqidində 371
Gülnarə Abdullayeva. Yəhudi ədəbiyyatinin orta əsr İspan dövründə ümumi vəziyyəti 376
Sevinc Rəhimova. Tənqidin metodoloji problemləri 381

Şəhla Xəlilli. Əlaəddin Sabit Bosnəvi "Külliyati"nin müqayisəli-tekstoloji tədqiqi 389
Muradova Pərixanım. Qarabağlı Aşiq Pəri (1811-1847) 401
Leyli Əliyeva. Füzuli irsinin ingilis ədəbiyyatşünaslığında tədqiqi yeni elmi-nəzəri kontekstdə 407
Al-Abbasi Noval. Azərbaycan-Avstriya ədəbi və mədəni əlaqələrinin tarixi haqqında 418
Sevinc Qurbanova. "Danabaş kəndinin əhvalatları" povestində qadın hüquqsuzluğu 425
Xanım Zairova. Adam Olearius Azərbaycan və Azərbaycan ədəbiyyatı haqqında 429
Yücəl Karauz. "Qardaş köməyi" məcmuəsi 435

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 4

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **2.04.2013.**
Çapa imzalanmış **22.05.2013.**
Şərti çap vərəqi 28/ Sifariş **№ 175.**
Kağız formatı **70x100 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.